Mənzərə Sadıqova

# YAŞAM

"Elm və təhsil"
Bakı 2011

**Redaktor:** **Nizami CƏFƏROV**
*Azərbaycan MEA-nın müxbir üzvü,*
*filologiya elmləri doktoru, professor*

**Mənzərə SADIQOVA** *filologiya üzrə fəlsəfə doktoru*.
**YaşaM. Bakı, "Elm və təhsil", 2011. - 428 səh.**

Kitabda müəllifin bədii-fəlsəfi düşüncələri, lirik yaradıcılığı, elmi-publisistik məqalələri toplanmışdır. Kitab geniş oxucu kütləsi, tədqiqatçılar, jurnalistika fakültəsinin tələbələri üçün nəzərdə tutulmuşdur.

$S\frac{4702000000}{N-098-2011}$

**© M.Sadıqova, 2011**
**© "Elm və təhsil" 2011**

# MÜNDƏRİCAT

Kövrək sətirlər .................................................................. 9
Müəllifdən ....................................................................... 14

## I Fəsil. DÜŞÜNCƏLƏR
## I Bölmə. DÖVRÜN GERÇƏKLİKLƏRİ

Alqı-satqı ........................................................................ 19
İnformasiya və insan ........................................................ 22
Əlahəzrət İnformasiyanın möhürü ...................................... 24
Tərəqqi və psixologiya ..................................................... 26
Azadlıqmı, hegemonluqmu? ................................................. 28
Bugünümüzdən boylanan sabah .......................................... 30
Qələmin ağır məsuliyyəti .................................................. 32
Tərs mütənasiblik ............................................................. 33
"Vətənpərvər" mühacir ...................................................... 34
Qürbət ............................................................................ 35
Soyqırım ......................................................................... 37
İşğal .............................................................................. 39
Daxili monoloq ................................................................. 41

## II Bölmə. QƏNAƏTLƏRİM

Sənətmi, sənətkar şəxsiyyətimi? ........................................ 44
Mühitin möhürü ................................................................ 45
Münasibət ....................................................................... 46
Xoşbəxtlik və bədbəxtlik .................................................... 47
Yaşamağa məhkumluq ....................................................... 48
Mən və özüm ................................................................... 49

Zaman ........ 50
Fevralın 28-i ........ 51
Zamanın səxavəti ........ 52
Nəsihət ........ 53
Ömür ........ 54
Ölüm ........ 55
Yol ........ 57
Güc ........ 58
İtki ........ 58
Güzgü ........ 58
Reallıq və təsəvvür ........ 59
Özünümüdafiə instinkti ........ 59
Rəfiqə amili ........ 60

## II Fəsil. MƏNSUR ŞEİRLƏR. MİNİATÜRLƏR

Yurd ağrısı ........ 64
Həsrət ........ 65
Gedər çayı ........ 66
Yurdum mənim ........ 67
Ömür yolu ........ 68
Təəssürat ........ 69
Anasız illər ........ 71
Sənə dönmək istəyirəm ........ 72
Ovqat ........ 74
Dəniz-Ada ........ 75
Qayıq harada xoşbəxtdir? ........ 77
Yuxu ........ 79
Tənha qadın ........ 80
Yaşın fərqi ........ 82
Üçbucağın süqutu ........ 84

Ana bətnində mübarizə ........ 85
Qadın ........ 86
Ata həsrəti ........ 91
İstedad ........ 92
Start ........ 94
Tənhalıq ........ 96
Xiffətin sentyabr rəngi ........ 97
Əlvida ........ 98
Dua ........ 99
Jurnalist ........ 100
Həyat hikməti ........ 101
Xəstəlik və həyat ........ 102
Üz-üzə ........ 103
Qardaş itkisi ........ 104
İlğım ........ 105
Seçim ........ 106
Yaşarı olmayan cazibə ........ 107
Dostuma ........ 108
Ağrı ........ 109
8 Mart ovqatı ........ 110
Zarafat, yoxsa 7-ci hiss ........ 112
Etiraf ........ 114
Ayrılıq ........ 116
Fəryad ........ 118

**III Fəsil. PUBLİSİSTİKA**
**I Bölmə. 90-cı İLLƏRİN PROBLEMLƏRİ**

Haqq yerini tapacaqmı? ........ 123
Susmağın bəlası ........ 131
Yurd ağrısı ........ 137

Çaykəndin qayğıları ........................................................ 144
Nədən başlayaq ........................................................ 150
Azsaylı xalqlara qayğı ........................................................ 156
Əlifbamız, taleyimiz ........................................................ 168
Müstəqillik elan edilib, amma... ........................................................ 174
Dünyaya insan gəlir ........................................................ 177
Uşaqlarımız harada oynasınlar? ........................................................ 184
Möcüzələr reallaşır ........................................................ 189
Köhnə hamam, köhnə tas ........................................................ 194

## II Bölmə. SƏNƏT... SƏNƏTKARLAR

Milli incəsənətimizin tədrisi. Rəssamlıq ........................................ 198
Milli incəsənətimizin tədrisi. Memarlıq ........................................ 202
"Mozalan"a səyahət ........................................................ 208
Lentlərdə yaşayan tarix ........................................................ 214
Səhnəmizin Ərəbzəngisi ........................................................ 219
Sənət yanğısı ........................................................ 225
Avstriyaya atılan körpü ........................................................ 230
Vaqifin sənət dünyası ........................................................ 233
İllariyənin dünyası ........................................................ 237

## IV Fəsil. ƏDƏBİ QEYDLƏR

"Min il sonra sorsan şair hardadır" ........................................ 242
Cəfər Cabbarlı – 90 ........................................................ 249
Ata ocağı ........................................................ 251
"Ömür bir xalıdır, naxışı əlvan" ........................................ 257
Aşıq, bağrına bas sədəfli sazı ........................................ 267

## V Fəsil. YURDDAŞLARIMIZ

Qürbət cənnət olsa da... .................................................... 276
Azərbaycana bağlı ürəklər .................................................. 281
Kronştadtda bir gün ........................................................ 307
Hər diplomlu ziyalı deyil .................................................... 314
41-in yeniyetmələri ........................................................... 318
Dörd bacı ......................................................................... 322
Leninqrada bağlı ürək ....................................................... 326
İllərdə qalan izlər ............................................................. 329
Xeyirxahlığa tələsən insanlar ............................................. 332
Ordenli mexanizator .......................................................... 335
Torpağa bağlı ................................................................... 338
Günəş zirvələrə gülümsəyir ............................................... 341
Nəcib peşə ....................................................................... 345
Şagirdlərin sevimlisi ......................................................... 346
Müəllim-mühazirəçi .......................................................... 349
Sabahın sorağında ............................................................ 351
Al bayraq dalğalanır .......................................................... 353
Günün tələbləri səviyyəsinə ............................................... 356
Tələbəlik illəri ................................................................... 360

BİBLİOQRAFİYA ................................................................ 364

FOTOALBOM .................................................................... 383

## VI Fəsil. MƏNİ BELƏ TANIYIRLAR

Bəxtiyar Səttaroğlu. "Bu, insanın özünü özündən alan sənətdir" ........................................... 402
Mirzə Yusifoğlu. Qız qardaşım ............................................ 410
Zöhrə Əsgərova. Qız qardaşımız ......................................... 413

Almaz Ülvi. Sən özün şeirsən... ........................................... 417
Sənubər. "Qız qardaşım"ın sözü hələ çoxdur .......................... 420
Zeynal Əlioğlu. "Qaçqınlıq alt-üst etdi hər şeyi..." .................. 422
Uğur olsun, "Qız qardaşım"! ............................................... 425

Görüşənədək!.. .................................................................. 427

# KÖVRƏK SƏTİRLƏR

“YaşaM” adlı bu kitabda Mənzərə Sadıqovanın həm elmi, həm publisistik, həm də bədii yaradıcılığından seçmələr təqdim edilmişdir. Janr etibarilə fərqlənsələr də, bütün yazılarda dilin axıcılığı, üslubun səlisliyi və elmi-bədii təfəkkürün aydınlığı diqqəti cəlb edir. Yazılar son 30 ilə güzgü tutur, müəllif yaşadığımız dövrün özəlliklərini, cəmiyyət-də baş verən prosesləri ziyalı nöqteyi-nəzərindən təhlil edir. Fikrin həm obrazlı, həm də birbaşa ifadə tərzi istedadlı qələm sahibi olan M.Sadıqovanın yaradıcılığının səciyyəvi cəhətləri kimi ortaya çıxır.

Kitabın “Düşüncələr” fəslində yazarın çox maraqlı qənaətləri, dünyanın gərdişinə və dövrümüzün gerçəkliklərinə fəlsəfi yanaşma tərzi ilə tanış oluruq. Bu yazılarda fikrin lakonik ifadəsi, düşüncələrin fəlsəfi axarı oxucunu alıb aparır, onu “həqiqət dünyasına” qovuşdurur. Müəllifin zaman, mühit, münasibət, xoşbəxtlik və bədbəxtlik, ölüm haqqında düşüncələri səni də düşündürüb-daşındırır: “*Zamanın qatarı şütüyüb gedir. Səni hansı dayanacaqda salacağı bəlli deyil. ...Yol al-dığın ünvana doğru hansı dayanacaqda düşüb gəzməyi, görməyi, zövqlü dəqiqələr yaşamağı bacardınsa, bu sənin öz hünərin, öz qazan-cındır.*”(“**Zaman**”) “*Uşaqlığında gəlincik həsrətində qalmış birisinə qo-calığında bu oyuncağı versən nə faydası?..*” (“**Zamanın səxavəti**”) “*İnsanın üzünə deyilənlər üstqurumdur, münasibət bazis.*”(“**Münasi-bət**”) Və ya “*Ölüm son deyil, başlanğıcdır... Hər bir fərdi törətdiyi əməllərlə cəmiyyət qarşısında hesabata dayandıran qüdrətdir. Ölüm dirilərin ürəklərində və beyinlərində qurulan məhkəmədə mərhumun hökm gözlədiyi prosesdir. Ölüm aramızdan köçən adamın sağlığın-*

*da törətdiyi əməlləri elin gözündəki tərəzidə çəkdirən gücdür. Yaxşını-pisi dəyərləndirmə vasitəsidir. Ölüm həqiqətin aşkarlanmasına təkan verən lakmus kağızıdır."*("**Ölüm**") Bu sətirlərdə ifadə olunan fikirləri götür-qoy edirsən və həmin fikirlər tədricən sənin öz qənaətlərinə çevrilməyə başlayır.

"Alqı-satqı" adlı əsərdə irəli sürülən qənaət müasir dünyamızın *acı və acınacaqlı həqiqətlərini əks etdirir: "Bütün səviyyələrdə maddiyyata aludəçiliyin güclənməsi cəmiyyəti məhvərindən çıxarmağa qadir olan qorxulu tendensiyadır."*

İnformasiya cəmiyyətinə inteqrasiya dövründə insanı-vətəndaşı informasiyanın fəsadlarından qorumaq zərurəti, xüsusilə uşaq təfəkkürünün virtual informasiya məkanında manipulyasiya olunmaq təhlükəsi müəllifi düşündürür: "*Vətəndaşın informasiyaya münasibəti cəmiyyətdəki bir çox prosesləri şərtləndirir. Həmin proseslər əmin-amanlığa da yönələ bilir, qarşıdurmaya da.*" ("**İnformasiya və insan**") Müasir dövrün ən güclü silahlarından olan informasiyanın ictimai şüura öz möhürünü vurduğu və ictimai rəydə təsirinin uzun müddət qaldığı barədə M.Sadıqovanın qənaətləri ilə razılaşmamaq olmur. ("**Əlahəzrət İnformasiyanın möhürü**")

Ölkəmizdə müstəqillik qazanıldıqdan sonra keçid dövrünün çətinliklərinə dözməyən, Vətəni tərk edib rahatlıq axtarışında yad ellərə üz tutan bəzi üzdəniraqların riyakarlığı - şəxsi mənafe naminə Vətənə böhtan yağdırmağı, getdiyi yerdə özünü "qurban" kimi qələmə vermək cəhdi, müvəqqəti çətinlikdən qaçmağına başqa don geyindirməyi müəllifin diqqətindən yayınmır: "*...Özünü siyasi baxışlarına görə təqib olunmuş kimi qələmə verirdi yad ölkədə. Əslində qürbətə üz tutmaqdan məqsədi şəxsi problemlərini həll etmək idi... Ailəsinin iqtisadi durumunu Vətənin imicinə zərbə vurmaq bahasına yaxşılaşdırırdı "vətənpərvər" mühacir.*" ("**Vətənpərvər mühacir**")

Ümumiyyətlə, kitabda qaldırılan problemlər ictimai-siyasi proseslərə

münasibət baxımından müəllifin vətəndaş mövqeyinə güzgü tutur. Xüsusilə, "Düşüncələr" fəslindəki yazılarda irili-xırdalı həyat hadisələrini təhlil süzgəcindən keçirib oxucuya çatdıran Mənzərə xanımın fəlsəfi-publisistik düşüncələri onun dünya hikmət xəzinəsinə yetərincə bələd olduğunu göstərir. Kitabda nəticə olaraq bu gün qarşılaşdığımız müəyyən hadisələrin səbəbi geniş miqyasda, dünya və insan müstəvisində araşdırılır, həmçinin bugünkü həyatımızda adi məsələ kimi yanaşdığımız bir sıra proseslərin gələcəkdə hansı nəticələr doğura biləcəyi barədə mülahizələr yürüdülür. XX əsrin sonlarından etibarən kino sənətinin inkişaf istiqamətləri, döyüş və dəhşət filmlərinin, ailə-məişət seriallarının insan psixikasına təsiri, şəxsiyyətlə cəmiyyətin qarşılıqlı əlaqəsi, zəmanənin sürətinə uyğunlaşmağa can atan müasirlərimizin mənəvi durumu, dövrümüzdə işsizlik probleminin yaratdığı gərginlik, ümumiyyətlə, insan amili Mənzərə Sadıqovanı ciddi düşündürən məsələlər kimi diqqəti cəlb edir. Həmin məqamlarda müəllifin narahatlığına şərik olmaya bilmirsən.

"YaşaM"ın "Mənsur şeirlər. Miniatürlər" fəslinə müəllifin bədii yaradıcılığından seçmələr daxil edilmişdir. Həcmcə kiçik, mənaca böyük olan bu əsərlər oxucunu duyğular selinə qərq edir, onu dəniz kimi, dərya kimi öz qoynuna alır. Hisslərin hökmran olduğu həmin dəryada oxucu hansı dalğanın onu hansı sahilə çırpacağını bilmədən suyun axarında üzüb gedir, qəvvas kimi dərinliklərə dalır... və hansısa ləpədə, dalğada özünü tapır, doğma notlar üstündə köklənir. Bədii lövhələr müəllif yaşantılarının, müəllifin şahidi olduğu hadisələrin obrazlı ifadəsi olduğundan təsirli və inandırıcıdır.

Taleyindən qaçqınlıq faciəsi keçmiş Mənzərə xanımın vətən yanğısı "Yurd ağrısı", "Həsrət", "Gedər çayı", "Yurdum mənim" və digər mənsur şeirlərdə əksini tapmışdır. Mənzərə Sadıqova sanki rəssam fırçası ilə didərginliyin obrazını yaradır, faciə qurbanlarının yurd həsrətini ürək göynədən detallarla qələmə alır. Çox dərin hisslərlə, ürək yanğısıyla qələmə alınmış mənsur şeirlərdə vətənindən perik salınmış

insanların yaşantıları oxucuya sirayət edir, onu öz təsiri altına alır və qaçqınlığın əslində nə demək olduğunu oxucunun diqqətinə çatdırır: "*Ruhum orda, cismim burda. Nə qədər yaşaya bilər ruhsuz bədən?.. Bilsin bəşər, bilsin aləm. Didərginlər yaşamırlar, onlar ancaq mövcuddurlar Vətəninə dönənəcən. Didərginlərin qəlbində Vətən özü yaşayacaq, yaşadıqca yaşadacaq didərgini...ölənəcən.*" ("**Yurd ağrısı**")

"Publisistika" fəslində oxucu XX yüzilliyin 90-cı illərində qarşılaşdığımız problemlərə həsr olunmuş məqalələrlə, o dövrdə yaşayıb-yaradan bir sıra sənətkarların fəaliyyətindən bəhs edən oçerklərlə, həmçinin elm və sənət adamlarının aktual məsələlər barədə fikirləri ilə tanış olmaq imkanı qazanır. 1990-1992-ci illərdə "Həyat", "Yurddaş", "Açıq söz", "Vətən səsi", "Millət", "Hikmət", "Axtarış" və digər qəzetlərdə, "Azərbaycan qadını" jurnalında dərc olunmuş məqalələrin qələmə alınmasından təxminən 20 il vaxt keçsə də, həmin publisistik yazılarda qaldırılmış əksər problemlər (dövlət müstəqilliyinin qorunması, müstəqillik dövründə dərsliklərin yazılması, müəllif hüquqlarının qorunması və s.) bu gün üçün də aktual olaraq qalmaqdadır.

Kitabın "Ədəbi qeydlər" fəslində yer alan yazılar da maraqla oxunur. Nizami Gəncəviyə və Cəfər Cabbarlıya, xalq şairi Qabilə və ustad Aşıq Kamandara həsr edilən məqalələr elmi mülahizələrlə ədəbi duyğuların vəhdətindən yoğrulmuş yazılar kimi M.Sadıqovanın elmi-araşdırma qabiliyyətini qabarıq nəzərə çarpdırır.

"Yurddaşlarımız" fəslində toplanmış oçerklərdə, bədii-publisistik məqalələrdə və müsahibələrdə Azərbaycandan kənarda məskunlaşmış soydaşlarımızdan bəhs olunur. Sözün böyük mənasında "azərbaycanlı" adını daşıyan hər kəsə sevgi ilə qələmə alınmış həmin yazılarda vətəndən uzaq düşmüş soydaşlarımızın həyatı və fəaliyyəti, eyni zamanda bir fərd, şəxsiyyət olaraq yaşantıları, vətən həsrəti və milli təəssübkeşliyi jurnalist peşəkarlığı ilə təsvir və təqdim edilmişdir.

Kitabın "Məni belə tanıyırlar" adlı fəslində M.Sadıqovaya həsr

olunmuş məqalələr verilmişdir. Respublika mətbuatının tanınmış ziyalıları, Mənzərə xanımı bütün məziyyətləri ilə tanıyan dostları, qələm yoldaşları onun barəsində ürək sözlərini yazmışlar. Bu məqalələri M.Sadıqovanın ictimai xarakteristikası da adlandıra bilərik. Çünki onu tanıyanların qələmə aldığı konkret epizodlarda Mənzərə xanımın cəsarətli, qeyrətli, vətənpərvər, prinsipial şəxsiyyət, eyni zamanda incə və həssas qəlbli insan olduğu vurğulanır, ictimai fikirdəki obrazı yaradılır.

Əminik ki, istedadlı yazar dəyərli əsərlərlə oxucularını hələ çox sevindirəcəkdir. "YaşaM"ın uğurlu kitab olacağına inanırıq!



**Nizami CƏFƏROV,**

**Azərbaycan MEA-nın müxbir üzvü,**
**filologiya elmləri doktoru, professor,**
**Milli Məclisin deputatı,**
**Azərbaycanda Atatürk Mərkəzinin rəhbəri.**

# MÜƏLLİFDƏN

Xoş görüşdük, ƏZİZ OXUCU! "YaşaM"da Sizə təqdim etdiyim yazılar bir növ Mənim həyatımın tərcümanıdır. Yaşadıqlarımın, gəzib-gördüklərimin, müşahidə etdiklərimin inikasıdır. Düşüncələrimin və duyğularımın bəhrəsidir. Jurnalist ömrümün salnaməsidir. Böyüklərim fəxrlə deyərdilər ki, "Mənzərə 4 yaşında qəzet oxuyurdu". Nə zaman yazmağa başladığımı isə dəqiq bilmirəm. Amma uşaqlığıma dair bütün xatirələrimdə qarşımda kitab, əlimdə kağız-qələm var. Gözlərimi yuman kimi O QIZI görürəm.

Kağız-qələmi icad edənə həmişə minnətdar olmuşam. Söz sənətinə ehtiramım sonsuzdur. İnsan kimi özünüifadə imkanlarım məhdud olmasa da, YAZMAĞI hər işdən üstün tutmuşam. YAZILAR da əlimdən tutub Məni diyar-diyar gəzdirib. Ellərə tanıdıb. Ekran vasitəsilə milyon-milyon evin qonağı edib. Radio dalğalarından səsimi sevdirib. Sözümə, fikrimə dəyər verdirib. Həyatımın sənəti olan JURNALİSTİKA ömür yolumu müəyyənləşdirib. Məni MƏN edib. Taleyimdən razıyam. Bir sıra yazılarımda küskünlük notları ilə qarşılaşsanız da bilin ki, təbiətən nikbin adamam. Hər zaman həyatımın yaxşı tərəfləri ilə fərəhlənməyi bacarıram. İstər maddi, istərsə mənəvi gözəlliklərdən zövq alıram. İçimdə ürkək bir qızcığaz yaşasa da, həyatda mübarizəm. Haqqımı tələb edə bilirəm. Qürurluyam. Arzularım-istəklərim uğrunda qürurumun yol verdiyi dərəcədə irəliləyirəm.

Ötkəməm. Sözümü üzə deyənəm. Hərdən məəttəl qalıram ki, qəlbimdə o qədər kövrəklik varkən, necə belə sərt ola bilirəm?..

İnsanları sevirəm. Uşaqları xüsusilə çox sevirəm. Həyat mənimçün ətalətin olmadığı yerdir. Durmadan çalışmaq, fəaliyyət göstərmək, mikromühitindəki nələrisə yeniləşdirmək, hərəkət!!! Belədir yaşam tərzim. Özümə də, əhatəmdəkilərə də yüksək kredolarla yanaşdığım üçün bəzən lap dözülməz olduğumu düşünürəm. Ürəyimdə gizli minnətdarlıq duyğuları bəsləyirəm tələbkarlığımı və sərtliyimi anlayışla qarşılayanlara, şıltaqlıqlarıma dözənlərə. Məni yaxından tanıyan iş yoldaşlarım deyirlər ki, "zahirən çox təkəbbürlü xanım təsiri bağışlayırsan, əslində çox sadəsən". Bütün hallarda insanların fikrinə hörmətlə yanaşıram. Məncə, hər rəydə bir həqiqət var.

Kitabın "Düşüncələr" fəslində Siz yarım əsrin zirvəsindən dünyaya nəzər salan İnsanın həyata baxışı, fəlsəfi düşüncələri, qənaətləri ilə bir daha tanış olacaqsınız. Bəzi fikirlərim mübahisə doğura bilər. Bu, normaldır. Yəqin ki, bir müddət sonra həyat müəyyən məsələlərə baxışlarımda korrektələr edəcək. Sabah dünənkindən fərqli düşünəcəyəm. Axı, insan həyatla paralel olaraq daim inkişafdadır. Amma hələ ki, belə düşünürəm... Fikirlərinizi e-mail ünvanıma – *manzara1@rambler.ru*-ya göndərsəniz, çox minnətdar olaram.

Bədii lövhələrin yer aldığı II fəsildə – "Mənsur şeirlər. Miniatürlər"də sözün hikmətiylə cilvələnmiş lirik duyğularımı Sizinlə paylaşacağam. "YaşaM"ın III, IV və V fəsillərində vaxtilə dövri mətbuatda dərc olunmuş məqalələrimdən bir qismi yer alıb. "Publisistika" fəslindəki yazılarda

qaldırılan bir sıra problemlərin bu gün də öz aktuallığını itirmədiyini nəzərə alaraq, həmin materialları ictimaiyyətin diqqətinə təqdim etməyi məqsədəuyğun bilmişik. "Ədəbi qeydlər"də Azərbaycan ədəbiyyatının tanınmış simaları ilə, ədəbi mühitlə bağlı məqalələrimdən bəzi seçmələr vermişik. "Yurddaşlarımız" fəslində isə Azərbaycandan kənarda, yaxın və uzaq xaricdə yaşamış həmvətənlərimizin, həmçinin 1988-ci ilədək dədə-baba torpaqlarımız olan Qərbi Azərbaycanda – İrəvan şəhərində, Uluxanlıda, Vedibasarda, Qəmərlidə, Gorusda, qədim Göyçə mahalında və digər yurd yerlərimizdə məskunlaşmış soydaşlarımızın həyat və məişətindən, məşğuliyyətindən, ömür yolundan bəhs edən faktik materiallarla tanış olacaq, o torpaqdan pərvazlanmış ziyalılarımızı, sadə insanları, müharibə və əmək veteranlarını tanıyacaqsınız.

Kitabın "Məni belə tanıyırlar" fəslində isə haqqımda yazılmış materiallar Sizə bələdçilik edəcək. Diqqətinizə təqdim olunmuş "Fotoalbom" da müəllif barədə təəssüratınızı tamamlamaqda yardımçınız olacaq.

Belə, Mənim ƏZİZLƏRİM! Ömrümün izlərini Sizlərə əmanət edirəm.

# I Fəsil
# DÜŞÜNCƏLƏR

# I Bölmə

# DÖVRÜN GERÇƏKLİKLƏRİ

# ALQI - SATQI

İndi dünyada şıdırğı AL-VER gedir. Yer kürəsi özü boyda bazara çevrilib. Burda torpaq, ölkə, dövlət müstəqilliyi, enerji ehtiyatları, silah-sursat, insan və insan orqanları, intellekt, millətlərin öz müqəddəratını təyinetmə hüquqları, milli sərvətlər, idman qələbələri,.. satılır və alınır. Bəşəriyyət həddən ziyadə maddiləşib, mənəviyyatdan sürətlə uzaqlaşır. İstər ölkələr, istər insanlar arasında münasibətlər daha çox mənfəət, maddi mənafe üzərində qurulur. Bütün səviyyələrdə MADDİYYATA ALUDƏÇİLİYİN GÜCLƏNMƏSİ cəmiyyəti məhvərindən çıxarmağa qadir olan qorxulu tendensiyadır.

İndi başqa ölkədən güclü idmançını transfer etmək normal hala çevrilib. Milli komandasının qalibiyyətini arzulayan, zəfər çələngi qazanmasını istəyən bu üsula əl atır. Eynən hərracdakı kimi, QƏLƏBƏ ən yüksək məbləği təklif edənin olur. Həmin idmançını yetişdirən ölkə qalır qıraqda.

Bir çox sahələrdə mütəxəssislər öz ixtisaslarına, sənətkarlar öz peşələrinə biznes kimi baxırlar. Alimlər intellektini bazara çıxarıb. Ona-buna dissertasiya, elmi məqalə, məruzə, kitab yazmaqla güzəranını yaxşılaşdırır. Nəticə etibarilə ELM İNKİŞAFDAN QALIR. Müəllim özündən və ailəsindən kəsdiyi asudə vaxtını, sağlamlığını və biliyini repetitorluğa sərf edir. Xarüqələr yaratmağa qadir həkimlər pasiyentin xilaskarı da ola bilir, Əzrayılı da. Rəssamlar qazanc naminə daha çox pula gedən şəkillər çəkir, heykəltəraşlar süvenir hazırlayır. Yaradıcı insanların əsl sənət əsəri yaratmaq ehtirası ya sönüb, ya da arxa plana keçib. Əsl sənət olmayan yerdə MƏDƏNİYYƏT CILIZLAŞIR.

Bir qisim insanlar isə hətta bədənlərindən də biznes və karyera vasitəsi kimi istifadə edirlər. Kimisi orqanını satır, kimisi arını-namusunu (bu istiqamət bütün dövrlərdə və bütün quruluşlarda olub).

Sözdə "yüngüləxlaqlıları, yaltaqları, əqidəsini paltar kimi dəyişənləri bəyənmədiyini" bildirən bir sıra vəzifə sahibləri də konkret işə gələndə məhz ELƏLƏRİNİ mataha mindirir. Bu ziddiyyətli məqamda GÜNAH sözü ilə əməli düz gəlməyən vəzifəli şəxsdə deyil, onu belə qərar verməyə vadar edən MÜHİTDƏDİR, ZÖVQÜNÜ VƏ DƏYƏRLƏRİNİ DƏYİŞMİŞ CƏMİYYƏTDƏDİR. Çünki həmin məqamda öz maraqları toqquşan səlahiyyət sahibi seçim qarşısında qalır, vəzifə kürsüsündə möhkəm oturmaq istəyi onu daxili məninə sədaqətindən vaz keçməyə təhrik edir. Tərəzinin birinci gözü ağır gələndə, ədalətsiz qərara imza atan şəxs rəhbərlik etdiyi kollektivdən öncə ilk növbədə özünə xəyanət etmiş olur. Sayı çoxalan bu cür MƏCBURQALMALAR insan müstəvisində psixologiyanı, milli müstəvidə əxlaqi dəyərləri, ölkə müstəvisində cəmiyyətin ağırlıq mərkəzini dəyişir. ƏXLAQI NAQİS ADAMA YÜKSƏK DƏYƏR və MƏNSƏB VERİLƏN YERDƏ ƏXLAQIN ÖZÜ DEQRADASİYAYA UĞRAYIR, ƏXLAQLI İNSAN YOX. Amma bir reallıq da var ki, bədənlərindən karyera vasitəsi kimi bəhrələnənlərin uğuru gənc nəslin tərbiyəsinə, dünyagörüşünün və psixologiyasının formalaşmasına mənfi təsir göstərir. Valideyn övladına hansı mənəviyyatı aşılamağa çalışsa da, ətrafda baş verənlər, yaşadığı mühitdə gördükləri, gündəlik məişətdə rastlaşdığı gerçəkliklər uşağın-yeniyetmənin-gəncin beyninə daha dərin həkk olunur.

Populyar müğənnilərin yaşayışını görüb səhnəyə can atanların sayı-hesabı tükənməzdir. İstedadı, məlahətli səsi varmı-yoxmu, buna məhəl qoyan kimdir? Əsas odur geyimini "soyunub", imicini dəyişib səhnəyə çıxa (söhbət sənətə yamaq olanlardan gedir). O saat da belələrinə sponsor tapılır. Amma zehni qabiliyyəti ilə fərqlənən, elməbiliyə həvəsi ilə seçilən, hər hansı fənn üzrə beynəlxalq olimpiadalarda qalib gələn heç bir məktəbliyə, yaxud tələbəyə kiminsə sponsorluq etdiyini eşitməzsən. ÇÜNKİ CƏMİYYƏTİN SOSİAL SİFARİŞİ DƏYİŞİB. Əyləncəli həyat tərzinə, şouya üstünlük verilir. Axı, o daha cəlbedicidir. Sayılıb-seçilən peşə sahibləri də belə bir mühitdə istər-istəməz iş

metodunu dəyişməli olur. Cəmiyyətin tələbatı nəyədirsə, tələblə-təklif ona uyğunlaşdırılır.

Dövrün salnaməsini yazan jurnalistlər də eynən içində yaşadıqları mühitə bənzəyirlər. Obyektiv və qərəzsiz informasiya yazmaq hamıya müyəssər olmur. Çünki jurnalistlik fəaliyyətində sağlam olmayan maraqlarla qarşılaşma tezliyi daha sıxdır. Müasir dünyada xüsusi rolu olan dördüncü hakimiyyətdən siyasətçi də, ictimai xadim də, sənətkar da, şoumen də, iqtidar və müxalifət də maksimum bəhrələnməyə çalışır. Təbliğat işində kütləvi informasiya vasitələrinin rolu əvəzsizdir. SÜRƏTLİ və SƏRHƏDSİZ TANITMA İŞİNDƏ KİV ANALOQU OLMAYAN MEXANİZMDİR. Onu başqa bir vasitə, yaxud mexanizmlə müqayisə etməyə cəhdin özü belə böyük haqsızlıq və ədalətsizlikdir. Ziddiyyət o məqamda ortaya çıxır ki, mətbuat vasitəsilə təbliğ olunmasını istəyənlərin bir qismi nə bu sənətin, nə də jurnalistin dəyəri ilə hesablaşmaq istəmir. Onlara elə gəlir ki, təbliğatları ancaq öz istədikləri kimi qurularsa, güclü və təsirli olar. PARADOKSAL VƏZİYYƏT bu düşüncədən qaynaqlanır. Bir yandan jurnalistin dalınca qaçırlar, ondan xahiş və minnət edirlər. Digər tərəfdən jurnalistin professionallığına və sənətin özünə lazımi hörmət qoymurlar. JURNALİSTİKA GÜZGÜSÜNDƏ ÖZÜNÜ CƏMİYYƏTƏ SIRIMAQ İSTƏDİYİ İMİCDƏ GÖRMƏK XƏSTƏLİYİ QANA DƏRİN İŞLƏYİB. Məhz bu amil cəmiyyətin informasiya təminatında tarazlığı pozan qalmaqallı məlumatların meydana çıxmasına səbəb olur.

...MÜNASİBƏTLƏR SİSTEMİNDƏ maliyyələşməyə aludəçiliyin miqyası böyüdükcə DƏYƏRLƏR DƏYİŞİR. Yaxşı yaşamaq istəyinin əsarətində olan adam rifahı naminə mənəviyyatına xəyanət mövqeyində dayanır. Cəmiyyətdə bayağılaşma, bəsitləşmə tendensiyası güclənir. Yüksək ideallarin, mənəvi dəyərlərin boşalan yerinə ZİR-ZİBİL dolur.

**2008**

# İNFORMASİYA və İNSAN

Qəribə bir dövrə gəlib çatmışıq. İNSANla İNFORMASİYA üz-üzə dayanıb. İNSAN fəaliyyətinin, müşahidəsinin və zehninin məhsulu olan İNFORMASİYA bəşəriyyəti idarə etməyə başlayıb. Bu durumda hansı daha önəmlidir – qlobal informasiya cəmiyyətinə doğru istiqamətlənməkmi, İNSAN amilini İNFORMASİYAnın fəsadlarından qorumaqmı??

Yaşadığımız yüzillik İNFORMASİYA əsridir. Bizdən iznsiz hər gün yüzlərlə xəbər şüurumuzun qapılarını döyür. İNSAN ardı-arası kəsilməyən İNFORMASİYA axınına məruz qalır. Çox bilən az yaşar , – deyiblər. Qeyri-iradi beynimizə yeridilən AUDİO-VİZUAL MƏLUMATLAR həyatımızı zənginləşdirməklə yanaşı ömrümüzü gödəldir. İnformasiyalaşma qlobal proses olduğundan ondan qaçmaq mümkün deyil. Bəs qorunmaq necə? İNFORMASİYAnın xeyirindən faydalana bilməyən ADİ VƏTƏNDAŞ onun ziyanından necə ötüşsün?

Azacıq diqqət etsək görürük ki, müasir dövrdə evlərin sərhədi çox genişlənib. Divarlar yerində qalsa da. İndi heç bir ailə ancaq öz qayğılarıyla yaşamır. Çağırılmamış qonaq kimi evlərimizə daxil olan, saysız-hesabsız kütləvi informasiya vasitələrinin yaydığı xəbərlər bizi bizdən xəbərsiz yad ladlara kökləyir. İNSAN özünə yadlaşır... və... yalnız bioloji varlıq deyil, həm də sosial varlıq olduğu üçün qismən də olsa, özünə yad ömür yaşamağa məcbur olur.

Bəzən əhvalımızı da gün ərzində qəbul etdiyimiz İNFORMASİYAlar müəyyənləşdirir. Sözümüzün-söhbətimizin baş mövzusuna çevrilir. İnternetdən, televiziya və radiodan, qəzet və jurnallardan, reklamlar-

dan aldığımız məlumatlar dünyagörüşümüzü genişləndirməklə bərabər həm şüurumuza, həm psixikamıza təsir göstərir. Xarakterimizi, davranışımızı formalaşdırır. Özümüz də hiss etmədən şüurumuzun alt qatına toplanan məlumatlar bizi yönləndirir. Çox zaman heç fərqinə varmırıq ki, adi məişətdə, gündəlik həyatımızda qərarların qəbul edilməsində şüuraltına ötürdüyümüz (istər düşünülmüş, istər qeyri-iradi) informasiyalar nə qədər həlledici rol oynayır...

Bu proses yalnız FƏRDin həyatı ilə məhdudlaşmır, dolayısıyla CƏMİYYƏTə də səssizcə hökmünü diktə edir. İNFORMASİYAnın hökmü cəmiyyətdə bəzən mütərəqqi, bəzən isə neqativ tendensiyalara yol açır. VƏTƏNDAŞIN İNFORMASİYAYA MÜNASİBƏTİ cəmiyyətdəki bir çox prosesləri şərtləndirir. Həmin proseslər əmin-amanlığa da yönələ bilir, qarşıdurmaya da. BU, BİZİM MƏSULİYYƏTİMİZDƏN ASILIDIR. İnsanın hər hansı məlumatı qavrama məsələsi mürəkkəb prosesdir. Belə ki, nə qədər insan varsa, o qədər də düşüncə tərzi var. Adamın savad və dünyagörüş səviyyəsi, xarakteri, məşğuliyyəti, məlumatlılıq dərəcəsi onun informasiyadan doğru-düzgün baş çıxarmasına, obyektiv nəticəyə gəlməsinə yardımçı olur.

Gerçəklik bundan ibarətdir ki, hazırki dövrdə İNFORMASİYAnı sağlam məntiqlə təhlil etməyi, ona analitik təfəkkürlə, tənqidi mövqedən yanaşmağı bacaran şəxs İNFORMASİYAnın ağasına çevrilir. Ondan yetərincə faydalanır və qazanır. (Təbii ki, bu məqamda söhbət ancaq maddi qazancdan getmir...) İNFORMASİYAnı kortəbii qəbul edənlər isə onun quluna çevrilirlər. Bu qəbildən olan adamlar aldıqları yanlış məlumatı araşdırmadan, bir az da üstünə qoyub ötürürlər. Bu halda subyektiv mövqe obyektiv mövqe kimi təqdim olunur. YANLIŞ İNFORMASİYA CƏMİYYƏTİN TARAZLIĞINI POZDUĞU KİMİ, YANLIŞ QAVRANAN İNFORMASİYA DA İNSANIN DAXİLİ TARAZLIĞINI POZUR. Yaşadığı, işlədiyi mikromühitdə düzgün mövqe seçməsinə, cəmiyyətlə harmoniyada yaşamasına mane olur.

**2008**

# ƏLAHƏZRƏT İNFORMASİYANIN MÖHÜRÜ

Biz İNFORMASİYAnın fetişləşdiyi zaman kəsiyində yaşayırıq. İndi İNFORMASİYA fəaliyyət və həyat anlamına gəlib çatıb, cəmiyyətin əsas tələbatına çevrilib. İNFORMASİYA daim hərəkətdədir, çox sürətlə dəyişir, hər an təzələnir. Gəlişi ilə gedişi bir göz qırpımında baş versə də, ictimai rəyə təsiri uzun müddət qalır. ƏLAHƏZRƏT İNFORMASİYA İCTİMAİ ŞÜURA ÖZ MÖHÜRÜNÜ VURUR.

Bu məkanda, yəni qlobal informasiya məkanında yeni ilə köhnənin, doğru ilə yalanın, faydalı ilə zərərlinin sərhədlərini müəyyənləşdirmək asan deyil. O ki qaldı çox ustalıqla tərtib olunmuş qərəzli məlumata! Təcavüzkar ermənilərin Azərbaycan xalqına qarşı yönəlmiş informasiya müharibəsi buna bariz sübutdur. Bizim torpaqlarımıza, milli mədəniyyətimizə, incəsənətimizə, mətbəximizə göz dikən və tez-tez Azərbaycan musiqisini, mahnılarımızı, ləziz yeməklərimizi və s. öz adına çıxan üzdəniraq qonşumuz, bəzən hətta böyük sənətkarlarımızı da "özəlləşdirmək" iştahasından əl çəkə bilmir. Həmin qərəzli məlumatlar gec-tez təkzib olunsa da, o məlumatla tanış olmuş heç də bütün insanların beynində düzəliş aparmaq mümkün olmur. Artıq qatar getmiş olur. Bu, məsələnin GÖRÜNƏN TƏRƏFİdir.

Məsələnin GÖRÜNMƏYƏN TƏRƏFİ isə GƏLƏCƏYİMİZ OLAN UŞAQLARın formalaşması prosesidir. Elektron informasiya vasitələrindən maksimum bəhrələnmək imkanı olan indiki uşaqların öz milli mənsubiyyətini, adət-ənənələrini bilən, soy-kökünə bağlı şəxsiyyət kimi yetişməsi düşündürücü problemdir. Çünki elektron informasiya məkanından hər cür məlumat, bilgi almaq imkanları və azadlığı olan müasir uşağın seçim imkanları da genişdir. O seçimi isə ötən dövrlər-

də olduğu kimi yalnız ailə və məktəb tərbiyəsi deyil, həm də informasiya cəmiyyətinin özəllikləri müəyyənləşdirəcək. ƏLAHƏZRƏT İNFORMASİYA UŞAQLARIN FORMALAŞMASINA ÖZ MÖHÜRÜNÜ VURACAQ. Unutmayaq ki, virtual informasiya məkanında İNSAN şüurunun, təfəkkürünün manipulyasiya olunmaq imkanları daha genişdir. İNSAN zəkasının icad və ixtira etdiyi maddi-mənəvi nemətlər bolluğunda UŞAQ ZEHNİ düzgün orientasiya götürməkdə çətinlik çəkir.

İnformasiya-kommunikasiya texnologiyalarının həyatımızın vacib faktoruna çevrildiyi hazırki dövrdə informasiya cəmiyyətinə inteqrasiya mütləqdir. Və bu məqamda İNFORMASİYAnın gərəkliliyi, informasiya mühitinin və vərdişlərinin zəruriliyi sübuta ehtiyacı olmayan AKSİOMdur. Paradoksal hal budur ki, İNFORMASİYA bəşər övladını həm cəzb edir, həm də özündən itələyir. Dolu kimi İNSANın başına yağan xəbərlər bəzən onu yorur. Vaxtaşırı insan beyni gərəksiz yükdən xilas olmaq istəyir. Danılmaz faktdır ki, ƏLAHƏZRƏT İNFORMASİYAnın qatı dumana bürüdüyü XXI əsrdə İNSAN özünün yaratdığı ən müasir texnologiyaların kölgəsində qalır. İKT – informasiya-kommunikasiya texnologiyaları həyatımıza və məişətimizə daha dərindən nüfuz etdikcə İNSAN amili tədricən arxa plana keçir. İNFORMASİYA cəmiyyətində insanın sosial maraqları mütləq qorunmalıdır. Bunun üçün ölkələrin qanunverici orqanları bir sıra qanunlar qəbul ediblər və zərurət yarandıqca yeniləri də qəbul olunur. Amma iş bununla bitmir.

Gələcəkdə necə olacaq və bu proses dünyanı hara aparacaq, – bəlli deyil. Bəlli olan budur ki, şəxsiyyətlə informasiya arasındakı qarşılıqlı münasibətdə tədricən ikinci önə keçir və İNSAN "İnformasiya tərəfindən idarə olunmaqmı, informasiyanı idarə etməkmi?" – sualı qarşısında qalır.

**2008**

# TƏRƏQQİ və PSİXOLOGİYA

SÜRƏT ƏSRİ yeni imkanlarla yanaşı, yeni problemlər də gətirib. Cəmiyyətin inkişaf səviyyəsinin yüksəliş dinamikasıyla İŞSİZLİYİN artım dinamikası arasında müşahidə olunan paralellik hazırda dünya dövlətlərinin aktual problemləri sırasında yer alıb. İNSAN amilinə tələbatın azalmasında texnologiyaların sürətli inkişafımı böyük rol oynayır, dünyanı bürüyən qlobal maliyyə böhranımı, digər amillərmi? Bizcə, hamısı. Belə şəraitdə ÖZÜNÜİFADƏ İMKANLARI MƏHDUDLAŞAN ŞƏXS AQRESSİVLƏŞİR. Ətrafına, xüsusilə uğuru-qazancı göz qamaşdıranlara qarşı qəzəbli olur. Yoxsul təbəqənin varlı təbəqəyə dözümsüzlüyünün kökündə bu amil xüsusi çəkiyə malikdir. İstər mikro, istərsə də makromühitinə qarşı ən laqeyd adam belə cəmiyyətə gərəkliliyini duymayanda, özünə tələbat olmadığını görəndə bədbinləşir, pessimizmə qapılır. İŞSİZLİYİN miqyaslarının durmadan genişlənməsi nəticəsində minlərlə adam ailəsini, güzəranını təmin etmək üçün mövcud imkanlarından daha aşağı səviyyəli işlərlə razılaşmaq məcburiyyətində qalır... ÜST QATDA dolanışığın pisləşməsilə özünü büruzə verən bu proses, ALT QATDA insanın psixoloji durumunda ciddi dəyişikliklərlə müşayiət olunur.

Təzadlarla dolu zəmanədə yaşayırıq. Bir yandan daim yeniləşən, təkmilləşən məişət texnologiyalarının kütləvi surətdə evlərə ayaq açması həyatımızı rahatlandırır, digər tərəfdənsə idarə və müəssisələrdə geniş tətbiq olunan yeni texnikalar, avtomatlaşdırma sayəsində canlı icraçılara ehtiyac azalır. YARANAN TƏRS MÜTƏNASİBLİK

CƏMİYYƏTİN PSİXOLOGİYASINDA YENİ GƏRGİNLİK OCAĞINA ÇEVRİLİR. İndi alimlər hətta ev işlərini görməkçün robot-insan hazırlayırlar və həmin robotların geniş tətbiq ediləcəyi gün o qədər də uzaqda deyildir. Elmi-texniki tərəqqinin raket sürətli inkişafı kadrları öz peşə-yönümlərini dəyişmək, dövrün texniki inkişaf səviyyəsinə uyğunlaşmaq zərurəti ilə qarşı-qarşıya qoyur.

Dövrün ambisiyaları cəmiyyətin hər bir üzvünü daha dərin düşünməyə, mövcud əqli-intellektual potensialını maksimum meydana qoymağa vadar edir. Bu gedişatla "MÜTƏXƏSSİS" olaraq İNSANIN DƏYƏRİnin STRATEJİ MƏSƏLƏLƏRİ HƏLL ETMƏK qabiliyyətinə uyğun müəyyənləşdiriləcəyi gün sürətlə yaxınlaşır. Həyat göstərir ki, XXI əsrin insanı dövrün tempinə uyğunlaşmağı, hədsiz cəld, demək olar "İKİ DAŞ ARASINDA" qərar qəbul etməyə hazır olmağı, manevr etməyi bacarmalıdır. Həyat bizi elə vəziyyətlərlə qarşılaşdırır ki, uzun-uzadı düşünməyə, götür-qoy etməyə vaxt qalmır. Əhəmiyyətli olan qərarları bəzən qaçhaqaçda, ayaqüstü qəbul etmək lazım gəlir. Etiraf edək ki, bu halda səhvə yol vermək ehtimalımız da xeyli artır. Lakin... anındaca qərara gəlməyi, vəziyyəti dərhal dəyərləndirməyi bacaran şəxs günün nəbzi ilə harmoniyada yaşayır, bacarmayan isə həyatını tənzimləyə bilmir. Hansısa imkanları əldən vermiş olur.

Zəmanəmizin tendensiyası göstərir ki, OPERATİV QƏRAR QƏBUL ETMƏK, DƏRHAL REAKSİYA VERMƏK bacarığı tezliklə çox şeyi həll edəcək. Hətta insanın yaşam tərzinə və mənəvi aləminə yad olan bir çox şeylərə uyğunlaşa bilməsi (eyni zamanda öz mənini qoruması), yaxud nələrdənsə vaxtında imtina etməsi onun gələcək həyatını yönləndirəcək. Psixoloqların məsləhətinə qulaq assaq, CƏLD ORİENTASİYA GÖTÜRMƏYİ VƏRDİŞƏ ÇEVİRMƏLİYİK. Təhlillər bunu deməyə əsas verir ki, zəmanəmizdə ÖMÜR də FUNDAMENTALLIĞINDAN ÇIXIB, adiləşib, gündəlik, BU ANLIQ MATERİYAYA çevrilib.

**2008**

# AZADLIQMI, HEGEMONLUQMU ?..

Bizdən o qədər də uzaqlaşmamış 20-ci yüzilliyin 80-ci illərində məişətimizə "döyüş" filmləri ayaq açmağa başladı. Dağılmaqda olan SSRİ qalasının kilidi laxlayan qapılarından qaçaq yolla ölkəyə daxil olan "döyüş" və "dəhşət" filmləri ilk vaxtlar maraqla, qorxu və həyəcanla izləndi, "yenilik" kimi çox diqqət çəkdi. Tədricən yeniyetmələrin əsas əyləncəsinə çevrildi. Uşaq dünyasına yol tapınca şüurları əsir götürdü. Nəticəsi göz qabağındadır. İndiki uşaqlar bir-birinə şəfqət göstərməkdən çox, əziyyət verməkdən həzz alırlar. Azyaşlılar arasında qəddarlıq, amansızlıq xarakterik xüsusiyyətə çevrilir. Həmyaşıdını döymək, incitmək, nəyin bahasına olur-olsun ətrafındakılar üzərində qələbə çalmaq, qaliblik iddiası – seyr edilən filmlərdən körpə psixologiyasına hopan zəhər özünü belə nümayiş etdirir.

Daha sonra əcaib-qəraib teleseriallar ayaq açdı evlərə. Bu mərhələdə insanlara qeyri-standart əxlaq tərzi, yad davranış təlqin olundu. Mütləqləşən AZAD İNSAN İDEYASI XAOTİK CƏMİYYƏTİN BÜNÖVRƏSİNİ QOYDU. Bütün bunlar kinolardan şüurlara, şüurlardan psixologiya müstəvisinə, oradan da həyat və məişətimizə sirayət etdi. İstəklərinə çatmaq üçün hər yolu məqbul sayan serial qəhrəmanları cəmiyyətdə daşlaşmış etik normaları alt-üst etdilər. ÜST QATDA demokratik cəmiyyət və insan azadlığına hörmət kimi qələmə verilən həmin tendensiya ALT QATDA məkrli məqsədlərin daşıyıcısı oldu. Ay-

larla teleekranlardan evlərimizə dürtülüb az qala ailə üzvünə çevrilən həmin obrazların canlandırdığı yaşam tərzi əslində ailə daxilində, doğmalar arasında toxunulmaz sayılan sahələrin TOXUNULMAZLIQ STATUSUNU ləğv etməyə yönəldilmişdi. Dövlətin əsası olan ailənin dayaqları sarsıdılırdı. Həmin filmlərdə atanın və ya ananın öz övladının sevgilisinə, yaxud həyat yoldaşına göz dikməsi və ya əksinə, oğulun-qızın öz valideyninin tərəf-müqabili ilə məhrəm münasibətdə olmağa can atması kimi eybəcərliklər adi həyat norması kimi təqdim olunurdu. (Məsələn, "Santa Barbara", "Mehriban düşmən" və digər teleseriallarda. Bu sayaq misalların sayını istənilən qədər artırmaq olar.) Cəmiyyətdə, insanlar arasındakı münasibətlərdə müqəddəs heç nəyə yer qoymayan o tip əxlaq tərzi böyüməkdə olan nəslə təsirsiz qalmadı, hələ formalaşmamış xarakterlərə yabançı çalarlar aşıladı.

O filmləri çəkənlər, yaxud sifariş verənlər və ona maliyyə ayıranlar incəsənətin insan şüuruna təsir imkanlarını yaxşı bilirlər. Məncə, bu yolla təlqin olunan həyat tərzi böyük məqsədlərə hesablanmış eksperimentdir. Amma görünən budur ki, "böyük" dediyimiz o məqsədlər yaxşı anlamda böyük deyildir. Son nəticədə bəşəriyyəti məhvərindən çıxarıb dünya miqyaslı xaosa sürükləməyə yönəldilib. Çünki heç bir FƏRDİN AZADLIĞI CƏMİYYƏTİN HÜQUQ və MƏNAFEYİNDƏN ÜSTÜN TUTULA BİLMƏZ. İnsanın insana münasibətində qəddarlıq, etinasızlıq, qarşıdakını əzib keçmək meyli gücləndikcə bəşər övladı mənəvi baxımdan yoxsullaşır. Ayrı-ayrı fərdlərin mənəviyyatsızlaşması son hesabda cəmiyyətin müqavimət qabiliyyətini zəiflədir. Bəlkə də BU AYSBERQİN ALT QATINDA DÜNYANIN İDARƏ OLUNMASINI ASANLAŞDIRMAQ MƏKRİ DURUR. Və bu proses DÜNYA HEGEMONLUĞU iddiasından qaynaqlanır. Bəlkə də.

**2008**

# BUGÜNÜMÜZDƏN BOYLANAN SABAH

...XX əsrin 50-60-70-ci illərindən bəhs edən kinolara baxanda mənəvi rahatlıq duyuruq. O dövrün insanları gözümüzə az qala sakitlik, mehribanlıq, səbr, təmkin və şəfqət mücəssəməsi kimi görünür. Bəlkə də həyatda belə olmayıb, bütün bunlar ssenarist və rejissor təxəyyülünün məhsuludur. Hər halda nəzərə alsaq ki, hər bir sənət əsəri, incəsənət nümunəsi yarandığı dövrün bədii inikasıdır, onda həmin filmlərdə gördüklərimizin də əsasən reallığı əks etdirdiyi fikriylə razılaşmalıyıq.

XXI əsrin birinci onilliyindən o dövrə boylananda yalnız elm və texnikanın deyil, həyatımızın da nə qədər sürət götürdüyünün fərqinə varırıq. Cəmiyyətin inkişaf səviyyəsi müqayisəyəgəlməz dərəcədədir. Dünyanı ağuşuna alan qloballaşma prosesi  ölkələri və xalqları yaxınlaşdırıb. Sərhədlər açılıb. Müasir insan dünyanın istənilən bölgəsini gəzib-dolaşmaq, ən azından virtual səyahətə çıxmaq imkanına malikdir. Amma genişlənən imkanlar müqabilində vaxtımız daralıb. Sanki sutkamız 24 saat deyil. Hətta məişətimizə dərindən nüfuz edən texnika belə bizi vaxt qıtlığından xilas edə bilmir. Obrazlı desək, MÜASİR İNSAN DÖVRLƏ AYAQLAŞA BİLMƏK, MAKROMÜHİTİNDƏKİ RƏQABƏTƏ DAVAM GƏTİRMƏK ÜÇÜN QAÇIŞ VƏZİYYƏTİNDƏ QALIR. Sosioloqların tədqiqatları da göstərir ki, müasir insan acıqlıdır, hirslidir, əsəbidir, hövsələsizdir. O DAİM TƏLƏSİR, HANSISA FÜRSƏTİ ƏL-

DƏN VERƏCƏYİNDƏN, NAMƏLUM ŞANSI İTİRƏCƏYİNDƏN QORXUR. Stress vəziyyəti hər addımda onu müşayiət edir. Belə ki, XXI yüzillikdə raket sürətilə irəliləyən elmi-texniki tərəqqi, dəyişən dəyərlər, öz sürprizlərini şəlalə kimi insanların başına yağdıran həyat insanlara maddi-mənəvi nemətlər bolluğu ilə yanaşı, həm də gərginlik “bəxş” edir. Sürəkli dəyişikliklər axınında təngnəfəs olan insan rahatlığını itirir. Həyatımıza nüfuz edən stress situasiyası öncə psixologiyamıza sirayət edir, sonra yaşam tərzinə çevrilir.

MÜASİR İNSANIN PSİXOLOJİ DURUMU GƏRGİNDİR. Bu fakt məhkəmə salonlarında aparılan dinləmələrdə cinayət hadisələrini doğuran səbəb kimi öncül yerdədir. Bu amil problemli doğulan körpələrin analarını müayinə edəndə daha qabarıq üzə çıxır. Bu məqam azyaşlı uşaqların oyun və əyləncə proseslərində öz təzahürünü tapır. Böyüməkdə olan nəsil yaşlı nəsillə müqayisədə informasiya kommunikasiya texnologiyaları dövrünə xas çoxlu üstün qabiliyyətlərə malik olsa da, mənəvi dözümlülükdə ona uduzur.

**2008**

# QƏLƏMİN AĞIR MƏSULİYYƏTİ

Bəzən əsərlərinin vurğunu olduğun ədiblə təsadüfi tanışlıq bütün təəssüratlarını alt-üst edir. Yaradıcılığında təlqin etdiyi uca məramların müqabilində yazarın özünün nə qədər cılız adam olduğu meydana çıxır. Sarsılırsan. Belə məqamda özünü aldadılmış kimi hiss edənlər də olur. Təbliğ etdiyi ideallarla şəxsiyyəti, yaşam tərzi çox fərqlənən sənətkar insanın cəmiyyətə etibarını azaldır.

... Şəxsiyyəti ilə tanışlıqdan sonra əsərlərinin də gözdən düşmək təhlükəsi əsasən yazarları – şair və yazıçıları, jurnalistləri təhdid edir. Çünki sənətin digər növlərində onu yaradanın şəxsiyyəti insanlarçün o qədər də önəmli olmur. Yəni nadir memarlıq abidəsinə tamaşa edəndə, heykəlin estetik gözəlliyindən zövq alanda, düşündürücü rəsm əsərinə baxanda, musiqinin ecazkar aləminə dalanda heç kəs demir ki, "müəllif özü naqis adamdır, əsəri niyə belə gözəl yaradıb?..". Amma yazdığı fikirlərlə sürdüyü həyat tərzi üst-üstə düşməyən yazıçı dərhal qınaq obyektinə çevrilir. Çünki qələmin məsuliyyəti ağırdır.

Bədii, yaxud publisistik yazını oxuyan və bir imzanı ardıcıl izləyən şəxs bəyəndiyi müəllifi öz nəzərində fetişləşdirir, zənn edir ki, "bunu yazan, mənəvi- əxlaqi dəyərlər aşılayan şair, yazıçı, jurnalist özü də yəqin ki, belə yaşayır". Elə nəzərində ilahiləşdirdiyi yazarla şəxsən tanış olduqdan, onu yaxından tanımaq imkanı qazandıqdan sonrakı sarsıntının kökündə də bu yanlış düşüncə dayanır. Şüuraltındakı illüziya dağılan kimi yanılmış fərd dayanıqsız vəziyyətə düşür, güvəncini itirir. Real həyatda isə sənətkarın şəxsiyyəti ilə yaradıcılığının bir-birini tamamlaması nadir hadisədir.

**2007**

# TƏRS MÜTƏNASİBLİK

Necə olur ki, millətin tarixinə və tarix boyu yetişdirdiyi böyük şəxsiyyətlərə laqeyd mövqedən yanaşan, müasirlərinə münasibətdə bəsit düşüncəli, məişətdə naqis davranışlı, öz mənafeyini hər şeydən üstün tutan, əldə edə biləcəyi maddi qazanc naminə iynənin gözündən keçməyə hazır olan YAZAR əsərlərində yüksək materiyadan bəhs edə bilir, milli mentalitetə və bəşəri dəyərlərə üstünlük verir, humanizm və həqiqət carçısına çevrilir? Özündə olmayan keyfiyyətləri poeziyasında, nəsrində, publisistikasında təbliğ edən sənətkara həyat hikmətlərini yazdıran hansı qüvvədir? Qələmin qüdrəti, istedadın gücü, yoxsa ilham pərisi? Bəlkə də bir insan kimi şəxsiyyətindəki naqisliyi kompensasiya etmək ehtiyacı?!

Həyat göstərir ki, yaxşı əsərin müəllifinin də yaxşı adam olması mütləq deyil. Sənətkar da adi adamdır. Qeyri-adi məxluq deyildir. Güclü və zəif tərəfləri var. Medalın iki üzü kimi. Güclü tərəfi sənətkarın yaradıcılığında öz əksini tapır. Zəif tərəfi məişətdə, gündəlik həyatda, adi insani münasibətlərdə təzahür edir.

Bu yerdə yadıma məşhur fransız aktyoru Lui de Fyunes düşür. Yaratdığı komik obrazlar milyonlarla insanı güldürməyə qadir olan, bütün dünyada sevilən, əvəzsiz komediant kimi tanınan bu sənətkar real həyatda çox qaraqabaq, ciddi və qaradinməz bir şəxs olub. Böyük sənətkarların həyatında belə faktlar çoxdur. Bu qəbildən olan tərs mütənasibliklər sənət məqamında, yaradıcılıq prosesində sənətkarda ikilənmə hadisəsinin nəticəsi kimi ortaya çıxır.

**2007**

# "VƏTƏNPƏRVƏR" MÜHACİR

Hamı gileylənir ki, dünyanın mizan-tərəzisi pozulub. Əgər hərəmiz bir yandan əyiriksə, bu dünya necə düzəlsin?...

Cəmiyyət şəxsiyyətin qabiliyyətini və enerjisini düzgün istiqamətləndirməyi bacarmayanda, tənzimləməyəndə fəlakət baş verir. Həyatın keşməkeşləri qarşısında duruş gətirəmməyib dolaşığa düşən fərd cəmiyyət üçün təhlükəyə çevrilir. "VƏTƏNPƏRVƏR" MÜHACİR də belələrindən biriydi. Özünü siyasi baxışlarına görə təqib olunmuş kimi qələmə verirdi yad ölkədə. Əslində qürbətə üz tutmaqdan məqsədi şəxsi problemlərini həll etmək idi. Pul qazanmaq, sərvət sahibi olmaq, ağ günə çıxmaq  istəyirdi. Doğma yurdda gətirməyən bəxtini yad diyarda sınamağa qərarlıydı. Ailəsinin iqtisadi durumunu Vətənin siyasi imicinə zərbə vurmaq bahasına yaxşılaşdıracaqdı "VƏTƏNPƏRVƏR" MÜHACİR. Amma bunun fərqində deyildi. Vətənə  arxa çevirdiyni dərk etmirdi. Özünü ölkədən gizli yolla qaçmağa vadar edilmiş vətənpərvər kimi göstərirdi. Şəxsi mənafeyi naminə Azərbaycanın demokratik imicinə zərbə vururdu.

Belələrinin sayı artdıqca insan hüquqlarının və demokratiyanın keşiyində dayanan beynəlxalq qurumlara təqdim olunan hesabatlarda  doğma ölkəyə qarşı əks arqumentə çevrilirdilər. Müstəqilliyimizi gözü götürməyənlər bu faktlardan geninə-boluna istifadə edirdilər. Amma... "VƏTƏNPƏRVƏR" MÜHACİR hər yerdə ağızdolusu Vətəninə, xalqına məhəbbətindən dəm vurur, millətinin "sərvətini dağıdanları" lənətləyir, "neçə ki mənim kimi oğullar bu gündə yaşayır, bu ölkə düzələn deyil",– deyirdi. Vətəninə, dövlətinə mənən xəyanət etdiyini, gileyli olduğu durumu düzəltməyə yox, pisləşdirməyə xidmət etdiyini ya anlamır, ya da anlamaq istəmirdi...

**2007**

# QÜRBƏT

QÜRBƏTDƏ YAŞAYANın gözlərində dərin kədər qatı vardı. Çöhrəsi gülsə də, gözləri heç vaxt gülmürdü. Sanki içindəki sevinc duyğusunu zindana salıb qapısını bərk-bərk kilidləmişdilər. Açarı da ağlagəlməz yerdə gizlətmişdilər. Gözləri elə qəmli idi ki...

O, qürbətə hərbçi ilə ailə quranda gəlmişdi. Vətəndən, əzizlərindən ayrı düşməyin müvəqqəti olduğunu zənn edirdilər. Fələyin işləklərindən xəbərsizdilər. Az keçməmiş sovet imperiyası – xalqlar həbsxanası dağıldı. Zahirən dünya elə bildi ki, bağlı sərhədlər açıldı. Əslində isə SSRİ deyilən məkan daxilində sərhədlər bundan sonra qapandı. Tarixin bir dönüşü milyonların taleyində əks-səda tapdı. Orbitindən çıxmış peyk vəziyyətinə düşən insan taleləri heç kəsi düşündürmürdü. DÜNYA bundan sonra bir daha "SOSİALİZM VƏ KAPİTALİZM" deyilən İKİ QUCAQDA ÇABALAMAYACAQDI. Önəmli olan bu idi! Süquta uğrayan fövqəl dövlətin xərabəlikləri altında əzilənlərə fikir verən yoxuydu. Mərkəzi idarəçilik sisteminə tabeçilik aradan qalxdığından sovet ordusundan tərxis olunan yüksək rütbəli hərbçilərə doğma respublikaları belə qucağını açmadı. Həyatını fövqəl dövləti qorumağa həsr etmiş müqəddəs peşə sahibləri heç kəsə gərək olmayan artıq yükə çevrildilər. Xəritəsi dəyişən vətənin keşikçiləri üçün bu durum əsl faciəydi. Acı və ədalətsiz həqiqətlə baş-başa qalmışdılar. Bu, tar-mar olan ictimai-siyasi quruluşun, özünü doğrultmayan sosializm sisteminin 70 il əsarətdə saxladığı vətəndaşlarına vurduğu növbəti zərbəydi. Doğmalarından uzaqda yaşamaq məcburiyyətinə qatlaşanların "mükafatıydı".

... Qürbət doğmalaşdıqca vətən əlçatmaz, ünyetməz məkana çevrilmişdi. Doğmaların həsrəti qəlbinə çökmüşdü. Paradoksa bax ki,

QÜRBƏTDƏ YAŞAYANın övladları üçün vətən elə bu qürbətin özüydü. Onu intizarda boğan, ruhunu əzən qürbət. Meşələrin əhatəsində yerləşən kiçik hərbi şəhərciyə min bir tellə bağlanmışdılar. Güvəndikləri dövlət dağılandan sonra doğma yurdlara üz tutan köç karvanları geri dönmüş, bəxti gətirənlər mülki idarələrdə işə yerləşmişdilər. Qürbətdə yaşamağa evi, yeməyə çörəyi vardı. Buradakı mikromühitdə sayılıb- seçilirdi. İllər ona təzə tanışlar, rəfiqələr, ailəvi dostlar bəxş etmişdi. Zahirən hər şey qaydasındaydı. Amma daxilində gizlənmiş nisgil QÜRBƏTDƏ YAŞAYANı üzürdü. Vətən həsrətiylə yola saldığı illəri ona heç kəs qaytarammayacaqdı. İçin-için yanırdı. Bəbəklərindən kədər silinmirdi. Çöhrəsi gülsə də, gözləri heç vaxt gülmürdü!.. Heç vaxt.

**2006**

# SOYQIRIM

Şəhərdə ağacların soyqırımı başlanmışdı. Yaşına, barına, faydasına baxmadan amansızcasına qırırdılar ağacları. Xüsusilə gecə saatlarında. Tikinti şirkətləri ağaclara qənim kəsilmişdilər. Ən qatı düşməndən qisas alırmışlar kimi davranırdılar təbiətin bu məsum gözəlləri ilə. Buldozerlərin başına-gözünə döyə-döyə qırdığı ağacların şaqqıltısı sakinlərin yuxusuna haram qatırdı. Ürək ağrısı tuturdular. Nə yazıq ki, bu əməli törədənlərin vicdanı sızlamırdı. Buldozerlərin tapdağına məruz qalan qocaman ağaclarsa hələm-hələm ram olmurdular. Hər zərbədən sonra başlarını dikəldib "mən varam", – deyə meydan oxuyurdular.

Xüsusilə may ayında, yaz günü kəsilən ağacların ah-naləsi yeri-göyü yandırırdı. Ağacların göz yaşları nə vaxtsa bu hökmü verənləri öz selində boğacaqdı. Sürətlə seyrələn yaşıllığın yoxluğunda ekologiya korlanırdı. Havada oksigenin miqdarı azalırdı. Torpağın dayanıqlığı zəifləyirdi. Sürüşməyə meyllilik artırdı.

...Yüz il keçəcək, təbiət bu soyqırımın qisasını alacaqdı. Torpağın dərin qatlarına işləyən ağac kökləri və rişələri çürüdüyündən yağışlar torpağı aşındıracaqdı. Torpaq sürüşmələri intensivləşəcəkdi. Yaz aylarında gələn sel suları ağacların yerində ucaldılmış göydələnləri qucağına alıb aparacaqdı. Selin ağuşunda oyuncaq kimi atılıb-düşən göydələnlər okeanın dibinə gömüləcəkdi. Yayın bürküsündə kölgəsində daldalanmağa qollu-budaqlı ağac qalmadığından insanlar xəstələnəcəkdilər. Qorunmaqçün ağac-çətir tapa bilmədiyindən torpağın üzü

günəşin yandırıcı şüalarından cadar-cadar olacaqdı. Çatlar dərinə işləyəcək, yarğanlar əmələ gələcək, torpaq onu ağacsız qoyanları Yerin təkinə göməcəkdi. Təbiətə zülm edən İnsan onun hücumuna məruz qalacaqdı. Səbr kasası dolan Təbiət qisasını cəmi bəşər övladından alacaqdı. Qurunun oduna yaş da yanacaqdı. İllər uzunu davam edən ağac soyqırımının əvəzini hamı ödəyəcəkdi.

Bütün fəlakətlər gələcəkdə – yüz il sonrada dayanıb gözləyirdi adamları. İndilikdəsə ağacları şəhərin üzündən silmək istiqamətində yarış gedirdi. Tikinti şirkətləri "Hərəyə yüz ağac kəsək" devizi altında hünərlərini nümayiş etdirirdilər. Ağacların soyqırımı genişlənirdi.

**2007**

# İŞĞAL

Yadelli ağaclar yavaş-yavaş yerli ağacları vətənindən didərgin salırdı. Xan çinarı, eldar şamı, qədd-qamətli sərv, salxım söyüd, qollu-budaqlı palıd, qovaq, küknar, qarağac... küçələrdən-yollardan seyrəlir, onların yerini adı, xüsusiyyəti bəlli olmayan yadellilər tuturdu. Yaman dəb düşmüşdü uzaq diyarlardan gətirilən ağaclar. Çağırılmamış qonaq kimi gəlir, məskən salırdılar. Sanki bu torpağın, bu iqlimin nə ağacı, nə də kolu yox idi. Yadellilər hər yeri zəbt edirdilər. Baxmayaraq ki, onların nə dincəlməyə kölgəsi vardı, nə də yeməyə meyvəsi.

Hər iqlimə uyğunlaşmağı bacaran sırtıq yadellilərə məhəbbət hardan yaranmışdı, bilinmirdi. Deyəsən, sərfəliydi onları almaq. Öz ölkəsində o qədər də dəyəri, hörməti olmayan ağaclar-kollar yaman mataha minmişdi qonaq gəldikləri diyarda.

Yadelli ağaclar yavaş-yavaş yeni məskəni işğal edirdilər. Ağaclar yadlaşdıqca insanlar da yadlaşırdılar. Ən böyük zərbə elə adamların mənəviyyatına vurulurdu. İqlimlə birgə mənəvi-əxlaqi dəyərlər dəyişirdi. Daha məhəllədəki ağaclara dırmaşan uşaqlar gözə dəymirdi. Yeniyetmələri doğma yurda bağlayan tellərdən biri qırılırdı. Ağaclarla adamlar arasındakı əlaqələr zəifləyirdi. Əsgər oğulların xatirəsindən vətən rəmzi olan daş, ağac, kol həsrəti silinirdi. Manqurtlaşma gedirdi.

Təbiətin bu yerlərə bəxş etdiyi qollu-budaqlı, köklü-köməcli ağaclar da üzüntü içindəydilər. Salxım söyüd göz yaşı tökürdü. Sərv ağacı gözünü uzaqlara dikib gələcəyi – bu işin sonunu görməyə ça-

lışırdı. Eldar şamı düşüncələr içində başını əymişdi. Xan çinarı qürurunu sındırmasa da, çıxış yolları arayırdı. Ağacların adamlara bəslədikləri etibar itmişdi. Ümid- güman özlərinə qalmışdı. Bu təbiət üçün əvəzolunmaz keyfiyyətlərinə güvənirdilər...

**2007**

# DAXİLİ MONOLOQ

Torpaq qoynuna aldığı meyidin adını, yaşını, kimliyini, hardan gəlib hara getdiyini, milliyyətini soruşmur. Onu insana bəlli olan heç bir dildə danışdırmır. Canlı ikən bu varlığın nə işlərlə məşğul olduğu da ana torpağın vecinə deyil. Səxavətlə qucaq açdığı cansız varlığı yavaş-yavaş "sümürür", ta skeleti qalıncayadək. Buna "özəlləşdirmə" də deyə bilərik, "özününkiləşdirmə" də. Soyuq qəbrə əmanət edilən şəxsdən gələcək onilliklərə yalnız sümükləri qalır.

Tanıdıqlarım və tanımadıqlarımla dolu olan qəbristanlığı seyr edirəm. Bax, o məzarda yatan əclafın biri olub, indi heç kəsə ziyan vura bilmir. Bu da yaman küyçü idi, bir iş görməmiş haray-qışqırığı dünyanı başına götürərdi. Ona bax, nə susub,.. altdan-altdan yıxmadığı ev qalmamışdı. Yanındakı da oğruydu, günü türmələrdə keçərdi. Bu bədbəxtsə ömrünü özgələr yolunda çürütdü, özü üçün bir gün yaşamadı. İlahi, bu uçuq qəbirdə yatan sanki o topdağıtmaz imarətlərin sahibi deyilmiş, özündən sonra var-dövlət qoya bilib, amma yurdunda adam qoyammayıb, biqeyrət övladın olmağındansa.., tövbə, əstəğfürullah. Sağ tərəfdə görünən qəbir var ha, orda yatan heç bilirsən kimin qızıydı!? Ay Allah, bir geyinib-keçinərdi, bir bəzənib-düzənərdi, gəl görəsən, universitetə girəndə hamı ona tamaşa edərdi. Bu cavansa özündən sonra yurdunda altı aylıq bir oğul qoyub getmişdi, indi yekə kişidir, dədəsinin çırağını yandırır; arvadısa o zaman çox gənc olduğundan ərinin ili çıxmamış özünə yeni həyat qurdu. Hərbi geyimdə qara mərmərdən boylanan generala bax hələ, kimlərə əmrlər verərdi.., indi sərəncamında kimsə yoxdur. Bu zəhmli kişi isə hüquq-mühafizə orqanlarında polkovnik imiş, eşitdiyimə görə, bir sö-

zünü iki edən olmazmış. Xanım-xatın qadın da müəlliməydi, vaxtilə dərs dediyi şagirdləri indi millətə "dərs verir", ruhuna salavat. Heyf bu qızdan, gəlinlik geyindi, amma əcəldən macal tapıb gəlin olammadı, Allah o dünyasını versin. Çörəkpulu dərdi çəkməkdən sifətinə vaxtsız qırışlar düşən bu ata da yəqin, elə kasıbçılığın güdazına gedib, torpağı yüngül olsun. Buna bax, forsu daşı dağıdır ey.., sağlığında bəxtəvərlikdən necə göynən gedirdisə, ölüsü də qəbir yoldaşlarına "meydan oxuyur". Əxlaqdan kəm bu "xanım" da dünyanın ən qədim sənəti sayəsində yaman "yuxarı nərdivanlara" dırmaşmışdı, görən axirətdə də şətəli işləyirmi? Rəhmətlik də alim idi, heç kəsə dəyib-dolaşmazdı, başını aşağı salıb elmiylə məşğul olardı, qəbri nurla dolsun! Bu da millətin nakam şairi, yasini-fatihəsi-salavatı oxucularından gəlir.

Nə isə... Ürəyimdəki söhbətə nöqtə qoyuram. Daxili monoloqum bir fikirdə ilişib qalır: ƏBƏDİ SÜKUT MƏKANINDA HAMI BƏRABƏRDİR. Ana Torpaq bütün ölülərlə "eyni dildə danışır". Fərq qəbirlərin təmtəraqlı və ya sadə olmasında, baxımlı-baxımsızlığındadır. İllərlə ziyarət olunmayan məzarlar var, üstünü ot-ələf, tikan basıb. Gülə-çiçəyə bürünmüş qəbirlər var. Bir damla göz yaşına həsrət məzarlar var ki, orda uyuyanlar bu dünyada köklü-köməcli nəsil, sərvət qoyub gediblər. ...İnsan sevə də bilir, unuda da. Amma ürəklərdə xoş xatirələr qoyub getmiş yaxşı əməl sahibləri var ki, məzarını bütün el-oba ziyarət edir!..

**2009**

# II Bölmə

# QƏNAƏTLƏRİM

# SƏNƏTMİ, SƏNƏTKAR ŞƏXSİYYƏTİMİ ?..

Bəşər övladı üçün, tarix üçün sənətin özü onu yaradanın şəxsiyyətindən qat-qat vacibdir. Çünki Sənətkar dahi olsa belə, öləridir. Əsl Sənət isə zamanla qovğa etməyə qadir qüvvədir. O, əsrlərin hüdudlarını aşa bilir, milli və coğrafi sərhədlər tanımır. Cəmiyyətin inkişafına, kamilləşməsinə təkan verir. Həyatı gözəlləşdirir. Sənət sirli-sehrli cazibə məkanıdır. Minilliklər boyunca İNSAN zəkasının və əlinin yaratdığı maddi-mənəvi sərvətlər cəmiyyətin məhvəri sayılıb.

**2007**

# MÜHİTİN MÖHÜRÜ

Böyük YARADAN bütün İNSANları eyni yaradır. Lakin CƏMİYYƏT, GEN, MÜHİT hərəni bir cür formalaşdırır. XARAKTERlər meydana çıxır. Yaşayış səviyyəsi və həyat tərzi İNSANın MƏNinə çökür. Fərqli DÜNYAGÖRÜŞlər, fərqli İSTƏKlər insanları ayırır. Həm də cəmiyyətin rəngarəngliyini təmin edərək birgəyaşayışı asanlaşdırır. ZİDDİYYƏTlərdən GÖZƏLLİK doğur. Həyat əksliklərin vəhdətindən ibarətdir.

Canavarlar arasında quzu ancaq yem ola bilər. Ya yeməlisən, ya yeyilməlisən. Bu, həyatın aksiomudur. Yeməyi bacarmırsan, ya özün istəmirsən, bu, sənin problemindir. Bu məqam ətrafındakıları düşündürmür. Quzunu görüb yemək istəməyən canavara ehtiram bəslənmir. İnsanlar qorxduqları adama hörmət edirlər. Şərin gücündən çəkinənlər çoxdur. Nə yazıq ki, müasir cəmiyyətdə hörməti ali duyğular deyil, daha çox qorxu hissi şərtləndirir.

**2007**

# MÜNASİBƏT

İNSANIN ÜZÜNƏ DEYİLƏNLƏR ÜSTQURUMDUR, MÜNASİBƏT BAZİS. Əgər üstqurumla bazis bir-birini tamamlamırsa, deməli deyilənlər riyadır. Məkrli münasibət xeyirli nəticə doğura bilməz. Çünki mahiyyətcə dağıdıcı qüvvədir. Məkrli münasibət yaxşı nəyəsə təməl ola bilməz. Bu halda o öz mahiyyətinə zidd getmiş olar ki, bu da mümkün deyil.

**2007**

# XOŞBƏXTLİK və BƏDBƏXTLİK

Xoşbəxtlər göründükləri qədər xoşbəxt, bədbəxtlər göründükləri qədər bədbəxt deyillər. Bu, yalnız uzaqdan olan görüntüdə belədir. Hər kəsin özünə görə qayğıları və təsəllisi var. İnsanların düşüncəsindəki "XOŞBƏXTƏM" və ya "BƏDBƏXTƏM" qənaətini MALİK OLDUQLARI (maddi-mənəvi sərvətlər, sosial imkanlar, cəmiyyətdəki mövqe, ailə vəziyyəti, şəxsiyyət kimi özünüreallaşdırma dərəcəsi və s.) deyil, həyatdan GÖZLƏNTİLƏRİ şərtləndirir.

Xoşbəxtlik və bədbəxtlik anlayışları insanın mənəvi-psixoloji durumunun iki əks qütbünü təşkil etsə də, müəyyən məqamda xoşbəxtlər və bədbəxtlər arasında BƏRABƏRLİK halı mövcuddur: HƏR İKİSİNİN ENERJİSİNİ APARDIQLARI MÜCADİLƏ TÜKƏDİR! Bədbəxtlər içində bulunduqları vəziyyətdən çıxmaq naminə, xoşbəxtlər isə xoşbəxtlik pyedestalında heykəlləşmək uğrunda aramsız mübarizə aparırlar.

İnsan maşın-texnika deyil. Lakin onun da öz planı-proqramı var. Qarşıda gözlənilən heç nə, yerinə yetiriləcək heç bir iş olmayanda həyat mənasızlaşır və insan yaşamaqdan bezir. Bu baxımdan xoşbəxtlərin də, bədbəxtlərin də apardıqları mübarizə onların yaşamını stimullaşdıran amil kimi çox dəyərlidir.

**2008**

# YAŞAMAĞA MƏHKUMLUQ

Hərdən özümü tərk edirəm. Cismimə kənardan baxıram. İçimdən çıxıb qaçıram. Həyatın özəlliklərini dərk etmək üçün. İstədiyim həyatı qura bilməmişəmsə, nail ola bildiyim həyatı yaşamaq zorundayam. Hələ çox cavan vaxtlarımda dediyim kimi – MƏN YAŞAMIRAM, MƏN YAŞAMAĞA MƏHKUMAM.

**2007**

# MƏN və ÖZÜM

İnsan hamıya qalib gələ bilər. Hamını aldatmaq olar. Hamını razılaşdırmaq mümkündür. Özündən savayı. MƏNə mane olan ÖZÜMəmsə bunun qarşısını necə ala bilərəm? MƏNi məndən qoru, ya Rəbbim. Əsas daxili azadlıqdır. İnsanın öz buxovlarından azad olmağı ən çətin işdir.

Aqillər deyib ki, qanunlar cəmiyyətin idarəedilməsini asanlaşdırmaq üçün yaradılıb, onun əsiri olmaq üçün yox. Ta qədimdən belə olub. Bəlkə bu səbəbdəndir ki, şahlar, krallar çox zaman özlərini qanunlardan yuxarıda tutublar. Cəmiyyətə tətbiq etdikləri qayda-qanunlara özləri riayət etməyiblər. Mən ÖZÜMün yaratdığım qayda-qanunların əsirinə çevrilmişəmsə, MƏNi MƏNdən kim xilas edə bilər?

**2007**

# ZAMAN

ZAMANın qatarı şütüyüb gedir. Səni hansı dayanacaqda salacağı bəlli olmaz. Baxdığın pəncərədən nə gördün, nəyin həsrətində qaldın – o, sənin qismətindir. Bir də yol aldığın ünvana doğru hansı dayanacaqda düşüb gəzməyi, görməyi, zövqlü dəqiqələr yaşamağı bacardınsa, bu sənin öz hünərin, öz qazancındır. Əgər stansiyalarda vaxtın darlığını bəhanə edib aşağı düşmədinsə, yeni məkanları yalnız pəncərədən seyr etməklə kifayətləndinsə, tənbəllik və ətalət canını aldısa özündən başqa heç kimi günahlandırmağa haqqın yoxdur.

**2007**

# FEVRALIN 28-i

Bu gün fevral ayı bizimlə vidalaşır. 337 gündən sonra təkrar görüşmək ümidilə. 28 günün mənə bəxş etdiyi 672 saatda nəyə nail oldum? Doğrudan, maraqlı sualdır. İnsanın öz qarşısında hesabat verməyi və səmimi olmağı kiminsə qarşısında hesabat verməkdən az önəmli məsələ deyil.

28 gündə nə işimdə, nə şəxsi həyatımda elə bir nailiyyətim yoxdur. Düşünürəm, yadıma heç nə gəlmir. Deməli, düzxətli, bərabərsürətli irəliləmə metodunu davam etdirmişəm. Yazıçılar buna "bozbulanıq həyat" deyirlər. Mən bunu zahirən optimist görünən "yaşadım, ömür qazandım" pərdəsi altında, əslində ölümə doğru sürünmək, ömrü itirmək kimi dəyərləndirirəm. VARlığında YOXsan! Ya da elə yox kimisən...

İnsanın şüuraltı məni ilə real həyatdakı kimliyi arasında fərq də elə bundan ibarətdir. Şüuraltı Mən VARlığının YOXa bərabər olduğunu dərk və qəbul edir. Həyatdakı Mən əslində YOX ikən özünü VAR kimi göstərir. Paradoksal vəziyyətdir. Ziddiyyətlər çarpazlaşan yerdə həqiqət meydana çıxır. Görəsən, bu məqamda mütləq həqiqət nədən ibarətdir? VARammı, YOXammı?..

Əgər yaşamaq yalnız nəfəs alıb yeməkdən, yatmaqdan və işləməkdən ibarət olsaydı, o halda digər canlılarla insanlar arasında böyük fərq olmazdı. İnsanın yaşamağında yaratmaq missiyası da var. Öz həyatını qurmaq, öz taleyinə fəal müdaxilə etmək imkanları da. Passiv seyrçi mövqeyi şüursuz məxluqlara xasdır. Sabaha körpü salan dünənindən ibrət götürmək üçün insana ağıl verilib. Həyatdan həzz almaq lazımdır. Görəsən, bəşər övladının neçə faizi bu həzzi ala bilir?..

**2007**

# ZAMANIN SƏXAVƏTİ

Hər şey Zamana bağlıdır, – deyirlər. O, yaralara məlhəm qoyur, unutdurur... Bəs itkiləri necə, qaytara bilirmi Zaman?! Yox!!! Deməli, Zamanın səxavətinə çox da ümid bəsləmək olmaz. İtirilmiş vaxtı, fürsəti Zaman heç kimə qaytarammayıb. Heç dahilərə də. Hələ mən gəncliyi, gözəlliyi, çevikliyi, enerjini demirəm.

Faktlar sübut edir ki, o qədər də qüdrətli deyil Zaman. Ona ümid bağlamaqdansa, durub elə bu andan etibarən işə başlayan daha uduşlu olur. Çünki hər şey öz zamanında gözəldir. Uşaqlığında gəlincik həsrətində qalmış birisinə qocalığında bu oyuncağı versən nə faydası?.. Gənclik illərini yellərə sovuran şəxs (istər şüurlu, istər qeyri-ixtiyari) ahıllaşanda nə qədər müdrikləşsə də, xeyri yoxdur. Dünəninə düzəliş verə bilməz. Ən yaxşı halda gücü bugününə yetər. Sabahkı günün gələcəyinə və sənin olacağına isə heç kim zəmanət verə bilməz. Sadəcə, hamımız buna ümid edirik.

**2007**

# NƏSİHƏT

Qocalmağa tələsmə. Vaxtı gələndə özü səni tapacaq.

Gəncliyə aludə olma. Zamanı keçincə səni tərk edəcək.

Cavanlığa da çox güvənmə. Dövranı əbədi deyil.

Bu gününlə yaşa! Çünki gerçəkdən sənin olan və itirə biləcəyin yeganə sərvət budur.

**2007**

# ÖMÜR

Hər kəsə ömür payı verilir. Amma heç də hamı bu sərvətdən yetərincə bəhrələnə bilmir. Şərti bölgü aparsaq görərik ki, bir qayda olaraq cəmiyyətdə GÜCLÜLƏR öz ömrünü yaşayır, ZƏİFLƏR – ətrafındakıların rəyindən asılı olanlar isə özgələrin rəva gördüyü ömrü yaşamaq məcburiyyətində qalır.

Güclü adam heç kimlə və heç nə ilə hesablaşmadan məqsədə doğru irəliləyir. Bu yolda onunçün bütün vasitələr məqbuldur. Hətta etik normalar belə başqalarını öz marağına, mənafeyinə tabe etdirməkçün istifadə olunur. Nəticədə... XOŞBƏXTLƏRi mühakimə etmirlər!

Zəif adamsa hamını razı salmağa çalışır, həyatını ətrafdakıların tələbinə uyğun qurur, mikromühitindəki şəxslərin maraqlarını öz istəklərindən üstün tutur. Canı yansa da, ürəyinin səsini dinləməyə cəsarət etmir. Hətta yaxınlarının bu FƏDAKARLIĞA ehtiyacı olmayanda belə. Və bu durumunu HUMANİSTLİK, XEYİRXAHLIQ kimi məziyyətlərlə dolaşıq salır o. ALTURİZM (başqaları üçün yaşamaq) müsbət keyfiyyət sayıla bilsə də, insanı xoşbəxt etmir!

Verilən ömür payını GÜCLÜ şəxs özünə, ZƏİF şəxs özgələrinə xərcləyir. GÜCLÜ özünün istədiyi kimi, ZƏİF isə özgələrinin yönəltdiyi kimi yaşayır.

Böyük YARADAN insanlara sevgi, şəfqət, mərhəmət, mehribanlıq, dostluq, yoldaşlıq, qayğıkeşlik, qan qohumluğundan doğan bağlılıq, həmdəmlik kimi mənəvi keyfiyyətləri bəxş etməklə kiçik BƏNDƏLƏRİNƏ bir-birini yaşatmaq imkanı verib. Amma İNSAN başqalarının mənafeyi ilə yanaşı, öz hüquq və azadlıqlarını da qorumağı bacaranda ŞƏXSİYYƏT olur.

**2007**

# ÖLÜM

ÖLÜM həyatın ən böyük ədalətidir. Fərq qoymadan hamıya nəsib olur.

ÖLÜM SON DEYİL, BAŞLANĞICDIR. Yoxluğunda yaşaya biləcəyin zaman kəsiyinə "xoş gəldin" deyir. İnsan xatırlandığı qədər yaşayır. Bəşər övladının əsl ölümü dirilər arasında unudulduğu vaxtdan başlayır, dünyasını dəyişdiyi gündən yox. Neçə ki, səni yada salanlar, məzarını ziyarətə gələnlər, səninlə bağlı xatirələrin işığına isinənlər var, yaşayacaqsan.

Hər şeyin nisbi olduğu bu həyatda ÖLÜM MÜTLƏQ HƏQİQƏTDİR. Hər bir fərdi törətdiyi əməllərlə cəmiyyət qarşısında hesabata dayandıran qüdrətdir. ÖLÜM dirilərin ürəklərində və beyinlərində qurulan məhkəmədə mərhumun hökm gözlədiyi prosesdir. ÖLÜM aramızdan köçən adamın sağlığında törətdiyi əməlləri elin gözündəki tərəzidə çəkdirən gücdür. Yaxşını-pisi dəyərləndirmə vasitəsidir. ÖLÜM HƏQİQƏTİN AŞKARLANMASINA TƏKAN VERƏN LAKMUS KAĞIZIDIR.

ÖLÜM KEÇİD MƏRHƏLƏSİDİR. İnsan cildində zühur etmiş materiyanın öz formasını dəyişməsinə start verən məqamdır. Ruhun sonsuzluğa, göylərə pərvazlandığı andan etibarən ölümdən sonrakı həyat başlayır. Tədricən cismi torpağa və atmosferə qarışan insan göyərən bitkidə, xırdaca həşəratda yenidən canlanır. Çünki əbədi olmayan bu dünyada təbiətdə heç nə itmir, heç nə yox olmur. Yalnız formasını dəyişir. Başqa qiyafədə və başqa missiya ilə yenidən peyda olur. Bəlkə qoxuladığın o çiçək bir cavanın cismindən yaranıb, tapdaladığın ot ananın saçlarıdır, ayaqladığın həşərat atanın tənindən törəyib, gecənin zülmətində işıldayan o böcək parıltısını babanın sümüklərindəki fosfordan alıb. Bəlkə də?.. Bunu biləmməzsən.

Əgər materiyanın ölməzliyinə əminiksə, o halda ruhun ölməzliyinə niyə şübhəylə yanaşmalıyıq? Bir insanın bədənində öz missiyasını başa çatdıra bilməyən ruhların qeyri-müəyyən müddətdən sonra başqa bir insanın cisminə can verdiyini, yenidən bu dünyaya qayıdıb öhdəsindəki missiyanı tamamlamağa çalışdığını iddia edən dini-mistik-fəlsəfi düşüncə tərzini niyə rədd etməliyik ki?..

İnsan ölümündən sonrakı həyatda əsasən üç vasitə ilə yad olunur: birincisi, canından can verdiyi övladları, nəsli; ikincisi, törətdiyi əməlləri; üçüncüsü, yaratdığı əsərləri sayəsində. Birinci və ikinci vasitə bütün insanların, üçüncü isə yalnız dahilərin qismətidir. ƏSL HÜNƏR ÖLÜMÜNDƏN SONRAKI HƏYATDA YAŞAMAQ HAQQINI QAZANMAQDIR.

**2007**

# YOL

YOLun GÖZƏGÖRÜNƏNİ və GÖZƏGÖRÜNMƏYƏNİ var. Yol var torpaqdan-asfaltdan keçir, yol var havadan-sudan, yol da var fikirdən-düşüncədən keçir. Ürəkdən-ürəyə görünən yollar var, məqsədə çatmaq üçün aranan yollar var... Mahiyyətə varanda görürük ki, nəqliyyat yolu qət etməkdən daha çox, mənzil başına çatmaq prosesində hərəkətin sürətini artırmaq vasitəsidir. Çünki qarşıdakı YOLu qət etmək, məqsədə çatmaq, vəziyyətdən çıxış yolu tapmaq üçün ağlından-zəkasından bəhrələnənlər də var, dünya nemətlərindən, süfrədən istifadə edənlər də, arxasında dayaq olanların gücünə güvənənlər də, ALLAHın mərhəmətinə sığınanlar da! Bir sözlə, variantlar çoxdur.

Yaşamın və mövcudiyyətin qanunauyğunluqlarını kəşf etməyə yönəlmiş elmi-praktik araşdırmaların nəticəsinə aparan yolların xəritəsini kim cıza bilər?! Milyon illər boyunca bəşər övladının yıxıla-dura, yanılaraq, səhv edərək topladığı həyat təcrübəsinin, gəldiyi qənaətlərin, tapdığı həqiqətlərin, cəmiyyətin mənafeyinə xidmət edən YOLLARIN haralardan keçib-gəldiyini kim dəqiq deyə bilər?! "Böyük yolu"ndanmı, "əyri yol"danmı, "düz yol"danmı, "haqq yolu"ndanmı, hiylələr labirintindənmi?

Yol ver, YOLun möhtəşəmliyini dərk edək, ey Yol Sahibi! Bizi ömür boyu müşayiət edən problemin həllində – "yol tapmaqda" qüdrətimizi və acizliyimizi etiraf etmək böyüklüyünə qovuşdur.

**2008**

# GÜC

Həyatda hər şeyi güc həll edir – gözəlliyin, ağlın, elmin, silahın, pulun gücü. Baxır harda hansı qalib gəlir.

**2008**

# İTKİ

İnsanın pul itirməyi itki deyil. Əsl itki sənə olan məhəbbəti, xeyirxah münasibəti, etibarı itirməkdir.

**2008**

# GÜZGÜ

Güzgü göz qabağında olsa yaxşıdır. Eyiblərini vaxtında görüb islah edərsən. Onun dili yoxdur, amma düz danışır. Güzgü sənə görmək istədiyini yox, olanı göstərir. Əgər ağlını əməllərinin güzgüsünə çevirə bilsən, səhvin az olar. Çalış, özün öz güzgün ol!

Həyatla güzgü arasında maraqlı paralel aparmaq olur. Çünki həyat da güzgü kimidir. Sən ona nikbin yanaşanda, o da sənə gülümsəyir. Sən həyatdan küsəndə, o da səndən üz döndərir.

**2007**

# REALLIQ VƏ TƏSƏVVÜR

Ürəyincə olan münasibətin obrazı, yaratdığı ovqat qarşındakı şəxsin sənin zövqünə uymayan zahiri obrazını üstələyir. Artıq sən ona baxanda onun özünü yox, səninçün yaratdığı ab-havanın, şəraitin obrazını görürsən. Beləliklə, gerçəklik təxəyyülə təslim olur, mənəviyyat qalib gəlir.

**2008**

# ÖZÜNÜMÜDAFİƏ İNSTİNKTİ

Yad əllərə verilən uşağın çığırtısı anasına məhəbbətindən deyil, özünümüdafiə instinktidir. İctimai yerlərdə, sərnişin nəqliyyatında, qonaqlıqda müvəqqəti olaraq yad adama tapşırılan körpə özünə qarşı təhlükə hiss edir. Özünü müdafiə etmək üçün digər imkanları olmadığından qışqırmağa başlayır.

**2008**

# RƏFİQƏ AMİLİ

Hər bir QADINın həyatında RƏFİQƏ vacib amildir. Doğmalar, qohumlar, iş yoldaşları öz yerində. RƏFİQƏnin funksiyası və mahiyyəti tamam başqadır. Onunla daha çox məsələni bölüşmək olur. Çünki aranızdakı DOSTLUĞU MÖHKƏMLƏNDİRMƏK İSTƏYİndən savayı ortaq heç nəyiniz yoxdur. Məsələn, Bacından olan narazılığını Anana, Anandan olan narazılığını isə Bacına deyə bilərsən. Amma səni QANE EDƏN CAVAB ala bilməzsən. Çünki onların hər ikisi səninlə olduğu kimi, bir-birilə də qan qohumudurlar.

Əvvəla, sənin emosional durumda etdiyin giley-güzar gizli qalmayacaq, KONFEDENSİALLIQ QORUNMAYACAQ, narazılığın gec-tez doğmana çatacaq ki, nəticə etibarilə münasibətlərin bir az da gərginləşməsinə rəvac verə bilər. İkincisi, sən SUBYEKTİV CAVAB alacaqsan ki, bu da tamamilə təbiidir və birmənalı olaraq sənin probleminin həllinə köməyi azdır.

İnsanın bölüşmək-dərdləşmək ehtiyacı var. Amma bu prosesdə doğmalarına üz tutanda qarşılaşa biləcəyin situasiya eynilə qohumlar-

la münasibətdə də mövcuddur. Çünki ORTAQ QOHUMLUQ OXŞAR MÜNASİBƏTLƏR TƏNZİMLƏYİR. Sirr-sözünü, səni narahat edən məsələləri iş yoldaşınla bölüşmək də sandığın qədər məqsədəuyğun nəticə vermir. Bu halda ortaq iş mənafeyi və ortaq maraqlar həmkarından səmimi məsləhət almaq imkanlarını sual altında qoyur. Həmin məqamda qarşındakı şəxsin kimliyi, xarakteri və sənə münasibəti mühüm əhəmiyyət daşıyır. Baxar KİM KİMƏ ürəyini açır.

Lakin ORTAQ qohumluğun və iş mənafeyin olmayan, üstəlik də SƏNİN SƏVİYYƏNƏ, DÜNYAGÖRÜŞÜNƏ, DÜŞÜNCƏ TƏRZİNƏ YAXIN, HƏYATINA və XARAKTERİNƏ BƏLƏD OLAN RƏFİQƏn səni həssaslıqla dinləyir. Öz ağlı, fəhmi, sənə canıyananlığı çərçivəsində hadisəni təhlil edərək münasibət bildirir. Səni yaxşı tanıdığından mövcud mənəvi-psixoloji durumundan sonra hansı addımları atacağını da düzgün proqnozlaşdırır. Ağıllı RƏFİQƏ səni düzgün yönləndirər. Belədə ötəri incikliyin böyüməsi ehtimalı istisnadır.

O, SƏNİN RƏFİQƏN olduğundan tərəfkeşlik də edə bilər. Amma bu tərəfkeşlik o qədər də ziyanlı nəticələrə gətirib çıxarmır. Uzaqbaşı sənin əsəblərinin sakitləşməyinə, özünü müdafiə olunmuş hiss etməyinə yardımçı olur. Əgər RƏFİQƏn məsələyə OBYEKTİV YANAŞARAQ sənin haqlı olmadığını görür və anladırsa, bu mövqe gerçəkliyi dərk etməyinə təkan verir. OBYEKTİV və ya SUBYEKTİVliyindən asılı olmayaraq RƏFİQƏnin verdiyi cavab, hadisəyə bəslədiyi münasibət

psixoloji travmasız qəbul olunur.

RƏFİQƏnlə SEVİNCİNİ PAYLAŞMAQ da çox vacibdir. Onu yalnız problemlərinlə yükləməyin deyil, sevincinə və uğurlarına şərik etməyin, şad gününün şahzadəsinə çevirməyin ilk növbədə sənin SƏMİMİYYƏTİNİN və ƏSL RƏFİQƏ olduğunun göstəricisidir. Ortaq mənafedə bulunduğunuz digər xanımlardan fərqli olaraq, inandığın və etibar etdiyin RƏFİQƏnlə sevincini paylaşanda PAXILLIQdan doğan problemlərlə qarşılaşmaqdan da sığortalanmış olursan.

**2007**

# II Fəsil
# MƏNSUR ŞEİRLƏR
# MİNİATÜRLƏR

# YURD AĞRISI

Ruhum orda, cismim burda. Nə qədər yaşaya bilər ruhsuz bədən?.. Yurdum orda, yuvam burda. Nə hərarət verə bilər yurdsuz yuva?.. Ellər köçüb, boş qalıbdı evlər orda. Kimə gərək elsiz oba?.. Baba orda, bala burda. Nənə orda, nəvə burda. Kimə gərək belə bölgü, belə qayda? Yarım orda, yaram burda. Sağalarmı belə yara?.. Dərman orda, dərdim burda. Təbib gərək çarə qıla. Səsim orda, sədam burda... Dəhşətə bax, yadam orda, yadam burda!.. Verilibdir ölüm hökmüm.

Mən mövcudam, yaşamıram. Doğma yurda dönənəcən. Mən mövcudam, SƏN mövcudsan, doğma yurdum. Qəlbimdəsən. Ölənəcən, ölənəcən.

Bilsin bəşər, bilsin aləm. Didərginlər yaşamırlar, onlar ancaq mövcuddurlar, Vətəninə dönənəcən. Didərginlərin qəlbində Vətən özü yaşayacaq, yaşadıqca yaşadacaq didərgini... ölənəcən.

**1990**

# HƏSRƏT

Munis qonunda dünyaya göz açdığım Şəhər. Mən Sənə həsrət! Sən mənə həsrət!

Hər səhər dağın dalından boylanıb Səni salamlayan Günəşinə həsrət! Hər gecə nuru pəncərəmdən süzülüb məni uyudan Ayına həsrət! Başıma çətir tutan mavi səmana, pənbə buludlarına həsrət. Torpağına həsrət! Daşına həsrət!

Boyun-boğazımı sığallayan, yanaqlarımı oxşayan mehinə həsrət. Zülfümü pərişan hala salan küləyinə həsrət. Göz yaşı kimi dumduru leysanına həsrət. Bəm-bəyaz qarına, salxım-salxım buzuna həsrət. Yanan ürəkləri sərinlədən bumbuz suyuna həsrət. Şırıl-şırıl axan Gedər çayın zümzüməsinə həsrət, selinə həsrət. Budaqlarında uşaqlığımın min-min xatirəsi yaşayan ağaclarına həsrət. Üzü gündoğana baxan evimizə həsrət. Əlvan geyimli yazına, zümrüd libaslı yayına, qızılı payızına, bəyaz qışına həsrət.

Ayrılığına dözə bilmədiyim Şəhər. Mən Sənin çiçəyinə həsrət, gülünə həsrət. Bu həsrətin sonu olummu, ölümmü, ilahi?

**1992**

# GEDƏR ÇAYI

Sahilində böyüdüyüm Gedər çayı! Məcrandan çıxıb daşar ikən daşmaz oldun. Yağı əlinə düşəli axar suların axmaz oldu. Dəliqanlı gur sellərin sahilləri basmaz oldu. Sahil boyu Səni qucan bağ-bağatlar yaman soldu. Sənin qoynunda çimişən, Sənə qovuşan-qarışan türk balalar görən nooldu? Balıqların baş götürüb qaçdı-getdi, görən hara? Yağı hökmü, yad nəfəsi gündə Səni çəkdi dara. Suyunu bulandırdılar, yolunu dolandırdılar. Gah məcranı dəyişdilər, üstündə qəfəs tikdilər. Gah yolunu bağladılar, təbiətin övladını diri-diri ağladılar. Sən kükrədin, Sən qabardın. "Dəli Gedər" qaldı adın.

Sahillərin boşaldıqca xiffət etdin, Gedər çayı. Ta binadan üzün-gözün öyrəşmişdi biz türklərə. Hər səhər Sənə baş çəkən, yuxularını danışan, suyunda çimib pak olan azalırdı ildən-ilə. Gedənlərin dərdi Səni yaman dərdə saldı, çayım. Gedənlərin yuxuları axı Səndə qaldı, çayım. İldən-ilə "arıqladın", ildən-ilə qurudun Sən. Öz qınına çəkilərək yavaş-yavaş duruldun Sən. Əsirgədin gur suları yağılardan, Gedər çayı. Qəsdə qarşı qisas aldın Sən yadlardan, Gedər çayı. Zümzümən ağıya döndü. Gedənlərin həsrətinə dözəmmədin, Gedər çayı. Mən də sahilinə gəlib gəzəmmədim, Gedər çayı. Salamat qal, Gedər çayı! Yollarımız ayrı düşdü. Bəlkə, bir də biz görüşdük... Bəlkə, bir də biz görüşdük!..

**1992**

# YURDUM MƏNİM

Kim deyir ki, ayrılmışıq?! Yalan sözdür! Yalan sözdür. İçimdədir yurdum mənim. Özümdədir. Mən gələndə ürəyimi doğma yurdun havasına bələmişəm. Hələ dözür. Bədənimdə o yerlərin dost-doğmaca küləyindən, günəşindən, mehindən hörülmüş gözəgörünməz tor köynək gətirmişəm. Əynimdədir. Dədə-baba ocağından aldığım nur qəlbimdədir. Ağacların budaqları, budaqların döyənəyi əlimdədir. Gözlərimi yuman kimi doğma yurdda olan-qalan hər nə varsa mənimlədir, mənimlədir!..

Kim deyir ki, ayrılmışıq?! Yalan sözdür. İçimdədir yurdum mənim. Özümdədir.

**1990**

# ÖMÜR YOLU

Yol gedirəm. Olumdan ölümə doğru. Nə uzundur? Yorulmuşam. Yol gedirəm. Başlanğıcdan sona doğru. Nə çətindir? Darılmışam. Yol gedirəm. İrəvandan hara doğru? Heç bilmirəm. Yol gedirəm. Məni yaradanlardan mən yaradacaqlarıma doğru. Çatacağammı?? Yol gedirəm. Zirvədən zirvəyə doğru. Arada uçurum. Deyəsən, elə ilin-günün bu anı, bu məqam uçurumun dibindəyəm. Qalxacağammı? Yol gedirəm. Yoluma çiçək düzənim yox. Tozlu-torpaqlı yollara su səpənim yox. Sıldırım qayaları ram edənim yox. Keçilməz keçidlərdə bələdçim yox. Yoluma daş tökən, çınqıl atan çox.., arxamda dayaq olan yox.

Yol gedirəm. Ortadayam. O başdan burayacan öz gücümə gəlmişəm. Yolumdakı qumları-çınqılları, daşları-kəsəkləri təmizləyə-təmizləyə. İri-iri qayaları yolumdan rədd edənəcən illəri itirə-itirə. Həyatın başıma qar qalağı kimi yağdırdığı bəlalardan ibrət götürə-götürə. Hər şeyə özüm, hər yerə özüm. Nə qədər qaçmaq olar, ilahi?! Yarışamı çıxmışam? Ömrümü qaçhaqaçdamı yaşayacağam? Beləmi yazıbsan bəxtimi, Ulu Yaradan?

Gün olub min yerə parçalanmışam. Vaxt olub qayğıdan daldalanmışam, yenə sığal çəkib çiynimə bu yük. İrəliyə baxmışam, əl uzadanım yox. Arxaya baxmışam, itələyənim yox. Ümidim, gümanım özümə qalıb. Durub düzəlmişəm yola. Taleyin səxavətindən bu yükləri daşımağa, bu işləri aşırmağa gücüm-qüdrətim çatıb. İndi isə... İndi isə içimdə qiyam başlayıb. Üsyankar qəlbim rahatlıq istəyir. Mənə pay böləndə bu qədər əzablı qüdrət bəxş etməkdənsə, bir azca bəxt payımı artırsan nə olardı, Ulu Tanrı?.. Yolun ortasındaca yorulmuşam. Mənmi günahkaram, Sənmi günahkar?!

**1994**

# TƏƏSSÜRAT

Sevgilərin ən yanğılısını Mənə verdin. Vətən dərdi, Ana məhəbbəti, Ailə Ocağının həsrəti gizli-gizli, için-için yandırdı, ruhumu kərpic-kərpic sökdü, misqal-misqal çökəltdi Məni. İçimə axan göz yaşlarımdan qəlbimdə ümman yarandı. Sərhədə çevrildi, Məni Özümə yaxınlaşmağa qoymadı. İllər boyu Özümdən qaçdım. Bu yetməzmiş kimi, sevdiyimdən də qaçmağı Mənə rəva gördün. Çox olmadımı sınaqların, İlahi?!

Sevdaların ən nakamını Mənə verdin. İstəmədin "doymuş məhlul" olam. Mən daşmıyam, qayamıyam?? Qranit mövqeyində yarım əsrin dizini qatladım. Sonra nə olsun? Bunun anlamı nə, mənası nə? Cəmiyyətə, ya kimsəyə faydası nə?

Sevənlərin ən zərifini, ən atəşlisini Mənə verdin. Verdin də, "uzaqdan bax, yana-yana qal" dedin. Niyə??

Məhəbbət rəmzi olan qırmızı güllərlə süslənmiş ağappaq yatağımda qəlbimin üsyanı gözlərimdən püskürür. Vulkan kimi. Lavalar çöhrəmdə xəritə cızır. Kimsənin görəmməyəcəyi "məhəbbət xəritəsi" barmaqlarımın müdaxiləsilə çənəmdə bənd alır. Sinəmi də işğal etməsinə yol vermirəm. Zatən onun varlığından xəbəri olan yox. Bu xəritəni heç bir topoqraf oxuyammaz.

...Yurdumu əlimdən aldın. Dünyanın böyük siyasətimi aldı, işğalçımı, Mənə dəxli yoxdur. Sən yol verməsən, alammazdılar! Uşaqlığım, köklərim, əcdadlarımın qəbirləri, budaqlarında izim qalmış ağaclar, daşımız-torpağımız,.. orda qaldı. Ruhumun və cismimin hər zərrəsini yandıran bu itkilərin yerini dünyanın heç bir sərvəti dolduraммaz. Doğma yurdda qalan əzizlərimin qəbrini indi ancaq yuxula-

rımda ziyarət edirəm. Budurmu Sənin ədalətin?!

...Öncə Atasız qaldım. Sonra Anasız. Çətinliklə olsa da, canımdan can qoparan reallığı qəbul etdim. Həyatın qanunudur deyə, barışantəhər oldum bu itkilərlə. Həyat qanunlarına tabe olmayan o qədər itkilərim var ki!.. Bəs, onların hesabını kimdən sorum?

Verdiklərini gözümə soxub, vermədiklərinə bəraət qazandırmağa çalışma, İlahi. Məni nankor sayma. "İnsan" olaraq yaratdığın bəndənə "adicə insan" həyatı ver. Vəssalam.

**2009**

# ANASIZ İLLƏR

İllər ötür, nəşin torpağa, ruhun qəlbimə çökür. Əsr, minillik dəyişdi. Bizim rabitəmiz dəyişmədi. Ana bətnindən bala cisminə hopmuş o böyük məhəbbəti söndürməyə qoca dövranın gücü çatmadı. Zamanın sınağından çıxdı bu bağlılıq. Get-gedə bənzəyirəm sənə yerişimdə-duruşumda, hərdən məlul baxışımda, hərdən şaqraq gülüşümdə.

Otağımın hərarəti isitmir məni. Divar kağızındakı çiçəklərdən üstümə yağır qar. Yatağımın yanında boş qalmış yatağın mənim məhəbbətimin, sənin xatirənin işığına isinir. Nostalji...Yatağımı yatağına dəyişdim. Boş qalmış öz yerim göz dağım oldu. Yuvasından uçmuş quşlar kimi döndüm öz yatağıma. İndi də sənin yatağının səliqəsi, gecə-gündüz açılmayan qatı yandırdı məni. Bu ev, o ev deyil. Yaraşığı artıb, cazibəsi azalıb. Sevinci, hərarəti yoxa çıxıb. Bu məkan anasız günlərimin ünvanı. Bu məkan analı günlərimin yadigarı.

Anamın gedişiylə mənim qismətimə düşən sevgi, sevinc payı bir az da azaldı. Nəvaziş yox oldu. Anam 1996-da qaldı. Mən 1997-yə keçdim. İzimi yaşadacaq varlıqlara bəslədiyim ümidlər 1997-də qaldı. Mən 1998-ə yol aldım. Həm Anam, həm arzularım XX əsrdə qaldı. Mən XXI əsrə qədəm qoydum. Əzizlərim 2-ci minillikdə qaldı. Mən 3-cü minillikdəyəm. Bizi bir-birimizdən min illik zaman məsafəsi ayırır. Ayırırmı? Yox, yaxınlaşdırır! Üzü sənə doğru irəliləyirəm, Ana can. Gəlirəm, mənim RÜBABƏm, gözlə məni.

**2001**

# SƏNƏ DÖNMƏK İSTƏYİRƏM

Baş alıb getmək istəyirəm bu məkandan. Üzərimdə heç bir məsuliyyəti olmayan – nə bitib-tükənmək bilməyən kommunal problemlərinə, nə məişət qayğılarına, nə səliqə-sahmanına, nə də qonaqpərvərliyinə cavabdehlik duymayacağım bir evdə müsafir-sakin olsam, sağalar bəlkə yaralarım. Azalar yüküm. Ötüb keçər gərginliyim.

Səni tərk etməyim xəyanət deyil, EVİM, Sənə olan sevgimdəndir. Birlikdə xoşbəxt günlər-anlar yaşamaq istəyimdəndir. Küsmə Məndən. Mən getsəm də, Sən üz döndərmə. Çünki Sən Mənim ALINMAZ QALAMsan! Hakimi-mütləq olduğum ƏN MÖHTƏŞƏM SARAYIMsan. Şəxsiyyət kimi maddi var-dövlətimin hüquqi-coğrafi hüdudları Səndə bitir. ƏN ETİBARLI SIĞINACAĞIM, ƏN İSTİ OCAĞIM, ƏN RAHAT YATAĞIM Səndədir. Axşamlar işdən qayıdanda  kimsəylə qarşılaşmasam da, Sənin gülər üzün könlümü nurlandırır. Əhvalımı yüksəldir, günün-yolun yorğunluğunu canımdan çıxarır. Səni seyr etməkdən zövq alıram. VARlığın qəlbimə rahatlıq, beynimə sərinlik gətirir. Özümə inamımı möhkəmləndirir. Gözümə işıq, ürəyimə təpər verir. İnan ki, Səni kənardan gətirdiyim xoşagəlməz emosiyalarla yükləmək istəmədiyim üçün gedirəm. Niyyətim Səndəki müsbət auranı qorumaqdır.

Sən yeganə aktyoru və yeganə tamaşaçısı Mən olan ƏN DRAMATİK TEATR SƏHNƏSİsən. Özümə kənardan baxdığım, Özümü yaxından izlədiyim TAMAŞA SALONUsan. İç dünyama boylanmaq üçün

Sənin yardımına hər zaman möhtacam. Ən sərt Tənqidçimsən. Ən etibarlı Sirdaşımsan. Ən sadiq Ömür Yoldaşımsan. Yarada bildiyim ƏN BÖYÜK ƏSƏRİM Sənsən. Analoquna malik olmadığım bu boyda sərvətdən imtina edərəmmi heç?

Sən Mənim çalışqanlığımın və tənbəlliyimin ən dürüst şahidisən. Bir ömürlük QAZANCIMın GÜZGÜSÜsən. Həyatımdakı qələbələrin ZƏFƏR ÇƏLƏNGİ, məğlubiyyətlərin BAĞLI BOĞÇASIsan. Qadın kimi, ziyalı kimi, insan kimi VARLIĞIMIN və ZÖVQÜMÜN İFADƏSİsən. Qabiliyyətlərimin tərcümanısan. Nəsilbənəsil, ulularımdan Mənə ötürülmüş GEN YADDAŞIMIN TƏZAHÜRÜSƏN. GÖRÜB-GÖTÜRDÜKLƏRİMİN MƏCMUSUsan. Sənin dizaynındakı hansı detalın ömrümdə izi qalmış hansı əzizimin xatirəsindən bəhrələndiyini, evdə hökm sürən davranış tərzinin mənəviyyatıma hopmuş hansı ənənədən qaynaqlandığını Məndən yaxşı bilən yoxdur. Bunu Qonaq gözü ayırd edəmməz. Əziyyətlərinə də, məziyyətlərinə də Mən səviyyədə bələd olan çətin tapılar. Səndəki qayda-qanunlara qeyd-şərtsiz riayət olunmasına can atan da Mənəm, onları pozmağa-dəyişməyə cəhd edən də Özüməm. Həyatımın çox vacib amilinə, varlığımın ayrılmaz parçasına çevrildiyinin fərqindəyəm. Amma... yenə də getmək istəyirəm.

Tənhalığın bütün anatomiyasını və fiziologiyasını əzbərləmiş Mən Məni bezdirmiş yaşam tərzindən ötrü qəribsəmək ümidilə baş alıb gedirəm bu məkandan. Gedirəm. Yenidən qayıtmaq üçün. Sənə dönmək üçün! EVİM Mənim!

**2008**

# OVQAT

Dünən kədəri-qəmi silib-süpürüb atdım evimdən. Silkinib qalxdım uğursuzluqların uçqunları altından. Çırpdım üst-başımdan bədbinliyin tozunu-torpağını. Yuxarı başda oturtduğum Bədbəxtliyi qovdum mənzilimdən bayıra. İnsan gözüylə görünməyən ağrılar yaşadığım illərdən miras qalmış dərdlərimi arxivə göndərib sevincə qucaq açdım. Evimə Xoşbəxtlik qonaq gəldi. Sakini olmadığı bu məkanda özünü çox rahat hiss edirdi.

**2007**

# DƏNİZ – ADA

DƏNİZ ADAya aşiq olmuşdu. Onu qucaqlayıb bərk-bərk bağrına basmışdı. ADA DƏNİZin köksündə yaşayırdı. Yuxuda olanda belə onun ürək çırpıntılarını duyurdu.

DƏNİZin mavi suları gecə-gündüz ADAnın sahillərini döyəcləyir, sanki "Mən buradayam, yaxında, sən hara boylanırsan?" – deyirdi. DƏNİZin ləpələri ADAnın vücudunu sığallamaqdan doymurdu. Gecələr DƏNİZ dalğalarıyla ona layla çalırdı. Səhərlər ləpə dodaqlarıyla ADAnı busələrə qərq edirdi. Gündüzlər ayna gözlərində ADAnın min cür rəsmini çəkirdi. Axşamlar hərdən DƏNİZin fırtına məhəbbəti şahə qalxırdı. Eşqin simfoniyasını oxuyan dalğalar ADAnın həyatına yep-yeni çalar gətirirdi. Sanki bağrına dirilik suyu səpirdilər, içdikcə içmək istəyirdi. Su saflığı, su qüdrəti, qovğa edən dalğaların əzəməti ADAnı həm cəzb edir, həm qorxudurdu. ADA çırpınıb DƏNİZin qolları arasından çıxmaq istəyirdi. Amma... yox... qəlbində etiraf edirdi ki, bu böyüklükdə məhəbbətlə sevilmək xoşuna gəlir.

DƏNİZin təmənnasız sevgisi ADAnı fərəhləndirir, qürurlandırırdı. Elə ki, DƏNİZin məhəbbət himni başlandı ADA əsrarəngiz mənzərənin seyrinə dalırdı. Gah lirik duyğuların, gah da qəzəbin, üsyanın daşıyıcısı olan dalğalar ADAya çırpılıb çilik-çilik olur, zərrəciklərə çevrilərək günəş şüaları altında bir özgə gözəllik yaradırdı. ADAnın qarşısında cilvələnən DƏNİZ özünü sevdiyinə min bir libasda nümayiş etdirirdi – həm nazlı, həm qəzəbli... Sonra masmavi sular, al-əlvan molekullar yenidən DƏNİZə qayıdıb birləşir, elə bütövləşirdi ki, san-

ki heç bölünməmişdilər. ADA DƏNİZin bu keyfiyyətinə heyran idi. Dalğalar sakitləşəndən sonra havada qəribə bir sərinlik qalırdı. ADAnın ruhunu dinclik, rahatlıq duyğusu bürüyürdü.

DƏNİZin gözəlliyinə, mübarizliyinə vurğun olsa da, hələm-hələm təslim olmaq istəmirdi ADA. Zaman-zaman ona meydan oxuyurdu, şıltaqlıq edirdi, nazlanırdı. “Yaşadığım, var olduğum məskən sənin köksün olsa da, mən də mənəm!” – deyirdi DƏNİZə. Beləcə ömür baş alıb gedirdi, ADAyla DƏNİZ duyğular selində qərq olurdu.

Əslində ADA DƏNİZin, DƏNİZ ADAnın əsiri idi. Yer kürəsində yeni geoloji proseslər, coğrafi dəyişikliklər baş vermədikcə DƏNİZlə ADAnın ayrılması mümkünsüzdü. Birgə var olacaqdılar!..

**2008**

# QAYIQ HARADA XOŞBƏXTDİR ?

Sahildə, ləpədöyəndə sakit-sakit dayanmışdı QAYIQ. Dənizə baxırdı. Lacivərd sularda bərq vuran günəşi seyr edirdi. Arabir mavi ənginliklərə boylanırdı. Birdən göyün üzü tutuldu. Qaşqabağını turşudan səma ağlamağa başladı. Səmanın göz yaşları illər həsrətlisi kimi dənizə qovuşmağa tələsirdi. Damcılar elə iri idi ki... Bu həsrət yağışında islandı QAYIQ. İçində nostalji duyğuları baş qaldırdı. Hər gün dənizə çıxdığı vaxtları yadına düşdü. Birdən ona elə gəldi ki, bürkülü havada gəzintiyə çıxıb, dənizin mehi yanaqlarını sığallayır. QAYIQ yerindəcə yırğalandı. Bu mehin sərinliyini canına yaymaq istədi. Həmin anda gözlərini qapamışdı QAYIQ. Özünü duyğuların qucağına atmışdı. O, gözlərini açınca bir özgə mənzərənin şahidi oldu. Sevən sevdiyinə qovuşmuş, göyün üzü açılmışdı. Göy qurşağı səmanı yeddi rəngə boyamışdı. Bu gözəllik dənizi necə valeh etmişdisə, özünü unudub heyran-heyran göyə baxırdı. Qəfildən sular şahə qalxdı. Dalğa əlini uzadıb göy qurşağını özününküləşdirmək istədi. Gözlənilməz sıçrayışdan ləpədöyəndəki QAYIQ müvazinətini itirdi. Ləngər vurdu. Özünü tarazlayınca avar qollarını yanlarına sıxdı. Döyüşə hazır əsgər durumunu aldı. Nədənsə ona elə gəldi ki, təlatümlü dənizdə axırıncı dəfə ölüm-dirim mübarizəsi aparır. Niyə axırıncı dəfə? – bunu özü də bilmədi.

Qayığın yaşadığı iki məskən vardı: biri sahil, biri dəniz. Sahildə əmin-amanlıqdaydı, rahatıydı QAYIQ. Dənizdə daim risk altındaydı, gecə-gündüz yaşamaq uğrunda, var olmaq yolunda çarpışırdı. Rəqi-

bi gah dalğalar olurdu, gah da iri balıqlar. Bir dəfə hətta qasırğayla əlbəyaxa olmuşdu. Amma dəniz onu elə ovsunlamışdı ki, sahildəki seyrçi mövqeyi ürəyini açmırdı. Hərəkətsizlikdən çılğınlaşırdı. Ruhundakı dinamika üsyan edirdi. Dənizdə yaşamaq istəyirdi QAYIQ. Tufanlara, çətinliklərə sinə gərə-gərə. Anlamışdı ki, passiv seyrçi mövqeyi onun missiyası deyil. O, əsl həyat yaşamaq istəyirdi.

QAYIQ özünü sahildə yox, dənizdə xoşbəxt hiss edirdi!.. Dənizdə!

**2007**

# YUXU

Gecənin qayğısız qolları alır məni qoynuna. Yorğanın qayğıkeş əlləri dolanır boynuma. Arsız yuxu, bivec mürgü sığal çəkir vücuduma. Alıb aparmaq istəyir məni gündüzün qayğılarından uzağa. Xeyirxahlarımın sevgisindən, bədxahlarımın fitnə-fəsadından qırağa. Kütləşdirir duyğularımı yuxu, keyləşdirir şüurumu mürgü. Alır məni qanadlarına oğuz ərənlərinə qalib gələn YUXU. Qüdrətinə bax ki, cismimi yatağa gömüb ruhumu səyahətə aparır. Gözümə-könlümə hopmuş gözəlliklər diyarında gəzdirir məni. Xatirələrimin can çəkişdiyi iç dünyamdan uzaqlaşdırır. Uyudur məni. Reallıqdan ayırır. Aldadıb ömrümdən özünə ömür payı almayınca yaxamdan əl çəkmir. Həyatımın ortağı olan yuxuyla didişə-didişə üzü səhərə yol alıram. Budur. Yuxunun ram etdiyi İdrakım diksinib oyanır. Məlum keçmişimdən naməlum gələcəyimə aparan yolda bugünümü axtarır...

**2004**

# TƏNHA QADIN

**Dünyalarca sevdiyim adamlar var,**
**sevgimdən xəbərsiz.**
**Qəlbimə hakim olmaq istəyənlər var,**
**qəlbimdən xəbərsiz.**

Duyğularına sarılıb yatar TƏNHA QADIN. İsmətini istəyinə qalxan edər TƏNHA QADIN. Bayramlarda hədiyyəsini, xəstələnəndə dərmanını özü alar. Ruhu inlər.., üzü gülər. Qəlbi yanar.., gözləri atəşlənər. Qüssəsini bəlli etməz TƏNHA QADIN, dost-düşmən içində qüdrət mücəssəməsinə çevrilər. Zərif olar, zəif olammaz TƏNHA QADIN. Güclü olmağa məcburdur.

Şəxsiyyətinə sahib çıxar TƏNHA QADIN. Evini, həyatını alınmaz qalaya çevirər. Makromühitindəki insanları mikromühitinə yaxın buraxmaz. İç dünyasını ətraf mühitdən təcrid edər. Daxili aləminə kimsə boylanammaz. Öz dünyasında yaşayar TƏNHA QADIN. Mənəvi azadlığını əməllərində yox, düşüncələrində qoruyar. Dəyanəti zahirdə örnək, daxildə iztirab mənbəyi olar. Yerişindən yerə minnət qoysa da, dünyanın yükünü çiynində daşıyar TƏNHA QADIN. Özü kimsəyə yük olmaz.

Sevinci artmaz, kədəri azalmaz TƏNHA QADINın. Çünki anındaca paylaşmağa məhrəm tapılmaz. Narahat yaşantılarına kimsə şərik

çıxmaz. Kövrəlincə xatirələrinə dalar, xəyallarına tapınar TƏNHA QADIN. Özünə vəfalı həmdəm arayar. Çətin tapar. Mübariz görünər, ürkək olar TƏNHA QADIN. Həyatındakı boşluğu dünyanın heç bir sərvəti doldurammaz. Xoşbəxtliyə varmaq üçün ömrünü xərcləyər, illəri qovar. Zaman keçdikcə anlar ki, dəyişən heç nə yoxdur, hər şey yerində qalıb. Bircə onun gəncliyindən savayı.

**2008**

# YAŞIN FƏRQİ

**"Yaşın nə fərqi?.." deyə könülləri cuşa gətirən müğənnilərimizə ithaf**

İkimiz də subayıq. Amma o, bəylik taxtına çıxanda bəyaz libaslı gəlini mən olmayacam. Bu deməkdir yaşın fərqi.

Məni nə qədər sevsə də, onu nə qədər sevsəm də duyğularımız platonik məhəbbət zirvəsində heykəlləşəcək. Qovuşmağı nə qədər istəsək də, gah bu beyində, gah o beyində şahə qalxan tərəddüdlər gəmirəcək qəlbimizi. Vüsal sevincini dada bilməyəcəyik. Bu əzabdır yaşın fərqi.

Toylarda mənimlə oynamaqdan, el içində yanımda durmaqdan, dar günümdə dərdlərimə çiyin verməkdən çəkinəcək. Bu sərhəddir yaşın fərqi.

Ona inansam da, güvənə bilməyəcəyəm. Çünki dərdlərimlə baş-başa qalanda yalnızam, tənhayam, kimsəsizəm. Bu acıdır yaşın fərqi. Gücü özümdən alıram, bir də ruhumuzun doğmalığından. Bu reallıqdır yaşın fərqi.

Xəstələndiyində yastığının başında durub onu nəvazişimə bələmək imkanım olmayacaq. İçimdəki can yanğısı onu sağalda bilməyəcək, məni naxoşladacaq. Bu bəladır yaşın fərqi.

Əlimi uzatsam ona çatacaq məsafədə belə gözüm gözlərinin,

qulağım səsinin həsrətində qalacaq. Çünki bəzən sevərək tərk etmək məcburiyyətidir yaşın fərqi.

"Yaşın nə fərqi?.." – deyib könülləri coşduran müğənnilər, sağım-solum pərəstişkarla doludur, amma əlimdə kimsə yox. Əllərimi açanda ovuclarımı boş görürəm. Dolu da ola bilərdi. Müəmmalı qismətdir yaşın fərqi.

**2002**

# ÜÇBUCAĞIN SÜQUTU

Bu evə GƏLƏCƏK gəlməyəcəkdi. Hər gün ev süpürüləndə döşəmədən toplanan ağ saçlar bir az da çoxalırdı. Bunu sezdiyi gündən QIZın ümidi üzülmüşdü. Ailə üçbucağının bucaqları laxlayırdı. ATA-ANAsı qocalıb əldən düşmüşdü. Uşaqları isə yox idi. Otaqlar çoxdan sükuta dalmışdı. Ev şaqraq gülüşlərə həsrət qalmışdı. Güzgünün nəsibi yalnız dən düşmüş saçların sığalına yardımçı olmaqdı. Sakit və mehriban bu ailədə həyat bircə rəngdəydi. Çalarlarsız. Səhər işə, axşam evə tələsməsi xoşbəxtliyin yox, zərurətin göstəricisiydi. İşləyib özünü və valideynlərini saxlayırdı. İş qurtaran kimi evdəkilərə həyan olmağa tələsirdi.

Hərdən şəhərə havalarını dəyişməyə çıxan ata-anasının ardınca uzun-uzadı baxardı. QOCAyla QARI bir-birindən elə bərk yapışardılar ki... Görəsən bu mehribanlıq məhəbbətin təzahürüydü, yoxsa yıxılmaq qorxusunun?.. Hər iki halda onların dayaqları vardı. QIZın isə yox. ATA-ANAsı dünyalarını dəyişəndən sonra ailəsi də olmayacaqdı. Üçbucağın süqutu qaçılmazdı.

**1995**

# ANA BƏTNİNDƏ MÜBARİZƏ

Balanı anadan ayırmaq istəyirdilər. Gənc qadının bətni bərk-bərk yapışmışdı övladından. İlkini buraxmaq istəmirdi. Ağ xalatlı həkimlər körpənin cəlladına dönmüşdülər. Çarəsiz qalmış ana zarıyır, ah-nalə çəkirdi. Ananın bətni özündən mübariz idi. Təslim olmaq istəmirdi.

Bir yanda cəmiyyət, mövqe, ailə,.. o biri yanda övlad istəyi, günahsız körpənin taleyi dayanmışdı. O hələ gəlincik oynatdığı dövrdən ana olmaq arzusuyla böyümüşdü. İndi ürəyi qan ağlayırdı. İçində mübarizə aparan iki mən vardı. Ürək "hə", idrak "yox" deyirdi körpənin dünyaya gəlişinə. Pasiyentin daxili aləmindən xəbərsiz olan və xeyirxahlıq etdiyini düşünən ağxalatlılar körpənin məhvinə əl qatmışdılar. Mənəvi əzablar və fiziki ağrılar dəhşətlər girdabında qovururdu gənc qadını.

Ana ürəyinə daş bağlayıb qərarı özü vermişdi. Cəmiyyətə qarşı üsyan etməyi, adət-ənənələrə qarşı çıxmağı, duruş gətirməyi bacarmazdı... Bəlkə də bacarardı. Öz payına düşəcək həqarətlərə dözərdi. Amma canından çox sevdiyi, istəyi yaranışından çox-çox əvvəl dünyaya gəlmiş körpəsini ağzıgöyçəklərin hədyanlarına məruz qoya bilməzdi. O, doğulmamış körpəsinin naminə "qatil" olurdu.

Ana körpəsinin qətlinə fərman versə də, ana bətni yolları bağlayıb tibbi müdaxiləyə imkan vermirdi. BƏTN qanı qanından, canı canından olan varlığı bərk-bərk qucaqlamışdı. Təslim olmurdu ana bətni!.. Yaratdığının fərqində olmayan bioloji ata isə həmin anda bütün bunlardan xəbərsizdi.

Ananın bütün əzalarında mübarizə gedirdi. Proses davam edirdi... Olumla ölüm arasında çəkişmədə bir körpənin taleyi yazılmamış pozulurdu.

**2007**

# QADIN

Saat Qadının üzünə dirənmişdi. Vaxt getmirdi. Gecənin məngənə qolları Qadını öz ağuşunda kilidləmişdi, zülmət barmaqlarıyla onun gözünü oyurdu. Qalın pərdə Ay işığını pəncərənin o tayında əsir etmişdi. Nə qədər baxsa da, sübhün gəlişindən əsər-əlamət görünmürdü. Düşüncələr fırtınasında çırpınan Qadın gecənin ağuşundan qurtulmaq istəyirdi. Səhər açılsa durub işinə-gücünə gedəcəkdi. Həyata qaynayıb-qarışacaqdı. Gecənin ona dəxli yoxuydu. Yaşamı gündüzün ömrü qədərdi.

Qadın ağlamaq istəyirdi. Ağlaya bilmirdi. Dünən aldığı zərbədən bu gün beli də ağrıdırdı. Yataqda dönəmmirdi. Əziyyət çəkirdi. Yıxılıb əzilmişdi. Şəhərin küçələri bərbad, yollar sökük-dağınıq. Kimin ağlına gələr gündüzün gün işığında, şəhərin mərkəzi prospektində belə bir "sürpriz"lə qarşılaşacağı?!. Abadlığın tozu-dumanı milləti boğur. Heç kəs heç kəsin zəhmətini, çəkilən xərci qiymətləndirmir. Biri asfaltı təzələyib başa çatdıran kimi, o biri gəlib sökür ki, bəs mən də abadlaşdırıram, suyun, kanalizasiyanın, daha nə bilim nəyin borularını dəyişəcəm... O da belə bir bəhsəbəhsin güdazına getmişdi. Əsas ağırlıq travmalı ayağına düşdüyündən çox göynədirdi. Beynində dünənlə bugün, keçmişlə indi bir-birinə qarışmışdı. Kadrlar elə sürətlə bir-birini əvəzləyirdi ki, hadisəni aydınlaşdırmağa macal tapmırdı. Bu dəfə yaxşı qurtulmuşdu. İyirmi iki il öncəki hadisədən

sonra ayağı iki ay gipsdə qalmışdı. Yenə həmin ayaq, tanış ağrılar. Tarix geri dönmüşdü?? Neqativ hadisələr təkrarlanırsa, dalınca düşüb onun taleyindən əl çəkmirsə, o halda pozitiv hadisələr niyə təkrarlanmır?! Elə bəxtəvər olardı ki..!

...Ağrı Qadının bütün əzalarını sarmışdı. Ayağı elə ağırlaşmışdı, sanki bir ton idi. Amma Qadın sevinirdi. Sevinirdi ki, nə yaxşı sınığım-çıxığım yoxdur. Tənhalıq belə şeydir. Ağrının şiddətindən qovrulan Qadın kövrəlmək, müvəqqəti yanında olan doğmalarına nazlanmaq əvəzinə sevinirdi və Allahına şükür edirdi... O, qadın olmaq, zəif olmaq haqqından istifadə edəmmirdi. "Öz ayağım üstdə dura bilirəm, yeriyirəm, kimsənin köməyi olmadan pilləkənləri qalxıram, bəsimdir! Bunların müqabilində ağrı nədir ki? Dözmək olar." ...O zaman anası yanındaydı, qızını şahzadə kimi əzizləyirdi, indi anasızdı. Yəqin ona görə Allah betərindən qoruyub...

Qadın işə gedəndə hər səhər altmış bir pilləkən qalxırdı. Yıxıldığı gecəni qorxu içində keçirmişdi: birdən çıxammasam... Səhər pilləkənləri öz ayağıyla çıxanda həyatının ən böyük sevinclərindən birini yaşamışdı. Gün boyu kəpənək kimi uçmuşdu. Bunu xatırlayıb bir daha təsəlli tapdı. Ağrı canını üzürdü. Amma qüruru ona yüngülvarı axsamağa belə icazə vermirdi. Dost-düşmən içində dik durmağı vacib saydığından canını dişinə tutub dərhal yerişini nizamlayırdı.

Yatağında bu olayları bir daha şüurundan keçirən Qadın birdən hönkürdüyünü eşitdi. Nəhayət, bulağın gözü açılmışdı. Eybi yox, bir az ağlayıb yüngülləşər, canında toplanmış mənfi emosiyalardan qurtarar. Bu fikirlər şüuraltında yer alınca, Qadını gülmək tutdu. "Sən bir işə bax, gör nəyə sevinirəm – ağlaya bildiyimə." Kranın suyu kəsilən sayaq anındaca göz yaşları yox oldu. "Ay axmaq, niyə ağlayırsan? Səni ovudanmı var? Üç sutka bu yataqda gecə-gündüz ağlasan, kimsənin ruhu duymaz. Qalx, üzünü yu, özünü topla." İçindəki bu səs qeyri-ix-

tiyari onu yataqdan qaldırdı. Qadının göz yaşları duzluydu. Ağlayan kimi yanaqlarını yandırırdı. İndi də elə oldu. İslanmış balınca etinasız nəzər fırladıb hamama keçdi. Əl-üzünü yuyan kimi dərisi xoşuna gəldi. Yağışdan sonra açılan göy üzü kimiydi. "Ağladım, rəngim açıldı, sifətim boğulmuşdu",– deyə gülümsündü.  Əslində rəngi avazımışdı.

Hamamdan birbaşa mətbəxə keçən Qadının baxışları dibçəkdə bənd aldı.  Qəlbini ovundurmaqçün bu gün özünə dibçək gülü almışdı. "Mən səni sevdim, sən də məni sev",– pıçıldamışdı təzə çiçəyinə. Dədə-baba həyətlərindəki "qırxdüymə" deyilən gülə oxşayırdı. Uşaqlığı, güllü-çiçəkli bağ-bağatları, güllərə canı-dildən qulluq edən Səkinə nənəsi durdu gözünün qabağında.  Elə bildi ki, sübhün gözü yenicə açılıb, nənə yenə gülləri suvarır. Qadın fikirlərini nizamlaya bilmirdi. Fırtınalı dənizdəki dalğalar kimi təlatümlüydü fikri-düşüncəsi, suyun üzünə hərdən bir şey çıxarırdı.  Hə, bu gülə bizdə  qırxdüymə deyərdilər. Özü də dibçəkdə yox, torpaqda bitərdi. Sarısı olmazdı, yalnız qırmızı rəngdəydi, qızılgülün kiçik formatında. Mövsümü başa çatınca solar, gələn ilki ömrünü daha dolğun yaşamaqçün yaza qədər torpaqdan güc yığardı.  Bir anlığa üzünə doğma yerlərin mehi toxundu, boyun-boğazını yalayıb ötən ılıq hava axını ardınca bağçalarındakı güllərin ətrini gətirdi, Qadın özünü sevimli tut ağacının budaqlarında gəzdiyi dövrlərdə hiss etdi. Həsrət çox güclüydü. Amma o bilmədi ki, uşaqlığının geri qayıtmasınımı istəsin, yoxsa indisinin ürəyincə olmasınımı.

Qadın yeddi rəqəmini sevirdi. Dibçəkdəki sarışın gözəlin də açmış yeddi  gülü olduğunu sezəndə bunu xoş əlamətə yozdu. Dərhal da kefi pozuldu. "Günümə bax, nəylə təsəlli tapıram..." Qadın pəncərəyə baxdı. Uğradığı kiçik qəzadan iyirmi altı-iyirmi yeddi saat keçirdi. Qaranlıq düşmüşdü. Təsəlli reallığı dəyişdirmirdi.  Yenə problemləriylə, qayğılarıyla baş-başa qalmışdı. Hamı öz evinə çəkilmişdi. Onun nə durumda olduğunun kimsəyə dəxli yoxuydu.

Əslində heç kəsi qınamırdı da. Hərənin öz dərdi-səri vardı. Son vaxtlar Qadın adamların laqeydləşdiyinə daha tez-tez şahid olurdu. Bilmirdi günah dövrandadır, yoxsa insanlar cılızlaşıblar. Amma fakt faktlığında qalırdı. Televizor qarşısında dünyanın o başındakı bəd xəbərlərdən təsirlənən insanlar lap yaxındakıların halına yanmırdılar. Mənəvi dayaq olmaq anlayışı cəmiyyətin əxlaq normalarını tərk edirdi. Hələ maddi kömək heç mümkün deyildi, indiki dövrdə Allah kimsəni kimsəyə möhtac eləməsin, hamının sıxıntısı var.

Yenə  tək və tənhaydı. Elə durumdaydı ki... bu anda hətta sevdiyi gəlsə, qapını açmazdı. Kimsəni görmək istəmirdi. Əslində kimsəyə görünmək istəmirdi. Xüsusilə ona. Bir az hisslərinin "cilovunu boşaltmışdı". Güclü qadın imicində özünü toplayıb cəmiyyət arasına çıxmaqçün nəfəsini dərməliydi. "Zəng etsə, telefonlara cavab verməərəm. Səsimi duyunca ağladığımı biləcək. Heç xəbəri olmasın. Olsa nə fayda?! Yaxşı, birdən gəlib evin qarşısında dursa və işığın yandığını görsə?? Yox canım, gəlməz! Bu saatda onun burda nə işi var? Dərdi tökülmüşdü elə. Lap gəlsin. Mənə nə. Hər kəsin öz saxlancları var. Onun da var. Mən nədən bayram süfrəsi kimi sərgilənməliyəm?.. Açıq sandığı qurdalayan, maraq göstərən çox olar. Amma... içindəkilərdən yararlanmaq üçün baxarlar... Nə isə. Türklər demiş, boş ver."

Beləcə, xatirələr düşüncələri, ağrılar xatirələri əvəzləyirdi. Vücudu, beyni çalxanırdı. Sanki sürətlə hərlənən karuseldəydi. Təsvirləri tez-tez dəyişən  monitorda bir ip ucu tapılmırdı.  Kələf kimi hər şey dolaşmışdı.  Fiziki ağrılar səsini ucaldan kimi, ruhunun iztirabları küncə qısılıb darısqallıqda daha bərk ağrıtmağa başlayırdı. Neçə günüydü ondan da xəbəri yoxuydu. Bilərəkdən arayıb-axtarmırdı. Qeyri-müəyyənlikdən bezmişdi. Qüruru incimişdi. "Nədən həmişə canıyanan mən olmalıyam?" İndi lap aləm bir-birinə dəymişdi. Nəyə daha çox üzüldüyünü aydınlaşdırammırdı. Cahanda mövcud olan

hər şey yoxa çıxmışdı və dünyanın bütün nemətlərinin yerində bir tək ağrı qalmışdı.

Gecənin intizar gözləri sübhün qapısına zillənmişdi. Açılan kimi o, yox olacaqdı. Növbəti ölümünü növbəti həvəslə gözləyirdi gecə. Könüllü olaraq qeybə çəkilməyə hazırıydı. Gecənin bu centlmenliyində arxayınçılıq notları da vardı. Sabahın axşamında yenidən öz postuna qayıdacağına əminiydi. Qadınsa qeyri-müəyyən "ağ atlı"nın gələcəyi qeyri-müəyyən günü gözləməkdən usanmışdı. Qismətinə düşən həyatda istədiyi kimi yox, bacardığı kimi yaşayırdı. Və bacarmadığı o qədər çox şeylər vardı ki!.. Dərdin dərdini çəkməkdən lap dərd əhlinə dönmüşdü. Bu da ilk növbədə özünün xoşuna gəlmirdi.

**2009**

# ATA HƏSRƏTİ

Atasız böyümüşəm. Onu müharibə əlimizdən alıb. Mən dünyaya gəlməmişdən əvvəl. Amansız müharibə.

Bir arzuyla yaşamışam: – "Körpəmi atalı böyüdəcəyəm. Qismətim necə olsa da, hər əzabına dözəcəyəm ərimin. Təki körpəm atalı böyüsün!"

Dəyanətli bir cavanla ailə qurdum. Övlad həsrətilə illəri-illərə caladıq. Məhəbbətdən, həsrətdən doğulan körpəmiz dünyaya gəldi. Dil açdı. "Ata" kəlməsinə həsrət qaldı... Onu əlimizdən bir qadın aldı. Rəhmsiz bir qadın.

Böyüdü qızım. Hamının dərdinə şəfa tapdı. Öz qəlbindəki ata nisgilini isə sağalda bilmədi həkim balam. Elçilər qapını döyəndə qızımın gözlərində bir narahatlıq- nigarançılıq duydum. Baxışları sevən gəncə deyirdi:

– "Körpəmiz ata üzünə həsrət qalmayacaq ki?!"

**1978**

# İSTEDAD

İSTEDADı sərbəst buraxmışdılar. Daha dəyib-dolaşanı yox idi. "Hay-hayı gedib, vay-vayı qalıb" – deyə düşünürdülər. Bütün qadağalar, təzyiqlər, maneələr aradan qalxmışdı. Paxıllığını çəkənlər, illər boyu ayağından dartanlar, İSTEDADa quyu qazanlar elə yüksək mərtəbələrə çatmışdılar ki... Bundan sonra O nə qədər çalışsa, heç həmin mərtəbələrin kandarından içəri keçə bilməzdi. Ən yaxşı halda İSTEDAD sabiq rəqiblərinin qəbul otağında gözləyə bilərdi. Bu da ziyansız bir şey idi. Yola vermək mümkün idi. Ötən dövr ərzində onu elə zərərsizləşdirmişdilər ki...

Əli azadlığa çatan İSTEDAD öncə bu halı rəqiblərinin növbəti oyunu kimi dəyərləndirdi. Hər an yeni hücumlara məruz qala biləcəyini düşünürdü. Ehtiyatlı davranırdı. Çox da əl-qol açmağa həvəsli deyildi.

Bir müddət sonra O, vəziyyətin reallığını dərk etdi. Sevindi. Hələ cavan idi, canı suluydu. Yaradıcılıq fantaziyası tükənməmişdi. Təxəyyülünü işə saldı. Birdən-birə ideyalar selinə düşdü. O qədər layihələri vardı ki... Bilmədi hansından başlasın.

İSTEDAD rəqiblərinin məngənəsində çox illəri itirmişdi. Onun qabiliyyətindən, əməyindən bəhrələnib çoxları irəli getmişdi. Özünə isə bu imkanı verməmişdilər. Onun istedadını etiraf etsələr də, yüksəlməyini rəva bilməmişdilər. İllər boyu ətrafına gözəgörünməz tikanlı məftillərdən çəpər çəkmişdilər. İSTEDAD yerində saya-saya qalmışdı. Şərait elə gətirmişdi ki, obyektiv və subyektiv səbəblər həmişə onun ziyanına işləmişdi.

İndi isə birdən-birə azadlıq, sərbəstlik verilmişdi ona. Sanki çevrəsində sonsuzluq, intəhasızlıq hökm sürürdü. Özünü kainata qovuşmuş kimi hiss edirdi. Nə istəsə ona nail olurdu. Hara getsə, yolunda

yaşıl işıq görürdü. Daha "dayan, dur" deyəni yox idi. Yeni vəziyyətdən azca stressə düşən İSTEDAD nəhayət özünü topladı. Arzularını reallaşdırmağa tələsdi. Elmi-yaradıcılıq axtarışları bəhrəsini verməyə başladı. Bir sıra layihələrini gerçəkləşdirdi. Tanındı. Amma gənclik illərindəki arzularını həyata keçirmək, yarımçıq qalmış işlərini tamamlamaq mümkün olmadı. Neçə illər öncə etdiyi ixtiraların əhəmiyyəti yüksək dəyərləndirildi, amma istehsalata tətbiqi məqsədəuyğun sayılmadı. Çünki o dövr ötmüşdü. Elmə gətirdiyi yeniliklər də aktuallığını itirmişdi. Rəqibləri İSTEDADın gəncliyini məhv etməyə nail olmuşdular. Sanki o illəri heç yaşayıb-yaratmamışdı.

Bu yaşında qazandığı hörmət, təfəkkürünün bəhrəsinə verilən dəyər ancaq bugününü fərəhlə yaşamağa yetirdi, dünənki boşluqların, itkilərin yerini doldurmağa yox. İSTEDADın qəlbini kontrast duyğular bürüyürdü. Bilmirdi indiki uğurlarınamı sevinsin, keçmişində ölən arzularınamı ağlasın. İSTEDADın ruhu inləyirdi: kaş, bu imkanım 20-30 yaşlarımda olaydı, kaş bu şərait heç olmazsa, 10 il əvvəl yaradılaydı...

Amma fakt faktlığında qalırdı. Heç nə geri dönməyəcəkdi. Nə onun indiki müdrik yaşında gənclik çılğınlığı qəlbinə dolmayacaqdı, nə beynində ideyalar aşıb-daşmayacaqdı, nə də elmin, sənətin dolanbac yollarını o zamankı təfəkkürü ilə çözə bilməyəcəkdi. Yaradıcılıq axtarışlarıyla gecəni səhər etməyə heç sağlamlığı da tab gətirmirdi. Gənclik enerjisi çoxdan bədənini tərk etmişdi. Özü bundan xəbərsiz olsa da. Dövr də bambaşqaydı. Adamlar da sanki özgə aləmdən gəlmişdilər. Mühit də yepyeni, daha sərt və amansızıydı. Ona qarşı nə qədər yumşalsa da.

İSTEDAD fakt qarşısında qalmışdı. FAKT – yaşadığı zaman və məkan kontekstində istəklərini reallaşdırmaqla kifayətlənməkdən ibarət idi. Ona verilən imkan dairəsində özünü ifadə etmək. Vəssalam.

**2006**

# START

O, ömrünün çox hissəsini  həyatın "GÖZLƏMƏ" dayanacağında keçirmişdi. Nəqd olan bugününü nisyə gələcəyinə qurban vermişdi. Yaşadığı hər günün real nemətlərindən bəhrələnməyin daha vacib və daha etibarlı olduğunu dərk etməmişdi. Yaş üstə yaş artdıqca qəlbi nisgillə dolmuşdu. Uşaqkən az oynamışdı. "Oxuyub adam olmaq" naminə. Yeniyetməliyində tay-tuşları ilə əylənməmişdi. "Gözəl günlər hələ qarşıdadır" deyə. Arzularına qovuşsa da, istəklərindən uzaq düşmüşdü. Təhsildə qazandığı nailiyyətlər hər yaş dövrünün özünə məxsus insani tələbatının boş qalmış xanalarını doldura bilməmişdi. Birtərəfli inkişaf etmişdi O. Bir sahədə zirvə, digərlərində sıfır vəziyyəti. Gəncliyini də kahin kimi yaşamışdı. Qəlbində sevgi çırpılarından ocaq qalananda hisslərini boğmuş, sevməyə icazəli olacağı vaxtı – ailə quracağı anı gözləmişdi. Nəhayətində heç vaxt şəxsi həyatı olmamışdı. İctimai məxluq kimi yaşamışdı ömrünü. Bütün əsas məqamları hamıya bəlli olan şəffaf bir həyat sürmüşdü. Hər kəsi öz arşınıyla ölçməyə adət etmiş bəziləri buna inanmasa da.

GÖZLƏMƏK onun YAŞAM TƏRZİNƏ çevrilmişdi. Canına-qanına işləmişdi bu vərdiş. Mütəxəssis kimi uğurlar qazandıqca özünü və nailiyyətlərini gözə soxmamışdı. Hər şeyi təbii axarına buraxmış, dəyərləndiriləcəyi zamanın gəlməsini gözləmişdi. Gözləyə-gözləyə qalmışdı.

Onun emosional-psixoloji durumu GÖZLƏMƏ PROSESİNƏ köklənmişdi. Səhhəti də. Beləliklə, həyatını GÖZLƏNTİLƏRİNDƏ yaşa-

mışdı O. Xoş gözləntiləri boşa çıxanda prosesdə qazandığı müsbət emosiyalar keyfiyyətini dəyişmiş, qanında ağır maddələrə çevrilmişdi. Fəsadsız ötüşməyən bu hal təkrarlandıqca tədricən vəziyyət dəyişmişdi. Onda qəribə immunitet yaranmışdı: psixologiyası da, fiziologiyası da, mənəviyyatı da fəsadsız qəbul edirdi ÜMİDLƏRİNİN BOŞAÇIXMASINI. Doğru deyiblər ki, hər ziyanda bir xeyir var. Daha heç nə Ona əzablar bahasına başa gəlmirdi. Mühitin və cəmiyyətin ədalətindən əlini üzmüşdü. Həyatın hər sürprizinə hazırıydı. Yaşamını köklü surətdə dəyişə biləcək heç nə gözləmədiyinə görə, narahat da olmurdu. Tapındığı ALLAHın mərhəmətinə sığınmışdısa da, ONUN DA dünya qədər vacib məsələlərin içində adidən-adi bəndəsinin problemlərinə vaxt ayıracağına ümid bəsləmirdi.

Və birdən... Ruhi sükunətini tənzimlədi. Psixoloji səddləri dağıtdı. Fizioloji ətalət halından çıxdı. Uçuşa hazır raket vəziyyəti aldı. "GÖZLƏMƏ" dayanacağından START götürdü. Nə qədər yüksəklərə uçacağı və nə qədər uzağa gedəcəyi bəlli deyildi.

**2008**

# TƏNHALIQ

**Füzuli dərd əlindən dağa çıxdı,**
**Dedilər bəxtəvər yaylağa çıxdı.**
**(Xalq deyimi)**

TƏNHALIĞın əlindən başımı götürüb Piterə qaçdım. Həyatımı bir rəngə boyamış TƏNHALIQ boynuma minib Sankt-Peterburqa getdi. Ayaqlarını çiyinlərimdən sallayan TƏNHALIĞı səyahət boyunca daşımalı oldum. Hərdən mənə sədaqətini nümayiş etdirən TƏNHALIQ qollarını boynuma dolayıb sıxanda bu məhəbbətin məngənəsində boğulduğumu hiss etdim. Açıq səma altında muzey – şəhərə baxdıqca özümün də açıq dünyada eksponat olduğumu anladım. İNSAN – EKSPONAT DAŞ–EKSPONATa baxırdı. Ayrılmaz dostum olduğunu təsdiqləmək üçün hər yerdə məni müşayiət edən TƏNHALIQ bilmədi ki, içimə axan göz yaşlarım Nevanın sularından çoxdur. Nevada qərq olan baxışlarım ölən arzularıma "əlvida" deyirdi. Ürəyimdəki sızıltılar ümidlərimə tuşlanmış vida nəğməsiydi.

**2007**

# XİFFƏTİN SENTYABR RƏNGİ

SENTYABR da dığırlanıb getdi. Ayaqlarım altına sərilmiş XALI KİMİ BÜKÜB QOYDUM QIRAĞA ÖMRÜN DAHA BİR AYINI. Xalının mövsümü gəlincə yenidən bəzəyər evləri. Amma bu xalının həyatımı təkrar bəzəməsi mümkünsüz iş. Gələcək sentyabrlar yeni çalarda, fərqli naxışda olacaq. Bu sentyabr ötən illərdəki adaşlarına oxşamadığı kimi.

Ömür karvanına qoşulan ayların heç biri digərinə bənzəməz. Zaman və ömür ölçüsü kimi onların hamısı təkrarsızdır. Adlar təkrarlansa da. Yazıq o kəslərə ki, hər gününün-ayının dəyərini kvadrata-kuba yüksəldə bilmir. Mənə də yazıq. XİFFƏTİN SENTYABR RƏNGİ boz-bulanıq oldu bu dəfə. Günlərim soldu sola bildikcə. 2008-in SENTYABR XALISINA əlvan naxışlar toxuya bilmədim. Ömrü nə qədər boşu-boşuna xərcləmək olar? Əcəb hövsələ var ey ÖMÜR dediyin bu varlıqda. Dözür dözə bildikcə.

**2008**

# ƏLVİDA

Ürəyimin ağrısını, gözlərimin acısını salfet kağızına tökürəm. Ruhumun bu məqamında salfetin də saflığı Məni qane etmir. Onu göz yaşlarımda yuyuram. Yuya bildikcə. Yenə istədiyim qədər ağarmır. Ala-tala, ləkəli qalır. Bu dəfə qəlbimdəki ümmandan qaynaqlanan çeşmədə çimizdirirəm onu. Salfet elə şəffaflaşır ki, bu üzündən o tərəfi görünür. Bax, bu oldu əsl Mən deyən. Di get, quru! Canına hopdurduğum duyğularımı qoru. Onları sənə əmanət etdim. Əlvida.

Bu arada gözümə sataşan qırmızıyanaq, sarımtıl alma Mənə yeni ideya verir. Həyatıma bir azca şirinlik gəlsin deyə, bu gözəlin yanağını dişləyirəm. Yavaş-yavaş onu həzmi-rabedən keçirib "xoşbəxt" edirəm. Vazada qalıb qarımaqdan – çürüməkdən xilas olur. Kədərimi ovunduracaq kimsənin olmadığı məkanda dadıma yetən almayla da belə vidalaşıram. Görəsən, alma qazandı, yoxsa məyusluğumun badına getdi?..

**2009**

# DUA

ALLAHım, Mənə güc ver, özümü məğlub(!) hiss etməyim. Yetərincə məğlubiyyətim var. Bu durumda da yenilməyimə yol vermə. İncikəm. Qalib olmaqçün qoruduğum dəyərlərə qiymət verilmədiyini görmüşəm. Küskünəm. Müqəddəs bildiyim şeylərin əhəmiyyət daşımadığına şahid olmuşam. Üzgünəm. ALLAHım, yaşadığım dünya "mənim dünyam" deyil. Öz dünyamı harda itirdim, ondan harda ayrı düşdüm, bilmirəm. Mənə dözüm ver, göndərdiyin sınaqlara tablayım. Taleyimə düşən qismətsizliklə barış şəraitində yaşaya bilmək müdrikliyi ver, ALLAHım.

Əsrlərin qovşağı – XX yüzilliklə XXI-in sərhədi o qədər çirkabla doldu ki, haqq deyilən şey XXI əsrə qədəm qoymaq istəmədi. Mənə öyrədilənlər, əxz etdiklərim indi gördüklərimlə tərs mütənasibdir. Doğru bildiyin yolu tapmaqda Bəndənə yar ol. İçimdəki dünyayla içində olduğum dünyanın uzlaşma nöqtəsini göstər. Məni əzablardan qurtar. Ya "cismən öldür" qurtar, ya da çox rəhmin gəlirsə, "mənəviyyatımı dəyiş", "beynimi təzələ" qurtar.

ALLAHım, Mənə ağıl ver, özümü qoruya bilim. Bəsirət gözümü aç. Fəhmimi, fərasətimi bol elə. Yanlış anlaşılmaqdan, yanlış dəyərləndirilməkdən qoru Məni. Sevdiklərimdən gələ biləcək xətərdən Sən hifz et, sevmədiklərimdən özüm qorunaram. "Yaxşı adamlara" ürcah elə Bəndəni. Əhatəmdə "yaxşı ürək sahiblərini" çoxalt. Güc ver, mənfi yüklü, qara enerjili fikirlərə yenilməyim. Özümü məğlub sanmayım! ALLAHım, etibarına güvənmədiyim insanların ucbatından ən gözəl duyğularımı intihara sürükləyən fikirləri başımdan rədd et. Ümidimi qıran durumu aradan qaldır. Məni subyektiv mülahizələrin əsirinə çevirmə. Hadisələrdən obyektiv nəticə çıxarmaq fəhmi ver Yaratdığına. ALLAHım, düşdüyüm vəziyyətdən xilas olmaqda ancaq SƏNə güvənirəm!

**2009**

# JURNALİST

Güldən-gülə, çiçəkdən-çiçəyə qonur arı. Eləmir tənbəllik, çəməndən-çəmənə uçur. Bir-birindən ətirli güllərdən çəkdiyi dadlı şirəni yuvasına gətirir. Şana boşaldır. Bal yaranır. Dərdlərə dərman xalis bal. Bir güldən şirə çəksəydi, belə ətirli, belə dadlı olmazdı balı arının.

Vətənin hər guşəsinə səfər edir jurnalist. Daim arayır, axtarır. Ömrünü yollarda- görüşlərdə keçirir. Müxtəlif xarakterli adamlarla görüşür. Ayrı-ayrı sənət, peşə, vəzifə sahiblərilə ünsiyyətdə olur. Hamıya həssaslıqla yanaşır. Öz geniş qəlbilə o, şikayətçinin dərdinə də, fərəhlə öz işindən danışan əməkçinin sevincinə də şərik olur. Qələmə alacağı mövzuyla bağlı zəngin məlumat toplayır. Onu sərraf gözüylə saf-çürük edir. Dəyərli, kəsərli yazı yaradır. Əgər bir şəxsi dinləməklə kifayətlənsə, ancaq öz dünyasına qapanıb qalsa, təsirsiz- kəsərsiz olar yazıları jurnalistin.

Jurnalist də arıdır. Bal arısı. Xalqının, Vətəninin bugününü öz jurnalist təfəkküründən keçirərək dövrünün salnaməsini yaradır. Həyatı xalq üçün yanan şama bənzəyir onun. Yandıqca əriyir, əridikcə də şölələnir, elinə-obasına şəfəq saçır.

**1983**

# HƏYAT HİKMƏTİ

Ağacı budadılar. "Qocalıbsan",- dedilər. Yarpaq-yarpaq soyundurdular paltarını. Budaq-budaq seyrəltdilər qol-budağını. Övlad budaqlarından, nəvə yarpaqlarından ayırdılar gövdəni. Tənhalıq əzabına düçar elədilər. Sandılar ki, təklədilər onu. Amma... məğrur qəddini əyə bilmədilər ağacın.

Ayaqlarını yerə möhkəm dirəmişdi ağac. Rişələri torpağın dərin qatlarına işləmişdi. Kökləri sarmaşıb torpaqla qol-boyun olmuşdu. Kökündən su içirdi ağac. Kökündən qidalanırdı.

Gövdəsi göylərə meydan oxuyurdu ağacın. Həftələr aylara qovuşduqca yenidən cavanlaşırdı. Kəsik qollarından təzə pöhrələr göyərməyə başladı. Yaşıl zoğlar get-gedə budaqlara çevrildi. Qocalıqda ikinci gəncliyini yaşamağa başladı ağac. Yavaş-yavaş bar verirdi.

Xalq da ağaca bənzər. Kökünə yadlaşmayınca məhv olmaz. Öz soy-kökündən ayrı düşməyən xalqı qırmaqla qurtarmaz. Ölən igidlərin yerində daha cəsurları baş qaldıracaq. Artacaq, çoxalacaq. Öz milli mənini təsdiq edəcək. Soy-kökünə bağlı xalqa zaval yoxdur. Kökündən su içən ağaca ölüm yoxdur.

**1991**

# XƏSTƏLİK və HƏYAT

Xəstəlik cismi deyil, ruhu bürüyəndə dəhşət olur. O, çoxdan bu dərdə mübtəla olmuşdu. Fiziki ağrıların əsarətində günləri həftələrə calamışdı. Nəhayətində insan olduğunu, dünyaya nə üçün gəldiyini unutmuşdu. Sağlamlaşacağı günü o qədər gözləmişdi ki, şəfa tapandan sonra belə özünü xəstə sanırdı. Dost-tanışlarla hal-əhval tutanda "necəsən?" əvəzinə "ağrımırsan ki?",– deyə soruşurdu. Bu sual dəhşətin özü idi. Onun psixologiyasının dərin qatlarına hopmuş anormal əhval-ruhiyyədən xəbər verirdi. Cismi çoxdan sağalmışdı. Ruhu xəstə idi. Ruhu.

O, adam kimi yaşamağı unutmuşdu. Sağlam həyat tərzini yadırğamışdı. Özü də bilmədən ətrafındakılara mənfi təsir göstərir, süst əhval təlqin edirdi. O qədər şikayətlənmişdi ki, daha şikayətinə qulaq asan, inanan yox idi.

İndi hamı onunla ünsiyyətdən qaçırdı. Doğmaları belə...

**2007**

# ÜZ-ÜZƏ

Yenə məlun ÖLÜM yolumu kəsib. Sevdiklərimi, tanıdıqlarımı bir-bir seçib aparır. Əzəməti ilə əzir məni. Düşüncəmi işğal edib, yaxamdan əl çəkmir. Onunla mücadilə aparmağa qadir deyiləm ki... DİV ilə CIRTDAN misalındayıq. Həyat səhnəsindəki səyahət turum indi daha tez-tez ÖLÜMün yanından keçir. Mənimçün çox dəyərli olan o qədər insanı öz səltənətinə yığıb ki, az qalıram ərizə yazıb könüllü gedəm. Amma yox. Dirilər səltənətində Mənsizlikdən əziyyət çəkə biləcək əzizlərimə qarşı haqsızlıq olar. Hələlik burda işlərim çoxdur. Necə ki Mənə ehtiyac duyanlar var, duruş gətirməliyəm.

Bəs, əzizlərimi necə qoruyum?.. İnsanlığa bunun bircə formulu məlumdur: insana sağlığında qədir-qiymət qoymaq, dünyasını dəyişəndən sonra xatirəsini yaşatmaq! Bu mülahizələri əsas tutaraq MƏĞLUBOLUNMAZ MƏLUNA qarşı qayğıdan, məhəbbətdən yoğrulmuş silahımla qurşanmışam. Kifayət etmir. ÖLÜM qarşısında acizliyimi nəzəriyyədə qəbul edirəm, praktikada isə bu həqiqəti həzm edə bilmirəm.

Biləndə ki, yaşanan hər dəqiqə ömrə ömür calamır, ömürdən son yarpaqları qoparır,.. çox çətin olur! MƏNHUS ÖLÜMlə üz-üzə dayanan SEVDİYİNƏ baxmaq dünyada ən əzablı işdir. Sanki TUFAN gəlib GÖZƏL BİR KƏPƏNƏYİ alıb aparır. Və sən yerə-göyə meydan oxuyan TUFANa müqavimət göstərəmmirsən, söz başa salammırsan. Ona dəxli yoxdur ki, KƏPƏNƏK uçur.., yoxsa qonduğu güldən-çiçəkdən kam alır... Rastlaşdığı andaca BU ZƏRİF GÖZƏLİN həyatına son qoyur. Gözlərin qarşısında baş verən haqsızlığı, amansızlığı seyr etməkdən savayı sənin gücün heç nəyə çatmır... İnsan taleyə tabedir. TƏƏSSÜF!!!

**2009**

# QARDAŞ İTKİSİ

O, mənim güvənc yerim idi. Sözün hər mənasında Böyük Qardaş. Ata yurdumun ağsaqqalıydı. Hamını barışdıran, birləşdirən böyük. Yaxşı insan. Xeyirxah adam. Qayğıkeş, mehriban ailə başçısı.

Bilmirəm, 2007-ci ilimi qınayım, Sənimi Qardaş? Dünən var idin. Bu gün yoxsan. Sabah da olmayacaqsan. Yanvarın 1-də günəş qüruba enməmiş Sən bizi tərk etdin, Qardaş. Səni sevənləri Sənsiz qoydun. Dünənki yeni il təbriklərinin səsi-sədası hələ qulaqlarımdadır. Mənə dilədiyin şirin arzuların da...

Sən mənə xoşbəxt 2007 arzulamışdın, qardaşsız 2007 yox! Ruhum inləyir. Niyə belə etdin? Yeni ilin ilk günündə əbədiyyətə yol aldın. Gülə-gülə getdin. Şən və şux. Bayram əhval-ruhiyyəsi ilə qovuşdun əbədiyyət deyilən gedər-gəlməzə.

Gedişinlə arxalandığımız dağ uçdu,– desəm azdır. Sən getdin, dünyamız qaraldı, gözümüzə-könlümüzə zülmət çökdü. Zaman dayandı. Zamanı tərsinə fırlayıb Səni qaytarmaq istədik. Alınmadı. Zamanın axarına tabe olub Səni uzaq yolçuluğa uğurladıq. Əcdadlarımızın yanına yollandın. Xeyir xəbərləri, xoş soraqlarımızı bu dünyadan köçmüş əzizlərimizə çatdırmağa tələsdin, İdris!

**2007**

# İLĞIM

İlğıma bənzədi bu ülfət. İlğıma. İntizarı vüsalından uzun oldu. Böyük bir ümid yaranmışdı. İçim dəyişmişdi. Ruhum təzələnmişdi. Mənəvi dirilmə başlanmışdı cismani varlığımda. Dünya gözümdə gözəlləşmişdi. Həyat yeni məna kəsb etmişdi. Qəfil başlandığı kimi qəfil də qeyb oldu bu ünsiyyət.

Sən demə, sevgim, istəyim ölməyibmiş. Yuxuya gedibmiş. Onu ayıldacaq himə bənd imiş. Oyandı. Boylandı. Həsrət çəkdi. Sevgimin intizar qulağı səsdə qaldı. Hər zəngə tələsdi. Amma...

Sən qış günəşi kimi doğmuşdun həyatıma. Parlaq və soyuq. Bəyaz qar üstə şüaları göz qamaşdıran günəş tək bumbuz idin. İsitmirdin. Hədər deməyiblər ki, qışın günəşi, yayın yağışı aldadıcı olar...

Bu, qadın-kişi sevgisi deyildi. Bəşəri sevgiydi. Həmdərdlik, həmdəmlik idi. Bitdi. Daha səni gözləmirəm. Get. Səsini eşidə biləcəyim məsafədən yığışdır. Çalış, özün də gözümə görünmə. Arzuların qayıtmayacağı ünvana get. Daha səni istəmirəm.

Get. Dərdimlə oynama. Tənhalığı mənə ərməğan edən Tanrı ona tablayacaq gücü də verib. Məni sındırammazsan. Get daha. Geri dönmə. Yollarımız çarpazlaşmasın. Duyğularımı cəhənnəm atəşinə döndərmə. Mən tənhalığımda möhtəşəməm. Səninlə zəifləyə bilərəm. Noolar, dönmə.

# SEÇİM

Sən karyerana sarılıbsan, mən qələmimə. İkimiz də sevdiyimizdən bərk-bərk yapışmışıq. Bu durumu dəyişməyə ancaq məhəbbətin qüdrəti yetər. O da yoxdur.

İçimdə fırtına, çölümdə sükunət. Səninsə zahirin fırtına. İçindəki qəbir sükunətində hər addımını hesablaya-hesablaya ömür sürürsən. Hər gün öldürdüyün ömrünə yazıq. Ürəkdən gələn bircə kəlmən də yoxdur. Hər sözün məqsədli, hər addımın təmənnalı. Yaşayırsan ölü kimi. Hissini, duyğusunu içində gömən cəmi karyeristlər kimi qəlbsiz birisən. Sən seçimini etmisən. Məndən umacağın nədir? Səni dəlicəsinə sevməyimi istəyirsənsə, əbəs. Qəlbimi yerindən oynatmağa nail olammayıbsan. İlıq duyğularla sənin platonik məhəbbətinin buzunu əritməyə həvəsli deyiləm. Mən diri, sən ölü. Bizim dialoqumuz baş tutmaz. Məndən fədakarlıq gözləmə. Sən sevilməyə layiq deyilsən. Sevməyə qadir olmadığın üçün.

# YAŞARI OLMAYAN CAZİBƏ

BİRİ intizarda saxlamağı sevirdi, O BİRİ birlikdə olmağa üstünlük verirdi. BİRİ verəcəyini mataha mindirib verməyi xoşlayırdı, O BİRİ isə bunu qarşıdakının haqqıymış kimi təqdim etməyi. BİRİ öz hisslərindən belə qorxurdu, O BİRİ duyğularının ülviliyindən həzz alırdı. BİRİ hər şeydə qeyri-müəyyən gələcəyi seçirdi, O BİRİ bu gün yaşamağı. BİRİ sevgisini gizlətməyi xoşlayırdı, O BİRİ bəyan etməyi. BİRİ pünhanı, O BİRİ aşkarı. Nə qədər böyük fərq?? Tam olaraq əksliklərin vəhdətiydilər. Bəlkə bu fərqlilik idi onları bir-birinə cəzb edən? Amma yox. Bu sevda baş tutmadı. Cazibə yarandı, ancaq yaşarı olmadı, gücü artdıqca tərəfləri bir-birindən itələdi. Çünki bu qədər fərqliliyin doğurduğu cazibə OVÇUnun OV hərisliyi xislətinə daha yaxınıydı.

**2002**

# DOSTUMA

Bizə sarı gələndə bir qum dənəsi gətirib qoyan dostum, qayıdanbaş həmin yerdə dağ axtarırsan. Sən dağ ucaltmadın axı?

"Səni incitmişdim, onu yazdınmı?"– soruşursan. Bu istəyinə ərköyünlükmü deyim, özündən razılıqmı? Hər inciklik qələmə gəlməz axı.

"Məndən heç nə yazmırsansa, deməli, sənin üçün mən yoxam", – deyə israr edirsən. Bu təmənnana nə ad verim, bilmirəm.

Narahat yaşantılarımın bəhrəsi olan, ömrüm boyu həyatda müşahidə etdiklərimin inikasına çevrilən, yüzlərlə insan taleyinin ümumiləşmiş obrazı olan qəhrəmanlarımın sırasına düşmək beləmi vacibdir səninçün? Qələmimə çox dəyər verirsən, yoxsa mənə, Dostum?

Sərin su içmək istəyirsənsə, öncə bulağın gözünü açmalısan. Məcnun sevgisi axtaran kəs Leyli fədakarlığı mərtəbəsində dayanmalıdır. Atəş istəyən ən azı köz olmalıdır. Yanan ürəklərin tüstüsünü seyr etməyə meylin varsa, öncə məşələ çevrilib özün yanmalısan. Gərək yanasan ki, yandıra biləsən.

Sənin qənaətinə görə, sən sadəcə yaşayırsan, mən isə hər şeydə gözəl yaşamağa çalışıram. Belə isə, bu nə umu-küsüdü? Biz sadəcə dostuq. Dostun dostdan ən böyük umacağı isə onun var olması və münasibətlərin davam etməsi ola bilər. Bu qədər.

Fikirlərimiz döyüşəndə sən mənə daha əzizsən. Çox gərəklisən. Amma səndən yazım deyə, məni incitməyinə lüzum yoxdur. Sənin sadəcə varlığın mənə yetərlidir, Dostum.

**2007**

# AĞRI

Qəlbinin dərinliklərindən süzülüb bəbəklərindən boylanan kədərin qəlbimə çökdü. Bu yükü Səndən aldım, qəmini paylaşdım,- deyə məmnun oldum. Qəlbim Sənin olsun. Amma ... nə dediyini bilmirəm, Ruhum sözlərinin zəhərində boğuldu. Ruhsuz yaşaya bilmərəm. Onu kimsəyə güzəştə gedə bilmərəm. Ruhsuz bədən qismində mövcud olmaq Mənlik deyil. Mənə gərək olmayan bir vücudun Sənə nə faydası olar ki?!. Ruhuma toxunma.

**2007**

# 8 MART OVQATI

Bir də gördüm gün sürüşüb əlimdən gedir. Artıq saat 15.00-dir. Zaman məni tərk edir. Zamanı tutub saxlamaq istədim "O, gələcək" deyə. "O hələ gəlməyib, gözlədiyim zəngi almamışam", – deyə haray çəkmək istədim. Səsim çıxmadı. Zaman mənimlə ünsiyyətə girmədi. Dialoqdan qaçdı. Monoloqumu dinləmək alicənablığında belə bulunmadı.

Zaman getdi. Mən dayandım. Zaman irəlilədi. Mən yerimdə saydım. Ətalət halında olduğumdan intizarında qaldığım ünvana yetişəmmədim. Zaman öncə arzularımı, sonra imkanlarımı yuyub apardı. Zamanın seli hər şeyi ağuşuna aldı. İçimdə bir sevda intihar etdi. Şüurlu yox, şüuraltında gözlədiyim təbriki alammadığımdan.

...Ovqatımın Səndən asılılığına son qoymalıyam. Gör məni nə qədər sevənlər var!! İlk zəng Bakıdan, ikinci Şəkidən, üçüncü Özbəkistandan gəldi. Sübhün gözü açılmamış unudulmuşlar özlərini yada saldılar. Yadırğadığım səslər qulağımda cingildəyib, qəlbimə dirilik suyu səpdilər. Səndən soraq gəlmədi. Sənmi amansızsan, mənmi ağılsız??

Qürurumun incidiyi o bayram günündə ovqatıma məyusluq çökdü. Lakin... nə yandım, nə dondum. Sadəcə adi gün yaşadım. Amma fərqli biçimdə. Zaman Məni heç yerə tələsdirmirdi. Qovmurdu Məni vaxt. Zamanımın hökmdarı özüm oldum. İstədiyim kimi xərclədim ömür payımdakı bu sərvəti. 24 saatlıq sutkanın 8 Mart tarixində-

ki vaxt ölçüsü elə intəhasız, elə gen-bol oldu ki… Saatlar 60 dəqiqədən xeyli çox idi. Təbriklər, xoş diləklər, gümrah səslər… və adekvat cavab. Hər şey gözəl idi. Sən gəlsən bu gözəlliyin sanbalı çox olardı, tablaya bilməzdim. Yəqin buna görə YOX mövqeyində dayandın. Sən zatən yoxsan. Səni mənmi uydurdum? Özünmü? Özünə məxsus olmayan adam mənə necə məxsus olar ki ?!..

8 Martdan Sənin adını YOXlar siyahısına yazdım. Əgər varlığınla yoxluğuna heç bir fərq duymuramsa, o halda Sənin VAR olduğuna necə inanım? Şübhəm var. Şübhə həqiqətin açarıdır. Deyəsən Sən VAR deyilsən axı? Bu dilemmanı həll etməyin vaxtı çatıb. Amma o da bəlli ki, dilemmanın açarı müəllifinin əlində. Bu ziddiyyəti yaradan da Sənsən, həm VAR, həm də YOX olduğunu aksiomlaşdıran da Özünsən.

…Səni tapmadım. Xatirələrimin qaranlıq diyarında közərən bir işığın ucundan yapışdım. Adətən ən qiymətli sərvəti zaman olan mən 8 Martdakı 24 saatımdan zamansız istifadə etdim. Məhdudiyyət olmadan.

Saat 17.17 – 17.22 ! Sənli dəqiqələrim. Nə yazıq ki, Səndən gələn təbriklərə şən və gümrah səslə cavab verə bilmədim. Üzüntülərini dinlədim, üzüntülərimi söylədim və içimdə intihar edən sevdadan bəhs etdim. Yəni, hiss və həyəcanımı bölüşdüm. Sən fiziki nasazlığın əlində aciz qalmışdın, Mən mənəvi nasazlığın əlində. Dönüb qəlbimdəki dar ağacından sallanan eşqimə baxdım. Get-gedə daha kiçik amplitudada yellənirdi. Ölmək, yox olmaq istəyilə qiyama qalxmış duyğularımın saçına sığal çəkmək istədim. Başını o yana əydi, əllərim boşluqda qaldı. Üsyankar qəlbim sərinləşən ağlıma meydan vermədi.

İçimdə bir sevda intihar etdi. Onu dəfn etməyə ülvi məkan tapmadım. Məzarı ürəyim, başdaşı beynim oldu.

# ZARAFAT , yoxsa YEDDİNCİ HİSS?..

SEVİRSƏNMİ?- deyə soruşdular məndən. Düşündüm: - MƏN O QƏDƏR XOŞBƏXT DEYİLƏM Kİ, DƏRD ÇƏKMƏK HƏVƏSİNƏ DÜŞƏM.

Günün birində çağırılmamış qonaq kimi gəlib əyləşdi ürəyimin başında bu duyğu. Araşdırıb aydınlaşdırdım ki, səbəbsiz-filansız bir Allah bəndəsini sevməyə başlamışam. Ürəyimin qapılarını taybatay açıb Ona təslim etmişəm (yalnız ürəyimin!). İşin tərsliyinə bax ki, özüm də bilmədən Onu ovqatımın hökmdarına çevirmişəm. Görünür, dərd çəkmək üçün qəribsəyibmişəm. Əslində dərdim başımdan aşırdı. Amma Bu gələndən sonra onların hamısını deportasiya etdi.

Və başladı məni özünəməxsus üsulla "sevib-sevindirməyə". Kədərimi ovundurmadı, sevincimə yiyə durmadı. Mənimlə heç paylaşmadı. Heç nəyi paylaşmadı. Amma elə hey "mən səninəm, sənsə mənim deyilsən",- deyib məni suçladı. Mənə zaman ayırmadı. Sevgimin qarşılığı gözümə görünmədi. Elə hey qulaqlarıma tıxandı. Amma inandırammadı. Sevilmədən sevildim. Çox orijinal münasibət oldu! Sayəsində yeni duyğular tanıdım. Ağrılı, amma çəkici.

Bir də baxdım, ay keçdi, il dolandı. İldönümünü də səssizliyə gömən sevgimiz yarımcan doğulmuş uşağa bənzədi. Sanki yaşamaq üçün havasımı, suyumu (?) çatmırdı. İnkişafdan qalmışdı. Bəlkə də

olduğu qədər yaşamaq istəyirdi. (Atom da, nüvə də balacadır, adi gözlə görünmür, amma hökmünə bax, dünyanı dağıtmağa qadirdir!) Həm də səssiz-səmirsiz. Gözəgörünmədən vücuduma sirayət etmiş bu duyğu altdan-altdan işini görürdü. Həyatıma hakim kəsiləmməsə də, ruhuma-qəlbimə hakim kəsilmişdi. Qapıdan qovurdum, bacadan girirdi.

Eləmədim tənbəllik, ürəyimi kurorta göndərib, ağlımı işə saldım. Bizi yaxınlaşdıran və uzaqlaşdıran motivləri tədqiqata cəlb etdim. Tədqiqatım uğursuz oldu: bizi cəzb edən və itələyən hisslərə ad tapa bilmədim. Bu boyda zarafat olardı? Bizi üzərək xoşbəxt edən hiss sevgiydimi? Mən bilən, yox. Sevgi görmək-eşitmək-duymaq ehtiyacıdır. Paylaşmaq vərdişidir. Naz çəkmək istəyidir. SEVGİ MADDİ VARLIQ OLMASA DA, GÖZƏ GÖRÜNƏNDİR. O, sevənin hər davranışında təzahür edir, hər bir konkret hal üçün yeni libasda doğulur, daim təzələnir, yaşatmağa çalışır...

Beynimi və adı bilinməyən münasibətimizin yoxsul tarixçəsini çox araşdırdım. Ruhumuzun doğmalığından savayı bizi bir-birimizə bağlayan tel yoxuydu. Gerçək olan iki şey vardı meydanda: ruhumuzun doğmalığı və bu münasibətdən ilhamlanmış yazılarımız. Daha doğrusu, ancaq mənimkilər. O, öz yazdıqlarını dərhal məhv edərdi... Mən bunu cəsarətin azlığına yozardım, o isə yaratdığını məhv etməyi gücün-qüdrətin təcəssümü kimi dəyərləndirərdi. Bir də mənəvi durumumuzun ən ağır məqamlarında bir-birimizə duyulan ehtiyacımız danılmaz faktdır. Bəlkə də, qarşılaşdığımız bu duyğu tanımadığımız YEDDİNCİ HİSS idi?..

Bir yaz günündə, bəlkə də o yazın hansısa axşamlarında səsdən sürüşüb xəlvətcə könlümə düşmüş, sözdən qopub iç dünyama hopmuş hissin əlində aciz qalmaq istəmədim. Onu qazıyıb qəlbimdən atdım. Başımı qaldıranda gördüm ki, eyvah, mən yoxuymuşam ki!.. Mən yoxuymuşam! Varlığım boşluqdan ibarətiymiş.

# ETİRAF

Ürəyim-canım hər yandığında Səni suçladım. Sevginin yetərsizliyindən gileyləndim. Amma... indi etiraf edirəm ki, nahaq. İçimdən çıxıb, kənardan Bizə baxanda gözümdəki inciklik pərdəsi qalxdı. Gördüm ki, heç vaxt Sənə qarşılıq verməmişəm. Mənə doğru atdığın addımların hamısında Səni dayandırmışam, geri itələmişəm, yaxına buraxmamışam. Sevən belə etməz!

Kaş, Sənin dediklərinə inana bilsəydim. Kaş, Sənin sevgi, məhəbbət elanlarına əmin olsaydım. Amma yox. Heç inandırammadın. İnanmadığım duyğuların Məni pərvazlandırammaz. Sözdən çox əmələ güvənən adamam. Eşitdiklərim yox, gördüklərim əsasdır mənimçün. Hər fürsətdəmi deyim, canın hər istədiyindəmi, öz üslubunca çox çalışsan da, həyatıma daxil ola bilmədin. Çünki Mən EŞQİNİIN BÖYÜKLÜYÜNDƏN XIRDA PULA ÇEVRİLƏNLƏRİ GÖRƏNDƏ QORXURAM. Özümü belə fəlakətə salammaram.

Münasibətlərimizi belə xarakterizə etmək olar: qarşılıqlı cazibə və qarşılıqlı yaxına buraxmamaq inadı. Bunun bir adı da mənəm-mənəmlikdir. Yəni qarşıdakını nəzərə almadan taktiki gedişlərdə hər kəs öz istəyini diktə edir! Amma strategiyanın dəyişmədiyini nəzərə alsaq, bəlkə də ifrat ərköyünlükdən irəli gəlir bu? MƏHƏBBƏT TƏRƏZİSİNDƏ "BƏRABƏRLİK" OLMAZ. Hər zaman tərəfin biri ağır gələcək. Bu, aksiomdur. Amma yenə də Bizi bağlayan tellər heç bir ölçüyə sığmır. Ta o başdan "qaydasız döyüş"dəyik. Sevgi belə olmaz! O halda bu duyğu "7-ci hiss"dirmi? Sönməyən, heç bir qəzəbin alovunda əriyib

yox olmayan, hər cür rəqabətə davam gətirən duyğunun mayasında dayanan nədir? Münasibətlər təsnifatında statusumuz "dost" kəlməsinin hüdudlarına sığarmı? Qar altından baş qaldıran bənövşə kimidir "sevgimiz", münasibətlərimizdəki hər zəlzələdən sonra incikliklərin uçqunları altından sıyrılıb çıxır, qaranlıq gecələri qovan günəş kimi yenidən doğur.

Daha Səni suçlamıram. Heç nə, heç nə gözləmirəm. Sən "sən olaraq" qal, Mən də "mən olaraq". UZAQ QALAKTİKALAR KİMİ MÖVCUD OLAQ DUYĞULAR KAİNATINDA. Özün yaşatmasan da (və ya yaşada bilməsən də), sayəndə diri qalan duyğularım yaşadır Məni. Bu möhtəşəm hissləri Mənə bəxş etdiyin üçün Sənə minnətdaram. Duyğularımın əlvanlığının təminatçısısan. Məni qurumaqdan, hissizləşməkdən qoruyursan. Mənə həsr etdiyin yazıları insan olaraq şəxsiyyətimə verdiyin dəyərin ifadəsi kimi qəbul edirəm. Sənə o misraları yazdıran Mənə əhsən! Mənə bu dəyəri verən Sənə əhsən!

# AYRILIQ

Qəfil vurulan sillənin zərbəsindən səntirlədi oğlan. Bir an başı dumanlandı. Gözləri qaraldı.

–"Niyə vurdu?! Niyə vurdu?! Niyə vurdu?!"

Səsi əks-səda doğurdu sillənin. Qız qeyri-iradi gözlərini yumub üzünü yana çevirdi. Cavab gözlədi. Bir an. Bircə an. Qulaqlarında uğuldayan səsdən səksəndi sonra. Ürəyi gizildədi. Üşürgələndi. Cavab almayacağını dərk etdi. Əslində bu sillənin özü cavabdı, cavab!..

Qızın biləyi gəncin dəmir məngənə kimi sıxılmış əlində qalmışdı. Üz-üzə, göz-gözə dayanmışdılar. Arada sükut hökm sürürdü. Danışan da, savaşan da baxışlar idi. Yalnız baxışlar. Oğlanın baxışlarında məhəbbətdən doğan hörmətlə sındırılmış qürur, intiqama çağıran sərtlik mübarizə aparırdı. Qızın baxışlarından vüqar, məğrurluq, bir də… məhəbbətdən doğan əzab boylanırdı. Əslində, vurduğu sillə yüz qat ağır zərbəyə çevrilib öz ürəyinə dəymişdi. Ağrıdırdı. Ağrıtdığı üçün…

Cavanın gözlərindən odlu oxlar kimi suallar yağırdı: –"Niyə vurdun?!"

Qızın gözlərindən zümrüd göllərin sərinliyi, aydınlığı süzülürdü:– "Özündən soruş."

Beləcə baxışdılar, baxışdılar…

– Hərəkətini nə ilə izah edə bilərsən?

– Səni heç vaxt belə yüngülxasiyyət bilməmişəm. Fərqinə varmadan danışdığın sözlə, ləyaqətsiz hərəkətinlə məni də, sənə qarşı olan hisslərimi də təhqir etdin, – deyərək köks ötürdü qız.

Səhvini dərk etsə də, hirsi hələ soyumayan oğlan,– yüngülxa-

siyyət olduğuma ki, şübhən qalmadı, daha ah niyə çəkirsən, – deyə qızı sancdı.

– Səni itirmək mənim üçün faciə deyil. Heyfslənirəm o hisslər üçün ki, hər ikimizi xoşbəxt edə bilərdi.

...Narın yağış yağırdı. Yanaşı addımladılar. Salxım söyüdə çatanacan. Dayandılar. Yenə üz-üzə, göz-gözə. Küləyin titrətdiyi yarpaqlardan hər ikisinin üzünə göz yaşı  kimi dumduru damcılar çiləndi.

– Tap səni xoşbəxt edəni! –Təəssüflə dedi, yana-yana dedi, ürəkdən dedi oğlan.

– Mən xoşbəxt olacağam! –Qürurla, inamla cavab verdi qız.  Ayrıldılar. Get-gedə güclənən yağış uzaqlaşan sevgililərin ayaq izlərini də yuyub aparırdı...

* * *

Mavi səma altında bir yay axşamının gözəlliyi cilvələnir. Ara-sıra  şən qəhqəhələr, küləyin haradansa oğurlayıb gətirdiyi pıçıltılar qulaq oxşayır. Mehdən titrəşən yarpaqlar əl edib görüşə çıxanları salamlayır. Salxım söyüdün budaqları sevgililər önündə baş əyir. Günəş də qızara-qızara dağların arxasında gizlənir. Sanki insanları tərk etdiyi üçün utanır. Tək-tənha dayanmış bir gənc bu mənzərəni seyr edir. Düşünür-daşınır. Köks ötürür: –"Mənim sevgilim daha cazibədar, daha şux idi! Ağıllı qız... Görəsən indi kimə səadət bəxş edir?.."

Şəhərin harasındasa pəncərədən bir qız boylanır. Axşamın gözəlliyinə, axşamın seyrinə həsrət qalmış qız. Qoşa cavanlara baxdıqca xəyala dalır: – "O, daha yaraşıqlı, daha diqqətli idi..." Oyanan xatirələri qovub uzaqlaşdırır. Nəzərləri ilə tək gəzən gənc axtarır. Tək. Tapa bilmir...

**1981**

# FƏRYAD

Sönübdür  atəşim, közərir külüm
Mənim süqutumu görən olmayır.
Tükənib dözümüm, azalıb gücüm
Niyəsini duyan, bilən olmayır.

İllərin karvanı ağırlaşıbdır,
Karvanın başını çəkə bilmirəm.
Yaşadığım evi – mənim dünyamı
Ürəyimcə qurub, tikə bilmirəm.

Günüm-güzəranım lap dolaşıbdır,
Kələfin ucunu tapa bilmirəm.
Sevilmək eşqini, sevmək eşqini
Qoparıb qəlbimdən ata bilmirəm.

Gecəli-gündüzlü yol gedirəm, yol
Keçirəm əzabdan, məşəqqətlərdən,
Gözü yolda qalan arzularıma
Yaxınlaşammıram, çata bilmirəm,
Arzu-istəyimi üzür intizar,
Şəvə saçlarıma yağır, yağır qar...

Paltarlar köhnəlir, üzlər köhnəlir,
Köhnəlir fələyin işləkləri də.
Nimdaşlar içində, cındır dünyada
Tərtəzə, bakirə qalsam da fəqət
Layiq olduğumu ala bilmirəm!
Nadanlara həmdəm ola bilmirəm!

Qocala bilmirəm qızam deyə mən,
Həmişəcavan da qala bilmirəm,
Yaşadığım ömrün ucalığından
Əl çəkə bilmirəm, enə bilmirəm
Adi adamların arasına mən,
Adi qadınların sırasına mən.

Bilmirəm kiməm mən, Ulu Yaradan,

Mələkmi, insanmı, fövqəlbəşərmi??

Həyatda yerimi tapa bilmirəm.

Ağlaya bilmirəm, gülə bilmirəm

Qorxuram bəd yoza bəd dillər bunu,

Ölmək istəyirəm, ölə bilmirəm

Qorxuram! Bəd yozar bədxahlar sonu...

**iyul 1994**

# III Fəsil
# PUBLİSİSTİKA

# I Bölmə

# 90-cı İLLƏRİN PROBLEMLƏRİ

# HAQQ YERİNİ TAPACAQMI ?

AZƏRBAYCAN SSR ALİ SOVETİNİN
İSTİNTAQ KOMİSSİYASINDA

*** İstintaq komissiyasına yeni materialların daxil olması davam edir...**

*** Bir sıra ali dövlət, hökumət və partiya orqanları istintaq komissiyasının sorğularını cavabsız qoymuşlar.**

*** "Şit" cəmiyyətini respublikaya istintaq komissiyası dəvət etmişdi.**

*** Fövqəladə vəziyyət şəraitində işləmək komissiyanın işini çətinləşdirmişdir.**

*** Son sözü Azərbaycan Respublikası Ali Sovetinin deputat-istintaq komissiyası deyəcək.**

Zaman bizi qanlı yanvar günlərindən uzaqlaşdırdıqca itkilərimizin yanğısı qəlbimizi daha şiddətlə göynədir. Şəhidlərimizin ili yaxınlaşdıqca günahsız qurbanların ruhu, xatirəsi millət qeyrəti, Vətən təəssübü çəkən oğul və qızlarımıza rahatlıq vermir. Xalq respublika Ali Sovetinin 22 yanvar 1990-cı il tarixli fövqəladə sessiyasının qərarıyla yaradılmış istintaq komissiyasının işinin nəticələrini intizarla gözləyir.

On bir aydır ki, SSRİ xalq deputatı, akademik Midhət Abbasovun sədrliyi ilə komissiya gərgin iş aparır. Ah-naləmizin ərşə dirəndiyi o dərdli-ələmli günlərdə baş vermiş Bakı faciəsi dərindən təhqiq olunur. Qeyri-qanuni elan olunmuş fövqəladə vəziyyət şəraitində hərbçilərin törətdiyi cinayətlər, dinc əhaliyə divan tutulması faktları top-

lanıb hüquqi cəhətdən sənədləşdirilir. Yanvar faciəsini obyektiv qiymətləndirmək, müqəssirləri məsuliyyətə cəlb etmək üçün mühüm tarixi əhəmiyyətə malik bu işdə könüllülərdən ibarət işçi qrupunun əvəzsiz xidməti vardır. Bu günlərdə onlarla görüşdük. Xalqımızı düşündürən suallarla işçi qrupunun üzvlərinə müraciət etdik. İlk müsahibimiz vəkil **Aydın Rəsulov** oldu.

**A.R.** – On bir ay ərzində Ali Sovetin istintaq komissiyası olduqca çox iş görüb. Komissiyanın işçi qrupları müxtəlif istiqamətlərdə iş aparıb. Demək olar ki, materiallar hazırdır. Lakin material həddindən ziyadə çox olduğu üçün onu yekunlaşdırmaq da çətin olmuşdur. Biz işi yanvarın 20-dək qurtarmağı planlaşdırmışıq.

**HAŞİYƏ: Bu anda stolların üstündə qalaqlanmış yüzlərlə qovluğa nəzər saldım. Ölüm faktı üzrə, bədən xəsarəti yetirilməsi, şəxsi əmlaka, daha sonra dövlət və ictimai əmlaka ziyan vurulması faktları üzrə çeşidlənmiş qovluqlarda şəhidin, yaxud zərərdidənin anket məlumatlarından tutmuş ərizə, arayış və izahatlara, hadisənin baş verdiyi yerin plan-sxeminə, məhkəmə ekspertlərinin rəyinədək bütün sənədlər toplanmışdı. Yeri gəlmişkən, bu işləri fədakarlıqla görən Tamerlan Qarayevin, Zəlimxan Hüseynovun, Əfruz Eylazovanın, Aydın Rəsulovun, Səfdər Nəhmətovun və Taqət Zeynalovun adlarını xüsusi qeyd etmək gərəkdir.**

**A.R.** – Mart ayınacan komissiyada yüzədək vətənpərvər çalışırdı. Onların çoxusu tədricən işinə qayıdıb. İşçi qrupunda qalmış 5 nəfərlə belə geniş miqyaslı, böyük həcmli işi yekunlaşdırmaqdayıq. Hazırda təhqiqatın analiziylə məşğuluq ki, bu da sırf hüquqşünas işidir.

Hərdən belə giley-güzar eşidirik ki, necə oldu "Şit" cəmiyyəti 10 gün ərzində yanvar faciəsini təhqiq edərək konkret nəticəyə gəldi, hadisəyə siyasi qiymət verdi, amma öz istintaq komissiyamız hələ də su-

sur?.. Əvvəla, "Şit" cəmiyyətini Bakıya istintaq komissiyası dəvət etmişdi. İkincisi, onlar burada bizim topladığımız sənədlər əsasında işləyiblər. "Naçalo" (Moskvada çıxır) qəzetindəki "Kak brali Baku" məqaləsinin müəllifləri də komissiyanın materiallarından istifadə ediblər.

Mən Sumqayıt yolunda maşında həlak olmuş alimlərimizin işinə də vəkil kimi çıxmışam. Həmkarım Hacıyev Adili də dəvət etmişdim. Biz zərər çəkən tərəfin mənafeyini müdafiə edirdik. Məsələ əvvəldən düzgün qoyulmamışdı, biz bilirdik ki, hər şey bir nəfərin üzərinə yıxılacaq, halbuki bütün hərbçilər günahkar idi.

**M.S. – Cani 1 nəfər olsa belə, heç olmazsa layiqli cəzasını almalıydı. 3 görkəmli professorumuz həlak olub, cəmisi 6 il iş kəsdilər.**

**A.R.** – İndiyəcən biz o işlə məşğuluq, nəzarət qaydasında şikayət yazırıq...

**M.S. – Buyurun, Əfruz xanım, indi də sizi dinləyirik.**

**Ə.E.** – Mən özüm konkret yaralılarla məşğul olmuşam. Düzdür, bizdə indi təxminən 700-ə yaxın yaralı qeydiyyatdadır, amma ilkin vaxtlarda bu yaralıların koordinatlarını bir-bir xəstəxanalardan götürmüşük və onları evbəev özümüz axtarıb tapmışıq. Bizim milləti çox qorxudublar, ona görə də uzun müddət çoxları istintaq materialı verməkdən çəkiniblər. Biz bu çətinliyi nəzərə alaraq həmişə materialları toplamaqda davam etmişik. Çünki bu bizim tariximizdir. Biz bu tarixi yaşatmalıyıq və gələcək nəsillərə çatdırmalıyıq. Yaralılar arasında 25 nəfər qadın, 20 uşaq vardır. 10 nəfər ömürlük şikəst olmuşdur. Əmək qabiliyyətini itirənlərsə, təxminən 110-150 nəfərdir. Hamısı da cavanlardır. İndi komissiya işini yekunlaşdırmaqdadır. Və mən özüm şəxsən nəticəni belə gözləyirəm ki, bu qan yerdə qalmasın, həm bunu tarix kimi yaşada bilək, həm də siyasi qiymət verilsin. Mənim tələbim budur.

**M.S. – Müstəntiq Zəlimxan Hüseynov Bakıdakı yanvar faciələrinə münasibətdə ali dövlət orqanlarının mövqeyini sırf hüquqi baxımdan şərh edərək öz fikrini bildirdi.**

**Z.H.** – Faciəli yanvar hadisələrinin respublika səviyyəsində yox, Gürcüstandaklı kimi, İttifaq səviyyəsində istintaqı aparılsaydı, daha məqsədəuyğun olardı. Çünki Azərbaycan SSR-in Ali Soveti 22 yanvar 1990-cı il tarixli fövqəladə sessiyasında öz istintaq komissiyasını təşkil etməsinə baxmayaraq, 5 mart 1990-cı ildə SSRİ səviyyəsində bu məsələyə baxılarkən Ali Sovetin qərarının layihəsində göstərmişdilər ki, SSRİ Prokurorluğu, SSRİ DTK-sı, SSRİ DİN-i Azərbaycan SSR Ali Sovetinin istintaq komissiyasıyla birlikdə hadisələri istintaq edib, iki ay müddətində Ali Sovetə məruzə etməlidirlər. Lakin sonradan məlum olmayan səbəblərə görə bu layihə də dəyişdirilmiş, təsdiq olunmuş son variantda belə göstərilmişdir ki, SSRİ Prokurorluğu, SSRİ DTK-sı, SSRİ DİN-i respublika hüquq-mühafizə orqanları ilə birlikdə təhqiqat aparmalı, Azərbaycan SSR Ali Sovetinin istintaq komissiyasının rəyini də nəzərə alaraq yekun nəticələri iki ay müddətinə SSRİ Ali Sovetinə məruzə etməlidir. Amma bu günədək həmin məsələ ikinci dəfə SSRİ Ali Sovetində qoyulmamışdır və nəyə görə 5-i may 1990-cı ildə istintaqın nəticələri Ali Sovetdə məruzə edilməmişdir, bunu da heç kəs indiyə qədər bilmir. Bir məsələni də qeyd edim ki, SSRİ Ali Sovetinin həmin sessiyasında Bakıda yanvar faciəsinin ayrılıqda yox, respublikanın sərhəd rayonlarında və ordunun Bakıya yeridilməsindən əvvəl paytaxtda baş vermiş hadisələrlə birlikdə istintaq edilməsi qərara alınmışdı. Bir tərəfdən bu, komissiyanın işini çoxaltmışdır. Lakin eyni zamanda imkan da yaratmışdır ki, hadisələri bir-birindən asılı olaraq istintaq edək və ümumi qiymət verək. Onları birləşdirib ümumi bir rəyə gəldik. Çünki o hadisələr olmasaydı və nəhayət, 13-15 yanvar Bakı hadisələri olmasaydı, yəqin ki, SSRİ rəhbərliyi heç bir əsas tapa bilməzdi ki, Bakıya ordu yeritsin və təzə-təzə baş qaldıran demokratik hərəkatın qarşısını alsın. Buna görə də bizim çıxartdığımız

nəticə bu məsələlərin hamısını analiz edib ümumi bir qiymət verəcəkdir.

Bütün bu işləri aparmaq üçün biz 2000-ə yaxın sorğu göndərmişik. O cümlədən Sov.İKP MK-ya, SSRİ Ali Sovetinə, SSRİ Nazirlər Sovetinə, respublikanın rəhbər orqanlarına və hüquq-mühafizə orqanlarına müraciət etmişik. Əfsuslar olsun ki, sorğuların əksəriyyətinə heç cavab göndərilməyib, çoxusuna isə başdansovdu cavablar göndərilmişdir. Bu da komissiyanın işini ləngitmişdir.

Biz, işçi qrupunun üzvləri materialları hazırlayıb öz fikrimizi bildirməklə, rəsmi Ali Sovet tərəfindən təyin olunmuş komissiyaya təqdim edəcəyik. Əgər bizim materiallara əsaslanan fikirlərimiz onlar tərəfindən təsdiq olunmasa və biz belə hesab etsək ki, onların çıxardıqları nəticələr qeyri-obyektivdir, biz işçi qrupunun üzvləri öz rəyimizlə millət qarşısına çıxmağa hazırıq və bu hüququmuzdan istifadə edəcəyik.

**M.S. – Bu yerdə elmi işçi Səfdər Nəhmətov söhbətə qoşuldu.**

**S.N.** – Bir həqiqət məlumdur ki, komissiya öz işini fövqəladə vəziyyət şəraitində aparır. Aydındır ki, komissiyanın işinin gecikmə səbəblərinin bir tərəfi də elə fövqəladə vəziyyətin üzərinə düşür. İkinci tərəfdən əgər bizi günahlandırırlarsa ki, kütləvi informasiya vasitələrində işin gedişatı barədə məlumat verməmişik, onun səbəbini bizdən yox, respublikanın mətbuat və informasiya vasitələrinin rəhbərlərindən, qəzet və jurnalların redaktorlarından soruşmaq daha düzgün olardı. Qeyd etmək yerinə düşərdi ki, komissiyaya müraciət edən bütün jurnalist korpusunun ciddi qeydi aparılır. İttifaq orqanlarından bizə çox müraciət etmişlər. Xarici ölkələrdən Fransa, İngiltərə, ABŞ və Yaponiya müxbirləri komissiyadan materiallar götürmüşlər. Respublika jurnalistləri istintaq komissiyasının işilə çox az maraqlanmışlar.

**M.S. – İşçi qrupunun üzvləri ilə bu çoxşaxəli söhbətdən sonra istintaq komissiyasının sədr müavini, Azərbaycanın xalq deputatı Tamerlan Qarayevə müraciət etdim.**

**T.Q.** – Hal-hazırda komissiya öz fəaliyyətini yekunlaşdırmaq ərəfəsindədir. İndi komissiya yekun rəyin üzərində çalışır. Məqsəd qoymuşuq ki, şəhidlərimizin ilində komissiyanın rəyi xalqa çatdırılsın. Bu günədək əldə olan məlumata əsasən demək olar ki, bilavasitə hərbçilər tərəfindən texnika ilə, silahla, süngülərlə, hərbi texnika ilə öldürülən şəhidlərimizin sayı 131-dir. Onlardan iki kişi meyidinin şəxsiyyəti indiyədək müəyyən edilməmişdir. Şəhidlərimizin 122-si kişi, 5-i qadın, 4-ü uşaqdır (2-si qız, 2-si oğlan). Milliyyətcə 117 nəfəri azərbaycanlı, 6-sı rus, 3-ü tatar, 3-ü yəhudidir. 4 milis işçisi (2 zabit, 2 serjant), 1 təcili yardım həkimi, 1 təcili yardım və 1 yanğınsöndürən sürücüsü, 12 nəfər Ermənistandan gəlmiş didərgin, 12 tələbə (8 əyani, 4 qiyabi), 1 aspirant, 3 elmlər doktoru həlak olmuşlar. Bəzi vaxt maraqlanıb deyirlər ki, axı, bundan çox rəqəm göstərilirdi mətbuatda. Elə bizim komissiyamız tərəfindən də vaxtilə 169 nəfər göstərilirdi. Dəqiq yoxlamalar zamanı məlum olmuşdur ki, şəhərimizin bir sıra sakinləri, vətəndaşlarımız bilavasitə hərbçilər tərəfindən öldürülməyibsə də, ancaq onun ölümünün bu və ya digər dərəcədə o hadisə ilə əlaqəsi vardır. Mən zəhər içib ölən o cavan gəlini – şəhid İlhamın həyat yoldaşı Fərizə xanımı nəzərdə tuturam, sonra qocaman akademikimiz S.Əliyevi ki, evinin partladıldığını görüb ürəyi partlayıb... Sonra belə hadisələr olub ki, küçələrdən meyidlər yığışdırılanda o dəhşətli səhnələri görüb, gəlib evdə ürək tutması tutub. Məsələn, Nəriman Allahverdiyev... Şübhəsiz, bunlar da qanlı yanvar faciəsinin qurbanları, şəhidləridir, ancaq biz hüquqi baxımdan bu hadisələri ayrı-ayrılıqda təhqiqat edirik. Ölümü bu hadisə ilə bağlı olanların sayı bu dəqiqə dəqiqləşdirilir, o mənada ki, bizdə yeni məlumatlar da vardır. Rəyimiz hazır olanda, şübhəsiz, dəqiqləşdirilmiş rəqəm orda öz əksini tapacaqdır.

**M.S. – Mətbuatda vaxtaşırı itkin düşənlərin haqqında yazılmış məqalələrə rast gəlirik. Və bu yazılar, şübhəsiz ki, hər birimizin qəlbini ağrıdır. Belə çıxır ki, yanvar hadisələrində itkin düşənlər, bu günədək nə ölüsü, nə dirisi tapılmayanlar xeylidir. Bu barədə.**

**T.Q.** – Əvvəlcə bu say çox idi. Açığını deyək ki, itkin düşənlərin sayını fevral ayında biz 400 nəfər göstərmişdik. Sonra bizə məlum oldu ki, həmin şəxslərdən çoxu həbs olunmuşdur. Amma həbs olunduqları barədə nə ailələrinə, nə yaxınlarına xəbər verilmədiyinə görə itkinlərin siyahısına düşüblər. Qalanların da əksəriyyəti bu hadisədən sonra gizlənmişdilər. İndi itkin düşənlərin sayı beş nəfər qalıb. Onların valideynləri də hələ bir ümidlə yaşayır ki, ola bilər həbs ediblər, bəlkə uzaqlara aparıblar... Bu barədə İttifaqın daxili işlər orqanlarına sorğularımızın verilməsini davam etdiririk, hələlik bu 5 nəfərin taleyi barədə dəqiq məlumatımız yoxdur.

**M.S. – Yanvar günlərində ordu tərəfindən şəhər təsərrüfatına böyük ziyan vurulmuşdu. Dövlət və ictimai əmlaka dəyən zərərin miqdarı müəyyənləşdirilibmi?**

**T.Q.** – Bəli, o müəyyənləşdirilir. Şəhərə və sakinlərinə, şəhərin müəssisə və təşkilatlarına vurulan ziyanın məbləği indi də dəqiqləşdirilir. Bu sahədə biz müxtəlif ekspertizalar təyin etmişik. Bu günlərdə son rəyləri alandan sonra axır nəticəni öz rəyimizdə göstərəcəyik ki, nə qədər vətəndaşlara, nə qədər də təşkilatlara və şəhərə ziyan vurulubdur. Biz hesab edirik ki, istintaq komissiyasının rəyinə Ali Sovet tərəfindən baxılandan sonra rəsmi dövlət səviyyəsində məsələ qaldırılacaq və bütün vətəndaşlara vurulan ziyanlar hamısı ödənməlidir.

**M.S. – Kim tərəfindən?**

**T.Q.** – Biz əvvəlcədən öz rəyimizi bildirmişik ki, bu ziyanlar İttifaq büdcəsindən, yəni hərbi nazirliyin büdcəsindən ödənməlidir.

**M.S. – Tamerlan müəllim, bir xalq deputatı kimi deyin,**

**sizcə, Bakıdakı yanvar faciəsinə siyasi qiymət veriləcəkmi?**

**T.Q.** – Gördüyünüz bu qalaq-qalaq sənədlər böyük zəhmət nəticəsində yığılıb. İnam olmasa, şübhəsiz, bir belə zəhmət də çəkilməzdi. Bəli, inam da var, biz də çalışırıq. Hesab edirəm ki, komissiya işini yekunlaşdırandan sonra bu hadisəyə siyasi qiymət veriləcək, bu hadisəni törədənlərə, onun başında duranlara da hüquqi qiymət veriləcək. Bakıdakı yanvar faciələrinə həm siyasi, həm hüquqi qiymət veriləcək! Mənim buna heç bir şübhəm yoxdur.

**M.S. – Elə biz də söhbətimizi bu inamla bitirmək istəyirik, əziz oxucular. Aylardan bəri xalqımızı narahat edən suallar cavab tapmaq ərəfəsindədir. Respublika Ali Sovetinin istintaq komissiyası öz işini sona çatdırmaq üzrədir. İndi bir sıra beynəlxalq təşkilatların da diqqəti bu məsələyə cəlb olunmuşdur. Yola saldığımız qanlı-qadalı 90-cı ilin son günlərində ABŞ-dan insan hüquqlarını müdafiə edən Helsinki qrupunun nümayəndələri də Bakıya gəlmişdilər. Qreq Uollansla Robert Kuşeni Moskvadakı "Memorial" cəmiyyətinin üzvü Dmitriy Leonov müşayiət edirdi. Hər üçü hüquqşünasdır. Nümayəndələr istintaq komissiyasının materialları ilə tanış oldular. İlk təəssürat kimi sənədlərin yüksək səviyyədə hazırlandığını qeyd etdilər. Onlar şəhidlərimizin ili münasibətilə Bakıdakı yanvar faciəsi haqda Helsinki qrupu adından məruzə hazırlayırlar. Məsələni dünya səviyyəsinə çıxarmaq barəsində komissiyaya dəyərli təkliflər veriblər. Bir də onu qeyd ediblər ki, Qərb jurnalistləri belə hadisələri adətən bir ildən sonra geniş işıqlandırmağa, dərin analizə başlayırlar. İnanmaq istəyirik ki, gec də olsa haqq yerini tapacaq. Bu qan yerdə qalmayacaq!**

**"Yurddaş" qəzeti**
**8 yanvar 1991-ci il, səh.5**

# SUSMAĞIN BƏLASI

**Erməni mətbuatı (istər Ermənistan respublikasında, istərsə də xarici ölkələrdə) Azərbaycan türklərinə qarşı yönəldilmiş "səlib yürüşü"ndə mühüm rol oynayır. Bu mətbuatı oxumaq bizim üçün son dərəcə ağırdır. Lakin məhz bu zərərli xüsusiyyətlərinə görə də xalqımızın erməni mətbuatından xəbərdar olması vacibdir.**

Erməni yazıçısı **Sero Xanzadyanın "Sovetakan Hayastan"** (erməni dilində "Sovet Ermənistanı"–M.S.) qəzetində dərc olunmuş **(10.IX.1988) "Tarixini, doğmanı bərpa etməli"** (yəni tarixi və doğma olanı bərpa etməli – M.S.) məqaləsindəki bəzi iddiaları toponimiya ilə məşğul olan dilçilərimizin, tarixçi və coğrafiyaşünaslarımızın diqqətinə çatdırmaq istəyirik. S.Xanzadyan yazır:

**"... haqlı olaraq yazırlar ki, bir çox coğrafi adlar bizə tarixi keçidlərin mövcudluğunu xatırladır, xalq həyatının uzaq ruhunu oyadırlar. Belə yer adları istər Qərbi, istərsə də Şərqi Ermənistanda saysız-hesabsızdır, aha, onlardan biri – Dağlıq Qarabağın erməni muxtar vilayətində Asgeran (Əsgəran – M.S.) adlı şəhərtipli qəsəbə və rayon vardır. Bunun türk sözü olan "əsgər"lə qətiyyən əlaqəsi yoxdur. Bu, "ast geran" söz birləşməsidir. Həmin bu Astgeran qalasının qalıqları indi də durur. Ya da elə Qarabağ adını götürək. "Hayrenbatum"um-**

**da demişəm (əsərinin adıdır – M.S.) indi də deyirəm, bu əsl erməni Bağaq, Bağk, Bağaberd, Bağakan, Bağahovit, Bağasakan yer adlarının bir formasıdır. Belə adlar Kür və Araz çaylarının qovuşuğundan başlamış Sünikin Bərgüşad vadisinədək hər yerdə varıydı, indi də var".**

Bu sərsəmləmədən Seronun məqsədi gün kimi aydındır. Axı, toponimlər hər bir coğrafi ərazinin milli pasportu, orada yaşayan xalqların milli tərcümeyi-halıdır. Şəhər, kənd, dağ, yaylaq, çay adlarının dəyişdirilməsilə həmin ərazidə yaşamış xalqın tarixi də itkin düşür, yaddaşlardan silinir. Bu baxımdan Ermənistan SSR-də və Azərbaycan SSR-in DQMV-də (Dağlıq Qarabağ Muxtar Vilayətində) sovet hakimiyyəti illərində dəyişdirilib erməniləşdirilmiş yer adları Azərbaycan xalqına qarşı mənəvi genosiddir. Hələ 30-cu illərdən başlayaraq Ermənistan SSR ərazisində minlərlə türk mənşəli yer adı dövlət qərarları ilə dəyişdirilib. Biz isə susmuşuq. Adların bir qismi dilimizdən birbaşa tərcümə olunub: **Dərəçiçək – Dzaxqadzor, Qızıltemir – Voskevaz, Ağbulaq – Lusaxpyur, Armudlu – Tandzut, Qırmızılı – Karmraşen, Almalı – Xndzorut, Daşqala – Karaberd, Qaraqala – Sevaberd və s.** Qalanlarını isə erməni toponimləri ilə əvəz edərək bununla da guya tarixi həqiqəti bərpa ediblər. Əslində isə Azərbaycan xalqının tarixi yaddaşı olan toponimlərin məhvindən Ermənistan SSR ərazisinin tarixən erməni məskəni olması iddiasını əsaslandırmaq məqsədi güdülübdür. Necə ki, 60-cı illərdə erməni alimlərinin və Ermənistan partiya və dövlət rəhbərlərinin ciddi-cəhdi sayəsində, saxta üsullarla **qədim Azərbaycan şəhəri olan İrəvanın guya eramızdan əvvəllər mövcud olmuş Erebuni şəhəri (yəni qədim erməni torpağı) olduğu "sübuta yetirildi".**

Qatı millətçi olan Xanzadyan bu məqaləni yazmaqla iki ciddi "səhvə" yol veribdir. Əvvəla, o etiraf edir ki, 30-cu illərdən başlanmış addəyişmə mərasimi bu toponimlər **türk mənşəli** olduğuna görədir. Diqqət yetirin, yəni minlərlə yer adları heç də Ermənistan SSR Ali So-

vetinin qərarlarında deyildiyi kimi, "qulağa yatmayan, çətin tələffüz edilən" adlar olduğu üçün yox, məhz türk mənşəli sözlər olduğu üçün dəyişdirilib. İkincisi, Sero Xanzadyan 1988-ci ilin payızında dərc olunmuş həmin məqaləsində azərbaycanlılar yaşayan bir sıra kəndlərin adını çəkməklə erməni tarixi üçün özü də bilmədən xoşagəlməz bir sənəd qoyub gedir. Axı, erməni psixologiyasına rəğmən az sonra iddia edəcəklər ki, ümumiyyətlə tarix boyu heç vaxt Ermənistan SSR ərazisində azərbaycanlılar yaşamayıb və bu xalq heç vaxt zor gücünə həmin torpaqdan qovulmayıb. Necə ki, Yerevan şəhərində cəmi 70-80 il bundan əvvəl əsasən azərbaycanlılar yaşadığını danırlar.

Bir şey göz qabağındadır ki, türk mənşəli toponimləri erməni mənşəli sözlər kimi qələmə verməkdə Sero istedadını, biliyini əsirgəməyib. Bunu məqalə müəllifinin **Armudlu və Varamazyar** toponimlərinə verdiyi şərhlərin timsalında aydın görürük. Gün kimi aydındır ki, **Varamazyar** sözünün hərfi mənası **"yar gələ bilməz"dir.** Bu, əsl türk mənşəli sözdür. Çox güman ki, xalq arasında Varamazyar adıyla bağlı **rəvayət** vardır. Lakin bu sözü təhrif edərək **Varazmayri** şəklinə salmaqla Sero Xanzadyan onu erməniləşdirir. Çünki **"Varaz"** erməni dilində kişi adı, **"mayr"** isə **"ana"** deməkdir.

**S.X. : "VARMAZYAR. - Bu, Sünikin Şərur qəzasının Varazmayri kəndidir. Yadlar bura Varamazyar deyiblər.**

**TANDZUT. – Yadelli köçərilər buna Armudlu deyiblər. Bizimkilər kəndin adını bərpa etmək istərkən Tandzut qoyublar. Halbuki, bu kəndin adı Armutdur, Yerasx çayının bir qolunun adıdır, V əsrdə Qoryun tərəfindən xatırladılır".**

İndiki Ermənistanın ərazisindəki Azərbaycan toponimlərinin hər birinin maraqlı tarixçəsi, dillərdə dastan olan, nəsildən-nəslə keçən rəvayəti vardır. İndi o torpaqlar əlimizdən zor gücünə alınsa da, o adlar, o mənəvi sərvətlər xalqın yaddaşında yaşayır. Kim bilir, bir-iki nəsildən sonra bu yaddaşın taleyi necə olacaq? Neçə ki, gec deyil, o

toponimləri toplayıb çapa vermək, tədqiqata cəlb etmək vacibdir. Əsl vətənpərvərlik budur.

Ermənistanın **Qəmərli** rayonunda **Yamancalı** adlı bir kənd vardı. İndiki **Artaşat** rayonunun **Dexsut** kəndi. Günlərin birində sakinlərindən soruşdum ki, bu kəndin adına niyə Yamancalı deyiblər? Bildirdilər ki, Yamancalı adı rəvayətlə bağlıdır.

– Tarixdə məşhur Çaldıran döyüşü zamanı qasid Şah İsmayıla mühüm  xəbər aparırmış. Təpələrdən-düzlərdən yel kimi keçən atlı bu obaya çatanda qəfildən atın ayağı çalaya düşür. Qasid başıüstə yerə gəlir, huşunu itirir. Ayılandan sonra ayağa qalxan atlı üst-başını çırpa-çırpa ətrafına baxıb deyir: "Nə yaman çala imiş?!" Əhvalat Şah İsmayıla da çatır. O vaxtdan bu kəndin adı Yamançala qalır. Sonralar söz tələffüzdə deformasiyaya uğrayaraq Yamancalı şəklinə düşür.

1988-ci ilin payızınadək həmin kənddə cəmi 12 ailə azərbaycanlı qalmışdı. Onlardan 7-sinin evi yandırıldı, malı-mülkü talan olundu. İndi həmin 12 ailənin hərəsi Azərbaycanın bir guşəsində məskunlaşıb. Kim bilir, doğma kəndin qədim adıyla bağlı rəvayət bu 12 ailədən törənəcək nəsillərə ötürüləcəkmi? Tez-tez "yadlar" buna belə deyib, "yadelli köçərilər" bu yeri belə adlandırıb yazan Sero Xanzadyana üz tutub soruşuram: Kimdir bu torpaqdakı yadelli köçəri – hələ XV əsrdə bu kəndə Yamançala adını qoyanlar, yoxsa 1967-ci ildə Dexsut adını verənlər?.. Belə misalların sayı yüzlərlədir. Erməni millətinin atası Sero isə qələminə güc verərək deyir:

**–"Bizim milli bioqrafiyamızın saysız-hesabsız səhifələri pozulmuşdur. Bəzən 3-4 minillik tarixi olan mənalı və əsl yer adları dəyişdirilib. Düzdür, yaxşı işlər də görülüb. Belə ki, Əliquçağı Kuçaq etmişik, Bayandur öz Vağatur mənasını tapıb, Yayıcı isə Harjis. Lakin bu yaxşı işlərin müqabilində naqis işlərimiz dağ kimi qalaqlanıb. Talinin Mastara (Məsdərə - M.S.) kəndinin adını (IV əsrdən xatırladılır) son zamanlar Dalarik**

**qoyublar. Məşhur Portaq kəndinə yadlar Ortaqlı deyiblər. Bizimkilər də qədimi, əsl olanı itirərək Dzaxqaşat adlandırıblar. Eynilə də Mxitar Qoşa yaxşı tanış olan Cabotik kəndi. Yadlar buna təhrif olunmuş şəkildə Çubuxlu deyiblər. İndi Dzovagyuğdur, yenə də qədim mənalı ad itirilibdir. Tacarabağı (Tacirbağı – M.S.) Dzoraxpyur ediblər. Çox qəribədir ki, bizim Bozizeği 1935-ci ildə Həmzəçimən elədilər. Niyə Sarıxan adını saxlayaq, özü də "yan"sız ("yan" erməni dilində milli mənsubiyyəti bildirən soyad sonluğudur – M.S.). Sual edək ki, Yelqovanın adını niyə Kotayk qoydular? Axı o, Yelğovann idi. Yeğeqnadzorun Yengicə kəndi isə tarixi Yernçakdır. Niyə məşhur Tejarukun adını başa düşmədən Meğradzor etdilər? Yadlar onu təhrif edərək Tayçarıx deyiblər. 50 ildən artıqdır ki, xalq təhqiramiz Alaverdi (yəni Allahverdi – M.S.) adından əzab çəkir, şikayət edir... dəyişdirilmir... Eləcə də 1934-cü ilin dekabrından Kirovabada çevrilmiş qədim erməni şəhəri Qandzak - Gəncənin tarixi adı gərək bərpa olunsun".**

1988-ci ildə Ermənistanda addəyişmə kampaniyası xüsusi vüsət almışdı. "Xəbərlər" proqramının diktorları televiziya ekranından gülümsəyə-gülümsəyə, qalib bir ədayla "Armenpres"in son məlumatlarını oxuyaraq əhalinin tələbiylə daha bir sıra "yad yer adlarının" dəyişdirildiyini, milliləşdirildiyini bildirirdilər. Qəzetlər də ilboyu türk mənşəli yer adlarının dəyişdirilməsini tələb edən yazılar dərc edirdilər. Elə həmin dövrdə **Gevork Manukyan** adlı bir müəllifin **"Qrakan tert"** (ermənilərin "Ədəbiyyat qəzeti" – M.S.) qəzetində (29.IV.1988) dərc olunmuş **"İki təklif**" yazısında da deyilirdi:

**–"Məlumdur ki, Alaverdi şəhərinin adı XVII əsrdə Ermənistanın Quqark vilayətinə soxulmuş Borçalı tayfabaşçısı Allahverdi Molla oğlu Tərxanın adıyla bağlıdır. 1936-cı ilədək şəhərin adı mətbuatda "Allahverdi" şəklində yazılırdı: (bax:**

**məsələn, "Xorhrdayin Hayastan" ("Şura Ermənistanı" – M.S.) qəzeti, № 155, 8 iyul 1936-cı il). İndi o sözdən "h" və ikinci "l" hərfi çıxarılıb, şəhərin adı "Alaverdi" yazılır.**

**Kirakos Qandzaketsu ilə Vartan Patmiçin əsərlərində Alaverdi Manes, yaxud Manasqomer adlarıyla xatırladılır. Erməni sovet ensiklopediyasından aldığımız məlumata görə isə erməni padşahı I Artaşesin vaxtında bu yaşayış yeri Quqark vilayətinin Dzorapor qəzasına daxil olubdur.**

**Təklif edirəm ki, şəhərin iki min ildən artıq tarixi olan qədim erməni adı – Dzorapor bərpa edilsin. Zənnimcə, bu həm şəhərin dağlıq şəraitinə uyğundur, həm tələffüzü rahatdır və ən mühümü budur ki, ermənicədir".**

Əgər həqiqətən bugünkü Ermənistan respublikasının ərazisi qədimdən bəri və bütün dövrlərdə erməni məskəni imişsə, bu torpaqdakı coğrafi adlar görəsən niyə başdan-başa Azərbaycan türklərinə məxsus olub? Bunun özü də bir tarix deyilmi? Görəsən, tarixbaz ermənilər bu tarixi fakt barədə heç düşünüblərmi? Məncə, susduğumuz yetər.

**"Açıq söz" qəzeti**
**5 aprel 1991-ci il, səh.3**

# YURD AĞRISI

**İllərlə susmağımız, tarixi hadisələri və faktları ört-basdır etməyimiz, xalqımızın yaddaşını korşaltmağımız bizi çox fəlakətlərə düçar edib. Susmağımızın nəticəsidir ki, ölkə və dünya ictimaiyyəti düşmən informasiyasına inanır, bizi təqsirkar bilir. Məqamında cəsarət göstərməyən ziyalılarımız, uzağı görə bilməyən siyasətçilərimiz susa-susa, xalqa "döz" deyə-deyə meydanı düşmənə veriblər.**

**Üçüncü ildir ki, respublikamız qaçqın dalğasından çalxalanan təlatümlü dənizə dönüb. Yaxşı ki, gec də olsa ötən ilin sonunda Azərbaycan Qaçqınlar Cəmiyyəti yaradıldı. Və Azərbaycana pənah gətirmiş yüz minlərlə insanın problemlərilə məşğul olmağa başladı. Ötən aylar ərzində görülmüş işlər barədə məlumat almaq üçün cəmiyyətin idarə heyətinə müraciət etdik. Müsahibimiz Azərbaycan Qaçqınlar Cəmiyyətinin sədr müavini İsmayıl Vəliyevdir.**

**M.S. – İsmayıl müəllim, Azərbaycan Qaçqınlar Cəmiyyəti yarandığı 8 ay ərzində Ermənistandan qovulan, Dağlıq Qarabağdakı doğma ocaqlarını tərk etmək məcburiyyətində qalan, Fərqanədən və başqa yerlərdən didərgin salınan əzabkeş adamların problemlərini necə həll etmişdir? Ümumiyyətlə, bu gün respublikamızda nə qədər qaçqın var və onların yerləşdirilməsi, mənzil və işlə təmin olunması sahəsində Qaçqınlar Cəmiyyəti müəyyən tədbirlər görmüşdürmü?**

**İ.V.** – Qaçqın problemi zəmanənin ən ciddi, həlli çətin problemlərindən biridir. Çox təəssüf ki, ölkədə qaçqınlıq problemi yarananda dövlət bu məsələyə ciddi yanaşmadı. Onların yerləşdirilməsi, ilkin təminat, itirilmiş əmlakın qeydə alınması, cinayətkarların məsuliyyətə cəlb olunması barədə operativ tədbirlər görülmədi, rəsmi dövlət proqramı işlənib hazırlanmadı. Ölkədə bu günədək "qaçqın statusu" problemi həll olunmayıb. Ona görə də qaçqınların problemləri gündən-günə artmağa və çoxalmağa başladı. Son məlumatlara görə, respublikamızda 300 minə yaxın qaçqın vardır. Onların yerləşdirilməsi, mənzillə, işlə təmin olunması çox ciddi problemdir. İndiyədək Bakıda və digər şəhərlərdə yerləşmiş əmək qabiliyyətli qaçqınların demək olar ki, 50-60 faizi işlə təmin olunub. Bəziləri mənzil problemini də həll edib. Lakin müvəqqəti olaraq mənzillərdə yaşayanların da sayı az deyil.

SSRİ Nazirlər Sovetinin keçən ilki və bu ilin yanvar və aprel aylarında qəbul etdiyi qərarlar da qaçqınların problemini həll etmək gücünə malik deyil. Qərarlar indiyədək kağız üzərində qalıb. Çünki, tam məsuliyyətlə deyirəm, onlar yaranmış obyektiv vəziyyətə əsaslanaraq hazırlanmayıb, mübahisə doğuran elə bəndlər var ki, təcili olaraq dəqiqləşdirilməlidir.

Qaçqınlar Cəmiyyəti ictimai təşkilatdır, dövlət təşkilatı deyil. O öz imkanları daxilində, əhalidən və idarələrdən topladığı vəsait hesabına qaçqınlara yardım edir, onlara minimal şərait yaradılmasına qayğı göstərir. Lakin bir dövlətdə ki qaçqınlıq problemi yaranıb və dövlət bu problemin qarşısını almaqda acizlik göstərib, o dövlət özü öz vətəndaşlarının – qaçqınların problemini həll etməlidir. Biz məsələni bu şəkildə qoyuruq.

**M.S. – Bildiyiniz kimi, qaçqınların hər biri müəyyən peşə, sənət, ixtisas sahibi olub. İndi yeni məskunlaşdıqları yerdə işlə təmin olunanda onların əmək vərdişləri, püxtələşdiyi sahə şəraitlə uyğun gəlirmi?**

**İ.V.** – Ümumiyyətlə, Ermənistan SSR-dən , o cümlədən də Özbəkistandan və Qazaxıstandan respublikaya gələn qaçqınların əksəriyyəti kənd təsərrüfatı ilə məşğul olan adamlardır. Onlar respublikaya gələndə qaçqınların yerləşdirilməsi ilə bağlı proqram hazırlanmadığından əksəriyyəti şəhərlərdə yerləşmiş, zavod və fabriklərdə işləməyə məcbur olmuşlar. Halbuki Ərzaq proqramının yerinə yetirilməsində, ərzaq qıtlığının aradan qaldırılmasında qaçqınların əməyindən ağıllı, səmərəli şəkildə istifadə etmək olardı. Çox təəssüf ki, vaxtında bu məsələyə fikir verilmədi. "Qızıl əlləri" olan, gözəl xalq sənəti bilicilərindən də düzgün istifadə olunmur. Qaçqınların arasında gözəl xalça, kilim, corab, cecim toxuyanlar az deyil. Müvafiq idarə və müəssisələr onları axtarıb tapmalı və işlə təmin etməlidirlər.

**M.S. – Qaçqınların çoxsaylı problemlərilə bağlı hansı məsələlərin həllini təcili hesab edirsiniz?**

**İ.V.** – İlk növbədə qaçqınların itirilmiş əmlaklarının özlərinə qaytarılmasına, yaşadıqları yerdə qeydə alınmalarına və işlə təmin olunmalarına xüsusi əhəmiyyət verilməlidir. Qaçqın statusunun müəyyənləşməsi bir sıra məsələlərin həllini sürətləndirə bilər. Nəzərinizə çatdırım ki, BMT-nin nəzdində qaçqınlarla məşğul olan xüsusi idarə fəaliyyət göstərir. SSRİ-nin burada imzası olmadığına görə, biz bu idarə ilə işləyə bilmirik. Bir sıra bürokratik sədlər beynəlxalq təşkilatlarla əlaqə saxlamağa mane olur. Biz çalışmalıyıq ki, qaçqınların ümumi problemlərini həll etmək üçün beynəlxalq normalar daxilində hərəkət edək, beynəlxalq hüququ öyrənək və qaçqınların problemlərinin səmərəli şəkildə həllinə nail olaq.

**M.S. - Azərbaycan Qaçqınlar Cəmiyyətinin gələcəyini necə görürsünüz? Cəmiyyət qaçqınlar problemini tədqiqata cəlb edəcəkmi, yaxud edibmi?**

**İ.V.** - Azərbaycan Qaçqınlar Cəmiyyəti gələcəkdə öz fəaliyyətini genişləndirməli və işini elmi əsaslarla qurmalıdır. Bu yaxınlarda cə-

miyyətin elmi-tədqiqat mərkəzi yaradıldı. Mərkəzə tarix elmləri doktoru, professor Həmid Əliyev rəhbərlik edir. Məqsəd bütövlükdə qaçqınlığın tarixini, siyasi-iqtisadi, demoqrafik, mənəvi-psixoloji problemlərini dərindən tədqiq etməkdir. Yəni təkcə bugünki qaçqınların taleyi deyil, bütövlükdə Azərbaycan xalqının başına gələn tarixi faciələr köklü şəkildə araşdırılmalıdır. Bildiyiniz kimi, dünyanın müxtəlif ölkələrində Cənubi Azərbaycandan da çoxlu qaçqınlar var. Onlar da siyasi təzyiqlərə məruz qalaraq öz ata-baba torpaqlarını, mənzillərini tərk ediblər. Bundan başqa, problemin tarixi kökləri də araşdırılmalıdır. 1905, 1915-17, 1917-20-ci illərdə, sonra isə sovet dövründə 1930-40-cı illərdə, 1948-52-ci illərdə, daha sonra isə 1988-ci ildən başlanan qaçqın hərəkatı kompleks şəkildə öyrənilməlidir.

**M.S. – İsmayıl müəllim, qonşu respublika tərəfindən ərazimizə və xalqımıza qarşı yönəldilmiş təcavüzkarlıq bir qrup ekstremistin işi kimi yox, dövlət səviyyəsində aparılır. Və nədənsə mərkəzi dövlət orqanları buna göz yumur. Hətta SSRİ prezidentinin 25 iyul 1990-cı il tarixli gecikmiş fərmanı da Ermənistanda tətbiq olunmadı. SSRİ Konstitusiyasının və İttifaq dövlətinin respublikamıza və millətimizə verdiyi vədlər özünü doğrultmur. Ona görə də, gərək bugünki sərhədlərimizi qorumaqla yanaşı, dünənki torpaqlarımız barədə dövlət səviyyəsində məsələ qaldıraq. Son 70 ildə əlimizdən alınmış torpaqlar barədə susmağımız yetər. Əks halda, itkilərimiz çox ola bilər.**

**İ.V.** – Ermənistan tərəfdən müntəzəm surətdə bizim respublikanın suveren hüquqlarına zidd hərəkətlər edilir. Buna rəsmi, siyasi, hüquqi qiymət verilməlidir. SSRİ xalq deputatı titulunu qazanmış Z.Balayan, V.Qriqoryan, D.Dadamyan, S.Xanzadyan, V.Qabrielyan, Q.Poğosyan və başqaları yüksək məclislərdə respublikamızın və xalqımızın ünvanına böhtanlar söyləyir, ağlasığmaz iddialar irəli sürürlər. Biz – müqabil tərəf isə həmişə susur, mərkəzi hökumətdən hərəkət gözlə-

yir və ciddi tələblər irəli sürmürük. Vaxtilə Zəngəzur mahalı və başqa ərazilər ermənilərə bağışlanmışdır. İndi azərbaycanlı əhalinin sıx yaşadığı Göyçə kimi böyük mahal, bütövlükdə azərbaycanlılar yaşayan Amasiya rayonu zor gücünə əlimizdən alınıb. Biz buna susmamalıyıq. Azərbaycanlıların qədim tarixi ata-baba yurdunda qoyub gəldikləri abidələri, kolxozların və sovxozların əmlakını, bölünməz fondunu, kitabxanaları tələb eləməliyik. Xalq orada böyük xəzinə qoyub. Biz nə itirmişiksə hamısını müəyyənləşdirməli və müvafiq surətdə öz tələblərimizi irəli sürməliyik. Digər tərəfdən həmin ərazilərin ya respublikamıza qatılması, ya da muxtariyyət yaratmaqla gələcəkdə əhalini öz yerlərinə qaytarmaq məsələsini qoymalıyıq.

**M.S. – İtkilərimiz çoxdur. Ata-baba torpaqlarımızı qoyub gəlmişik. Əsrlərin daş salnaməsini, daş yaddaşını qoruyub saxlayan məzarıstanların dərdi ürəyimizi göynədir. Şərqin böyük sənətkarları Aşıq Alının, Dədə Ələsgərin ruhu orda uyuyur. Qədim məscidlərimiz, xalqın minillik tarixini özündə yaşadan abidələrimiz qalıb o yurdda. Cismimiz burda olsa da, ürəyimiz qalıb orda. Yurd ağrısı yaman dərddir! Və bu ağrı zaman-zaman didir, parçalayır qəlbləri. Bu məcburi köçdən sonra dərdə tab gətirə bilməyib, iqlimə uyğunlaşammayıb dünyadan vaxtsız köçənlərin, Azərbaycan torpağına əbədilik qovuşanların sayı yaman çoxdur, yaman... Ən böyük itkimiz də budur: insan itkisi. Həyat göstərir ki, qaçqınlar arasında ölüm faizi çox yüksəkdir. Bu, təbii normaları üstələyir. Bilmək istərdik, Azərbaycan Qaçqınlar Cəmiyyətində bu faktlar öyrənilirmi? 1948-1952-ci illərdə Ermənistandan zorla köçürülən azərbaycanlı əhali bu respublikada aran rayonlarında yerləşdirildi. Və onların çoxu iqlimə uyğunlaşa bilməyib məhv oldu... Həmin faciə təkrar olunmasın deyə, heç olmazsa bu dəfə qaçqınların münasib ərazilərdə yerləşdirilməsi qayğısına qalınırmı? Bu çox vacibdir.**

**İ.V.** – Qaçqınların çoxu iqlim şəraiti daimi yaşayış yerinə uyğun gəlməyən yerlərə köçməyə məcbur olmuşdur. Məsələn, dağlıq şəraitdə yaşayan adamlar Mingəçevirdəki ermənilərlə evlərini dəyişməli olublar. Son dövrlərdə qaçqınlar məsələ qaldırırlar ki, isti şəraitdə yaşaya bilmirik. Təbii məsələdir. Hələ 1988-ci ildə Ermənistandan qovulan azərbaycanlıların bir çoxu Dağlıq Qarabağın kənd əhalisi ilə evlərini dəyişdirməyə razılaşmışdılar. O zaman onlara imkan verilmədi. Buna mərkəzi hökumət orqanları ciddi şəkildə mane oldu. Respublika hökuməti də bu işə girişmədi. Halbuki azərbaycanlı və erməni vətəndaşlar arasında ikitərəfli razılaşma var idi. İndi isə qaçqınları müvafiq iqlim şəraiti olan həmin ərazilərdə yerləşdirmək xeyli çətindir. Gərək əvvəla, yaşayış evləri tikilsin, iş şəraiti yaradılsın, sonra isə yavaş-yavaş qaçqınlar öz arzu və təklifləri nəzərə alınmaqla o ərazilərə köçürülsünlər. İndiki halda Bakıda yaşayan 1500-ə qədər qaçqın ailəsi rayon və kənd yerlərində yaşamaq üçün ərizə verib.

Qaçqınlar o vaxt öz ərazilərindən qovulanda çoxlu ölüm halları oldu. Bizə məlum olan faktlara görə, 200-dən çox adam qaçqınlıq dövründə həlak oldu. Yollarda ölənlər, xəstələnənlər də az deyildir. Bəziləri gələndən sonra işlə təmin olunmadılar, mənzil ala bilmədilər, evlərini dəyişə bilmədilər, ona görə də çoxları əsəbi vəziyyətlər keçirir. Qaçqınlar arasında əsəb xəstəliyi, ürək xəstəliyi, infarkt halları çoxdur. Bu dövr ərzində onlar başqa xəstəliklərə də düçar olublar. Xüsusilə uşaqlar və qocalar arasında ölüm halları çoxdur.

**M.S. – Bakıda məskunlaşmış qaçqınlarla əlaqədar əhalinin bəzi təbəqələrində belə fikir yaranıb ki, guya qaçqınların paytaxtda yerləşdirilməsi Bakı şəhərində mənzil probleminin həllini daha da çətinləşdirib.**

**İ.V.** – Mən bu fikirlə razı deyiləm. Bakıya cəmi 70 mindən çox qaçqın gəlib. Onların 50 mindən çoxu hələ ötən il mənzillərini qanuni yolla dəyişmişdi. Yerdə qalanına isə cəmi 2-5 min mənzil kifayət edirdi. Halbuki Bakıda hələ yanvar hadisələrindən əvvəl 25 min boş

mənzil var idi. Təəssüf ki, bizdə mənzil problemi ağılla, ədalətlə həll edilmədi. İndi dözülməz gərginlik yaranıb.

**M.S. - Qaçqınların problemləri çox olduğundan təbii ki, bir söhbətdə məsələlərin hamısına toxunmaq mümkün deyil. Sağlıq olsun, təki qaçqınlar üçün yanan ürəklərin odu soyumasın, xalqın qlobal problemlərinə məişət qayğıları donu geyindirmək meylindən uzaq olaq, heç olmazsa bundan sonra millətin bir hissəsinin başına gətirilən faciədə bütün xalqa qarşı yönəldilmiş olan qəsdin izlərini vaxtında görək. Ayıq-sayıq olaq.**

**"Vətən səsi" qəzeti,**
**5 sentyabr 1990-cı il, səh.3**

# ÇAYKƏNDİN QAYĞILARI

## VƏ YAXUD 4 İL DAVAM EDƏN KÖÇ

Təbiətin dilbər guşəsində yerləşən Çaykənd son illər Azərbaycan xalqına qarşı yönəldilən təcavüz mərkəzlərindən birinə çevrilmişdi. Erməni quldurları strateji cəhətdən son dərəcə əlverişli mövqedə yerləşən bu kənddə yuva qurmuşdular. Müntəzəm surətdə buradan ətraf kəndlərə edilən basqınlar, dinc azərbaycanlılara tutulan divanlar nəhayət, səbr kasamızı doldurdu. Çörəyimizi yeyib özümüzə qənim kəsilən yağılardan Çaykəndi təmizləmək  zərurətə çevrildi.

Maraqlıdır ki, silahı və təcavüzkarlıq planlarını Yerevandan alan təcrübəli quldurlar tərksilah edilən kimi kəndin erməni sakinləri köçmək arzusunda olduqlarını  bildirdilər. Sən demə, onlar da həmmillətləri olan yaraqlı-yasaqlı quldurların, qatı millətçilərin əlindən zinhara gəliblərmiş. Amma "başbilənləri" və "millət ataları" ermənilərin heç vəchlə Çaykənddən köçmələrinə razı olmur, buna imkan vermirdilər. Nəhayət, tarix sözünü dedi. Vaxtilə rus imperiyasının əliylə bura köçürülmüş ermənilər Çaykəndi tərk etdilər. Boşalmış kəndə Ermənistandan gələn azərbaycanlı qaçqınlar yerləşdirildi. Sevindik ki, torpağımızın daha bir parçası özümüzünküləşdi. Lakin sevincimiz uzun sürmədi. 3-4 ay keçməmiş Bakıda Çaykənddən, eləcə də digər kəndlərdən qayıdan qaçqınlarla rastlaşdıq. Ürəyimiz ağrıdı. Yurdun taleyi, dörd ildən bəri ev-eşiyindən didərgin düşmüş xalqın taleyi bizi sarsıtdı.

Bu gün respublikamız müstəqilliyə doğru addım-addım irəliləyir.

Belə bir vaxtda hər kəndin, hər qarış torpağın qədir-qiymətini bilməsək qələbəyə doğru yolumuz çox uzanacaq, hər insan taleyinə qayğı ilə yanaşmasaq, əhalinin təhlükəsizliyini və əmək məşğulluğunu təmin etməsək problemlərimiz daha da artacaq. Konkret Çaykəndə gəlincə isə, onun dərdi unudulmaq dərdidir. Kəndi quldurlardan təmizləməklə vəzifəsini bitmiş hesab edən yuxarı təşkilatlar, rəhbər işçilər ötən aylar ərzində bir dəfə belə Çaykəndə üz tutmayıb, yeni sakinlərin ehtiyac və qayğılarıyla maraqlanmayıblar. Görüşdüyümüz qocalar, cavanlar Xanlar rayonunun keçmiş rəhbərliyinin ünvanına bolluca şikayət yağdırdılar. Bakıdan jurnalist gəldiyini eşidən Çaykənd əhli başımıza toplaşdı. Cavabları müşkül suallara hədəf olsam da, kənddən hamının qaçıb getdiyinə dair eşitdiyim şayiələrin yalan çıxmasına sevindim.

Söhbət zamanı Gəncə su-mühafizə vzvodunun starşinası (taqımının baş giziri – M.S.) Məhərrəm Nəsirov dedi ki, **may ayından buradayam. Biz Ağsuya nəzarət edir, kəndin mühafizəsini gözləyirik. Çaykəndə erməni girməyib. Lakin Sarısuda, Todanda tez-tez atışma baş verir, Buzluq və Manaşiddə ermənilər tərəfdən gülləbaran başlanır, camaat qorxuya düşür. Bir çoxları uşaqlarını aparıb ətraf rayonlarda yaşayan qohumlarının yanına qoyub. Məktəblərimizdə şagirdlər seyrəlib...**

Kəndin girəcəyində rastlaşdığımız Ənvər Abdulla qızı Babayevanın da söhbəti məhz bu kədərli not üstündə qurulmuşdu.

**-Ay qızım, indiki dilənçi görkəmimə baxma,– dedi – mən də vaxtilə xanım-xatın olmuşam, əsl insan kimi yaşamışam. 36 il Mehri rayonunun Lehvaz kəndində işlədim. Əlimin əməyilə özümə topdağıtmaz ev-eşik qurdum. Nə deyim düşmənə, nə qarğıyım?!... Yaşımın bu sinnində məni yurdsuz-yuvasız qoydu. Qaçhaqaçdan sonra Bakıda, qardaşımgilin binasında bir erməniylə sövdələşdik. Məndən 15 min manat alıb köçdü Lehvazdakı evimə. Mən də qanun-qaydayla sənəd-**

**ləri düzəldib başladım orda yaşamağa. Ötən yazda gəldilər ki, evdən çıxmalısan. Məhkəmə işi gah mənim xeyrimə kəsdi, gah da əksinə. Uzun çək-çevirdən sonra bir gün gəlib gördüm ki, ev əşyalarımı töküblər bayıra.**

Minbir əzab-əziyyətlə, borc-xərclə Bakıda məskunlaşdıqları evdən qanunsuz olaraq çıxarılma halları tək Ənvər xalanın yox, əksər qaçqınların ən yaralı yeriydi. Bu barədə çoxlarının şikayətini dinlədik. Yəqin ki, hüquq-mühafizə orqanları nə vaxtsa həmin qaçqınların şikayətlərini araşdıracaq, əlində müvafiq sənədi olanların Bakıda ermənilərdən aldıqları evlərin xərcinin ödənilməsi üçün lazımi tədbirlər görəcəklər. İndisə əsas məsələ budur ki, **Çaykənddə və digər boşalmış kəndlərdə yerləşdirilən əhaliyə normal iş və həyat şəraiti yaradılsın.** Elə şərait ki, **qaçqınlar məskunlaşa bilsinlər. Dörd il davam edən köçhaköçə son qoyulsun.**

Bakı–Çaykənd marşrutunun açılması barədə çoxdan qərar verilsə də, indiyəcən avtobusun üzünü görən olmayıb. Kəndin bu başından o başına 8 km-dir. Məktəbliləri də dərsə avtobus aparmalıdır. O da yoxdur. Bu gün Çaykənddə həm orta məktəb, həm də səkkizillik məktəb fəaliyyət göstərir. Acınacaqlı haldır ki, səkkizillik məktəbin şagirdləri uçuq-sökük binada dərs keçirlər. Bu da valideynlərdə haqlı narazılıq doğurur.

Bazar iqtisadiyyatına keçidlə əlaqədar uşaq geyimləri xeyli bahalaşıb. Buna görə də cari dərs ilində dövlət tərəfindən hər məktəbliyə 200 manat məbləğində ödənc (kompensasiya) nəzərdə tutulub. Amma çaykəndlilər bu günəcən o məbləğin üzünü də görməyiblər.

Kənddə uşaq həkimi yoxdur. Tibb məntəqəsi, əczaxana dərmanla zəif təchiz olunub. Adicə yod da tapılmır. 1450 evdən ibarət Çaykənddə minlərlə əhali yaşayır. Bu boyda kəndə cəmi bircə təcili yardım maşını ayrılıb ki, onun da işləməyə benzini yoxdur. Yaxınlıqda isə müharibə gedir. Elan olunmamış, lakin qanlı-qadalı əsl müharibə.

Kəndin şöbə milisi, baş serjant (baş çavuş – M.S.) Mehman Paşayev yana-yana deyirdi ki, **biz Vətən uğrunda ölümə gedirdik, di gəl ki, maşınımızı doldurmağa yanacaq yoxdur. Niyə Çaykəndə kifayət qədər yanacaq fondu ayrılmır? Niyə Goranboydan gətirilən yaralı OMONçuları buradaca müalicə etməyə, lazım gəldikdə hətta cərrahiyyə əməliyyatı aparmağa şərait yaratmırlar? Axı, Xanlara, Gəncəyə çatdırınca yaralının vəziyyəti ağırlaşır, bəzən onun həyatını xilas etmək mümkün olmur...**

Bəli, ürəkağrıdan vəziyyətdir. Nəqliyyat yox, televizor işləmir, qəzet köşkü bağlıdır. Sanki dünyadan təcrid olunub çaykəndlilər. Yaxınlıqda digər yaşayış məntəqələrinin olduğunu isə bu başıbəlalı insanlara Goranboydan gələn güllə səsləri xatırladır. Əliyalın xalq atəşdən səksənə-səksənə naməlum sabahını gözləyir.

Ermənilər Çaykənddən köçərkən bir sıra evləri qəsdən yandırıb gediblər ki, türkə qalmasın. Ev bölgüsündə qismətinə bu sayaq mənzil düşənlər qapısız-pəncərəsiz, döşəməsiz evlərdə yurd-yuva qurmağa məcbur olublar. 11 nəfərlik ailənin başçısı İmmi Əsgər qızı Əliyeva, 18 yaşlı qızını Çaykənddə dəfn eləyən Nəbi Məmmədov, əlil oğul atası Yəhya Quliyev, böyük ailə sahibi Muxtar Xudiyev və başqaları mənzil şəraitinin pisliyindən gileyləndilər. Təbii ki, qarlı-çovğunlu qış günlərində qapısız-pəncərəsiz evlərdə yaşamaq qeyri-mümkündür. Bir yandan da odun-ocaq, yanacaq qəhətdir. Camaat bildirdi ki, Xanlardan və Gəncədən Çaykəndə qapı-pəncərələri düzəltmək üçün ustalar göndərilib. Lakin gələnlər köçkünün dərdinə ağlamır, öz cibinə işləyir. Çaykənd üçün ayrılmış 110 ton yanacaqdan – daş kömür, neft və salyarkadan (dizel yanacağı) hələlik xəbər-ətər yoxdur. İndiyədək 1450 evdən cəmi 100-ünə qaz xətti çəkilib. O da imkanı olanlara.

Veteran ailəsi olan Minayə Qəzənfər qızı Novruzova işsizlikdən şikayətləndi. Onun həyat yoldaşı Əhməd Rəhimov Ermənistandan qovularkən Noyemberyan rayonunun Körpülü kəndində ağır yaralanıb, aldığı xəsarətdən Sumqayıtda xəstəxanada vəfat edib. Böyüyü 10 ya-

şında olan üç uşaq ananın ümidinə qalıb. Ana isə işsizdir. Bəs, ailə necə dolanmalıdır?!

Çaykənd veteranlar şurasının sədri, Əfqanıstan döyüşçüsü, II qrup əlil Arif Əsgərov, Azərbaycan Qaçqınlar Cəmiyyəti Çaykənd dayaq dəstəsinin sədri Lətif Abdullayev, Xanlar rayon baş məşğulluq mərkəzində əhalinin sosial müdafiəsi üzrə baş inspektor işləyən Səttarxan Cabbarov, müharibə veteranları Musa Əliyev, Dursun Abbasov və başqaları bir sıra mühüm problemlərdən söhbət açdılar. Dedilər ki, **bu gün Çaykənddə 100 nəfər veteran yaşayır. Onlar heç bir güzəştdən istifadə edə bilmirlər. Yaşlıların çoxu 4 ildir ki, təqaüd almır. Kənddə hamam yoxdur. Camaat ərzaq qıtlığından korluq çəkir, ət, makaron, vermişel, şirniyyat, kartof, tərəvəz və s. tapılmır. Ayda adambaşına 250 qram qənd, 250 qram da yağ verilir. Cavanlarçün iş yerləri yoxdur. Bir sıra ailələrə ev verilsə də, hələlik torpaq sahəsi ayrılmayıb. Əhaliyə mal-qara, qoyun-quzu verilməliydi. Bu məsələ də hələlik get-gələ salınır. Camaata çatacaq yardım pulundan səs-soraq yoxdur.**

Xatırladaq ki, köçürülmə zamanı bir incə mətləb unudulub: əhalinin region mənsubiyyəti nəzərə alınmayıb. Çaykəndə Ermənistanın Basarkeçər, Krasnoselsk, Amasiya, Vedi, Zəngibasar, Mehri, Yeğeqnadzor rayonlarından, hətta Yerevan şəhərindən gəlmiş qaçqın ailələri köçürülüb. Halbuki müxtəlif adət-ənənələrə malik dağ və aran camaatını bir-birinə qarışdırmaqdansa, konkret bir zonanın adamlarını bir kəndə köçürmək daha məqsədəuyğun olardı.

Çaykənddə bütün əhali cəngavər ruhludur. Hamısı Vətən uğrunda səngərdə durmağa hazırdır. Elə ağsaqqal Əsgərxan Hacıyevin ayrılıq məqamında dedikləri də bununla bağlıydı. Dedi: –"Qızım, Bakıya de, bizə yaraq göndərsinlər, gedək Qarabağda, Goranboyda, Naxçıvanda torpağımızı qoruyaq. Ərzaq-filan boş söhbətdir. Bizə silah versinlər ki, həm özümüzü qoruyaq, həm də ətraf kəndlərə dayaq olaq!.."

Beləcə, görüşüb ayrıldım çaykəndlilərdən. Yol boyu axar-baxarlı təbiət mənzərələrini – Toğananı, Ağsunu, Kamonu, Mixaylovkanı, Qoşabulağı, Hacıkəndi, Aşıqlını, Köşkünü seyr etdikcə qəlbimdə Çaykəndin qayğılarını daşıyırdım. İnanırdım ki, əlaqədar təşkilatlar müharibənin ən qaynar nöqtəsində yaşayan çaykəndli qardaş və bacılarımızın dərdinə bir əncam çəkəcəklər.

**"Millət" qəzeti**
**17 yanvar 1992, səh.8,**
**25 yanvar 1992, səh.7**

# NƏDƏN BAŞLAYAQ

Xalqımızın sabahından çox nigaranıq. Bu gün hər bir azərbaycanlı tək özünün, ailəsinin yox, bütün millətin qayğılarıyla yaşayır, xalqının sabahını düşünür. Nəhayət başa düşmüşük ki, bütövlükdə millətin qismətinə düşən taledən onun hər bir oğluna, qızına da pay düşür: nurlu taledən–tərəqqi, yüksəliş, xoş günlər; acı qismətdən – dərd-ələm. Son dörd ilin ictimai-siyasi hadisələri bu həqiqəti dönə-dönə isbata yetirib.

Bu gün milli birliyə, milli həmrəyliyə can atırıq. Dolaşıb qaldığımız problemlər çoxluğunda kələfin ucunu tapmağa çalışırıq. Nədən başlayaq? Necə edək ki, dünənki səhvlərimizdən yaxa qurtaraq, sabahımızı möhkəm sosial-iqtisadi-siyasi təməl üzərində quraq? Elə bu məqamda gül balalarımız gəlir göz önünə. Gəlir və xatırladır ki, övladlarımızın təlim-tərbiyəsindən başlamalıyıq. Çünki xalqın sabahını onlar müəyyənləşdirəcək–bu gün parta arxasında oturan şagirdlər. Əgər biz orta təhsil illərində övladlarımıza dərin milli mənəviyyat aşılamasaq, onlara əsl tariximizi, ədəbiyyatımızı öyrətməsək, dəqiq elmlər sahəsində dərin biliklər verməsək sabahımızdan necə arxayın ola bilərik? Ana dilini kamil bilməyən, vətəninin coğrafiyasından bixəbər qalan, doğma mədəniyyətinə bələd olmayan şagirddən nə gözləyə bilərik? Dərd burasındadır ki, düz 10 il rus dilini, 6-7 il xarici dili tədris edən məktəblərimiz həmin dilləri əksər şagirdlərə heç gündəlik ünsiyyət səviyyəsində də öyrədə bilmir. Başqa fənlərdə də vəziyyət onlardan fərqlənmir. Nəticədə, on il məktəbə ayaq döyən şagird

oradan kəmsavad, heç bir peşəyə-sənətə yiyələnməmiş, həyata hazırlıqsız çıxır.

Dərsliklərin ideya və məzmunca günün tələblərinə cavab verməməsi bir yana qalsın, sayca az olması, çatışmaması son illər təhsil prosesinə daha ağır zərbə vurur. Keçən dərs ilində orta məktəblərimizdən birinə getmişdim. Şagirdlərlə söhbət edirdim. IX sinifdə oxuyan Rövşən adlı bir oğlan bildirdi ki, sinifdə cəmi 4 dənə "Cəbr" dərsliyi var. Şagirdlər elə bil bu sözə bənd idilər. Hərəsi bir yandan gileylənməyə başladı. Məlum oldu ki, VI sinifdə "Rus dili", V sinifdə "İngilis dili" və "Coğrafiya", VIII sinifdə "Ədəbiyyat" və "Azərbaycan tarixi", IV sinifdə "Riyaziyyat", VII sinifdə "Kimya" və "Azərbaycan dili" dərslikləri çatışmır. I sinifdə oxuyan Nərgiz "Ana dili" kitabım yoxdur",- deyəndə lap sarsıldım. Axı, I sinifdə təhsilin təməl daşları qoyulur. "Ana dili" kitabı olmayan körpə ana dilini necə öyrənəcək? Yaxud 4 ədəd "Cəbr" dərsliyi ilə 30-40 şagird riyazi bilikləri hansı səviyyədə mənimsəyə bilər? Min təəssüf ki, bu hal bütün məktəblərimiz üçün xarakterikdir. Son illərdə dövlətimizin özünü doğrultmayan bir sıra proqramları kimi, məktəb islahatı da acı nəticələrini verib.

Yeni dərs ili ərəfəsində təcrübəli pedaqoqlarımızdan biriylə – Bakı şəhərindəki 102 nömrəli orta məktəbin təlim-tərbiyə işləri üzrə direktor müavini Eldar Cəfərovla ümumi dərdlərimizdən danışırdıq.

– Sizin məktəbin kitabxanasındakı dərsliklərin sayı şagirdlərin sayı ilə müvafiq gəlirmi? Bu il almalı olduğunuz yeni dərslikləri aldınızmı?- suallarıma o belə cavab verdi.

**– Dərsliklərin pulsuz verilməsi qərarı məktəbi bir sıra çətinliklərlə üzləşdirib. Xüsusilə Azərbaycan bölməsində dərsliklər çatışmır. Halbuki rus bölməsi üçün hər bir məktəbdə dərsliklərin sayı bəzən şagirdlərin sayından xeyli çox, bəzənsə iki dəfə artıq olur. Son illərin hadisələri ilə bağlı, şəhərimizin bütün məktəblərində olduğu kimi, bizim 102**

**nömrəli məktəbdə də Azərbaycan bölməsi fəaliyyət göstərməyə başlayıb. Təəssüflər olsun ki, Azərbaycan bölməsindəki hər sinfin dərsliklə təminatı I rübün sonuna kimi ancaq həll olunur. Budur yeni dərs ili qapını kəsib, 28 nəfər III sinif şagirdi üçün hələ ki, bir dənə də kitab almamışıq.**

**Son 2-3 ildə Azərbaycan dilinin həqiqətən dövlət dilinə çevrilməsi haqqında uzun-uzadı söhbətlərin şahidiyik. Əvvəla, gəlin görək bunun üçün əməli olaraq nə iş görülüb? Yəqin etiraz etməzsiniz ki, çox az. İkincisi də, bu məsələ ilə məşğul olan şəxslər ilk növbədə məktəblərimizin Azərbaycan bölməsinin kitab təchizatrı ilə maraqlansaydılar daha yaxşı olardı. Bu, vacib məsələdir. Çünki son illərdə eyni ailədən gəlib hər iki bölmədə oxuyan uşaqların sayı artıb. Rus bölməsinin dərsliklə gen-bol təmin olunduğunu valideynlər açıq-aşkar hiss edirlər. Bəziləri övladlarını Azərbaycan bölməsinə qoyduqları üçün peşimançılıq çəkirlər. Çünki bütün ata-analar istəyir ki, övladı oxusun. Oxumaq üçünsə dərslik çatışmır...**

Bəli, dərslik çatışmır. Bu çox ciddi məsələdir. Lakin dərdimiz bir budurmu?.. Yaxşı bilirik ki, ümumiyyətlə təhsil sistemi, dərsliklər həmişə dövlətin siyasi ab-havasını özündə əks etdirib. Elə son 70 ildə istifadə etdiyimiz dərsliklər də həmişə bu prinsiplə hazırlanıb. Lakin son illər həyatımızda dərin ictimai-siyasi dəyişikliklər baş verib. Dərsliklərimiz isə necə vardısa, eləcə də qalıb. Bu da məktəblərimiz və müəllimlərimiz qarşısında əlavə çətinliklər yaradır. Həyatdan, gündəlik mətbuatdan aldığı məlumatla uyğun gəlməyən elmi biliklər şagirdi çaş-baş vəziyyətdə qoyur. Onun dərsə, məktəbə, müəllimə inamını azaldır. Yaradıcı, təcrübəli müəllimlərimiz həmin mövzuları müasir baxımdan tədris edir və ya bu günə münasib mövzu ilə əvəz edirlər. Lakin nəzərə almaq lazımdır ki, heç də bütün müəllimlərimiz yüksək səviyyəli hazırlığa malik deyildirlər, bəziləri dərslikdən kənara çıxmağı qətiyyən bacarmır.

Acınacaqlı vəziyyətdə olan dərsliklərimiz sırasında "Azərbaycan tarixi" xüsusi yer tutur. Azərbaycan tarixinin indiyədək zəif tədqiq olunması, məktəblərdə tariximizin tədrisinə lazımi diqqət yetirilməməsi hamımızın yaralı yerimizdir. Son illər mətbuatda, radio və televiziyada, elmi dairələrdə bu barədə söhbətlər baş alıb gedir. Amma nə fayda, ortada bir şey yoxdur. Hələ də xalq Azərbaycan Elmlər Akademiyasının hazırlayacağı 9 cildlik "Azərbaycan tarixi"nin yolunu intizarla gözləyir. Di gəl, tarixçi alimlərimiz ümumi rəyə gəlib, mübahisələrə son qoya bilmirlər. İllərsə gözləmir, nəsillər bir-birini əvəz edir. Yetişməkdə olan gənc nəsil öz tarixindən xəbərsiz qalır.

Müsahibim bu fənnin tədrisiylə bağlı maraqlı fakt danışdı.

**Bakı məktəblərindən birində iki il əvvəl Azərbaycan tarixini tədris edən bir müəllim varmış. Milliyyətcə rus imiş. 25 yaşlı bu gənc müəllim Rusiyada doğulub, hərbçi ailəsindəndir. Atasının xidməti ilə əlaqədar Yerevanda təhsil alıb. 1988-ci il hadisələri ilə bağlı ailə Bakıya köçüb. Eldar müəllim mənə sual verdi ki, Azərbaycan, onun tarixi və Azərbaycan xalqının adət-ənənəsi ilə heç bir bağlılığı, məlumatı olmayan müəllim, indiki yararsız dərsliklə bu fənni necə tədris edə bilər?**

**Hazırda Bakı məktəblərinin rus bölməsi üçün tarix müəllimləri çatışmadığını qeyd edən həmsöhbətim yana-yana dedi ki, bu gün rus bölməsində oxuyan şagirdlərin 85-90 faizinin azərbaycanlı balaları olduğunu unutmamalıyıq. Və öz tarixini bilmək onların hər birinin müqəddəs borcudur!**

Məncə, indiki dövrdə humanitar elmləri tədris edən müəllimlərin üzərinə daha böyük məsuliyyət düşür. O mənada ki, həmin fənlər şagirdlərə birbaşa milli mənəviyyat, milli ruh aşılayır. Onları konkret bir millətin nümayəndəsi kimi formalaşdırır. Gizli deyil ki, rus təhsili alanlar daha çox rus kimi düşünür və mühakimə yürüdür, onların davranışında və həyat tərzində rus xarakterinə meyllilik nəzərə çarpır.

Əlbəttə, burada müəllimlərin kimliyindən, yəni bilik, səriştə və vicdanından, eləcə də milli mənsubiyyətindən çox şey asılıdır.

Eyni qaydada azərbaycanca təhsil alanlarda da azərbaycanlı düşüncə tərzi, psixologiyası, xarakteri daha güclü olur. Çünki təhsil prosesi yalnız bilik verməklə məhdudlaşmır, o həm də şagirdə milli mənəviyyat aşılayır.

Bu sahədə "Ədəbiyyat" fənninin xüsusi rolu var. Amma heyf ki, iftixara layiq ədəbiyyatımızı da ideya və məzmunca köhnəlmiş dərsliklərlə tədris edir, çox görkəmli şair və yazıçılarımız , tənqidçilərimiz barədə şagirdlərə yanlış məlumatlar verməkdə davam edirik.

Bu gün partiyanın (Sov.İKP nəzərdə tutulur – M.S.), Leninin, Oktyabr inqilabının tərənnümünə həsr olunmuş bədii əsərlərin dərsliklərdən çıxarılması vaxtı çatmışdır. Yalançı beynəlmiləlçilikdən dəm vuran, Şaumyanı, Kirovu, XI Qızıl Ordunu qəhrəman kimi təqdim və mədh edən şeir, hekayə və seçmə mətnlər "Ana dili" , "Azərbaycan dili" , "Ədəbiyyat" və "Rus dili" dərsliklərindən çıxarılmalı, yerinə indiyədək "əksinqilabçı", "müsavatçı", "pantürkist" kimi damğalanmış Azərbaycan ədiblərinin yaratdığı əsl bədii əsərlər salınmalıdır. Böyüməkdə olan gənc nəslə imkan yaratmalıyıq ki, ədəbiyyatımız və mədəniyyətimizlə dərindən tanış olsun.

Bu gün respublikamızda dərslik məsələsi ən kəskin problemlərdən biridir. Dərsliklər həm kəmiyyətcə azdır, həm də keyfiyyətcə təzələnməlidir. Ölkədəki kağız qıtlığı, poliqrafiya sənayemizin zəifliyi, son illər kağızın qiymətinin və mətbəə xərclərinin durmadan artması vəziyyəti daha da gərginləşdirmişdir. Respublika Xalq Təhsili Nazirliyinin, Azərbaycan Dövlət Mətbuat Komitəsinin, "Maarif" nəşriyyatının əməkdaşlarıyla söhbətlərimizdən bir daha aydın oldu ki, ancaq 1993-1994-cü dərs ili üçün təzə dərsliklər verə biləcəklər. Çünki bizim şəraitdə hər bir dərsliyin sifariş verilməsindən çap olunmasınadək ən azı 3 il vaxt tələb olunur.

Beləliklə, xalqımızın sabahkı taleyi, millətimizin gələcək tərəqqisi üçün çox mühüm ictimai-siyasi və sosial əhəmiyyətə malik olan yeni dərslikləri hələ 3 il də gözləməliyik. İnanmaq istəyirik ki, yeni dərsliklər köhnə səhvlərdən azad olunacaqlar. Xüsusilə, ibtidai sinif dərslikləri, "Ana dili" və "Azərbaycan dili" kitabları üçün seçilmiş mətnlər balalarımıza yüksək milli-mənəvi hisslər, bəşəri ideallar aşılayacaq, yalançı beynəlmiləlçilikdən xilas olacaq. Çünki hər şey ibtidadan başlanır.

Zaman dövr edir, siyasət dəyişir, xalq isə o zaman millət olur ki, tarixin axarında ərimir, öz milli simasını qoruyub saxlaya bilir. Dünya belə gəlib, belə də gedəcək. Ötəri siyasi ab-hava və rejimlərə uyub təhsilimizi, elmimizi siyasətə uyğunlaşdırmaqdansa öz milli varlığımıza, kökümüzə, real tariximizə söykənsək daha ahəngdar inkişaf edər, güclü olarıq. Biz təhsillə bağlı problemlərimizi həll etməsək heç bir iqtisadi islahat, heç bir xarici dövlətlə əlaqələrin genişlənməsi, heç bir siyasi dəyişiklik özü özlüyündə xalqımız üçün arzu olunan səmərəni verə bilməz. Millətimizin tərəqqisini istəyiriksə, təhsil sistemindən başlamalıyıq!

**"Hikmət" qəzeti**
**18 oktyabr 1991-ci il, səh.7**

# AZSAYLI XALQLARA QAYĞI

**Azərbaycan Elmi Tədqiqat Pedaqoji Elmlər İnstitutundan "Azsaylı xalqların ana dillərinin öyrənilməsi" probleminə həsr olunmuş "Dəyirmi masa"ya dəvət alanda bu xoş məramın həyata keçirilməsi sahəsində mühüm addımların atıldığına sevindim. Xalqımın humanizminə və indi gözdən düşmüş beynəlmiləlçiliyinə ürəyimdə bir daha yəqinlik hasil etdim. Millətimin bu keyfiyyətləri bütün zamanlarda iftixara layiqdir, bir şərtlə: o dərəcədə beynəlmiləlçi olaq ki, özümüzü unutmayaq!**

**"Dəyirmi masa"da respublikanın 16 rayonundan – Lənkəran, Masallı, Lerik, Astara, Qusar, Quba, Saatlı, Qəbələ, Oğuz, Beyləqan, Yevlax, Qax, Zaqatala, Balakən və Şamaxıdan gəlmiş nümayəndələr, azsaylı xalqların qabaqcıl ziyalıları iştirak edirdilər. Təəssüf ki, Laçın, Kəlbəcər, Qubadlı, Naxçıvan kimi sərhədyanı rayonlarda erməni quldurlarının təxribatları nəticəsində yaranmış ağır vəziyyətlə əlaqədar dəyirmi masaya o bölgələrdən dəvət olunmuş nümayəndələr gələ bilməmişdilər.**

**Tədbirdə Azərbaycan EA Nəsimi adına Dilçilik İnstitutunun direktoru professor Ağamusa Axundov, institutun dil əlaqələri şöbəsinin müdiri, filologiya elmləri namizədi Novruzəli Məmmədov, Azərbaycan Sənaye Universitetinin əməkdaşlarından Hamlet Hüseynov, respublika Təhsil Cəmiyyəti İdarə Heyətinin üzvü Hikmət Məmmədov, M.F.Axundov adına Azərbaycan Pedaqoji Rus Dili Ədəbiyyatı İnstitutunun dosenti Yafəz Əhmədov, Xalq Təhsili Komitəsindən Nəcəf Nəcəfov, "Maarif" nəşriyyatından azsaylı xalqların dilləri üz-**

**rə şöbə müdiri İnqilab Süleymanov və başqaları iştirak edirdilər.**

"Dəyirmi masa"nı institutun direktoru, pedaqogika elmləri namizədi **Zahid Qaralov** açaraq bildirdi ki, bu elmi-tədqiqat ocağında "Azsaylı xalqların ana dillərinin öyrənilməsi" probleminə həsr olunmuş ilk tədbir zamanı irəli sürülmüş təkliflər dönə-dönə nəzərdən keçirilib, maraqlı mülahizələrdən istifadə edilib. O qeyd etdi ki, ölkəmiz çoxmillətlidir, burada müxtəlif xalqların nümayəndələri yaşayır. Tez-tez deyirik ki, gücümüz çoxluqdadır. Lakin bu günəcən heç kəs SSRİ-də yaşayan xalqların dəqiq sayını bilmir. İstisnasız olaraq bütün xalqlarda milli şüurun oyandığı indiki dövrdə bunu dəqiqləşdirmək vacibdir. Bizim institut respublikamızda yaşayan azsaylı xalqların mədəniyyətlərinin, ilk növbədə dillərinin qorunub nəsildən-nəslə ötürülməsi sahəsində bir sıra tədbirlər həyata keçirir.

Sonra tədbir iştirakçıları müzakirəyə dəvət olundular. Öncə Az.ETPEİ-nin azsaylı xalqların dillərinin tədrisi metodikası laboratoriyasının müdiri **Tofiq Seyidov** çıxış etdi:

– Laboratoriyamız 1989-cu ilin oktyabr ayından işə başlayıbdır. Bu müddətdə bir neçə dəfə Ümumittifaq seminar-müşavirələrində iştirak etmişik. Hazırda bizdə tat, udin, türk və kürd dilləri üzrə elmi əməkdaşlar fəaliyyət göstərir. Qərara almışıq ki, ilk növbədə Azərbaycanda yaşayan azsaylı xalqların dillərinin təlimi problemilə əlaqədar həmin xalqların öz rəyini öyrənək. Bu istiqamətdə xeyli sorğu aparmış, görüşlər keçirmişik.

Ötən müddətdə talış, udin, kürd, tat, ləzgi və türk dilləri üzrə 13 adda dərs vəsaiti yaradılıbdır. Bu sahədə laboratoriyamızın işinə cəlb etdiyimiz 24 nəfər kənar elmi müxbirin böyük zəhməti vardır. İşimizin səmərəliliyi naminə biz ətrafımıza alimlərin, azsaylı xalqların ziyalı nümayəndələrinin cəlb edilməsini davam etdiririk. Kürd Mədəniyyət Mərkəzinin sədri Əhməd Apiyevin işə qoşulması kürd dili proqramının hazırlanıb yerlərə göndərilməsi məsələsini həll etdi. Ləz-

gi yazıçısı Zabit Rizvanovun, Qusar rayon xalq təhsili şöbəsinin metodisti Rasim Məmmədovun və professor Əli Musayevin yaxından köməkliyi ilə ləzgi dili proqramı tərtib olunmuş, "Ləzgicə-azərbaycanca-rusca lüğət" hazırlanmışdır. Türk dili proqramı neçə aylardır ki, nəşriyyatdadır. Talış, tat və türk dilləri üzrə metodik tövsiyələr, dərslik və əlifba kitabları da öz çapını gözləyir.

İllər boyu kürd dili dərslikləri Yerevanda, ləzgi-avar dilləri dərslikləri Mahaçqalada hazırlanmışdır. İndən belə bu dərsliklərin hamısını Azərbaycanda hazırlayıb çap etdirmək fikrindəyik. Mahaçqaladakı elmi-tədqiqat institutu ilə yaxşı əlaqələrimiz var. Orada yaşayan Dərbənd zonası azərbaycanlıları üçün dərsliklərin hazırlanmasında bizim nümayəndələr iştirak edirlər. Biz isə ləzgi, avar və saxur dilləri üzrə regional dərsliklərin hazırlanması işinə dağıstanlı yoldaşları cəlb edəcəyik.

**İbrahim Tağıyev** (Masallı rayonu, Hişkədərə kəndi, tarix-diyarşünaslıq muzeyinin direktoru):

– Mən biologiya müəllimiyəm, özüm də 48 ildir ki, muzey direktoruyam. 1929-cu ildə məktəbə gedəndə talış dilində dərsə başlamışam. 1936-cı ilədək Lənkəran Pedaqoji Məktəbində talışca dərs keçmişəm. Sonra məktəblərimiz Azərbaycan dilli oldu. Əvvəllər Lənkəranda bir üzü talış, bir üzü azərbaycanca "Sə-talış" və "Yeni həyat" qəzetləri nəşr olunurdu. Bilirsiniz, elə söz, elə fikir var ki, onu talışca tam ifadə etmək olmur. Yaxşı olar ki, Azərbaycan talışlarına hər iki dil paralel öyrədilsin. Bizlərdən heç kəs ayrı respublika olmaq iddiasında deyil. Ağıllı adamlar bu təmənnada olmaz, ola da bilməz. Amma dilin itməyi qanuna uyğun gəlmir. Burada iştirak edən alimlərdən xahişim budur ki, talış dilinin yaşamasına kömək etsinlər.

**Z.Qaralov:** – Bir halda ki, məsələ nəzəri səviyyədən çıxıb, əməli müstəviyə keçib, gəlin hazır əməli təklifləri müzakirə edək. Bugünki "Dəyimi masa"da problemin qoyuluşu baxımından fikir müba-

diləmizi bir məcrada aparmaq məqsədilə Sizin diqqətinizi aşağıdakı suallara cəlb edirəm:

1. Azsaylı xalqların ana dilinin ümumtəhsil məktəblərində bir fənn kimi tədrisinə neçənci sinifdən başlamağı və bu işi neçənci sinfə kimi davam etdirməyi məqsədəuyğun hesab edirsiniz? Tədris planında həftəlik saatların miqdarına münasibətiniz necədir?

2. Savad təliminə hansı sinifdən başlamağı lazım bilirsiniz?

3. Azsaylı xalqların nümayəndələrinin yığcam halda yaşamadıqları ərazilərdə onların ana dillərinin öyrədilməsi işini necə həyata keçirməyi tövsiyə edərdiniz?

4. Müxtəlif dialektləri olan dillər (məsələn: talış, tat və s. ) üzrə dərs vəsaitlərini necə hazırlamağı tövsiyə edərdiniz?

5. Bu dillərin tədrisi ilə məşğul olan pedaqoji kadrların təkmilləşdirilməsinin hansı yollarını təklif edə bilərsiniz?

**Cavanşir Salayev** (Astara rayonu, Talış Mədəniyyət Mərkəzinin sədri):

– Bizdə talış dili ancaq I sinifdə keçilir, özü də həftədə 2 saat. Lənkəranda isə IV sinfədək keçirlər. Mən istəyirəm ki, respublikada vahid fikir, vahid göstəriş olsun.

**Z.Qaralov**: – Biz proqramı hazırlayanda talış dilinin tədrisini IX sinfədək nəzərdə tutmuşuq. Arzu edənlər isə tədrisi hətta XI sinfə qədər davam etdirə bilərlər.

**Abdulla Qalayev** (Balakən rayonu, Şahmur kənd məktəbinin direktoru):

– Respublikada yaşayan azsaylı xalqların dillərinin tədrisi sevincə səbəb olub. Bu xalqlardan biri də avar xalqıdır. Balakəndə 12 müəllim avar dilini tədris edir. Yeri gəlmişkən qeyd etmək istəyirəm ki, avar dilinin rayonumuzda tədrisindən söhbət gedəndə, əvvəlcə avar valideynlər özləri buna etiraz etdilər ki, uşaqlarımız üçün çətin ola-

caq. Çünki onsuz da tədris proqramı ağırdır, üstəlik avar dilinə də əlavə vaxt ayrılsa, çətin olacaq.

Azərbaycan dili çox şirin dildir. Biz Azərbaycan xalqının dilini, adət-ənənəsini sevirik, musiqimiz Azərbaycan musiqisiylə birgə inkişaf edir. Məktəbimiz də beynəlmiləldir. İlk vaxtlar avar dilini tədris edə biləcək kadrlarımız yox idi. Mahaçqala ilə əlaqə saxladıq. Orada avar və rus dillərini tədris edən ixtisaslı həmkəndlilərimiz qayıdıb gəldilər. Hazırda Balakəndə 18 sinifdə avar dili tədris olunur. Lakin bəzi məktəblərdə hələ ki, ixtisaslı müəllimlər dərs demir, çalışırıq ki, bu sahədə kadrlar yetişdirək. Dağıstan Xalq Təhsili Komitəsiylə əlaqə saxlayırıq. Onlar bizə pulsuz dərslik verirlər. Məktəbimizin məzunlarından bir neçəsi Buynakski şəhərində müsabiqədənkənar məktəbə qəbul olunmuşdur. Təklifim budur ki, avar dilinin tədrisinə həftədə 2 saat yox, 3 saat ayrılsın və tədris müddəti XI sinfədək davam etdirilsin. Dərsliklər isə mütləq Bakıda hazırlansın.

**Kərim Kərimov** (Respublika Müəllimləri Təkmilləşdirmə İnstitutunun əməkdaşı, filologiya elmləri namizədi):

– Yoldaşlar, ixtisasartırma üçün kadrları Mahaçqalaya göndərəcəyik, yoxsa burada təkmilləşdirəcəyik?

**Z.Qaralov:** – Respublikamızda yaşayan azsaylı xalqların dilləri artıq tədris olunur. Ona görə də müvafiq kadrların ixtisas artırması ilə gərək sizin institut məşğul olsun, Kərim müəllim.

Rasim Məmmədov (Qusar rayonu, xalq təhsili şöbəsinin metodisti):

– Rayonumuzda ləzgi dili 1963-1964-cü ildən etibarən tədris olunur. Məktəblərimizdə isə I-V siniflərdə bu dil keçilir. Dərslikləri isə hələ ki, Dağıstandan gətiririk. Bu yolverilməzdir. Hazırda bizim əməkdaşlar I-IV siniflər üçün yeni proqram hazırlayırlar. Həmin proqrama əsasən dərslik də hazırlayacağıq. O gün Vartaşendən (indiki Oğuz rayonu – M.S.) bir yoldaş gəlib deyir ki, eyni proqramı birinci sinifdə də,

beşincidə də, doqquzuncu sinifdə də keçirik. Belə olmaz. Proqram məsələsini təcili həll etməliyik.

Yaxşı olardı ki, azsaylı xalqların dillərinin tədrisinə hazırlıq sinfindən başlanaydı. Əvvəlcə uşaqlar düzgün tələffüz qaydalarını öyrənəydilər, sonra isə yazıb-oxumağı.

**Xalid Taştanov** (Saatlı rayonu, xalq təhsili şöbəsinin inspektoru):

– Mesxeti türkləri tarixən dil cəhətcə Türkiyədən bir qədər uzaq olub, Azərbaycanla daha yaxın olub. Bu gün Azərbaycan xalqı bizə yaxından kömək edir. Doğma dilimizdə tədrisə də imkan yaradır, amma iş bir qədər ləng gedir. Bizim mesxeti türklərinin öz dilində dərs keçməsi çox çətindir. Şagirdlərə 4 dil öyrənmək çətin olacaqdır. Gəlin işə I sinifdən başlayaq, fakültətiv məşğələlərdən istifadə edək. Saatlı və Sabirabad rayonlarında kompakt halda yaşayan (müvafiq surətdə 15 min və 10 min) mesxeti türkləri üçün 3 aylıq kurslar açmaq lazımdır. Bunu elə indi də təşkil etmək olar. Vaxtilə Gürcüstanda "Adıgün" kolxoz-sovxoz teatrı olub, indi ölüb-gedib. Yaxşı olar ki, milli teatrımızı dirçəldək, qəzet buraxaq. Elmi-mədəni mərkəzlər yaratmaq lazımdır. Azərbaycanda heç olmazsa, türk dilində texnikum açılmalıdır. Hazırda bu respublikada 70 min mesxeti türkü yaşayır, Rusiyaya gedənlər də hamısı köçüb Azərbaycana gəlir. Çox sağ olun, doğma dilimizi yaşatmaqda bizə kömək edirsiniz, xahiş edirik qəzet açılmasına da kömək edəsiniz. Qoy bizdən tarix və ədəbiyyat elmləri üzrə aspiranturaya kadrlar götürsünlər. Əgər bizə radio və televiziyada öz dilimizdə verilişlər üçün vaxt ayrılmasa dilimizi inkişaf etdirə bilmərik.

**T.Seyidov**: – Xalid müəllim, qeyd etdiniz ki, mesxeti türklərinin dili Türkiyənin rəsmi dövlət dili deyil, bu halda siz hansı dilin tədrisini məsləhət bilirsiniz?

**X.Taştanov**: Öz ləhcəmizi saxlamaq istəyirik.

**HAŞİYƏ: Çıxışçının təklifi narazılıqla qarşılandı, müba-**

**hisə doğurdu. Mötəbər alimlərimizdən bir neçəsi tədrisin dialekt əsasında qurulmasını qeyri-elmi, düzgün olmayan yol hesab edərək etirazlarını bildirdilər. Mübahisələri professor Ağamusa Axundov kəsərək dedi:**

– Biz, Nəsimi adına Dilçilik İnstitutunda mesxeti türklərinin dilinin tədqiqini plana daxil etmişik. Onların yaşadıqları yerlərə nümayəndələr gedəcək, məsələ elmi şəkildə öyrəniləcəkdir.

**Əhməd Apiyev** ("Ronayi" Kürd Mədəniyyət Mərkəzinin sədri):

– Dağa ona görə dağ deyirlər ki, o dağdır. Əgər biz xırdalanıb dialektlərə parçalansaq, yerimizdə heç nə qalmaz. Zahid müəllim, sizin institut tərəfindən azsaylı xalqlara, o cümlədən kürdlərə qarşı bu qədər qayğı minnətdarlıq hissi doğurur. Dünyada 20 milyon kürd varsa, onun bir qismi də Azərbaycandadır. Məncə, I sinifdə uşaq iki əlifbanı öyrənə bilməz, ona görə də yaxşı olar ki, I sinifdə ancaq Azərbaycan dili öyrənsin, kürdcə tədris II sinifdən başlanaraq VIII sinfədək davam etdirilsin.

**Əbülfəz Rəcəbov** (M.Ə.Rəsulzadə adına BDU-nun professoru, Azsaylı xalqlar şurasının sədri):

– Moskvada mərkəz yaradacaqlar ki, azsaylı xalqların problemlərilə məşğul olsun. Bu, yaramaz. Qarabağ bizimçün acı təcrübədir. Dərslikləri Ermənistandan alırdıq. Nəticə hamıya bəllidir. Mən qəti surətdə dərslik importunun əleyhinəyəm. Çünki kənarda hazırlanmış dərslikdə Azərbaycanın spesifik xüsusiyyətləri öz əksini tapmayacaq, ideya cəhətcə həmin kitablarda azərbaycanlılıq olmayacaq. Azərbaycanda yaşayan bütün azsaylı xalqlar üçün necə olur-olsun özümüz dərslik hazırlayıb öz respublikamızda çap eləməliyik. Yoxsa, ağrısını 20 ildən sonra çəkərik. Elə Dağıstandan gələn kitab da Moskvanı vəsf edəcək, Baykalı təsvir edəcək, lakin orda şagird Bakı buruqlarını, Göy gölün gözəlliyini, Lənkəranın yaşıllığını görməyəcək.

Kadr məsələsinin həlli üçün yaxşı olar ki, Xarici Dillər İnstitutun-

da tələbələrə azsaylı xalqların dilləri əlavə dil kimi öyrədilsin. Eyni zamanda V.İ.Lenin adına APİ-də ayrıca fakültə açılsın. Bizdə talış dilinin tədqiqi beşillik plana salınıbdır.

Bir çətinliyimiz də bundan ibarətdir ki, bəzi azsaylı xalqların (məsələn, talışın, tatın) ədəbiyyatı yoxdur. 3-4 ilə qrammatika hazırlamaq olar. Amma 3-4 ilə talış ədəbiyyatı hazırlamaq olmaz. Təzə-təzə şeir, hekayə yazanlar var, almanax hazırlayırıq, gələcəkdə dərsliklərin tərtibində bu nümunələrdən istifadə etmək olar. Özüm talışam. 4 çap vərəqi həcmində orfoqrafiya lüğəti hazırlamışıq. IX sinif şagirdləri üçün "Azərbaycanca-talışca lüğət" kitabı da bir ildir ki, nəşriyyatdadır.

Yerlərdə azsaylı xalqların mədəniyyət mərkəzlərinin fəaliyyətilə bağlı onu demək istəyirəm ki, bəzi yoldaşların düşündüyü kimi orada heç də çalıb-oynamaq olmayacaq, həmin mərkəzlərdə tarix də, etnoqrafiya da öyrəniləcək.

**Rafiq Kaşanlı** (Azərbaycan Mədəniyyət Fondu sədrinin birinci müavini):

– Bizim fəaliyyətimizin əsas istiqamətlərindən biri azsaylı xalqların problemlərilə məşğul olmaqdır. Sözsüz ki, 70 ildə yığılıb qalmış problemləri 1-2 gündə həll etmək olmaz.

Azərbaycan Mədəniyyət Fondu ləzgi və talış mərkəzlərinin mədəniyyət günlərini keçirib. Ötən dekabrda Belorusiyanın paytaxtı Minsk şəhərində Azərbaycan Mədəniyyəti Günləri keçirilərkən oraya "Halay" talış kollektivini göndərmişdik. Qərara almışıq ki, respublikadakı bütün azsaylı xalqların mədəniyyət günlərini, yaxud festivalını keçirək. İndiyədək biz o qədər beynəlmiləlçi olmuşuq ki, öz xalqımızı unutmuşuq. Çox təəssüflər olsun ki, böyük qayğıyla yanaşdığımız azsaylı xalqların bəzilərindən hərdənbir şovinizm təhlükəsi gəlir.

**Əlirza Əliyev** (Lənkəran rayonu, xalq təhsili şöbəsinin müdir müavini, filologiya elmləri namizədi):

– Mən eyni zamanda Lənkəran Mədəniyyət Mərkəzinin sədr müaviniyəm. İstərdik respublika Mədəniyyət Fondu ayrı-ayrı rayonlardakı azsaylı xalqların mədəniyyət mərkəzləri ilə müntəzəm əlaqə saxlasın. Yaxşı olar ki, azsaylı xalqların yaşadığı ərazidə ibtidai təhsil milli dildə olsun. Talış dilinin tədrisinə gəlincə, düzdür, talışların ədəbiyyatı hələ yoxdur. Amma bu xalqın qədim ədəbiyyatı, yəni folkloru var, ondan istifadə etmək olar. Talış ədəbi dilinə aparıcı xüsusiyyətləri gətirmək lazımdır. Yoxsa, bir kənddə işlədilən söz o biri kəndlərdə başa düşülmür. Yaxşı olar ki, yerlərdə pedaqoji institutların filialları açılsın. Bizi yada salan xalq təhsili işçiləri və jurnalistlərdir, dövlət isə maraqlanmır.

**T.Seyidov**: – Ədəbiyyatı olmayan və ya az olan xalqların dillərinin tədrisinin müddətinin uzadılmasıyla bağlı demək istərdim ki, məsələn, udin dili üzrə nümunələr toplamaq olmur, folklor nümunələri toplayırlar ki, dərsliklərə salaq. Məncə, həmin dillər hələlik 4 il şifahi keçilsə, bəsdir. Gələcək üçün təcrübə toplanar. Yuxarı siniflərdə udin dili tədrisini fakültətiv məşğələlərdə davam etdirərik. Udin ziyalılar, ağsaqqallar özləri belə qərara gəliblər. Yoxsa, dərslik olmaya-olmaya müəllimin sinfə girib şagirdin vaxtını almağı düzgün deyil.

**Yəhya Kərimov** (Azərbaycan ETPEİ-nin direktor müavini, professor):

– İnstitutumuzda başladığımız bu iş bir ideyadan doğub: bir dəfə Zahid müəllim dedi ki, təlim-tədrisdə milli konsepsiya olsun və kiçik xalqlar öz ana dillərini inkişaf etdirsinlər. İndi bizim 2 proqramımız olmalıdır: minimum və maksimum proqramlar. Əvvəlcə sentyabra, uzağı bir ilə qədər görməli olduğumuz işləri müəyyənləşdirməliyik. Bütün problemləri bir-birinə qarışdırsaq, nazirlik də pərakəndə işləyəcək, heç nə də həll olunmayacaq.

Uşaq məktəbəqədər dövrdə də hazırlaşdırılmalıdır. Bəzi xalqlarda ailənin bu sahədəki rolu sıfır dərəcədədir. Hazırlıq mərhələsi üçün

Rusiyada İnnokenti Vasilyev adlı bir alim xüsusi dərslik hazırlayıbdır. Bu metod bizim üçün də sərfəlidir. Belə bir vahid dərsliyin nəşri mətbəə imkanları baxımından daha realdır, nəinki 18 xalqa 18 dildə dərslik çap olunması. Dərsliklərin hazırlanması prosesində ardıcıllıq gözlənilməli, hər sonrakı sinfin dərsliyi əvvəlkində verilən biliyi tamamlayıb, inkişaf etdirməlidir. Dərsliklərin tərtibində millilik və regional xüsusiyyətlər mütləq olmalıdır, balalarımız üçün kitabları özümüz tərtib etməliyik.

Kadr məsələsini həll etmək üçün hələlik tat, ləzgi, saxur və avar dilləri üzrə müəllimlər Dağıstanda təkmilləşdirilməli, talışlar Bakıya toplanmalıdırlar. Gələcəkdə müəllim kadrlarının hamısını özümüz Bakıda hazırlamalıyıq.

Proqram və dərsliklərin hazırlanmasını tezləşdirmək üçün elmi müxbirlərin sayını artırsaq, onlar da bir qədər fəallıq göstərsələr, nəticə səmərəli olar.

**Jora Köçərli** (Qəbələ rayonu, Nic kəndi, müəllim):

– Udin dilində 52 hərf var. Onlardan 22-si diqqətlə nəzərdən keçirilib sadələşdirilməli və təlim üçün münasib olan şəklə salınmalıdır.

**İslam Həsənov** (Şamaxı, Məlhəm kənd orta məktəbinin direktoru):

– Tat dilinin bir-birindən əsaslı şəkildə fərqlənən dialektləri var. (O, Şamaxının ayrı-ayrı kəndlərində yaşayan tatların dillərindən misallar gətirərək, fərqləri qeyd edir). Belə kəskin dialekt fərqləri olduğu halda, dərs vəsaitləri necə yaradılmalıdır? Bu barədə fikirləşmək lazımdır.

**Əhməd Qurbanov** (Zaqatala, metodist-müəllim, filologiya elmləri namizədi):

– Zaqatalada 5 məktəbdə saxur dilinin tədris olunacağı nəzərə alınmalı və müvafiq dərs vəsaitləri yaradılmalıdır. Şəki rayonunun

Qaynar və digər kəndlərində rutul xalqının nümayəndələri yaşayır. Odur ki, rutul dilinin təlimi barədə də tədbir görülməlidir.

**"Dəyirmi masa" ətrafındakı söhbət qızğın müzakirələr şəraitində keçdi. Tədbirdə iştirak edən müəllimlər, alimlər, ziyalılar azsaylı xalqların qayğılarıyla bağlı ən müxtəlif problemləri qaldırdılar, bir-birindən maraqlı rəy və təkliflərini bildirdilər. Bu gün respublikamızda yaşayan 18-ə yaxın kiçik xalqların dillərinin tədrisiylə bağlı çətinliklər araşdırıldı, arzular nəzərə alındı. Belə xeyirxah və mühüm bir işə başladığı üçün Azərbaycan ETPEİ-nin ünvanına dönə-dönə minnətdarlıq sözləri söylənildi. İşin səmərəliliyi naminə dəyərli təşəbbüslər, təkliflər irəli sürüldü. O da qeyd olundu ki, bir sıra bədxahlar Azərbaycanda iğtişaş salmaq məqsədilə bu torpaqda məskunlaşmış azsaylı xalqları öz milli müstəqillikləri uğrunda mübarizəyə qalxmağa təhrik edir. Belə təşəbbüslər nəticəsizdir və olduqca təhlükəlidir. Xüsusilə körpə qəlblərdə, məktəbli şüurunda bu sayaq toxumlar əkmək son dərəcə ziyanlıdır. Müəllim gərək uşağa həqiqəti başa salsın ki, onun sabahından nigaran qalmasın. Genişqəlbli xalqımız bizimlə bir torpaqda yaşayıb, eyni havadan nəfəs alan, eyni suyu içən hər bir xalqın nümayəndəsinə öz doğma dilini, adət-ənənəsini qoruyub-yaşatmağa hər cür şərait yaradır. Həmvətənlərimiz də öz növbəsində gərək Azərbaycan xalqının böyüklüyünü qiymətləndirib, onun dayağına çevrilələr.**

**Respublikamızda yaşayan azsaylı xalqların qayğı və problemlərinə diqqət günü-gündən artır. Rəsmi dövlət idarələrindən tutmuş müxtəlif elmi müəssisələrə, mədəniyyət idarələrinə, mətbu orqanlaradək çoxsaylı idarə və təşkilatlar bir torpaqda çiyin-çiyinə yaşayıb, birgə maddi nemətlər istehsal etdiyimiz kiçik xalqlara qayğıyla yanaşırlar. Son illər əksər azsaylı xalqların toplu şəkildə yaşadıqları ərazilərdə**

mədəniyyət mərkəzləri yaradılmışdır ki, bu da milli mədəniyyətlərin inkişafında mühüm əhəmiyyətə malikdir. Kiçik xalqların əsas milli göstəricisi olan ana dillərinin məktəbdən başlayaraq tədris olunması sahəsində də xeyli iş görülmüşdür.

Artıq beş ildir ki, Qusar rayonunun 85 ümumtəhsil məktəbinin 80-də ləzgi dili tədris olunur. Quba rayonunun Digah, Qımıl, Yelenovka, Qımılqışlaq, Qımılqazma, Küsnətqazma və Üçkün kəndlərində də ləzgilərin ana dili tədris olunur. Balakən, Zaqatala zonasında yerləşən Şambul, Meşəşambul, Xalatala, Qaysa, Qazbölük, Mazımçay, Qabaqçöl, Katex və Şərif kənd məktəblərində isə avar dili tədris edilir. Talışların yığcam yaşadıqları Masallı, Lənkəran, Astara və Lerik rayonlarında şagirdlərə talış dili öyrədilir. Respublikamıza Fərqanədən pənah gətirmiş mesxeti türklərinin doğma dillərində oxuması məsələsi də diqqət mərkəzindədir. Əlbəttə, respublikamızda yaşayan azsaylı xalqların həll olunmamış problemləri də vardır. Lakin o problemlər əsasən bütün İttifaqda mövcud olan problemlərdir ki, bu sahədə hər hansı xalqı ayırıb "məzlum, zillət çəkən" obrazında qələmə vermək düzgün deyildir.

"Azsaylı xalqların ana dillərinin öyrənilməsi" probleminə həsr olunmuş "Dəyirmi masa"da səmərəli fikir mübadiləsi aparıldı. İstəklərlə imkanlar arasındakı tənasüb müəyyənləşdirildi. Təbii ki, respublikamız üçün mühüm əhəmiyyətə malik olan belə incə mətləblərdə reallığı nəzərə almaq vacibdir. Bizcə, işgüzar şəraitdə keçən yığıncaqdan hamı işgüzar əhval-ruhiyyə ilə qayıtdı.

"Yurddaş" qəzeti
26 iyun 1991-ci il, səh. 6-7

# ƏLİFBAMIZ, TALEYİMİZ...

**Ulu xalqımızın yazı mədəniyyəti öz tarixi boyunca dönə-dönə əlifba dəyişikliyinə məruz qalıb. Tale belə gətirib ki, biz Azərbaycan türkləri bu gün də - XXI əsrin astanasında yenidən əlifba problemi ilə üz-üzə dayanmışıq. Çünki hakim siyasi rejimin təzyiqi ilə qəbul edərək əlli il işlətdiyimiz kiril əlifbası dilimizin səs tərkibini, inkişaf qanunauyğunluqlarını əks etdirə bilmir. Millətimizin adı, soyadlarımızın sonluğu kimi, kiril əlifbası da Stalin rejiminin Azərbaycan xalqına verdiyi "töhfələr"dəndir.**

**Tədqiqatçılar çoxdan aşkarlamışlar ki, eramızın əvvəllərinədək oğuz türkləri mixi yazılardan, qədim run, uyğur, manixey əlifbalarından istifadə etmişlər. VII əsrdə ərəb istilası nəticəsində bütün türk xalqları kimi Azərbaycan türkləri də ərəb əlifbasına keçmişlər. Beləliklə də, yazı mədəniyyətimiz tarixində ən uzunömürlü əlifba fəaliyyətə başlamışdır. Min ildən artıq bir dövrdə tarixi salnamələrimiz, elmi-ədəbi-bədii irsimiz, qiymətli tərcümələr, qonşu dövlətlər arasındakı müxtəlif yazışmalar məhz ərəb əlifbasında qələmə alınmışdır. Əlifbanın ümumiliyi sayəsində türk xalqları bir-birini asanlıqla oxuyub-anlamış, mənəvi yaxınlıqlarını qoruyub saxlaya bilmişlər. Ərəb əlifbasının dəyişdirilməsi hər şeydən öncə türk xalqlarını biri-birinə yadlaşdırmaq, unut-**

**durmaq qəsdini güdmüşdür. Lakin dövrünün böyük ziyalısı olan görkəmli şəxsiyyətlərimiz belə bu mühüm amili nəzərdən qaçırmış, doğma xalqın tərəqqisini ərəb əlifbasının dəyişdirilməsində görmüşlər. Nəticədə türk dünyası çox şey itirmişdir. Azərbaycan türklərinə isə ikiqat zərbə dəymişdir: əvvəla, öz tarixi köklərimizdən, ulu babalarımızın qoyub getdiyi minillik mədəni-mənəvi irsimizdən ayrı düşmüşük, ikincisi, şimalda yaşayan xalqımız cənubda yaranan ədəbiyyatdan xəbərsizdir, cənubda yaşayanlarsa şimaldakı mənəvi sərvətləri oxuya bilmir.**

**Zaman-zaman içimizi göynədən əlifba problemi son iki ildə milli özünüdərkin nəticəsi kimi bütün kəskinliyi ilə meydana çıxmışdır. Tarixi ədaləti bərpa etməyin vaxtı çatmışdır. Nəticədə dövlət tərəfindən rəsmi olaraq Əlifba komissiyası yaradıldı. Mətbuatda gedən müzakirələrdə müxtəlif peşə sahibləri, alimlər, geniş xalq kütlələri iştirak edərək öz düşüncələrini, mülahizə və təkliflərini bildirdilər. Əlifba islahatı istiqamətində atacağımız növbəti addımda latın qrafikası əsaslı əlifbaya qayıdışın zəruriliyini qeyd edənlər çoxluq təşkil etdilər. Bəlkə də bu, latının könüllü qəbul etdiyimiz yeganə əlifba olmasıyla əlaqədardır?.. Hər halda dünyanın beş qitəsində istifadə olunan latın əlifbasının mütərəqqi cəhətləri inkaredilməzdir. Bu barədə çox deyilib, çox yazılıbdır. Məqsədimiz heç də ərəb və latın əlifbalarını qarşı-qarşıya qoymaq deyildir. Çünki bu gün latına qayıdışı labüd bildiyimiz kimi, ərəb əlifbasını öyrənməyin də zərurət olduğunu dərk edirik.**

Əlifba problemimizin həlli yolları barədə oxucularımıza mötəbər məlumat vermək üçün respublika Ali Sovetinin Rəyasət Heyəti yanında yeni Azərbaycan əlifbasını hazırlayan xüsusi komissiyanın üzvü, professor Kamal Abdullayevlə görüşdük. Azərbaycan xalqının qarşısında duran çoxsaylı problemlərə toxunan professor bildirdi ki, bu

çoxluğun içindən əlifba problemini ayırmaq xüsusilə vacibdir. Görkəmli ziyalılarımızın, elm və mədəniyyət xadimlərimizin, yazıçılarımızın toplandığı Əlifba komissiyası doğrudan da böyük iş gördü. Yeni Azərbaycan əlifbasına keçid respublika Ali Sovetinin yaratdığı komissiyanın gündəlik işiydi. Ən əvvəl dilçilərdən, mütəxəssislərdən ibarət böyük bir qrup əsrin əvvəllərində Azərbaycanda işlədilmiş latın qrafikası əsaslı əlifbanın yeni layihəsini işləyib hazırladı. Bu, o qədər də asan iş deyildi. Bəzən saatlarla, günlərlə bu və ya digər hərfin yazılışıyla bağlı mübahisələr gedirdi, fikir mübadiləsi aparılırdı və nəhayət, ortaq fikrə gəlinirdi. Bundan sonra əlifba komissiyası qarşısında latın qrafikası əsaslı yeni Azərbaycan əlifbasına keçid mexanizmini və onun mərhələlərini müəyyənləşdirmək məsələsi durdu ki, bi işdə komissiyanın bütün üzvləri iştirak etdilər. Əlifba komissiyası Xalq Təhsili Nazirliyindən, Dövlət Mətbuat Komitəsindən, Dövlət Plan Komitəsindən, Təchizat Komitəsindən gələn təklifləri ümumiləşdirdi, o təklifləri illər üzrə müəyyənləşdirdi və hər təşkilatın görəcəyi işləri, vəzifələri dəqiqləşdirdi.

Müsahibimizdən onu da öyrəndik ki, bu il yeni əlifbaya keçid barədə fərman veriləcəyi gözlənilir. Rəsmi fərman imzalanandan sonra müxtəlif idarə və təşkilatlar işlərinin spesifikasına, öz imkanlarına, texniki, maddi, iqtisadi potensiallarına uyğun şəkildə yeni əlifbanı tətbiq etmək istiqamətində işləyəcəklər. Bu proses 1995-ci il də daxil olmaqla, təxminən beş il davam edəcək.

Əlbəttə, fərmanın verilməsilə yeni əlifbaya keçməyi ani bir addım kimi təsəvvür etmək olmaz. Yəni "bu gün fərman verildi, sabah hamı yeni əlifbayla yazmalıdır, bütün tədris ocaqları, müəssisələr öz yazışmalarının əlifbasını dərhal dəyişdirməlidir" düşüncəsi yanlışdır. Məsələni belə qoymaq və həll etmək mümkün deyil. Müəyyən müddət, yəni nəzərdə tutulmuş 5 il ərzində indi istifadə etdiyimiz əlifbayla qəbul edəcəyimiz əlifba paralel şəkildə işlədilməlidir. Bu nisbət tədricən latın qrafikası əsaslı əlifbanın xeyri-

nə dəyişməlidir. Yəni müddət başa çatanadək yeni əlifba tam şəkildə həyatımıza tətbiq olunmalıdır.

K.Abdullayev qeyd etdi ki, bu il həm Xalq Təhsili Nazirliyinin, həm Dövlət Mətbuat Komitəsinin qarşısında onların özlərinin verdikləri təkliflərə uyğun olaraq çox böyük işlər durur. Məsələn, sentyabr ayından Bakı Dövlət Universitetində, respublikanın orta ümumtəhsil məktəblərində və digər tədris ocaqlarında yeni əlifbanı öyrədən fakültətiv məşğələlərin, kursların təşkili nəzərdə tutulmuşdur. Dövlət Mətbuat Komitəsində yeni əlifbada işləyə bilən makinaçıların hazırlanmasını, korrektorların, mətbəə işçilərinin, qəzet-jurnal, nəşriyyat əməkdaşlarının yeni əlifbaya tam yiyələnmələrini təmin edən tədbirlər kompleksi həyata keçiriləcəkdir. Mətbəələrin işinin yeni əlifbaya uyğunlaşdırılması 1994-cü ilədək həll olunacaqdır. Matrisaların alınmasından, poliqrafiya müəssisələrində şrift təsərrüfatının qismən, sətirtökən maşınların isə tam yenidən qurulmasından tutmuş, kitab-qəzet mətbəələrinin texniki avadanlığının yeni əlifbaya keçirilməsinədək bütün bu məsələlər, heç şübhəsiz, gərgin əmək, ciddi iş tələb edir.

Respublika Nazirlər Sovetinin, Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin, Bakı Şəhər Soveti İcraiyyə Komitəsinin, rayon icraiyyə komitələrinin, Azərbaycan Elmlər Akademiyasının, yaradıcılıq ittifaqlarının və digər müəssisələrin əlifba islahatını həyata keçirməsi üçün müxtəlif, rəngarəng səpkili tədbirlər kompleksi işlənib hazırlanmışdır. Respublika televiziyası ilə yeni əlifbanı təbliğ edən və öyrədən xüsusi kursların təşkil edilməsi nəzərdə tutulmuşdur. Verilişlərin adları, titrlər, elanlar paralel olaraq yeni əlifba ilə də veriləcəkdir. Azərbaycanın şəhər və rayon mərkəzlərində "Yeni əlifba" dayaqları yaradılacaq, bu əlifbanı könüllü öyrənənlər üçün kurslar açılacaqdır. Eyni zamanda həm şəhər, həm də kənd yerlərində küçə yazıları, vitrin və reklamlar, idarə adları paralel olaraq həm də yeni əlifba ilə veriləcəkdir.

1992-ci ildən orta məktəblərin I siniflərində yeni əlifbanın öyrədilməsinə başlanması bir növ layihə şəklində planlaşdırılmışdır. Ali məktəblərin nəşriyyat bazalarının yeni əlifbaya keçməsi təmin olunacaq, həmin təhsil ocaqlarında nəşr edilən çoxtirajlı qəzetlərin Azərbaycan variantı gələn ildən yeni əlifbayla çap ediləcəkdir. Azərbaycan dilindəki orta məktəb dərsliklərinin yeni əlifba ilə çapa təqdim edilməsinə, xəritələrin, şəhər, kənd, qəsəbə və küçə adlarının lövhələrinin, vəsiqələrin, VVAQ, notariat, statistika, uçot-hesabat sənədlərinin yeniləşdirilməsinə də gələn ildən başlanılacaqdır. Lakin bu sahədə işin həcmi çox böyük olduğundan onu 1995-ci ildə tamamlamaq nəzərdə tutulmuşdur.

1993-cü ilin payına orta məktəblərin ibtidai sinifləri üçün dərsliklərin tam tirajla yeni əlifbada buraxılması düşür. Əlifba komissiyası keçid mərhələsi üçün respublika qəzetlərindən birinin – "Kommunist"in, yaxud yenicə nəşrə başlamış "Həyat" qəzetinin tam şəkildə yeni əlifbayla nəşrini məqsədəuyğun hesab etmişdir.

1994-cü ildən etibarən təhsil sisteminin bütün sahələrində yeni əlifbanın tətbiqi ilə Xalq Təhsili Nazirliyi məşğul olacaqdır. Orta məktəblərin yuxarı sinifləri üçün dərsliklərin yeni əlifba ilə tam tirajla buraxılmasına isə Dövlət Mətbuat Komitəsi nəzarət edəcəkdir. Əgər nəzərdə tutulmuş bütün mərhələlər ilbəil həyata keçirilə bilsə, prosesdə ləngimələr olmasa, o halda 1994-cü il bütün respublika qəzetlərinin yeni əlifbada nəşri ilə əlamətdar olacaqdır.

1995-ci ildə isə ali və orta ixtisas məktəbləri üçün dərsliklərin tam tirajla buraxılması, elmi-texniki və ictimai-siyasi ədəbiyyatın yeni əlifba ilə çapı məqsədəmüvafiq hesab edilmişdir. Göründüyü kimi, əlifba islahatı sahəsində aparılan işlərin həcmi ilbəil azalacaqdır. Beləliklə, latın qrafikalı əlifba 1995-ci ildə həyatımızın çox böyük bir sahəsini əhatə edəcəkdir.

**M.S.** - Bir əsrdə artıq üçüncü dəfədir ki, əlifbamızı dəyişdiririk.

Şübhəsiz, Əlifba komissiyası keçid mərhələsini müəyyənləşdirərkən keçmişin təcrübəsinə də müraciət edibdir.

**K.A.** - 1929-cu ildə ərəb əlifbasından latına keçəndə də o proses ani olmamışdı. 1922-ci ildən başlanaraq yeddi il müddətinə tamamlanmışdı. Bütün bu proseslər indi beş ilə sığışdırılıb. İndiki əlifbanın, yazının həyatda tutduğu yeri nəzərə alsaq görərik ki, bugünkü şəraitdə əlifbanın dəyişdirilməsi əvvəlkindən qat-qat çətindir. Kiril əlifbasıyla da birdəfəlik vidalaşmırıq. Rus dilini öyrənəndə bu əlifbadan istifadə edəcəyik. Güman edirəm ki, əlifbanın dəyişilməsi Azərbaycan xalqının dünya xalqları sırasında irəliyə doğru hərəkatını bir qədər də sürətləndirəcək. Həm bir dilçi kimi, həm də vətəndaş kimi inanıram ki, bunun xalqımıza yalnız və yalnız xeyri olacaqdır. Ola bilər ki, biz o xeyri görməzdən əvvəl sırf iqtisadi, maddi, mənəvi sahələrdə böyük çətinliklərlə qarşılaşaq, amma biz sabahı düşünsək, gələcək nəsli düşünsək görərik ki, bu islahat gələcəkdə çox böyük nailiyyətlərə gətirib çıxara bilər.

Hörmətli yurddaşlarımız! Əlifba islahatı suverenlik yolunda atdığımız mühüm addımlardan biridir. Dövlət komissiyasının tərkibində çalışan tanınmış alim və mütəxəssislər xalqımızın 1940-cı ilə qədər istifadə etdiyi latın qrafikalı əlifbaya keçidin 1996-cı ildə tamamlanmasını nəzərdə tutmuşlar. Doğma respublikadan kənarda yaşadığınız üçün bildiyiniz əlifbanın dəyişdirilməsi sizi qayğılandıra bilər. Taleyimizdən keçən əlifba faciəsini aradan qaldırmaq yolunda gərək sizli-bizli hər əziyyətə qatlaşaq. Təki, bu dəfə qəbul edəcəyimiz əlifba müasir Azərbaycan dilinin bütün incəliklərini özündə əks etdirən kamil və yazı mədəniyyətimiz tarixində həmişəyaşar əlifba olsun!

**"Yurddaş" qəzeti**
**13 mart 1991-ci il, səh. 5**

# MÜSTƏQİLLİK ELAN EDİLİB, AMMA...

Azərbaycan prospekti, 12. Yaradıcı ziyalılarımız bu ünvana yaxşı bələddirlər. Ədəbiyyat və incəsənət əsərlərinin kütləvi nəşrinə, ifasına və istehsalına görə verilən müəllif qonorarının düzgün bölüşdürülməsinə məhz burada nəzarət edirlər – Müəlliflik Hüququ Agentliyində.

1989-cu ilədək Ümumittifaq MHA-nın Azərbaycan şöbəsi kimi fəaliyyət göstərən Agentlik indi müstəqillik əldə edib. Bu yolla addımlamaq isə o qədər də asan deyil. Əvvəla  ona görə ki, "müstəqilsənsə, get başını özün dolandır" prinsipi ilə işləyən Moskva, ictimai əsaslarla fəaliyyət göstərən Azərbaycan MHA-ya dotasiya verməyi 1991-ci ilin may ayından dayandırsa da, ÜMHA-nın balansındakı mülkiyyətindən  Azərbaycana çatası payı ayırıb verməyi bilmərrə "unudub". Halbuki, 70 il ərzində xarici ölkələrdən azərbaycanlı müəlliflərə gələn valyutanı mənimsəyən də Moskva olub, həmin qonorardan müvafiq Agentliyə çatası faiz də ÜMHA-ya verilib. Valyuta ilə ödənmiş qonorarın əsl sahibi olan müəlliflər isə öz haqlarını sovet pulu ilə alıblar.

Respublika valyuta fondunun yaradılması barədə tez-tez söhbətlər gedir. Lakin bu fonda layiqli töhfə verə biləcək MHA-nın hüquq və səlahiyyətlərindən istifadə etmək heç kəsin yadına düşmür. Acına-

caqlı haldır ki, Azərbaycan müəlliflərinə xaricdən göndərilən valyuta qonorarı elə bu gün də Moskvaya gəlir və özünü İttifaqın varisi elan etmiş Rusiyanın büdcəsinə daxil olur. Görkəmli elm, ədəbiyyat və incəsənət xadimlərimizsə həmin valyutanın müqabilində inflyasiyası gündən-günə sürətlənən sovet manatı almaqda davam edirlər.

Bu da acınacaqlı faktdır ki, respublika Mədəniyyət Nazirliyindən, Dövlət Mətbuat Komitəsindən, Elmlər Akademiyasından tutmuş, bütün yaradıcılıq ittifaqlarınadək (yazıçılar, rəssamlar, bəstəkarlar və b.) 14-15 təsisçisi olan bu təşkilat hazırda heç yerdən yardım ala bilmir. Çünki o təşkilatların əksəriyyəti indiki iqtisadi şəraitdə imkansızdır. Əslinə qalanda, heç mümkün maddi təminat da bu gün MHA-nın bütün problemlərini həll etmək iqtidarında deyil. Çünki dünyanın ən böyük imperiyasının süqutu nəticəsində sovet qanunları qüvvəsini itirib, yeni qanunlar isə hələ qəbul edilməyib. Heç şübhəsiz, əqli mülkiyyətin, müəlliflik hüququnun qorunması sahəsində respublikamızın öz qanunları olmalıdır. Ukrayna, Rusiya, Qazaxıstan, Orta Asiya və digər respublikalarla indən belə tərcümə ədəbiyyatının nəşri sahəsində münasibətlərimizi necə quracağımızı da tezliklə aydınlaşdırmalıyıq.

Üzümüzə Şərq dünyasının qapıları açılır. Təbii ki, Şərq xalqlarında bədii kitablarımıza, mahnılarımıza və teatr tamaşalarımıza maraq daha güclüdür. Bu marağı dövlət səviyyəsində təmin etmək, qarşılıqlı mədəni mübadilə prosesini tənzimləmək üçün dəqiq mexanizm işlənib hazırlanmalıdır. Ümumiyyətlə, respublika MHA öz iş strukturunu kökündən dəyişməli və təşkilati baxımdan yenidən qurulmalıdır.

MHA-nın sədri Svetlana Əzizbəyova bu barədə deyir:

– Yaxşı olar ki, respublikamız Bern, Cenevrə və Roma konvensiyalarının üzvü olsun. O halda bizim Agentliyin işləri də tezliklə nizama düşər. Çünki bu konvensiyaların üzvü olan ölkələr insan hüquqlarının qorunmasına dair bütün məsələlərdə (müəlliflik hüququ da həmin hüquqların tərkib hissəsidir) bir-birinin hüquqlarına sözsüz

əməl edirlər. Bu gün müstəqillik qarşımızda geniş imkanlar açıb. İndi xarici ölkələrlə özümüz birbaşa əlaqələrə girə bilərik. Həmin konvensiyaların üzvü olmayan Türkiyə və İran kimi ölkələrlə də qarşılıqlı əlaqələr yaradacağıq. İstər şair və yazıçılarımızın, istər bəstəkar və müğənnilərimizin, istərsə də rəssamlarımızın xaricdə istifadə olunan əsərlərinə görə müəlliflik hüququnu özümüz qoruyacağıq. Amma hələlik Agentliyimizin texniki bazası çox zəifdir. Kompüterlərimiz, teleks və kserokslarımız yoxdur. Binamızın əsaslı təmirə ehtiyacı var. Həm maaşımız yüksəldilməli, həm də ştatlarımız artırılmalıdır ki, dünya miqyasında bu işlərə nəzarət edə bilək. Nazirlər Kabinetinə təqdim etmək üçün təkliflər toplusu hazırlamışıq. Burada qonorarların artırılması məsələsini də qaldırmışıq. Ümidvarıq ki, təkliflərimiz nəzərə alınacaq.

Dünya dövlətləri ilə əlaqələrimizin genişləndiyi, keçmiş müttəfiqlərimizin suveren dövlətlərə çevrildiyi indiki dövrdə təbii ki, Azərbaycan MHA-nın səlahiyyətləri də artır, işi də. İndi teatr truppaları, konsert briqadaları, müğənnilərimiz daha tez-tez xaricə qastrollara gedirlər. Vaxtaşırı xarici ölkələrdə rəssamlarımızın satış-sərgiləri açılır. Alimlərimizin elmi monoqrafiyaları, ədiblərimizin görkəmli əsərləri çap olunur. Turizm əlaqələri genişlənir. Gedib-gələnlər Azərbaycandan vallar, kasetlər, xalçalar və s. aparırlar. Videokliplər yaradılır. Kommersiya məqsədilə Azərbaycan incəsənətinə məxsus əsərlərdən istifadə olunur. Bütün bu hallarda azərbaycanlı müəlliflərin hüquqlarının beynəlxalq miqyasda qorunması zəruridir. Bu vacib işi həyata keçirmək üçün isə respublika MHA-sına möhkəm maddi baza və güclü status lazımdır.

**"Axtarış" qəzeti**
**28 fevral 1992-ci il, səh.6**

# DÜNYAYA İNSAN GƏLİR

**Daş qəlbli insanları neylərdin, ilahi ?**
**Bizdə bu soyuq qanları neylərdin, ilahi ?**
**M.Ə.SABİR**

Körpənin ilk çığırtısı eşidilir: inqəəəəə... Dünyaya İNSAN gəlir!

Uşaq evin yaraşığıdır, – deyib müdrik babalarımız. Oğul oldu, qız oldu fərqi yoxdur, övlad doğulan gün ailədə toy-bayrama çevrilir. Hər körpə ata-anasına, qohum-qəbiləyə, bütövlükdə cəmiyyətə nə qədər sevinc bəxş edir. Bu uşağın dünyaya gəlməsinə isə sevinən yox idi. Dünyadan xəbərsiz körpə sahibsizliyini duymuşdu deyəsən. Nazını çəkən olmadığını bilirdi sanki. Susmuşdu... Ana övladından doğum evindəcə imtina etmişdi...

Bakı şəhərindəki südəmər körpələr evində bu gün ata qayğısından, ana nəvazişindən məhrum 100 uşaq vardır. Körpələrə baxdıqca adamın ürəyi ağrıyır. Görəsən bu zərif məxluqların günahı nədir ki, doğulduqları gündən taleyin ən ağır zərbəsinə məruz qalıblar?! 15 günlükdən 3 yaşadək olan körpələr üçün bu uşaq evində hər cür şərait yaradılıb. Binada təmizlik, səliqə-sahman hökm sürür. Körpələrə 84 tərbiyəçi, 6 həkim xidmət edir. Lakin necə olsa da, bu ev heç vaxt ailə ocağını əvəz edə bilməz.

Hazırda respublikamızda 3 südəmər körpələr evi (Bakıda, Gəncədə və Naxçıvanda), 5 uşaq evi (3-ü Bakı şəhərində, Şəkidə və Lənkəranda), 2 internat məktəb (Mərdəkanda və Maştağada) vardır. Bunlarda valideyn himayəsindən məhrum olan 1.500 nəfərə yaxın oğlan və qız yaşayır. Gəlin birlikdə maraqlanaq, görək necə olur ki, uşaq-

lar bu evlərə düşürlər.

Bakıdakı südəmər körpələr evinin baş həkimi Rəna Möhsünzadə deyir:

**– Bir qisim analar doğum evindəcə övladından imtina edir, beləliklə uşaq düşür bura. Hazırda körpələrimizin 10 faizi belələrindəndir. 15 faizi də küçədə atılmışlardır ki, onları ayrı-ayrı vətəndaşlar, yaxud milis tapıb gətirir. Yetim və kimsəsiz uşaqlarımız da var. Bizim körpələr evindəki oğlan və qızların əksəriyyəti isə tək analar tərəfindən müvəqqəti saxlanmağa verilmişdir. Onlardan bir qismi ərindən ayrılıb, bir qisminin isə əri vəfat edib. Heç şübhəsiz, övladını buraya gətirənlər bədbəxt qadınlardır və onları başa düşüb kömək etmək lazımdır. Uşaqlara ayda bir dəfə baş çəkmək olar. Üç yaşına çatdıqda isə ana gəlib övladını aparmalıdır. Əks halda biz onları Bakıdakı 1 və 3 nömrəli uşaq evlərinə köçürürük.**

Rəna xanımla söhbətimiz çözələndikcə məsələnin kökü çox dərinlərə – sosial problemlərdən tutmuş adət-ənənələrimizə qədər gedir. ...Hərdən eşidirik ki, hansısa doğum evində insafsız bir ana körpəsini qoyub qaçıb. Yaxud "mərdi-mərdanə" öz uşağından imtina edib. Heyrətlənirik. Bizə elə gəlir ki, körpəsini (əksər hallarda ilkini) atan bu gənc qadının ürəyi daşdır, o, analıq hisslərindən məhrumdur. Bir sözlə, insanlıqdan kənar məxluqdur. Əslində isə, gənclik illərindəki bir səhvmi, təsadüfmü, qəzamı bu qızların arzularını puça çıxarır. Xoşbəxtliyin yoluna sipər çəkir. Bir **insanın** xoşbəxtliyi üçün dünyaya yenicə qədəm qoymuş digər köməksiz **insanın** taleyi qurban verilir. Həmin gənclərin sonrakı taleyi ilə maraqlandıqda görürük ki, onların bəziləri uğurlu ailə qurur, övlad dünyaya gətirir, atalı oğul və qızlarını hər cür qayğıya, nəvazişə bələyirlər. Bununla belə "gənclik səhvləri", atdıqları körpə unudulur. Həyatda xoşbəxtləri mühakimə etmirlər!.. Hamının səadətə haqqı var! Lakin öz körpəsinin bədbəxtliyi üzərində xoşbəxtlik bina edənləri bağışlamaq olmaz. Günahsız məxluqların ata-

ları isə nədənsə yada düşmür. Halbuki qanuni, yaxud qanunsuz (yəni nikahdan kənar) doğulmasından asılı olmayaraq hər bir körpənin atası vardır. Bəs, haradadır bu "ataların" kişilik qeyrəti? Kişi də qadını aldadarmı, onu dar ayaqda tənha qoyub qaçarmı?? Sadəcə, təbiət bizi elə xəlq edib ki, dünyaya gələn hər bir insan üçün əziyyətin də, məsuliyyətin də böyük hissəsi qadının üzərinə düşür. Bəşəriyyətin anası olan QADINA ehtiram da elə buna görədir. Məhz bi incəliyi nəzərdən qaçıranda dünyaya qara bəxti özündən əvvəl doğulmuş körpələr gəlir.

**– Aldananların əksəriyyəti azyaşlı, yeniyetmə qızlar olur. Onlar dünyaya gətirdikləri körpə ilə birgə ailələrinə dərd-bəla, qəm-qüssə gətirirlər. Belə uşaqlar dünyaya gələn kimi körpələr evi yada düşür. Yaşlı valideynlər uşağı gətirib verirlər ki, biz bunu evdə saxlamağı namusumuza sığışdıra bilmərik. Elə zənn edirlər ki, beləliklə namuslarını qoruyurlar. Ancaq mənə elə gəlir ki, uşağı atmaq özü ən böyük namussuzluqdur. Çox hallarda gənc ana körpəsindən ayrılmaq istəmir. Valideynlərsə onu məcbur edirlər. Anası deyir: "evdən qovacam", atası deyir: "öldürəcəm". O da çarəsiz qalıb uşağını atır. Nədənsə, heç kəs qarşısına məqsəd qoymur ki, oğlanı tapsın, mümkün olduqda bu iki gənci qovuşdursun. Yaxud əlaqədar təşkilatlar gənc qadına – tək anaya ev versin, ona maddi cəhətdən kömək etsin.**

**Bu yaxınlarda baş vermiş bir hadisə hamımızı dərindən sarsıtdı. Bizim körpələr evinə Gəncədən bir qadın gəlmişdi. O, gözümüzün qabağındaca 14 yaşlı qızından da, onun doğduğu körpədən də imtina etdi ki, heç biri mənə lazım deyil. Nə qədər dilə tutduq ki, qız hələ uşaqdır, nə yola getdiyini dərk etməyib, bir nəticə hasil olmadı. O, qızını da, nəvəsini də atıb qayıtdı Gəncəyə. Ananın amansızlığı bizi sarsıtdı, –** deyə Rəna xanım sözünü yekunlaşdırdı.

Görəsən, həmin anda ana 14 il bəsləyib böyütdüyü qızının gələcəyini düşünübmü? Görəsən, qənim kəsildiyi körpəni bircə an da olsa, özünə nəvə bilibmi? O yəqin ki, tutduğu işdə özünü haqlı bilir. Bəs, biz necə?..

Yadıma bir-birindən qəribə əhvalatlar düşür. Sizə danışacağım epizodlarda məlum səbəblərə görə şərti adlardan istifadə edəcəyəm, əziz oxucular.

**Alidənin aqibəti.** Alidə hamiləydi. Ali təhsilli, gözəl-göyçək qızının el adətilə gəlin köçməmiş bu vəziyyətə düşməsi anası Validəni təbdən çıxarmışdı. Nə qədər götür-qoy etsə də, Alidənin hərəkətini bir yana yoza bilmirdi. Ata işin nə yerdə olduğunu bilən kimi qızını evdən qovdu. Alidə xalasıgilə sığındı. Oğlan evi də hadisədən xəbərdar idi. Ancaq susurdular. Tənələr içində ayları yola salan Alidə günlərin birində oğul anası oldu. Oğul sorağı oğlan ailəsindəki buzu sındırdı. Alidəni körpəsiylə birlikdə doğum evindən təmtəraqla gəlin apardılar. İndi xoşbəxt ailələri var. Təəssüf ki, həmişə belə olmur.

**Nəzakətin məhəbbəti.** Yaşı otuzu keçsə də ailə qura bilməmişdi. Sevdiyi- görüşdüyü oğlan özündən doqquz yaş kiçik olduğundan oğlan ailəsi bu izdivaca qəti zidd idi. Ailə səadətindən əlini üzən Nəzakət sevdiyi oğlandan bir uşaq dünyaya gətirdi. İlk vaxtlar söz-söhbət, dedi-qodu baş alıb getsə də, az sonra ehtiraslar soyudu. Üstəlik Nəzakətin səmimi etirafı çox qəlbləri kövrəltdi:

– Vahiddən sonra çətin ki, kiməsə isinişə biləm. Onu çox sevirdim. İstədim bir uşağım olsun. Ömrümü Vahidin yadigarını böyütməyə həsr edim. Qocalıqda tənha qalmayım. Öləndə dalımca ağlayanım olsun.

Ürəyi yananlar da oldu Nəzakətə, qınayanlar da. Zaman keçdikcə gənc qadını başa düşənlərin, hərəkətinə qeyri-adi, qeyri-normal hal kimi baxmayanların sayı çoxalırdı. Körpəcə oğlan isə bütün bunlardan xəbərsiz böyüyürdü. Bir il sonra eşitdik ki,

Nəzakət ikinci uşağı dünyaya gətirib. – İstəyirdim qızım da olsun, – deyə o, tənə vuranlara cavab verirdi. Öz hərəkətində zərrə qədər qəbahət görmürdü.

Oğul-qız anası olmaq arzusu bəşəri istəkdir, müqəddəs duyğudur. Bu arzu hansı qadın qəlbinin qapılarını döyməyib?! Lakin qoy nəzakətlər məndən inciməsinlər, bir azərbaycanlı qızı kimi mən bu yolla nəsil artırmağın tərəfdarı deyiləm. Xalqımın adət-ənənəsinə dərin hörmətim var. Nəzakəti və Nəzakət kimilərini başa düşsəm də, onların hərəkətlərinə haqq qazandıra bilmirəm. Görəsən sabah bu uşaqların "atamız kimdir?" sualına o nə cavab verəcək? Bir onu bilirəm ki, doğduğu uşağı xəstəxanadaca atan qadınlarla müqayisədə Nəzakət kimi analar qat-qat yüksəkdə dayanırlar. İnsanın sabahı üçün narahatıqsa, bu gün tək analara da, onların övladlarına da, yetimlərə və kimsəsizlərə də diqqət və qayğıyla yanaşmalıyıq. Tək anaların varlığını milli qeyrətinə sığışdıra bilməyən xalq onları meydana gətirən sosial- ictimai səbəbləri aradan qaldırmalıdır.

Hamımıza məlumdur ki, tək anaların hüququ dövlət tərəfindən qorunur. Lakin humanist bildiyimiz bir sıra qanunlar bu sahədə təzadlı, ziddiyyətli vəziyyət yaratmışdır. Belə ki, dövlət tərəfindən analıq məzuniyyəti bitəndən sonra uşağı üç yaşacan saxlamaq üçün ayda 35 manat müavinət təyin olunub. Bununla əlaqədar olaraq uşaq bağçaları nəzdindəki körpələr evlərinin sayı azaldılıb. Axı, hansı ana istəməz ki, övladını özü böyütsün, tərbiyəsinə özü nəzarət etsin. Bu qanun ərli qadınlar üçün çox əlverişlidir. Tək analar isə 35 manatdan əlavə cəmi 20 manat müavinət alırlar. Deməli, ayda cəmi 55 manat. Təbii ki, onlar bu cüzi məbləğlə dolana bilmirlər. İşləmək və körpələrinin tərbiyəsini başqalarına həvalə etmək lazım gəlir. İki-üç növbəli işdə çalışanlar istər-istəməz südəmər körpələr evinə müraciət etməli olurlar. Gözdən uzaq, könüldən iraq,– deyiblər. Bəzi analar bundan sonra uşağından birdəfəlik soyuyur və onu ömürlük dövlətin himayəsinə verir. Yaxşı olmazmı ki, hökumətimiz diqqətini tək analara və ər-

siz qadınlara yönəltsin, insanın insan kimi böyüməsi naminə müəyyən güzəştlərə getsin?! Məsələn, körpəsini bağça yaşına çatdıranadək belə qadınların əsas iş yerində orta aylıq maaşı 100 faiz saxlanılsa, bundan yalnız qazanarıq.

**Elşənin anası.** Anası Elşəni südəmər körpələr evinə müvəqqəti saxlanmağa vermişdi. Zaman keçdikcə ana övladından soyudu və onu birdəfəlik unutdu. Uşağın 3 yaşı tamam olsa da, ana gəlib çıxmadı. Milis orqanlarının axtarışı nəticə vermədi. Ana tapılmadı ki, tapılmadı. Elşəni qayda üzrə böyük yaşlılar üçün olan uşaq evinə köçürdülər. Anası Elşəni bir də məhkəmədə, müttəhimlər kürsüsündə oturduğu zaman xatırladı. Bu nanəcib qadın hakimlərə bildirdi ki, uşaq evində azyaşlı oğlu vardır. Qanun üzrə cəzası azaldıldı. Bu qanun məqbuldurmu?

Bir dəfə mərkəzi televiziya ilə Moskvadakı uşaq evlərindən birinin direktoru danışırdı. O qeyd etdi ki, ata-analarının sağlığında artıq üçüncü nəslin yetimxanada böyüdüyü ailələr var. Bu, dəhşətli faktdır. Direktorun bir fikrini unuda bilmirəm: valideyn nəvazişindən məhrum olan, ailə qayğısı görməyən, inkubator cücələri kimi ümumi tavan altında böyüyən uşaqlarda incə duyğular, insani hisslər zəif inkişaf edir. Həmin oğlan və qızlar  çox vaxt böyüyəndə acıqlı, hamıdan qisas almağa hazır olan bədxahlara çevrilirlər.

Həyat göstərir ki, ən müasir təchizatlı, ən alicənab tərbiyəçiləri olan uşaq evləri belə tərbiyə prosesində heç vaxt ailə ocağının yerini verə bilmir. Hətta ən pisinin belə. Görünür, elə bu mülahizələrə əsasən də, indi ölkədə ailə tipli internatlar, uşaq evləri yaratmaq prosesi genişlənir. Respublikamızda da bu sahədə ilk addımlar atılır. Bakıda ailə tipli uşaq evləri tikmək nəzərdə tutulur.

...Bakı şəhərindəki südəmər körpələr evindən ağır təəssüratla ayrılırdım. Bələkdəki körpələrin səsi haray zənginə çevrilib uğuldayırdı qulaqlarımda. Buyruğa müntəzir dayanmış körpələrin  (2-3 yaşlıların) məsum baxışlarını unuda bilmirdim. Yol gedə-gedə düşünürdüm

ki, taleyin təzadına bax, bir qadın illərlə övlad intizarında qovrulur, körpə səsinə, körpə nəfəsinə həsrət qalır, digəri isə dünyaya gətirdiyi övladı artıq yük kimi atır. Bu gün yalnız respublikamızın paytaxtında övladlığa uşaq götürmək üçün 400 ailə növbəyə dayanıb.

Ömrünü tək yaşamağa məhkum olmuş qızlarımızın, övladlarını tək böyütməyə məcbur qalmış qadınların xoşbəxt ailə qura bilməməsi kimin günahıdır görəsən? Özlərininmi? İşsizliyin ucbatından vətəndən ayrı düşən oğlanlarımızınmı? Yoxsa cəmiyyətin? Bəlkə zəmanənin günahıdır bu?

Respublika Xalq Təhsili Nazirliyində eşitdiyim əhvalat mənə daha dəhşətli təsir bağışladı.

**Əzizənin uşaqları.** Günlərin birində həmin nazirliyə Naxçıvan MSSR-in İliç rayonundan (indiki Şərur rayonu – M.S.) 5 uşaqlı bir qadın gəlib. Məlum olub ki, əri ailəsini atıb, Rusiyaya gedib. Qayınana da gəlini ilə nəvələrini evdən qovub ki, oğlum gedəndən sonra mənə boğaz ortağı lazım deyil. Nə uşaqların göz yaşları, nə də gəlinin yalvarışları bu hikkəli qarının qəlbini yumşalda bilməyib. Beş körpəsilə çöllərdə qalan 26-27 yaşlı gəlin Bakıya üz tutub. Əzizənin körpələrini müvəqqəti olaraq uşaq evlərinə yerləşdiriblər, özünə iş, yataqxanada yer veriblər. Əzizənin maddi vəziyyəti yaxşılaşdıqca körpələrini bir-bir uşaq evlərindən götürüb öz yanına gətirib, yenidən bir ocağın başına yığışıblar.

...Doğum evinin pəncərələrindən bir körpə səsi dalğalanıb yayılır: inqəəəəəə... Bu səsdə qoca dünyaya meydan oxuyan, hamını humanizmə səsləyən bir xəbərdarlıq var: dünyaya İNSAN gəlir! Dünyaya İNSAN gəlir!!!

**"Azərbaycan qadını" jurnalı**
**№ 9-10 1990-cı il, səh.32-33**

# UŞAQLARIMIZ HARADA OYNASINLAR ?

Doğma Bakımız gündən-günə böyüyür. Şəhərdə yeni yaşayış məhəllələri, qəsəbələr salınır. Lakin nədənsə bu məhəllələrdə uşaqlar üçün oyun meydançaları, istirahət guşələri ayırmaq və tikmək "yaddan çıxır". Bina inşa olunarkən bu məqsədlərlə boş qoyulmuş kiçicik sahələr az keçməmiş baxımsızlıq üzündən zibilliyə çevrilir, ona görə də nə uşaqların, nə də böyüklərin istirahət və əyləncəsi üçün yararlı olmur. Ən yaxşı halda həmin sahələr aşağı mərtəbələrin sakinləri tərəfindən çəpərə alınaraq yerində bağça salınır. Yaxud bu yerdə şəxsi tanışlar üçün qaraj tikilir. Əlbəttə, yaşıllaşdırma da xeyirxah işdir, qaraj da lazımdır. Bir şərtlə ki, uşaqların oyun-əyləncə sahələri zəbt edilməsin.

Uşaq dünyası. Oyunsuz-əyləncəsiz onun nə gözəlliyi?! Yadında nə saxlasın, yaddaşında hansı xatirəni yaşatsın ən adi bəşəri səadətdən – oynamaq sevincindən məhrum uşaq? Axı, OYUN yalnız əyləncə deyil. Oyun körpənin insan kimi formalaşma məqamıdır. Bu prosesdə uşaq həm yaşıdları ilə ünsiyyət vərdişləri qazanır, cəmiyyətdə yaşamağı və öz "mən"ini qoruyub saxlamağı öyrənir. Oğlan və qızlar cürbəcür oyunlarla əylənərkən onlarda həm də ilkin peşə marağı oyanır, əmək vərdişləri formalaşır.

Uşaq orqanizmi daim hərəkətdə olmağı tələb edir. Açıq havada “qaçdı-tutdu”, voleybol, basketbol, futbol və digər idman oyunları uşaqların sağlamlığına müsbət təsir göstərir, gümrah böyüməlqərinə kömək edir. Onlarda idmana həvəs oyadır. Dediklərimizi yekunlaşdıraraq bu qənaətə gəlirik ki, uşağın həm əqli, həm də fiziki inkişafında oyunlar zəruridir. Lakin çox təəssüf ki, bu gün böyüməkdə olan nəslin, xüsusilə də şəhər uşaqlarının oynamaq üçün şəraitləri yoxdur. Son illərdə həyət anlayışı həyatımızdan, məişətimizdən ildırım sürətilə uzaqlaşır. Və həyətsiz çoxmərtəbələrin sayı artdıqca bir sıra mənəvi dəyərləri itiririk. Həyətlərin sayı azaldıqca ənənəvi qonşuluq münasibətləri də soyuyur, qapıbir qonşular get-gedə yadlaşırlar. Həyətsiz binalarda, dörd divar arasında böyüyən uşaqlarsa evdə nadinclik edir, böyükləri zinhara gətirirlər. Hər dəfə pilləkəndə, yaxud liftin qarşısında oynayan körpələri, toplaşıb söhbət edən yeniyetmələri görəndə ürəyim ağrıyır. Niyə bu gözəl oğlan və qızların oynaması, əylənməsi, deyib-gülməsi, bir sözlə, öz uşaq ömrünü yaşaması üçün həyət yoxdur? On-on iki doqquzmərtəbəli binanın salındığı ərazidə müxtəlif idman qurğuları quraşdırmaq, meydançalar salmaq, istirahət guşələri ayırmaq, ağac əkmək olmazdımı? 60-cı illərdən üzü bəri Bakıda tikilən binalara, salınan yeni yaşayış məhəllələrinə baxanda adamı heyrət bürüyür. Nə mikrorayonlarda, Əhmədlidə, Yasamalda, nə də şəhərin mərkəz hissəsində yuxarıda sadaladıqlarımıza rast gəlirik. Halbuki ölkənin digər böyük şəhərlərində salınan yaşayış məhəllələri sakinlərə xidmət baxımından ildən-ilə təkmilləşir. Moskva, Leninqrad (indiki Sankt-Peterburq – M.S.), Kiyev, Minsk şəhərlərindəki yeni qəsəbələr ərazi genişliyi, yaşıllığı, oyun-idman meydançaları, həyət-bacası ilə qibtə hissi doğurur. Bəs bizdə niyə belə deyil? Şəhərsalma sahəsindəki təsərrüfatsızlığımız, nöqsanlarımız nə ilə bağlıdır? Layihələrin zəifliyi iləmi, yoxsa tikinti işlərinin keyfiyyətsizliyi ilə? Bəlkə iqtisadi imkansızlıqla?.. Bu düşüncələrlə Bakı Şəhər Dövlət Layihə İnstitutuna üz tutdum. İlk öncə şəhərsalma üzrə layihənin baş memarı Qə-

zənfər Quliyevlə görüşdük. O dedi:

– Biz layihədə dediyiniz obyektlərin hamısını nəzərdə tuturuq. Lakin tikinti mədəniyyəti aşağı olduğundan salınan yeni yaşayış məhəllələrinin görkəmi ürəkaçan olmur. Yaşıllaşdırma idarəsi öz öhdəsinə düşən vəzifəni yerinə yetirmir. Baxımsızlıq nəticəsində boş sahələri ayrı-ayrı adamlar zəbt edir, çəpərə alaraq əkir-becərir. Asfaltlanmış sahəyə keyfiyyətsiz asfalt döşəndiyindən az sonra yağışdan-qardan aşınmaya məruz qalır. Keyfiyyət olmayan yerdə hansı gözəllikdən danışmaq olar?!

Növbəti müsahibim layihə institutunun baş mühəndisi Teodor Şarinski oldu.

– Bizim institutun hazırladığı layihələrdə istər qocalar, istərsə də uşaqlar üçün hər şərait –istirahət və idman guşələri nəzərdə tutulur. Bütün xərclər hesablanıb layihə smetasına daxil olunur. Lakin burada işlədiyim 40 il ərzində elə bir hadisə xatırlamıram ki, tikinti təşkilatları bizim tələblərimizi tam yerinə yetirsinlər. Dörd divarı hörüb, qapı-pəncərəni qoyan kimi qışqırırlar ki, binanı təhvil alın. Layihələrimiz heç vaxt tam şəkildə həyata keçirilmir. Çünki inşaat prosesində iştirak edən təşkilatlar məsuliyyət hiss etmirlər.

Şəhərsalma üzrə mütəxəssislərin göstərdikləri bir sıra layihələr onların dediklərini təsdiq edirdi. Memar Q.Quliyevin layihəsi əsasında Şıx çimərliyi yaxınlığında salınacaq yeni yaşayış massivi, Badamdarda tikiləcək mikrorayon... İdman meydançaları, hovuzlar, mədəni-məişət obyektləri, ticarət şəbəkələri, klub-kitabxana, hətta funikulyor... Layihələrə baxdıqca adamın ürəyi açılır.

Memar Əlibəy Novruzinin "Yaşayış parkı" layihəsi şəhərsalmada yeni konsepsiyadır. O, beş qrup yaşayış binasından ibarətdir. Binaların birinci və ikinci mərtəbələrində mağazalar, məişət xidməti obyektləri, kinoteatr, uşaq bağçası və s. yerləşir. Ərazidə iki məktəb olsa da, burada hasara alınmış məktəbyanı idman-oyun meydançaları

yoxdur. Yaşayış parkının ortasında orijinal bir coğrafi park vardır – bütün okeanları və altı qitəsi ilə birgə Yer kürəsi. Geniş ərazi üçün nəzərdə tutulmuş bu coğrafi parkda məktəblilər dünya səyahətinə çıxa bilərlər. Memarın fikrincə, hər qitənin flora və faunası burada öz əksini tapmalıdır. "Qitə"lərdəki kafelərdə səyahətçilərə məhz həmin ölkələrə məxsus kulinariya məmulatları təklif edilməli, səciyyəvi musiqi səsləndirilməlidir. Bir sözlə, coğrafi park əsl nağıllar aləmidir. Bir dəfə buraya səyahətə çıxan uşaq Yer kürəsinin coğrafiyası barədə illərlə məktəbdə öyrəndiklərindən qat-qat güclü təəssürat alacaq. Görəsən, əlaqədar təşkilatlar uşaqlarımız üçün əsl töhfə ola biləcək bu sayaq layihələri həyata keçirmək haqqında nə vaxt düşünəcəklər? Ə.Novruzinin uşaqlara böyük məhəbbətindən qaynaqlanan akademiya tipli uşaq bağçasının layihəsi də novator memarın uğurlu əsərlərindəndir.

Memarlarımızın yaradıcılığı ilə tanış olduqca neçə-neçə belə dəyərli layihələrin kağız üzərində qaldığının şahidi oluruq. Hər dəfə də dərin təəssüf hissi keçirmişik. Axı, insan körpəlikdən memarlıq abidələri ilə tanış olur. Memarlıq uşağın təfəkkürünə, hissiyyatına təsir edir. Şəhər və kəndlərin memarlıq abidələri, yaşayış və istehsalat binalarının quruluşu, görkəmi, mebel, məişət əşyaları, yolların və həyət -bacanın necəliyi uşağın inkişafında silinməz izlər buraxır. Onda gözəllik duyğusu oyadır, zövq formalaşdırır. Uşaqlıqdan ancaq eyni tipli panel evlər görən şəxs böyüyüb vəzifə başına keçəndə də rastlaşdığı xarabalıqlar, bərbad yollar, zibilli həyətlər onu narahat eləmir. Çünki o buna adət etmişdir. Nəsihətçiliklə, quru təbliğatla insana gözəllik duyğusu aşılamaq mümkün deyildir. Uşaq gözəlliyi gözüylə görüb, qəlbiylə, bütün varlığıyla duymalıdır. Uşaqda gözəlliyə heyranlıq hissi, qayğıkeşlik hissi tərbiyə etmək vacibdir. Həm ağıla, həm qəlbə təsir göstərən memarlıq sənəti bütün dövrlərdə cəmiyyətin güzgüsü olmuşdur. Bu gün də o, cəmiyyətimizin ictimai-siyasi və iqtisadi inkişaf səviyyəsini özündə əks etdirir.

"Uşaqlar gələcəyimizdir!" – deyiriksə, gərək gələcəyimiz olan

balaların hərtərəfli inkişafının qayğısına qalmağı da bacaraq. Yoxsa, hərdən adama elə gəlir ki, bu şüardakı hikməti unutmamaq üçün onu belə tez-tez təkrar edirik. Şəxsiyyətin inkişafında mühüm rola malik oyun və əyləncələri, şəraiti və ətraf mühiti nəzərdə tutaraq bir daha əlaqədar təşkilatlardan soruşmaq istəyirəm: – Uşaqlarımız harada oynasınlar??

**"Azərbaycan qadını" jurnalı**
**№ 4 1991-ci il, səh.1**

# MÖCÜZƏLƏR REALLAŞIR

**Müasir elmin indi-indi qəbul etdiyi rəmmalların, münəccimlərin, sehrbazların, cadugərlərin varlığı bizə uşaqlıqdan bəllidir: sehrli nağıllar dünyasından. Döyüşün sonunu irəlicədən xəbər verən rəmmalların bəsirətinə, insanları tilsimə salan cadugərlərin sehrbazlığına, öz iradəsilə lazım gəldikdə təbii qüvvələri belə hərəkətə gətirərək möcüzə göstərən qəhrəmanların qüdrətinə dönə-dönə heyran qalmışıq. Hələ uçan xalçalar, qeybdən gələn səslər, öz-özünə alovlanıb yanan ocaqlar, kənar müdaxilə olmadan özbaşına yerini dəyişən əşyalar, nəhayət, səmada uçan boşqablar bizi necə heyrətə salıb?! Körpə qəlbimizdə qorxu qarışıq maraq hissi də baş qaldırıb o nağıllar dünyasıyla tanışlıqdan sonra. Oxuduqlarımızın, eşitdiklərimizin oxşarına rast gəlmək ümidiylə uşaq gözlərimizi həyata daha geniş açmışıq. Möcüzə axtarmışıq.**

**Ta qədimlərdən özünüdərk insanın ali arzusu olub. Biruni, İbn Sina, Şəms Təbrizi, Əbu Səid, Mesmer və başqa görkəmli şəxsiyyətlər barəsindəki xatirələr, rəvayətlər, onların altıncı hissə malik olmaları göstərir ki, bütün dövrlərdə kamilliyə çatmış adamlar yaşayıb. Əsrlər boyu özünüdərk yolunda insanların topladığı təcrübələr şamanlıq, tsi-qun, sufizm, yoqa və digər məktəbləri meydana gətirib. Ekstrasensoriya termini son 20 ildə populyarlaşsa da, elmin əsası e.ə. IV əsrdə filosof Ərəstun (Aristotel) tərəfindən qoyulmuşdur. Bu sahədə**

**ilk elmi təcrübələri isə isveçrəli həkim T.Paratsels aparmışdır.**

Ekstrasensoriya latın sözü olub, **"ekstra"** - yüksək, fitri, kənar, xaric; **"sensus"** - qavrama, hiss etmə, duyma deməkdir. Ekstrasens dedikdə yüksək həssaslığa malik, uzaqdan hiss edən, fitri həssas adam nəzərdə tutulur. Müasir ekstrasensoriya elmi həm də qədim Misir kahinlərinin, Midiya mannlarının, hind yoqlarının, Çin tərkidünyalarının, şamanların ruhi və mənəvi inkişaf yolunda əldə etdikləri möcüz vərdişləri tədqiq etməklə məşğuldur. Xalq nağıllarına və qədim dastanlara diqqət yetirsək, möcüzələr göstərən qəhrəmanların əslində öz biosahələrini idarə edə bilmələri sayəsində adi insanlardan fərqli nəticələrə nail olduqlarını görərik. Onların gücü bəsirət gözlərinin açıqlığındadır.   Müqəddəs kitablarda haqqında bəhs olunan peyğəmbərlərin qüdrətilə baş verən möcüzələr də kamilliyə çatmış insanın öz ruhunu, yəni biosahəsini gücləndirmək hesabına ağlagəlməz işlər görmək imkanından xəbər verir.

Bütün bioloji varlıqların ətrafında özünəməxsus biosahə olduğu yaşadığımız XX əsrin son onilliklərində tam təsdiqini tapıb, müxtəlif cihazlar vasitəsilə həmin sahənin fiziki xassələri yoxlanılıb, şəkli çəkilib... Əslində SSRİ-də bu sahəyə dair tədqiqatlar hələ 1917-ci il Oktyabr inqilabından az sonra davam etdirilməyə başlamışdı, lakin bolşevizmin kommunist - ateist ideologiyasının tələbinə uyğun olaraq nə prosesin özü, nə də əldə edilən nəticələr barədə geniş xalq kütlələrinə heç bir məlumat, açıqlama verilmirdi. Uzun illər boyu SSRİ Elmlər Akademiyasının müxtəif institutlarında ekstrasensoriya və parapsixologiyaya aid müxtəlif eksperimentlər aparılmışdır. Alimlər insanın və digər canlıların ətrafındakı biosahənin, maqnit dalğalarının xüsusiyyətlərini öyrənir və bu sahələrin insanın daxili orqanları və xasiyyəti ilə, o cümlədən ətraf mühitlə əlaqələrini izah etməyə çalışırdılar. Amma təcrübələr tamamilə "məxfi" saxlanılırdı. Son illərin aşkarlığı öz işığını bu sahənin üzərinə də saldı. Ekstrasenslərin mövcudluğu rəsmi şəkildə etiraf olundu. Mətbuatdan aldığımız məlumatlara görə,

hazırda SSRİ-də yarım milyonadək peşəkar ekstrasens, rəmmal, təbib, münəccim və cadugər vardır.

İndi ölkədə insan-təbiət, insan-canlı aləm, insan-insan, insan-kosmos kimi əlaqələr istiqamətində tədqiqatlar günü-gündən genişləndirilir. Digər kosmik sivilizasiyalarla əlaqə yaratmaq məqsədilə ekstrasenslərin fövqəl imkanlarına müraciət olunur, bu vasitə də sınaqdan çıxarılır. Gələcəkdən xəbər tutmaq üçün münəccimlərdən istifadə edilir. İnsan psixikasının ən müəmmalı təzahürlərindən olan hipnoz, hiromantiya (falçılıq), hirologiya (gələcəyi görmək), ekstrasensoriya, həmçinin polterqayst (yəni əşyaların özbaşına yerdəyişmələri, öz-özünə alışıb-yanmalar, "qeyb"dən gələn səslər, qeyri-adi işıq parıltıları, qoloqrafik təsvirlərin zühuru, borular tam salamat olduğu halda mənzili su basması və s. bu kimi hadisələr) bu gün tədqiqatçı-alimlərin diqqət mərkəzindədir. Lakin gələcəyi görmək qabiliyyəti ilə bütün dünyada məşhur olan Vanqa, Nostradamus fenomenləri hələ ki, təbabət elmi üçün "sirr" olaraq qalır.

Azərbaycanda da lap qədim dövrlərdən fitrətən qeyri-adi qabiliyyətə malik olan, "bilici", "baxıcı", "falçı" adlandırılan adamlar olub. Bəzən bu adamları mistikaya çeviriblər, onların qüdrətini ilahi qüvvəylə bağlayıblar. Lakin fakt budur ki, həmin şəxslər olub və adamlara kömək ediblər. Ciddi qadağan illərində belə "filankəsə vergi verilib, dava-dərmansız filan dərdi sağaldır" xəbərini dəfələrlə eşitmişik. İnanan inanıb, inanmayan öz əqidəsində qalıb. Bu günsə vəziyyət dəyişib. Respublikamızda rəsmi qeydiyyata alınmış Azərbaycan Xalq Biliciləri və Ekstrasensləri İttifaqı yaradılmışdır. İttifaqın prezidenti ekstrasens Etibar Elkindir. Təşkilat Bakı Elmi-Tədqiqat Travmatologiya və Ortopediya İnstitutunun binasında yerləşir. Keçən ildən fəaliyyət göstərən "İnsan" elmi mərkəzi də İttifaqın tərkibinə daxil olmuşdur.

Azərbaycan Xalq Biliciləri və Ekstrasensləri İttifaqı könüllü ictimai təşkilatdır. Məqsədi mənəvi inkişaf əsasında fiziki və əxlaqi cəhətdən hərtərəfli inkişaf etmiş şəxsiyyət yetişdirmək yolu ilə

vətəndaşları sağlamlaşdırmaqdır. O, xalq kütlələri ilə vaxtaşırı görüşlər keçirəcək, müzakirə və disputlar, müşavirə və seminarlar, xüsusi tədris kursları təşkil edəcək, yerlərdə maraqlar üzrə klublar, müxtəlif birliklər yaradacaqdır. Bioenerji, enerjiinformasiya mübadiləsi, ekstrasensoriya və parapsixologiyaya aid tədqiqat və tədbirlərdə Azərbaycanın mənafeyini qorumaq İttifaqın əsas vəzifələrindəndir. Adamların cansağlığının möhkəmləndirilməsinə, iş qabiliyyətinin və əmək məhsuldarlığının artırılmasına kömək etmək, onlarda yüksək mənəvi keyfiyyətləri formalaşdırmaq, bir sözlə, fiziki-psixi-mənəvi cəhətdən sağlam olan fəal ictimai nəslin yetişdirilməsi ekstrasenslərimizin əsas qayğılarındandır. İttifaqın əməkdaşları ekstrasensoriya və psixotronika sahəsində qabiliyyəti olan, nəsildən-nəslə ötürülən qeyri-ənənəvi biliklərə və vərdişlərə malik adamların aşkar edilməsi, onların qabiliyyətlərinin himayəsi, inkişaf etdirilməsi, həyatda tətbiqi və mükafatlandırılması ilə də məşğul olacaqlar. Ekstrasensoriyanın ənənəvi olmayan bilik sahələrini geniş xalq kütləsinin xidmətinə yönəltmək, canlı aləmə qarşı yönəldilmiş cadugərlik, sehrbazlıq, eləcə də psixotronika və enerjiinformasiya mübadiləsi üzrə əzabverici, antihumanist eksperimentlər aparılmasına qarşı mübarizə də Azərbaycan xalq biliciləri və ekstrasenslərinin məramıdır. Ayrı-ayrı şəxslər tərəfindən baş verə biləcək şarlatanlıq və sui-istifadə faktlarının qarşısını almaq üçün AXBEİ respublikanın bütün ekstrasens, parapsixoloq və bilicilərinin fəaliyyətinə nəzarət edəcəkdir.

Hazırda ilk addımlarını atan Azərbaycan Xalq Biliciləri və Ekstrasensləri İttifaqının təşəbbüsüylə Bakıda kurslar təşkil edilərək özündə güclü biosahə hiss edən adamlara dərs keçilir. Üç aylıq kurs müddətində həmin müdavimlərə alim və həkimlərin rəhbərliyi ilə ekstrasensoriyanın hələlik təbabət hissəsi (gələcəkdə magiya hissəsinin tədrisi də nəzərdə tutulur) tədris edilmiş, anatomiya və fiziologiya dərsləri keçilmişdir. Kursu bitirənlər əsasən texniki və tibbi ekstrasensoriya ilə məşğul olurlar.

İttifaqın prezidenti Etibar Elkinlə görüşdük. O dedi:

- Bu gün İttifaqımızın 50-yə yaxın üzvü var. Əsas məqsədimiz adamların ağrı-acılarını azaltmaq, onları gülərüz və xoşbəxt görməkdir. Ruhu azad olmayan şəxs azad olmaz. Ekstrasensoriya deyəndə bəziləri elə başa düşür ki, söhbət ancaq müalicədən gedir. Əslində isə bu çox geniş elmdir: geologiya, fiziologiya, biokimya, təbabət, fizika, psixologiya və s. elmlər də buraya daxildir. Müsahibimiz bildirdi ki, yeni yaranan İttifaq hələlik dörd əsas istiqamətdə fəaliyyət göstərəcəkdir:

- **bəsirət**, yəni gələcəyi görmək, proqnozlar;

- **tibbi ekstrasensoriya** (ancaq müalicəvi əhəmiyyətli üsulları tətbiq etmək);

- **texniki ekstrasensoriya** (faydalı qazıntıların tapılması, yeraltı suların aşkara çıxarılması, batmış gəmilərin və itmiş xəzinələrin yerinin müəyyənləşdirilməsi, müəssisə və təşkilatlarda iş yerlərinin ağır maqnit cərəyanlarından (energetikadan) təmizlənməsi, kənd təsərrüfatında məhsuldarlığın artırılması, təbii fəlakətlərin qabaqcadan xəbər verilməsi, şəhərsalmada binaların yerinin dəqiqləşdirilməsi və s.;

- **nücum və xirologiya-fizionomistika** (ovucun içindəki və alındakı xətlərə görə adamın xarakterinin, xəstəliyinin müəyyənləşdirilməsi).

Hər gün Azərbaycan xalq biliciləri və ekstrasenslərinin yanına neçə-neçə adam gəlir. Şəfa tapanlar da olur, falına inananlar da, inanmayıb qayıdanlar da. Amma qayğıdan, diqqətdən kənarda qalan olmur. Öz qüvvələrini sınayan ekstrasenslər müraciət edənlərə kömək üçün bacarıqlarını əsirgəmirlər. ...Kəskin ağrıyla müraciət eləyən xəstə ekstrasensdən bioenerji qəbul edir. Anlar bir-birini əvəz etdikcə xəstənin halı yaxşılaşır. Seans başa çatır. Pasiyent qəfildən "kəşf" edir ki, heç bir yeri ağrımır. Möcüzə reallaşır.

**"Yurddaş" qəzeti,**
**27 mart 1991-ci il, səh. 3**

# KÖHNƏ HAMAM, KÖHNƏ TAS

## 20 YANVARDA VƏZİYYƏT NECƏDİR?

**"Ekran-efir" qəzetinin ön sözü:** 20 Yanvar meydanı şəhərimizin şimal qapısıdır. Hərəkətin ən intensiv olduğu yol qovşaqlarından biridir bu meydan. Saatda minlərlə maşının keçdiyi belə bir yerdə son dərəcə dəqiq yol intizamı olmalıdır.

İnsaf xatirinə deyək ki, meydandakı yöndəmsiz köşklər yığışdırılmış, küçə alverinə son qoyulmuşdur. Lakin adı Azərbaycan xalqının qanlı mübarizə tarixinə düşmüş 20 Yanvar meydanı layiq olduğu diqqət və qayğını hələ də görmür. Səkkiz küçənin qovuşduğu bu meydanda elə bir hərəkət hərc-mərcliyi hökm sürür ki, ağır insan tələfatı ilə nəticələnə biləcək qəzaların baş vermədiyinə həm sevinirsən, həm də təəccüblənirsən.

Maraqlıdır, gündə üç-beş maşının keçdiyi bəzi yollarda işıq nizamlayıcısı quraşdırıldığı halda, son dərəcə mürəkkəbliyi ilə seçilən belə bir qovşaqda çox söz-söhbətdən sonra nəhayət, dediyimiz avadanlıq quraşdırıldı. Görünür, bu da gözə kül üfürməkdən başqa bir şey deyilmiş. Çünki bu nizamlayıcı ya həftələrlə işləmir, işləyəndə də daim "Gözlə!" rejimində olur. Nəticədə xüsusilə izdiham saatlarında böyük tıxaclar yaranır.

Respublika Dövlət Yol Polisi İdarəsi işçilərinin yolu hər gün buradan düşür. Ancaq kol dibində, yol döngələrində pusquda durmağa adət etmiş yol polisi nədənsə burada gözə dəymir.

Yol örtüyünün bərbad olduğu, ümumi bir səliqəsizliyin, pintiliyin baş alıb getdiyi 20 Yanvar meydanı bəlkə də bu acı taleyi ona görə yaşayır ki, necə deyərlər, onun iki sahibi vardır. Yəni yolun bir tərəfi Yasamal, digər tərəfi isə Nəsimi rayonunun ərazisi sayılır. Burada deyiblər: iki dayəsi olan uşaq kor qalar.

Yuxarıda qeyd etdiyimiz kimi, ən intensiv hərəkət olan bu küçədə piyadalar sanki sehrbazlıq edir, sürətlə şütüyən maşınların arası ilə bir tərəfdən o tərəfə keçirlər. Bu hal isə heç kimi, hətta yol polisini narahat etmir.

Maraq üçün yolu hardan gəldi vurub keçən bir neçə piyadaya – "Nə üçün yeraltı keçiddən istifadə etmirsiniz?" – sualını verdik. Cavablar olduqca kəskin idi: "Qardaş, o yeraltı keçid dediyiniz cəhənnəm əzabıdır, bizim orada nə işimiz var?!"

Doğrudan da, bu sözlərdə böyük həqiqət vardır. 20 Yanvar metro stansiyasının üstü ilə az da olsa tanış olduq. İndi isə gəlin aşağı düşək, hər şeyi əməkdaşımız **Mənzərə SADIQOVANIN** gözü ilə görək.

Xatırladırıq ki, jurnalist həmkarımızın 20 Yanvar metro stansiyasından hazırladığı süjet bir müddət əvvəl Azərbaycan televiziyasında nümayiş etdirilmişdi. Görəsən, bu müddət ərzində müsbət bir addım atılıbmı?

Təəssüflər olsun ki, yox. Odur ki, həmin süjetin mətnini "Ekran-Efir"in səhifələrinə çıxarmağı qərara aldıq:

**– "Metronun 20 Yanvar stansiyasının keçidlərində şıdırğı alver gedirdi. Ərzaq malları satan kim, mobil telefonuna danışmaq üçün müştəri axtaran kim. Müxtəlif təyinatlı malların – pal-paltar, ayaqqabı, qab-qacaq, cürbəcür məişət əşyalarının satıldığı ticarət obyektləri, piştaxtalar ayaq tutub yeriyirdi. Yeraltı keçiddə yol keçən vətəndaşlar, metroya gələn sərnişinlər əsl labirintə düşür, buranın təyinatına uyğun**

olmayan bazara rast gəlirdilər.

Onu da qeyd edək ki, Bakı metropoliteninin digər stansiyalarında keçidin bir tərəfi zəbt olunduğu halda, 20 Yanvar stansiyasında hər iki tərəf alverçilərin ixtiyarına verilmişdir. Hünər istəyir buradan keçəsən. Adamların sıxlığından yaranan ağır hava şəraiti və antisanitariya keçidi keçilməz edir.

Əlqərəz, çətinliklə yolu başa vurub metro stansiyasına daxil olduq. Məqsədimiz 20 Yanvar stansiyasında faciənin 12-ci ildönümü münasibəti ilə görülən hazırlıq işlərini lentə almaq idi. Stansiyaya keçməyə icazə istəyirdik ki, qəfil təzyiqə məruz qaldıq. Kobud sözlər, nalayiq rəftar, əsəb gərginliyi sovuşanda bəlli oldu ki, stansiyanın rəisi Seyfulla Vəliyev kameramızı görüb bərk narahat olub. Təəccübləndik ki, görəsən, rəis nədən qorxur? Əgər stansiyada hər şey qaydasındadırsa, buradakı ticarət obyektləri hamısı qanuni fəaliyyət göstərirsə, rəis çəkilişə niyə mane olur? Nəhayət, razılıq alıb çəkiliş aparanda gördük ki, 20 Yanvar stansiyasında hələlik 20 Yanvar ab-havası yoxdur. Elə buradaca bir "19 mart terrorizm qurbanlarının xatirə lövhəsi"nə, həlak olanların siyahısına baxdıq, bir alver əlindən tərpənmək mümkün olmayan giriş-çıxışa, keçidə... Düşündük ki, iraq olsun, birdən təhlükə baş versə, camaat necə tərk edər stansiyanı?

Çoxsaylı insan tələfatı ilə nəticələnmiş metroda partlayış kimi ağır hadisəni yaşamış 20 Yanvar stansiyasının rəisi, deyəsən, bu vəziyyəti qaydaya salmaqda acizdir. Ümid qalır Bakı metropoliteninin rəhbərliyinə."

"Ekran-Efir" qəzeti<br>23 mart 2002-ci il, səh.11

# II Bölmə

# SƏNƏT ...
# SƏNƏTKARLAR

# MİLLİ İNCƏSƏNƏTİMİZİN TƏDRİSİ

## RƏSSAMLIQ

**Milli özünəqayıdış, milli dirçəliş bu gün ümumdünyəvi prosesdir. Bütün xalqlar öz kökünə qayıdır, tarixin dolaylarında uzaq düşdüyü ulu ənənələrinə yeni həyat verir, qədim sənətlərini dirçəldir. Hamı çalışır ki, uzun tarixi təkamül prosesində millətinin qazandığı nailiyyətlərin, maddi və mənəvi sərvətlərin bircəsi də unudulmasın, yaddan çıxmasın.**

**Bəs belə bir oyanma, dirçəliş dövründə bizdə vəziyyət necədir? Orta və ali məktəblərimizdə, sənət məktəblərində milli incəsənətimiz necə tədris olunur? Onilliklər boyu Ə.Əzimzadə adına Rəssamlıq məktəbində, M.A.Əliyev adına Azərbaycan Dövlət Universitetində, Azərbaycan İnşaat Mühəndisləri İnstitutunda oxuyan tələbələrə qədim Azərbaycan xalçaçılığı, dünya şöhrətli miniatürümüz, zərif nəqqaşlıq sənətimiz, Əcəmi memarlığı, Sultan Məhəmməd, Əbdül Mömin, Ağa Mirək, Əfşar, Bəhruz Kəngərli, Səttar Bəhlulzadə yaradıcılığı layiqincəmi öyrədilib?**

Bu sualları araşdırmaq üçün sahə müəllimlərinə müraciət etdik. İlk həmsöhbətimiz sənətşünaslıq doktoru, professor Nurəddin Həbibov oldu.

– Nurəddin müəllim, siz uzun illər pedaqoji fəaliyyət göstərmisiniz. İncəsənət tarixi və təsviri sənət fənlərindən dərs demisiniz. Gənc istedadları, necə deyərlər, sənət meydanındakı döyüşə hazırlamısınız. Milli incəsənətimizin tədrisinin hazırki səviyyəsi sizi qane edirmi?

– Xalqımızın zəngin milli incəsənət tarixini öyrənmək və incəsənətimizi təbliğ etmək, onu tədris vasitəsilə gənc nəslə çatdırmaq alimlərimizin, ali və orta məktəb müəllimlərinin ən şərəfli vəzifələrindəndir. Son illər bu sahədə müəyyən iş görülüb. V.İ.Lenin adına APİ-də rəssamlığın tədrisi üzrə kadrlar, Ə.Əzimzadə adına Rəssamlıq məktəbində rəsm müəllimləri hazırlanır. Bununla yanaşı qeyd edək ki, təsviri sənətin tədrisi lazımi səviyyədə qurulmayıb, bu sahədə bir sıra nöqsanlar gözə çarpır. Əvvəla, təsviri sənətimizin tarixini, xalqımızın zəngin bədii mədəniyyətini öyrənmək üçün Azərbaycan dilində dərsliklər yoxdur. Hazırlanan kitabların çapı isə nəşriyyatlarımızda aylarla ləngidilir, nəticədə məktəblərimiz dərs vəsaitlərindən korluq çəkir. Digər tərəfdən, tədris prosesində əsas yükü daşıyan müəllimlərin səviyyəsi və onların bu işə münasibəti də bizi qane etmir. Çox hallarda orta məktəblərdə təsviri sənət fənninə ayrılan saatlar başqa fənn müəllimlərinin dərs yükünü tamamlamaq məqsədilə onlara həvalə olunur. Bunun nəticəsində həmin saatlar səmərəli keçmir. Bu da şagirdlərdə rəsm mədəniyyətinin inkişafına mənfi təsir göstərir. İstərdik ki, məktəblərimizdə rəsm tədrisinə diqqət artırılsın və bu işə peşəkarlıq baxımından hazırlıqlı, istedadlı, əsl pedaqoji qabiliyyətə malik rəssamlar cəlb olunsun. Milli incəsənətimizin tədrisinə uşaq yaşlarından başlamaq çox faydalı olar. Çünki uşaqların incəsənətə marağı, qabiliyyəti erkən aşkara çıxır. Buna görə də rəsm tədrisinə, milli incəsənətimizin öyrədilməsinə ailədə və uşaq bağçalarında başlansa, daha yaxşı olar. Tədris prosesi ardıcıl olmalıdır. Əgər ən kiçik yaşlarından uşaqlar hər hansı sənətə bəslədikləri marağı inkişaf etdirsələr, gələcəkdə bu çox böyük fayda verə bilər.

– Bakıdakı Rəssamlıq məktəbinin, o cümlədən İncəsənət Universitetinin məzunlarından tez-tez eşidirik ki, təhsil prosesində tələbələrə Azərbaycan təsviri sənəti zəif tədris olunur. Avropa sənəti isə dərindən öyrədilir. O da qüdrətli sənət olduğu üçün gəncləri öz təsiri altına alır. Sənət də belədir ki, öz kökünü, milli ənənələrini, qədim mədəniyyətini bilmədən yaxşı sənətkar olmaq, məhz milli simasıyla ümumbəşəri ideyalar təlqin edən əsərlər yaratmaq mümkün olmur. Nəticədə sənətimiz də itirir, sənətkarlarımız da. Bu mənada həmin məktəblərin tədris proqramına münasibətiniz?

– İstər Əzimzadə adına Rəssamlıq məktəbində, istərsə də İncəsənət Universitetində dərs prosesi Ümumittifaq miqyasında (Sovetlər İttifaqı nəzərdə tutulur – M.S.) tutulmuş vahid proqramlara əsasən aparılır. Həmin proqramlarda təsviri sənətin bir fənn kimi tədrisində dünya sənətinin, Avropa incəsənətinin, Şərq və sovet xalqları incəsənətlərinin öyrənilməsi nəzərdə tutulub. "SSRİ xalqları incəsənəti" fənni keçilir ki, bu da ayrı-ayrı respublikaların milli incəsənət tarixinin hərtərəfli, dərindən öyrənilməsini nəzərdə tutmur. Buna görə də yaxşı olardı ki, Azərbaycan İncəsənət Universitetində, Rəssamlıq məktəbində Şərq incəsənəti tarixinin öyrənilməsinə xüsusi əhəmiyyət verilsin və bu fənnə ayrılan saatların miqdarı artırılsın. Arzu edərdim ki, nəinki ali məktəblərimizdə, hətta orta məktəbdə də Azərbaycan incəsənəti tarixinə xüsusi saat ayrılsın və bu dərs müstəqil fənn kimi öyrənilsin.

– Bir halda ki, biz dövlət müstəqilliyini elan etmiş suveren respublikayıq, deməli, elmimizin inkişafı, mədəniyyətimizin təbliğiylə də özümüz məşğul olmalıyıq. Tədris proqramlarını özümüz tərtib etsək, yəqin ki, çatışmazlıqlar aradan qalxar.

– Şübhəsiz, respublikanın suverenliyi həyatımızın bütün sahələrində, o cümlədən, ali və orta təhsil prosesində öz əksini tapacaq. Bu baxımdan bizim dərs proqramlarımızın yenidən nəzərdən keçirilməsinə ehtiyac vardır. Əminik ki, yaxın gələcəkdə Azərbaycan xalqı-

nın bədii mədəniyyətini, zəngin mədəni irsini öyrənmək problemlərinə diqqət xeyli artacaq, dərs prosesində milli mədəniyyətimizin öyrənilməsinə daha geniş yer veriləcək. Bu baxımdan bizim alimlərimiz, müəllimlərimiz müəyyən hazırlıq işləri görməli, dərsliklərin, proqramların, tədris vasitələrinin hazırlanmasında yaxından iştirak etməlidirlər. Məlumdur ki, "SSRİ tarixi" fənni kontekstində ayrı-ayrı respublikaların tarixinə olduqca az yer verilirdi. Eyni vəziyyət incəsənət tarixinin öyrənilməsinə aiddir. "SSRİ xalqları incəsənəti tarixi"nin proqramında Azərbaycan, yaxud Orta Asiya respublikalarına ayrılan saatların miqdarı olduqca azdır. Bu yaxınlarda biz, akademiyanın bir qrup işçisi "Azərbaycan incəsənəti" dərs vəsaitini "İşıq" nəşriyyatına təqdim etmişik. Hal-hazırda çapdadır.

– Kitabın müəllifləri kimlərdir?

– "Azərbaycan incəsənəti" dərs vəsaitini respublika EA-nın müxbir üzvləri Kərim Kərimovla Rasim Əfəndiyev, sənətşünaslıq doktoru Nəsir Rzayev və mən hazırlamışıq. Həmin kitabda xalqımızın çoxəsrlik incəsənətinin zəngin tarixi əksini tapmışdır.

– Şübhəsiz, incəsənətimizin müxtəlif sahələrinə dair dərs vəsaitlərinin hazırlanması çox vacib işdir. Ümid edirik ki, nəşriyyat da həmin kitabların çapını tezləşdirəcək. Amma respublikada milli təsviri sənətimizin inkişafında mühüm rol oynaya biləcək müstəqil Rəssamlıq Akademiyasının yaradılması nədənsə ləngidilir.

– Bu yaxınlarda Bakıda Rəssamlıq Akademiyası yaradılacaq. Hal-hazırda yaradıcı ictimaiyyətimiz həmin akademiyanın açılmasını böyük maraqla gözləyir.

**"Dədəm Qorqud" qəzeti**
**30 oktyabr-5 noyabr 1991-ci il, səh.7**

# MİLLİ İNCƏSƏNƏTİMİZİN TƏDRİSİ

## MEMARLIQ

Böyüklüyümüzə şübhə edirsənsə, ucaltdığımız binalara bax,– deyirik yadlara. Qədim tikililərə, milli memarlıq abidələrimizə baxıb fəxr edirik. Bəs, özümüz sabaha nə qoyub gedirik? Gələcək nəsillər bizi hansı abidələrlə yad edəcək? Ulu memarlıq sənətimizin bu günü və sabahı etibarlı əllərdədirmi? Suallar bizi Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun memarlıq fakültəsinə apardı. Müsahibim memarlıq namizədi, yaradıcı memar Əlibəy Novruzidir.

– Hər bir sənətkarın yetişməsi üçün onun mühiti olmalıdır. Mühit yetişdirir sənətkarları. Əgər biz memarlıq fakültəsinin tədris proqramını götürsək, görərik ki, burada memar yetişdirmək üçün çox cüzi mühit vardır. Tədris prosesində memarlığa lazım olmayan, ümumiyyətlə incəsənətə dəxli olmayan o qədər dərs keçirilir ki... Həmin fənləri öyrənib imtahan vermək tələbələrin bütün vaxtını alır, daha memarlığı öyrənməyə vaxt qalmır. Gəlin, bizim ən böyük ustadımız olan Mikayıl Hüseynovun yaradıcılıq yoluna nəzər salaq, görək bu cür gözəl əsərlər yarada-yarada o fənlərdən istifadə edibdirmi? Əgər bu dərəcədə görkəmli memar öz yaradıcılığında həmin fənlərdən istifadə etməyibdirsə, nəyə lazımdır onların keçilməsi? Bu siyasi fənlərdən

başqa elə texniki fənlər var ki, onlar da memara gərək deyil. Məsələn, konstruksiya dərsi, metalokonstruksiyanın hesablanması. İndiki dövrdə hətta konstruktorlar da bu hesablamanı EHM (Elektron Hesablama Maşını – M.S.) vasitəsilə aparırlar. Biz isə hələ də tələbələrə ibtidai üsulla işləməyi öyrədirik.

– Əlibəy müəllim, siz gələcəyin memarlarına əsasən hansı fənlərin öyrədilməsini vacib sayırsınız?

– Burada əsas fənn memarlıqdır, memarlığın tarixidir, Azərbaycan mədəniyyətidir. Memarlıq incəsənətin bütün sahələriylə vəhdət təşkil edir. Əgər tələbə öz musiqisini, ədəbiyyatını, tarixini, mədəniyyətini bilmirsə, o, necə milli memarlıq əsəri yarada bilər? Bu mənə heç cür aydın deyil. Deməli, yaxşı memar yetişdirmək üçün Azərbaycan ədəbiyyatını, Azərbaycan musiqisini, mədəniyyətini, ümumiyyətlə incəsənətə dəxli olan bütün fənləri öyrətmək lazımdır. Memarın bütün elmlərdən – istər tibb elmindən, istərsə fizikadan, kimyadan xəbəri olmalıdır. Əgər memar xəstəxana layihələndirirsə bilməlidir ki, hansı xəstəlik üçün hansı şərait lazımdır, nə şəkildə otaq lazımdır. Əsl memar bütün elmlərdən agah olmalıdır.

– Fakültənizdə tələbələrə Əcəmi sənəti, qədim Azərbaycan memarlığının sirləri öyrədilirmi?

– Tək Əcəmi sənəti yox, Azərbaycanın Əcəmi kimi görkəmli sənətkarları çox olubdur, onların hamısının öyrənilməsi mən dediyim memarlıq tarixi elminin tərkib hissəsidir. Hal-hazırda memarlıq fakültəsində bu dərsi ətraflı keçirlər. Bir də bərpaçılıq dərsi keçirlər ki, onu da gözəl sənətkar Niyazi müəllim tədris edir. Tədris proqramına daxil edilmiş bərpaçılıq fənni həmin dediyimiz elmlərin öyrənilməsi və qədim abidələrin bərpasıyla əlaqədardır.

– Bərpaçılıqdan söhbət açdınız, yeri gəlmişkən deyək ki, müasir dövrdə aparılan bərpa işləri çox vaxt gözlənilən nəticəni vermir, tarixi abidəni gözəlləşdirmir, ömrünü uzatmır, əksinə korlayır. Bax, bu

qüsuru aradan qaldırmaq üçün sabahın bərpaçısı elə bu gün, parta arxasında ikən hansı dərs və məşğələləri keçməlidir?

– Şəxsən mən məsələni belə qoymaq istəməzdim. Çünki institutda bərpaçılıq dərsi doğrudan da yaxşı öyrədilir. Respublikamızda çox gözəl bərpaçılar var. Əfsuslar olsun ki, bərpa işini görmək üçün vəsait yoxdur, çünki bərpa o qədər böyük vəsait tələb edir ki, hazırda dövlətin buna imkanı yoxdur.

– Sizcə, bu gün milli memar yetişdirmək üçün nə lazımdır bizə?

– Həmin bu institut ki var – İnşaat Mühəndisləri İnstitutunun memarlıq fakültəsi, burada görkəmli memar yetişə bilməyəcək. Çünki institutun tədris proqramı elə qurulub ki, ümumiyyətlə mühəndis yetişməlidir burda, inşaat mühəndisi. Memarlığlı da gətirib inşaat mühəndisliyinə yaxınlaşdırıblar. Yaxşı memar yetişdirmək üçün bu gün bizim yeganə bir yolumuz var ki, respublikada ayrıca memarlıq institutu təşkil olunsun. Əgər müstəqil memarlıq institutu olmasa, İnşaat Mühəndisləri İnstitutunda biz istədiyimiz proqramı həyata keçirə bilməyəcəyik.

– Milli incəsənətimizin sabahkı taleyi bugünkü tədris proqramıyla üzvi surətdə bağlıdır. Atalar demiş: ”Nə tökərsən aşına, o da çıxar qaşığına”.

– Mən tədris proqramının tərtibini orta məktəbdən, lap uşaq bağçasından başlardım. Çünki insan körpəlikdən yetişməyə başlayır. Elə istedadlı uşaqlar var ki, onlar öz istedadlarını büruzə verə bilmirlər. Necə ki, şəkil çəkəndə aşkarlayırsan, eləcə də onları aşkarlamaq, inkişaf etdimək lazımdır. Bizim tədris proqramları nə orta, nə də ali məktəbdə istedadları aşkarlamaq imkanı vermir.

Yenə də deyirəm: ayrıca memarlıq institutu açmaq lazımdır. Və imkan yaratmaq lazımdır ki, tələbələr hamısı xarici ölkələrdə olsunlar, oradakı məktəblərdə təcrübə mübadiləsi keçsinlər, gedib onların

memarlığını, texnikasını öyrənsinlər. İllərlə oxuduğu dərsdənsə, bir dəfə gördüyü tələbənin yaddaşına daha möhkəm həkk olunur, əbədi yazılır. Təcrid olunmuş mühitdə yaxşı sənətkar yetişdirmək mümkün deyil. Biz milli mədəniyyətimizi zənginləşdirmək üçün gərək dünya miqyaslı əsərlərlə tanış olaq.

## TÜRK SƏNƏTİ KONTEKSTİNDƏ

İnşaat Mühəndisləri İnstitutunun dosenti Səyavuş Dadaşov 20 ildir ki, tələbələrə memarlıq nəzəriyyəsindən dərs deyir.

– Ümumiyyətlə, biz bu sualı araşdıranda onun üst laylarından danışırıq. Tutalım ki, bizim fakültə hansısa 2 fənni tədris proqramına saldı, 2 fənni də İncəsənət Universiteti proqrama saldı. Axı, gərək bunlar hamısı nəyəsə bağlansın, bir özülün üstündə olsun, bir ağacın budaqları kimi həmahəng inkişaf eləsin. Bu məsələlərə vahid kontekstdə baxmaq lazımdır. Mən elə başa düşürəm ki, milli sənət milli dillə birlikdə, ümumiyyətlə, bizim təfəkkürümüzü ifadə edən vasitələrdir. Memarlıq, ümumiyyətlə bir mühit kimi bizi özümüzə qaytara bilər və bizi özümüzə yad edə bilər. Çünki həmin mühitdə şəhərin yaşayış evlərindən tutmuş meydana qədər və yaxud müxtəlif mərasimləri əhatə eləyən məscid həyətindən qəbristanadək hamısı bizə məxsus ola da bilər, olmaya da bilər. Qədim şəhərlərin qalmış hissələrində ənənəvi mühitin bizim olduğunu hiss edirik, amma yeni salınan şəhərlərdə onu görməyib əsəbiləşirik. Bizim hissiyyatımız, münasibətlərimiz də yad olur. Beləliklə, millət zəifləyir, onda manqurtlaşma əmələ gəlir. Mənə elə gəlir ki, bu, özül problemlərdən biridir.

– Siz bilən, nədən başlamaq lazımdır, Səyavuş müəllim?

– Mən bilən, müxtəlif ocaqlarda tədqiq və tədris olunan bütün milli sənətlərin inkişaf proqramını hansısa bir yerdə cəm eləməkdən başlamalıyıq. Məsəlçün, Türkiyədə iki dənə Türk Dünyasının Araşdır-

ma Mərkəzi var. O mərkəzlər müxtəlif sənət sahələrində çalışır və əldə olunmuş nailiyyətləri cəmləşdirir. Bu sayaq mərkəz olan yerdə həmin iş daim gedəcək.

– Söhbətimiz maraqlı olsa da, çox çözələndi. Bu da təbiidir. Milli incəsənətimizin ağrılı problemləri çoxdur. İtkilərimiz də böyükdür. Maraqlıdır, görən 20 illik müəllimlik fəaliyyətinizdə siz həmkarlarınızdan nəylə fərqlənmisiniz? Tədris prosesindəki boş xanaları necə doldurmusunuz?

– Mən bu 20 ilin 10 ilini hamı gedən yolla getmişəm. Müəllimliyin ikinci yarısında bu təzə yolu tapmışam. Bu işdə mənə böyük kömək və işıq Xudu müəllimdən (böyük vətəndaş, alim Xudu Məmmədov nəzərdə tutulur – M.S.) gəldi. O mənimçün məsələnin qoyuluşunu müəyyənləşdirdi və yollar göstərdi. Yeni tədris proqramı tərtib etmişik. O proqramda biz bütün nəzəriyyəni öz milli sənətimiz üzərində öyrənirik. Neçə illərdir mən müəllim işləyirəm. Heç görməmişdim ki, sənəti tələbəyə öyrədəsən və tələbə səndən yaxşı iş hazırlaya. Amma öz sənət dilimizi tələbəyə öyrədən kimi, elə bir qeyri-adi vəziyyət əmələ gəldi ki, heyrət etdik. Deməli, bizdə bir il nəzəriyyəni öyrədirik, ikinci il kompozisiyalar tərtib etməyə başlayırıq. Həmin bir ilin ərzində milli sənəti öyrənən tələbələrin bir hissəsi ikinci il məndən güclü, əsər səviyyəsində işlər hazırladılar. Bu məqamda mən ilahi hikməti başa düşdüm ki, deməli, adam öz dilində danışanda, minilliklərlə bir yerdə danışır. Bu çox vacib məsələdir. İndiki halda auditoriyada adam özünü xoşbəxt hiss edir, çünki bu yolda nailiyyətlər çoxdur, perspektiv ümidvericidir.

Qədim Güntəkin abidəsində deyilir: "Ey türk, özünə qayıt, sən özünə dönəndə böyük olursan". Bu əzəmətli fikir öz fəciliyi, dramatikliyi ilə insanı sarsıdır. Gərək neçə dəfə tarixin dolaylarında özünü tapıb-itirəsən ki, bu qənaətə gələsən. Əziz oxucular, milli incəsənətimizin tədrisindən ona görə söhbət açdıq ki, köklərimizə yadırğamağımızda tədrisin düzgün qurulmaması mühüm rol oynayıb.

Ulu və qüdrətli sənət ənənələrimizdən uzaq düşmüşük. Cənuba- şimala parçalanmışıq. Sözsüz ki, milli incəsənətimizin tədrisiylə bağlı bütün problemləri bir yazıda araşdırıb, bütün suallara cavab tapmaq mümkün deyil. Təbii ki, problemin həlliylə bağlı müxtəlif nöqteyi-nəzərlər var: dərsliklərin olmaması, müvafiq fənlərin tədris edilməməsi, müstəqil ali təhsil ocaqlarına olan ehtiyac, mədəniyyətimizin yabançı təsirlər altına düşməsi, ənənəvi sənətlərimizin zəif təbliği, dünya təcrübəsindən istifadə etməməyimiz və s. Amma başlıca məsələ qanımıza hopmuş, təfəkkürümüzdən süzülüb gələn milli xüsusiyyətləri yaşatmaqdır. Bir çox görkəmli müasir sənətkarlarımızın yaradıcılığında olduğu kimi, dünya bizi öz donumuzda daha yaxşı qəbul edib, öz simamızda daha dərin dərk edər.

**"Dədəm Qorqud" qəzeti**
**20-27 noyabr 1991-ci il, səh. 6**

# "MOZALAN"A SƏYAHƏT

Respublika satirik kinojurnalı ömünün ən qaynar çağına qədəm qoyub. 21 illik ömründə saysız-hesabsız ağrılı problemlərimizi tənqid hədəfinə çevirmiş, tamaşaçılarımıza ürək dolusu gülüş bəxş etmiş "Mozalan" get-gedə neştərini daha da itiləyir. Axı, yenidənqurma dövründə cəmiyyətimizdəki naqisliklər aradan qalxmaq əvəzinə daha da dərinləşib, mənəvi eybəcərliklərin sayı artıb...

Bu başdan deyək ki, həmişə düzü-düz, əyrini-əyri göstərən "Mozalan" bu gün sayı-hesabı bilinməyən problemlərlə mübarizə cəbhəsində təkbətək qalıb. Çünki tənqidə geniş meydan verildiyi son illərdə tənqid özü kəsərdən düşüb. Qəribə ziddiyyətdir, eləmi? Satirik kinojurnalın yaradıcı heyətilə söhbətlərimizdə kollektiv üzvləri bu məsələyə dönə-dönə toxundular.

"Mozalan"ın baş redaktoru Ziyafət Abbasov dedi:

**– Durğunluq dövrü adlandırdığımız illərdə indiki sərbəstlik yox idi, "Mozalan" tənqid hədəfini yüz dəfə götür-qoy etməli olurdu. Amma elə ki, nömrə ekrana çıxdı, vay tənqid olunanın halına, süjetlər dərhal "yuxarılarda" müzakirə olunur və ölçü götürülürdü. Bəzən tənqiddən yayınma, sözdə vəd edib işdə boyunqaçırma halları olurdusa da, bu hal indiki kimi kütləvi xarakter daşımırdı. 1979-cu ildən Azərbaycan KP MK "Mozalan" satirik jurnalının tənqidi çıxışlarına respublikanın bəzi nazirliklərinin və baş idarələrinin yanlış münasi-**

**bəti haqqında hətta qərar qəbul etmişdi. İndi isə belə diqqətdən məhrumuq. 21 illik fəaliyyəti boyunca az qala çəkdiyi hər süjetdə laqeydliyə qarşı mübarizə aparan "Mozalan" yəqin ki, özünə qarşı laqeydliyi də cavabsız qoymayacaq.**

**Düzdür, tənqidimizdən nəticə çıxaranlar da var: hardasa yollar abadlaşdırılır, qaz kəməri çəkilir. Amma köklü məsələlərdə dəyişiklik sezilmir, görünür bu, bütövlükdə ölkənin hazırki ictimai-siyasi vəziyyətilə bağlıdır.**

**Daha bir çətinliyimiz ölkənin bazar iqtisadiyyatına keçməsilə əlaqədardır. Deməli, indiyəcən hər nömrənin istehsalı üçün dövlət "Mozalan"a 26 min manat pul buraxırdı. İndi isə xidmət qiymətlərinin bahalaşmasına baxmayaraq, bizə ayrılan maddi vəsait elə "qal oğlu qaldır" ki, var. Təzə smeta tutmuşuq, yeni qiymətlər şəraitində bir nömrənin istehsalı 40 min manata başa gələcək. Yəqin ki, respublikanın əlaqədar təşkilatları "Mozalan"ın bu problemini həll edəcəklər. Amma yaxşı olardı ki, kinoteatrlarda "Mozalan" kinojurnalının göstərilməsinə qiymət qoyulsun. Belədə biz müəyyən qədər gəlir götürə bilərik ki, bu da maddi problemlərimizin həllinə qismən də olsa kömək edər.**

"Mozalan"ın bədii rəhbəri rejissor Ceyhun Mirzəyevin dediklərindən:

**– Hətta bir ara bizdə belə fikir yarandı ki, görünür satiraya daha ehtiyac yoxdur, keçək yumoreskaya, yumoristik süjetlər çəkək. Lakin həyat göstərdi ki, satira hələ xeyli yaşayacaq, həmişə lazım olacaq!**

"Mozalan"ın əməkdaşlarında duyduğumuz yaradıcılıq əzmi bizi sevindirdi. Son yarım ilin məhsulu olan 150, 151, 152, 153-cü nömrələrin süjetləri qənaətimizi daha da möhkəmləndirdi. Cəsarətli və kəskin çıxışlarıyla həyatımızdakı çatışmazlıqları tənqid atəşinə tutan

"Mozalan" "Qonşuya ümid olan..." sənədli süjetində ötən ilin payızında şüşə balonların çatışmazlığı ucbatından respublika meyvə-tərəvəz emalı zavodlarının düşdüyü çətin vəziyyəti lentə alıb. Min bir zəhmət bahasına hasilə gətirilmiş süfrə nemətlərinin anbarlarda qalıb xarab olmasına, konservləşdirilə bilməməsinə səbəb isə şüşə taraların qonşu respublikalardan alınmasıdır. Doğrudan da, görəsən xalq təsərrüfatı üçün bu qədər gərəkli olan şüşə balonları niyə özümüz istehsal etmirik?

Dövlətin cibini öz cibiylə dəyişik salan, müdir fondundan şəxsi mənafeyi üçün istifadə edən müdirlər. "Gedərsən bizə..." bədii süjetində bu yaramazların qanunsuz əməlləri satira qamçısıyla qamçılanır.

"Vəssalam- şüttamam", "Subaylarınızdan görəsiniz" süjetlərində isə ticarət mallarının qıtlığı, çoxçeşidli məişət əşyalarının piştaxtalardan qəhətə çəkilməsi nəticəsində həyatımızda təzahür edən xoşagəlməz hallar duzlu-yumorlu kadrlarla göstərilir.

"Mozalan" yalnız həyatımızdakı neqativ halları üzə çıxarıb qamçılamaqla kifayətlənmir, o həm də bu halların sosial-ictimai köklərini araşdırıb üzə çıxarır. Elə bu günlərdə ekrana çıxacaq 153-cü nömrənin süjetləri bu baxımdan çox xarakterikdir. Respublikada ət məhsulları qıtlığı hamını narahat edir. Gileylənəndə də heyvandarları qınayırıq. Bəs, əslində vəziyyət necədir? Respublikada heyvandarlığın inkişafına mane olan amillər hansılardır? "O yox, bu yox, tələb çox" sənədli süjetində yaradıcı heyət bu sahədəki naqisliklərin kökünü açıb göstərir. Heyvandarlara heç bir qayğının olmadığı, sahənin inkişafı üçün bir sıra zəruri amillərin çatışmadığı şəraitdə hansı tərəqqidən söz açmaq olar? Yaxud dədə-babadan balıqçılıqla məşğul olmuş Xəzərətrafı yaşayış məskənlərinin balıqçıları bu gün niyə brakonyer adlanır? Nömrənin "Brakonyer, yoxsa balıqçı?" süjetində balıqçılıq sahəsində vaxtı ötmüş rəsmiyyətçilik tənqid olunur. Bütün bu bəlaların kökü isə illərlə sosialist təsərrüfatının düzgün planlaşdırılmamasından irəli gəlir.

“Bir məktubun izi ilə”. V.Hümbətoğlunun qələmə aldığı bu süjetdə Masallı rayonunun bir çox kəndlərində qazlaşdırma işinin ləng aparılması tənqid olunur. Bu dərddə olan təkcə Masallı kəndliləridirmi? Rejissor C.Mirzəyevin Qutqaşen, Qax və Zaqatala rayonlarında çəkdiyi “Məsuliyyətsizlik” sənədli süjetində isə həmin rayonlarda bir sıra mühüm sosial obyektlərin tikintisinin illərdən bəri yubadılmasından söhbət açılır. Məncə, bu problem də respublikanın əksər rayonları üçün xarakterikdir.

Mövqeyinin obyektivliyi və hədəfi sərrast nişan almasıyla öz simasını qoruyub saxlamaq əzmindədir “Mozalan”. O, Azərbaycanda yaranmış ağır ekoloji vəziyyəti də diqqət mərkəzində saxlayır. Vaxtaşırı çəkdiyi sanballı tənqidi süjetlərilə həyəcan təbili çalır. Vaxtilə lentə aldığı Sumqayıtın ekoloji faciəsinə həsr olunmuş “SOS” adlı xüsusi buraxılış, Abşeron torpağının taleyindən danışan “İnsan və torpaq” filmi “Mozalan”ın uğurlarındandır. Bu gün o, “Dəyirman öz işindədir” sənədli süjetini çəkməklə bir daha qara qızılın qara izlərindən – neft sənayesinin Azərbaycan torpağına, ekologiyasına vurduğu ziyandan söhbət açır. Rejissor N.Feyzullayevlə operator R.Quliyevin sənətkarlıqla lentə aldıqları kadrlar süjetin bədii-estetik dəyərini qat-qat artırır.

“Mozalan”ın hər nömrəsi cəmiyyətimizdəki yaman şişlərə tuşlanmış cərrah bıçağıdır. Satirik kinojurnalın cəsarətli, kəskin çıxışları tamaşaçıların ürəyindən xəbər verir. Həqiqətin və obyektiv tənqidin yollarında inamla irəliləyən “Mozalan” ancaq faktları lentə alıb həyatımızdakı naqisliklləri tamaşaçıya çatdırmaqla kifayətlənmir. O, fəaliyyətinin real nəticəsini öyrənmək üçün “Mozalan”ın izi ilə” gedir. Tənqidi çıxışı səmərəsiz qalanda ikinci, bəzən üçüncü dəfə eyni məsələyə qayıdır. “Müalicə” başa çatmamış neştərini qınına çəkmir. Şirniyyat məhsullarının keyfiyyətsizliyindən bəhs edən “Növbənöv”, şəhərlərimizdə salınan yeni yaşayış məhəllələrində uşaq meydançaları və qocalar üçün istirahət guşələrinin göbələk kimi artan qarajlar tə-

rəfindən zəbt olunmasına dair çəkilmiş "Üstü bəzək", yollarımızın bərbad vəziyyətini tənqid edən "Qızaran kim olmalıdır", Bakıda əhaliyə telefon xidmətinin dözülməz vəziyyətini satirik gülüşlə təqdim edən "Telefon macəraları" və digər süjetlərdə olduğu kimi. Günün hadisələrinə fəal müdaxilə edən "Mozalan" vaxtilə Qobustanda açılmış daş karxanasının bağlanmasına nail olub. Bununla da xalqımızın tarixində ən böyük, xeyirxah işini görüb.

Bir məsələni də oxucularımızın nəzərinə çatdırmaq istərdik: yeni iş qaydasıyla əlaqədar olaraq indi "Mozalan" sifarişlə də film çəkir. "Qara qızılın qara üzü". Dəniz neftçilərinin ağır iş şəraiti və sosial qayğılarından bəhs edən bu filmi yaradıcı heyət Neft və Qaz Sənayesi Həmkarlar Təşkilatının sifarişilə çəkmişdir. Belə ki, ehtiyac olanda "Mozalan"ın köməyinə müraciət edə bilərsiniz.

Milli kino publisistikamızın maraqlı forması olan "Mozalan" ilk öncə yaradıcılıq ocağıdır. Onun hər bir nömrəsi sənət əsəridir. Bəs bu sənət ocağının odunu-alovunu gur yandıranlar, cəmisi onca dəqiqə ərzində tamaşaçını bir dünya mətləbdən hali edənlər kimlərdir? Gəlin onlarla tanış olaq, əziz yurddaşlarımız. "Mozalan" elə bir kinojurnaldır ki, onun süjetləri adi bir lətifədən, bəzən bircə kəlməlik atmacadan belə yarana bilir. Ssenari yazandan böyük, ciddi problemləri də yığcam və lakonik şəkildə qələmə almaq məharəti tələb olunur. Bu gün qulağı səsdə, qəlbi soraqda olan məharətli qələm sahibləri arasında hamımızın yaxşı tanıdığımız Abbas Abdulla, Ramiz Rövşən, Sirus, Eldəniz, Akif Məhərrəmov, Asim Cəlilov və başqaları "Mozalan"ın fəal müəllifləridir. Onların qələmə aldıqları sənədli və bədii süjetləri rejissorlar Rasim Ocaqov, Oqtay Mirqasımov, Cəmil Quliyev, Vaqif Mustafayev və Ceyhun Mirzəyev lentə alır. Süjetlərin bədii cəhətdən kamil sənət əsəri olmasında sevimli aktyorlarımız Nəsibə Zeynalovanın, Yaşar Nuriyevin, Səyavuş Aslanın, İlham Əhmədovun, Afaq Bəşirqızının, Muxtar Məmmədovun, İsmayıl Hacıyevin, Arif Quliyevin, gənc aktrisalar Nuriyyə Əhmədovanın və Kübra Dadaşovanın zəhməti

çoxdur. 21 illik fəaliyyəti boyunca "Mozalan"ın yetirdiyi rejissorlar arasında istedadlı gənc rejissorumuz Vaqif Mustafayev də vardır. Tanınmış sənətkarlarımız Şahmar Ələkbərovla Rasim Balayev vaxtilə "Mozalan"ın aparıcı diktorları olublar. Həsənağa Turabov, Həsən Məmmədov, mərhum sənətkarımız Hamlet Xanızadə kimi dramatik aktyorlar belə "Mozalan"da həvəslə çəkilib, yaddaqalan obrazlar yaradıblar. "Mozalan"ın hər nömrəsinin araya-ərsəyə gəlməsində operatorlar Vaqif Muradovla Amin Novruzovun, səs operatoru Əsəd Əsədovun, rəssamlar Fikrət Ələkbərovla Xanhəsən Mirzəyevin, çəkiliş qrupunun direktoru Şamil Süleymanovun, baş redaktorun müavini Əlfi Şükürovun, kadr arxasında qalan onlarca adamın zəhməti böyükdür. İldə 10 dəfə ekrana çıxan kinojurnal bu ildən ayda bir nömrə istehsal olunur. İstərdik, bu say artımıyla yanaşı "Mozalan"ın siqləti də artsın, qaldırdığı problemlər daha sanballı olsun. "Mozalan"a, onun yaradıcı heyətinə arzumuz budur: tapıntılarınız maraqlı, çıxışlarınız kəsərli, neştəriniz daha iti olsun.

**"Yurddaş" qəzeti**
**1 may 1991-ci il, səh.7**

# LENTLƏRDƏ YAŞAYAN TARİX

**Ədəbiyyat və incəsənət dövrün ən mühüm hadisələrini, zamanın ruhunu özündə ehtiva edir. Xalqın keçdiyi inkişaf yolunu izləmək, ölkənin tərəqqi və tənəzzülünü göstərmək baxımından xüsusilə sənədli kino çox qiymətlidir. Bir şərtlə ki, filmlər xalqın taleyi baxımından lentə alına. Ürək yanğısıyla yaradıla. Həyat həqiqətinə sadiq qala.**

**Təəssüf ki, onilliklər boyu milli kinematoqrafiyamız sənədli film yaradıcılığına "sovet meyarı" ilə yanaşıb. Bu ad altında ancaq qurultaylar, sessiyalar, rəsmi şəxslərin səfərləri, yubiley tədbirləri və bir də məhsul bayramları lentə alınıb. Xalqın real həyat tərzi, bugünü isə unudulub. Nəticədə dünənindən bixəbər nəsillər yetişib. Neçə-neçə xalq yaddaşsız olub...**

**Üç ildir ki, doğma Azərbaycanımız tarixi sınaq günləri yaşayır. Qələm sahiblərimiz, incəsənət ustalarımız bu günlərin hadisələrindən də yan keçsələr, tarix bizi bağışlamaz. Çünki yaddaşsız xalqın gələcəyi yoxdur. Bizi C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasına aparan da bu nigarançılıq, bu düşüncələr oldu. Sənədli-xronikal filmlər istehsalat-yaradıcılıq birliyində olduq. 38 ildən bəri bu birliyə rəhbərlik edən Fəraməz Səfiyevlə görüşdük. O dedi:**

– Azərbaycanda sənədli kino 20-ci illərdən fəaliyyət göstərir. İl-

kin dövrlərdə respublikamızda sənədli kino ustalarına böyük ehtiyac olmuşdur. Bu janrda film çəkmək üçün hətta Moskvadan, Leninqraddan mütəxəssislər dəvət edirmişlər. 20-30-40-cı illərdə xronika şöbəsi (1965-ci ilədək birlik belə adlanmışdır – M.S.) ancaq kinojurnallar çəkmişdir. Bir qayda olaraq ildə 40 kinojurnal istehsal edilmişdir: "Sovet Azərbaycanı", "İdman", "Gənc nəsil" xronikaları. 50-ci illərin ikinci yarısından bu sıraya "İncəsənət" adlanan kinojurnallar da əlavə edildi.

Həyat inkişaf etdikcə, zaman dəyişdikcə kinostudiyanın rəhbərliyi də, yaradıcı kollektiv də hiss etdi ki, bu jurnallara ehtiyac yoxdur. Çünki telestudiya fəaliyyət göstərəndən sonra biz bir növ həyatla ayaqlaşa bilmirdik. Belə ki, televiziyada bu gün göstərilən hadisələri biz 2-3 aydan sonra ekranlara buraxırdıq. Bu da tamaşaçı üçün maraqsız olurdu. Ona görə də işimizin yönümünü dəyişdik. Həmin xronikal jurnalları sənədli filmlərlə, kinooçerklərlə əvəz etdik. 1965-ci ildə "Azərbaycanfilm"in rəhbərliyi dəyişdi. Tanınmış sənətkarımız, mərhum Adil İsgəndərov kinostudiyaya direktor təyin olundu. A.İsgəndərovun təşəbbüsü ilə xronikanın adı da dəyişdirilərək sənədli-xronikal, elmi-kütləvi və tədris filmləri yaradıcılıq birliyi oldu. Məsələ təkcə adda deyil, əslində işimizin mahiyyəti dəyişdi. Fəaliyyət dairəmiz genişləndi. Əgər bayaqdan ildə cəmisi 5-6 sənədli film çəkirdiksə, bundan sonra onların sayı 20-25-ə çatdı.

1988-ci ildə bütün ölkədə kino sahəsində böyük bir dəyişiklik baş verdi. Şübhəsiz, bu, "Azərbaycanfilm"ə təsirsiz qala bilməzdi. Biz sənədli filmlər birliyi nəzdində üç yaradıcılıq birliyi – "Rakurs", "Salnamə" və "Yaddaş" birliklərini təşkil etdik. "Rakurs"un bədii rəhbəri istedadlı rejissor Teymur Bəkirzadədir. "Salnamə"yə respublika Dövlət mükafatı laureatı, rejissor Xamis Muradov, "Yaddaş" yaradıcılıq birliyinə isə əməkdar incəsənət xadimi, tanınmış operator-rejissor Zaur Məhərrəmov rəhbərlik edir. Bu üç yaradıcılıq birliyi fəaliyyətə başladıqdan sonra işimizdə əsaslı irəliləyiş baş vermişdir.

**– Fəraməz müəllim, son üç ildə respublikamız və xalqımız ağır günlər yaşayır. Bu günlərin hər biri tarixdir. Erməni quldurlarının əli ilə torpağımızda az qala hər gün qan tökülür, millətimizin qeyrətli oğul və qızları, günahsız körpələri, qocaları qurban gedir. Bu günlərin hadisələri lentə alınırmı? Axı, biz tarixin məharətlə saxtalaşdırıldığı bir ölkədə yaşayırıq (bunu ölkə prezidenti də açıq etiraf edir, özü də ən yüksək tribunalardan). Çox ola bilsin ki, bir neçə ildən sonra qonşularımızın bizə qarşı təcavüzkarlığını qəti surətdə danalar. Və biz bunu heç vəchlə sübut edə bilməyək. Çünki bu günün özündə belə dünya ictimaiyyəti bu hadisələrdən lazımi səviyyədə xəbərdar deyildir.**

– Son üç ilin hadisələri doğrudan da, unudulmaz tarixdir. Erməni quldurlarının basqınlarını, onların törətdikləri vəhşiliklərin nəticələrini biz əsasən lentə almışıq. Respublikanın Ermənistanla həmsərhəd rayonlarında baş verən hadisələrin elə bir qaynar nöqtəsi olmayıb ki, bizim kollektivin əməkdaşları oraya getməsinlər. Xamis Muradovun rəhbərliyi altında bizim kino işçiləri opertaiv surətdə hadisə yerlərində çəkilişə başlayırlar. Bu dəhşətli hadisələri əks etdirən lentlərdən təsirli bir salnamə yaratmışıq. Vaxt gələcək ki, bu dəyərli materiallardan elə filmlər yaradacağıq ki, o filmlər əyani vasitə kimi əsl cinayətkarları ittiham edəcəkdir. Hələlik o lentlər kinostudiyamızın arxivində, filmotekalarda saxlanılır.

**– Dövrün salnaməsi öz əksini sənədli filmlərdə tapır. Amma bu gün biz kinostudiyanın arxivlərinə, filmotekalara üz tutanda son 70 ildə keçdiyimiz yolu bütün çalarları ilə, olduğu kimi, real işıqlandıran çox az sənədli filmə rast gəlirik. Bax, elə bu mənada deyirik ki, sizin yaradıcılıq birliyi əməkdaşlarının borcu xalqın səsinə səs verməkdir. Yalnız sərhədboyu rayonlarda baş verən hadisələri yox, respublikada üç ildən bəri didərgin vəziyyətində yaşayan qaçqınların taleyini,**

**ekoloji tarazlığın pozulması nəticəsində cürbəcür bəlalara düçar olmuş insanların və təbiətin faciəsini, 70 ildə ölkədə yürüdülən yanlış sosial-iqtisadi siyasət nəticəsində kimsəsiz qalmış kəndlərimizin dərdini, dünyanı neftlə təmin etmiş Xəzərin faciəsini, Abşeron torpağının harayını çəkib bütün dünyaya göstərmək lazımdır.**

– Bilirsiniz, istədiyimizlə imkanlarımız arasında həmişə kəskin fərq olub. Ürəyimiz istəyəni çəkə bilməmişik. Son dövrlərə qədər salnamə filmləri yalnız hadisə xarakterli materiallarla doldurulurdu. İndi-indi imkanlarımız genişlənib, bir az əl-qol açmağa imkan yaranıb. Son illər "Salnamə" yaradıcılıq birliyində ekoloji gərginliyə həsr olunmuş iki gözəl film çəkilibdir – "Ölü zona" və "Uşaqlar təqsirləndirirlər". Hər iki filmin rejissoru Rauf Nağıyevdir. Tamaşaçıların əksəriyyətinə bu filmlər yaxşı tanışdır. "Rakurs"un yaradıcı kollektivi "Xəzərin dərdi" adlı beş hissəli kinofilm çəkib, keçən ildən Ümumittifaq miqyasında (Sovetlər İttifaqı nəzərdə tutulur – M.S.) ekranlara buraxmışdır. Siz deyən ağrılar elə bu lentdə öz əksini tapmışdır. Film sözün əsl mənasında ittiham aktı kimi səslənir. "Talış meşələri-yurdumuzun zümrüd tacı" filmi də ekoloji tarazlığın pozulmasına həsr olunmuşdur.

İctimai-siyasi həyatımızla bağlı maraqlı filmlərimiz vardır. Rejissorlar X.Muradovla R.Əliyevin operator K.Məmmədovla birgə çəkdikləri "Şəhidlərdən-şəhidlərə" filmi yanvar faciəsini yaşamış Azərbaycan oğul-qızlarının gürcü qardaşlarıyla həmrəyliyini qabarıq şəkildə nəzərə çarpdırır.

Rejissor–operator Nizami Abbasov 1989-cu ilin dekabrında Naxçıvan–İran sərhədində baş verən hadisələri əks etdirən bir hissəli "Sərhəd" filmini çəkibdir. Bu filmdə öz qan qardaşlarına qovuşmaq istəyən Naxçıvan camaatının sərhəd dərdlərindən bəhs olunur.

**– Bu il tamaşaçılara hansı filmləri təqdim edəcəksiniz?**

– Sənədli kino ustalarımız hazırda bir neçə filmin çəkilişiylə

məşğuldurlar. "70 yaşlı ali məktəb" adlı tammetrajlı film V.İ.Lenin adına APİ-dən bəhs edir (rejissorlar X.Muradov və T.Məmmədov, operatorlar T.Sultanov və E.Ağayevdir). Beş hissəli "Ziyarət" filmi, zənnimcə, tamaşaçılarımızın ürəyincə olacaqdır. SSRİ Kinematoqrafçılar İttifaqının sifarişiylə rejissorumuz Yavər Rzayev tammetrajlı bir film çəkir. "Fövqəl dünya" adlandırdığımız bu filmin çox maraqlı ssenarisi vardır. Azərbaycan Demokratik Respublikasının yaranmasına həsr olunmuş "İstiqlal yolunda" filmi də istehsalatdadır. Adlarını sadaladığımız bu filmlərin çəkilişi təxminən 6-7 ay çəkəcəkdir. Hazırda Ağdam rayonu aqrar-sənaye birliyinin işindən söhbət açan "Birliyin nemətləri" filmi üzərində iş başa çatmaqdadır. Filmi yaxın vaxtlarda ekrana buraxacağıq.

Yaxşı ki, dövrün mühüm hadisələri nəhayət ki, lentə alınır. Amma bu hələ işin yarısıdır. İndi bütün dünya ictimaiyyətinin diqqət mərkəzində olan Azərbaycan həmin sənədli filmləri dünya miqyasında nümayiş etdirməlidir. Halbuki adlarını sadaladığımız filmləri heç özümüzünkülərin çoxu görməyibdir. 1988-ci ilin tarixi noyabr-dekabr hadisələrinə həsr olunmuş "Meydan" filmi çox yerlərdə göstərilsə də, indiyədək ekran üzü görməyibdir. Azərbaycan haqqında həqiqəti aşkarlayan "Azadlığa gedən yollar"ın (rejissoru Xamis Muradovdur) ekran taleyi bu günədək həll edilməyibdir. 1990-cı ilin yanvar hadisələrini əks etdirən dəhşətli kinokadrlar da eləcə.

Görəsən, Bakıdakı qanlı qırğını ifşa edən videolentlər olmasaydı, bizə kim inanardı?! Ona görə müdrik babalar deyib ki, yüz dəfə eşitməkdənsə, bir dəfə görmək yaxşıdır.

**"Yurddaş" qəzeti**
**22 yanvar 1991-ci il, səh.7**

# SƏHNƏMİZİN ƏRƏBZƏNGİSİ

Hər tamaşa axşamı opera teatrındakı lojasında oturub səhnədəki hadisələri dərin həyəcanla izləyir. Ürək döyüntüsü ilə gənc ifaçıların yaratdığı Leyli, Məcnun, Əsli, Kərəm, Şahsənəm, Qərib, Ərəbzəngi, Şah İsmayıl...rollarına tamaşa edir. Yetirmələrinin uğuruna şadlanır. Tamaşadan sonra sərv qamətini bir az da şax tutaraq evə qayıdır. Yaradıcılığı opera müğənniləri üçün məktəbə çevrilmiş bu sənət fədaisi respublikanın xalq artisti Gülxar Həsənovadır. O, bu gün də M.F.Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının həyatında yaxından iştirak edir. Bu, hər sənətkara nəsib olan xoşbəxtlik deyil. Keşməkeşli həyat yolu min bir tellə səhnəyə bağlı olan Gülxar xanım Həsənova opera teatrında kimləri görməyib? Tale onu bu sənət ocağında kimlərlə rastlaşdırmayıb? Qocaman sənətkar danışdıqca yaddaşına heyran qalıram. Xoş avazı, şirin səsi xəyalımı qanadına alıb illərin o tayına aparır. Müsahibimin maraqlı söhbətləri məni xalqımızın sənət korifeyləri ilə görüşdürür.

## ÖMRÜM BOYU ÜZEYİRƏ BORCLUYAM

Müharibənin birinci ili idi. Üzeyir bəy opera üçün gənc qadın ifaçı axtarırdı. Həqiqət xanım artıq yaşa dolmuşdu. Filarmoniyada Üzeyir bəy, Mirzə İbrahimov və Ağasəlim Manaflı səsimə qulaq asdılar. Mənə "Bayatı-Şiraz" oxutdular. Üzeyir bəy səsimi bəyəndi. Dedi ki, qızım, sənin gözəl səsin var, özün də gəncsən. İstəyirəm səni operaya

aparım. Beləliklə, məni opera teatrına göndərdilər. İlk rolum “Əsli və Kərəm” tamaşasında Əsli obrazı oldu. Tərəf-müqabilim Əlövsət Sadıqov idi. İlk tamaşama Üzeyir bəy də gəlmişdi. Fasilədə məni yanına çağırtdırdı. Həyəcanlandım ki, yəqin səhv oxumuşam. Ürəyim döyünə-döyünə yuxarı lojaya getdim. Üzeyir bəy əvvəl məni təriflədi:

– Sağ ol, qızım, yaxşı oxudun. –Sonra isə əlini başıma çəkib dedi ki, ay İsmayıl, yaxşı, bu xəzinədar kişinin xəzinəsində yəni heç nə yox idi ki, onun qızı bu görkəmdə çıxıb səhnəyə?.. Xorda oxuyanların hamısının yaxası bər-bəzəklə doludur. Bəs, Əsli niyə belə yoxsul geyinib?..

O zaman İsmayıl Hidayətzadə opera teatrının direktoru və baş rejissoru idi. Üzeyir bəy belə deyəndə o sanki yuxudaydı, ayıldı. Məlum oldu ki, Əslinin bər-bəzəyi Həqiqət xanımdadır. O da İranda olduğu üçün yeşik bağlıdır. Həmin vaxt Həqiqət Rzayeva  Hüseynağa Hacıbababəyov və Qurban Pirimovla birgə İrandakı sovet əsgərləri üçün konsert verməyə getmişdilər. Bu hadisədən sonra İsmayıl Hidayətzadə evdən özünə məxsus bəzək əşyalarını gətirib mənə bağışladı. O, vaxtilə gözəl aktyor olmuşdu. Yaqo rolunu (“Otello”da) oynayarkən taxdığı göy qaşlı gözəl gümüş yaxalığı mənə hədiyyə etdi. Üzeyir bəyin arvadı Məleykə xanım da mənə bir cüt qolbaq bağışladı.

**Haşiyə:** Gülxar xanımın simasında opera teatrı gənc və gözəl istedad tapdı. Gülxar özü də bu sənət ocağını sevdi, səhnəyə qəlbən bağlandı. Və teatrın şərəfini hər şeydən üstün tutdu. Günlərin birində tamaşanı xilas etmək üçün gözüyaşlı səhnəyə çıxıb Leylini oynamalı oldu. Həmin gün o, müharibənin əjdaha kimi udduğu qardaşı Nazimin qara kağızını almışdı.

– O gün Leylini Həqiqət xanım oynamalıydı. Tamaşa başlanhabaşlanda  inzibatçı Hüseynqulu Rzayev (Həqiqət xanımın qaynı idi) gəldi ki, bəs Həqiqət xəstələnib, Leylini sən oynamalısan. Biletlər tam satılıb, tamaşanı saxlaya bilmərik. Evimizdə ağlaşma olsa da baldızım

dedi ki, özünü ələ al, dur get. Yoxsa, operadan da əlin üzülsə, bu familiya ilə (biz Sultanovlar nəslindənik, atam 37-də xalq düşməni kimi həbs olunmuş Həmid Sultanovla əminəvəsi idi, familiyama görə həmin il məni tibb institutundan xaric etmişdilər, sonralar təqibdən yaxa qurtarmaqçün babamın adını özümə familiya götürdüm) hara gedəcəksən?! Naçar durub teatra getdim.

Həmin gün rolumu oynayarkən səhnədə özümü son dərəcə bədbəxt, kimsəsiz, talesiz hiss edirdim. Leylinin ölüm səhnəsini elə fəryadla oxudum ki, bütün salon hıçqırıb ağladı. Sonra qəşş elədim. Bu, rolda da var, amma mən həqiqətən huşumu itirmişdim. Yenə fasilədə məni yuxarı lojaya çağırdılar. Üzeyir bəy dedi: –Qızım, çox gözəl oynadın. Ancaq belə olmaz. Ağlaya-ağlaya, hönkürə- hönkürə oxusan, səsin tez bir zamanda korlanar.

O, hadisədən xəbərsiz idi. İsmayıl müəllim əhvalatı danışdı. Üzeyir bəy çox kədərlənsə də, dərhal mənə ürək-dirək verdi:

– Qızım, sən inanma, elə qara kağızlar çox olur. İnşallah, qardaşın qayıdıb gələr!..

...Mən ömrüm boyu Üzeyir bəyə borcluyam. O, xeyirxah insan dar günlərimdə mənə də, tanıdığım başqa sənətkarlara da dəfələrlə əl tutub, maddi yardım edib. Hamı Üzeyir bəy ola bilməz. O, tək idi, gəldi-getdi.

## BÜLBÜLƏ HAMIMIZ QİBTƏ EDİRDİK

Bülbül elə bir sənətkar idi ki, ona hamımız qibtə edirdik. Bir dəfə Moskvada konsert verirdik. Bülbül oxuyandan sonra bir rus tamaşaçısı gəldi, onun qarşısında baş əydi, diz çöküb dedi: "Boje upasi! Boje upasi!.." Biz hamımız heyrətdən donub qalmışdıq. Sonradan öyrəndik ki, Bülbülün sənətinə pərəstiş edən bu adam SSRİ xalq artisti İ.S.Kozlovskidir. O, Bülbülün səsinin sehrinə, nəfəsinin uzunluğuna heyran qalmışdı.

Müharibənin ağır günlərində Bülbül cəbhəyə getmək üçün konsert briqadası düzəltdi, məni də götürdü. Oğlum Hamlet körpəydi. Onu Buzovnadakı uşaq evinə qoymalı oldum. Dəstəmizdə Fatma Mehrəliyeva, Səltənət Quliyeva, Vera Şirye, Aşıq Mirzə, Teyyub Dəmirov, pianoçu Feldman kimi tanınmış sənətkarlar var idi. Biz Moskvaya getdik. Ordan dəstəmizi Bryansk və Oryol cəbhələrinə göndərdilər. Meşələrdə konsertlər verirdik. Bülbül həm azərbaycanca, həm rusca, həm də italyanca oxuyurdu. Bütün konsertlərimizi o yekunlaşdırırdı. Əsgərlər Bülbülün çıxışlarını çox böyük rəğbətlə qarşılayırdılar.

## PƏRƏSTİŞ ETDİYİM AKTRİSA

Bir nəfərə ömrüm boyu pərəstiş etmişəm: teatrımızın rus şöbəsində işləyən Fatma Muxtarovaya. Onun gözəl Karmeni ("Karmen"-də), Qaraçı qızı ("Çereviçka"da) məni valeh etmişdi. Fatma Muxtarovanın böyük sənətinə o qədər vuruldum ki, rus dilində olan tamaşalara müntəzəm getməyə başladım. Mən Fatmadan öyrənirdim, ona əlçatmaz zirvə kimi baxırdım. Onun Karmen rolundan öyrəndiklərim sonralar Ərəbzəngi obrazını yaratmaqda mənə çox kömək etdi. Bir ara Fatma Muxtarova məni vokala keçirmək istədi. Əvvəla, özüm razılaşmadım ki, rusca oxuya bilmərəm. İsmayıl Hidayətzadə də razılıq vermədi.

"Çereviçka" tamaşasında məni sehrləyən bir səhnə var idi. Qaraçı qızı tum çırtlaya- çırtlaya oxuyurdu. Fatma bu səhnəni elə ustalıqla oynayırdı ki!.. Tumun qabığını ağzından atmaqla ariyanı başlamağı bir olurdu. Mən heyrətlənirdim ki, görəsən o necə edir ki, tum boğazında qalmır, təcrübəmdən bilirdim ki, bu, çox çətindir.

Neçə ki, səhnəmizdə Fatma Muxtarova vardı, Moskva Böyük teatrının ən adlı-sanlı artistləri belə Bakıda Karmen oynamağa gəlmirdilər, cəsarət etmirdilər. Deyirdilər ki, sizin Fatmanız var, o olan yerdə biz artığıq.

## ONLAR BÖYÜK SƏNƏTKARLAR İDİLƏR

İsmayıl Hidayətzadə çox gözəl bədii rəhbər, istedadlı baş rejissor idi. Tamaşada nəzərdən qaçmış ən kiçik detalları belə sərraf dəqiqliyi ilə görür, düzəldirdi. Gənc kadrlara qarşı olduqca diqqətli, qayğıkeş idi. Mən böyük sənətkarların gənclərə belə xoş münasibətini ilk dəfə opera teatrında görmüşəm.

Soltan Dadaşov da bizim rejissorumuz idi. Yadımdadır, Səid Rüstəmovun "Durna" operettasını hazırlayanda bəzi mizan-səhnələri İsmayıl bəyənmirdi. Soltanla mübahisə edirdilər. İki böyük sənətkarın sənət mübahisəsi həmişə axırda tamaşanın xeyrinə ümumi razılıqla başa çatırdı. Mənsə gənc aktrisa kimi onların mübahisəsindən özümçün müəyyən nəticələr çıxarırdım, təsəvvürümdə rolum daha da aydınlaşır, obrazım tamamlanırdı, başa düşürdüm ki, necə oynamalıyam. Mənim sənətkar kimi yetişməyimdə hər iki görkəmli rejissorumuz mühüm rol oynayıblar.

Şəmsi və Əfrasiyab Bədəlbəylilər də yaddaşımda silinməz izlər buraxmışlar. Bu gün opera teatrımızın belə kamil rejissor və dirijorlara çox böyük ehtiyacı var. Elə bil ilahidən rejissor doğulmuşdu Şəmsi, özü obrazı necə dərindən duyub yaşayırdısa, aktyoru da eləcə oynadırdı.

Mən operaya gələndə səhnəmizdə Sürəyya Qacar, Yavər və Münəvvər Kələntərlilər, Həqiqət Rzayeva kimi görkəmli sənətkarlarımız var idi. Onların hamısını dinləmişdim. Ancaq heç birini təqlid etmədim, sənətdə öz yolumu tutdum.

...Yarım əsrlik səhnə həyatında Gülxar Həsənova bu gün adları tarixə çevrilmiş neçə-neçə görkəmli sənətkarlarımızla birgə yanaraq yaşayıb-yaradıb. Tamaşalarda tərəf-müqabili olduğu Əlövsət Sadıqov, Hüseynağa Hacıbababəyov, Şirzad Hüseynov, Xanlar Haqverdiyev, Qulam İsgəndərov, Canəli Əkbərov ... kimi gözəl müğənnilərin hər biri

Gülxar xanımın qəlbində öz səsi, öz obrazıyla qalıb. Muğam operalarında G.Həsənovanı adlı-sanlı tarzənlər Qurban Pirimovla Bəhram Mansurov müşayiət ediblər.

## ONA ƏRƏBZƏNGİ DEYİRLƏR

Oynadığı obrazların hamısını sevə-sevə yaradan, yana-yana oynayan Gülxar Həsənova Ərəbzəngi rolunda sənətin zirvəsini fəth etdi. Bu rolda o qədər məşhurlaşdı ki, aktrisanın obrazlar qalereyasında Ərəbzəngi şah rol oldu. Əbəs deyil ki, xalq arasında onu çox vaxt öz adı ilə deyil, "Ərəbzəngi" deyə çağırırlar.

**Haşiyə:** Gülxar Həsənova ilk dəfə Ərəbzəngini oynayanda tamaşadan sonra Həqiqət Rzayeva rejissora yaxınlaşaraq deyib ki, mən bir daha Ərəbzəngi oynamayacağam. Qoy bu rolu həmişə Gülxar oynasın.

...İllər keçəcək, nəsillər bir-birini əvəz edəcək. Təbii ki, milli operalarımızın da yeni, qüdrətli ifaçıları meydana çıxacaq. Kim bilir, bəlkə tarix bir daha təkrar olunacaq və istedadlı bir azərbaycanlı qızı Ərəbzəngi rolunda bu gün də sənət yolunda gənclik həvəsiylə külüng vuran qocaman sənətkarın özü qədər məşhurlaşacaq... Ancaq Gülxar Həsənovanın Ərəbzəngisi heç vaxt unudulmayacaq. Sənəti kimi yaratdığı obrazlar da sonrakı nəsillər üçün bir örnək olacaq. Görkəmli sənətkarlarımızla bağlı xatirələri isə milli mədəniyyət tariximizin təkrarsız səhifələrinə çevriləcək.

**"Azərbaycan qadını" jurnalı**
**№ 6 1991-ci il, səh.16-17**

# SƏNƏT YANĞISI

Qapıdan içəri girən kimi ecazkar və möcüzəli sənət dünyasıyla qarşılaşdım. Yaşayış mənzilinin dəhlizindən tutmuş otaqlarınadək hər yer bədii keramika nümunələri, pannolar, qobelenlərlə bəzədilmişdi. Gənc rəssam Nailə Sultanovanın qeyri-adi emalatxanasıyla ilkin tanışlığımız belə başlandı.  Gözümü qədim dulusçuluq sənətimizin bu müasir nümunələrindən çəkə bilmirdim. Əsərlərə baxdıqca rənglərin əlvanlığı, naxışların zərifliyi məni ovsunlayırdı. Bilirdim ki, gördüyüm boşqabların, vazaların, şamdanların, çay və nahar servizlərinin, müxtəlif qab-qacaq dəstlərinin forması da Nailə Sultanovanın özünə məxsusdur, ölçüsü də. İstedadlı rəssamın əsərlərində milli kolorit o qədər güclüdür ki, müəllifi tanımadan belə inamla demək olar ki, bu əsərləri yaradan azərbaycanlıdır.

Qədim Azərbaycan dulusçuluğu, keramika sənəti. Tarixi neolit dövrünə çatan, bitkin nümunələri Tunc və Dəmir  dövrünə təsadüf edən bu milli sənətimizin əsasını qoyan şəxslər bizə məlum olmasa da, onların yaratdıqları bu gün muzeylərimizi bəzəyir. Minilliklər sənət əsərlərinin gözəlliyinə xələl gətirə bilməmiş, dəyərini daha da artırmışdır. Nəsillərin qan yaddaşı bu qədim milli sənətimizin sirlərini əsrlərdən-əsrlərə ötürmüşdür. Və hər yüzillikdə meydana çıxan sənətkarlar dulusçuluğu yeni inkişaf mərhələsinə qaldırmış, bədii keramika sənətini istedadlarının qüdrətilə zənginləşdirmişlər. Nailə Sultanova da bu sənətin qismətinə çıxan istedadlardan biridir.

Hələ gəlincik oynatdığı vaxtlarda, rəfiqələri və yaşıdlarıyla evcik-evcik oynadığı illərdə Nailə qab-qacağın gözəlliyinə həssaslıq göstərərmiş. Evdəki bahalı qabları oyuncağa çevirməsiylə anası Şükufə xanımı hövsələdən çıxararmış. Boşqabların, nəlbəki və fincanların bərbəzəyinə, naxışlarına tamaşa etməkdən doymazmış. Uşaqlıqda Nailənin bir qəşəng çini servizi varmış. Qız servizin əşyalarına kağızdan bəzək yapışdırar, naxış vurar, öz aləmində qabları gözəlləşdirərmiş. Sən demə, Nailənin marağı əbəs deyilmiş. Qəlbində baş qaldıran həvəs, rənglər dünyasına maraq onu Ə.Əzimzadə adına Rəssamlıq məktəbinə apardı. Daha sonra N.Sultanova təhsilini M.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunda davam etdirdi. Görkəmli xalçaçı rəssamımız Lətif Kərimovun, sənətşünas Kərim Kərimovun Nailəyə böyük təsirləri oldu. N.Sultanova deyir ki, əgər Lətif müəllim ancaq birinci kursda yox, daha çox dərs desəydi, yaxşı olardı. Ustad sənətkarlardan öyrənə-öyrənə Nailə illəri illərə qovuşdurdu. Fikrində o qədər əsərin eskizini çəkmişdi ki... Diplom işinə başlayanda qəlbində bəslədiyi arzulardan birini həyata keçirdi: "Miniatür" servizini yaratdı. İlk müstəqil işi yüksək qiymətləndirildi. O, şüşə-keramika fakültəsini bitirdi. Sərgilərdə iştirak etdi. Özünəməxsus yaradıcılıq dəst-xəttilə seçildi. Yolu uğurlu, yaradıcılığı məhsuldar oldu. Hazırda Azərbaycan Rəssamlar İttifaqının bədii fondunda işləyir. Bu günədək Nailənin üç müəllif işi istehsalata buraxılıbdır. "Armudu" çay servizi onun şərəfinə "Nailə" adlanır.

"Yeddi məhəbbətin poeması" kompozisiyası 49 əsərdən ibarətdir. Silsilədəki əsərlərin hamısında qədim Azərbaycan miniatürünə xas xüsusiyyətlər vardır. Obrazlar rəssamın hiss və duyğularını, düşüncələrini əks etdirir. Hər bir boşqab ayrılıqda bitkin süjetli əsərdir.

"Yeddi hiss" servizinə daxil olan fincan, nəlbəki və boşqablardakı naxışların heç biri digərini təkrar etmir. Nailənin zəngin fantaziyası hər əşyanı yeni, maraqlı cizgilərlə bəzəyir. "Yeddi ay gözəli" kompozisiyasında rəssam adı "ay" sözü ilə başlayan Aytən, Aygün,

Aytac, Ayyan, Aysel, Aypara, Aynur adlı Azərbaycan gözəllərini təsvir-tərənnüm etmişdir. "Ürəyin yeddi döyüntüsü" adlı pannolardan həsrətli sevgililər boylanır.

"Minarə" və "Balıqlı" portret servizlərdir. Çoxpredmetli "Miniatür" servizində, "Kainatın yaşıl planeti" kompozisiyasında rəssam mavi və firuzəyi rənglərdən məharətlə istifadə etmişdir. Nailənin əsərlərində tez-tez işlətdiyi mavi rəng paklıq, ülvilik rəmzidir.

"Zümrüd", "Yaqut", "Gecə", "Piyaləbənd", "İslimi" servizləri də onun uğurlu işlərindəndir. "İslimi" sözü tətbiqi sənətdə ornament adıdır. Maraqlıdır ki, servizdəki qabların qulpları da islimi formasındadır, naxışları da. Məhz bu düşünülmüş kompozisiyaya görə də müəllif əsərinə "İslimi" adı vermişdir. Rəssamın qırmızı-qızılı rənglərlə işlədiyi "Yanan günəş" silsiləsindəki əsərlərə baxarkən günəşin hərarətini duyursan. Şərq ənənələri ruhunda işlədiyi "Məhəbbətin əbədiliyi", "Mavi gecə", "Şuşa" ornamental vazaları bir-birindən gözəldir.

Nailə Sultanovanın əsərlərində fiqurlar, obrazlar zaman və məkan çərçivəsinə sığmır. Zamansızlığa tapınır, əbədiyyətə qovuşurlar. O öz yaradıcılığında milli xalça ornamentlərindən, qədim miniatür sənətindən məharətlə bəhrələnir. İşlədiyi keramik materialı – istər boşqab olsun, istər vaza, istərsə də çay dəsti, fərqi yoxdur, bütövlükdə bəzəmək N.Sultanovanın yaradıcılığı üçün səciyyəvi xüsusiyyətdir. O, boşluqdan qaçır. Parlaq, əlvan rənglərə çox meyl edir. Məsələn, göy rəng – kobalt Nailənin yaradıcılığında insan rəmzidir. Əsərlərindəki gül və ağac şəkilləri də şərti obrazlardır. Süsən gülü isə müəllifin öz obrazıdır. Daha bir orijinal xüsusiyyət: əsərlərinin adından da gördüyümüz kimi, o, "7" rəqəmindən geniş istifadə edir. Hətta çay, yaxud nahar dəstləri işlərkən belə ənənədən kənara çıxaraq yeddi əşyalı servizlər hazırlayır. Mifologiyamızda dərin fəlsəfi məna tutumu, özünəməxsus anlamı və yozumu olan "7" rəqəmi Nailəyə çox doğmadır. Söhbətlərimizdən birində bu rəqəmlə bağlı sualımıza sənətkar belə cavab verdi ki, axı, həftənin günləri də yeddidir, musiqinin notları da,

göy qurşağının rəngləri də.

Nailə Sultanovanın yaradıcılığında Qarabağ mövzusu xüsusi yer tutur. Vətən taleyinin sənətkar qəlbindəki ağrıları öz əksini yaranan əsərlərdə tapmışdır. Hər dəfə Nailənin işlərinə baxarkən qeyri-ixtiyari "Qarabağın gözəlləri" adlanan silsilə pannolar önündə ayaq saxlayıram. Kafel üzərində işlənmiş obrazlar o qədər həyati, realdır ki... Dağlıq Qarabağın son 3 ildəki ağır günlərinin dumanı çöküb sanki bu qız-gəlinlərin üstünə. "Qarabağ gözəlinin kədəri", "Mənim dərdim – Azərbaycanın dərdidir", "Azərbaycan madonnasının göz yaşları"... Əsərlərin özləri kimi adları da kövrək, təsirlidir. Mənsub olduğu xalqın sevinciylə şadlanıb, dərdiylə kədərlənən sənətkar Azərbaycan üçün ağır olan günlərdəki yaşantılarını, narahatlığını, ürək yanğısını əsərlərinə köçürmüşdür.

Nailə Sultanova orijinal sənətkardır. Əsl yaradıcılığa başladığı 6-7 il ərzində təkrarsız-bənzərsiz əsərləriylə sənət bilicilərinin, sənətsevərlərin diqqətini cəlb etmişdir. Hələlik respublikamızın muzeylərində onun əsərlərinə rast gəlməsək də, Türkiyənin məşhur Topqapı muzeyində, Moskvanın bir sıra muzeylərində əsərləri vardır. Gənc keramikaçının "Mavi gün" ornamental vazası, "Armudu" servizi SSRİ xalqları muzeyini, "Qırmızı" servizi isə Şərq xalqları muzeyini bəzəyir. Sənətinə vurğun olan bu gənc qız hər gün, hər an yaradıcılıqla məşğuldur. Fikrən daim sənət aləmilə təmasdadır. Nailə çox zaman hətta turist gəzintilərindən belə imtina edir ki, vaxt itirməsin, yeni əsərlər yaratsın. O, eyni zamanda bir neçə iş üzərində çalışır. Fikrində yeni bir ideya doğan kimi dərhal onun eskizini çəkir, relyef edir, sonra vaxtı olan kimi işə başlayır. Onun qobelenləri də sənətkarlıq baxımından maraqlıdır. Ümumiyyətlə, Nailə Sultanova dekorativ-tətbiqi sənətin bütün növlərini birləşdirmək arzusundadır. Şüşə, keramika, metal və qobelendən vahid kompozisiyalı əsərlər yaratmaq istəyir. Maraqlı eskizləri vardır. Relyefli keramika da Nailənin sənətkar gözündən yayınmayıbdır.

Bu yay Azərbaycan mədəniyyət fondunun sərgi salonunda açılmış keramika-xalça satış-sərgisində N.Sultanovanın yüzdən çox əsəri nümayiş etdirilirdi. Xarici turistlər, yerli camaat gənc rəssamın ürəyəyatan əsərlərinə aludəliklə baxırdılar. Ünsiyyətdə olduğumuz tamaşaçıların, sənətsevərlərin rəyi beləydi ki, Nailə Sultanovanın həmin satış-sərgidə nümayiş etdirilən əsərləri arasında muzeylərimizi bəzəməyə layiq, evlərimizin yaraşığı ola biləcək əsərlər çoxdur.

Sağollaşıb ayrılmaq vaxtı çatmışdı. Ancaq sənətlə, yaradıcılıqla bağlı söhbətimiz qurtarmaq bilmirdi. Mən onun gözlərinin qayğılı ifadəsinə, zərif barmaqlarına baxa-baxa qeyri-ixtiyari əsərlərinin adları barədə düşünürdüm. Qəlbimin dərinliklərində bir daha inanırdım ki, ancaq məhəbbətdən doğan, məhəbbətlə yaranan əsərlər belə gözəl ola bilər!

**"Azərbaycan qadını" jurnalı**
**№ 11-12 1990-cı il, səh. 36-37**

# AVSTRİYAYA ATILAN KÖRPÜ

Hansı xalqın bədii təfəkkürünə məxsusluğundan asılı olmayaraq, əsl sənət əsəri ümumbəşəri sərvətdir. O, dünyanın bütün xalqları üçün anlaşıqlı və cazibədardır.

Tanınmış fırça ustalarımızdan olan İlham Səfərlinin ötən ilin mayından etibarən Avstriyanın Qrats şəhərində nümayiş etdirilən fərdi sərgisinə tükənməyən maraq bu fikri bir daha təsdiq edir. Doqquz aydır ki, İ.Səfərlinin kosmos mövzulu batikləri, miniatür üslubda işlənmiş pannoları və Azərbaycan torpağının əsrarəngiz təbiətini əks etdirən mənzərə tabloları Avropa sənətsevərlərinin mühakiməsinə verilmişdir. Bu gün Avstriya ictimaiyyəti məşhur "A.H.M." və "Rodika" firmalarının təşəbbüsüylə açılmış həmin sərgi vasitəsilə müasir Azərbaycan təsviri sənətindən xəbər tutmaq imkanı əldə etmişdir. Sərginin təşkilatçısı Engin Çakmanın vaxtaşırı Bakıya göndərdiyi xəbərlərdən bizə bəllidir ki, azərbaycanlı rəssamın kosmos mövzulu silsilə əsərləri avropalı sənətsevərlərdə xüsusi maraq doğurmuşdur. Elə sərgiyə ilk baxışdan dərhal sonra Avstriyanın məşhur menecerlərindən olan Hersoq və Mahmud, professor Volkinqer və bir sıra digər sənət biliciləri İlham Səfərlinin yaradıcılığına yüksək qiymət vermiş, əsərlərini ürəkdən bəyənmişlər. İstər sərginin açılışında, istərsə də sonrakı günlərdə çəkilmiş videolentlərə baxarkən biz özümüz də sərgiyə gələn tamaşaçıların azərbaycanlı rəssamın yaradıcılığına necə maraq göstərdiyinin canlı şahidi oluruq.

Rəssamın uğurları, nailiyyətləri bizi sevindirir. İstər-istəməz İ.Səfərlinin keçdiyi sənət yoluna fikrən “səyahət” edirik. Axı bu səviyyəyə o, birdən-birə yüksəlməyib. İlhamın bugünkü uğurları axtarışlarda keçən sənətkar ömrünün narahat yaşantılarının bəhrəsidir.

Rəssamlığa rəngkarlıqla başlayan İlham Səfərli bir sənətkar kimi özünü dekorativ janrda daha qətiyyətlə təsdiq etmişdir. O, yaradıcılıq obyektinə çevirdiyi kosmos kimi müasir mövzunu qədim batik texnikası ilə işləmişdir. Hələ qədim dövrlərdən Şərq ölkələrində geniş yayılmış batik dekorativ-tətbiqi sənətin növlərindən olub həmin üsulla işləyən rəssamdan kimyanı, rəng hazırlamaq texnologiyasını yaxşı bilməyi tələb edir. Bu çətin prosesin öhdəsindən uğurla gələn İ.Səfərlinin kosmos mövzulu batikləri yozum tərzi etibarilə orijinaldır.

İ. Səfərlinin 60 tablodan ibarət “Dinc kosmos uğrunda” silsiləsi sənətsevərlərə yaxşı tanışdır. “Panspermiya” (“Kainatın yaranması”), “Elm”, “Günəş sistemində X planet”, “Kvazarlar və kvazaqlar”, “Uzaq nağılvari qalaktika”, “Tənha planet”, “Yeni qalaktika”, “Nüvə qışından sonra bahar olmur”, “Yer kürəsi nüvə kosmosu arasında”, “Ulduz müharibələrindən sonra ancaq ulduzlar qalacaq”, “Təhlükəli kosmos stalaktidləri”, “Yeni dünya duyumu”, “İki qalaktikanın yaxınlaşması”, “Kometaların yaxınlaşması – insanların yaxınlaşmasıdır”, “Durna qalaktikası”, “Kassiopeya bürcü” əsərləri dəfələrlə müxtəlif sərgilərdə nümayiş etdirilmiş, sənət biliciləri tərəfindən yüksək qiymətləndirilmişdir. Tablolarda şərtilik çoxdur. Batiklər maraqlı forma-biçimi, məntiqli bədii yozumu ilə yadda qalır.

İlhamın yağlı boya ilə işlədiyi “Yerin töhfəsi”, “Yeni ulduzun parlaması”, “Y.Qlazkovun portreti” adlı əsərləri də kosmonavtlara həsr olunmuşdur. Böyük formatda işlənmiş “Yerin töhfəsi” tablosunda sənətkar kosmosa uçuş zamanı həlak olmuş sovet və Amerika kosmonavtlarının yaddaqalan obrazını yaratmışdır. Hər bir kosmonavtı vətəndaşı olduğu dövlətin bayrağı geyimində təsvir etməsi rəssamın uğurlu tapıntısıdır. Əbədiyyətə qovuşmuş kosmonavtların üz-gözlərin-

dəki dərin məna baxanı düşündürür. Əsər sovet və Amerika rəssamlarının Moskvada keçirilmiş "Bəşəriyyətin ulduz yolu" adlı sərgisində böyük maraq doğurmuşdur.

Bu gün biz tam inamla deyə bilərik ki, dünya kosmos rəssamlığının R.Makkol, A.Leonov, Y.Poqodayev, V.Canıbəyov, V.Loktyev kimi tanınmış nümayəndələri arasında Azərbaycan xalqının da nümayəndəsi vardır: İlham Səfərli. Əsərləri dünyanın bir sıra ölkələrində uğurla nümayiş etdirilmiş azərbaycanlı rəssamın yaradıcılığı öz bəşəri siqləti, humanist qayəsi ilə hər yerdə diqqəti cəlb etmişdir. Avstriyada açılmış sərgi isə avropalıların zövqünü oxşamaqla yanaşı, orada yaşayan azərbaycanlılar üçün də gözəl töhfə olmuşdur. Qrats şəhərində təşkil olunmuş bu mədəni tədbir yurddaşlarımız arasında əlaqə yaratmaq sahəsində, həmçinin Azərbaycan və Avstriya xalqlarının mənəvi yaxınlaşması prosesində ilk körpüdür. Xalqımızın dünyaya və dünya xalqlarına döğru-dürüst tanıtdırılmasına böyük ehtiyac duyulduğu bizim günlərdə bu sayaq mədəni tədbirlərdən, mənəvi körpülərdən imkan daxilində çox istifadə etməliyik. Tək İlhamın yox, bütün istedadlı sənətkarlarımızın narahat yaşantılarının bəhrəsi olan dəyərli sənət əsərləri dünya xalqlarına Azərbaycanımız və millətimiz barəsində əsl həqiqəti söyləyə bilər.

**"Həyat" qəzeti**
**23 fevral 1991-ci il, səh.4**

# VAQİFİN SƏNƏT DÜNYASI

Bakıdakı miniatür mərkəzində bu yaxınlarda maraqlı bir sərgi açılmışdı – heykəltəraş Vaqif Rəhmanovun fərdi sərgisi. Sərgidəki eksponatlara heyranlıqla baxan tamaşaçıları bir sual düşündürürdü: –Kimdir Vaqif Rəhmanov? Əgər azərbaycanlıdırsa, bəs niyə indiyə qədər onu tanımamışıq? Axı sərgidə nümayiş etdirilən tunc, daş, ağac heykəllərdən göründüyü kimi, onları yaradan yetkin sənətkardır...

Heykəltəraş Vaqif Yusif oğlu Bakıda dünyaya göz açıb. O, Rəhmanzadələr ailəsindəndir. Tanınmış xalq rəssamı Maral Rəhmanzadənin qardaşıdır. Vaqif baharda doğulduğundan uşaqlıqdan bahar tək qaynar təbiətli olub. Yaradıcılığa meyli, istedadı onu Ə.Əzimzadə adına Rəssamlıq Məktəbinə aparıb. Sonra Surikov adına Moskva Dövlət Rəssamlıq İnstitutunda təhsilini davam etdirib. Burada o, heykəltəraşlıq sənətinin sirlərinə mükəmməl yiyələnib. Hələ tələbə ikən çalışqanlığı və qabiliyyəti ilə fərqlənən Vaqif elə o vaxtdan maraqlı heykəllər yapır, diqqəti cəlb edən əsərlər yaradırdı. Azərbaycanlı balası öz istedadı ilə müəllimlərinin, bir çox adlı-sanlı heykəltəraşların diqqətini cəlb etmişdi. Ali məktəbi bitirən kimi Vaqif Rəhmanovun təyinatını birbaşa Alma-Ata şəhərindəki incəsənət institutuna verdilər. Elə həmin vaxtdan – 1965-ci ildən etibarən Vaqif Rəhmanov Qazaxıstanda məskunlaşdı.

O zaman Alma-Atada heykəltəraşlıq sahəsində türkdilli kadrlar çatışmırdı. V.Rəhmanovun gəlişiylə qazax heykəltəraşları ailəsinə per-

spektivli bir sənətkar daxil oldu. Pedaqoji fəaliyyətlə yanaşı gənc heykəltəraş yaradıcılıqla da ciddi məşğul olmağa başladı. Sərgilərdə iştirak etdi, rəngarəng sifarişlər yerinə yetirdi. İldən-ilə püxtələşdi, sənətkar kimi tanındı, şöhrət tapdı. Yaşadığı respublikanın yuxarı təşkilatlarının sifarişiylə Alma-Atada və başqa şəhərlərdə ucaltmaq üçün monumental heykəllər, heykəl-kompozisiyalar yaratmağa başladı.

Bu gün Qazaxıstan Dövlət İncəsənət muzeyində V.Rəhmanovun "Şərq motivi", "Xatirə", "Nərgizin portreti", "Xocalı", "Ana evi", "Anarın portreti" və başqa əsərləri vardır.

İstedadlı tişə ustasının tədqiqat obyekti insan və onun dünyayla rəngarəng əlaqələridir. Sosial, psixoloji və əxlaqi problemləri vəhdətdə götürən sənətkar daim müasir obrazlar və plastik formalar axtarır. O, plastik hüdudsuzluq məsələlərini cəsarətlə həll edən heykəltəraşdır. Vaqif istənilən materialda – istər daş olsun, istər ağac, istər tunc uğurla işləyir. Bakı sərgisində biz əsasən Rəhmanovun dəzgah heykəllərini görsək də, sənətkarı şəxsən tanıyanlar bilirlər ki, park heykəltəraşlığında onun görkəmli nailiyyətləri vardır. Vaqif xüsusilə Abşeron daşında həvəslə işləyir. Hər il Bakıya gələn yurddaşımız doğmalarının Mərdəkandakı bağlarında, dost-tanışlarının emalatxanalarında işləyir, qohum-qardaşlarının obrazından yaradıcılıqla istifadə edir.

Miniatür mərkəzində nümayiş etdirilən əsərləri arasında "Bakı. 20 Yanvar 1990-cı il" adlı tunc heykəli ilk baxışdan tamaşaçını sarsıdırdı. Kəsik bədən, yarım qol, güllədən deşik-deşik olmuş baş... Arxası üstə yıxılmış gəncin gözləri də, ağzı da heyrətdən açıq qalıb. Heykəlin qərar tutduğu oraqşəkilli ay da tamaşaçını düşündürür. Həmin detalı həm gecənin rəmzi kimi, həm də yanvar faciəsini törədən ordunun dövlət gerbinə işarə tək başa düşmək olar. Kiçicik bir detal bu müdhiş faciənin gecəykən, özü də kimlər tərəfindən törədildiyini göstərir. Vaqif Rəhmanov heykəli elə məharətlə işləyib ki, soyuq tunc material dil açıb danışır, tamaşaçını dərindən həyəcanlandırır. Yüksək sənət məziyyətlərinə malik "Bakı. 20 Yanvar 1990-cı il" əsəri vətənpərvər

yurddaşımızın şəhidlərimizə qoşduğu heykəl-elegiyasıdır.

Sərgidəki "Əbədi" heykəlində ana iki qızıyla təsvir olunub. Anasının dizi üstündə oturmuş qızcığaz elə məsud, elə rahatdır ki... Kürəyini böyük qızına söykəmiş ana da sabahından arxayındır. Ağ daşdan yonulmuş "Sabir"in məhzun görkəmi baxanı qüssələndirir. Tuncdan tökülmüş "Anarın portreti" o qədər canlıdır ki, sanki görkəmli yazıçıyla üz-üzə dayanmısan. "Naməlum qadın" heykəlinin estetik gözəlliyi baxana zövq verir. "Kommunizmin yolu" kompozisiyasında kəllə-mayallaq olmuş adamlar, qolları qayalarda qandallanmış əzabkeş insan surəti diqqəti çəkir. "Mərdəkan motivi" adlanan əsərdə konkret sima, üz-göz yoxdur. Amma heykəltəraş böyük ustalıqla əllərini sinəsində çarpazlamış kəlağayılı qadının simasında mərdəkanlı anaların ümumiləşmiş obrazını verə bilib. Həmin əsərlərin fonunda asılmış fotoreproduksiyalar isə təəssüratı tamamlayır. V. Rəhmanovun yaradıcılığı ilə ətraflı tanış olmaqda bakılı sənətsevərlərə kömək edirdi.

On ildir ki, Azərbaycan övladı Vaqif Rəhmanova Qazaxıstanın əməkdar incəsənət xadimi adı verilib. Qürbətdə məskunlaşdığı illər ərzində o, dəfələrlə Qırğızıstanın, digər Orta Asiya respublikalarının fəxri fərmanları, diplom və medallarıyla təltif olunubdur. İki il əvvəl Xəzəryanı respublikaların sənətkarlarının sərgisində azərbaycanlı heykəltəraş Vaqif Rəhmanov qızıl medala layiq görülübdür. Əsərləri Qazaxıstan, Orta Asiya, Azərbaycan, Litva, Danimarka, Avstraliya, Polşa, Macarıstan, Bolqarıstan muzeylərini, bir çox sənətsevərlərin şəxsi kolleksiyalarını bəzəyir.

V.Rəhmanov uzun müddət Qazaxıstan Rəssamlar İttifaqının Bədii fondunun sədri olub, idarə heyətində katib işləyib. Çoxillik pedaqoji fəaliyyəti vardır. Hazırda Alma-Ata Dövlət Teatr – Rəssamlıq İnstitutunun dosentidir.

Vaqif Rəhmanovun Bakıda açılmış fərdi sərgisi çox faydalı və səmərəli oldu. Sərgi sayəsində Azərbaycandan kənarda yaşayan yurd-

daşlarımızla doğma respublika arasında əlaqələri möhkəmlətmək sahəsində daha bir addım atıldı. Görkəmli heykəltəraşımız Vaqifin sənət dünyasıyla tanış olduq. Sözsüz ki, Vətəndən uzaqlarda Azərbaycan adını uca tutan, Azərbaycan təsviri sənətini ləyaqətlə təmsil edən eloğlumuz heykəltəraş Vaqif  Rəhmanovun adı və sənətiylə fəxr etməyə bizim mənəvi haqqımız vardır.

**"Yurddaş" qəzeti**
**9 oktyabr 1991-ci il, səh. 4.**

# İLLARİYƏNİN DÜNYASI

Uşaq aləminin gözəlliyi, uşaq təxəyyülünün zənginliyi, uşaq fantaziyasının tükənməzliyi kimə məlum deyil? Sirli-sehrli aləmli, cazibədar dünyalı uşaqlıq dövründən adətən şirin- şirin xatirələr qalır doğmaların, yaxınların xatirində. Bəzən isə... bütöv bir dünya – İllariyənin dünyası kimi...

Ermənistan Uşaq Yaradıcılığı Muzeyinin sərgi salonunda açılmış "İllariyə Hüseynova – UŞAQ, İNSAN, YARADICI" sərgisi tamaşaçıları bu dünyaya qovuşdurur – İllariyənin dünyasına. Dəniz kimi cilvəlidir, saysız-hesabsız günəşlidir, analı-atalıdır, güllü-çiçəklidir İllariyənin dünyası. Bu dünyada "Pitafseya" adlı gül var – İllariyənin gülü. Bu dünyada ana simasında təcəssüm etmiş günəş var – İllariyənin günəşi. İllariyə dünyasının sakinləri olan "nağıl–rəsmlər", "təəssürat–rəsmlər", "zarafat", "sirk", "kompozisiya", "ornament" və başqa qəbildən olan sənət nümunələri balaca rəssamın böyüklərsayağı duymağından, düşünməyindən xəbər verir. Rənglərin əlvanlığı, mövzuların rəngarəngliyi, rəsmlərin bitkinliyi, aydınlığı baxanı heyran qoyur. İnana bilmirsən ki, bütün bunları – sərgi-tamaşada nümayiş etdirilən 250-yə yaxın əsəri balaca bir uşaq yaradıb, hələ məktəb yaşına çatmamış bir uşaq.

İllariyə Hüseynova 1977-ci ilin payızında Moskvada anadan olub. Atası həkim, anası biokimyaçıdır. Fitri istedada malik qızcığaz iki yaş yarımında ilk əsərini – "Quşlar" rəsmini yaradıb. Şəkildə körpə

qəlbi kimi pərvazlanan quşlar təsvir edilib. Paytaxt həyatının qaynarlığı, əlvanlığı İllariyənin "Atəşfəşanlıq", "Bayram", "Kafedə iki nəfər", "Maqazindəki qadın" və başqa rəsmlərində öz əksini tapıb.

Karandaşla, kömürlə, sulu və yağlı boyalarla işləyən balaca rəssam öz nağıl dünyasını çəkdiyi süjetli nağıl-rəsmlərə köçürüb. "Qoğal dovşanı dilə tutur ki, meşəyə getməsin, orada onu yeyərlər, yaxşısı budur babası ilə nənəsinin yanına getsin. Dovşansa tərəddüd edir...", "Keçi marala ərə getmək istəyir, ona görə də başında maral buynuzu bitirib", "Rəssam qızcığazın çəkdiyi şəkildə dovşan mahnı oxumaq istəyir", "Artistlər tamaşaçılarla vidalaşır", "Kirpi günəşə dua edir" və s. rəsmlər tamaşaçını nağıllar aləminə aparır.

Sirk mövzusu rəssam İllariyənin yaradıcılıq palitrasında geniş yer tutur. "Sirkdə", "Təlxək", "Ağır atlet", "Sirkdə qız", "Petruşkinin sirki", "Sirkdə yeni il yolkası", "İki təlxək", "Sirk. Artistka çıxış edir. Hamı bəyənir, biri isə şübhə edir" və başqa rəsmlər öz əlvanlığı, bir-birinə bənzərsizliyi ilə diqqəti cəlb edir, tamaşaçıda şən əhval-ruhiyyə yaradır.

Əfsanəvi "Simurq quşu", "Tovuz quşları", "Fırtınanın doğulması", "Gəmi", "Günəş qırıldı", "Qoca Buratino", "Qulliver", "Karluşa-film" rəsmləri İllariyənin rəssam təxəyyülünün hüdudsuzluğunu, fantaziyasının zənginliyini bir daha göstərir. Ana–Günəş. Bu varlıq istedadlı rəssamın fikrini çox məşğul etmişdir. Günəşi qollu-budaqlıdır, əlvan rənglidir, parlaq şüalıdır İllariyənin. Hazırda İllariyənin "Günəş"i vaxtilə məşğul olduğu studiyanın embleminə və rəmzinə çevrilmişdir.

Anası mehribandır, sevimlidir. Çəkdiyi "Ana" rəsmləri balaca qızın anasına olan böyük məhəbbətinin təcəssümüdür. Anasının da nə vaxtsa uşaq olduğunu dərk edən İllariyə təxəyyülünün gücü ilə "Balaca Tanya (Ana)" rəsmini yaratmışdır. Bütün uşaqlar kimi o da atası Arifi dünyada hamıdan yüksək bilirdi. Ona görə də çəkdiyi rəsmlərdə atasını "uçan quş, eyni zamanda şir" kimi təsvir edirdi. Rəsmlərində tez-tez həkim obrazına müraciət etməsi də, şübhəsiz, atası ilə bağlıdır.

İllariyənin çəkdiyi bütün şəkillərdə nikbin, oynaq uşaq təbiəti özünü büruzə verir. Şəkillərdən sevinc, səadət yağır. Dünyanı uşaq gözü ilə seyr edib, yetkin ağlı ilə dərk edən azərbaycanlı qızı İllariyə həyatın ən müxtəlif hadisələrini təsvir edib. Sərgi-tamaşanın bələdçi ssenarisində atası Arif Mikayıl oğlunun oçerki, anasının xatirələri mühüm pedaqoji-tərbiyəvi əhəmiyyətə malikdir. Düşünülmüş tərtibat sərginin estetik dəyərini daha da artırır. Sərgi böyük müvəffəqiyyətlə nümayiş etdirilir, salon aramsız olaraq dolub-boşalır. Yerevan ictimaiyyəti, şəhərimizin xarici qonaqları İllariyə Hüseynovanın sərgisini böyük rəğbətlə qarşılayırlar. Rəy kitabında yazılan qeydlər fərəh hissi doğurur:

**– "Min heyf ki, bu gözəl uşağın həyatı belə erkən solub. Yaxşı sərgidir. Həm estetik, həm də mənəvi baxımdan ibrətamizdir. Çox olsun belə uşaqlar və mümkün qədər az olsun insan faciələri. İllariyənin valideynlərinə ən xoş arzularımı bildirirəm. Düşünürəm ki, o, qoyduğu təmiz, incə və gözəl izlə bizim aramızda, öz yaşıdları arasında yaşayır".**

**Rəssam Karlen Martirosyan.**

**– "Məni bu istedadlı körpənin rəsmləri valeh etdi. Çox heyf ki, gələcəkdə bizə sevimli İllariyənin yeni rəsmlərinə baxmaq qismət olmayacaq".**

**M.Harutyunyan, mühəndis.**

1984-cü ilin yayında həyatı faciə ilə sona yetən İllariyə ömrü boyu sevdiyi, inandığı, etibar etdiyi ... suda boğulmuşdur. Cəmi 6 il 9 ay ömür sürən rəssam İllariyə özündən sonra cazibədar bir dünya – 400-ə yaxın rəsm əsəri qoyub getmişdir. Salonun müxtəlif guşələrindən boylanan rəssam qızın fotoşəkilləri sanki tamaşaçılara deyir:

– Mən sizinləyəm... Mən yaşayıram!

***

SSRİ Rəssamlar İttifaqının qərarı ilə təşkil olunmuş İllariyə Hüseynovanın fərdi sərgisinin coğrafiyası genişdir. O, Moskvadan start götürərək Bakı – Orconikidze – Yerevan – Tbilisi –Xerson – Kişinyov – Minsk – Kaunas – Tallin – Leninqrad – Moskva marşrutu ilə irəliləyir.

**"Sovet Ermənistanı" qəzeti**
**4 fevral 1986-cı il, səh.4**

# IV Fəsil
# ƏDƏBİ QEYDLƏR

# "MİN İL SONRA SORSAN ŞAİR HARDADIR"

**Zəkasının qüdrətiylə dünyaya nur saçan Nizami. Poeziya aləminin ənginliklərini fəth edən şəxsiyyət. Gəncə torpağında uyuyan Azərbaycan oğlu. Əsrlərin sərt yelləri neçə-neçə möhtəşəm sarayı yerlə-yeksan etsə də, el məhəbbəti, bəşər ehtiramı dahi şairin məzarını itib-batmağa qoymayıb. Zaman-zaman qədrini bilənlər Nizami Gəncəvinin türbəsini bərpa eləyib. Budur, dünyaya gəlişinin 850 illiyini bayram etdiyimiz günlərdə Nizami məqbərəsi yeni biçimdə ziyarətçilərin ixtiyarına verilib.**

Dahi şairimizin məzarı Gəncə yaxınlığında, Şıx düzündədir. Əsrlərcə bu yer poeziya xiridarlarının ziyarətgahı olub. Dünyanın uzaq-uzaq ölkələrindən gələn səyyahlar, ədiblər, alimlər Nizami Gəncəvinin məzarı önündə diz çöküb, onun dühası qarşısında baş əyiblər. Gəncə torpağı Nizami adıyla dünya şöhrəti tapıb. Lakin heç də bütün dövrlərdə türbə bəşər şairinin adına layiq səviyyədə olmayıb. Sanki Nizami bunu duyubmuş...

**Bu yerdə mən kimi yatanlar çoxdur,**
**Onları xatirə salan ki, yoxdur.**
**Ey təzə kəklik, an məni ürəkdən**
**Məzarım yanından ötüb keçərkən,**

**Üstümdə görərsən göyərmiş otlar,**
**Baş daşım uçulmuş, çökmüşdür məzar.**
**Qəbrimin tozunu sovurmuş yellər,**
**Dostlardan anan yox məni bir nəfər.**
**Qəbrim şüşəsinə əl qoyan zaman**
**O pak gövhərimi heç olmasa an!**
**Uzaqdan sən mənə göz yaşı töksən,**
**Mən sənə parlaq nur saçaram göydən.**
**Salam ver, hörmətlə məndən salam al,**
**Gəl qəbrim üstünə, edim istiqbal.**
**Hər zaman diriyəm sənin kimi mən,**
**Mən cana gələrəm, sən cana gəlsən.**

Bu sətirləri oxuduqca Nizami dühasının uzaqgörənliyinə heyran qalırsan. Qeyri-ixtiyari: – Ruhuna min rəhmət, Şeyx Nizami! – sözləri qəlbindən qopur. Ürəyində şairlə dialoqa girərək: – Sənətinlə ölməzliyə qovuşduğunu bəşər övladına Sənin "Xəmsə"n anladıb, incə ruhlu qəzəllərin pıçıldayıb, – deyirsən.

Gəncə torpağını gəzib-dolaşdıqca, gəncəlilərlə görüşdükcə Nizaminin dünya şöhrətinə dair söhbətlər qəlbimi iftixar hissi ilə doldururdu. 42 il sərasər Gəncə şəhərinin baş memarı olan Fərman İmanquliyev maraqlı bir əhvalat danışdı:

**– Bir gün Bağdaddan bir qonaq gəldi. Məqbərəyə 15-20 addım qalmış bu şəxs dizi üstə düşdü. Biz də məqbərənin ətrafını yenicə yumuşduq, yer palçıq idi, asfalt hələ qurumamışdı. Qonaq palçıqlı asfaltın üstünə diz üstə çökdü və öz dilində danışmağa başladı. Bu adam ərəbcə Nizami şəxsiyyətinə müraciət edərək, əvvəla üzr istəyirdi ki, Nizaminin hüzuruna çox gec gəlibdir. İkincisi də, o deyirdi ki, mən sənin**

**hüzuruna addımla yox, dizi üstə, sürünə-sürünə gəlməyi özümə böyük şərafət, fəxr bilirəm.**

Bizim XX əsrdə Nizami adına iki dəfə məqbərə ucaldılıb. Hələ 1939-cu ildə şairin qəbri üstə ucaldılan möhtəşəm tikintini amansız müharibə yarımçıq qoydu. Məqbərə müharibədən sonra, 1947-ci ildə tikilib başa çatdı. Lakin ömrü az oldu. Görən, həmin məqbərənin 50 il keçməmiş tarix səhnəsindən çıxmasına səbəb nəydi? Suala F.İmanquliyev belə cavab verdi:

**– 1947-ci ildə tikilmiş məqbərə zəyəm daşından idi. Zəyəm daşı çox yumşaq daş olduğuna görə həmin qurğunun nə yağışa, nə günəşə davamı olmadı. Ələlxüsus, alüminium zavodunun məqbərəyə böyük ziyanı dəydi. Bu zavodun havaya buraxdığı turşular məqbərənin üstünə qonduqdan sonra, üstündən də yağış yağdıqca daşlar daha sürətlə ovxalanıb töküldü. Nəticədə, tədricən məqbərə öz görkəmini itirməyə başladı. Dəfələrlə məsələ qaldırdıq ki, bəlkə məqbərənin yerini dəyişdirək? Nəhayət, mötəbər bir komissiya bu işə baxdı və qərara gəldi ki, məqbərənin yerini dəyişmək ağlasığan iş deyil. Qət olundu ki, məqbərə öz yerində qalmaq şərtilə burada yenidənqurma işləri aparılsın. 1981-ci ildə, şairin 840 illiyi ərəfəsində Azərbaycan KP MK qərar qəbul etdi ki, 1991-ci iləcən məqbərə yenidən qurulsun və ətraf sahəsi abadlaşdırılsın. 1989-cu ilin aprelində hazırki layihə müzakirə və qəbul olundu. Böyük çətinliklərlə qranitin və mərmərin əldə edilməsinə nail olduq. Dnepropetrovskdan 300 kubmetr qranit alıb, Sankt-Peterburq müəssisələrində hazırlatdırdıq. Ağ mərməri isə Çelyabinskdən gətirtdirdik. İnşaat materiallarını əldə etdikdən sonra cəsarətlə köhnə məqbərəni sökməyə başladıq. Biz məqbərəni 8 aya sökdük, amma 5 ay 10 günə tikdik. Bu işdə Gəncə şəhər Sovetinin və icraiyyə komitəsinin, 3 nömrəli tikinti trestinin, sankt-peterburqlu qranit qu-**

**raşdıran mütəxəssislərin, Bakı baş tikinti idarəsi ilə Bakı metro tikintisi idarəsi inşaatçılarının, əməkçi gəncəlilərin əvəzsiz rolu, böyük xidməti oldu. Camaatın məqbərədə işləməsindən adam həzz alırdı...**

– Bəşər sivilizasiyasında, dünya mədəniyyətində özünəməxsus yeri olan Nizami Gəncəvinin məqbərəsini belə qısa müddətdə tikib başa çatdırmaq şücaətdir. Lakin tikilən hər bir abidə yalnız bu gün üçün, sabah üçün deyil, o, nəsillərə yadigar qalır. Xüsusilə, Nizami kimi bir şəxsiyyətin məqbərəsi gərək minilliklər üçün nəzərdə tutula. Bu dəfəki məqbərə möhkəm materialdan qurulub, qranitin də, mərmərin də keyfiyyəti yerindədir. Amma bizi bir sual düşündürür: 5 ay 10 günə inşa olunan məqbərə keyfiyyətləmi tikilib? Müəyyən müddət sonra tikinti prosesində yol verilmiş tələskənlikdən irəli gələn qüsurlar üzə çıxmayacaq ki? Axı, can yanğısı öz yerində, hər daşın, hər tikinti materialının da öz xassəsi var...

**– Mən böyük inamla deyərəm ki, məqbərə yüksək keyfiyyət səviyyəsində tikilib. O, qranit bloklarla hörülüb. Betonun tökülməsinə, onun qurumasına verilən vaxt normativlərinə də dəqiq əməl etmişik. Məqbərə o qədər möhkəm, o qədər dəqiq , səliqəli inşa olunub ki... 5 ay 10 günə başa çatmasına baxmayaraq olduqca möhkəm tikilib. Biz buna çox əminik.**

Səkkiz yüz ildir ki, dahi şairimizin uyuduğu vətən torpağı müqəddəs məkana çevrilib. Elə müqəddəs olduğu üçündür ki, Nizami türbəsinin taleyi hər bir azərbaycanlını maraqlandırır. Hazırki məqbərə qırmızı qranitlə ağ mərmərdən tikilib. Üst hissəsi layihə quruluşuna görə zahirən əvvəlkindən fərqlənmir. Lakin daxili quruluşu, giriş və çıxış qapıları yerləşən hissə başqa səpkidə həll olunub. Sərdabə aşağıda yerləşdiyindən ziyarət edən şəxsdə təbii baş əymə, təzim vəziyyəti əmələ gəlir. Görənlər deyir ki, Napoleon Bonapartın məqbərəsi də bu şəkildə qurulub.

Məqbərənin pəncərə şəbəkələri və məhəccəri latundandır. Palıddan hazırlanmış ornamentli qapılar qədim Şərq üslubundadır. Girişdə yazılmış "1141" və "1209" rəqəmləri Nizami Gəncəvinin təvəllüd tarixini bildirir. Günbəzin altında altıguşəli həndəsi fiqur içində ərəb əlifbasıyla "Nizami Gəncəvi", bir qədər aşağıda isə "Bismillah-ir-rəhmanir-rəhim" sözləri yazılıb. Min təəssüf ki, belə zərif nəqqaşlıq işindən sonra qapıların üstündə çox iri hərflərlə, özü də kiril əlifbasıyla "Nizami" sözü yazılıb. Yamaq kimi görünən bu yazı qranit məqbərənin fasad daşında yonulub.

Məqbərənin ərazisi 6,5 hektardır. Girişdə tikilmiş iki ağ bina süvenir mağazası və burada yaradılacaq Nizamişünaslıq mərkəzi üçün nəzərdə tutulub. Ağ bazaltla qırmızı kərpicdən salınmış döşəmə 5 çiçəkliyi əhatə edir. Buradakı 5 fəvvarə də "Xəmsə"nin rəmzidir. Məqbərənin arxa hissəsində göl, 5 buta, yəni daş səhnələr, həmçinin burada tamaşa göstərəcək aktyorlarçün geyim otaqları var. 18 kilometrlik su kəməriylə Göy gölün təmiz suyu məqbərəyə çəkilib. Gələcəkdə burada meyvə bağları salınması nəzərdə tutulub. Tut və əncirdən başqa yerli iqlimə məxsus ən müxtəlif meyvə ağacları əkiləcək. Məqbərənin sağında, açıq səma altında daha bir tamaşa salonu var. Bu hissədəki heykəl-kompozisiya (müəllifi heykəltəraş Qorxmaz Sucəddinovdur) olduqca baxımlıdır. Tunc heykəllərin estetik gözəlliyi  baxanı valeh edir. Bütün kompozisiyanın uzunluğu 22 metr, ən hündür nöqtəsi 7 metrdir. "Xəmsə"dəki qəhrəmanlarının əhatəsində oturmuş Nizami  əlində "Divan"ını tutub... Heyf ki, fonda görünən alüminium zavodu heykəl-kompozisiyanın oyatdığı xoş duyğuları qanadlanmağa qoymur. Yaxşı olar ki, gələcəkdə ürəkaçan təbii fon alınması üçün burada sərv ağacları əkilsin. Ümumiyyətlə, bir cüt sərv, bir cüt meyvə ağacının növbələnməsi məqbərə ərazisində Şərq ab-havası yara-

dar, şimal təbiətinə məxsus küknar ağaclarına ehtiyac qalmaz. Layihənin müəllifi Fərman İmanquliyev də bu fikrimizə şərik oldu.

Nizami məzarı önündə sükuta dalarkən fikrimdə onun şeiri-sözü dolaşırdı:

**Ey tanrı, ümidim bunadır ancaq,**
**Bu köhnə dərgahdan düşərsəm uzaq.**
**Elə ki, pozular tərkibim mənim,**
**Dəyişər qurduğun tərtibim mənim,**
**Əsdikcə tozumu dağıdar yellər,**
**Pak olan canımı görməz bir nəfər,**
**Halımı arayıb, edəndə heyrət,**
**Varıma yox deyə, vurarkən töhmət.**
**Sən yoxdan əlinə ver öylə açar,**
**Bilsin ki, bu yatan ölməmiş yaşar!**
**Ölürsəm, bunu sən hamıya bildir:**
**"Bədəni yatmışsa, canı diridir".**

Düşünürəm ki, Nizami dühasının obrazlı təfəkküründən süzülüb gələn bu misralarda nə qədər dərin fəlsəfə var! Olum və ölüm, insan və təbiət, materiyanın öz formasını dəyişmək xassəsi, bir də ruhun ölməzliyinə inam, tanrıya tapınmaq hissi. Yenə fikrimdə şairlə dialoqa girmişdim: – Bəli, Şeyx Nizami, Sən canlısan, yaşayırsan. Ziyarətinə gələnlər də əvvəl-əvvəl Sənin həmişəyaşar sənət incilərinlə, hikmətli kəlamlarınla, elmi-fəlsəfi-bədii-estetik fikirlərinlə tanış olur, sonrasa hüzuruna gəlməyi vacib bilir.

Nizami adına ucaldılmış hər iki abidə – istər məqbərə, istərsə də heykəl-kompozisiya barədə əsl qiyməti, əlbəttə, xalq özü verəcək. Nahaq deməyiblər ki, el gözü tərəzidir. Məncə, hər iki sənət əsərinin əsl imtahanı isə zaman qarşısında olacaq. Görəsən, Nizami adına ucaldı-

lan bu abidələr illərin sınağından necə çıxacaq? Bunu indidən demək çətindir. İstərdik ki, Nizaminin sözü, sənəti kimi, məqbərəsi də əsrlərin qovğasından qalib çıxsın. Azərbaycan xalqının milli simvoluna çevrilsin. Şair əbəs yerə deməyib ki...

**Nə qədər şair var, söz var, şeir var,**
**Dünyada onlardan mənəm yadigar.**
**Mənimlə canlandı,  söz tapdı qüvvət,**
**Yenə də mənimlə edər qiyamət.**
**Mən söz gülşəninin sərv ağacıyam,**
**Sərv ağacı kimi xidmətdə varam.**
**Günəşəm, ön, arxam birdir, fərqi yox,**
**Azdır aldatmağım, işığımsa çox.**

Bəli, Azərbaycan oğlu Nizami Gəncəvi öz sənətiylə ölməzliyə qovuşduğunu bilib. Bildiyi üçün də hələ 8 əsr öncə peyğəmbərcəsinə uzaqgörənliklə, inamla yazıb:

**Min il sonra sorsan şair hardadır,**
**Hər beyti söyləyər burda, burdadır.**

Xoşbəxtik ki, dahi şairin minlərlə beyti ilə yanaşı, cisminin uyuduğu torpaq da bizə onun yerini nişan verir. Qəbrin nurla dolsun, Şeyx Nizami!..

**Gəncə-Bakı**
**"Yurddaş" qəzeti**
**11 dekabr 1991-ci il, səh.6**

# CƏFƏR CABBARLI – 90

Azərbaycan ədəbiyyatının görkəmli klassiki Cəfər Cabbarlı sovet dramaturgiyası xəzinəsinə ölməz əsərlər bəxş etmişdir. Dahi dramaturqun adı bütövlükdə sovet dramaturgiyası və teatrının inkişaf tarixi ilə sıx bağlıdır. C.Cabbarlı Azərbaycan səhnəsində elə bir məşəl yandırmışdır ki, onun işığı qardaş xalqların həyat və məişətini də işıqlandırmış, milli sədləri aşıb keçmişdir.

Ölməz dramaturqumuzun 90 yaşı 1989-cu ildə tamam oldu. Lakin respublikamızdakı gərgin ictimai-siyasi vəziyyət həmin il dahi ədibin yubileyini keçirməyə imkan vermədi. Kütləvi tədbirlərin, Cabbarlı qiraətlərinin, elmi konfransların təşkili, o cümlədən ədibin külliyyatının nəşri, yaradıcılığına həsr olunmuş bir sıra ədəbi-tənqidi məqalələr toplusunun çapı təxirə salındı.

Məlumdur ki, yubiley yalnız təntənəli akt deyil, eyni zamanda klassikin irsinə təzə baxışdır. Xüsusilə, "sosializm realizmi" metodu ilə öyrənilmiş, "sosializmin qurucusu" kimi müsbət və "kapitalizmin qalıqları – burjua ünsürü" kimi mənfi qəhrəmanlar sırasına bölünmüş sovet meyarı ilə möhürlənmiş Cabbarlı qəhrəmanlarının yeni ədəbi-estetik baxışa ehtiyacı vardır. Yubiley haqqında qərarın olmaması hələ 1989-cu ildə işə başlamış rəsmi təşkilatların – Nizami adına Ədəbiyyat İnstitutunun, bir sıra nəşriyyatların, o cümlədən respublika Yazıçılar İttifaqının öz tədbirlərini dayandırması ilə nəticələndi. Qədirbilən xalqımız isə rəsmi qərar ol-

madan belə öz böyük oğlunun 90 illiyini müxtəlif tədbirlərlə qeyd etdi.

Bu il Novruzun ilk günlərində – martın 22-də geniş xalq kütlələrindən xəbərsiz dahi ədibin anadan olmasının 90 illik yubileyi qeyd olundu. M.F.Axundov adına Opera və Balet Teatrında keçirilən ədəbi-bədii gecəni giriş sözü ilə Azərbaycan Yazıçılar İttifaqının sədri Anar açdı. C.Cabbarlının həyat və yaradıcılığı barədə xalq şairi Nəbi Xəzri məruzə etdi. Yubiley gecəsində cabbarlışünas alimlərimizdən professor Yaşar Qarayev, şair Cabir Novruz böyük dramaturqun yaradıcılığının məziyyətlərindən söhbət açdılar. Yubileyə qonaq gəlmiş yazıçı və şairlərdən türk Həyati Əslyazıçı, Cənubi Azərbaycandakı "Varlıq" dərgisinin naşiri Cavad Heyət, Təbriz radiosunun əməkdaşı Əsgər Fərzi, başqırd Ahiyar Həkimov, latış Uldis Berznış və başqaları ürək sözlərini bildirdilər. Rəsmi hissəni C.Cabbarlının qızı Gülarə xanım Cabbarlı yekunlaşdırdı.

Yubiley gecəsinin bədii hissəsində C.Cabbarlının sözlərinə yazılmış mahnıların ifası, ölməz pyeslərindən səhnələr göstərilməsi böyük dramaturqun xatirəsinə toplaşmış tamaşaçıların ürəyindən xəbər verdi.

C.Cabbarlının 90 illik yubileyini qeyd edən təntənəli gecə keçirilsə də, məncə, ədibin adına və irsinə layiq yubiley tədbirlərinin təşkili davam etdirilməli, kitabların nəşri başa çatdırılmalıdır. Azərbaycan dramaturgiyasını dünya üfüqlərinə çıxaran ölməz Cabbarlı sənətinə ehtiram əlaməti kimi keçirilən ildönümləri həm görkəmli ədibin, həm də xalqımızın adına layiq olmalıdır.

**"Yurddaş" qəzeti**
**4 aprel 1991-ci il, səh.7**

# ATA OCAĞI

Gülarə xanımla hamıya tanış olan bir ünvanda görüşmüşük: Cəfər Cabbarlının ev-muzeyində. Şərqli qadınlara məxsus sadəliyi, təvazökarlığı ilk gündən bizi ovsunladı. Onda inzibatçılıqdan əsər-əlamət yox idi. Direktor amirliyinin yerini övlad canıyananlığı tutmuşdu. Qarşımızda xarakterinin əlvanlığı ilə diqqət çəkən bir İNSAN dayanmışdı. Atası Cəfərdən, anası Sona xanımdan danışanda kövrəlir, uşaqlaşırdı. Həyat yoldaşı Seyfəddin Dağlıdan söhbət açanda iftixarla başını qaldırır, məğrur görkəm alırdı. Yəqin həmin anda unudulmaz ömür-gün yoldaşının tövsiyəsi yadına düşürdü. Rəhmətlik deyirmiş ki, Gülarə, həmişə başını dik tut, çünki heç kəsin yanında mənim dilim qısa deyil. Övladlarından qürurla danışırdı Gülarə xanım. Muzeyin dərd-sərinə gəlincə gözləri də, çöhrəsi də qayğılanır, bütün görkəmi işgüzar bir ifadə alırdı.

– Atamın bir arzusu vardı: yaşadığı evin yanında teatr binası tikilsin, Dağlı məhəlləsi də teatr üzü görsün. Ancaq bu arzusu deyəsən yerinə yetirilmədi. Bəlkə gələcəkdə olsun...

Vaxtaşırı muzeyə yolu düşən jurnalistlərə beləcə işindən-gücündən, atasının xatirəsiylə bağlı arzularından danışır Gülarə xanım.

Respublikamızda tarixin izini yaşadan, tarixi şəxsiyyətlərin yadigarlarını qoruyub-saxlayan muzeylər çoxdur. Onların arasında Cəfər Cabbarlının Bakıdakı ev-muzeyi öz abadlığı, səliqə-sahmanı ilə ürək açır. Bu işdə dahi ədibin qızı, ev-muzeyin direktoru Gülarə Cab-

barlının əməyi böyükdür. Axı, o bütün varlığıyla bu ocağa bağlıdır!..

Hər səhər Vaqif küçəsi ilə (indiki Həsən Seyidbəyli) qıvraq yerişli, zirək bir qadın üzüyuxarı – Dağlı məhəlləsinə tərəf qalxır. O, Həmid Sultanov küçəsindəki 44 saylı ünvana, işə tələsir. Bu qadın Gülarə Cabbarlıdır. O, analıq- nənəlik qayğılarını evdə qoyaraq Azərbaycan xalqının iftixarı olan atası Cəfərin ruhu qarşısında övladlıq borcunu yerinə yetirməyə tələsir. Ata ocağına nə qədər sığal çəksə də yorulmur, rahatlıq tapmır.

Otaqlardakı, eyvandakı təmizlik, yaraşıq göz oxşayır. Muzeyin əməkdaşlarının zövqünə-səliqəsinə də söz ola bilməz. Təbii ki, onların əksəriyyəti qadınlardır. Elə Gülarə xanımın qızı Qəmər də burada çalışır. Muzeyin elmi işçisidir. İki oğul anasıdır. Əmək fəaliyyətini baba yurduna həsr eləyib. Ata ocağı, baba yurdu. Bu yurdun işığı sönməsin gərək. Qonağı-qarası əskik olmasın. Qapısı açıq, həyət-bacası şen gərək ata ocağının. Belə düşünür Cabbarlı nəslinin nümayəndələri.

– Muzeydən ayrıla bilmirəm. Elə olur ki, lap axşamacan otururam burada. Baxıram, ürəyim açılır. Məndə bu ocağa dərin bağlılıq var. Çünki burada anadan olmuşam, burada böyümüşəm. Həyət-bacada o qədər oynamışam, bu tut ağacına o qədər çıxmışam ki... Atam özü əkib bu ağacı, baxanda elə bilirəm ki, atam özü sağdır. Ağac da qocaldı, əldən düşdü... Ona baxanda ürəyim ağrıyır.

Hava xoş olduğundan həyətdə, vaxtilə Cəfər Cabbarlının öz əlləri ilə əkdiyi həmin tut ağacının altında durub söhbətləşirdik. Söz yenə də keçmişdən – Gülarə xanımın atalı-analı günlərindən düşdü:

– Anam deyirdi ki, Cəfər çox qayğıkeş olub. Düzdür, teatra çox bağlı idi, ancaq ailəsini də yaddan çıxarmırdı. Uşaqlarına qarşı çox səmimi idi. Hərdən elə olurdu ki, evə gələndə deyirdi: -Sonası, nə gətirmişəm Gülarə üçün, nə gətirmişəm uşağım üçün, gətir ver də... Əslində heç nə gətirməyibmiş ey, elə deyirmiş ki, anam ovcuna kon-

fetdən-zaddan qoysun, atam da versin mənə sevindirsin ki, mən gətirmişəm.

Xatirələr Gülarə xanımı qanadlarına alıb aparır. Sona xanımdan eşitdikləri bir- bir yadına düşür:

– Anam danışırdı ki, Cəfər qayğanağı çox sevərdi. Bişirərdim, səni də oturdardı dizinin üstündə, bir qabda yeyərdiniz. Bir məqam vardı ki, deyərmiş:- Sonası qulaq as, gör indi nə deyəcək... Deməli, qayğanaq qurtarhaqurtarda mən çoxunu çəkib qoyurmuşam öz qabağıma, azını ona verirmişəm ki, papani, bu sənin, bu da mənim. O yerdə atam şaqqanaq çəkib gülərmiş ki, bax, Sonası, dedi ha... Bu sözüm çox ləzzət edərmiş atama.

Uşaqlıqda ərköyün və dəcəl qız olan Gülarə atası Cəfərin başına çox oyunlar açarmış. Günlərin birində atasını işə yola salarkən onun başını darayır, darağı da Cəfər Cabbarlının saçında qoyur. (Ədibin saçları o qədər gur imiş ki...) Bundan xəbəri olmayan dramaturq teatra yollanır. Papağını başından çıxaran kimi aktyorlar başlayırlar gülüşməyə ki, ay Cəfər, bu nə arvad darağıdır başında? Əlini gur, qıvrım saçlarına çəkən Cabbarlı görür ki, doğrudan daraq ilişib qalıb saçında, deyir: – Ürəyinizə başqa şey gətirməyin, şeytan Gülarənin əməlidir...

Beləcə, atalı günlərindən danışdıqca daxili bir hissin təsiriylə çöhrəsi işıqlanırdı Gülarə xanımın. Bu an o, deyəsən, artıq yaşa dolduğunu, oğul-qız anası, nəvə sahibi olduğunu da unutmuşdu. Danışa-danışa baxışlarını həyət-bacada gəzdirirdi. Nəzərləri ekspozisiyaların yerləşdiyi binada qərar tutunca söhbəti birdən dəyişdi:

– Bax, bu binanı tikəndə onun daşını-torpağını fəhlələrlə birgə daşıyıb. Evin layihəsini də özü verib. Elə tikdirib ki, ailəsi üçün rahat olsun. Mən o vaxt balaca olmuşam. Anam danışırdı ki, atamın çoxlu dostları varmış. Abbas Mirzə Şərifzadə, Mərziyə xanım Davudova,

Ülvi Rəcəb, Sona xanım Hacıyeva, Şəmsi Bədəlbəyli, Əfrasiyab Bədəlbəyli və başqaları onun əziz qonaqları imişlər. Həmişə yığışar, söhbətləşər, teatrla bağlı mübahisələr edərmişlər. Yaxşı yadımdadır, atam rəhmətə gedəndən sonra da Mərziyə xanımla Sona xanım tez-tez bizə gəlirdilər, oturub anamla dərdləşir, söhbət edirdilər.

Sözün bu yerində yenə kövrək xatirələr yada düşdü. Gülarə xanımın atalı günlərinin adidən-adi hadisələri yaddaşının dərin qatlarından nisgillə boylandı.

– Bir dəfə atam xəstələnmişdi. Mən oturmuşdum otaqda, yazıq-yazıq ona baxırdım. Həkimlər də yığılmışdı dövrəsinə. Ona görə belə yazıqlaşmışdım ki, həmişə bu kişinin başına çıxardım, indi isə məni yaxına qoymurdular. Həkimlər gedəndən sonra məni çağırdı yanına, başımı sığalladı, üzünü çevirdi o yana. Deyəsən, gözləri yaşarmışdı. O dedi: -Kaş xəstə olmayaydım, sizi böyüdəydim, bir yana çıxaraydım.

Xəyalən o günlərə qayıdan, mənimlə söhbət edə-edə o anları təkrar yaşayan Gülarə xanım köks ötürdü:

– Mənim yaddaşımda elə 35 yaşlı cavan kimi qalıb atam...

Müasirlərimiz üçün Cabbarlı yadigarlarının iki qanadı var: sənəti və övladları. Milli dramaturgiyamızın inkişafında müstəsna rolu olan Cəfər Cabbarlı Azərbaycan ədəbiyyatı xəzinəsinə misilsiz incilər bəxş edib. Zaman keçir, dövran dəyişir, ictimai-siyasi quruluşlar bir-birini əvəz edir, amma Cabbarlının yaratdığı obrazlar öz diriliyi, xarakterinin bütövlüyü ilə ədəbi-estetik fikrin meyarlarını müəyyənləşdirməkdə davam edir. Böyük sənətkarın övladları- oğlu Aydınla qızı Gülarə isə onu şəxsiyyət kimi yaxından tanımaqda bizə yardımçı olurlar. Məhz bu dəyərli insanların xatirələrindən boylanan epizodlar gələcək nəsillər üçün Cəfər Cabbarlının özünün obrazını cızır.

Uşaqlıqda Aydının ədəbiyyata böyük həvəsi varmış, şeir yazarmış. Gülarə isə həkim olmaq istəyirmiş. Taleyin qəribə işləri çoxdur. Ədəbiyyatçı olmağa hazırlaşan Aydın Cabbarlı həkim oldu, həkimlik

arzusuyla yaşayan Gülarə Cabbarlı isə ədəbiyyatçı. Nədənsə, yerləri aldəyişik düşdü. İndi də bacı-qardaş söhbət edəndə söz düşdükcə Aydın deyir ki, ay Gülarə, gərək sən həkim olaydın, mən ədəbiyyatçı. Ali təhsilli filoloq olan Gülarə xanım uzun müddət Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr muzeyində işləyib. Atasının ev-muzeyi açılanda köçürmə yolu ilə bu sənət məbədinə direktor təyin olunub. Hazırda muzeyin kollektivinə rəhbərlik edir.

...Cəfər Cabbarlının qızı dünyaya gələndə övladına anası Şahbikə xanımın adını qoymuşdu. Amma körpəni hər dəfə bu adla çağıranda anasına min bir tellə bağlı olan Cəfər çox kövrəlirmiş. Axırı dözə bilməyib günlərin birində vəfalı həyat yoldaşına deyib ki, Sonası, belə olmaz, ürəyim tab gətirmir, uşağın adını dəyişməliyəm. Bundan sonra Cəfər qız balasına ikinci dəfə ad verir: Gülarə. Uşaqlıqda şıltaq, dəcəl qız imiş. Atasının qucağına atılmaqdan usanmazmış. Cəfər qızının hər şıltağına dözür, nazını çəkirmiş. Atalı günlərinin ömrü az olsa da Gülarə Cabbarlı ömrü boyu atasının himayəsini hiss edibdir. Qeyrətli Sona xanım Cəfərin yadigarlarını firavan böyüdüb, korluq çəkməyə qoymayıbdır. Gülarə xanım sevimli yazıçımız Seyfəddin Dağlının ömür-gün yoldaşı olub. İki oğul, bir qız böyüdüblər. Böyük oğlu Bəhlul atasının yolunu tutub. Qələm əhlidir. Kiçiyi Altay hüquqşünasdır.

– Seyfəddin çox qayğıkeş, ailəcanlı idi, – deyə müsahibim söhbəti davam etdirir. – Uşaqlıqdan balalarını aparıb hər yeri gəzdirirdi ki, qoy uşaqlar gəzsinlər-görsünlər. Gecədən oturardı işləməyə. O həmişə yazırdı, yazandan sonra verirdi mənə ki, Gülarə al oxu, gör necədir. Mən də oxuyub fikrimi deyərdim. Tənqidi qeydlərimi mütləq nəzərə alırdı. Mənim üçün yaxşı həyat yoldaşı olub Seyfəddin, uşaqları üçün çox yaxşı ata olub... Səmimi olub, qayğıkeş olub. Həmişə mənə deyərdi ki, Gülarə, yol gedəndə başını dik tut, çünki mən heç kəsin yanında xəcalətli deyiləm.

Qayğıkeş ana, istiqanlı nənədir Gülarə xanım. Nəvələrinin ilki anası Sona xanımın adını yaşadır. Elgünün, Dilarənin, Ülvinin, Orxa-

nın adları dilindən düşmür. Gəlinlərini də özünə doğma övlad bilir. Xoşxasiyyət, mehriban, istiqanlı ailə başçısıdır. Öz ömründə Cabbarlı ömrünü yaşadır Gülarə xanım. Nüfuzlu gözləri, sirayətedici baxışları, ürəkdən gələn danışığı, bir çox hərəkətləri atasını xatırladır deyirlər. Qəlbi həyat eşqiylə doludur. Dramaturgiyamızın dühası Cəfər Cabbarlı, tanınmış yazıçımız Seyfəddin Dağlı, bir sıra görkəmli ədəbiyyat, incəsənət və teatr xadimlərimizlə bağlı xatirələrindən doymaq olmur. Şirin həmsöhbətliyi var. Onunla görüşməyə tələsin. Şərqli qadınlara məxsus sadəliyi, təvazökarlığı qəlbinizi riqqətə gətirəcək.

**"Yurddaş" qəzeti**
**4 aprel 1991-ci il, səh. 7-8**

# “ÖMÜR BİR XALIDIR, NAXIŞI ƏLVAN”...

**Kişi kimi, sağlam və şux yaşamağı uzun ömürdən üstün tutan xalq şairi Qabil 40 gündür ki, aramızda yoxdur. 81 yaşında sıralarımızı tərk edən sənətkardan bizə qalan zəngin yaradıcılığıdır, bir də ocağının çırağını yandıran yeganə övladı Mahir.**

**Mən Qabili şair kimi bəyənirdim, amma bu şəxsiyyəti məhz ata kimi sevdim. Oğlu Mahirlə birgə işləyəndən sonra. Hər dəfə ata Qabil oğluna zəng edib onu arayanda, görmək istəyəndə, “tez gəl, çörək yeyək, səni gözləyirəm” – deyəndə bu insan gözlərimdə bir az da böyüyürdü.**

**Arabir AzTV-yə çəkilişə, ya da birbaşa verilişə – canlı yayıma gələndə Qabil müəllim mütləq yolunu “Xəbərlər”dən salırdı. Redaksiyamıza baş çəkib hamıyla hal-əhval tutur, axırda da “Mahiri sizə tapşırıram, ondan muğayat olun” – deyirdi. Həmin anlarda “Xəbərlər”in foyesində necə gülüşmə, qəhqəhə qopurdu, indi də yadımdadır. Baməzə Mahirin atmacalarına tuş gələn həmkarlarım “Qabil müəllim, bizi ona tapşır” – deyirdilər, – “Mahir buralarda at oynadır...”. Oğlunun bacarığına, qoçaqlığına, ağlına- fərasətinə bələd olsa da, hər halda şairin ata qəlbi bu tapşırığı verməyincə rahatlıq tapmırdı.**

Müasir Azərbaycan poeziyasının sayılıb-seçilən nümayəndələrindən olan Qabil İmamverdiyev 60 ildən çox milli poeziyamızın inkişafı yolunda külüng çalıb. Xarakterindəki çılğınlıq, sözü birbaşa üzə deməyi, ötkəmliyi şeirlərində də öz əksini tapıb. Ruhunun tərcümanına çevrilən şeir-sənət incilərində Qabil həm gözəlləri və gözəllikləri tərənnüm edib, həm də yaşadığı dövrün ictimai-siyasi hadisələrinə münasibətini bildirib. Hələ 1993-cü ildə "Çadırlara alışmayın" – deyə hayqıran el ağsaqqalı yazırdı:

**Tayfa deyil, millətik Biz,**
**Bir evik, bir külfətik Biz,**
**Saraylara şöhrətik Biz,**
**Çadırlara alışmayın!**

El-elatı cərgələnmiş çadırlarda gördükcə gözü qan ağlayan şair didərgin balalarını mübarizəyə səsləyirdi:

**Vurun, deşin dolu kimi,**
**Qırın tikan kolu kimi,**
**Uzaqlaşın dəli kim...**
**Çadırlara alışmayın!**

1988-ci ildən bu yana yüksələn milli-azadlıq mübarizəsi Qabil İmamverdiyevin yaradıcılığında geniş əksini tapmışdır. Vətənin azadlığı və suverenliyi uğrunda canlarını fəda edən Azərbaycan övladları Qabilin həm dərdinə, həm iftixarına çevrilmişdi. Dağlıq Qarabağ münaqişəsi, işğal altında qalan Azərbaycan torpaqları, qaçqın- köçkün problemi, şəhid ailələrinin itkisi şairə rahatlıq vermirdi. "Gün o gün olmayacaq, nə qədər ki...", "Şəhid anası", "Mən göz yaşlarına dözə bilmirəm...", "Çadırlar", "Axı niyə", "Xəcalət", "Çıxma qabağıma", "Şəhid sayılmayır", "Çalma, qaboy", "Belə olmaz",

"Qeyrət, a vətəndaşlar", "...Lazım gəlsə...Lazımsan də!", "Hava necə olacaq", "Haray, tələsin, gəlin!", "Qərənfillərdən uzaq", "Sağalmadı yaran, balam" və s. şeirlərində xalqın şairi Qabil həmvətənlərini düşündürən məsələlərə dair duyğu və düşüncələrini nəzmə çəkərək ictimai-siyasi lirikanın orijinal nümunələrini yaratmışdır.

Müstəqillik yollarında ağır sınaqlardan keçən Azərbaycanda baş verən elə bir ictimai-siyasi hadisə yoxdur ki, Qabil poeziyasında ona münasibət bildirilməsin. Şair Şəhidlər xiyabanına yağan göz yaşlarından od tutur, lirikanın qüdrəti insan ruhunun dərin qatlarına nüfuz edir:

**Mən göz yaşlarına dözə bilmirəm,**
**İnsan ürəyində pünhan ağlasa.**
**Gözə görünməyən göz yaşlarıyla**
**Sonu görünməyən hicran ağlasa.**

1990-cı ilin 20 Yanvar faciəsinə mərsiyə həsr edən Qabil klassik Azərbaycan ədəbiyyatının bu lirik janrına müraciət edərək, müasir poeziyanın maraqlı bir nümunəsini yaratmışdır:

**Tutulub vahimədən nitq bu gün, dil bu səhər,**
**Bəzəyib Abşeronu qanlı qərənfil bu səhər,**
**Bakı fəryad eyləyir, gözdən axır sel bu səhər.**
**Gəmilər nalə çəkir, ərşə çıxır zil bu səhər,**
**Gecəni atəş ilə qırmızı dan eylədilər,**
**Xalqımı-millətimi güllə-baran eylədilər!**

Yaradıcılığına toplu halda nəzər salanda görürük ki, yaş üstünə yaş artdıqca müdrikləşən Qabilin həyat və hadisələr barədə qənaətləri bir-iki misralıq şeirlərdə, bəzən də sərbəst vəzndə oxucuya təqdim olunur:

**Adamı – birinci gözündən tanı!**
**İkinci – qulaq as, sözündən tanı!**
**Üçüncü – özündən hap-gop eləsə,**
**Özgədən soruşma, özündən tanı!**

Şairin ibrətamiz müqayisələri ("Məhəbbət deyil", "Qarışdırma", "Yaxşı adamların həsrətindəyik" və s. şeirlərində), aforizm səviyyəsinə yüksələn deyimləri poeziyadan daha çox fəlsəfənin materialına çevrilir. Bu məqamda Qabilin həyat fəlsəfəsi onun poeziyasında əksini tapır. Şairin qənaətinə görə, "kin qəlbin xərçəngidir", "inam müqəddəsdir", "fırıldaq da rəngdir", "səxavət sərvətdən doğar", "qorxaq qorxusundan xəyanət elər", "ac adamın gözündə hər şey yeməkdir", "daz adamda daraq olmaz, süst adamda maraq olmaz", "tale tilsimini açan olmayıb", "hər adam öldürən qatil deyildir", "buzda sürüşmək xətadır, sözdə sürüşmək bəladır!".

Bəzi məqamlarda atalar sözü ilə razılaşmayan şair "pul əl çirki deyil, əl qabarıdır, dil uzunluğudur, üz ağlığıdır"– deyə pula müasir dövrün prizmasından dəyər verir. "Qədir bilməyənlərin qulluğunda dayanma" öyüdü də, şəhid analarına müraciətlə dediyi – "Sənə baş əyincə bu el, bu diyar, Sən kimə təşəkkür edirsən, kimə?!" – tövsiyəsi də şair qəlbinin çırpıntılarıdır.

Qabilin şeirlərindəki fikir yükü, sanbal, dərin məna, sadə həqiqətlər diqqəti çəkir. Milli ədəbi irsimizdən, Azərbaycan dilinin bədii imkanlarından geniş bəhrələnən Qabil ana dilimizin şəhdi-şirəsini poeziyaya gətirib. Onun təbi rəvan, dili axıcıdır. İstər lirik şeirlərində olsun, istər poemalarında, istərsə də ictimai- siyasi motivli əsərlərində – Qabilin dili xalq dilinə yaxındır. Onun əsərlərini mütaliə edəndə özünü evindəki- elindəki-obandakı ağsaqqalla söhbətləşirmiş kimi hiss edirsən.

Ömrü boyu fəal həyat mövqeyi və hadisələrə obyektiv

münasibəti ilə seçilən Qabil İmamverdiyev Azərbaycan poeziyasının tanınmış simaları Səməd Vurğun, Rəsul Rza, Süleyman Rüstəm, Məmməd Araz, Bəxtiyar Vahabzadə, Xəlil Rza Ulutürk, Məmməd Rahim, Nəbi Xəzri, Cabir Novruz kimi sənətkarlarla eyni dövrdə yaşayıb-yaratmışdır. Və bu şeir-sənət bolluğunda, Azərbaycanda ədəbi prosesin qaynar çağında geniş oxucu auditoriyası qazanmış, özünəməxsus dəst-xəttilə seçilib- sevilmiş, tanınıb-məşhurlaşmışdır. Yüzlərlə əsərin müəllifi olan Qabilin dillər əzbəri olmuş "Səhv düşəndə yerimiz" şeiri və "Nəsimi" poeması isə sənətkarın vizit kartıdır, – desək yanılmarıq, məncə.

Cəmiyyətdəki haqsızlıqlara göz yummurdu Qabil. Nə sovet dövründə, nə də müstəqillik illərində. Böyük həqiqətləri lakonik, obrazlı deyimlə çatdırırdı:

**Müsibət oluruq biz**
**Səhv düşəndə yerimiz.**

**Küt bıçaq parıldayıb,**
**Xırçıltı salıb.**
**Qılınc qında pas atıb,**
**Qında korşalıb...**
**Heyf...korşalırıq biz**
**Səhv düşəndə yerimiz.**

Onun "müsibət oluruq biz, səhv düşəndə yerimiz" kəlamı xalq arasında zərb-məsələ çevrilmişdir.

"Nizamidir söz Allahı" deyən xalq şairi sənətə münasibətin ucuzlaşmasına dözə bilmirdi. Cızma-qaranı şeir adıyla cəmiyyətə təqdim edənləri tənqid atəşinə tutur, onları "söz tüfeyliləri, söz həşəratı" adlandırırdı:

**Mən daha heç bir şey yaza bilmirəm,**
**Daha çimçəşirəm qələmdən, sözdən.**
**Bu hərc-mərcliyə dözə bilmirəm –**
**Sənət və sənətkar düşübdü gözdən.**
**("Yaza bilmirəm")**

Mövzu əlvanlığı, vətəndaş mövqeyi və mübarizlik, milli mentalitetə sədaqət, həyat həqiqətlərinə obyektiv baxış, humanizm və ədalət prinsiplərinin təbliği, xalqdan gələn sadəlik, xəlqilik, realizm Qabil yaradıcılığının səciyyəvi cəhətləridir.

**Gözüm qaldı gözlərinin qarasında,**
**Ürəyimə bir od düşdü**
**İki suyun arasında,**
**Nə Araz söndürdü, nə də Kür məni**
**Qoyma külə dönüm, gəl söndür məni**
**Suqovuşanda.**
**("Suqovuşanda")**

Ana Vətəni Azərbaycanı qarış-qarış gəzən şair Qız qalasının əzəmətini də, Yanardağ möcüzəsini də, Lənkəranın gül bağını, Naxçıvanın duz mədənlərini, Qobustanın daş səltənətini, Göy gölün mənzərəsini, Pirşağının şanısını, Göyçayın narını, İsmayıllı lövhələrini, Xəzərin şıltaqlıqlarını... eyni məhəbbətlə tərənnüm edirdi. Hələ ötən əsrin 60-cı illərində qələmə aldığı "Gedən yerim olaydı" şeirində sıldırımlı dağlara sığınmış bir kəndin həsrəti şairin qəlbində tüğyan edir:

**Başımda sevdalı fikirlər,**
**Harasa gedən yerim olaydı.**
**Çətin bir ünvan axtaraydım,**

**Gəlişimə inanmayan,**
**Gəlişimi gözləməyən**

İnsan axtaraydım... – deyən Qabil bu yolda hər əzaba qatlaşmağa hazır olduğunu bəyan edir.

**Təki**
**Gedən yerim olaydı...**
**Axşam düşəndə**
**Çataydım**
**Sıldırımlı dağlara sığınmış bir kəndə,**
**Döyəydim bir qapını**
**Əllərim əsə-əsə,**
**İt zəncir gəmirəndə,**
**Adam çıxaydı səsə.**
**Bir cüt pərişan gözlə**
**Göz-gözə,**
**Bir xoş, mehriban üzlə**
**Üz-üzə**
**Dayanaydım.**
**O, heyrət elədikcə,**
**Mən alışıb yanaydım.**
**Qucaqlayıb boynunu,**
**Sığallayıb telini,**
**Qupquru dodağımla**
**Yandıraydım əlini.**
**Uşaq kimi ağlayaydım,**
**Bulaq kimi çağlayaydım!**

– Şair beləcə xalq həyatının paklığına qovuşmaq arzusuyla alışıb-yanırdı.

Qabilin şəxsiyyəti ilə tanış olmaq üçün "Avtoportret", "Oğlum Mahirlə söhbət", ömür-gün yoldaşı Bəyim xanıma həsr etdiyi "On səkkiz yaşında..." şeirləri də səciyyəvidir.

**Çatır son mənzilə ömrün karvanı**
**Əlli il yol gəldik bu səhrada biz.**
**Baxtımıza düşən əhdi-vəfanı**
**Əmanət saxladıq bu dünyada biz.**

Ailə qurandan 50 il sonra belə həyat yoldaşını 18 yaşındakı kimi görən xalq şairinin, el ağsaqqalının bu sayaq əsərləri həm də tərbiyəvi mahiyyət daşıyır. Oğlu Mahirə öyüd verən ata Qabil ağı-qaradan seçməyi, səylə tükü-tükdən ayırmağı tövsiyə edir.

**Kobudluqla cəsarəti qarışdırma.**
**Yaltaqlıqla nəzakəti qarışdırma.**
**Mütiliklə sədaqəti qarışdırma.**
**Lovğalıqla ləyaqəti qarışdırma.**

**("Qarışdırma" )**

Əlbəttə, Qabil müəllimin xatirəsinə bəslədiyimiz ehtiramın ifadəsi olan bu yazıda onun bütün yaradıcılığını əhatə etmək fikrindən uzağıq. Əminik ki, yaxın gələcəkdə ədəbiyyatşünaslarımız Qabil yaradıcılığını geniş tədqiqata cəlb edəcək, müasir Azərbaycan poeziyası kontekstində onun yeri və rolu barədə əsərlər yazılacaqdır.

Xalq şairi Qabil sağlığında ikən qiymətini almışdır. O, Azərbaycanın Dövlət mükafatları laureatı olmuşdu, əməkdar incəsənət xadimi, xalq şairi, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü idi. Sənəti və Vətən qarşısında xidmətləri ölkə rəhbərliyi tərəfindən yüksək dəyərləndirilən Qabil İmamverdiyev müstəqil

Azərbaycanın ali dövlət mükafatları – "Şöhrət" və "İstiqlal" ordenləri ilə təltif edilmişdir.

Müasiri olduğum, həm ustad sənətkar, həm də şəxsiyyət kimi tanıdığım xalq şairi Qabil 2005-ci ilin payızında ağır xəstə yatırdı. Səhhəti qəflətən pisləşmişdi. O zaman şairin şəfa tapmasında üç amil əsas rol oynadı: həkimlərin səyi, dövlət qayğısı, bir də övlad canıyananlığı. Bu, Qabil müəllimin özündən eşitdiyim sözlərə əsasən gəldiyim qənaətdir. Günaşırı xəstəxanaya zəng vurub hal-əhval tutanda Mahir çox vaxt telefonu atasına verirdi, şairlə söhbətləşirdik. Mənəvi dayaq olanların çoxluğu, xalqın sevgisi, ölkə rəhbərinin diqqəti şairi ruhlandırırdı. Xəstəxana çarpayısında həyat uğrunda mübarizə aparan Qabil ölümün gözünə mərdi-mərdanə, dik baxdığına görə, bəlkə, o zaman ölüm şairə qıymadı.

2005-ci ilin dekabrında, xəstəxanada ikən qələmə aldığı "Ölüm hicran deyil" şeirinin əlyazması qarşımdadır.

**Ölüm hicran deyil,**
**Hicranın vüsalı var.**
**Ölüm tufan deyil,**
**Aləmi dağıtsa da**
**Yatmaq ehtimalı var.**

**Ölüm kişi sözüdür,**
**Bütöv, qəti.**
**Ölümün insafına qalıb**
**Həkimin xilaskar zəhməti.**
**Yox, qardaş, ölümün insafı varmış,**
**Yoxsa Qabil bu saata qalarmış?**

Ömrünün son illərində yazdığı şeirlərdə Qabil daha çox həyat və ölüm haqqında düşüncələrini bölüşmüşdür. Oğlu Mahirdən götürdüyüm əlyazmaları bu qənaəti təsdiqləyir. Sağlığında ikən çap üzü görməyən "Yaşın nə fərqi", "Nə yazım ki...", "İlıq...qılıq...həsrət", "Qayıtmaq istəyirsən?", "Deyil" adlı şeirlərində qocalan şairin həyat eşqi oxucunu kövrəldir. 80 yaşın astanasında "ömür bir xalıdır, naxışı əlvan" – deyən Qabil kişi kimi yaşadı, kişi kimi də dünyadan köçdü.

**Başında sevda havası,**
**Qəlbin qaranquş yuvası,**
**Kötük deyil, çinarsansa,**
**Yaraşıqsan, vüqarsansa**
**Yaşın nə fərqi, nə fərqi.**

**Bilirsənsə siqlətini,**
**Dəyərini-qiymətini**
**Yaşın nə fərqi, nə fərqi.**

**Can evindən çıxınca can,**
**Qorxmursansa Əzrayıldan.**
**Dünyanı dərk edə-edə**
**Gedirsənsə,**
**Adam kimi gedə-gedə**
**Gedirsənsə,**
**Yaşın nə fərqi, nə fərqi.**

Müasir Azərbaycan poeziyasında yeri görünən Qabil müəllim, əbədiyyət ünvanında rahat uyuyun! Qədirbilən xalqımız, sənətə və sənətkara dəyər verən dövlətimiz Sizin xatirənizi yaşadacaqdır. Ən böyük abidəniz isə əsərlərinizdir!

**"Xalq qəzeti" 13 may 2007-ci il, səh.5,**
**"Qabilli, Qabilsiz günlər" Bakı – 2008, səh.124-132**

# AŞIQ, BAĞRINA BAS SƏDƏFLİ SAZI

**Söznən bəhrələnən qoca dünyanın**
**Eşqinin havası telli sazdadı.**
**Səfalı bağların, uca dağların**
**Təsviri, boyası telli sazdadı.**

Dünyaya ərənlər gəldi. Saz çaldılar, söz qoşdular. Ürəklərə od salmaq üçün "Yanıq Kərəmi" eşq atəşində yandırdılar, ruhumuzu dilə gətirsinlər deyə "Ruhani"ni harayladılar. "Baş Sarıtel"lə "Ayaq Sarıtel" göynəyən qəlbimizə məlhəm oldu. Sazın təranələri altında uyuduq. Dünyadan ərənlər köçdü. Sazı türk övladına miras qoyub getdilər. "Kərəm gözəlləməsi", "Koroğlu bozuğu", "Cəlili", "Qaraçı" varislərə yadigar qaldı. Ulu ozan sənəti əsrlərdən- əsrlərə, nəsillərdən-nəsillərə yetişdi. Yaşadığımız XX yüzillikdə bu sənətin zirvə siqlətini çiyinlərində daşıyanlardan biri də Borçalı aşığı Ustad Kamandar oldu.

Zəngin el ədəbiyyatımızın, xalq musiqimizin mahir bilicisi olan Ustad Kamandar sinkretik aşıq sənətinin hər üç qolunu özündə məharətlə cəmləşdirən istedad sahibidir. Məharətlə çaldığı sazın fonunda yüksələn qüdrətli səsini, xoş avazını dinləyən kəs heyran qalmaya bilmir. Sinəsində neçə- neçə el dastanı, söyləmə, havacat var. 40 illik

yaradıcılığı dövründə aşıq onlarca qoşma, gəraylı, dodaqdəyməz, təcnis, divani, müxəmməs, müstəzad və taziyanə qoşubdur. Sazın müşayiətilə şeir söyləyəndə Kamandar səsinin məlahəti, ecazkar gözəlliyi tamaşaçını da, dinləyicini də ovsunlayır. Borçalı mahalından ucalan bu səs Azərbaycan elləri boyunca yayıldıqca ürəyimiz toxtaqlıq tapır; ulu ozan sənəti dünya durduqca bizimlədir!..

Ömrü boyu Azərbaycan torpağında yaşasa da, tarixin üzüdönüklüyü nəticəsində Gürcüstan vətəndaşı olan Aşıq Kamandar "Azərbaycanım", "Çıraqqala", "Kəlbəcər xatirələri", "İstisuda düşüncələr", "Borçalı", "Dağlar", "Damcılı bulağında" və s. şeirlərində Vətən torpağını sevə-sevə tərənnüm edir. "Ceyhun" təxəllüsü ilə yazdığı şeirlərdə də oxucu Kamandar qəlbinin döyüntülərini, Kamandar sözünün hərarətini aydınca duyur. Aşığın şeir-sənət dünyasıyla təmasda olan kəs görür ki, "mərd oğul abad eyləsin öz yurdunu, yuvasını" arzusuyla yaşayan şair Kamandar vurğunu olduğu dağların "kövrək" ozanıdır. Bəlkə bu kövrəklik onda həsrətdən yaranıb? Axı, doğma respublikadan kənar düşmək özü həsrət doğurur.

**Kamandar tək həsrətini**

**Varmı çəkən, Çıraqqala?** – deyən şair elə buna işarə vurmurmu?!

Xoş haldır ki, son illər Azərbaycandan kənarda yaşayan yurddaşlarımıza diqqət, qayğı artıbdır. Elə çiçəkli may günlərində Bakıda keçirilən Aşıq Kamandar həftəsi buna bariz sübutdur. Böyük el sənətkarının 60 illiyinə həsr olunmuş yubiley tədbirlərini respublika Mədəniyyət Nazirliyinin mədəniyyət üzrə elmi-metodiki mərkəzi "Varis" yaradıcılıq birliyi ilə "Borçalı" teatr-kino studiyası birgə təşkil etmişdilər. Maraqlı, məzmunlu yubiley tədbirləri paytaxtımızın mədəni həyatını daha da rövnəqləndirdi. Əsl saz-söz bayramına çevrildi.

## "ÖMRÜN DƏDƏLİK ÇAĞI"

M.F.Axundov adına Azərbaycan Dövlət Opera və Balet Teatrında keçirilən ədəbi-bədii gecə belə adlanırdı. Salonda iynə atsaydın yerə düşməzdi. Ulu ozan sənətinin pərəstişkarları, saz-söz həsrətli paytaxt sakinləri, Borçalıdan, Qarayazıdan, Qaraçöpdən pərvazlanmış ədəbiyyat və incəsənət xadimləri, alimlər, müxtəlif peşə sahibləri Ustadın məclisinə yığışmışdılar. Kamandar sənətinə göstərilən bu ehtiram, bu məhəbbət yubiley tədbirlərini başlanğıcdan sonadək müşayiət etdi. "Ömrün dədəlik çağı" adlanan ədəbi-bədii gecəni şair Vilayət Rüstəmzadə aparırdı.

– Əziz həmvətənlərimiz, hörmətli qonaqlar! Adı eldən-elə, bəmdən-zilə yüksələn aşığımızın məclisinə xoş gəlmişsiniz! – deyə o, Kamandar sənətinin işığına yığışanları salamladı. Sonra V.Rüstəmzadə aşıq sənətinin xalqımızın mədəniyyət tarixində necə böyük rola malik olduğundan danışdı, bu işdə aşıqların əvəzsiz xidmətini qeyd etdi.

Sazlı-sözlü gecədə çıxış edənlər çox oldu. Tədqiqatçı Hüseynqulu Məmmədov, professor Qara Namazov, şairlər Hüseyn Arif, Məmməd Aslan, Zəlimxan Yaqub və Abbas Abdulla, müğənni Mayis Salmanov və başqaları Ustadın 60 yaşını təbrik edərək, öz ürək sözlərini söylədilər. Professor Camal Mustafayev dedi:

– Saz həsrətli ürəklərimizi intizarda qoymaq istəmirəm, belə məclislərdə sözü uzatmaq günahdır. Kamandar bizim bu əzəli-əbədi sənətimizi özümüzə qovuşduran ustad sənətkardır. Bizi bu an saz elə sehrləyib, elə birləşdirib ki, sanki qəriblər bir-birindən ayrılmazdır. Kamandar səsinin gözəlliyi, sehri, qüdrəti heç kəsdə yoxdur. Aşıq Məhəmməd Sadaxlı yaxşı dedi ki, hamı Kamandarı təqlid etmək istəyir. Çünki Kamandar böyük sənətkardır. Düzdür, öyrənmək yaxşıdır, amma hər sənətkar özünə bənzəməlidir. Ən əfzəli isə budur ki, istedad olmasa, təqlid heç nə verməz. Kamandardan yeganə təmənnamız budur ki, o, kamandarlar yetişdirsin, aşıq məktəbimiz yaşasın.

Beləcə arzular, istəklər bir-birinə calandı o gecə. Sazla sözün ünsiyyətindən Ustada şöhrət çələngi hörüldü. Borçalı aşıqlarından Məhəmməd Sadaxlı və Əhməd Sadaxlı, Elman Kosalı, İlham Əsgəroğlu, "Göyçə" aşıqlar ansamblının üzvlərindən Pəhləvan Nəsiboğlu, Kərəm Bəkiroğlu öz ustalıqlarını dönə-dönə nümayiş etdirdilər.

– Borçalı torpağı göydə Allaha, babaların ruhu uyuyan torpaqda – yerdə saza tapınıb. Çox şeyi dəyişdilər, sazımızı dəyişə bilmədilər, – deyə Aşıq Osman Əhmədoğlu doğma eldə saza bağlılığın köklərindən danışdı.

Yubiley mərasimində şair Məcnun Göyçəli ustad sənətkara Azərbaycan Aşıqlar Birliyinin "Fəxri Fərman"ını təqdim etdi. O, Aşıq Kamandarı təbrik edərək yubilyara dedi: – Gün o gün olsun ki, növbəti yubileyiniz Göyçədə keçirilsin. Qaralan ocaqları, sönmüş çıraqları yandırasınız, ustad!

Azərbaycan Mədəniyyət Fondunun idarə heyəti adından göndərilən təbriknaməni nümayəndə Zahid Quliyev oxudu. Hər hansı rəsmiyyətdən kənar olan yubiley təntənəsi hərarətli, səmimi ab-havada keçdi. Ədəbi-bədii gecədən evə dönərkən qulaqlarımda xalq ədəbiyyatının gözəl bilicisi və yorulmaz təbliğatçısı, şair Məmməd Aslanın dərin mənalı sözləri səslənirdi:

– Bu gün Azərbaycan aşıq sənəti bir kövrəklik yaşayır, yıxılan dağların yerində bir zirvəmiz qalıb – Kamandar. Dədə Ələsgərin, Dədə Şəmkirin, Dədə Əmrahın, Hüseyn Saraclının yerində bir Kamandar. Birdirsə, onu lap möhkəm qorumalıyıq, qədrini bilməliyik. Axı, sənətkar ruhi qidanı, ilhamı elin məhəbbətindən-sayğısından alır... İkinci, üçüncü, dördüncü zirvələri isə zaman özü yetişdirəcək, inşallah!

## DASTAN GECƏSİ

Möhtəşəm Qız Qalasının yaxınlığındakı Şirvanşahlar sarayının qədim Karvansarayında keçirilən bu gecə yaddaşlara əbədilik həkk

olundu desəm, mübaliğə saymayın. Açıq havada, çay süfrəsi başında təşkil edilən məclis romantik əhval-ruhiyyə yaratmışdı. Səmadan məclisə boylanan Ay da, ulduzlar da sanki Aşıq Kamandarı dinləməyə gəlmişdilər. Gecə musiqi, şeir-sənət ovqatına bürünmüşdü. Aşıq oxuduqca qəlblərə od salır, düşüncəli başlar ahəstə-ahəstə yırğalanırdı. Aşıq bəmdən zilə qalxdıqca çarhovuzun başındakı tənha ağacın yarpaqları da musiqinin ritminə uyğun şəkildə titrəşir, öz yarpaq dillərində zümzümə edirdilər. O gecə ayrı gecəydi. O gecənin hikmətini şahidi olmayan duymaz.

Gecənin aparıcısı Azərbaycan Dövlət "Muğam" Teatrının aktyoru və rejissoru İshaq Ozanoğlu idi. Gənc İshaqın bəlağətli nitqi, məzmunlu söhbətləri, mənalı replikaları ayrı-ayrı çıxışlar arasında gözəgörünməz rabitə yaradır, gecəni bütöv, süjetli tamaşa şəklində birləşdirirdi. Belə istedadlı cavanlarımıza əhsən! İshaq Ozanoğlu zahirən müasir olduğu qədər də, daxilən kökə-soya bağlı Azərbaycan oğludur, türk övladıdır.

Proqram üzrə Ustad Kamandar həmin gecənin tamaşaçılarına Aşıq Şenliyin "Lətif şah" dastanını söyləməliydi. Lakin havanın küləkli, aşığın bir qədər nasaz olması bizi dastan dinləmək səadətindən məhrum etdi. Bu yerdə məhz gecənin təşkilatçılarının, xüsusilə də məclisin aparıcısı İshaq Ozanoğlunun məharəti sayəsində məclis öz yaraşığını itirmədi. Artıq bizə opera teatrındakı açılış gecəsindən yaxşı tanış olan sənətkarlar, aşıqlar məclisi rövnəqləndirdilər.

Həmin axşam yenə saz sənəti şəninə təriflər söyləndi, qoşmalar qoşuldu. Bu ulu sənəti yaşatmaq və inkişaf etdirmək zərurətindən söhbət açıldı. Akademik Mirəli Seyidov qeyd etdi ki, biz aşıqlarımızın simasında öz ilkin filosoflarımızı, ilkin alimlərimizi görmüşük. "Aşıq" – qədim türk dillərində "günəş" deməkdir.

Məclis əhlinin xahişilə Aşıq Kamandar millətin yolunda qurban gedən şəhidlərin şərəfinə qoşduğu ulu ağını bir daha oxudu. Sözün-

mü, sazınmı, səsinmi bilmirəm, təsirindən – yanğısından ürəklərə od düşdü.

**Şəhidlərin önündə**
**Dönmüşdüm məzar daşına, ay aman.**
**Gördüm bir qız yaman ağlar.**
**Rəhm edən yox göz yaşına,**
**Bir qaşları kaman ağlar, ay aman.**
**Dedim: gözəl, nədir dərdin?**
**Dedi: neçin sual verdin?**
**Dedim: səni ağlar gördüm,**
**Dedi: bu gün zaman ağlar.**
**Dedim: çox tökmə göz yaşın,**
**Dedi: getdi bir qardaşım.**
**Dedim: bəlalıdır başın,**
**Dedi: canı yanan ağlar.**
**Dedim: gəlsən bölək dərdin?**
**Dedi: dağ götürməz qəmim.**
**Dedim: dərdli təkcə sənmi?**
**Dedi: bir də anam ağlar.**
**Dedim: o nə şəkillərdir?**
**Dedi: cəmi şəhidlərdir.**
**Dedim: qızım, səninlə bil**
**Azərbaycan tamam ağlar.**

Böyük sənətkarın od püskürən nəfəsi 20 Yanvar faciəsinin şahidləri olan bizləri yandırıb-yaxdı. Məclisə qəm-kədər, kövrəklik ələndi bu ağıdan sonra. Respublika komsomolu mükafatı laureatı Aydın Çobanoğlu öz çalğısıyla hamını sükuta qərq elədi. Aşıq Ulduz xanımın

vurduğu zəngulələr Şəhidlərin qanının harayına çevrilib şəhər üstə yayıldı. İncə ruhlu şairə Tərlan Göyçəlinin vətən həsrətli çıxışı kövrəklik üstünə nisgil yağdırdı. Müğənni Səmayə İsmayılova ilə aşıq Aydın Çobanoğlunun birgə çıxışı qəlbləri ehtizaza gətirdi. Yurd itkisinə məruz qalmış yurd nisgilli ürəkləri də, bu bəlanı dadmayan xoşbəxtləri də kövrəltdi. Yurd yanğılı müqəddəs göz yaşları yanaqlara yuvarlandı. İrəvan xanlığı, Göyçə, Ağbaba, Zəngəzur, Vedibasar, Zəngibasar, Qəmərli mahalları bir daha yada düşdü. Düşmən tapdağında qalan torpaqlarımıza ağladıq o gecə. Ata-baba yurdlarımızın itkisi bir daha göynətdi bizi. Dədə Ələsgərin ruhu qarşısında borcumuzu düşündük. Sazın-sözün sehrindən, Aydın ifasının, Səmayə istedadının təsirindən hamı elə susmuşdu ki, məclisdəkilərin ürək döyüntüləri eşidilirdi. İlahi, sənətin qüdrətinə bax ki, düşünən-daşınan beyinləri necə sehrləyib öz cazibəsində saxlayır... O gecə ayrı gecəydi. Əsl seir-sənət gecəsiydi.

Rejissor Zaur Məhərrəmov opera teatrındakı çıxışında yana-yana demişdi ki, bu günəcən kinomuz çox şey itirib. Böyük sənətkarlarımızı sağlıqlarında lentlərin yaddaşına köçürməmişik. İndi o, sonradan peşiman olmamaqçün Aşıq Kamandarın yubiley təntənəsini lentin yaddaşına köçürürdü. Rəhbərlik etdiyi “Yaddaş” yaradıcılıq birliyində ustada həsr olunmuş film hazırlanır. Həmin axşam operator Nizami Abbasov gecəni lentə alırdı. Aşıq Kamandar gərdiş eləyə- eləyə meydan sulayırdı:

**– Bivəfasan, tanımırsan**
**Nə bəyi, nə xanı, dünya...**

## “BORÇALI LAYLASI”

Respublikanın əməkdar incəsənət işçisi Aşıq Kamandarın 60 illiyinə həsr olunmuş yubiley təntənələri “Borçalı laylası” xeyriyyə konsertilə yekunlaşdı. V.İ.Lenin adına sarayda keçirilən konsertdən

toplanan vəsaitin bir hissəsi Gürcüstanda zəlzələdən zərər çəkənlərin hesabına köçürüldü. Xeyriyyə konsertində respublikanın xalq artisti Arif Babayev, müğənni Mələkxanım Əyyubova, Yaqut Abdullayeva, Laləzar Mustafayeva, "Muğam" teatrının solistləri, "İstedad" rəqs ansamblı, əvvəlki məclislərin də yaraşığı olmuş aşıqlar, müğənnilər iştirak edirdilər. Böyük təntənəylə keçirilən konsert ustadın çıxışıyla başa çatdı. Aşıq Kamandar sənətinin qüdrətindən vəcdə gəlmiş salon ayağa qalxaraq sənətkarı alqışlayırdı. Aşığın "Borçalı laylası" ürəkləri fəth etmişdi. Susmaq bilməyən alqışlar təkid edirdi: – Aşıq, bağrına bas sədəfli sazı!..

**"Yurddaş" qəzeti**
**13 iyun 1991-ci il, səh.7**

# V Fəsil
# YURDDAŞLARIMIZ

# QÜRBƏT CƏNNƏT OLSA DA...

**Taleyin hökmümü deyək buna, tarixin səhvimi?.. Qoca dünya ömrünün XIX yüzilliyinə qədəm qoyanda Azərbaycan türkləri deyilən ulu bir xalq siyasi çəkişmələrin qurbanı oldu, ikiyə bölündü. Amma qəsbkarların ürəyi soyumadı. Zaman-zaman bölünmüş xalqın şimallı-cənublu övladlarını öz yurdunda qəriblərə çevirdilər, etnik torpaqlarından didərgin saldılar. Azərbaycanlı mühacirlər dünyanın hər yerini bürüdü. Vətəndəsə ana Azərbaycanın bu binəsib övladlarıyla maraqlanan tapılmadı. Nə yaxşı ki, gec də olsa, respublikamızda "Vətən" cəmiyyəti yarandı. Və xarici ölkələrdə məskunlaşmış həmvətənlərimizlə Şimali Azərbaycan arasında körpüyə çevrildi.**

İsveçli həmvətənimiz Əlirza Ərdəbilli. Bu qədd-qamətli, şümal cavan redaksiyamıza sanki cənub ətri, cənub nəfəsi gətirmişdi. Şirin cənub ləhcəsində danışdıqca xəyalən bir daha o doğma yerlərə səyahət edir, Vətəndə Vətəninin dərdlərindən söhbət açırdı. Bakıya gəlişindən o qədər məmnun idi ki!.. İki illik çarpışmadan sonra nəhayət istəyinə nail olmuşdu. Bakını qarış-qarış gəzmək, illərcə həsrətində olduğu şimallı bacı-qardaşlarıyla doyunca söhbətləşmək arzusundaydı.

Təəssüf, vaxt az idi. Buna baxmayaraq Əlirza bəy İttifaqda (Sovetlər İttifaqı nəzərdə tutulur – M.S.) yaşayan azərbaycanlılarla doğ-

ma respublika arasında əlaqə yaratmaq məramında olan "Yurddaş" qəzetinin adını eşidən kimi redaksiyamıza gəlmişdi. Həm cəmiyyətin, həm də qəzetin işilə dərindən maraqlandı. Qəzetimizin yanvar nömrələrini İsveçdə yaşayan azərbaycanlılara ərməğan apardı. Bu sadə, səmimi cənublu qardaşımızın Vətən nisgili uzun müddət əməkdaşlarımızın sözünə-söhbətinə çevrildi. Qürbətin nə demək olduğunu bir daha yada saldı.

O, İsveçin paytaxtı Stokholm şəhərində yaşayır. "Azərbaycan səsi" radiosunda redaktor işləyir. Bildirdi ki, İsveçdə 20 min həmvətənimiz yaşayır. Hamısı Cənubdan mühacirət edib, bircə nəfəri isə Gəncədəndir. Əlirza Ərdəbillinin çalışdığı "Azərbaycan səsi"nin on beş nəfər əməkdaşı vardır. Redaksiya həftədə bir dəfə efirə çıxaraq 120 dəqiqə azərbaycanca veriliş verir. İlk yarım saat Azərbaycan haqqında gündəlik məlumatlar, xəbərlər və şərhlərdən ibarət olur. Verilişin ikinci və üçüncü 30 dəqiqəsi adətən Azərbaycan ədəbiyyatına, incəsənətinə və tarixinə həsr edilir. Bu hissədə dinləyicilərə çox maraqlı verilişlər təqdim olunur.

Azərbaycanın görkəmli ədəbi simalarından bəhs edən "Güzgü", "Azərbaycan dili, tarixi və bugünkü vəziyyəti haqqında", "Azərbaycan tarixin keçidlərində" rubrikalarıyla efirə çıxan silsilə verilişlər də həmin qəbildəndir. "Azərbaycan səsi" radiosunun ən çox maraq doğuran və güclü polemika şəraitində keçən verilişi "Açıq tribuna" adlanan sonuncu 30 dəqiqədir. Həmin veriliş vasitəsilə öz evində oturmuş azərbaycanlılar sanki böyük bir diskussiya salonuna toplaşırlar. Adicə telefon zəngiylə birbaşa efirə çıxan həmvətənlərimiz öz ürək sözlərini deyir, fikirlərini bölüşür, dünyadakı ictimai-siyasi hadisələrə münasibətlərini bildirirlər. "Açıq tribuna" zamanı "Azərbaycan səsi" radiosunu hətta şiddətli tənqidə tutan çıxışlar belə sərbəst şəkildə birbaşa efirə buraxılır. Əlirza bəy onu da qeyd etdi ki, İsveç hökuməti "Azərbaycan səsi"nə heç bir senzura qoymur, maneçilik törətmir, vaxtı artırmaq da öz əlimizdədir. Əgər Bakıdan gələn məlumatların miqdarı çox olsa,

"Azərbaycan səsi"nin efir ömrünü uzada bilərik. Bu işdə isə hər bir azərbaycanlı bizə kömək edə bilər. Telefonumuz belədir: 08-760-44-48.

Söhbət zamanı öyrəndik ki, İsveçdə müxtəlif adlarla, müxtəlif təmayüllərlə 10-a yaxın Azərbaycan cəmiyyəti fəaliyyət göstərir. Hələlik hamısı yaranışının ilkin mərhələsindədir, cəmiyyətlərin bir-birilə əlaqələri zəifdir. Onlardan biri də Əlirza Ərdəbillinin fəaliyyət göstərdiyi Azərbaycan Mədəniyyət Mərkəzidir. Mərkəzin təşəbbüsüylə keçirilən kültür axşamları, musiqi məclisləri, konsertlər Stokholmda yaşayan azərbaycanlıları bir ocağın başına toplamaqda böyük iş görür. Heyf ki, Azərbaycan Mədəniyyət Mərkəzinin ixtiyarında kifayət qədər lazımi ədəbiyyat, milli musiqi əsərləri, videolentlər yoxdur. Elə Əlirza bəyin Bakıya gəlişindən bir məqsəd də bu sahədəki boşluğu qismən də olsa doldurmaq, gərəkli materialları əldə etmək idi.

Bakıya ilk səfərini yalnız turist gəzintisinə deyil, həm də işgüzar görüşlərə həsr edən Ə.Ərdəbilli respublikamızda olduğu müddətdə bir sıra elm, ədəbiyyat və incəsənət xadimləri, dövlət rəhbərləri və din xadimləriylə görüşmüş, "Azərbaycan səsi" radiosunun dinləyiciləri üçün onları maraqlandıran müsahibələr yazmışdı. Azərbaycan Respublikasının baş naziri Həsən Həsənov, Şeyxülislam Allahşükür Paşazadə, Azərbaycanın xalq deputatı, görkəmli siyasi xadim Heydər Əliyev, xalq şairi Bəxtiyar Vahabzadə, "Vətən" cəmiyyətinin sədri Elçin və başqalarıyla olan görüşlər onda dərin təəssürat oyatmışdı. Hər yanda məhəbbətlə, hörmətlə, gülərüzlə qarşılanması qəlbini riqqətə gətirmişdi. Ürəyini dağa döndərmişdi. Keçən ilin yanvarında Azərbaycanda baş vermiş qanlı cinayətin qurbanları olan şəhidlərimizin ilində iştirak edə bilməsi ürəyindəki nisgili qismən yüngülləşdirmişdi. Analarımızın göz yaşını görüb, bacılarımızın fəryadını eşitməsi xalqımıza edilən bu siyasi qəsdə fərman verənlərə onun nifrətini daha da artırmışdı. Yanvar faciəsi ilə bağlı təzadlı hisslər keçirirdi.

Sevincli-qayğılı söhbətimizin bir məqamında İsveçdə məskunlaşmış həmvətənlərimizin qürbət həyatıyla, onların Vətən həsrətiylə

maraqlandım. Əlirza bəy dedi:

– Cənubi Azərbaycandan İsveçə kütləvi mühacirət edənlər əsasən ziyalılardır. Bilirsiz ki, İsveç dünya kapitalizminin vitrini adlanır. Orada bütün vətəndaşlar, bütün mühacirlər eyni vəziyyətdə yaşayır, bərabər hüquqa malikdirlər. Mən sevinclə deyərdim ki, azərbaycanlı mühacirlər də bu imkandan səmərəli istifadə edirlər. Həmvətənlərimizin əksəriyyəti İsveçdə öz biliklərini və ixtisaslarını artırmaq məqsədilə universitetlərdə, ali məktəblərdə oxuyurlar. Təhsil alanlarla yanaşı, işləyənlər də var. Yaşayışları tamamilə yaxşıdır. Evimiz, işimiz, təhsil imkanımız, bir sözlə, həyat üçün zəruri olan hər şeyimiz var. Məsəl var deyir, Allah istəsə düşmənin pisliyi də insanın xeyrinə tamamlanar. İndi bizi doğma ocağımızdan qoparıb dünyaya səpələmiş olan siyasi rejimin də nəticəsi bu mənada xeyrimizə olub.

Düşünməli bir haldır ki, bizim ata-babalarımızın min illərlə yaşadığı, abad etdiyi ölkədə bizim öz ana dilimizdə məktəblərimiz, universitet yoxdur, milli tariximizi, milli musiqimizi, milli teatrımızı qoruyub-yaşatmaq, inkişaf etdirmək imkanımız yoxdur. Amma yad bir ölkədə, qonağı olduğumuz əcnəbi bir xalqın torpağında hər cür şəraitimiz vardır. İsveç hökuməti qanun əsasında hər xalqa, hər millətə rəsmi saat dərslərində öz ana dilini tədris etməyə şərait yaradır. İmkan verir ki, hər xalq öz radiosunu, teatrını, musiqi kollektivlərini yaratsın. Əgər İranda Cənubi Azərbaycan xalqına münasibət yaxın gələcəkdə dəyişməsə, bir neçə onillikdən sonra o torpaqdakı Azərbaycan xalqının adı ancaq kitablarda, tarixdə qalacaq. Bu düşüncə bizi daim mənən əzir, ağrıdır.

Şimali Azərbaycana da istədiyimiz vaxt gəlib-gedə bilmirik. Təsəvvür edin, Bakıya gəlmək üçün mən iki il çalışmışam. Çoxları illərlə çalışır, heç istəyinə nail ola bilmir. Çox dəhşətli haldır ki, biz azərbaycanlı mühacirlər mövcud sənədlərimizlə vizasız-pasportsuz dünyanın hər bir ölkəsinə gedə bilirik, ancaq Azərbaycana – Bakıya gələ bilmirik. Siz təsəvvür edin ki, bu nə böyük dərddir. Biz istərdik ki, bu mə-

sələ Şimali Azərbaycanda həll olunsun. Bizə Azərbaycan Respublikasında vətəndaşlıq həqqi versinlər ki, heç olmazsa turist kimi Vətənimizə gələ bilək.

İsveçdə maddi baxımdan yaşayışımız yerində olsa da, mənəvi baxımdan hamımız qürbət içində yaşayırıq, bir növ sürgün həyatı sürürük. Qürbət həyatında maraqlı bir şey yoxdur. Biz məcburiyyət qarşısında xaricə getmişik, ona görə də hamımızda doğma torpaq nisgili var, bizdə Vətən həsrəti hissi çox güclüdür. Oxucularımızı kədərləndirmək istəməzdim, amma gecə də, gündüz də Vətən çox qəmli, çox kədərli səhnələrlə daim gözümüz önündə canlanır. Oraya dönəcəyimiz günü gözləyirik. Necə deyərlər:

**Əzizim, Vətən yaxşı,**
**Geyməyə kətan yaxşı.**
**Qürbət cənnət olsa da,**
**Yenə də Vətən yaxşı.**

**MÜRACİƏT: Yeni Azərbaycan parlamentindən xahişimiz budur ki, xaricdə yaşayan yurddaşlarımızla əlaqələri yaxşılaşdırmaq məqsədilə onlara Azərbaycan Respublikasının vətəndaşı hüququnun verilməsini qanun əsasında reallaşdırsın. Qeyd etmək yerinə düşərdi ki, qonşu respublikalarda belə bir qanun çoxdan qüvvədədir.**

**"Yurddaş" qəzeti**
**6 mart 1991-ci il, səh.2**

# AZƏRBAYCANA BAĞLI ÜRƏKLƏR

Leninqrada səfərimi səbirsizliklə gözləyirdim. Adını eşidib üzünü görmədiyim leninqradlı həmvətənlərimlə görüşə tələsirdim. İllərcə haqqında yazmaq həvəsində olduğum polkovnik Rahib Abbasovla, qeyrətli vətən qızlarımız Zemfira Rüstəmzadə və Elmira Məmmədova ilə, nüfuzlu eloğlumuz Yuri Sultanovla, rus ziyalıları arasında xalqımızı ləyaqətlə təmsil edən yüksək səviyyəli ziyalılarımız Mirzə Əliyev, professorlarımız Fəhəm Kəsəmənli, Nazim Qarayev və Şəmsi İsmayılovla, Azərbaycandan uzaqlarda vətənin və millətin qeyrətini çəkən "Azəri" və "Dayaq" Azərbaycan cəmiyyətlərinin fəalları ilə, xüsusilə aspirant Xeyransa xanımla görüşlərimi xəyalımda canlandırır, o günü gözləyirdim.

## MURMANSKLI YURDDAŞLARIMIZ

Təyyarə limanında gənc bir ailənin ana dilimizdə danışdığını eşidib onlara yaxınlaşdım. Tanış olduq. Məlum oldu ki, həmsöhbətlərim əslən Xaçmazın Həsənqala kəndindən olan Ağababa və Tahirə Kamilovlardır. Neçə illərdir ki, Murmanskda yaşayırlar. İki oğul böyüdürlər –İlkinlə Elgünü. Söhbət əsnasında öyrəndim ki, Murmanskda xeyli həmvətənimiz yaşayır. Lakin bu qütb şəhərində azərbaycanlıları öz ətrafına toplaya biləcək heç bir Azərbaycan cəmiyyəti olmadığından yurddaşlarımız bir-birilə təsadüfdən-təsadüfə görüşürlər. Respublika ilə əlaqələri yalnız qohumlar vasitəsilədir. Məskunlaşdıqları qürbət eldə

sakit və dinc həyat sürürlər. Bakıya qayıdanda Tahirə xanımla Ağababaya "Yurddaş" qəzeti göndərəcəyimi vəd edib, bizimlə əlaqə saxlamalarını xahiş etdim. Kim bilir, bəlkə növbəti səfərlərimdən birində Murmanska üz tutdum?..

## NEVA SAHİLLƏRİNDƏ GÖRÜŞLƏR

Təyyarə Pulkovo aeroportunda yerə enəndə Leninqradda səhər yenicə açılmışdı. Gecəki yağışda yuyunmuş yamyaşıl çəmənlər, sərv qamətli ağaclar göz oxşayır, günəşin zərrin şüaları altında bərq vururdu. Otların arasından boylanan sarı çöl çiçəkləri, ağ ləçəkli çobanyastığı günəşi salama çıxmışdılar. Masmavi səmada axışan pənbə buludlar insana paklıq, rahatlıq duyğusu aşılayırdı. Neva sahilindəki şəhərin füsunkar görkəmi vardı.

Yurddaşlarımızın sorağıyla yollandığım səfərdə ilkin tanışlığım istefada olan tibb xidməti polkovniki Rahib Abbasovla oldu. O, "Azəri" cəmiyyətinin Ağsaqqallar Şurasının üzvüdür. Yeri gəlmişkən qeyd edim ki, yay aylarında Kirov adına Mədəniyyət Evi bağlandığına görə "Azəri" Azərbaycan Mədəniyyət Cəmiyyətinin üzvlərilə toplu halda görüşə bilmədim. Həmvətənlərimizi bir-bir axtarıb, onlarla təkbətək görüşməli oldum – kimisiylə iş başında, kimisiylə evində-ocağında, kimisiylə mehmanxanada – mənim nömrəmdə. Müxtəlif xarakterli, müxtəlif peşə-sənət sahibi olan müsahiblərimi birləşdirən bir ümumi cəhət vardı: Azərbaycan sevgisi, vətən təəssübü. Hamısı da millətimizin şərəfini uca tutmaq, xalqımızın adını böhtanlardan-iftiralardan qorumaq, yaxılmış ləkələrdən təmizləmək naminə əlindən gələni edib və edir. Həmsöhbətlərimi dinləyə-dinləyə düşünürdüm ki, əgər Azərbaycanda yaşayan bizlərdən hər birimiz millətin və vətənin şərəfini qorumaq yolunda respublikadan kənardakı qeyrətli yurddaşlarımızın yarı payınca fəaliyyət göstərsək, bizə heç kim bata bilməz. Təəssüf ki, çoxlarımız ancaq "ölüm, ya olum" məqamında ayılırıq!..

## AZƏRBAYCANIN ŞƏRƏFİNİ QORUYURUQ

**Rahib ABBASOV İrəvan şəhərində dünyaya gəlib. Orta məktəbi qızıl medalla bitirdikdən sonra Azərbaycan Dövlət Tibb İnstitutuna daxil olub. Həkimlik peşəsinə yiyələnən kimi ordu sıralarında xidmətə çağırılıb. Uzun illər istedadını və qabiliyyətini əsgərlərin, zabitlər heyətinin sağlamlığını qorumağa sərf edib. 1967-ci ildə S.M.Kirov adına Hərbi Tibb Akademiyasının klinik ordinaturasına daxil olan azərbaycanlı balası R.Abbasov 24 ilə yaxın həmin akademiyada müxtəlif vəzifələr tutub, yüzlərlə gənc hərbçiyə dərs deyib.**

**Tibb elmləri namizədi Rahib Yusif oğlu hazırda Leninqraddakı Dəniz Nəqliyyatı Gigiyenası Elmi-Tədqiqat İnstitutunun klinik şöbəsinin müdiridir. Yüzdən çox elmi məqaləsi, tədqiqatları vardır. Doktorluq dissertasiyası üzərində işləyir. Baş elmi işçidir. Dörd övlad atasıdır. Həyat yoldaşı Zülfiyyə xanım Leninqrad Dövlət Universitetinin müəlliməsidir.**

**Rahib Abbasovun dediklərindən:**

– Hazırda leninqradlı azərbaycanlıların siyasi şüuru get-gedə artır. Yenidənqurma və son illərin hadisələri bizlərə dərin təsir göstərib. Elə "Dayaq" və "Azəri" cəmiyyətləri də ölkədə baş verən ictimai-siyasi hadisələrin dalğasından yaranıb. Hər iki cəmiyyət Leninqrad şəhər sovetində qeydiyyatdan keçib. Hər ikisinin əsas məqsədi Azərbaycan xalqının şərəfini qorumaq, onu layiq olmadığı ləkələrdən hifz etməkdir. Erməni millətçilərinin öz çirkin məqsədlərini həyata keçirmək üçün xalqımız əleyhinə bütün dünyada təbliğat apardıqları hamıya məlumdur. Xüsusilə, Sumqayıt hadisəsindən sonra həmin istiqamətdə böyük tədbirlər görüldü. Leninqraddakı bəzi üzdəniraq "demokratik mətbuat" ("Smena" və "Ças pik" qəzetləri, "Pyatoe koleso" televiziya verilişi və s.) da açıq-aşkar ermənipərəst mövqe tutdu. Onların tendensiyalı

mövqeyindən aydın görünür ki, ümumi rejissorları vardır. İş o yerə çatıb ki, Azərbaycan və Azərbaycan xalqı barədə ümumiyyətlə təsəvvürü olmayan jurnalistlər belə bu haqda yazırlar. Bəzi hallarda Azərbaycana dair informasiya Leninqrad televiziyasına birbaşa Yerevandan çatır... Leninqrad televiziyasının proqramlarına bütün Rusiya, Moskva, ölkənin şimal-qərb vilayətləri baxır. Görün, həmin dezinformasiyanın gücü, ziyanı nə qədər olur. Belə hallar Azərbaycan mətbuatı və televiziyasının passivliyi ilə də əlaqədardır. Respublikamızın mətbuat orqanlarının və işçilərinin həm Ümumittifaq, həm Leninqrad mətbuatıyla yaradıcılıq əlaqələri geniş olsa, belə hadisələrin qarşısı alınar.

Son illər Leninqradda Azərbaycan xalqının hər hansı nümayəndəsi tərəfindən törədilən cinayət hadisəsi (təəssüf ki, bütün xalqlarda olduğu kimi, bizdə də oğrular, alverçi və möhtəkirlər vardır) ictimaiyyətə şəxsiyyətin öz fərdi naqisliyi kimi yox, birbaşa milli mənsubiyyətlə əlaqədar hal kimi təqdim olunur. Təbii ki, bu da başqa xalqların nümayəndələrində bizə qarşı olduqca mənfi reaksiya doğurur. Onların şüurunda "azərbaycanlı" sözü "cinayətkar", "vicdansız", "alverçi" sözlərinin sinonimi kimi formalaşır. Belə imici olan azərbaycanlı təbii ki, burada yaxşı nəyəsə ümid bəsləyə bilməz.

Leninqrad parlamentində dəfələrlə Qarabağ məsələsi müzakirə olunub. Ermənilərin və Lensovetin Qarabağda olmuş deputatlarının (Azərbaycan hökumətinin dəvəti və xəbəri olmadan) təqdimatında bu məsələ ətrafında çoxsaylı kütləvi dinləmələr olub. Hansı hüquqla?..

**HAŞİYƏ: Respublikamızın ərazi bütövlüyünə qarşı və xalqımızın əleyhinə yönəldilmiş bu sayaq hadisələrin qarşısını almaq məqsədilə leninqradlı yurddaşlarımız çoxşaxəli fəaliyyət göstərmişlər. "Azəri" cəmiyyəti adından polkovnik R.Y.Abbasovun, professor N.Ə.Qarayevin imzasıyla parlamentə və Leninqrad televiziyasına etiraz məktubları göndərilib. Məktublara Lensovet idarə heyətinin insan hüquqları**

**komissiyasında baxılıb və müvafiq tədbirlər görülüb. Cəmiyyətin sədri Məcnun Şükürovun, məsul katibi Xeyransa Mirzəyevanın, sədr müavini Vüqar Qurbanovun, fəalları Zemfira Rüstəmzadə, Elmira Məmmədova, Zülfiyyə Abbasova və başqalarının müxtəlif instansiyalara göndərdikləri çoxsaylı məktublar sözsüz ki, izsiz qalmayıb, müsbət nəticələr verib. "Azəri" və "Dayaq" cəmiyyətləri birgə Leninqrad televiziyasında veriliş təşkil edərək, qismən də olsa, həqiqəti tamaşaçılara çatdırmağa nail olmuşlar.**

–"Azəri" cəmiyyətinin əsas məqsədlərindən biri də ölkə xalqları arasında dostluğun möhkəmləndirilməsi və əlaqələrin genişləndirilməsidir,– deyə Rahib Yusif oğlu söhbətinə davam etdi. – Bizim cəmiyyətin nümayəndələri Tbilisi hadisələrinin ildönümünə həsr olunmuş tədbirlərdə də fəal iştirak etdilər. Professor Şəmsi İsmayılovun ürəkdən gələn çıxışı istər gürcülər, istərsə də ildönümündə iştirak edən digər xalqların nümayəndələri tərəfindən hərarətlə qarşılandı. "Dayaq" cəmiyyətinin sədri Paşa Rəcəbov 20 Yanvar Bakı hadisələrinə dair videolentlər nümayiş etdirdi. Bütün bunlar həm Lensovetin deputatları, həm Baltikyanı respublikaların nümayəndələri arasında ciddi əks-səda doğurdu.

Ümumiyyətlə, "Azəri" cəmiyyətinin sədri, müavini və məsul katibi – M.Şükürov, V.Qurbanov və X.Mirzəyeva millətlərarası məsələlərlə məşğul olan dairələrdə, Lensovetin milli məsələlər üzrə işləyən nümayəndələri arasında yaxşı tanınırlar, cəmiyyətimizi və xalqımızı ləyaqətlə təmsil edirlər.

Fəaliyyətimizin əsas istiqamətlərindən biri də xalqımızın adət-ənənələrinin və mədəniyyətinin Leninqradda yaşayan azərbaycanlılar arasında dirçəldilməsi və bərpasıdır. Bu istiqamətdə son bir ildə Azərbaycan Mədəniyyət Nazirliyinin, İncəsənət Universitetinin, Konservatoriyasının və Mədəniyyət Fondunun yaxından köməyi ilə "Azəri" cəmiyyəti kütləvi bayramlar təşkil edibdir. Novruz bayramında ilk də-

fə olaraq leninqradlı azərbaycanlılar ailəlikcə bir ocağın başına yığışmışdılar. Böyüklərin, uşaqların sevinci yerə-göyə sığmırdı.

## BİZƏ SPONSORLAR LAZIMDIR

Rahib müəllim söhbət zamanı "Azəri" cəmiyyətinin perspektiv planlarından, qayğı və problemlərindən də ətraflı danışdı. Bu barədə yeri gəldikcə söhbət açacağam. İndi isə ikinci həmsöhbətimi sizə təqdim edim: Xeyransa MİRZƏYEVA. Bu dilli-dilavər bakılı qızının odlu-alovlu çıxışları, geniş ictimai-siyasi fəaliyyəti barədə çox eşitmişdim. Özünü görəndə qəlbən çox sevinsəm də, zahiri təmkinimi saxladım. O, elə tanışlığımızın ilk dəqiqələrindəcə haqqında bildiklərimi təsdiqlədi. Yana-yana son 4 ildə xalqımızın başına gətirilən faciələrdən, erməni millətçilərinin hüdudsuz fəaliyyətindən və bunların müqabilində leninqradlı yurddaşlarımızın gördüyü işlərdən danışırdı. Çox mübariz əhval-ruhiyyədə, həm də çox sürətlə danışan bu gənc xanım 1-2 saat ərzində o qədər məlumat verdi ki, informasiya bolluğuna düşdüm. Xeyransadakı milli qeyrət hissinə, fədakarlığa və enerjiyə qibtə etmək olar. Həmyaşıdım olan bu azərbaycanlı qızı özünü bütövlükdə cəmiyyətin işlərinə həsr edib (bunu yurddaşlarımızın çoxu öz söhbətlərində qeyd elədilər). Halbuki bizim hamımız kimi onun da öz işi-gücü, şəxsi qayğıları vardır. Axı, Xeyransa Mirzəyeva Leninqrad Dövlət Universitetinin Şərq fakültəsinin aspirantıdır. Onu evində oğlu Şəmsi ilə bağlı analıq qayğıları, universitetdə isə dissertasiyasının müdafiəsi gözləyir.

**Xeyransa Mirzəyevanın dediklərindən:**

–Bizə sponsorlar lazımdır ki, cəmiyyəti maliyyələşdirsinlər. Maddi vəsait olmadan istədiyimiz tədbirlərin hamısını həyata keçirə bilmərik. Planlarımız çoxdur, indiki zəmanədə isə hər şey pula arxalanır. "Bazar günü" məktəbi açmaq istəyirik, Leninqrad ətrafındakı hərbi hissələrdə qulluq edən əsgərlərimizə "Rus dili" dərslikləri, "Rusca-

azərbaycanca lüğət"lər göndərmək lazımdır ki, rus dilinə yiyələnsinlər, milli ansambl yaratmaq arzusundayıq, vaxtaşırı Leninqrad ictimaiyyəti üçün Azərbaycan rəssamlarının əsərlərini nümayiş etdirən sərgilər təşkil etmək fikrindəyik ki, təsviri sənətimizlə, mədəniyyətimizlə tanış olsunlar.

**HAŞİYƏ: Leninqradlı azərbaycanlılar arasında "Vostok" kafesinin müdiri İsmayıl Rəhimov, kooperativ müdiri Eyvaz Həsənov kimi yurddaşlarımız var ki, Azərbaycan cəmiyyətlərinin fəaliyyətinə dönə-dönə maddi köməklik göstəriblər. Belə qeyrətli eloğlularımıza əhsən! Lakin hər iki cəmiyyətin normal fəaliyyətini təmin etmək üçün onların hesabında kifayət qədər məbləğ olmalıdır. Bu baxımdan yurddaşlarımız doğma respublikadan kömək gözləyirlər.**

**Onu da qeyd edim ki, hələlik hər iki cəmiyyət üzvlərinin fəaliyyəti entuziazma əsaslanır. Maddi təminatı olduğu halda cəmiyyətlərin hərəsi 3-4 nəfər ştatlı işçi saxlamaq imkanına malik olar ki, bu da onların daha səmərəli və məqsədyönlü, hadisədən-hadisəyə yox, müntəzəm işləmələrinə şərait yaradar.**

**"Bazar günü" məktəbinin açılması yurddaşlarımızın rus mühitində böyüyən övladlarına ana dilini öyrənmək, milli mədəniyyətlə, mənsub olduğu xalqın qədim tarixi və zəngin ədəbiyyatı ilə tanış olmaq imkanı yaradacaqdır. İndiki dövrdə bu, su və hava kimi vacibdir. Bizə elə gəlir ki, Leninqrad şəhərində azərbaycanlılar üçün belə bir məktəbin açılmasında respublika Xalq Təhsili Nazirliyi də yaxından iştirak edəcək, həmvətənlərimizə dərsliklərin və dərs vəsaitlərinin göndərilməsində yaxından köməklik göstərəcəkdir.**

**"MƏN NAZİR OLSAYDIM"**

**Yüksək dairələrdəki ziyalılar arasında xalqımızı ləyaqətlə təmsil edən eloğlumuz Mirzə ƏLİYEV 30 ildir ki, Leninqradda yaşayır. O, Bakı şəhərində dünyaya göz açıb. Əmək fəaliyyətinə erkən yaşda, özü də fotoqraf kimi başlayıb. Orta təhsilini başa vurduqdan sonra Leninqrad Kino Mühəndisləri İnstitutuna daxil olub. Elə o vaxtdan da bu gözəl şəhərin – Sankt-Peterburqun daimi sakininə çevrilib. Uzun illər kino texnikumunda və institutda pedaqoji fəaliyyət göstərib. Hazırda Leninqrad vilayəti icraiyyə komitəsinin "Lenkinovideo" Birliyində çalışır. Neçə illərdir ki, Birlikdə baş direktorun birinci müavini və baş mühəndis vəzifələrini paralel aparır. Rəhbərlik etdiyi sahə çox genişdir – böyük kinoteatrlardan, kino qurğuları və videozallardan ibarət 1500 obyekti əhatə edir. Bütün şüurlu ömrünü Leninqradda yaşayıb, gənclik enerjisini, intellektini və sənətkar duyumunu yaşayıb-işlədiyi torpaqda kino sənətinin inkişafına həsr edib. İki övlad atasıdır. Xanımı Zahirə Əmirova "Lenfilm" kinostudiyasında laboratoriya müdiridir. Ər-arvad sənətcə həmkardırlar.**

**Geniş erudisiyalı, dünyagörmüş Mirzə Əliağa oğlu öz dəyərli məsləhətləri ilə hər iki Azərbaycan cəmiyyətinin fəaliyyətini istiqamətləndirməyə kömək edir. O, istər "Azəri"nin, istərsə də "Dayağ"ın təşkil etdiyi kütləvi tədbirlərin iştirakçısıdır.**

**Mirzə Əliyevin dediklərindən:**

–"Azəri"nin iki tədbirində böyük həmrəylik vardı: 20 Yanvarda (Şəhidlərimizin ilində) və 28 Mayda (Azərbaycan Demokratik Respublikasının ildönümündə). Çox təəssüf ki, 20 Yanvardakı tədbirə doğma Azərbaycandan heç kəs gəlməmişdi – nə demokratik qüvvələrin nümayəndələri, nə din xadimləri... Bilirsiz, din böyük birləşdirici qüvvə-

dir. Dindən milli şüur da keçir. Bu mənada respublikadan kənarda yaşayan yurddaşları da vaxtaşırı yad etmək lazımdır.

Milli şüur daxili sferadan başlayır, ailədaxili münasibətlərdən yaranır. Hər dəfə Bakıya gedəndə övladlarımla, bacı-qardaşlarımızın uşaqlarıyla birgə qəbir üstə gedir, atamın məzarına baş çəkirik. Ataya ehtiramın, nəsli yad etməyin bu yolunu, bu formasını bircə dəfə görən uşaq səhərdən-axşama eşitdiyi nəsihətamiz öyüdlərdən on qat artıq tərbiyə alır. Bu mənada mən Ermənistandan qovulmuş həmvətənlərimin böyük dərdinə ürəkdən şərikəm: doğmaların, qohumların məzarına baş çəkmək imkanından ömürlük məhrum olmaq çox ağır, dözülməz dərddir. Məncə, qaçqınlarımızın ən böyük itkisi budur.

Minbir əziyyətə düçar olmuş qaçqınlara cürbəcür adlar qoyub xalq arasında ikitirəlik salanlar, milləti şüurlu surətdə parçalanmaya aparanlar da bir bəladır bizə. Bu gün bizə milli həmrəylik hər şeydən vacibdir. Respublikada intellektual konsolidasiya qüvvələri yaratmaq lazımdır. Azərbaycan Elmlər Akademiyasında, ya da Nazirlər Sovetində həmin qüvvələrin potensial gücünü istiqamətləndirən vahid mərkəz yaradılmalıdır. Bugünkü vəziyyətdən çıxış yolunu mən belə görürəm. Həmin mərkəz bir növ, beyin mərkəzi rolunu oynamalıdır. Orada başqa mühitdə yetişmiş yurddaşların da intellektual potensialından istifadə etmək lazımdır. Bizim elə görkəmli riyaziyyatçılarımız, iqtisadçılarımız, hüquqşünaslarımız və b. var ki, Azərbaycanda heç onların familiyalarını da bilən yoxdur.

Yadınızdadırmı, bir vaxt qəzetlərdə belə bir rubrika var idi: "Mən nazir olsaydım". Əgər mən nazir olsaydım Azərbaycandakı bütün maddi-texniki bazanı 2 əsas istiqamətə yönəldərdim – təhsilə və səhiyyə sahəsinə. Bir də ölkənin müxtəlif regionlarında özünə məskən salmış alverçilərimizin əl-ayağını bir qədər yığışdırardım. Beləlləri yad xalqlar arasında Azərbaycanın imicinə böyük ziyan vururlar. Mətbuat hər yerdə azərbaycanlı möhtəkirləri göstərir, pisləyir. Yaxşı olardı ki, Azərbaycandan kənara axan kənd təsərrüfatı malları ayrı-ayrı fərdlə-

rin şəxsi malı kimi yox, respublikalar arasında bağlanan iqtisadi müqavilələr əsasında gətirilib satılsın. Hər şəhərdə "Azərbaycan" adlı kooperativ ticarət məntəqələri açmaq olar. Yeni iqtisadi münasibətlər, bazar iqtisadiyyatı şəraitində bu mümkündür. Lap qoy satıcılar da elə həmin adamlar olsunlar. Təmiz xalatda, üzü qırxılmış, qanuni müəssisədə oturub ticarət edən satıcıya heç kəs kəm baxmaz. Həmin ərzaq malları müqabilində nəhəng iqtisadi potensiala malik Leninqraddan da respublikamız üçün gərəkli olan çox şey alıb aparmaq olar.

## RESPUBLİKANIN QAYĞILARIYLA YAŞAYIRIQ

**Yuri SULTANOV əslən Beyləqan rayonundandır. Bakıda politexnik təhsili alandan sonra gənclik həvəsi onu Leninqrada aparıb. Milis sistemində işə daxil olub. 20 ildən çoxdur ki, leninqradlıdır. Hazırda Petroqrad rayonu daxili işlər idarəsində müstəntiqdir. Elə həmin rayon Sovetinin deputatıdır. Nüfuzlu yoldaşdır. Dörd uşaq atasıdır. Həyat yoldaşı Nina xanımla hələ Beyləqanda məktəbli ikən bir sinifdə oxuyublar. İndi Nina Sultanova həkim-terapevtdir.**

**Yuri Tofiq oğlunun dediklərindən:**

–Leninqradlılar rus və Avropa mədəniyyətinə bələddirlər. Azərbaycan mədəniyyətinə isə yox. "Azəri" cəmiyyəti zəngin mədəniyyətimizi burada təbliğ etməyə başlayıb. Bu, çox böyük işdir. Siyasi əhəmiyyətə malikdir. Əgər rus ictimaiyyəti mədəniyyətimizə bələd olsa, xalqımızı yaxından tanısa, deyilən hər böhtana inanmazlar. Elə cəmiyyətdə toplaşıb doğma Azərbaycan dilində danışmağın özü adama böyük zövq verir. Mənim övladlarım hamısı ana dilini bilir. Hər yay onları evimizə – Beyləqana göndərirəm. Amma iş burasındadır ki, 5-10 il yad xalqın arasında yaşayandan sonra istər-istəməz adam doğma dili yadırğayır. O ki qaldı burada doğulub-böyümüş uşaqlar ola. Ona gö-

rə də "Bazar günü" məktəbi mütləq açılmalıdır. Dərs deməyə yaxşı müəllimlərimiz var. Ancaq yer və dərslik məsələsini həll etmək qalır.

Leninqradlı azərbaycanlılar getdikcə cəmiyyətin ətrafında daha sıx birləşir, onun işinə qoşulurlar. Rahib müəllimin (yəni R.Abbasovun – M.S.) gəlişindən sonra bizim cəmiyyət daha mütəşəkkil olub. İndi Leninqradın mədəni-ictimai-siyasi həyatında daha fəal iştirak edirik. Bu yaxınlarda "Dostluq evi"ndə insan hüquqları üzrə Beynəlxalq konfrans keçirilirdi, dəvət olunmasaq da gedib iştirak etdik. Məclisdə ingilislər, danimarkalılar, amerikalılar, bir sözlə, əksər xarici ölkələrin nümayəndələri iştirak edirdilər. Konfransa ermənilərin çoxsaylı nümayəndələri, o cümlədən, deputat Staravoytova da gəlmişdilər. Onlar özlərinin qeyri-obyektiv təbliğatları ilə insan hüquqları problemilə məşğul olan xarici alimləri də mövcud avantüraya cəlb etmək istəyirdilər. Zülfiyyə Abbasovanın və Xeyransa Mirzəyevanın çox fəal iştirakı, tutarlı çıxışları sayəsində ermənilər tərəfin qərəzli məruzələri, yalan faktları təkzib edildi. Dağlıq Qarabağ məsələsinə münasibətdə Amerika və Danimarka alimləri Azərbaycan nümayəndələrinin mövqeyini müdafiə etdilər. Biz öz kiçik qələbəmizi hiss etdik və məmnun olduq.

"Dayaq" cəmiyyəti daha çox siyasi məsələlərlə məşğul olur. Naxçıvanda sərhəd münaqişəsi baş verəndə cəmiyyətin sədri P.Rəcəbov Lensovetin deputatlarından bir qrupunu yığıb apardı ki, vəziyyəti yerindəcə, öz gözlərilə görsünlər. Deputatlar N.M.Girenko, V.Q.Ramm (o, həm də Leninqrad Xalq Cəbhəsinin üzvüdür), L.X.Quliş, V.T.Loqinov, L.Sokoletski və başqaları Azərbaycandan çox yaxşı materiallarla qayıtdılar. Mətbuatda çıxış edərək gördüklərini danışdılar. Kərki kəndində erməni döyüşçülərin deputat Q.A.Boqomolovu girov götürməsi rusları lap dəhşətə salmışdı. Belə tədbirlər daşnakların iç üzünün açılmasında böyük rol oynayır.

**– Yuri Tofiq oğlu, hüquq orqanlarının işçisi kimi Leninqradda cinayət törədən, qanunu pozan yurddaşlarımız barədə nə deyə bilərsiz?**

– Leninqradda cinayətkarlıq çox geniş yayılıb. Azyaşlı qızları zorlamaq üstündə 10-12 rus tutulanda, 1 nəfər azərbaycanlı tutulur. Lakin faiz nisbətində belə böyük fərq olmasına baxmayaraq, o bir nəfər vicdansız azərbaycanlının əməli ictimaiyyətə 12 rusun əməlindən daha pis təsir edir.

**HAŞİYƏ: Bu yaxınlarda belə çirkin əməl sahiblərindən birinin cinayəti televiziya vasitəsilə "reklam" edilərkən, onun milli mənsubiyyəti xüsusi nəzərə çarpdırılıb. Üstəlik də müxbir qeyd edib ki, bu cinayətkarın özünün 10 yaşlı qızı var. Buna baxmayaraq, öz övladına qətiyyən rəva bilmədiyi hadisəni bizim 6 yaşlı körpəmizin başına gətirəndə heç tərəddüd də etməyib!..**

**Təsəvvür et, oxucu, belə hadisədən və şərhdən sonra "azərbaycanlı" məfhumuna münasibət necə olar?.. Görəsən niyə, insanlıq ləyaqətini itirmiş belə nakişilər bu barədə düşünmürlər?..**

– Şamxorda bir kənd var,– deyə müsahibim söhbətinə davam edir, – Şiştəpə kəndi. Son 10-15 ildə həmin kəndin sakinlərindən azı 500 nəfər Leninqradın bazarlarında özünə lövbər salıb, alverlə məşğul olur. Pasportuna baxırsan, hərəsinin 4-5-6 uşağı var. Onlarla söhbət eləyəndə deyirəm ki, bu boyda uşaqları qoyub hara gəlirsən? Evində-eşiyində otursana. Deyir: neyləyək, burda meyvə satırıq da... İş o yerə çatıb ki, Şiştəpəni ayrıca respublika kimi tanıyırlar Leninqradda. Bax, aylarla ev-eşik, rahat yorğan-döşək üzü görməyən üzütüklü, yorğun, kobud alverçilər dəstəsi millətimizin də adını biabır edir. Özlərinin də günü-güzəranı bir şey deyil.

Respublikadan bir istəyim var, – deyə o, söhbəti yekunlaşdırdı, – qoy bizimlə müntəzəm əlaqə saxlasınlar. O halda qarşıya çıxan problemləri birləşmiş qüvvələrlə dərhal həll edərik. Bir də həmvətənlərim bilsinlər ki, Leninqradda minlərlə azərbaycanlı var ki, respublikanın

qayğıları ilə yaşayır və xalqımızın dar günlərində əlindən gələn köməkliyi göstərir.

**ZAKİROVA ZƏNG VURUN!**

Mehmanxanada bu qeydi alan kimi, dərhal göstərilən nömrəyə zəng vurdum. "Azəri" cəmiyyətinin mühasibi Vidadi Zakirovla beləcə tanış olduq.

Vidadi ZAKİROV axar-baxarlı Şəkidəndir. Danışığında şirin Şəki ləhcəsi dərhal hiss olunur. Ailəlidir. İki uşağı var. Ürəyi kimi birotaqlı mənzili də genişdir. Bütün qohum-əqrəbası o bir otağa sığır. Cavandır. Zirəkdir. Yaxşı təşkilatçılıq qabiliyyəti var. "Azəri"nin bütün tədbirlərinin təşkilində canla-başla iştirak edir.

Cəmiyyətin işlərindən, üzvlərindən geniş söhbət açan Vidadi respublika qəzetlərinin ünvanına bir giley elədi. O dedi ki, Leninqraddakı Azərbaycan cəmiyyətləri haqqında yazılmış məqalələrdən birində məni rəssam, ikisində isə "Azəri"nin sədr müavini kimi təqdim ediblər. Orada fərqinə varmadan yazırlar, elə ki, qəzet gəlib çatır bura, qalmaqal düşür ki, balam, sən nə vaxtdan sədr müavini olmusan?..

**HAŞİYƏ: Haqlı giley idi. Faktları yoxladım. Bu qənaətə gəldim ki, həmsöhbətimin kimliyini dəqiqləşdirmədən onu "rəssam" kimi qələmə verən müəllifin səhvi naşılığından irəli gəlmişdir. Lakin ayrı-ayrı vaxtlarda dərc olunmuş iki müxtəlif qəzetin eyni cür "səhv etməsi" məni inandırmadı. Qəzetlər müxtəlif, mənbə isə birdir. Bəlkə səhv mənbədən gəlir?! Belə xoşagəlməz halların qarşısını almaq üçün yaxşı olar ki, respublikada qonaq olan yurddaşlarımızın təmsil etdikləri cəmiyyətdə kimliyini bildirən vəsiqələri olsun. Həmkarlarım da onlar haqqında yazarkən həmin rəsmi sənədə əsaslansınlar. Vidadi Zakirova gəlincə isə, elə mühasib ola-ola da işlədiyi cəmiyyətdə kifayət qədər tanınır, hörməti var. Belə ki,**

**süni şişirtməyə, faktları saxtalaşdırmağa ehtiyac yoxdur.**

## VƏTƏN SEVGİSİ

Azərbaycan övladlarının sorağında axtarışlarım bəhrə verdikcə günlər ötür, yağmurlu Leninqrad yayını günəşli günlər əvəz edirdi. Başdan-başa tarix olan, gözəl memarlıq abidələri ilə zəngin Sankt-Peterburqda – hələ uşaqlıqdan sevdiyim bu şəhərdə tanışlarımın sayı saatbasaat artırdı. Şəhər yavaş-yavaş doğmalaşırdı. Elə bircə onları yad etməyimizə görə minnətdar olan neçə-neçə yurddaşımızın sevincinə şərik olmuşdum. Azərbaycan nəfəsini özündə yaşadan neçə-neçə müasir evdə qonaq olarkən yerə döşənmiş xalça-palaz, aftafa, milli məişət əşyaları, tar, Azərbaycan təbiətini əks etdirən şəkillər, "Bakı" foto-albomu və s. görüb qəlbən sevinmişdim. Vətəndən uzaqlarda yaşayanların vətən həsrəti də, vətən məhəbbəti də çox güclü olur. Daim yad xalqın nümayəndələriylə təmasda olan insan öz milli "mən"ini qorumağa daha çox ehtiyac duyur. Elə burdan da vətən sevgisi yaranır!

## LENİNQRADDA AZƏRBAYCANIN DAİMİ NÜMAYƏNDƏLİYİ YARADILMALIDIR

"Azəri" və "Dayaq"cəmiyyətlərinin sədrləri Məcnun Şükürov və Paşa Rəcəbovla şəxsən tanış olanadək yurddaşlarım mənə hər iki cəmiyyətin işlərindən o qədər danışmışdılar ki, soruşmağa bir şey qalmamışdı. Ürəkaçan cəhət isə o idi ki, hamı M.Şükürovu və P.Rəcəbovu tanıyır və onlar haqqında rəğbətlə danışırdı. Deməli, hər iki cəmiyyətin sədri düzgün seçilibdir. Bu düşüncələr qəlbimi fərəh hissilə doldururdu. Nə yaxşı ki, işindəki müəyyən çatışmazlıqlara baxmayaraq, Azərbaycan adını daşıyan bu cəmiyyətlər yaranıb və inkişaf edir.

**Məcnun ŞÜKÜROV Leninqrad Aqrofizika Elmi-Tədqiqat İnstitutunun doktorantıdır. Texnika elmləri namizədidir. Şəkilidir.**

**Məcnun Şükür oğlunun dediklərindən:**

– Hələlik cəmiyyətin rəsmi üzvləri yoxdur. Çox hörmətli ağsaqqallarımızdan ibarət Ağsaqqallar Şurası vardır. Onun tərkibində redaksiya, təşkilat, mədəni-maarif, digər təşkilatlarla əlaqələr və maliyyə-təftiş komissiyaları fəaliyyət göstərir.

Paşagillə əməkdaşlıq edirik. Nədənsə, respublikamızda bu halı çox narazılıqla qarşılayırlar ki, niyə Moskvada 10 cəmiyyət var, niyə Leninqradda bir cəmiyyət ətrafında birləşmirlər və s. Amma mən bunu təbii qəbul edirəm. Cəmiyyətlərin çoxluğu, əksinə, yaxşı haldır. Dialektikanın qanunları var, axı. Qoy fikir plüralizmi olsun. Mən eşidəndə ki, Paşagil bir tədbir keçirib, gecə yatmıram ki, gərək biz də bir iş görək. Səmərəli rəqabət yaranır. Nəticədə, ümumi işimiz qazanır. Amma bu sayaq rəqabəti qarşıdurma, antaqonizm səviyyəsinə çatdırmaq lazım deyil. Onda uduzarıq.

Respublika gərək bizim arxamızda möhkəm dayana. Müttəfiq respublikalarla bağlı qərarlar qəbul edəndə kənarda yaşayan azərbaycanlıların mövcudluğunu mütləq nəzərə almaq lazımdır. Məsələn, Leninqrad şəhərinin adının dəyişdirilməsiylə əlaqədar Azərbaycan parlamentinin müraciəti buradakı yerli əhalini bizə qarşı qaldırır, axı!.. (Keçirilmiş sorğuda leninqradlıların 70 faizdən çoxu şəhərin Sankt-Peterburq adlanmasına tərəfdar olublar).

Son vaxtlar Leninqrad bazarlarında OMON tərəfindən azərbaycanlılara qarşı qanunsuzluqlar törədilmişdir. Bu, yolverilməz haldır. Əgər hər hansı bir şəxs möhtəkirliklə məşğul olursa, kiməsə sataşırsa, qanunu pozursa bunun üçün həmin şəxsi fərdi şəkildə tutub qanunla cəzalandırmaq lazımdır. Eyni bir xalqın bütün nümayəndələrinə kütləvi hücum etməyə heç kəsin haqqı yoxdur. Bizim mövqeyimiz qəti

və kəskin olmalıdır. Xalqın hər bir nümayəndəsini müdafiə etməliyik. Düzdür, bazar alverçiləri xalqımızın hörmətini aşağı saldığı üçün buradakı ziyalılarımızın da çoxu bu məsələyə yaxın durmaq istəmir. Amma indiki halda söhbət həmin alverçilərin yox, millətin mənafeyindən gedir. Bilirsiz, bu məsələlərin kökü çox dərinlərə gedir. Respublika hökuməti də, məncə, öz etirazını bildirməlidir. Şəhərin küçələrində hər addımbaşı çiyələk satan ruslara rast gəlirsən. İkicə addımlıqda yetişən bu məhsulun kilosunu 20 manata satırlar. Heç kəs demir ki, niyə bu qiymətədir? Amma bizimkilər Azərbaycandan buraya gətirdikləri pamidoru 6 manata deyəndə, narazılıq başdan aşır. Bütün bunlar haqqında düşünmək lazımdır.

**HAŞİYƏ: Doğrudan da, eyni vaxtda ölkənin iki böyük şəhərində – Moskvadakı Çeryomuşkin bazarında və Leninqraddakı Moskovski bazarında azərbaycanlılara qarşı edilmiş hücumların və qanunsuzluqların cavabını verən tapılacaqmı?!**

–"Alverçi" deyib çox qara yaxırlar xalqımıza,– deyə Məcnun söhbətinə davam etdi, – amma mən əminəm ki, əgər univermaqlarda satılan xarici mallar Leninqrad və Bakı arasında əhalinin sayı nisbətində düzgün bölünsə, heç kəs gəlib burdan almaz. Bax, səbəb budur.

Cəmiyyətimizin qüvvəsilə burada imkan daxilində Azərbaycanın mənafeyini qoruyuruq. Lakin bizim fikrimizcə, Leninqradda, o biri respublikalarda Azərbaycanın daimi nümayəndəliyi yaradılmalıdır. Ancaq dövlət səviyyəsində yaradılmış belə bir nümayəndəlik qarşıya çıxan bütün problemləri respublika ilə əlaqəli şəkildə həll edə bilər.

## GƏZMƏYƏ QƏRİB ÖLKƏ...

Leninqradlı professorlarımız Əfrasiyab Vəkilovun, Nazim Qarayevin, Fəhəm Kəsəmənlinin, Elmira Rəhmanovanın, Şəmsi İsmayılovun və başqalarının görüşünə nə qədər can atsam da, onlardan ancaq

biri ilə – Fəhəm müəllimlə görüşə bildim. Qədd-qamətli, ağsaçlı eloğlumuzu görcək yadıma vüqarlı dağlarımız düşdü. Əvvəlki müsahiblərimin hamısından fərqli olaraq, onun torpağımıza "respublika" yox, "vətən", "ev" deyə danışmağı söhbətimizə bir kövrəklik, hərarət gətirmişdi. Doğma yurddan uzaqlarda yaşasa da, bütün varlığıyla vətənə bağlı idi. Bunu hər sözü, hər kəlməsi büruzə verirdi. Bir ağsaqqal kimi o, "Azəri"nin problemlərindən, qarşıda duran təxirəsalınmaz işlərdən danışırdı.

**Leninqrad Dövlət Texnika Universitetinin professoru KƏSƏMƏNLİ Fəhəm Paşa oğlu Qazaxın nəcabətli nəsillərindəndir. Otuz iki ildir ki, Leninqradda yaşayır. Fizika-riyaziyyat elmləri doktorudur. Dəfələrlə respublika mətbuatında Fəhəm müəllimin həyat yolundan söhbət açan məqalələr dərc olunduğundan bu fikirdəyəm ki, oxucularımız çox hörmətli professorumuzu yaxşı tanıyırlar. Leninqradın elmi dairələrində onun böyük hörməti və nüfuzu vardır. "Azəri" cəmiyyəti Ağsaqqallar Şurasının sədr müavinidir.**

**Professor Fəhəm müəllimin dediklərindən:**

– Mən vətənpərvərəm, amma millətçi deyiləm. Cəmiyyətə getmək mənim borcumdur. Bu fikirdəyəm ki, cəmiyyət bizdə hələ yaranma mərhələsindədir. Ayrıca yerimiz olmayınca, ürəyimiz istəyən səviyyədə cəmiyyət də olmayacaq. "Azəri" elə bir ictimai təşkilat olmalıdır ki, doğma dilini, mədəniyyətini qiymətləndirən hər bir azərbaycanlı bizim cəmiyyətin simasında özünə himayədar tapa bilsin. Azərbaycan dilini öyrənmək arzusunda olan ruslar da bizə dəfələrlə müraciət ediblər. Təəssüf ki, hələlik heç bir köməklik göstərə bilməmişik. Dil kursları açmaq üçün yer, dərs vəsaiti, maddi vəsait lazımdır.

Vətənlə əlaqələrimiz çox zəifdir. Ona görə də gücümüz azdır. Xaricdən erməni və yəhudi lobbiləri, İttifaqdakı erməni təşkilatalrı ona

görə güclüdürlər ki, vətənlə bağlıdırlar, ordan güc alırlar, biz isə yox. Biz Azərbaycan xalqının bir hissəsiyik, ona görə biz də Azərbaycan rəhbərliyinin töhfələrindən bəhrələnməliyik. Hökumət bizə diqqəti, qayğını artırmalıdır.

Biz, burada yaşayan azərbaycanlı ziyalılar hamımız demokratıq. Millətsevərik. Azərbaycana bağlıyıq, borcluyuq. İstəyirik ki, cəmiyyətdə doğma vətən ab-havası olsun, içəri girəndə özünü evdə hiss edəsən, mənəvi rahatlıq duyasan. Burada Azərbaycan tarixinə, mədəniyyətinə dair kitablar, əşyalar olsun. Azərbaycan ədəbiyyatı nümunələrindən ibarət kitabxana təşkil edilsin. Yeganə siyasətimiz Azərbaycan mədəniyyətini, maarifini yaymaq olsun.

Biz hələlik fövqəladə bir hadisə olanda yığışırıq. İşi elə qurmaq lazımdır ki, daimi fəaliyyətdə olaq. Leninqradda 20 min, Leninqrad ətrafında 80 min azərbaycanlı yaşayır. Bu yüzminlik xalqa dayaq olmalıyıq. Kronştadtda xidmət edən azərbaycanlı balalarını cəmiyyət daimi hamiliyə götürsə daha yaxşı olar, nəinki hadisədən-hadisəyə yığışıb oraya yollanmağımız.

Sonra o, söhbəti "Dayaq" cəmiyyətinin üstünə gətirərək, P.Rəcəbovun seçdiyi mövqedən, ağılla, hay-küysüz iş görməyindən razı qaldığını bildirdi.

Söhbətimizə yekun vuranda ağsaçlı professor dedi:

– Vətəndən uzaqlarda yaşasaq da, qəlbimiz vətənlə birgə döyünür! Şəxsən mən əvvəl-axır Azərbaycana qayıdacağam. Atalar yaxşı deyib: "Gəzməyə qərib ölkə, ölməyə vətən yaxşı".

## "DAYAQ"DA GÖRÜŞ

Paşa Rəcəbovla zəngləşməyim uğurlu bir vaxta təsadüf etmişdi: səhəri gün cəmiyyətdə fəalların yığıncağı var idi. Onlarla toplu halda görüşmək mənimçün çox maraqlı idi.

**HAŞİYƏ: Paşa RƏCƏBOV Naxçıvandandır. Cərrahdır. 10 ildən çoxdur ki, Leninqradda yaşayır. Üç uşaq atasıdır.**

Cəmiyyətin müvəqqəti yerləşdiyi otağa toplaşmış həmvətənlərimiz Rizvan Muxtarov, Rasim Quliyev, Namiq Qədimov, Bəkir Əhmədov, Şair Yusubov və başqaları yaxın vaxtlarda görəcəkləri işləri müzakirə edirdilər. Leninqraddakı rayon komsomol komitələrindən birində məsul vəzifə tutan Xaqani Əliyev də ordaydı. O, hələlik özünü cəmiyyətin üzvü hesab etməsə də, "Dayağ"ın işlərinə fəal kömək edir.

Həmin gün mənimlə yanaşı BDU-nun coğrafiya kafedrasının müdiri, professor Müseyib Müseyibov, bakılı Gennadi Seroçenko və Ramiz Muradov da "Dayağ"ın qonağı idilər. Bizim hamımızı "Dayağ"ın fəaliyyəti, çətinlikləri və respublikadan nə kimi köməklik umduğu maraqlandırırdı. Divardakı Azərbaycan xəritəsi və milli bayrağımız söhbətə xüsusi ahəng verirdi.

– İndi Leninqraddakı vəziyyət 1-2 il əvvəlkindən xeyli fərqlənir, – deyə P.Rəcəbov söhbətə başladı. O zaman şəhəri mitinqlər dalğası bürümüşdü. Biz də öz etirazlarımızı mitinqlər vasitəsilə bildirirdik. Tədricən şəhərin əhval-ruhiyyəsinə uyğun olaraq biz də öz iş üslubumuzu dəyişmişik. Dəfələrlə Lensovetin deputatlarıyla görüşlər keçirmişik. Güclü erməni təbliğatı nəticəsində "Ermənistanın blokadası" məfhumu yarananda həmin deputatların nümayəndələrindən ibarət dəstələri Azərbaycana aparmışıq. Onları şəxsən özüm müşayiət etmişəm. Deputat qrupunu, "Veçerniy Leninqrad" qəzetinin müxbiri Pyotr Kotovu, "İzvestiya"nın və "Ças pik" qəzetinin fotomüxbiri Andrey Çerakini, "Memorial" təşkilatının üzvü Yuliya Kondratyeva və başqalarını Naxçıvana, Qazaxa, Ağstafaya, Culfaya aparmışam. Faciəli Qazax hadisələri baş verəndə Aşağı Əskipara kəndinə də getdik. Onlar hər şeyi öz gözləriylə gördülər. Azərbaycandan qayıdandan sonra deputat Vladimir Ramm "Ças pik" qəzetində tutarlı bir məqalə ilə çıxış etdi. Məqalə işıq üzü görəndən sonra məni redaksiyaya çağırdılar. Sən demə, həyasız ermənilər üsyan qaldırıbmışlar ki, məqalədəki

faktlar guya düzgün deyil. Leninqrad Xalq Cəbhəsinin idarə heyətinin üzvü, jurnalist Arakelyan da öz növbəsində mənə yaxınlaşaraq bildirdi ki, "məsləhət görmürəm bir də belə işlər görəsiniz". Əlbəttə, o, cavabını aldı... Biz Azərbaycanın informasiya blokadasını yarmaq məqsədilə 4-5 dəfə belə səfərlər təşkil etdik. Azərbaycana qarşı yönəldilmiş bəzi tədbirlərə görə piketlər təşkil etmiş, etiraz mitinqləri keçirmişik. İran körfəzində müharibənin başlanmasına etiraz əlaməti olaraq "Dayaq" cəmiyyəti adından ABŞ səfirliyi qarşısında piket keçirdik.

Azərbaycanda çoxları narahatdır ki, niyə Leninqradda 2 cəmiyyət fəaliyyət göstərir. Bilirsiniz, 2 cəmiyyət olmaq hələ parçalanmaq demək deyil, bir cəmiyyət də hələ birlik demək deyil. Amma məsələ burasındadır ki, 2 hüquqi etirazdır, yaxud həmrəylikdir. Burda ermənilərin əli ilə Azərbaycana qarşı yönəldilmiş tədbirlərə biri var ki, 1 cəmiyyət etiraz edə, biri də var 2 cəmiyyət etiraz səsi ucalda. Fərqi böyükdür.

Xalqımızın xeyirxahlığını və humanizmini təbliğ etmək məqsədilə "Qırmızı xaç" cəmiyyətilə əməkdaşlıq edirik. İki dəfə cəmiyyətin hesabına (2 min və 3 min manat məbləğində) qocalara və əlillərə kömək üçün pul keçirmişik. Bazarda pamidorun kilosu 12-13 manat olduğu vaxtlarda neçə dəfə ev-ev gəzib kimsəsiz qocalara Ordubaddan göndərilmiş pamidor, konserv, konfet və s. ərzaq məhsulları paylamışıq. Yeni il ərəfəsində Krasin adına xəstəxanada yatan kimsəsizlərə (orada belə şöbə var) bayram hədiyyəsi aparmışdıq. 52 xəstəni bir-bir təbrik edərək, Azərbaycan töhfəsini təqdim etdik. Qocaların gözlərindən sevinc yaşları axırdı. Hətta tibb bacıları da bu sayaq diqqətdən riqqətə gəlmişdilər. "Nevskoye vremya" radioproqramında bu barədə veriliş də oldu.

**HAŞİYƏ: "Dayaq" cəmiyyəti ancaq Leninqrad ərazisində xeyriyyə tədbirlərilə kifayətlənmir. 20 Yanvarda şəhidlərimizin ildönümü keçiriləndə 1500 manat pul toplayaraq bir**

**sıra şəhid ailələrinə 50 manatdan yardım göndərmişdir.**

**Leninqradda təhsil alan azərbaycanlı nümunəvi tələbə üçün ayda 150 manat məbləğində Tağıyev adına təqaüd təsis etmişlər. Həmin təqaüdü yaxşı oxuyan, nümunəvi davranışa malik olan və Azərbaycanın dirçəlişi uğrunda mübarizə aparan tələbə alacaqdır.**

**Hazırda cəmiyyətin nəzdində "Azərbaycan" adlı kiçik müəssisə təşkil edilmişdir. Cəmiyyətin üzvləri kompüter oyunları kiçik müəssisəsindən əldə olunan gəlirlə "Dayağ"ın maliyyə vəziyyətini qaydaya salmaq və daha böyük işlər görmək əzmindədirlər. Respublikadan istəkləri budur: bizə kömək də göstərin, nəzarət də edin!**

Yığıncaqdan sonra görüşüb sağollaşarkən yurddaşlarımız: - Sizin bizə olan diqqətiniz bizim buradakı nüfuzumuzu da qaldırır. Tez-tez gəlin! - dedilər.

## BİR AİLƏDƏ

Yurddaşlarımızın sorağıyla qədəm basdığım qərib şəhərdə doğma Azərbaycan ab-havasını özündə yaşadan ailələrdən biri də rəssam Sərhəd Rzayevin ailə ocağıdır. Otaqların bəzədilməsi üslubundan, yerə döşənmiş xalça-palazdan, divardakı "Novruz" tablosundan Azərbaycan hərarəti yağırdı. Hətta dibçəkdə bəslənən güllər də bizim torpağa məxsus güllər idi. Evin xanımı Kəmalənin dəmlədiyi pürrəngi çay, şirin ana dilimizdə danışıb-gülən körpələrin sözü-söhbəti mənə qərib eldə olduğumu tamam unutdurmuşdu.

Leninqradda qonağı olduğum bütün evlərdə xalqımıza xas olan qonaqpərvərliklə rastlaşmışdım. Hamısında da adətimizlə süfrəyə öncə ətirli çay gətirirdilər. Uzun illər qürbətdə yaşayan yurddaşlarımızla da söhbətimiz əsasən Azərbaycan dilində olurdu. Lakin Rzayevlər ailəsində milli ruh daha güclüydü. Bəlkə də rəssamın emalatxanasını

bəzəyən, otaqların divarlarından boylanan Azərbaycan mövzulu tablolar idi bu hissi, bu ruhu yaradan?!

**Sərhəd RZAYEV İmişlidə dünyaya göz açıb. Könlünü sənətə verəndən sonra Bakıdakı Ə.Əzimzadə adına Rəssamlıq Məktəbində oxuyub. "Əcdadlarımızın yurdunda" adlandırdığı diplom işini Qobustan mövzusuna həsr edib. Sonra SSRİ Rəssamlıq Akademiyasının prezidenti B.S.Uqarovun emalatxanasında çalışıb. İ.Repin adına Rəssamlıq, Heykəltəraşlıq və Memarlıq İnstitutunun rəngkarlıq fakültəsini bitirib. "Novruz" adlı diplom işi yüksək sənətkarlıq nümunəsi kimi əla qiymətləndirilib. Hazırda enişli-yoxuşlu yaradıcılıq yollarında inamla irəliləyir.**

**"Azəri" cəmiyyətinin fəallarındandır. Baharın ilıq nəfəsi torpağı isidəndə leninqradlı həmvətənlərimiz də bizimlə birgə Novruz bayramını qeyd etmişdilər. Bayram şənliyinin ən maraqlı tədbirlərindən biri də balaca rəssamlarımızın - Leninqradda böyüyən azərbaycanlı balaların əsərlərindən ibarət sərgi olmuşdu. Həmin sərginin təşkilində rəssam Sərhəd Rzayevin də böyük əməyi var idi.**

## "QAFQAZLI GÖRSƏN BİL Kİ, HAMISI ÖZÜMÜZÜNKÜLƏRDİR"

15 yaşlı Elmira Məmmədovanı müalicə olunmaq üçün Leninqrada gətirəndə qardaşı ona belə demişdi. Bacısına tapşırmışdı ki, "bu qürbət diyarda rastlaşacağın bütün azərbaycanlılar öz doğmalarımızdır. Qafqazlı görsən - erməni, gürcü fərqi yoxdur, bil ki, hamısı özümüzünkülərdir. Onlarla yaxınlıq et".

**Elə o vaxtdan - 1955-ci ildən etibarən gəncəli qızı Elmira MƏMMƏDOVA Leninqradda məskunlaşdı. Əvvəlcə müalicə olundu. Orta məktəbi bitirəndə həkimlik sənətini seçdi. II**

**Tibb İnstitutunu bitirdi. Taleyin qismətilə milliyyətcə rus olan Vladimir Petroviç İvanovla ailə həyatı qurdu. Nigah kəsilərkən Elmira xanıma olan məhəbbətini bir daha sübuta yetirmək məqsədilə həyat yoldaşı onun familiyasını qəbul etdi. Sadə və mehriban ailələrində iki övlad böyüdürlər. Qızları Gülnarə Tibb İnstitutunun VI kurs tələbəsidir. Oğulları Ruslan isə XI sinifdə oxuyur.**

**Qürbətdə keçən ömrünün 30 ili arxada qalmışdı. Dinc və rahat yaşayırdılar. Birdən dünyanı lərzəyə salan 1988-ci il Dağlıq Qarabağ hadisələri başlandı. Vətəndən çox-çox uzaqlarda yaşayan elqızımız doğma xalqa atılan böhtanlara dözə bilmədi. Respublikadan kənarda yaşayan minlərlə yurddaşımız kimi, o da qələmə sarılaraq müxtəlif instansiyalara məktublar, teleqramlar göndərməyə başladı. Azərbaycanın və azərbaycanlıların qəsdinə durmuş siyasi aksiyalara qarşı öz etiraz səsini ucaltdı. Qorbaçova, Liqaçova, Yeltsinə, Medvedyevə, "Pravda", "İzvestiya", "Bakinskiy raboçiy" qəzetlərinə, Leninqrad televiziyasına və digər ünvanlara göndərdiyi məktub və teleqramların qəbzlərinə baxdıqca məni heyrət bürüyürdü. Dörd ildə tək bir azərbaycanlı qadın bu qədər etiraz səsi ucaldıbsa, görəsən bütöv Azərbaycan xalqının etirazları saya-hesaba gələrmi? Bəs niyə bütün bunları eşidən yoxdur?! Kim bilir, bəlkə bu müraciətlər olmasaydı, halımız daha pis olardı?..**

**Elmira xanımın dediklərindən:**

-Dörd ildir ki, gecəmiz-gündüzümüz yoxdur. Hər gün işdən sonra gecə yarısınadək oturub bu gördüyünüz məktubları yazmaqla məşğul olmuşam. Yaxşı ki, cəmiyyət yarandı. Cəmiyyət yarananadək biz burada bir-birimizdən xəbərsiz yaşayırdıq. Cəmiyyət yurddaşlarımızı bir yerə topladı və hamımızı bir-birimizə tanıtdı. Orada çox qeyrətli, mübariz cavanlarımız var. Ancaq onlara ağıllı yolgöstərən,

məsləhətçi lazımdır. İndi işlərimiz xeyli sahmana düşüb. Lakin hələ çox iş görməliyik.

Bizdə qadınlar daha fəaldırlar. Xüsusilə Xeyransa bütün vaxtını, enerjisini təmənnasız olaraq bu işə verir. Xeyransaya afərin! Çox can yandırır.

Yanvar hadisələri baş verəndə dərddən az qalırdı ki, ürəyimiz partlasın... Getsin o günlər, gəlməsin. Ürəklərimiz qan ağlayırdı. Özümüz isə mütləq iş görməliydik - mitinqlər, etiraz nümayişləri və s. vasitəsilə Bakı faciəsini ictimaiyyətə çatdırmalıydıq. Ən dəhşətlisi isə o idi ki, respublika ilə heç bir əlaqəmiz yoxuydu. Qalmışdıq "Vremya"-nın ümidinə...

**HAŞİYƏ: Bəli! Vətəndə faciə baş verəndə kənarda yaşayan bütün Azərbaycan övladları bir nəfər kimi ayağa qalxdı. Xalqın böyük faciəsi milli birlik yaratdı. (Kaş, həmin günlərdəki milli həmrəyliyimizi illər uzunu qoruyub saxlaya biləydik!..) Yurddaşlarımız Yanvar faciəsini dünyaya bəyan etmək yolunda, səsimizi dünya xalqlarına çatdırmaq üçün əllərindən gələni etdilər. Əgər o zaman yurddaşlarımızın respublika ilə əlaqələri heç olmazsa indiki səviyyədə olsaydı, daha böyük işlər görər, daha sanballı nəticələrə nail olardılar...**

Buna görə də yurddaşlarımızla əlaqələri təkcə "Yurddaş" cəmiyyəti və "Yurddaş" qəzeti, Azərbaycan Mədəniyyət Nazirliyi və Mədəniyyət Fondu və s. çərçivəsində yox, respublikanın bütün idarə və təşkilatları, bütün mətbuat orqanları çərçivəsində möhkəmləndirmək vacibdir.

## ESTAFETİ HƏMKARIMIZ DAVAM ETDİRƏCƏK

Ezamiyyətdə olduğum günlərdə leninqradlı həmvətənlərimlə redaksiyamız arasında daimi əlaqələr yaratmağa çalışırdım. İstəyirdim

ki, onlardan hər biri "Yurddaş"ın oxucuları və daimi müəllifləri sırasına daxil olsun. Görürdüm ki, doğma xalqa deməyə sözləri çoxdur. Vətəndən uzaqlarda vətənin qayğılarıyla yaşayan yurddaşlarımızın həyatı, fəaliyyəti, arzu və istəkləri, qayğı və problemləri barədə bizə müntəzəm yazılar yaza biləcək bir şəxs arayırdım. Leninqradda "Yurddaş"ın bir növ müxbir postunu yaratmaq istəyirdim. Azərbaycan mətbuatıyla Leninqrad arasında körpü rolunu oynaya biləcək belə bir şəxs **Şəkiyə Bünyad qızı oldu. O hələ tələbədir. Leninqrad Dövlət Universitetinin jurnalistika fakültəsinin II kursunda oxuyur. Eyni zamanda Şəkiyə Abdullayeva həm də "Smena" qəzetinin ştatdankənar müxbiridir. Belə ki, respublika ilə möhkəm əlaqə yarada biləcəyi təqdirdə gənc jurnalist vaxtaşırı "Smena" qəzetində də çıxış edərək Azərbaycan haqqında həqiqətləri Leninqrad oxucusuna çatdıra bilər.** Redaksiyamızın yaradıcı kollektivi adından xahiş, tapşırıq və tövsiyələrimi dinləyərək gənc həmkarım vəd etdi ki, bizimlə əməkdaşlıq edəcək. Leninqraddan yenicə qayıtmışdım ki, redaksiyamıza zəng çaldı. Əməkdaşlarımızın bir qismilə elə telefondaca tanış oldu. İndi Şəkiyənin bizə göndərəcəyi ilk yazıları gözləyirik.

## HƏLƏLİK, NEVA!

Neva sahillərindəki görüşlər xatirəmdə dərin izlər buraxıb. Ali dərəcədə vətən sevgisi, milli qeyrət hissi... Torpağa bağlılıq, xalqa bağlılıq... Və bütün bunlarla yanaşı vətəndən uzaqlarda yaşaya bilmək hünəri.

Sanmayın ki, yurddaşlarımlız üçün asandır. Qürbətdə yaşamaq hər oğulun hünəri deyil. Onlar isə məskunlaşıblar. Yaşayırlar, işləyirlər. Yeri gəlmişkən qeyd edim ki, leninqradlı yurddaşlarımızın əksəriyyəti ayaqlarını bu yerə möhkəm dirəmiş adamlardır. Yaşadıqları cəmiyyətdə öz mövqeləri, nüfuzları olan, sayılan-seçilən insanlardır.

Aralarında yüksək səviyyəli ziyalılar, yaxşı mütəxəssislər çox-çoxdur. Təəssüf ki, indiyədək respublikamızda onları layiqincə tanıda bilməmişik. Çünki əlaqələrimiz zəif olubdur. Elə bu yazıda da əsas məqsədimiz yurddaşlarımızı qismən də olsa, oxuculara təqdim edərək, onların ürək sözlərini, düşüncələrini, fəaliyyətlərini xalqımıza çatdırmaqdır.

Ezamiyyətdə olduğum sonuncu günləri Kronştadtda əsgər oğullarımızın yanında keçirdik. Azərbaycan ünvanlı əsgər məktublarıyla vətənə qayıtdım.

- Hələlik, Neva. Sənin sahillərində bir daha yurddaşlarımızla görüşənəcən!..

**"Yurddaş" qəzeti**
**21 avqust 1991-ci il, səh. 1, 4-5,**
**4 sentyabr 1991-ci il, səh. 2, 6**

# KRONŞTADTDA BİR GÜN

**Son illər əsgər analarının nigarançılığı artıb. Ordu sıralarında baş verən qanunsuzluqlar, Azərbaycan övladlarına qarşı yaranmış ögey münasibət anaların yuxusunu ərşə çəkib. Əsgərlikdən cənazəsi qayıdan oğullarımızın dərdi hamımızı göynədir, narahat edir. Elə buna görə də Sankt-Peterburqdakı "Azəri" və "Dayaq" Azərbaycan cəmiyyətləri vaxtaşırı vilayətdəki hərbi hissələrdə olur, azərbaycanlı əsgərlərə baş çəkirlər. Onlar əsgərlərimizlə möhkəm əlaqə yaratmaq niyyətindədirlər. Belə olsun ki, dar ayaqda azərbaycanlı balalar özlərini tənha hiss etməsinlər, uzaq respublikadan ata-analarını çağırınca, yaxın cəmiyyətdən eloğlularını çağırsınlar, onlara güvənsinlər. İndi vilayətdəki hərbi hissələrdə azərbaycanlı əsgərlərlə münaqişə baş verəndə komandanlıq da birbaşa Sankt-Peterburqdakı Azərbaycan cəmiyyətlərinə müraciət edir.**

Yurddaşlarımızın sorağıyla Sankt-Peterburqda olduğum günlərdə "Azəri" cəmiyyəti Kronştadtdakı donanmanın matroslarıyla, "Dayaq" cəmiyyəti isə şəhərətrafı inşaat batalyonundakı əsgərlərimizlə görüşə getməyə hazırlaşırdılar. Mən "Dayağ"ın sədri Paşa Rəcəbova deyəndə ki, sabah "Azəri"nin üzvləriylə birgə Kronştadta yola düşürük, o gülümsünərək qayıtdı ki, bizi qabaqlayıblar ha... Dərhal cəmiyyət üzvlərinə müraciət etdi ki, komandanlıqla bir daha əlaqə saxlayıb görüşü tezləşdirməliyik.

“Azəri”ylə “Dayaq” arasındakı bu sayaq səmərəli rəqabətin mövcudluğu məni sevindirdi. Bir şəhərdə fəaliyyət göstərən iki cəmiyyətin daha çox iş görə biləcəyini əyani surətdə gördüm, inandım. İstərdik, İttifaqın müxtəlif regionlarındakı Azərbaycan cəmiyyətlərinin sayca çoxluğu yurddaşlarımız arasında parçalanmaya yox, məhz fəaliyyət dairəsinin genişlənməsinə xidmət etsin. Günəşli bir gündə Sankt-Peterburqdan Kronştadta yola düşdük. “Azəri” cəmiyyətinin fəalları həkim Elmira Məmmədova, idmançı Səid Hacıyev, rəssam Sərhəd Rzayev, heykəltəraş Tarıverdi Quliyev, tələbə Rasim Əliyev, Ramiz İbrahimov, Rəsul Əzizov, Rafiq Kəlbiyev, tələbə-jurnalist Şəkiyə Abdullayeva, Vidadi Zakirov və başqaları nümayəndə heyətinin arasındaydı. Kronştadtdakı görüşlərə Bakıdan “Sunay” folklor rəqs ansamblı da gəlmişdi. Onları “Azəri” cəmiyyəti adından Xeyransa Mirzəyeva dəvət etmişdi. Ümumiyyətlə, 2 gün davam edən həmin görüşlər bu qeyrətli elqızımızın ciddi səyi, böyük zəhməti bahasına təşkil olunmuşdu.

## QOSPİTALDA GÖRÜŞ

Kronştadta çatan kimi əvvəlcə N.A.Semaşko adına hərbi-dəniz qospitalındakı əsgərlərə baş çəkdik. Burada bizim gəlişimizi gözləyirdilər.

“Sunay”ın konserti dahi Ü.Hacıbəyovun “Koroğlu” üvertürasının əzəmətli sədaları altında başlandı. Son illər demokratik Azərbaycanın himni kimi qəbul etdiyimiz bu üvertüranı bütün salon ayaq üstə dinlədi.

“Sunay” gənc ansambldır, elə üzvləri də gənclərdir. “Azərbaycan” assosiasiyasının “Dalğa” firması nəzdində fəaliyyət göstərir. Ansamblın bədii rəhbəri Zakir və Leyli Ağayevlərdir. “Sunay” unudulmuş qədim Azərbaycan rəqslərini axtarıb-tapır, onu bərpa edərək öz repertuarına daxil edir. Peşəkar musiqiçi və rəqqaslardan ibarət an-

samblın ifasında “Sevgililər qayası”, “Papaq oyunu”, “Qobustan yallısı”, “Qızlar rəqsi” əsgərlərin böyük marağına səbəb oldu, alqışlarla qarşılandı. Konsert vaxtı hərdən rəqslər arasında bayatılar deyilir, qədim meyxana janrından istifadə edilirdi. Xüsusilə, “Məzəli hadisə” və “Naz eləmə” rəqsləri salona hərarət gətirdi. Ansamblın solisti Rəna İbrahimovanın məharətlə ifa etdiyi “Qaval” rəqsi gənc hərbçiləri valeh etdi. Sonra xalq rəqsi “Tərəkəmə”nin sədaları salona yayıldı. Azərbaycan gözəllərinin plastik hərəkətləri, zərif yerişləri, əlvan geyimləri göz oxşayırdı. Ümumiyyətlə, istər çalğıçıların, istərsə də rəqqas və rəqqasələrin səhnə geyimləri milli geyimlərimizin əlvanlığını və zənginliyini gözəl əks etdirirdi. Müxtəlif millətlərin nümayəndələrinin tamaşa etdiyi konsertdə “Sunay”ın belə gözəl kostyumlarda çıxış etməsi sözsüz ki, xalqımızın qədim milli mədəniyyətini nümayiş etdirmək baxımından da çox əhəmiyyətli idi. Heydər Əliyevin (qarmon), Namiq Abbasovun (nağara), Əbülfəz Həsənovun (nəfəs alətləri) və b. ifasında Azərbaycan musiqisi ürəkləri fəth edir, solistlər Bəxtiyar Yaqubovun, Afaq Alməmmədovanın, Namiq Qafarovun, İradə Həsənovanın, Əjdər İsayevin, Lalə Rzayevanın və digər istedadlı gənclərimizin ifasında milli rəqslərimiz tamaşaçıları heyran qoyurdu.

Bizimlə birgə əsgərlərimizin görüşünə getmiş sankt-peterburqlu yurddaşımız Elmira xanım Məmmədova doğma musiqinin təsirindən elə kövrəlmişdi ki, göz yaşlarını saxlaya bilmirdi.

**– Bizim musiqini həyəcansız dinləmək mümkün deyil. O qədər zəngin, o qədər dərin, o qədər mənalıdır ki... Musiqimizin sədası gəlincə bütün ruhum bədənimdən oynayır. Qürbətdə yaşadığım bu illər ərzində mənim Vətən həsrətimi az-çox ovunduran Azərbaycan musiqisi olubdur, – deyirdi Elmira xanım.**

Konsert zamanı mən hərdən səhnəyə yox, tamaşaçı salonuna baxır, istər əsgər balaların, istərsə də sankt-peterburqlu azərbaycanlıların reaksiyasına diqqət yetirirdim. Yurddaşlarımızın gözlərində o

qədər böyük həsrət, təşnə vardı ki... Bütün varlıqlarıyla diqqət kəsilmişdilər. Düşündüm ki, biz Bakıda hər gün televiziyada müxtəlif konsertlərə baxır, musiqi verilişlərinin çoxluğundan bəzən hətta təngə gəlirik. Vətənin bu ağır günündə nə qədər çalıb-oxumaq olar?! Yurddaşlarımız isə adicə bir konsertə belə həsrətdirlər. Yaxşı olar ki, respublika Mədəniyyət Nazirliyi vaxtaşırı yurddaşlarımız yaşayan regionlara konsert briqadaları, müxtəlif rəqs və mahnı ansamblları göndərsin, həmvətənlərimizi doğma mədəniyyət üçün bu dərəcədə qəribsəməyə qoymasın.

Konsertin sonunda N.A.Semaşko adına hərbi-dəniz qospitalının rəhbərliyi adından "Sunay" folklor ansamblına yüksək ifaçılığa və qospitalın xəstələrinə göstərdikləri qayğıya, mənəvi himayəyə görə fəxri mükafat təqdim edildi.

## HİSSƏDƏ GÖRÜŞ

Qospitalda konsert başa çatdıqdan sonra hərbi hissələrdəki əsgər oğullarımızla görüşə yola düşdük. 09990 nömrəli hərbi hissəyə çatınca vətən balaları bizi dövrəyə aldılar. Azərbaycanın ən müxtəlif guşələrindən hərbi xidmətə yollanmış bu cavan uşaqlar əsgəri həyatlarından danışır, çətinliklərindən söz açır, ən çox da doğma respublikadakı vəziyyətlə maraqlanırdılar. Şərurlu Qabil Qasımov, Kamal Camalov, Ağəddin Məhərrəmov, Nurəddin Rüstəmov, Mehman Məmmədov, Babək rayonundan olan Şəhriyar Nuriyev, Əli Məmmədov, Qəmbər Nüseynov, Səbuhi Məmmədov, Qəzənfər Salmanov, İsmayıllı yetirməsi Mübariz Babayev, sabirabadlı İlkin Kərimov, zaqatalalı İslam Mehdiyev, Füzuli rayonundan gəlmiş Valeh Əhmədovla İmran Zülfüqarov və başqaları bizimlə şirin- şirin söhbət edirdilər.

Təbii ki, istər "Azəri" cəmiyyətinin üzvləri, istərsə də biz bakılılar əsgər oğullarımızı nizam-intizamla xidmət etməyə, bu nadir imkandan istifadə edərək (Kronştadtda yüksək səviyyəli hərbi texnika

vardır) hərbi texnikanın sirlərinə yiyələnməyə, yüksək hazırlıqlı hərbi mütəxəssislər olmağa can atmağa çağırırdıq. Bir şərtlə ki, övladlarımız öz vəzifələrilə yanaşı hüquqlarını da bilsinlər və lazım gəldikdə öz hüquqlarını qorumağı bacarsınlar. Ordu sıralarında qul itaətilə yox, şüurlu intizamla xidmət etsinlər.

Əsgər oğullarımız gileyləndilər ki, bəzən Azərbaycandan bura gələn nümayəndə heyəti yalnız komandanlıqla görüşüb geri qayıdır, bizimlə heç söhbət də etmir. Halbuki, bu uzaqlıqda məsafəni qət edənlər birinci növbədə buna can atmalıdırlar. Bəzən də komandanlıqla söhbət edəndən sonra əsgərləri bir zala toplayıb səhnədən onlara öyüd-nəsihət verir, komandirlərinin sözünə qulaq asmağı, itaətli olmağı tapşırırlar. Hərdən bu tapşırıqlar hədə-qorxu tonunda deyilir. İnzibati-amirlik dövrünün yetirməsi olan nümayəndələr hətta komandanlıqdan xahiş edirlər ki, "bunları hər cürə sıxışdırın, iplərini boş buraxmayın". Bundan sonra həmin hərbi hissədəki əsgərlərimizin vəziyyəti lap ağırlaşır. Necə deyərlər, qaş qayırdıqları yerdə vurub göz çıxarırlar. Məsələn, bizdən əvvəl həmin hərbi hissədəki əsgərlərimizə baş çəkməkçün respublikadan Kronştadta gedən bir deputatımızla bir polkovnikin gedişi (təəssüf ki, əsgərlər həmin şəxslərin ad-familiyalarını dəqiq xatırlamadıqları üçün adları qeyd edə bilmirik) təxminən bu cür nəticələnib. Azərbaycanlı əsgərlər qeyd etdilər ki, **həmin polkovnikin tələbiylə bizə münasibət daha da sərtləşdi. Aramızda rus dilini bilən və hamımızın fikrini, narazılığını komandanlığa çatdıran ikicə nəfərin ikisini də Bakıdan gələnlər gedən kimi qaubvaxta saldılar. Özümüzü də ayırıb I və II məktəblərə payladılar (əvvəl komandanlıq azərbaycanlı uşaqların hamısını I məktəbə təhkim edibmiş). Beləliklə, biz həmvətənlərimizin gəlişindən bir xeyir duymadıq, amma zərb-dəstlərini gördük...**

Bizim nümayəndə heyəti hərbi hissənin komandiri, I ranq kapitanı Valeri Viktoroviç Katyuxinlə, III ranq kapitanı Vladimir Mixaylo-

viç Kartaşovla və başqa zabitlərlə görüşdü. Məlum oldu ki, əsgər oğullarımızın əsas çətinliyi rus dilini bilməməkləridir. Biz komandanlıqdan xahiş etdik ki, azərbaycanlı matroslar üçün ayrıca dil kursları təşkil etsinlər.

İkinci çətinlik ailə tərbiyəsindən gələn bəlalardan ibarətdir. "Kişi ev işi görməz" prinsipi ilə tərbiyə almış cavanlarımız birdən-birə əsgəri həyata uyğunlaşammır, lazım gəldikdə döşəmə silməyi, kartof soymağı özünə ar bilir və bu işləri öyrənənədək  xeyli əzab çəkir.

Üçüncü, daha ciddi səbəb isə azərbaycanlı çağırışçıların sağlamlıq məsələsidir. İstefada olan tibb xidməti polkovniki Rahib Abbasov bildirdi ki, Azərbaycandan hərbi qulluğa göndərilənlər arasında xəstə gənclərə tez-tez təsadüf olunur. Əslində beləl追rini hərbi-tibbi komissiya əsgəri xidmətə göndərməməlidir. Lakin respublikamızdan səhhəti zəif olan gənclərin ordu sıralarına göndərilməsi kütləvi xarakter daşıyır. Əvvəla, onların sağlamlıq dərəcəsi layiqincə qulluq etməyə imkan vermir, ciddi hərbi rejim şəraitində zəif səhhətləri daha da pozulur, xəstəlik sürətlə inkişaf etməyə başlayır. İkincisi də, digər xalqların sağlam nümayəndələri arasında xəstə azərbaycanlı gənclər tez-tez xoşagəlməz obyektə çevrilir və mənsub olduğu millət barədə də qeyri-məqbul rəy doğurur.

Kronştadtdakı müxtəlif hərbi hissələrdə əsgər oğullarımızla görüşlərimiz bir qayda olaraq konsertlə yekunlaşırdı. Hər yerdə də "Sunay"ın bir-birindən gözəl rəqsləri rus, qırğız, yəhudi, türkmən, qazax əsgərlərə böyük estetik zövq verirdi. Bu yerdə hərbi hissələrdə konsertlərimizin təşkilinə və keçirilməsinə böyük köməklik göstərmiş, Bakıdan gələn ansambl üçün Kronştadta giriş icazəsi almış (Kronştadt bağlı hərbi şəhərdir) Kronştadt Matros Klubunun bədii rəhbəri Vyaçeslav Georgiyeviç Smirnovun, 25059 nömrəli hərbi hissənin əməkdaşı, kapitan-leytenant İqor Zamaşnyukun adlarını da qeyd etmək istərdim.

Hərbi hissələrdəki görüşlərin rəsmi hissəsi Leninqrad cəbhəsinin döyüşçüsü, müharibə veteranı Səid Hacıyevin çıxışıyla başlandı. "Sunay"ın bədii rəhbəri Zakir Ağayev əsgər oğullarımıza Azərbaycan torpağının salamlarını yetirdi. Milli himnimizin sədaları altında ayağa qalxan salonu himn bitən kimi gurultulu alqışlar bürüdü. "İvanka" rəqsinin ifasına salondakı rus əsgərlər də qoşuldu, bu onlarda ruh yüksəkliyi yaratdı. "Gənclik rəqsi", "Sevgililər qayası", "Cigit rəqsi"... bir-birindən şux oyun havalarımız. Matros Mehdi Həsənovun oxuduğu muğam xüsusi maraqla qarşılandı.

Görüş "Azəri" cəmiyyətinin sədri Məcnun Şükürovun çıxışıyla başa çatdı. Komandanlıq adından İqor Zamaşnyuk "Sunay" ansamblının üzvlərinə maraqlı konsert üçün təşəkkür edərək, onlara donanma süvenirini təqdim etdi. Gəlişimizdən ürəkləri dağa dönmüş əsgər oğullarımızla görüşüb ayrıldıq. Tezliklə Bakıya qayıdacağımı bildiklərindən ayrılıq məqamında o qədər məktub gətirdilər ki... – Buradan göndərəndə bir aya çatır, Bakıdan poçta salın, tez çatsın, – deyə xahiş etdilər. Sevinclə götürdüyüm məktubların üstündəki ünvanlara diqqət yetirdim: Bakı, Gəncə, Daşkəsən, Mingəçevir, Goranboy, Naftalan, Şəmkir, Bolnisi (Gürcüstan Respublikası), Ağdaş... Saymaqla qurtaran deyil. Kronştadtdan özümlə 50 ünvana xoş soraq gətirirdim. Bu xoş soraq məni Vətənə qanadlandırırdı...

**MÜƏLLİFDƏN.** Yurddaşlarımızın sorağıyla Kronştadta səfərim Azərbaycan parlamentinin milli ordu yaratmağı qərara aldığı sessiyadan bir qədər əvvəl olmuşdu. Qərarla əlaqədar, məsələlərin qoyuluşu müəyyən qədər dəyişir. Lakin neçə ki sovet ordusu sıralarında xidmət edən oğullarımız var, bu məsələlər öz aktuallığını itirməyəcəkdir. Arzumuzsa budur ki, əsgər oğullarımızla növbəti görüşümüz respublikadan kənarda yox, Azərbaycanda, öz milli ordumuz sıralarında olsun!

**"Yurddaş" qəzeti**
**4 dekabr 1991-ci il, səh.6**

# F.FƏRƏCOV: "...HƏR DİPLOMLU ZİYALI DEYİL"

Füzuli Ağsu rayonunun Ərəbuşağı kəndində dünyaya göz açıb. Axar-baxarlı Azərbaycan təbiəti uşaqlıqdan yaddaşına hopub. Xalçalarımızın əlvan naxışları, musiqimizin oynaq tərənələri, Ərəbuşağı camaatının el adətləri hafizəsinə əbədilik həkk olunub. Kənd uşaqları ilə cürbəcür oyunlar oynadığı günlərin bircə anını qaytarmaqçün dünyanı verərdi. Amma zaman öz sözünü deyib. Uşaqlıq illəri çoxdan arxada qalıb. Erkən ayrıldığı yaşıdlarının da hər biri indi ailə sahibidir, iş-güc adamıdır.

Dəqiq elmlərə olan marağı, riyaziyyat sahəsindəki qabiliyyəti Füzuli Fərəcovu doğma kənddən şagirdkən ayırıb. O, Bakı şəhərindəki fizika-riyaziyyat təmayüllü 1 nömrəli orta məktəbdə təhsilini başa vurub. Azərbaycan Politexnik İnstitutunda qəbul imtahanlarını müvəffəqiyyətlə verərək ali təhsil almaqçün Moskvaya yola düşüb. Ərəbuşağı kəndindən başlanan yol Bakıdan Moskvayadək uzanıb. Tələbəliyin ilk aylarında Moskva mühitinə nabələd olan gənc Füzuli doğma yerlər üçün az qəribsəməyib. Lakin təhsilə olan böyük marağı doğma torpaq, doğma adamlar həsrətinə üstün gəlib. O, müasir təyyarələrin layihələndirilməsi və konstruksiyası ixtisası üzrə ali təhsil alaraq təyinatla Bakıya qayıdıb.

–Doğma şəhərimizə döndüyümə çox sevinirdim. Lakin burada mənə bildirdilər ki, Bakıda ixtisasım üzrə iş yoxdur. Məni yenidən Moskvaya – SSRİ Aviasiya Nazirliyinin sərəncamına qaytardılar. Elə o vaxtdan da (1982-ci ildən) Moskva həyatımın ikinci, daha məsul dövrü başlandı, – deyə Füzuli illərin o tayında qalmış xatirələri çözələyir. – Paytaxtdakı aviasiya zavodlarında texnoloq, konstruktor, usta, baş usta, sonra isə sex rəisinin müavini işlədim. Yaşadığım mühitdə özümə yeni dostlar-tanışlar tapdım. Qaynadım, qarışdım. Ancaq Azərbaycan həsrətini heç vaxt qəlbimdən çıxara bilmədim. Ən çox torpaq üçün, azərbaycanlı qanı (yəni mənəviyyatı) üçün, bir də doğma dil üçün darıxıram.

Bəli, Füzuli kimi neçə-neçə cavanlarımız işləmək üçün Azərbaycandan kənara göndərilib?! Məgər onları respublikada yerləşdirmək olmazdımı? Doğrudanmı, Azərbaycanda bu hazır mütəxəssislərə ehtiyac yox idi? Bir vaxt təyinatla ölkənin ən müxtəlif guşələrinə göndərilmiş yurddaşlarımız ömürlük o yerlərdə qalası olublar. Hələ Ümumittifaq əmək bölgüsünə əsasən Arxangelskə, Krasnoyarska, Xabarovska, BAM-a göndərilənləri demirik. Görəsən, onların sayı nə qədərdir? Yad ellərdə qurduqları ailə Azərbaycan ruhunu, türk mənəviyyatını nə dərəcədə yaşadır? Övladları azərbaycanca bilirmi özü doğma dilinə həsrət qalan yurddaşlarımızın?.. Görəsən nə vaxtadək özgə çırağı yandıracağıq?..

– Moskvada 50 minə yaxın azərbaycanlı yaşasa da, son illərədək əlaqələrimiz yox dərəcəsindəydi. Ona görə də azərbaycanlı qızı tapıb onunla evlənmək müşkül məsələydi. Yad mühitdə yaşaya-yaşaya tədricən öz mədəniyyətimizi unudurduq. Dilimizi yadırğayırdıq. Milli bayramımız Novruzu keçirə bilmirdik, – deyə moskvalı müsahibim söhbətinə davam edir. – 1988-ci ildən başlanan Qarabağ hərəkatı bizi də ayıltdı. Birləşməyin, sıx əlaqə saxlamağın zərurətini dərindən dərk etdik. Bir-birinin ardınca "Birlik", "Dayaq" və "Ocaq" cəmiyyətlərini yaratdıq. Paytaxt əhalisi arasında xalqımızın qədim mədəniyyətini, tari-

xini təbliğ etməyə başladıq. Ermənilərin xalqımız əleyhinə təşkil etdikləri güclü kampaniyaları bacardığımız qədər ifşa etdik.

Füzuli Fərəcov Moskvadakı "Ocaq" Azərbaycan mədəniyyəti cəmiyyətinin sədr müavinidir. Vətənpərvər, qeyrətli, təəssübkeş cavanlarımızdandır. Milli mədəniyyətimizin çoxmillətli paytaxt əhalisinə təbliğində xüsusi fəallıq göstərir. Cəmiyyətin keçirdiyi bir sıra elmi konfransların təşkilatçılarındandır. Füzuli yaxşı ictimaiyyətçi olduğu kimi, yaxşı da mütəxəssisdir. Hazırda "Buran" adlanan kosmik təyyarənin yığıldığı sexin rəisidir. Aviasiya zavodlarında işlədiyi müddətdə təhsilini dərinləşdirib, ikinci ixtisasa da yiyələnib: istehsalatın təşkilatçısı peşəsinə. Bu ixtisas ona həm idarəetmənin, həm də insan münasibətlərinin psixologiyasına dərindən bələd olmaqda kömək edib. Xarici ölkələrdə idarəetmənin sirlərini öyrədib. Yüksək təhsil çətin işinin öhdəsindən uğurla gəlməkdə Füzuli Ataş oğlunun əlindən tutur. Əbəs deyildir ki, bu gün Füzuli həmkarları arasında sayılan-seçilən yoldaşdır. Kollektivdə nüfuzu var. Onunla birgə həmin sexdə daha bir neçə nəfər azərbaycanlı işləyir. Bacarıqlı usta İzzətəli Ağayev, mühəndis-texnoloq Firdus Kərimov (indi Bakıya köçüb), adlı-sanlı fəhlə Rəşid Qarayev də "Buran"ın yığılmasında iştirak edib, səy göstəriblər. Azərbaycandan uzaqlarda xalqımızın başını uca edən Füzuli, İzzətəli, Firdus, Rəşid kimi oğullarla iftixar etmək olar.

Kiçik qardaşları da Füzulinin ardınca Moskvaya yollanıb, orada məskunlaşıblar. Ağsudan pərvazlanan durna qatarına bənzəyir bu beş qardaş. İndi bir-birinə arxa, dayaqdırlar. Qardaşlar vaxtaşırı Azərbaycana gəlir, kənddə yaşayan valideynlərinə baş çəkir, Bakıda yurd salmış qardaşlarına qonaq olurlar. Gəlişlərin birində Füzuli redaksiyamızın da qonağı oldu. Moskvadan, Bakıdan, Qarabağdan, dünyanın qəribə-qəribə işlərindən söhbət etdik. Maraqlı mülahizələrindən, orijinal fikirlərindən məmnun olduq. Moskvalı azərbaycanlılar arasında ziyalılar çoxdurmu? – sualıma "hər çadralı həyalı deyil, hər diplomlu ziyalı", – deyə cavab verdi. Bildirdi ki, əksəriyyəti tələbələrlə fəhlələr

təşkil etsə də, moskvalı həmvətənlərimiz arasında elmi işçilər, görkəmli alimlər də çoxdur. Sevindirici faktsa budur ki, fəhlələr arasında ziyalılarımız çoxdur. Sözün əsl mənasında ziyalı.

Dağlıq Qarabağ münaqişəsinin nəticəsi olaraq Bakıda baş vermiş 20 Yanvar faciəsiylə bağlı moskvalıların fikriylə maraqlandıq. Yəni ki, Moskvadan baxanda hadisələr necə təsir bağışlayır? O dedi ki, ruslar hamısı bu hadisədə Qorbaçovu günahlandırır. Bir də ki, Azərbaycanda demokratik hərəkatın inkişafı milli özünüdərki qabaqlamışdı. Bunlar hökmən sinxron getməlidir.

Hamımızı düşündürən, ürəyimizi ağrıdan hadisələrə müsahibimin özünəməxsus münasibəti varıydı. Yanvar faciəsindən danışanda sarsıldığını açıqca gördüm. Düşüncəli baxışları, ağıllı mühakimələri paytaxt sakinlərinin əhval-ruhiyyəsini aşkarlayırdı mənimçün. 20 Yanvar cinayətində müqəssir olanların nə vaxtsa cəzalanacağına ümidimi artırırdı...

**"Yurddaş" qəzeti**
**27 mart 1991-ci il, səh. 2**

# 41-in YENİYETMƏLƏRİ

## ÇİÇƏKLƏR, ÇƏLƏNGLƏR

Yuxudan oyanmış torpaq sanki öz qüdrətini nümayiş etdirirdi. Gül çiçəyə, çiçək gülə qarışmışdı. Yeniyetmələr deyə-gülə çiçək dərirdilər. Onlar sabaha yarış təyin etmişdilər. Qaliblərə çiçək dəstələri təqdim olunacaq, çələng veriləcəkdi.

Meşədən qayıdan Ulduzun kefi kök idi. Sabahkı yarışda qaliblər cərgəsində olacağına möhkəm inanırdı. O gecə Ulduz şirin xəyallarla yuxuya daldı. Səhər tezdən isə... müharibə başlandı. Gənclərin hamısı bu xəbərdən sarsıldı. Vədləşdikləri vaxtda məktəb həyətinə toplaşdılar. Lakin yarış keçirilmədi. Qaliblər naməlum, çələnglər ünvansız qaldı...

## VƏTƏN ÇAĞIRANDA

Yerevandakı S.M.Kirov adına (sonralar M.F.Axundov adına– M.S.) orta məktəb. 1941-ci ilin sentyabrı. Bu sentyabr o birilərə bənzəmirdi. Bu ilki onuncular da əvvəlki onunculardan fərqlənirdi. Getmişdilər: yaşı çatanlar cəbhəyə, yaşı çatmayanlar hərbi məktəblərə.

Ulduz Kəngərlinski də sentyabrı onuncuda deyil, hərbi məktəbdə qarşıladı. O, səy göstərir, hərb elmini cidd-cəhdlə mənimsəməyə çalışırdı. Yerevandakı ikiillik hərbi məktəbi bitirdikdən sonra 1943-cü ildə Ulduzu Tbilisi artilleriya məktəbinə göndərdilər. Bir il sonra kiçik

leytenant rütbəli Ulduz Kəngərlinski cəbhəyə yola düşdü...

O, 3-cü Ukrayna cəbhəsində, 9-cu tankəleyhinə xüsusi atıcı artilleriya briqadasında faşistlərə qarşı mübarizəyə başladı. Kəşfiyyat, rabitə sahəsində məharət göstərdi. Döyüşən diviziyanın mərkəzlə müntəzəm radioəlaqə saxlamasında Ulduzun xidməti böyük idi. U.Kəngərlinski "İgidliyə görə", "Döyüş xidmətlərinə görə" və başqa medallarla təltif olunur. Artilleriya vzvodunun (taqımının – M.S.) komandiri, vzvod qərargahının rəisi təyin edilir.

Faşistlərdən geri alınan şəhər və kəndlərin sayı-hesabı yox idi. Ulduzun döyüş yolları uzanırdı – Ukrayna, Rumıniya, Macarıstan, Yuqoslaviya, Avstriya... 1944-cü ildə Macarıstan torpağında ikən U.Kəngərlinski Kommunist Partiyası sıralarına namizədliyə qəbul olunur. Şücaətlə döyüşən gənc kommunistlərlə bir cərgədə olmağından ruhlanaraq daha inadla vuruşur. Balaton gölü ətrafındakı döyüşlər gənc Ulduzun yaddaşına əbədilik həkk olundu. Zamol kəndi uğrunda əsl ölüm-dirim mübarizəsi gedirdi. Kənd dəfələrlə əldən-ələ keçdi. Bu döyüşdə göstərdiyi rəşadətə görə vzvod komandiri U.Kəngərlinski Qırmızı Ulduz ordeni ilə təltif edildi.

## ÜFÜQLƏR GENİŞLƏNİR

1946-cı ildə ordudan buraxıldıqdan sonra Ulduz Kəngərlinski doğma Yerevana qayıtdı. Ata ocağının hərarəti, qayğıları onu öz qoynuna aldı. 1418 gün Bülbül ana sovet əsgərlərinin sağlamlığı, həyatı keşiyində dayanmışdı. Səttar ata arxa cəbhədə hünər göstərmişdi. Müharibənin ilk günlərindən Leninqrad cəbhəsində döyüşən böyük qardaşı Nurəddin öz qorxmazlığı, vətənpərvərliyi ilə Ulduza nümunə olmuşdu. İndi o, ağır yaralı idi, qospitalda yatırdı. Ulduzun gəlişindən təsəlli tapan ana da, ata da, qanadlanıb uçmağa hazır olan balaca İldırım da onu ailənin dayağı hesab edirdilər. Ulduz əmək meydanına atıldı. Lakin oxumaq, ali təhsil almaq arzusu da onu rahat buraxmır-

dı. 1947-ci ildə K.Marks adına Yerevan Politexnik İnstitutunun elektronika fakültəsinə daxil olan U.Kəngərlinskinin önündə elmin üfüqləri açılır. Bir il sonra o, M.Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutuna dəyişilərək təhsilini davam etdirir. Elə həmin il ikinci ali məktəbə – Moskvadakı Ümumittifaq Energetika İnstitutunun radiotexnika fakültəsinə (qiyabi şöbəyə) qəbul olunur. Kəngərlinski hər iki institutda müvəffəqiyyətlə təhsil alır. AzSİ-ni bitirdikdən sonra Azərbaycan Elmlər Akademiyasının Energetika İnstitutunda aspiranturaya daxil olur. Öz elmi işi üçün radiotexnika sahəsini seçən aspirant Kəngərlinski 1958-ci ildə "Neft qazıntısında elektron avtomatik qurğu" mövzusunda müvəffəqiyyətlə namizədlik dissertasiyası müdafiə edərək, texnika elmləri namizədi alimlik dərəcəsi alır. 1961-ci ilin mart ayında Kəngərlinskinin rəhbərliyi ilə Azərbaycan Politexnik İnstitutunda radiotexnika, elektronika və rabitə kafedrası təşkil edilir.

1969-cu ildə doktorluq dissertasiyası müdafiə edən U.Kəngərlinski 1971-ci ildə professor adı almışdır. O, yüzdən artıq elmi əsərin müəllifidir. Rəhbərlik etdiyi kafedranın əməkdaşları ilə birlikdə 10-dan çox tədris-metodik vəsait yaratmışdır. 1974-cü ildə ADR-ə (indiki Almaniya Federativ Respublikasına – M.S.) ezam olunan professor Kəngərlinski bir il Drezden Texniki Universitetində mühazirələr oxumuşdur.

Alimin yaradıcılıq üfüqləri genişdir, axtarışları gözəl bəhrə verir.

## İLLƏRİN O TAYINDA

Bu günlərdə fərəhlə bayram etdiyimiz 9 Mayı – Qələbə gününü bizə bəxş edənlərin sırasında Ulduz Kəngərlinski də vardır. İllərin o tayında qalan bir əziz xatirə Ulduz müəllimi həmişə kövrəldir. O zaman, Qələbədən sonra Yerevan öz qollarını geniş açaraq müharibədən qayıdan oğullarını, o cümlədən Kirov məktəbinin yetirmələrini bağrına basdı. Hər yanda ehtiram, hər yanda bayram təntənəsi. S.M.Kirov adı-

na məktəbdə Böyük Vətən müharibəsinin iştirakçıları ilə görüş keçirilirdi. Mustafa Sadıqov, Əkbər Əkbərov, Məmməd Süleymanov, Adil Cəfərov, Ulduz özü... Vətəni qorumağa getmiş daha neçə-neçə mərd oğullar burada idilər. Vətən uğrunda döyüşlərdə qəhrəmancasına həlak olmuş Səttar Abbasov, Əqil Məmmədov və Məhərrəm Allahverdi oğlunun xatirəsinə isə rəyasət heyətində boş kürsülər qoyulmuşdu. Görüşün sonunda məktəblilər dünənki cəbhəçilərin hamısına tər çiçəklər bağışladılar. Bu an qızlardan üçü irəli gələrək əllərindəki çiçəkləri qurumuş çələngləri qayıtmayan üç igidin boş qalmış stulları üstünə qoydular.

Bu çələnglər 41-ci ilin 22 iyununda ünvansız qalmış çələnglər idi.

**"Sovet Ermənistanı" qəzeti**
**25 may 1985-ci il, səh. 4**

# DÖRD BACI

**"Hörmətli Raifə müəllim! Salam.**

**Biz, Yerevandakı M.F.Axundov adına orta məktəbin komsomolçuları məktəbimizin "Şərəf salnaməsi"ni yazmaq fikrindəyik. Məqsədimiz məktəbimizin yetirmələri haqqında söhbət açmaqdır. Xahiş edirik ki, öz haqqınızda ətraflı məlumat verəsiniz. Şəklinizi göndərməyi də unutmayın.**

**Hörmətlə: məktəb komsomol təşkilatı".**

**R.H.** – "Əziz uşaqlar! Çox şadam ki, vaxtilə qoynunda təhsil aldığım doğma məktəb mənimlə maraqlanır. Bizim nəsil gəncliyini müharibənin odu-alovu içərisində keçirmişdir. Neçə-neçə dostun, yoldaşın həyatla vidalaşmasının şahidi olmuşam. Hadisələrin bəzi təəssüratı sarsıdıb məni, balalarım. Ancaq heç o ağır günlərdə də belə kövrəldiyim yadıma gəlmir. Bu gün sizdən aldığım məktub məni həyəcanlandırdı, xəyalımı çəkib çox-çox uzaqlara – uşaqlıq illərinə apardı..."

***

1923-cü ilin qarlı bir dekabr günündə fəhlə Yusifin ailəsində ilk övlad dünyaya gəldi. Adını Raifə qoydular. İlkini oğul istəyən ataların əksinə olaraq Yusif kişi qaşqabaq tökmədi. Sonradan ailədə daha üç qız doğuldu. Sonbeşiyi Roza dünyaya göz açanda Yusif ömür-gün yoldaşı Züleyxaya,– görünür qismətimiz belə imiş, – deyərək köksünü ötürdü.

Nənə nəvələrinə havadar çıxdı, oğlunu dilə tutdu: – Aslanın erkəyi-dişisi olmaz, ay bala! Sağlıq olsun, böyüyərlər, hərəsinin əli bir sənətə çatar.

Nənə hər axşam nəvələrini başına yığaraq nağıl söyləyər, dastanlardan söhbət açar, düşmən önündə əyilməyən Burla xatından, qoç Koroğlunun Nigarından, Qaçaq Nəbinin Həcərindən danışardı. Balaca Raifə nağılların sehrli qanadında yuxuya gedərdi.

M.F.Axundov adına məktəbdə oxuduğu illər Raifənin yaddaşında silinməz iz buraxıb. O, əlaçı idi. Zehinliliyi, çalışqanlığı, diribaşlığı ilə hamının diqqətini cəlb etmiş, müəllimlərinin sevimlisinə çevrilmişdi. Hələ dördüncü sinifdə oxuduğu zaman onun haqqında "Pioner qanç" ("Pioner çağırışı" – M.S.) qəzetində "Yaşasın Raifə!" başlıqlı məqalə dərc olunur. Məqalədə məktəbli qızın təhsildəki uğurlarından, ictimai işlərdəki fəallığından bəhs edilirdi.

1940-cı il. Raifə Həsənova kamal attestatı alır. Arzusu onu ADU-nun (indiki Bakı Dövlət Universiteti- M.S.) filologiya fakültəsinə aparır. Məqsədi dil-ədəbiyyat müəllimi olmaq, uşaqlıqdan sevdiyi ədəbiyyatımızı tədris etmək idi. Lakin alman-faşist işğalçılarının başladıqları mənfur müharibə onun arzularını yarımçıq qoyur.

Leninqrad mühasirəsinin ağır günləri idi. Universitet tələbələri hər gün cəbhədən gələn xəbərləri həyəcanla qarşılayırdılar. Gündən-günə kurslardakı oğlanların cərgəsi seyrəkləşirdi. Belə günlərdən birində Raifə daha dözmədi:

– Biz Həcər nəslindənik, qızlar. Vətənin bu ağır günlərində yaxamızı kənara çəkmək bizə yaraşmaz. Ata və qardaşlarımızla birgə biz də vuruşmalı, son damla qanımız qalana qədər doğma sovet torpağımızı faşistlərdən müdafiə etməliyik! – deyə rəfiqələrinə müraciət etdi. Bu çağırış çoxunun ürəyindən oldu. Auditoriyadan birbaşa Komsomol Komitəsinə gələn qızlar cəbhəyə könüllü getməyə ərizə verdilər. Beləliklə, ikinci kursda Raifə təhsildən ayrılası oldu.

Yola düşməzdən əvvəl qızlar saçlarını kəsdirməli idilər. Anası Züleyxanın illərdən bəri sığal çəkə-çəkə əzizlədiyi hörüklər qayçının altından yerə düşəndə Raifənin düşmənə olan kini-nifrəti qat-qat artdı.

1942-ci il, aprel ayının 8-i. Könüllü gənclər dəstəsi cəbhəyə yola düşür. "Əlvida, universitet! Kim bilir, bir də görüşəcəyikmi?.."

R.Həsənova 339-cu zenit artilleriyası polkunda radist kimi hərbi xidmətə başladı. İlk dövrlərdə azərbaycanlı qızın çətinlikləri çox idi. Gecələr sübhədək yatmayıb rus dilini öyrənir, sənətdə kamilləşirdi. Döyüş rəfiqələri Novitskaya, Tsibadze, Poğosova və başqaları ondan köməklərini əsirgəmirdilər. Qısa müddətdə Raifə radist sənətinə mükəmməl yiyələndi, imtahan verib birinci dərəcəli radist adını aldı. Polk qərargahında işləyən Raifəni komsomol komitəsinə katib seçdilər.

Radioqramı qəbul etməkdə də, göndərməkdə də Raifə çox çeviklik göstərirdi. O, radiostansiyasını göz bəbəyi kimi qoruyurdu. Yaxşı xidmətinə görə dəfələrlə Ali Qərargahın və 339-cu polkun qərargah rəislərinin təşəkkürünü almışdı.

Polkda qələbə xəbərini birinci olaraq starşina (gizir– M.S.) R.Həsənova aldı. İndi də Qələbə gününü xatırlayarkən onun gözlərində sevinc qığılcımları görünür, dodaqlarına təbəssüm qonur.

Qələbədən sonrakı illər bir-birini əvəz etdikcə Raifə Həsənovanın da həyat kitabına yeni-yeni səhifələr yazılırdı.

1946-cı il. ADU-nun iclas salonu. Sinəsində "Qafqazın müdafiəsinə görə", "Almaniya üzərində qələbəyə görə" medalları parlayan tələbə qız universitetin komsomol komitəsinə katib seçilir.

1950-ci il. Universiteti müvəffəqiyyətlə bitirən Raifə aspiranturada saxlanılır.

1957-ci il. Raifə "XIX əsr rus-Azərbaycan ədəbi əlaqələri tarixindən" mövzusunda dissertasiya müdafiə edərək filologiya elmləri namizədi alimlik dərəcəsi alır. Həmin ildən də R.Həsənova ADU-nun

Azərbaycan ədəbiyyatı tarixi kafedrasında müəllim işləməyə başlayır. Hazırda o, kafedranın dosentidir.

Gəncliyindən bu günədək keçdiyi həyat yolunda Raifə xanım müxtəlif ictimai vəzifələrdə çalışmışdır. O, Azərbaycan SSR Ali Məhkəməsində xalq iclasçısı, Bakı Sovetinin deputatı, universitet qadınlar şurasının sədri, fakültə partiya bürosunun katibi və digər ictimai vəzifələrə seçilmişdir.

Raifə xanım deyir:

– Bizim gəncliyimiz odun-alovun içində keçib. Hazırki beynəlxalq vəziyyət bir ana kimi, bir vətəndaş kimi məni də narahat edir. Arzu edirəm ki, bugünkü gənclik biz gördüyümüz müharibə dəhşətlərini görməsin.

... İllər ötüb. Nənənin vaxtilə təsəlli kimi səslənmiş sözləri həqiqətə çevrilib. Bu gün Raifə xanımın bacıları haqqında da fərəhlə danışmaq olar:

Zərifə Həsənova 30 ildən artıqdır ki, Azərbaycan SSR Ali Məhkəməsinin üzvüdür. Əməkdar hüquqşünasdır.

Esmiralda Həsənova Azərbaycan SSR Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda şöbə müdiridir, fəlsəfə elmləri namizədidir, hazırda doktorluq dissertasiyası üzərində işləyir...

Kimya elmləri namizədi Roza Həsənova uzun müddət ali məktəbdə dərs deyib. Hazırda Azərbaycan SSR EA-nın Botanika İnstitutunda baş elmi işçidir.

Bu gün də Raifə xanımın gözləri önündə suyu gözəl, havası gözəl Yerevan, bağlı-bağatlı bir həyət, dörd yanı gül-çiçəklə əhatə olunmuş birmərtəbəli ev – ata-baba evi canlanır.

**“Sovet Ermənistanı” qəzeti**
**24 dekabr 1983-cü il, səh.4**

# LENİNQRADA BAĞLI ÜRƏK

## SƏHİFƏLƏRİN SƏSİ

"Sovet Ermənistanı" qəzetinin 1944-cü il 140-cı nömrəsində "Cəsur döyüşçü Əvəz Aslanov" sərlövhəli məqalə diqqəti cəlb edir:

"...Sevimli Leninqrad şəhərinin müdafiəsində Aslanovun xüsusi qoçaqlığı olmuşdur. O, həmin şəhər uğrundakı döyüşlərdən birində 15 alman saldat (əsgər – M.S.) və zabitini öldürmüş, iki düşmən tankını məhv etmiş, ona görə də "Döyüş xidmətlərinə görə" medalı ilə təltif edilmişdir. Bundan ruhlanan Aslanov daha coşqun mətanətlə vuruşaraq Leninqrad uğrunda aparılan başqa bir döyüşdə 30 almanı cəhənnəmə vasil etmiş, "Leninqradın müdafiəsinə görə" medalı almışdır...".

Müharibə dövrünün bir sıra cəbhə qəzetlərində, o cümlədən 115-ci qırmızı diviziyanın "Vətən uğrunda" qəzetində də Ə.Aslanovun adına tez-tez rast gəlmək olur. "Döyüş ustalığı", "Kommunistlər Vətən uğrunda belə döyüşürlər", "Düşmənin taxta-torpaq atəş nöqtələri havaya sovrulur" və başqa məqalələrdə gənc Əvəzin rəşadətindən dönə-dönə bəhs olunur.

İgid azərbaycanlı balasının Leninqrad uğrunda gedən döyüşlərdə göstərdiyi şücaət unudulmazdır.

## MÜHASİRƏ GÜNLƏRİ

...Cavanca oğlan idi. Yerevan Pedaqoji Texnikumunu yenicə bitirmişdi. Nərimanlı kənd məktəbində riyaziyyat dərsi deyirdi. Ordu sıralarına çağırıldı. İl yarım Belorusiyada, sonra Leninqradda xidmət etdi. Hərbi işi həvəslə öyrənirdi.

Vıborq altında müharibənin başlanması xəbərini aldılar. Cəsur sovet əsgərləri son damla qanları qalana qədər inqilablar beşiyi Leninqradı müdafiə edəcəklərinə and içdilər. Onlar alman-faşist işğalçılarını Lenin şəhərinə buraxmamağı qət etmişdilər. Mühasirə günləri başlandı...

Elə müharibənin ilk günlərindəncə Əvəz Aslanov Kommunist Partiyası sıralarına daxil olmağa ərizə verdi. 1942-ci ilin aprelində partiya üzvlüyünə qəbul olundu. Partiya biletini alanda Vətəni mərdliklə müdafiə edəcəyinə and içdi və sonadək andına sadiq qaldı.

Əvəz müəllim danışdıqca epizodlar bir-birini əvəz edir.

Düşmənə döyüş sursatı və canlı qüvvə gətirən dəmiryol körpüsünü dağıtmaq lazım idi. Komandir bu işi baş serjant (baş çavuş – M.S.) Ə.Aslanova tapşırdı. O, yoldaşları ilə körpünün dağıdılması planını ətraflı müzakirə etdikdən sonra dəstəsini götürüb tapşırığı yerinə yetirməyə yollanır. Əməliyyat zamanı gənc kommunist üç yerdən yaralanır. Lakin döyüşdə dəstə başçısının rolunu və məsuliyyətini yaxşı dərk etdiyindən mövqeyində möhkəm durur, tapşırığı layiqincə yerinə yetirir.

Puşkin şəhəri ətrafındakı kilsədə məskən salmış frislərdən (faşistlər nəzərdə tutulur – M.S.) "dil" gətirmək lazım idi. Bu iş də qafqazlı balasına tapşırılır. Ə.Aslanovun başçılığı ilə 13 cəsur kəşfiyyatçı kilsəni mühasirəyə alır. Gözətçi faşistlərdən biri duyuq düşür. Atışma başlanır. Vətən oğulları döyüşdə c anlarını əsirgəmirlər. İgidlərdən doqquzu döyüş meydanında həlak olur, sağ qalanlar yaralı olsalar da əliboş qayıtmağı özlərinə rəva bilmirlər. Hissəyə gətirdikləri "dil" – alman zabiti bizim komandanlığa xeyli gərəkli məlumat verir.

## SƏNƏTİN UCASI

Böyük Vətən müharibəsi qəhrəman sovet xalqının qələbəsi ilə başa çatdı. Odun-alovun içindəın keçmiş, dəfələrlə yaralanmış Əvəz də doğma elə – Göyçə mahalına qayıtdı. Arzusuna uyğun olaraq müəllimliyi – sənətin ucasını seçdi. Müharibədən dərhal sonra dərs demək da-

ha çətin idi. Atasız, qardaşsız qalmış uşaqları parta arxasında oturtmaq o qədər də asan deyildi. Qəlbi sınıq uşaqların rəğbətini qazanmaq müəllimdən son dərəcə həssaslıq, ustalıq tələb edirdi. Geniş köksündə müəllim ürəyi döyünən Əvəz Aslanov şagirdlərin inamını, məhəbbətini qazandı. Müəllim qəlbinin hərarəti ilə neçə-neçə körpə qəlbi isindirdi.

V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunda ali təhsil aldı. Dərs dedikcə keçmiş döyüşçü Böyük Vətən müharibəsindən söz açdı. Mühasirə günlərində leninqradlı uşaqların cəsurluğundan, məğrurluğundan epizodlar danışdı. Aslanovun şagirdlərinin nəzərində Leninqrad yenilməzliyin, alınmazlığın əzəmətli simvoluna çevrildi.

Əvəz müəllim "Vicdanlı əməyə görə", "Əməkdə fərqlənməyə görə" medalları ilə təltif edilmişdir. O, yüzlərlə gəncin pərvazlanıb həyat yoluna çıxmasına əmək sərf edib. 1965-ci ildə Ə. Aslanova Ermənistan SSR-in əməkdar müəllimi adı verilmişdir.

Son illərdə Vardenis RXMŞ-də (Göyçə rayon xalq maarifi şöbəsində– M.S.) metodkabinetin müdiri işləyən Əvəz müəllim müharibə veteranı kimi tez-tez məktəblərə gedir, gənclərin hərbi vətənpərvərlik tərbiyəsində yaxından iştirak edir.

El məhəbbəti qazanmış müəllimin sinəsini bəzəyən orden və medallar arasında "Qırmızı Ulduz" ordeni, "Almaniya üzərində qələbəyə görə", "Keniqsberqin  alınmasına görə", "İgidliyə görə", Qələbənin və SSRİ Silahlı Qüvvələrinin yubiley medalları və bir çox başqa təltiflər vardır. Müharibədən sonrakı illərdə   Ə. Aslanov dəfələrlə Leninqrada dəvət olunmuşdur.

Şagird qəlbində hər müəllimin öz izi, öz cığırı qalır. Əvəz müəllim də elimizin-obamızın tarixini sevə-sevə öyrədərək hər qəlbdə bir çıraq yandırmışdır. Sülhə, səadətə səsləyən çıraq. Vətənə məhəbbətdən od alan çıraq.

**"Sovet  Ermənistanı" qəzeti**
**27 oktyabr 1984-cü il, səh. 4**

# İLLƏRDƏ QALAN İZLƏR

Payızın ortaları idi. Günəşin ılıq nəfəsi hər yerdə duyulurdu. Əkbər kişi həyətdə əyləşib təsbehini çevirirdi. Xəyal onu qanadları arasına almışdı, nəsə fikirləşirdi. Bəlkə də arxada qoyduğu illəri bir-bir kino lenti kimi göz önündən keçirirdi. Qəfil salam onu xəyaldan ayırdı. Məqsədimizi bildirdik. Alnındakı qırışlar gərildi, üzü güldü.

Gəlinini səslədi. Bir azdan ortaya armudu stəkanda çay gəldi. Bir qurtum içməmiş müsahibimin xatirələri çözələndi, ötüb keçən günləri birər-birər yada saldı:

– 1928-ci il idi, qolçomaqlara, yerli bəylərə qarşı mübarizə günbəgün güclənirdi. Arzuların yolu məni Vedi Rayon Komsomol Komitəsinə çəkib apardı. Məni komsomol sıralarına qəbul etdilər. O gündən də üzərimə böyük vəzifələr düşdü. Komsomol özəyinin tapşırıqlarını şərəflə yerinə yetirmək üçün qüvvə və biliyimi əsirgəmədim.

Həqiqətən də Əkbər əmi bir komsomolçu kimi mübarizlik göstərmiş, qarşıya çıxan çətinlikləri aradan qaldırmaq üçün gənclik mətanəti, iradəsi nümayiş etdirmişdir. 1930-1932-ci illərdə briqadir işlədiyi vaxt komsomolçu Əkbər özünü əsl təsərrüfatçı kimi təsdiqləmiş, kolxoz iqtisadiyyatını möhkəmləndirmək üçün əlindən gələni əsirgəməmişdir.

1941-ci ilin yanvar ayı onun həyat salnaməsinə silinməz iz kimi daxil olmuşdur. Əkbər Əkbərov həmin il partiya sıralarına qəbul edilmişdir. Alman faşistləri ölkəmizə xaincəsinə basqın edəndə Ə.Əkbərov

təzəcə evlənmişdi. Çoxları kimi o da silaha sarılaraq Vətəni müdafiəyə getdi.

– Stalinqrad cəbhəsi, burada gedən gərgin döyüşlər bu günkü kimi yadımdadır. Arxada Volqa dayanırdı. Partiya, Vətən uğrunda hamı canını fəda etməyə hazır idi. Yer, göy lərzəyə gəlmişdi. Düşmən pulemyotundan açılan güllələr torpağı deşik-deşik etmişdi. Macal tapıb başımızı belə qaldıra bilmirdik. Bir də gördüm ki, arxadan səngərimə bir rus əsgəri özünü darmacal saldı. Ayağından isti qan axırdı. Rəngi solmuşdu. Tez yarasını bağladım. Qərara gəldim ki, özümlə bərabər onu da səngərdən sürüyə-sürüyə çıxarıb aparım. Pulemyotdan açılan atəş sol qolumu ağır yaraladı. Göydən tökülən düşmən mərmiləri torpağı başıma sovururdu. Bir özbək sürünə-sürünə gəlib bizi düşmənin caynağından çıxardı. Yaramı sarıdılar, tez hərbi qospitala yola saldılar. Bu epizodu deməkdə məqsədim odur ki, bəlkə də o özbək əsgəri imdadımıza çatmasaydı, biz çoxdan dünyaya vida etmiş olardıq.

Əkbər Əkbərov cəbhədə əsgəri borcunu ləyaqətlə yerinə yetirərək düşmənə qarşı igidliklə vuruşmuşdur. İkinci Pribaltika cəbhəsində, Ginzburqun alman faşistlərindən azad edilməsində o, böyük şücaət göstərmişdir.

Müharibə qələbə ilə qurtardı. Dünən cəbhədə döyüşən əsgərlər indi öz ata-analarının, ailələrinin yanına qayıtdılar. Doğma torpaq istəyi, ailə məhəbbəti Əkbər əmini də çəkib gətirdi. Yenidən əmək meydanına atıldı. Kolxozda bir sıra vəzifələrdə çalışdı. Həmişə də qabaqcıllar sırasında addımlamışdır. 1970-ci ildən Əkbər Əkbərov mənalı istirahətə çıxmışdır. Vətən, partiya veteranın əməyini əvəzsiz qoymamışlar. Onun döşünü bir sıra orden və medallar bəzəyir. "İgidliyə görə", "Yaponiya üzərində qələbə", "Stalinqradın müdafiəsi uğrunda" və Qələbənin "25 illik", "30 illik" yubiley medallarına layiq görülmüşdür.

Əkbər əmi ilə söhbətimiz bitmək üzrə idi. Dərindən köks ötürüb bu sözləri dedi:

–Müharibənin acısını, dəhşətlərini görmüşəm. Düşmən gülləsi ilə milyonlarla gənc susdurulmuş, ürəyindəki arzuyla bərabər əbədiyyətə qovuşmuşdur. İndi dünyamızı, azad səmamızı daha təhlükəli vəziyyət gözləyir. Amerika hökumətinin üzdəniraq siyasəti bütün dünyada təşviş doğurmuşdur. Məhz beynəlxalq vəziyyətin belə gərgin dövründə cavanlarımızı vətənpərvərlik ruhunda böyütməliyik. Burada veteranların öhdəsinə çoxlu işlər düşür. Təcrübə və biliyimizi yorulmadan onlara öyrətməliyik.

**Ararat rayonu (Vedi rayonu), Şirazlı kəndi**

**"Sovet Ermənistanı" qəzeti**
**21 fevral 1984-cü il, səh. 2**

# XEYİRXAHLIĞA TƏLƏSƏN İNSANLAR

Təbiətdə bütün rənglər gözəldir – ağ da, qırmızı da, qara da... Hərəsinin öz yeri, öz cazibəsi var. Lakin təbiətin rənglər tacında şah rəng – ağdır. Ta qədimlərdən ağ rəng ülviliyin, xeyirxahlığın, sülhün, səadətin rəmzi olub. Xalq nağıllarında "ağ qoçlar" işıqlı dünyanı, "ağ atlı" igidlər xeyirxah qüvvələri təmsil ediblər. Bu gün də ağ göyərçin sülh rəmzidir. Həkim xalatı da ağdır. Ağappaq. Çünki həkim ən böyük xeyirxahdır, sevinc-səadət mənbəyidir təbabət.

***

– Yazdığınız dərmanların xeyiri dəydi. İndi özümü xeyli yaxşı hiss edirəm. Daha məsləhət gördüyünüz o biri dərmanlara ehtiyac qalmadı.

– Lap yaxşı, müəllim. Ağrımırsınızsa daha dərman içməyin. Amma pəhriz saxlamağı unutmayın. Çox yox, bir-iki həftə. Sonra ürəyiniz istəyən yeməklərdən istifadə edə bilərsiniz,– deyə həkim anketdə müəyyən qeydlər edərək xəstəni yola salır.

Növbəti xəstə dispanser qeydiyyatında olan G.Q-dır. Ağ xalatlı həkim qız onu da gülərüzlə qarşılayır.

– Qızım, deyəcəksən xalam ağrıyandan-ağrıyana məni yada salır. Vallah, qocalıq pis şeydir, bir yerin ağrıyan kimi başlayırsan yüz fikrə düşməyə. Dedim, gedim bir yoxlanım...

Gənc həkim xəstəni diqqətlə dinləyəndən sonra ayağa qalxdı. Fonendoskopu qulaqlarına qoyub xəstəni müayinə etməyə başladı. Qan təzyiqini ölçdü. Nəbzini yoxladı.

Nailə Rəhimova Ararat (Vedi rayonu –M.S.) rayon poliklinika-

sında terapevt işləyir. Birinci terapevtik sahəyə nəzarət edir. Neçə-neçə fəhlə, qulluqçu, kolxozçunun müalicəsində, xəstəliklərin qarşısının alınmasında, əmək qabiliyyətlərinin bərpasında insanlara xidmət göstərir. Peşəsinin vurğunu olan Nailə qurub-yaradan insanların sağlamlığı keşiyində möhkəm dayanır. Gənc terapevtin otağından çıxan müəllim də, mühəndis də, kolxozçu da qəlbində günəş boyda inam aparır, həkimin xoş rəftarından özünü gümrahlaşmış hiss edir.

Rayonun baş həkimi R.A. qeyd etdi ki, Nailə Rəhimova ağıllı, mülayim, xoşrəftar həkimdir. Öz işini sevir, qayğıkeşdir. Nailə internaturanı da bizim yanımızda keçib. İxtisasına yaxşı yiyələndiyi ilk aylardan məlum olub. Səmimiliyi, həssaslığı ilə həm xəstələrin, həm də kollektivin rəğbətini qazanıbdır.

Həkimlik fəaliyyəti ərzində Nailə Rəhimova çox xəstələri müalicə edib, müxtəlif xarakterli adamlarla üzləşib. Birisini beş-on dəqiqəyə müayinə edib yola saldığı halda, digərinə saatlar da azlıq edib. O, əhali arasında profilaktiki tədbirlərin görülməsində də fəallıq göstərir. Qrip, dezinteriya kimi yoluxucu xəstəliklər mövzusunda tez-tez mühazirələr oxuyur, xəstəliklərin klinikası (ilk əlamətləri) və profilaktikası barədə söhbətlər edir.

...Ursadzor kəndinə gəlin köçməyi yaxın illərin söhbətidir. Bəlkə də Nailənin toyunda çalınan zurna-qavalın səsi hələ də çoxunun qulağından getməyib. Ancaq bu gün kənddə onu hamı dar günün köməkçisi kimi tanıyır. “Nailə həkim”, “Nailə doxdur” sözləri ursadzorluların dilindən düşmür. Gündüzündən-gecəsindən asılı olmayaraq el-gün dar ayaqda rahat ürəklə Nailə həkimə pənah gətirir.

İlk baxışda adama elə gəlir ki, terapevtlik asan peşədir: nə var ki, diaqnoz qoy, dərman yaz, ya da xəstəxanaya göndər. Lakin... dəqiq diaqnoz olmadan hansı xəstə tezliklə sağalıb ayağa qalxa bilər, yaxud hansı cərrahiyyə əməliyyatı uğurlu keçər? Heç bir! İlk müayinədəncə diaqnozu düzgün müəyyənləşdirmək, xəstəyə gərəkli dərmanlar yazmaq həkimdən təbabətin sirlərinə dərindən bələd olmağı

tələb edir. Əks halda xəstənin müalicə edən həkimə inamı itər. İnam olmayan yerdə isə heç bir müalicə fayda verməz.

N.Rəhimova: – İki ildə bir dəfə dörd-altı ay müddətində stasionara gedirik. Xəstəxanada işlədiyimiz həmin müddətdə xəstələri daha yaxından müşahidə edir, apardığımız müalicənin nəticəsini görürük. Bu da bizim püxtələşməyimizə, təcrübəli terapevt kimi yetişməyimizə çox kömək edir. Terapevtik şöbə rəhbərliyinin biz gənclərə göstərdiyi qayğı əvəzsizdir. Ümumiyyətlə çalışıram ki, xəstələrimi daha çox təbii dərmanlarla – bitkilər, çiçəklərlə müalicə edim. Çöllər-çəmənlər min cür dərdin dərmanı olan müalicə əhəmiyyətli bitkilərlə – ətirli yarpız, itburnu, kəklikotu, gicitkan, qantəpər və sairə ilə doludur. Bu sahədə daim axtarışlar aparır, şəfaverici bitkilərin xüsusiyyətlərini oxuyub-öyrənirəm. Göründüyü kimi bu, çox lazımlıdır.

...Nailə balaca qız idi. Böyük bacısı Gülbahar həmişə təbabətə dair maraqlı yazılar tapıb özündən kiçik bacılarına oxuyar, bu qədim elmin sirlərindən, xəstələrə şəfa verən həkimlik peşəsinin gözəlliyindən danışardı. O, Azərbaycan Dövlət Tibb İnstitutunun farmakologiya fakültəsini fərqlənmə diplomu ilə bitirdi. Ailəyə ikinci həkim diplomunun gəlişi toya-bayrama çevrildi. Nailə də özünə həyat yolu seçəndə tərəddüdsüz "Gülbaharın yolu" ilə getdi. 1973-cü ildə Şidli kənd orta məktəbini bitirib N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil oldu.

Ailədə böyüyən altı övladın üçü həkimdir. Təbabətə sonsuz məhəbbəti bacılarına da aşılamış olan Gülbahar həmişə deyir:

– Xəstənin gözündə həkim ən əziz, ən doğma adamdır. Həkim də gərək xəstəyə ana kimi yanaşsın.

Ana – həkim. Bəli, bu sözlər arasında xeyli yaxınlıq vardır. Genişqəlblilik, qayğıkeşlik, fədakarlıq mənasında. Böyüklük mənasında!..

**"Sovet Ermənistanı" qəzeti**
**16 iyun 1984-cü il, səh.4**

# ORDENLİ MEXANİZATOR

Yaydır. Günəş öz qəlbinin hərarətini səxavətlə paylayır. Dağlardan əsən sərin meh qara xallı lalələrin başına sığal çəkir. Mavi Sevan (Göyçə gölü – M.S.) günəşin zərrin şəfəqləri altında bərq vurur. Göz işlədikcə uzanıb gedən taxıl zəmiləri sarı köynəyə bürünür. Yaşıl tütün plantasiyaları göz oxşayır. Tarlalarda işləyən qız-gəlinlərin, hünərvər mexanizatorların qadir əməkləri ilə tükənmək bilməyən sərvətlər yaranır. Belə sərvət yaradanlardan birinin sorağı ilə Vardenis rayonundakı (Göyçə mahalı – M.S.) Kiçik Məzrə kənd kolxozuna getdik. Onunla iş başında görüşdük. İdarə etdiyi traktorla ot presləyirdi. Başı işə möhkəm qarışmışdı.

– Kəndimizin fəxri Həmid Zeynalov bax budur, – deyə kolxoz idarə heyətinin sədri Telman Muradov pəhləvan cüssəli, uca boylu, orta yaşlı mexanizatoru bizə təqdim etdi.

Söhbətimiz xeyli çəkdi. Uğurlardan, nailiyyətlərdən danışdıq, fəth edilən zirvələrə nəzər saldıq. Aydın oldu ki, Həmid mahir mexanizator olmaqla yanaşı, həm də gözəl təsərrüfatçıdır: mütəxəssis dəqiqliyi ilə apardığı hesablamalar, gətirdiyi dəlillər diqqəti cəlb edirdi. H.Zeynalov vurğunu olduğu doğma kəndin hər qarış torpağına yaxşı bələddir. O öz taleyini bu təsərrüfata çoxdan bağlayıbdır. Doğma kənddə yeddiillik məktəbi bitirən gündən kolxozda işləyir. Gənclik həvəsi ilə işə başlayan yeniyetmə Həmid kolxozun bütün işlərində əzmlə

çalışdı, püxtələşdi. Əmək meydanında böyüdü, bərkidi. Buradan əsgərliyə yola düşdü.

H.Zeynalov ordu sıralarında nümunəvi xidmət etdi. İntizamlılığı ilə fərqləndi. Xidmət müddəti başa çatanda Həmidi ordudan komsomol putyovkası ilə Altay vilayətinə oxumağa göndərdilər. Volçinski rayonunda peşə öyrənən gənc doğma elə  mexanizator kimi qayıtdı. M.Əzizbəyov adına kolxozda əmək fəaliyyətini davam etdirməyə başladı. Tütünçü qız Gülgəzlə evləndi, mehriban ailə qurdu. İndi o vaxtdan 20 il keçir. Bu illər Həmidin  həyat kitabına parlaq səhifələr bəxş edib. İndi həmkarları onu öz peşəsinin vurğunu, işinin əsl ustası, torpağa bağlı insan kimi tanıyırlar.

Torpaq deyir "öldür məni, dirildim səni". Mexanizator Həmid bu el kəlamını özünün əmək devizinə çevirmişdir. Tarla bahadırı torpağın hər qarışından bol məhsul götürmək üçün istər sahələrin şumlanmasında, istər gübrələnməsində, istərsə də biçində səy və bacarığını əsirgəmir. Zəhmətkeş mexanizator torpaq qarşısında əyildikcə gündən-günə ucaldı. Səsi-sorağı kənddən-kəndə yayıldı.

1971-ci il. Bu tarix H.Zeynalovun həyatında unudulmaz illərdən biridir. İşində böyük uğurlar qazanan mexanizator yüksək dövlət mükafatına – "Şərəf nişanı" ordeninə layiq görüldü. Partiya və hökumətimizin sadə əmək adamına bu diqqəti, qayğısı H.Zeynalovu daha yüksək zirvələrə səslədi. O gündən mexanizator ikiqat məsuliyyətlə işlədi. Vətənin yüksək mükafatı müqabilində partiyanın və xalqın etimadını yeni-yeni şanlı əmək nailiyyətləri ilə möhkəmləndirdi.

On birinci beşillikdə  də H.Zeynalov partiya və dövlətimizin çağırışına səs verərək Ərzaq proqramının yerinə yetirilməsi uğrunda, qənaət və qənaətcillik uğrunda mübarizəyə qoşuldu. Beşilliyin ilk illərində plan və öhdəlikləri 125-135 faiz yerinə yetirən mexanizator  Həmid özək ilində bu göstəricini 143 faizə çatdırdı. 1984-cü il Həmid Zeynalov üçün daha yaddaqalan oldu. Əmək meydanında göstərdiyi

hünərlərə görə Vətənin daha bir yüksək mükafatı – "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif edildi. Mexanizatorun nailiyyətlərindən söhbət açan kolxoz sədri T.Muradov dedi:

– Kolxozumuzda qabaqcıl mexanizatorlar çoxdur. Novruz Cəfərov, Valeh Musayev, Eyvaz Ələsgərov və başqaları plan və tapşırıqları həmişə artıqlaması ilə yerinə yetirirlər. Lakin Həmid Zeynalov xüsusilə fərqlənir. O, yaxşı yoldaşdır, bacarıqlı mexanizatordur, bütün mövsümi işlərdə can-başla işləyir. Həmid texnikanın dilini gözəl bilir. Müxtəlif markalı maşınları məharətlə idarə edir. Ona etibar edilən texnikanı həmişə saz saxlayır. Ən başlıca xüsusiyyəti işgüzarlığıdır.

Həmid Zeynalov həm də fəal ictimaiyyətçi, kənd sovetinin deputatıdır. Əsl xalq elçisi kimi bütün kənd camaatının dərin hörmətini qazanıbdır. Bəli, Kiçik Məzrə kəndinin camaatı Həmidə xüsusi ehtiram bəsləyir.

Ordenli mexanizatorun ailəsində qəlbi Vətənə məhəbbətlə döyünən üç övlad böyüyür. Qızı Sevda anasının yolunu tutaraq kolxozda tütün becərir. Oğulları Əli ilə Aydın dərs əlaçısıdırlar.

– Uğurlarınızı nə ilə əlaqələndirirsiniz? – deyə Həmidə müraciət etdikdə bir anlığa fikrə getdi, sonra gülümsəyərək dedi:

– Axı, mən nə etmişəm ki... Təmiz havası, barlı-bərəkətli torpağı, əməksevər adamları olan belə bir eldə yaşayıb-yaratmaq hamımızın arzusu deyilmi?... Partiya və hökumətimizin qayğısı sayəsində gündən-günə uğurlarımız artır. "Qırmızı Əmək Bayrağı" məni Ərzaq proqramına yeni-yeni töhfələr daxil etməyə səsləyir...

– Gün o gün olsun ki, səni daha yüksək mükafat üçün təbrikə gələk, Həmid!

**"Sovet Ermənistanı" qəzeti**
**31 iyul 1984-cü il, səh.2**

# TORPAĞA BAĞLI

Səxavətlidir ana torpaq. Əsirgəmir varını nazını çəkənlərdən, ona qayğı göstərənlərdən. Ucaldır qədirbilən övladları el gözündə. Bir də halallıq sevir torpaq...

Bu hikməti dərk etdiyi gündən mehrini torpağa saldı Xuraman. Ülfət bağladı anamız torpaqla. Qəlbinin hərarəti barmaqlarına süzüldü. Əkib-becərdikcə isitdi torpağı əllərinin hərarətilə, odlu nəfəsilə, gülümsər baxışıyla.

Əməksevər bir ailənin zəhmət bulağından su içib o. Ata-anası körpəlikdən Xuramanın başını torpaq ətirli əlləri ilə çox sığallayıblar. Bəlkə elə bu sığallardan çöküb qəlbinə torpaq məhəbbəti?! Torpaqla ülfət bağladığı gündən bərkə-boşa düşüb, mətinləşib. Ucalıb. Yenə ucalacaq!

Xuraman Əkbərova Şirazlı kəndindəki "İnternasional" kolxozunun üzümçü-tərəvəzçisidir. Orta məktəbdən birbaşa təsərrüfata gələndə müəllimləri, tay-tuşları təəccüblənmişdilər ki, görəsən, onilliyi müvəffəq qiymətlərlə bitirdiyi halda niyə qüvvəsini-biliyini hər hansı ali məktəbdə sınamadı. İllər illərə qovuşduqca Xuramanın düz yol seçdiyinə heç kəsdə şübhə qalmadı. Sən demə, onun səadəti torpaqdaymış. Bu gün Ararat rayonunda (Vedi rayonunda –M.S.) X.Əkbərovanı hamı tanıyır. Halal zəhmət, alın təri gənc qızı el içində şöhrətləndirib. Sinəsində parlayan "XI beşilliyin gənc qvardiyaçısı", "Sosializm yarışının qalibi" döş nişanları əmək cəbhəsində uğurla yola saldığı illərin yadigarıdır. Xuraman Əkbərova hünərvər zəhmətinə görə bu il Vətənin

daha bir mükafatı – "Əməkdə igidliyə görə" medalı ilə təltif edilmişdir.

İşlədiyi 7 nömrəli briqadanın uğurları ildən-ilə artır. Briqadanın tərəvəz sahələri, üzüm bağları hər mövsümdə el sərvəti ilə dolu olur. Çünki bu bağlarda, bu sahələrdə qəlbi yaratmaq eşqi ilə coşan, torpağa bağlı insanlar çalışırlar. Cari ildə onlar bol məhsul istehsal edərək dövlətə xeyli keyfiyyətli meyvə-tərəvəz satmışlar. Bu əmək qələbəsində Xuramanın da layiqli töhfəsi vardır. Komsomolçu-gənclərin əksəriyyət təşkil etdiyi bu briqadada əmək qabaqcılları çoxdur. Gülnarə Məmmədova, Rahilə Mirzəyeva, Qəndab Mustafayeva və başqaları təsərrüfatın fəxridirlər. Tərəvəz plantasiyaları, üzüm bağları bu qız-gəlinlərin hünər meydanıdır. Becərdikləri nemətlər yalnız sudan, torpaqdan və günəşdən deyil, onların hərarətli əllərindən də güc alır. Zəhmətin bəhrəsini gördükcə sevincdən dağa dönür ürəkləri.

Hər il min-min tonlarla kəhrəba məhsul toplayır bu diyarın üzümçüləri. Asan peşə deyildir üzümçülük. Balaca bir laqeydlik görən kimi "küsür" tənək. Küsür və bağbandan barını əsirgəyir. Qayğı, nəvaziş görəndə isə zümrüd plantasiyaların barını-bəhrəsini yığıb-yığışdırmaq olmur.

Söhbət zamanı torpağın "dilini" yaxşı bilən bacarıqlı təsərrüfatçılar iş-güclərindən həvəslə, ilhamla danışdılar:

– İllərin təcrübəsindən yəqin etmişik ki, üzüm tənəyinin hər zoğu, hər yarpağı öz dərd-sərini, nə istədiyini yaxşı bağbana "deyir". Düzü, bu cəhətdən bəxtimiz gətirib. Məhz Xuraman kimi yaxşı bağbanlarla işlədiyimizə görə, briqadamız hər il plantasiyalardan istənilən məhsulu götürür.

Kolxoz idarə heyətinin sədri də qoçaq azərbaycanlı qızı barədə ağızdolusu danışdı:

– Kolxozumuz təsadüfi olaraq "İnternasional" adlandırılmayıb. Sözün əsl mənasında kəndimiz beynəlmiləl ailədir. Burda müxtəlif millətlərin nümayəndələri yaşayır, çiyin-çiyinə işləyir, təsərrüfatımızın na-

iliyyətlərini gündən-günə artırmağa səy göstərirlər. O ki qaldı Xuramana, od parçasıdır. Keyfiyyətli işinə, bacarığına, qoçaqlığına söz ola bilməz. Mehribanlığı və sadəliyi Xuramanı beynəlmiləl ailəmizdə hamıya sevdirib. Kolxoza gəldiyi gündən bütün təsərrüfatın, kəndin, camaatımızın qayğıları ilə yaşayır. Fəal ictimaiyyətçidir. Adamlara qarşı həssas və qayğıkeşdir. Elə bu xüsusiyyətlərinə görə də əməkçilərimiz Xuraman Əkbərovanı Ermənistan SSR Ali Sovetinə deputat seçmişlər.

Xalq elçisi olan bu gənc qız hər an, hər dəqiqə kəndin qayğıları ilə yaşayır. Deputat Xuraman düşünür, axtarır, tapır, böyük fəallıq göstərir. O, kənd yollarının asfaltlaşdırılmasında, küçələrə elektrik işığı, şəxsi həyətlərə su çəkilməsində seçicilərinə əlindən gələn köməyi əsirgəmir. Deputat qızın qayğıları, xalqdan aldığı tapşırıqlar hələ çoxdur – kəndin yaxınlığında poliklinika-xəstəxana binasının inşası, istirahət parkı salınması, Böyük Vətən müharibəsində həlak olanların şərəfinə ucaldılacaq xatirə abidəsi, qaz kəməri çəkilməsi, telefon şəbəkəsinin genişləndirilməsi və bir çox başqa problemlərin həllində həmyerliləri öz nümayəndələrinin köməyini, müdaxiləsini gözləyirlər.

X.Əkbərova həm də briqada komsomol təşkilatının katibidir. O dəfələrlə rayon komsomol komitəsinin Fəxri qramotasını almışdır.

– On ikinci beşilliyin start ilində yüksək göstəricilərə nail olduq. Tapşırıqları yerinə yetirmək üçün var qüvvəmizlə çalışırıq, – deyir Xuraman – taleyimi torpağa bağladığıma çox şadam. Ona qoyulan əməyin müqabilində insanı dönə-dönə mükafatlandırır.

Bəli, insan zəhməti, insan qayğısı sayəsində torpaqdan min cür nemət hasil edilir. İnsan torpağa əyildikcə, torpaq insanı ucaldır. Həmişə də ucaldacaq!

**"Sovet Ermənistanı" qəzeti**
**27 noyabr 1986-cı il, səh.4**

# GÜNƏŞ ZİRVƏLƏRƏ GÜLÜMSƏYİR

Fəsillərin tacı bahar dağlar diyarı Krasnoseloya (Göyçə mahalı– M.S.) yenicə qədəm qoyub. Qış öz qar ətəklərini yamaclardan çəkib zirvədə cəm edib. Meşələr zümrüd libasa bürünüb. Günəş zirvələrə gülümsəyir...

Dağlar qoynunda boy atan bu rayonda bir kənd var – Cil kəndi. Əməksevər adamları dağlar kimi vüqarlıdır bu kəndin. Beşillikdən-beşilliyə qələbə iftixarı ilə ilə addımlayan Cil təsərrüfatının tütünçüləri XI beşillikdə dövlətə 448,4 ton əvəzinə 512,7 ton tütün sataraq planı 114 faiz ödəmişlər. Bu yüksək göstəricidə layiqli töhfəsi olan əmək qəhrəmanlarından biri tütünçü Narıngül Qarayevadır.

## VALİDEYN YOLU

Gözünü açandan, həyatı dərk edən gündən anasını əliqabarlı, atasını iş başında görüb Narıngül. Yeddi övlad tərbiyə edən Hürü ana tütün becərirdi. Evdə işindən, peşəsindən danışmağı da unutmurdu. Onun söhbətləri qızı Narıngülün qəlbində dərin iz salmışdı. Adlı-sanlı tütünçü Məsmə Abbasovanın Lenin ordeni ilə təltif edilməsi kənddə əlamətdar hadisəyə çevrilmişdi. Hər evdə, hər ocaqda söhbət ondan

gedirdi. Həmin axşam Əli kişinin süfrəsi başında da söz Məsmədən düşdü. Elə orda da Narıngül qətiyyətlə bildirdi:

– Sabahdan anamla tütünə gedəcəyəm. Özüm də gərək Məsmə kimi tütünçü olam!

... O vaxtdan çox illər keçib. Narıngül Qarayeva Cil təsərrüfatının bayraqdar tütünçüsünə çevrilib. Dəfələrlə sosializm yarışının qalibi, beşilliyin zərbəçisi döş nişanlarını alıb. 1975-ci ildə III dərəcəli Əmək Şöhrəti ordeni ilə təltif edilib. 1979-cu ildə əmək cəbhəsindəki nailiyyətlərinə görə rayon soveti N.Qarayevaya şəxsi istifadə üçün növbədənkənar minik maşını verib.

İllər illərə calandıqca sovxozda Narıngülün yetirmələrinin də sayı artıb. Gənc tütünçülər Tahirə Namazova, Sücaət Tanrıverdiyeva bu gün hami-tərbiyəçilərinin adını şərəflə doğruldurlar. Hazırda qızı Ceyran da Narıngülün yolu ilə gedərək tütün becərir. Ana yolu: Hürü – Narıngül, Narıngül – Ceyran. Estafet davam edir.

Beşillikləri qələbə əzmi ilə qarşılayıb, qürurla yola salan tütünçü Narıngül ildə 2000-2500 kiloqram tütün yarpağı təhvil verir. Ötən beşilliyin hər bir ilini uğurla başa vuran N.Qarayeva 1985-ci ildə rekord məhsul – 854 kiloqram müqabilində 3186 kiloqram tütün yığmışdır. Bütövlükdə o, on birinci beşillikdə 3908 kiloqram əvəzinə 12346 kiloqram tütün yarpağı təhvil verərək, bir beşillikdə üç beşilliyin normasını yerinə yetirmişdir. Əhsən bu hünərə, əhsən, Narıngül!

## ADİ, BƏNZƏRSİZ SƏHƏRLƏR

Hər səhər Narıngül rəfiqələri Midvarı Mazanova, Tamara Zamanova, Gövhər Allahverdiyeva, Dostu Elyazova ilə birlikdə tütün sahələrinə yollanır. Səhərlər adi səhərlərdir. Lakin heç biri digərinə bənzəmir. Hərəsinin öz gözəlliyi, öz qayğıları var...

Payızdan şumlanmış plantasiyalar yaz açılan kimi tütünçüləri öz qoynuna alır. Sahələr aqrotexniki qaydada gübrələnir, hazırlanır. İşləri

təcrübəli əməkçilər aparır.

N.Qarayeva özü xidmət etdiyi iki şüşəlikdən başqa, könüllü olaraq on şüşəliyə də baxır, cücərti alınan yerlərdə bitkilərə qayğı ilə qulluq edir. Yaxın günlərdə həmin şitillər sahələrə köçürüləcəkdir.

Narıngül Qarayeva deyir:

– Rayonumuzun təbii şəraiti tütünçülüyün inkişafı üçün çox əlverişlidir. Əl əməyi çox olsa da, tütünçülük gəlirli sahədir, biz əməkçilərin maddi rifahına yaxşı təsir edir. Bütün kənd zəhmətkeşləri kimi, biz tütünçülər də partiyamızın XXVII qurultayının qarşıya qoyduğu vəzifələrin yerinə yetirilməsinə çalışırıq. Sürət beşilliyinin birinci ilində mən də 3500 kiloqram tütün yarpağı istehsal etməyi öhdəmə götürmüşəm. Gərək bu imtahandan da alnıaçıq, üzüağ çıxaq!

Biz sənə inanırıq. Sürət beşilliyinin hər ilini rekord göstəricilərlə yola salacağına əminik, Narıngül!

## EL ANASI

Əməyilə elinin-obasının gözündə ucalan N.Qarayeva fəal ictimaiyyətçi kimi də xalqın dərin hörmətini qazanmışdır. Kənddə, rayonda kimi dindirdiksə hamısı birağızdan: – Narıngül bizim fəxrimizdir, sözün əsl mənasında el anasıdır! – dedi. Yalnız tütün becərməklə kifayətlənməyən bu hünərvər qadın sovxozun bütün işlərində canlabaşla iştirak edir. Hətta zarafatla deyirlər ki, Narıngül fermada yem bölgüsünə nəzarətçi təyin ediləndən bəri mallar kökəlib.

İllərdən bəri Cil kənd Sovetinin deputatı vəzifəsini şərəflə yerinə yetirən N.Qarayeva həm də kənddə yoldaşlıq məhkəməsinin sədridir.

Məktəb valideyn komitəsinin sədri kimi də N.Qarayevanın qayğıları çoxdur. Valideynləri məktəb tədbirlərinə cəlb etmək... Müəllim–şagird–valideyn üçlüyünün möhkəm əlaqə saxlamasına səy

göstərmək, bir növ məktəblə ailələr arasında körpü yaratmaq...

Narıngül Qarayevanın çoxşaxəli fəaliyyəti ilə tanış olduqca, zəngin həyat dastanını vərəqlədikcə heyrətlənməyə bilmirsən: bir qadın, özü də Vətənçün səkkiz övlad böyüdən ana bu qədər işin öhdəsindən necə gəlir?! Bu el anası necə tükənməz enerjiyə malikdir!..

***

Günəş zirvələrə gülümsəyir. Bir də əməyin zirvəsini fəth etmiş dağ vüqarlı insanlara. Ömrünün günəş payı çox olsun, Narıngül bacı! Qəlbinin hərarəti, əllərinin sürəti azalmasın. İşlə, yarat! Sevindir bizi əfsanəyə bənzər hünərinlə!

**"Sovet Ermənistanı" qəzeti**
**13 may 1986-cı il, səh. 2**

# NƏCİB PEŞƏ

13 ildir ki, Təranə Mehdiyeva Yerevandakı M.F.Axundov adına 9 nömrəli orta məktəbdə ingilis dilini tədris edir. Öz nəcib peşəsini sevən, müəllim adı ilə fəxr edən Təranə müəllimə fənnini xüsusi həvəslə öyrədir. Kollektivin dərin rəğbətini qazanmış gənc müəllimə daim axtarışdadır, xarici dilin tədrisində ən yeni metod və üsullar arayır-tapır. Şagirdlərə düzgün tələffüz vərdişləri aşılamaq üçün maqnitofon yazılarından, ingilis dilində təşkil edilmiş səhnəciklərdən, ekskursiyalardan geniş istifadə edir. Maraqlı tədbirlərdə öyrədilən yeni söz və ifadələr daha yaddaqalan olur, şagird hafizəsində silinməz iz buraxır. "Ailədə", "Yad şəhərdə", "Muzeydə", "Ekskursiya zamanı" mövzulu tədbirlər bir növ tamaşa-dərs, səhnəcik xüsusiyyəti daşıyır, dili mənimsəməkdə şagirdlərə çox kömək edir.

T.Mehdiyeva belə deyir:

– İngilis dili beynəlxalq dildir. Şagirdlərimə bu dili mükəmməl öyrətmək ən böyük arzumdur. Görkəmli rus pedaqoqu Uşinski şagirdi məşələ bənzədərək qeyd etmişdir ki, bu məşəli alışdırmaq müəllimin vəzifəsidir. Əgər mən böyük sələfimin bu tələbinə qismən də olsa əməl edə bilmişəmsə xoşbəxtəm.

Bəli, sən xoşbəxtsən, Təranə müəllimə. Ona görə xoşbəxtsən ki, gənc nəslin təlim-tərbiyəsinə həsr etdiyin ömür sonsuzdur. Çünki müəllim ömrü bitmir, tükənmir. O, şagirdlərinin ömründə davam edir.

**"Sovet Ermənistanı" qəzeti**
**4 oktyabr 1986-cı il, səh.3**

# ŞAGİRDLƏRİN SEVİMLİSİ

– Şagirdlərinizin sizə qarşı məhəbbətinin sirri nədədir? Axı, riyaziyyat kimi çətin bir fənni şagirdlərə sevdirmək, üstəlik onların məhəbbətini qazanmaq hər müəllimə nəsib olmur...

–Ürəyimi uşaqlara verirəm. Onları özümdən çox sevirəm!–deyə səmimiyyətlə dilləndi.

Nəcib peşəsinə ürəkdən bağlanan Susilə Abbasova 18 ildir ki, maarif cəbhəsində çalışır. Qəlbinin hərarətini, gözlərinin nurunu damla-damla şagirdlərinin yoluna çiləyir. S.Abbasova fənnini xüsuisi həvəslə, təmkinlə tədris edir. Tükənməz gənclik enerjisi ilə çalışaraq daim arayıb-axtarır, müxtəlif mövzuların öyrədilməsində yeni-yeni metod və üsullardan istifadə edir. Əməksevər müəllimin səyi gözəl nəticələr verir. İllər illərə calandıqca onun yetirmələri arasında riyaziyyat müəllimlərinin, mühəndislərin, dəqiq elmlər sahəsində işləyən digər mütəxəssislərin sayı artır. Yüksək peşə ustalığına malik, pedaqoji məharəti ilə fərqlənən Susilə Abbasova dəfələrlə respublika Maarif Nazirliyinin qramotalarına layiq görülmüş, 1986-cı ildə isə "Əməkdə fərqlənməyə görə" medalı ilə təltif olunmuşdur.

– Müəllimliyi təsadüfənmi seçibsiniz, yoxsa müəyyən bir səbəbi vardır?

– Düzü, bu suala konkret cavab verməkdə çətinlik çəkirəm. Heç vaxt unuda bilmədiyim bir müəllimim olub – Yazgül müəllimə. Məktəbimizdə qadın müəllimlər azlıq təşkil edirdi. Yazgül müəllimə o qədər gözəl, o qədər nəcib, o qədər mədəni bir qadın idi ki, hamımız ona valeh olmuşduq. Mənə elə gəlirdi ki, ona bənzəmək üçün mütləq

müəllim olmaq lazımdır. Elə bu arzu-istək bağladı məni müəllimliyə!.. Bir də ictimai işlərə böyük marağım var idi. Dərsdən sonra birbaşa pioner otağına qaçar, tədbirlərin hazırlanmasında yaxından iştirak edərdim. Məktəbdən ayrılmaq istəməzdim.

Beləcə, parta arxasında cücərən arzular Susiləni Kirovabad (Gəncə – M.S.) Pedaqoji İnstitutuna aparıb çıxardı. Qiyabi yolla ali təhsil alan gənc qız müəllimliyə başladı. İlk gündən qəlbən uşaqlara, doğma evi hesab etdiyi məktəbə bağlandı. Hazırda S.Abbasova Masis rayonundakı (Zəngibasar rayonu – M.S.) Sayat-Nova kənd orta məktəbində işləyir. İllərdən bəri taleyini bu təhsil ocağına bağlayan Susilə müəllimə ictimai işlərə can yandırır, bütün sahələrdə fəallıqla çalışır. Məktəb ilk partiya təşkilatının katibi kimi də onun qayğıları çoxdur. Azərbaycanlı, erməni və kürd balalarının təhsil aldığı beynəlmiləl məktəbdə şagirdlərin hərbi-vətənpərvərlik və beynəlmiləlçilik ruhunda tərbiyə olunması partiya təşkilatının diqqət mərkəzindədir.

– Məktəb islahatının tələbləri ilə əlaqədar nə kimi tədbirlər həyata keçirmisiniz?

– Bu sahədə görüləsi işlərimiz çoxdur. İlk növbədə altı yaşlı uşaqları məktəbə cəlb etmiş, onlar üçün islahatın əsas tələblərinə müvafiq şərait yaratmışıq. Məktəb islahatının əsas tələblərindən biri şagirdlərin əməyə hazırlanması, onların peşəyönümü məsələsidir. Bununla əlaqədar olaraq VIII–X siniflərdə oxuyan 25 şagirddən ibarət şagird-istehsalat briqadası təşkil etmişik. Briqadaya mən rəhbərlik edirəm. Bu il 11 hektar sahə götürmüşdük. Şagirdlərimiz həmin sahəni böyük həvəslə əkib-becərdilər. 6 hektarda kartof, 3 hektarda çuğundur, 2 hektarda isə kələm yetişdirdik. Sahələrdən yüksək keyfiyyətli bol məhsul topladıq. Əməyinin bəhrəsini görən uşaqların sevinci aşıb-daşırdı. Bir cəhəti xüsusi qeyd etmək istəyirəm ki, əmək meydanı təhsildə qabaqcıl olmayan oğlan və qızların qabiliyyətini də üzə çıxarır, onların gələcək həyat yolunun müəyyənləşməsində mühüm rol oynayır. Müşahidə etmişəm ki, dərslərə hazır gəlməyən, zəif

oxuyan şagirdlər belə sahədə özlərini intizamlı aparır, var qüvvələri ilə işləyirlər. Briqadamızın üzvlərindən Rəhman Nəcəfov, Yazgül Sadıqova, Fəridə Nağıyeva, Asəf Həsənov, Şəlalə Ağayeva, Bahar Hüseynova nümunəvi işləri ilə fərqləndilər.

Hər səhər həvəslə məktəbə yollanan, şagirdlərin yığın-yığın suallarına səbrlə cavab verən Susilə müəllimə çətin pedaqoji işlə yanaşı rayonun ictimai-siyasi həyatında da fəal iştirak edir. O, kənd Sovetinin deputatı, Nizami kənd Soveti İcraiyyə Komitəsinin üzvüdür. Seçicilərin tapşırıqlarını yerinə yetirmək üçün var qüvvəsi ilə çalışır.

Respublika müəllimlərinin V qurultayında böyük etimad göstərərək Susilə Abbasovanı Ümumittifaq müəllimlər qurultayına nümayəndə seçmişlər. Bu barədə o, həyəcanla danışır:

– Ölkə müəllimlərinin ali məclisinə nümayəndə seçilməyim məni çox sevindirir. Əminəm ki, bir pedaqoq kimi məni və həmkarlarımı düşündürən suallara qurultayda cavab tapacağam. Bu böyük etimadın müqabilində isə daha yaxşı işləməli, yenidənqurma dövrünün tələbləri ilə ayaqlaşmalıyam.

– Sənə gələcək pedaqoji fəaliyyətində müvəffəqiyyətlər arzulayırıq, Susilə!

**"Sovet Ermənistanı" qəzeti**
**3 oktyabr 1987-ci il, səh.4**

# MÜƏLLİM – MÜHAZİRƏÇİ

Ömrünün yarıdan çoxunu gənc nəslin təlim-tərbiyəsinə həsr etmiş Rza Tağıyev 36 ildir ki, xəritə önündə dayanır. 36 ildir ki, Rza müəllim əlindəki çubuğun ahəstə hərəkəti ilə dönə-dönə "Haradan başlanır Vətən" sualına cavab verir. Vətən torpağını qarış-qarış, diyar-diyar tanıdır, sevdirir məktəbli balalara.

1951-ci ildə Bakıda Azərbaycan Dövlət Pedaqoji İnstitutunu bitirən R.Tağıyev mənalı bir ömür yolu keçmişdir. Bakı şəhərində pedaqoji fəaliyyətə başlayan gənc Rza az sonra doğma Ermənistana qayıdır. Masis (qədim Uluxanlı, keçmiş Zəngibasar – M.S.) rayonunun Qaraqışlaq (sovet dövründəki – Dostluq) kənd məktəbində müəllimlik edir.

Yerevan şəhərindəki Məşədi Əzizbəyov adına səkkizillik məktəbdə dərs dediyi illər Rza Tağıyevin pedaqoji fəaliyyət salnaməsində əsas yer tutur. Uzun illər burada tarix-coğrafiya fənlərini tədris edən Tağıyev yüzlərlə oğlan və qıza dərin bilik vermişdir. O, məktəblilərin həyata hazırlanmasında var qüvvəsini sərf etmişdir. Hazırda Yerevandakı M.F.Axundov adına orta məktəbdə dərs deyən Rza müəllim gənclik həvəsi ilə işləyir. O, yalnız pedaqoji fəaliyyətlə kifayətlənməyərək məktəbin ictimai həyatında yaxından iştirak edir. Bu gün Axundov adına məktəbdə keçirilən elə bir tədbir yoxdur ki, Rza müəllim orda fəal iştirak etməsin.

R.Tağıyev "Bilik" cəmiyyətinin üzvüdür. Özünəməxsus iş meto-

du olan fəal mühazirəçini tez-tez əmək kollektivlərində, zəhmətkeşlər arasında görmək olur. Mühazirə vasitəsilə təbliğata mühüm əhəmiyyət verən Rza müəllim mətbuatı müntəzəm surətdə izləyir, məruzələrin mövzusunu əvvəlcədən dəqiqləşdirir. Mövzunu konkret şəkildə yerli şəraitlə, günün tələbləri ilə əlaqələndirdiyinə görə söhbətləri həmişə dinləyicilərə xoş təsir bağışlayır. Məruzələrə hazırlaşarkən pedaqoji təcrübəsindən də geniş istifadə edən R.Tağıyev valideynlər qarşısında çıxış edərkən gənclərin hərbi-vətənpərvərlik, beynəlmiləlçilik ruhunda tərbiyə olunması üçün gərəkli tövsiyələr verir.

Rza müəllim həm də gözəl ailə başçısıdır. Həyat yoldaşı Tamaranın, qızı Tamellanın da pedaqoji təhsilləri var. Müstəqil həyata qədəm qoymuş Tamella atasının yolunu tutub – müəllimdir, musiqi dərsi tədris edir. Oğulları Ramiq Moskvada ali təhsil alır, Namiq isə ordu sıralarında xidmət edir. Krasnoyarsk diyarından tez-tez əsgər Namiqin xoş sədası gəlir.

Rza müəllim deyir:

– Müəllimlik şərəfli peşədir. Dərs dediyimiz hər bir şagird bizə doğma övladımız qədər əzizdir. Hər dəfə müəllimlər otağından jurnal əlində çıxan dünənki şagirdlərim Nailə Əliyevanı (fizika müəllimi), Roza Zeynalovanı (dil-ədəbiyyat müəllimi) gördükcə fərəhim yerə-göyə sığmır. Bu gün biz eyni kollektivdə, çiyin-çiyinə işləyirik. Bundan böyük sevinc, mükafat nə ola bilər?!

**"Sovet Ermənistanı" qəzeti**
**26 mart 1987-ci il, səh.3**

# SABAHIN SORAĞINDA

Son zəng günü Yerevandakı M.F.Axundov adına 9 nömrəli orta məktəbin dəhlizində səfərbəredici şüarlar diqqəti cəlb edir: "İyunun 1-i imtahanların birinci günüdür", "İmtahanlardan "4" və "5" qiymətlər almağa çalışın!". Bu şüarlar şagirdləri dərin biliklərə yiyələnməyə çağırır. Məsləhət saatları cədvəli də məktəbdə gedən qaynar işdən xəbər verir. Burada işləyən müəllimlərin əksəriyyəti ali təhsillidir. Dərslər kabinet üsulu ilə tədris olunur, zəngin laboratoriya, emalatxana, kitabxana vardır. Təhsilin məzmununa, onun ideya-nəzəri təmayülünün gücləndirilməsinə qayğı artırılmışdır.

Həyatın astanasında duran onuncularla söhbət etdik, onların rəngarəng arzular dünyasına düşdük.

Kəmalə Mirzəyeva – Universitetin filologiya fakültəsinə qəbul olunmaq arzusundayam. Bədii kitabları sevirəm.

Elşad Həsənov – Politexnik institutunda oxumaq istəyirəm. Mühəndis olmaq həsrətindəyəm.

Əkbər Əliyev – Hərbi məktəbə qəbul olunmaq üçün gücümü sınayacağam. Vətənin ayıq-sayıq müdafiəçisi olmaq ən böyük arzumdur.

Rahib Rüstəmov – Uşaqlıqdan atama iş zamanı tamaşa edəndə böyük zövq almışam. Mən də atam kimi təmirçi olmaq istəyirəm.

Qönçə Məmmədova – Dərziyə hörmətim var. Biçib-tikməyə çox

həvəsliyəm. Əmək meydanı mənim yolumu gözləyir.

Nəhayət, şagirdlərin illərdən bəri həsrətlə, həvəslə gözlədikləri son zəngin səsi eşidildi. Bu zəngin səsində çağırış – sabahın sorağında olan gəncləri işləməyə, oxumağa, yaratmağa, qorumağa səsləyən çağırış vardı. Məktəbin direktoru Adil Süleymanov onunculara imtahanlarda müvəffəqiyyət, həyatda cansağlığı arzuladı. Müəllimlərdən Məmməd Süleymanov, Süsən Mirzəyeva, Zeynəb Nağıyeva, Nəcibə Həsənova və başqaları öz doğma övladları kimi sevdikləri məzunlara uğurlar dilədilər.

X sinif şagirdləri Kəmalə Mirzəyeva və Solmaz Məmmədova çıxış edərək bildirdilər ki, doğma məktəbdən ayrılsaq da, həmişə ürəyimiz burada olacaq, təlim-tərbiyəmizdə əmək sərf etmiş müəllimlərimizi heç vaxt unutmayacağıq.

Həyəcandan doğan bir anlıq sükutu salona daxil olan birincilərin hay-küylü addım səsləri pozdu. Üz-gözündən sevinc yağan körpələr əllərindəki çiçək dəstələrini onunculara təqdim etdilər.

**"Sovet Ermənistanı" qəzeti**
**28 may 1983-cü il, səh.4**

# AL BAYRAQ DALĞALANIR

Məktəbli yayı davam edir. Zümrüd meşələrin qoynunda, səfalı dağların döşündə yerləşən pioner düşərgələri üzərində yenə də al bayraq dalğalanır. Hər tərəfdə uşaqların şən qəhqəhələri eşidilir. Minlərlə fəhlə, kəndli, ziyalı balası düşərgələrdə dincəlir, mənalı istirahət edir. Respublikamızda stasionar pioner düşərgələri ilə yanaşı, şəhər-tipli düşərgələr, əmək və istirahət düşərgələri də fəaliyyət göstərir. Vardenis rayonunun (qədim Göyçə mahalı – M.S.) Kiçik Məzrə kəndindəki düşərgə də belələrindəndir.

***

- Drujina, düzlən! Farağat! Manqa başçıları raporta!

Raport verənlərin səsi cingildəyir. Təbillər səslənir. Pioner şeypurunun sədaları altında al bayraq qaldırılır. Qaynar həyatla çağlayan düşərgə günlərindən biri başlayır...

Kiçik Məzrədəki əmək və istirahət düşərgəsi M.P.Vaqif adına orta məktəbin nəzdində yerləşir. Məktəbin idman zalı və meydançası, kitabxana və emalatxanası uşaqların ixtiyarına verilmişdir. Pioner və məktəblilərin mənalı istirahəti üçün düşərgədə mövsümə mütəşəkkil başlanmışdır. Tədbirlər proqramı rəngarəngdir. Burada yuxarı sinif şagirdləri istirahət etməklə yanaşı, həm də kolxoz əməkçilərinə yaxından köməklik göstərirlər. Bu il düşərgədə istirahət edən pioner və komsomolçular kolxozun 6 hektar çuğundur sahəsini becərməyi, 200 hektar sahənin otunu toplamağı öhdəyə götürmüşlər. Əmək saatlarında

məktəblilər qarğıdalı, çuğundur becərir, tütünün alağını vurur, sahələrin daşını təmizləyirlər.

Düşərgədə hər növbənin sonunda "Mənim əməyim respublikanın əməyinə qovuşur" devizi altında kolxozda görülmüş işləri yekunlaşdıran toplantı keçirilir. Birinci növbənin qabaqcılları - Müşfiqə İbrahimova, Rita Musayeva, Qurbani Nəcəfov, Yaşar Rüstəmov, Valya Məmmədova və başqaları düşərgə rəhbərliyi tərəfindən qramota almışlar.

İstirahət saatlarında düşərgədə maraqlı, rəngarəng tədbirlər keçirilir. Söhbət zamanı qızlar və oğlanlar maraqlı keçən yay istirahətindən danışdılar.

Leyla Məmmədova: Düşərgədə keçən günlərimiz unudulmazdır. Mənə ən çox xoş gələn tədbirlər tematik səhərciklər, viktorinalar, bir də kitab müzakirələridir.

İsmayıl İbrahimov: Əmək qabaqcıllarından sağıcı Kövsər Quliyeva və Qırmızı Əmək Bayrağı ordenli Həmid Zeynalovla görüşümüz çox səmərəli oldu.

Elşən Ələsgərov: Dostluq, beynəlmiləlçilik, hərbi vətənpərvərlik mövzusunda keçirdiyimiz söhbətlər məni daha çox maraqlandırır.

Tamara Hüseynova: Ekskursiyalar ən çox xoşuma gələn tədbirlərdəndir. Belə tədbirlər zamanı yoldaşlarımızı daha yaxından tanıyır, bir-birimizin xasiyyətinə bələd oluruq.

Aşıqlar yurdu Göyçə mahalında poetik sözə məhəbbət sonsuzdur, tükənməzdir. Düşərgədə şeir gecələrində tez-tez Aşıq Alının, Aşıq Ələsgərin incə ruhlu qoşmaları səslənir. S.Vurğunun, B.Vahabzadənin müdrik poeziyası, V.Mayakovskinin mübariz şeirləri qəlbləri fəth edir. Şeir deyənlər arasında Svetlana Qasımova xüsusilə fərqlənir.

Konsertlərdə balaca Zaurun oxuduğu məktəbli mahnıları qəlb oxşayır. Validə Nəcəfovanın ifasında "Qəşəngdir", "Ceyran" mahnıları

hərarətlə qarşılanır. Xaqani Rzayev gitaranı, Natiq Abdullayev qarmonu məharətlə dilləndirir.

Düşərgədə dil-ədəbiyyat müəllimi Məşdi Sadıqovla nəğmə müəllimi Akif Binnətovun rəhbərliyi altında səhnəciklər hazırlanır. Məktəblilər M.F.Axundovun "Hacı Qara" pyesindən parçaları səhnələşdirmişlər. Uğurla oynanılan tamaşa alqışlarla qarşılanmışdır. Sonra S.Vurğunun "Vaqif" pyesindən hazırlanmış parçalar göstərilmişdir.

Müəllimlərlə söhbət etdik. Bədən tərbiyəsi müəllimi Əkraf Hümmətov dedi:

- Uşaqlara ən çox xoş gələn idman yarışlarıdır. Yarışlarımız "Ümid startları" adlanır. Qaliblərə xatirə hədiyyələri verilir. Şahmat yarışlarının qalibi Vüqar Hüseynov mükafatlandırılmışdır.

Düşərgə rəisi Bahar İsmayılova dedi ki, hər il mövsüm ərzində düşərgəmizdə 200 nəfər pioner dincəlir. Kolxoz həmkarlar təşkilatının hesabına hər gün uşaqlara pulsuz yemək verilir. Valideyn komitəsinin üzvləri, deputatlar və kənd sovetinin sədri ilə birlikdə düşərgədə vaxtaşırı yoxlamalar keçiririk. Dəstə rəhbərləri Zinaida Tatarintsevanın və Zakir Mustafayevin iş planları tədbirlərlə zəngindir. Çalışırıq ki, düşərgə günləri məktəblilərin xatirələrində ən çox yadda qalan səhifə olsun.

- İstirahətiniz uğurlu olsun, əziz balalar! Yorulmayasınız, müəllimlər!

**"Sovet Ermənistanı" qəzeti**
**7 avqust 1984-cü il, səh.4**

# GÜNÜN TƏLƏBLƏRİ SƏVİYYƏSİNƏ*

Həyat durmadan inkişaf edir, adamların həyat tərzi gündən-günə yaxşılaşır. Bu gün kənd zəhmətkeşi teatra, kinoya, konsertə, idmana böyük maraq göstərir, asudə vaxtını daha səmərəli keçirmək istəyir. Bütün bunlar kənd yerlərindəki mədəniyyət ocaqları qarşısında yüksək tələblər qoyur. Əhalinin mədəni istirahətinin təşkili, asudə vaxta diqqət və qayğı bu gün ölkəmizdə bütün təşkilatların fikrini məşğul edən aktual məsələdir. Lakin faktlardan göründüyü kimi, yerlərdə bu haqlı və prinsipial tənqiddən çox ləng nəticə çıxarırlar.

**Ardanışda** və **Cildə** (qədim Göyçə mahalı, sovet dövründəki Krasnoselo rayonunun kəndləri – M.S.) klublarda aparılan iş, əhalinin mədəni tərbiyəsi, asudə vaxtının təşkili xeyli yaxşı səviyyədədir. Ardanış kəndindəki xalq çalğı alətləri ansamblının, dram dərnəyinin sorağı qonşu kəndlərə də çatıb. Ustalıqla hazırlanmış teatr tamaşaları əhalinin rəğbətini qazanır. Kənddə idmanın inkişafına da geniş yer verilir. İdman metodisti Əli Abdullayevin bilavasitə rəhbərliyi və təşki-

*Yazı ixtisarla verilir.

Qeyd: 1986-cı ildə Krasnoselo Rayon Partiya Komitəsinin təlimatçısı İradə Hacıyeva və Rayon İcraiyyə Komitəsi mədəniyyət şöbəsinin müdiri H.K. ilə birgə keçirdiyimiz həmin reyddən bəzi qeydləri bu kitaba daxil etməkdən məqsədimiz sovet hakimiyyətinin son illərində Ermənistandakı Azərbaycan kəndlərinin vəziyyəti barədə tarixi məlumatları nəsillərə ötürməkdir.

latçılığı sayəsində şahmat, futbol və voleybol yarışları keçirilir. Bu yarışlar öz ətrafında xeyli həvəskarı birləşdirir. Rayon icraiyyə komitəsi mədəniyyət şöbəsinin müdiri H.K. da qeyd etdi ki, Ardanışda mədəniyyət işi, asudə vaxta qayğı rayon miqyasında yüksək səviyyədədir.

**Ağbulaq** sovxozu rayonun iri təsərrüfatlarındandır. Sovxozun gəliri ildən-ilə artsa da, kəndin mədəni simasında dəyişiklik nəzərə çarpmır. Mədəniyyət ocağını – klub-kitabxananın yerləşdiyi binanı mədəniyyət obyekti adlandırmaq düzgün olmazdı. Burada asudə vaxtı səmərəli keçirmək üçün heç bir şərait yoxdur. Kino salonu yazın isti günündə buzxananı andırırdı. Bəs qışda burada necə otururlar? Yalnız kino verilən axşamlar bir-iki saatlığa yandırılan soba buranı necə qızdıra bilər? Kənd əhalisinin ən çox asudə vaxta malik olduğu qış aylarında bu soyuq salona kim gələr və burada necə tədbir keçirmək olar? Klub yerləşən otaqda ikicə palçıqlı stuldan və şkaf adlandırılan əşyadan başqa heç nə görmədik. Asudə vaxtlarını yalnız nərd və domino oynamağa sərf edənlər klubda səmərəli istirahət üçün heç bir şərait olmamasından, tədbirlərin yeknəsəkliyindən bolluca gileyləndilər. Binanın sonuncu dəfə nə vaxt təmir edildiyini heç kəs yadına sala bilmədi. Klubda fəaliyyət göstərən yeganə dərnək bədii özfəaliyyət – mahnı dərnəyidir ki, onun da cəmi doqquzca nəfər üzvü vardır. Bəs bu böyüklükdə kənddə digər gənclər, cavanlar nə ilə məşğul olurlar? Klub müdiri Səfər Nəsibov bu suala cavab verməkdə bərk çətinlik çəkdi.

**Toxluca** kənd klubunda səliqə-sahman diqqəti cəlb edirdi. "Onlar Vətənə xidmət etmişlər", "İdman və gözəllik", "Mülki müdafiə" guşələri, tennis stollarının ətrafı çoxadamlı idi. Hiss olunurdu ki, burada tənqiddən nəticə çıxararaq klubun istirahət guşəsinə çevrilməsi sahəsində müəyyən iş görmüşlər. Lakin... Nöqsanlar hələ də çoxdur. Kino salonu sınıq-salxaq stullarla doludur. Sovxoz rəhbərliyinin laqeyd münasibəti üzündən rayonda Toxluca klubu üçün ayrılmış 200 stul hələ də öz ünvanına çatmayıb. Klub binasının ətrafının abadlaş-

dırılması da hələ ki, yada düşmür. Klubda fəaliyyət göstərən dərnəklər azlıq təşkil edir, kənd əhalisinin maraq dairəsini əhatə edə bilmir. Şəkil çəkməyə həvəsi və qabiliyyəti olanlar çoxluq təşkil etdiyi halda, klubda rəsm dərnəyi yoxdur. Bu barədə düşünmək lazımdır.

**Gölkənd** klubunda oturmağa stul yoxdur. Köhnələr sıradan çıxıb, yenilər isə müəyyən hissəciklərin çatışmaması üzündən quraşdırılmayıb. Görəsən, tamaşaçılar kinoya ayaqüstəmi baxacaqlar? Kim və nə zaman tapıb gətirəcək həmin hissəcikləri?

**Əmirxeyir** kənd klubunda heç bir çalğı aləti yoxdur. Alətsiz özfəaliyyət dərnəyi təşkil etmək mümkündürmü?

**Bəryabad** kəndində klub binası qəza vəziyyətindədir. Əvvəla, klub adlanan tikilinin yolu belə yoxdur. Camaat çayın kənarındakı ensiz cığırdan çətinliklə keçir. Yaz aylarında çayın suyu qalxanda isə kluba bu yolla getmək qeyri-mümkün olur. Binanın namünasibliyi az imiş kimi salonda zibil dizə çıxırdı. Aylarla kluba qədəm basmayan xidmətçi görünür, uçuq tavanın altında qalmaqdan qorxur. Amma hər ay maaş cədvəlinə cəsarətlə qol çəkir.

Klubun yenidənqurmaya, əsaslı təmirə ehtiyacı vardır. Avadanlıqsız, yarıuçuq binada yerləşən klubda, şəxsi evin zirzəmisində yerləşən kitabxanada hansı mədəni tədbirdən söz açmaq olar? Yaxşı olmazmı ki, sovetlik Bəryabadda klub-kitabxana üçün yeni bir bina inşa edilməsi barədə təşəbbüs göstərə. Vaxtı çatmış bu məsələ ilə məşğul olmaq lazımdır.

**Çaykənd** klubunda isə vəziyyət tamamilə başqa şəkildədir. Burada mədəni tədbirlər arabir kino göstərməklə məhdudlaşır. Klub müdiri Etibar Kərimovun dediyinə görə, dram dərnəyi məşqlərə axşamlar kino seansı qurtardıqdan sonra başlayır. Bu nə dərəcədə inandırıcıdır? Gecə saat 22.00-dan sonra keçirilən məşqə kimlər gələr?

**Meşəkənd** klubu yenicə təmir olunmuşdur. Salona 50 ədəd təzə yumşaq stul düzülmüşdür. Lakin burada da qarmondan savayı heç

bir çalğı aləti yoxdur. Klub müdiri Gülnaz Sərdarova gəncdir, təcrübəsizdir, bacarıqlı və işbilən yoldaşların köməyinə, dəyərli məsləhətlərinə ciddi ehtiyac duyur. Meşəkənddə klub işi çox primitiv şəkildə təşkil edilib, işçilər müxtəlif siyasi kampaniyalara dair mühazirə və məruzələr oxumaqdan başqa heç nə etmirlər. İş planı düzgün tərtib edilmir, burada konkretlik, dəqiqlik çatışmır.

Ümumiyyətlə, Krasnoselo rayonunda klub və kitabxanalara cəlb olunanların sayı respublikanın orta göstəricisindən aşağıdır. Ötən il rayonda sosial-mədəni tədbirlər üçün ayrılmış 230 min manat vəsaitin yalnız 57 min 500 manatından (sovet rublu nəzərdə tutulur – M.S.) istifadə olunmuşdur. Təsərrüfat rəhbərləri, müvafiq kənd sovetləri klub-kitabxana binalarının təmir olunmasına laqeyd yanaşırlar. Son on ildə 11 kənddə klub binaları qətiyyən təmir olunmamışdır. Rayonun mədəniyyət ocaqlarından yalnız altısının binasında qızdırıcı sistem vardır. Sobalar vasitəsilə qızdırılan binalarsa kənd Sovetlərinin, ilk partiya təşkilatlarının zəif nəzarəti sayəsində kifayət qədər yanacaqla təmin olunmur. 1985-ci ildə rayon klubları üçün 105 min manatlıq avadanlıq, müxtəlif əşyalar, alətlər alınmışdır. Lakin hələ də klublarda bu sahədə ciddi kəsir vardır.

Mədəniyyət ocaqlarında işləyən kadrların seçilməsi, buraya bacarıqlı, istedadlı, həvəskar şəxslərin cəlb edilməsi də vacib məsələdir. Klubların işi yenilikçilik, təşəbbüskarlıq ruhunda qurulmalıdır. Dərnəklərin işində zəhmətkeşlərin fəal iştirakına nail olmaq, estetik tərbiyənin, ədəbiyyat və idmanın təbliği səviyyəsinin yüksəlməsinə ciddi diqqət yetirmək lazımdır. Zəhmətkeşlərin sosial sərvət olan asudə vaxtdan səmərəli istifadə etməsi aktual məsələdir və bu məsələ hamını narahat etməlidir.

**"Sovet Ermənistanı" qəzeti**
**3 iyun 1986-cı il, səh.4**

# TƏLƏBƏLİK İLLƏRİ*

Yenə qızılı payız öz qanadlarını ana təbiətin üzərinə gərib. Ətraf mühit libasını dəyişib, ağacların "yarpaq-yarpaq pıçıltısı" başlayıb. Ömür-günümüz yeni bir dövrə – şıltaq payız günlərinə qədəm basıb... Bu günlərin neçə vaxtdan bəri yol gözləyənlərinin – tələbə gənclərin bayramı başlayıb. Ali məktəblərin, tədris ocaqlarının qapısı taybatay açılıb. Gənc oğlan və qızlar öz doğma evlərindən daha doğma olan elm və bilik mərkəzlərinə, auditoriyalara qayıdıblar. Romantika ilə dolu tələbəlik illərinin yeni səhifələri vərəqlənməyə başlayıb...

***

K.Marks adına Qırmızı Əmək Bayrağı ordenli Yerevan Politexnik İnstitutu respublikanın böyük və qabaqcıl təhsil ocaqlarından biridir. Burada minlərlə gənc təhsil alır, elm və bilik öyrənir. İnstitutun həyətində bir qrup gənc diqqətimizi cəlb etdi. Onlar Azərbaycan dilində nə barədəsə qızğın mübahisə edirdilər. Öyrəndik ki, bu gənclər günəşli Azərbaycandandırlar. Odlar yurdunun dilbər guşələrindən – Ağdamdan, Şəkidən, Astaradan, Qazaxdan... olan bu gənclər institutun mexanika fakültəsində oxuyurlar.

Fakültənin dekanı M.V. dedi:

– Bir ali məktəbdə bütün sahələr üzrə mütəxəssislər hazırlamaq üçün ixtisaslı kadrlar, praktik məşğələ obyektləri olmadığından

---

* Məqalənin həmmüəllifi Mirzə Yusifovdur.

1981-ci dərs ilindən etibarən kooperativ qəbul üsuluna müraciət olunmuşdur. Bu üsula əsasən, qardaş Azərbaycan və Cürcüstan respublikalarının hər birindən on nəfər abituriyent eksperiment yolu ilə qəbul imtahanlarını verdikdən sonra bizim fakültəyə göndərilir. Qəbul zamanı həmin abituriyentlərin rus dilini yaxşı bilməsi və texniki fənlərdən hazırlıqlı olması əsas götürülür. Üçüncü kursdan həmin tələbələrin kosmik cihazlar üzrə mühəndis-konstruktor və maşınqayırmada keyfiyyətə nəzarətin avtomatlaşdırılması üzrə mühəndis-mexanik hazırlayan sahələr üzrə ixtisaslaşması başlayır. Fakültədə tələbələrdən ibarət beynəlmiləl qruplar yaradılır. Bu cür qrupların təşkili həm qardaş xalqların övladlarının bir-birinin dilini, adət-ənənəsini öyrənmək, həm də təlim prosesində orta səviyyəni təmin etmək baxımından olduqca yaxşı nəticələr verir...

Doğrudan da, institutda olduğumuz vaxt istər tələbələrlə, istərsə müəllim-professor heyəti ilə olan söhbətlərimizdə fakültə dekanının dediklərinin şahidi olduq.

İbad Teymurov üçüncü kurs tələbəsidir. Yerevan Politexnik İnstitutuna ilk ərizə verənlərdən, azərbaycanlı tələbələrin ilk pionerlərindəndir. Öz dərin biliyi, səmimiyyəti ilə qrup yoldaşlarının, müəllimlərin rəğbətini qazanıb. Fakültə komsomol və həmkarlar təşkilatlarının büro üzvüdür. Biliyini "Eylerin alfa, betta, qamma inteqralları" mövzusunda elmi iş üzərində sınamağa hazırlaşır. İbad burada özünə xeyli dost-tanış qazanıb, qısa müddət ərzində erməni dilində danışmağı da öyrənib. O həm də gözəl idmançıdır. Respublikanın ali məktəbləri arasında keçirilən güləş yarışlarında institutun adını şərəflə qoruyur.

İbadın kurs yoldaşı Elxan Mehdiyev barədə də yalnız xoş sözlər eşitdik. Müəllimləri bildirdilər ki, Elxan istedadlı tələbədir, əla qiymətlərlə oxuyur. İnstitutun tələbə elmi cəmiyyətinin fəal üzvüdür.

İndiyədək müxtəlif səpkilərdə maraqlı axtarışlar aparıb. Hazırda "Kepler qanunları və ümumdünya cazibə qanunu" mövzusunda elmi iş üzərində çalışır. Azərbaycanlı tələbənin dərin biliyi, yüksək çalışqanlığı gözəl ümidlər doğurur.

Xatirə Hacıyeva səfalı Şəkidə boya-başa çatıb:

– Bir vaxtlar mənə desəydilər ki, Yerevan sənin üçün doğma bir şəhərə, neçə-neçə unudulmaz dostların ünvanına çevriləcək, inanmazdım. İndi burada müxtəlif millətlərdən olan çoxlu dost və sirdaş qazanmışam. Şəhərin təmiz havası, gözəl arxitekturası məni valeh edib.

Həmin gün birinci kurs tələbələrinin – Mehdi, Namiq, Yunis və başqalarının deməyə daha çox sözləri var idi. Axı, cəmisi bir neçə həftədir ki, onlar öz arzularına çatmış, adlarının yanına yeni bir ad – tələbə adı yazmışlar. Qarşıda onları biliklər aləminə maraqlı "səyahətlər", neçə-neçə yuxusuz gecələrin bəhrəsi olacaq sevinc, fərəh dolu günlər gözləyir.

Mehdi Mehdiyev orta məktəbi Mirbəşirdə (Tərtər rayonunda–M.S.) bitirib. Seçdiyi ixtisasdan da, qrup yoldaşlarından da olduqca razıdır:

– Tələbəyik, tələbə... Doğrusunu deyim ki, bir vaxtlar bu adın oduna çox yanmışam, özüm üçün ən yüksək zirvə hesab etmişəm tələbəliyi. İndi budur, sovet Konstitusiyasının biz gənclərə verdiyi təhsil hüququ nəticəsində öz arzuma çatmışam. Biz azərbaycanlı tələbələr üçün böyük fəxrdir ki, respublikamızın adını onun hüdudlarından kənarda təmsil edirik. Əlbəttə, qarşıda çətin imtahanlar, ciddi sınaqlar gözləyir bizi. Lakin biz – birinci kurs tələbələri möhkəm biliyimizə, yuxarı kurs yoldaşlarımızın qardaşlıq köməyinə, fənn müəllimlərimizin tələbkarlığı və səmimiyyətinə bel bağlayaraq bu sınaqlardan alnıaçıq-

gülərüz çıxacağımıza şübhə etmirik.

Oxuduğum qrupda mehriban və qayğıkeş yoldaşlar çoxdur – Manuka, Vaxtanq mənim yaxın dostlarımdır. Biz dərslərə birlikdə hazırlaşır, boş vaxtlarımızı birlikdə keçiririk. Yataqxanada üçüncü otaq yoldaşımızı gürcü tələbələrdən seçmişik.

***

Zeytunda bir ünvan var. Bu ünvanda yalnız və yalnız gənclər yaşayır. Hər axşam tələbə şəhərciyi adlanan həmin ünvandan gitaranın sehrli tellərindən qopan "Yanıq Kərəmi", "Sona bülbüllər", "Dalğalar" ətrafa yayılır, həzin Azərbaycan musiqisi neçə-neçə ürəkləri əfsunlayır, riqqətə gətirir...

"İllər quş qanadlıdır",– deyiblər. Günlər ötəcək, elə bir vaxt gəlib çatacaqdır ki, onların adları yanına yeni adlar – alim, müəllim, mühəndis, konstruktor yazılacaq. Tələbə adı öz ömrünü başa vursa da, tələbəlik illərinin qəlblərdə oyatdığı kövrək xatirələr heç vaxt unudulmayacaq, yaddan çıxmayacaqdır.

**"Sovet Ermənistanı" qəzeti**
**7 oktyabr 1983-cü il, səh.2**

# BİBLİOQRAFİYA*

*** Təqdim olunan biblioqrafiya müəllifin çap olunmuş əsərlərinin tam siyahısını əhatə etmir.**

**1. “Ağ yaylıqlı nümayəndələr...” Ü.Hacıbəyov-100**

***“Ədəbiyyat və incəsənət”*** qəzeti № 41(2176), 11 oktyabr 1985-ci il, səh.7.

**2. “Ağrı”**

***“Kaspi”*** qəzeti № 26(1733), 14 fevral 2008-ci il, səh.15.

**3. “Al bayraq dalğalanır”**

***“Sovet Ermənistanı”*** qəzeti № 94(11610), 7 avqust 1984-cü il, səh.4.

**4. “Alqı-satqı”**

***“525-ci qəzet”*** № 196(2787), 24 oktyabr 2008-ci il, səh. 7.

**5. “Anasız illər”**

***“525-ci qəzet”*** № 98(2448), 5 iyun 2007-ci il, səh. 7.

**6. “Ana bətnində mübarizə”**

***“525-ci qəzet”*** № 98(2448), 5 iyun 2007-ci il, səh. 7.

**7. “Aşıq, bağrına bas sədəfli sazı”**

***“Yurddaş”*** qəzeti № 23, 13 iyun 1991-ci il, səh.7.

**8. “Aşkarlıq dərinləşir”**

***“Sovet Ermənistanı”*** qəzeti № 77(12061), 23 iyun 1987-ci il, səh.1.

**9. “Ata ocağı”**

***“Yurddaş”*** qəzeti № 13, 4 aprel 1991-ci il, səh.7-8.

**10. "Ata həsrəti"**

***"Yurddaş"*** qəzeti № 20, 23 may 1991-ci il, səh.8.

**11. "Atatürk muzeydədir"**

***"Yurddaş"*** qəzeti № 11, 20 mart 1991-ci il, səh.8.

**12. "Avstriyaya atılan körpü"**

***"Həyat"*** qəzeti № 39, 23 fevral 1991-ci il, səh.4.

**13. "Ayrılıq"**

***"Yurddaş"*** qəzeti № 22, 5 iyun 1991-ci il, səh.8.

**14. "Azadlıqmı, hegemonluqmu?.."**

***"525-ci qəzet"*** № 03(2836), 8 yanvar 2009-cu il, səh.6.

**15. "Azərbaycana bağlı ürəklər"**

***"Yurddaş"*** qəzeti № 33, 21 avqust 1991-ci il, səh.1, 4-5
və № 35, 4 sentyabr 1991-ci il, səh. 2,6.

**16. "Azərbaycan fotojurnalistikasının fədaisi"**

***"Azərbaycan"*** qəzeti № 47(5151), 28 fevral 2009-cu il, səh.8.

**17. "Azərbaycan tennisində professionallığa doğru"**

***"Milli Məclis"*** jurnalı № 2, oktyabr-noyabr 2007, səh.63-67.

**18. "Azərbaycan xalçaları Bakı bulvarında"**

***"Spektr"*** jurnalı, mart 2002-ci il, səh.18.

**19. “Azsaylı xalqlara qayğı”**

*“Yurddaş”* qəzeti № 25, 26 iyun 1991-ci il, səh. 6-7.

**20. “Bilicilər”**

*“Sovet Ermənistanı”* qəzeti № 151(11979), 16 dekabr 1986-cı il, səh.4.

**21. “Biz beynəlmiləlçilərik!”**

*“Sovet Ermənistanı”* qəzeti № 13(11997), 29 yanvar 1987-ci il, səh.4.

**22. “Bugünümüzdən boylanan sabah”**

*“525-ci qəzet”* № 196(2787), 24 oktyabr 2008-ci il, səh. 7.

**23. “C.Cabbarlının “Sevil” dramında qəhrəmanın fərdi özünütəsdiq problemi”**

*“Dil və ədəbiyyat”* jurnalı № 2(20) 1998-ci il, səh.121-122.

**24. “Çaykəndin qayğıları və yaxud 4 il davam edən köç”**

*“Millət”* qəzeti № 2(3), 17 yanvar 1992-ci il, səh.8
və № 3(4), 25 yanvar 1992-ci il, səh.7.

**25. “Dəniz – Ada”**

*“Kaspi”* qəzeti № 26(1733), 14 fevral 2008-ci il, səh.15.

**26. “Doğma musiqi”**

*“Ədəbiyyat və incəsənət”* qəzeti № 12(2199), 21 mart 1986-cı il, səh.5.

**27. “Dostuma”**

*“Kaspi”* qəzeti № 110(1576), 22 iyun 2007-ci il, səh.22.

**28. "Dostluq dərsi"**

***"Sovetakan Hayastan"*** qəzeti № 77(20098), 29 mart 1987-ci il, səh.1.

**29. "Dörd bacı"**

***"Sovet Ermənistanı"*** qəzeti № 154(11514), 24 dekabr 1983-cü il, səh.4.

**30. "Dünyaya İNSAN gəlir"**

***"Azərbaycan qadını"*** jurnalı № 9-10 1990-cı il, səh.32-33.

**31. "Əlahəzrət İnformasiyanın möhürü"**

***"Milli Məclis"*** jurnalı № 2(5), aprel-may 2008-ci il, səh.116-117.

**32. "Əlifbamız, taleyimiz..."**

***"Yurddaş"*** qəzeti № 10, 13 mart 1991-ci il, səh.5.

**33. "Əndicandan zəng"**

***"Yurddaş"*** qəzeti № 48, 11 dekabr 1991-ci il, səh.1.

**34. "Ferma müdiri"**

***"Sovet Ermənistanı"*** qəzeti № 108 (11468), 8 sentyabr 1983-cü il, səh. 2.

**35. "Fevralın 28-i"**

***"525-ci qəzet"*** № 98(2448), 5 iyun 2007-ci il, səh.7.

**36. "F.Fərəcov: "...Hər diplomlu ziyalı deyil"**

***"Yurddaş"*** qəzeti № 12, 27 mart 1991-ci il, səh.2.

**37. "Gedər çayı"**

***"Azərbaycan qadını"*** jurnalı № 5-6 1992-ci il, səh.19.

**38. "Gəncliyin səsi - sülhün səsidir"**

***"Sovet Ermənistanı"*** qəzeti № 107(12091), 1 sentyabr 1987-ci il, səh.3.

**39. "Gənc nəslə qayğı"**

***"Sovet Ermənistanı"*** qəzeti № 39(11711), 30 mart 1985-ci il, səh.4.

**40. "Güc"**

***"Kaspi"*** qəzeti № 026(1733, 14 fevral 2008-ci il, səh.15.

**41. "Günəş zirvələrə gülümsəyir"**

***"Sovet Ermənistanı"*** qəzeti № 62(11890), 13 may 1986-cı il, səh.2.

**42. "Günün tələbləri səviyyəsinə"**

***"Sovet Ermənistanı"*** qəzeti № 70(11898), 3 iyun 1986-cı il, səh.4.

**43. "Güzgü"**

***"525-ci qəzet"*** № 21(2612), 6 fevral 2008-ci il, səh. 7.

**44. "Haqq yerini tapacaqmı?.."**

***"Yurddaş"*** qəzeti № 1, 8 yanvar 1991-ci il, səh.5.

**45. "Hər çiçəkdən bir ləçək"**

***"Sovet Ermənistanı"*** qəzeti № 47(11719), 18 aprel 1985-ci il, səh.4.

**46. "Həsrət"**

***"Azərbaycan qadını"*** jurnalı № 5-6 1992-ci il, səh.19.

**47. "Həyat hikməti"**

***"Yurddaş"*** qəzeti № 24, 19 iyun 1991-ci il, səh.8.

**48. "Xalqın taleyi – taleyimizdir"**

***"Yurddaş"*** qəzeti № 33, 21 avqust 1991-ci il, səh.3.

**49. "Xalqlar dostluğunun tərənnümçüsü" C.Cabbarlı – 90**

***"Sovet Ermənistanı"*** qəzeti № 125(12265), 15 oktyabr 1988-ci il, səh.3.

**50. "Xalqlar dostluğu ocağında"**

***"Sovet Ermənistanı"*** qəzeti № 11(12151), 26 yanvar 1988-ci il, səh.2.

**51. "Xeyirxahlığa tələsən insanlar"**

***"Sovet Ermənistanı"*** qəzeti № 72(11538), 16 iyun 1984-cü il, səh.4.

**52. "Xəzərin dərdi, Xəzərin taleyi"**

***"Yurddaş"*** qəzeti № 26, 4 iyul 1991-ci il, səh.7.

**53. "Xəstəlik və həyat"**

***"525-ci qəzet"*** № 98(2448), 5 iyun 2007-ci il, səh.7.

**54. "Xoşbəxtlik və bədbəxtlik"**

***"525-ci qəzet"*** № 196(2787), 24 oktyabr 2008-ci il, səh. 7.

**55. “İdman-konsert kompleksi”**

***“Sovet Ermənistanı”*** qəzeti, № 97(11457), 13 avqust 1983-cü il, səh.4.

**56. “İnformasiya və İnsan”**

***“Milli Məclis”*** jurnalı № 2(5), aprel-may 2008-ci il, səh.116.

**57. “İlğım”**

***“525-ci qəzet”*** № 98(2448), 5 iyun 2007-ci il, səh.7.

**58. “İllariyənin dünyası”**

***“Sovet Ermənistanı”*** qəzeti № 15(11843), 4 fevral 1986-cı il, səh.4.

**59. “İllərdə qalan izlər”**

***“Sovet Ermənistanı”*** qəzeti №22(11538), 21 fevral 1984-cü il, səh. 2.

**60. “İstedad”**

***“Kaspi”*** qəzeti № 110(1576), 22 iyun 2007-ci il, səh.22.

**61. “İşğal”**

***“Kaspi”*** qəzeti № 110(1576), 22 iyun 2007-ci il, səh.22.

**62. “İtki”**

***“Kaspi”*** qəzeti № 26(1733), 14 fevral 2008-ci il, səh.15.

**63. “Жизнь длиною в миг”**

***“Комсомолец”*** qəzeti, № 21(6444), 18 fevral 1986-cı il, səh.4.

**64. "Jurnalist"**

***"Yurddaş"*** qəzeti № 29, 24 iyul 1991-ci il, səh.8.

**65. "Kino muzeyi"**

***"Yurddaş"*** qəzeti № 2, 15 yanvar 1991-ci il, səh. 8.

**66. "Kombinatın problemləri"**

***"Sovet Ermənistanı"*** qəzeti, № 154(11670), 25 dekabr 1984-cü il, səh.4.

**67. "Kosmos ünvanlı rəssam"**

***"Ədəbiyyat və incəsənət"*** qəzeti № 31(2426),17 avqust 1990-cı il,səh.5-8.

**68. "Köhnə hamam, köhnə tas"**

***"Ekran-Efir"*** qəzeti № 13(2326), 25-31 mart 2002-ci il, səh.11.

**69. "Kronştadtda bir gün"**

***"Yurddaş"*** qəzeti № 47, 4 dekabr 1991-ci il, səh. 6.

**70. "Qabaqcıllığın sirri nədədir?"**

***"Sovet Ermənistanı"*** qəzeti № 18(12158), 11 fevral 1988-ci il, səh.2.

**71. "Qadın"**

"***525-ci qəzet***" № 31(3347), 18 fevral 2011-ci il, səh.6.

**72. "Qayıq harada xoşbəxtdir?"**

***"525-ci qəzet"*** № 98(2448), 5 iyun 2007-ci il, səh.7.

**73. "Qələmin ağır məsuliyyəti"**

***"525-ci qəzet"*** № 21(2612), 6 fevral 2008-ci il, səh.7.

**74. "Qürbət"**

***"525-ci qəzet"*** № 21(2612), 6 fevral 2008-ci il, səh.7.

**75. "Qürbət cənnət olsa da..."**

***"Yurddaş"*** qəzeti № 9, 6 mart 1991-ci il, səh. 2.

**76. "Laqeydlik yenidənqurmanın düşmənidir"**

***"Sovet Ermənistanı"*** qəzeti № 100(12084), 15 avqust 1987-ci il, səh.2.

**77. "Leninqrada bağlı ürək"**

***"Sovet Ermənistanı"*** qəzeti № 129(11645), 27 oktyabr 1984-cü il, səh.4.

**78. "Lentlərdə yaşayan tarix"**

***"Yurddaş"*** qəzeti № 3, 22 yanvar 1991-ci il, səh.7.

**79. "Mədəniyyət xalqın xidmətində"**

***"Sovet Ermənistanı"*** qəzeti № 99(11927), 12 avqust 1986-cı il, səh.4.

**80. "Məmməd Arifin xatirəsinə"**

***"Yurddaş"*** qəzeti № 11, 20 mart 1991-ci il, səh.8.

**81. "Mən və özüm"**

***"525-ci qəzet"*** № 21(2612), 6 fevral 2008-ci il, səh. 7.

**82. “Мы в лагере хозяева”**

*“Комсомолец”* qəzeti № 104(6215), 28 avqust 1984-cü il, səh.2.

**83. “Mirzə Cəlil yaradıcılığı yeni tədqiqatda”**

*“Dirçəliş – XXI əsr”* jurnalı № 76-77, iyun-iyul 2004-cü il, səh.388-390.

*“Xalq qəzeti”* № 89(24656), 18 aprel 2004-cü il, səh.6.

**84. “Milli incəsənətimizin tədrisi. Rəssamlıq”**

*“Dədəm Qorqud”* qəzeti № 15, 30 oktyabr-5 noyabr 1991-ci il, səh.7.

**85. “Milli incəsənətimizin tədrisi. Memarlıq”**

*“Dədəm Qorqud”* qəzeti № 18, 20-27 noyabr 1991-ci il, səh. 6.

**86. “Min il sonra sorsan şair hardadır” N.Gəncəvi – 850**

*“Yurddaş”* qəzeti № 48, 11 dekabr 1991-ci il, səh. 6.

**87. “Mozalan”a səyahət”**

*“Yurddaş”* qəzeti № 17, 1 may 1991-ci il, səh.7.

**88. “Möcüzə yaradan əllər”**

*“Sovet Ermənistanı”* qəzeti, № 76(12060), 20 iyun 1987-ci il, səh.4.

**89. “Müəllim – mühazirəçi”**

*“Sovet Ermənistanı”* qəzeti, № 39(12023), 26 mart 1987-ci il, səh.3.

**90. “Mühitin möhürü”**

*“Kaspi”* qəzeti № 110(1576), 22 iyun 2007-ci il, səh.22.

**91. “Münasibət”**

***“525-ci qəzet”*** № 98(2448), 5 iyun 2007-ci il, səh.7.

**92. “Müstəqillik elan edilib, amma...”**

***“Axtarış”*** qəzeti № 9(11), 28 fevral 1992-ci il, səh. 6.

**93. “Не отвлеченные это понятия”**

***“Комсомолец”*** qəzeti № 116(6227), 25 sentyabr 1984-cü il, səh.3.

**94. “Nəcib peşə”**

***“Sovet Ermənistanı”*** qəzeti № 122(11950), 4 oktyabr 1986-cı il, səh.3.

**95. “Nədən başlayaq”**

***“Hikmət”*** qəzeti № 23, 18 oktyabr 1991-ci il, səh.7.

**96. “Nəsihət”**

***“525-ci qəzet”*** № 21(2612), 6 fevral 2008-ci il, səh.7.

**97. “Nizami yurdunda” N.Gəncəvi-850**

***“Yurddaş”*** qəzeti № 45, 20 noyabr 1991-ci il, səh.4.

**98. “Nöqsanlara prinsipial münasibət”**

***“Sovet Ermənistanı”*** qəzeti № 5(12145), 12 yanvar 1988-ci il, səh.2.

**99. “Od gəlini”nin tarixinə nəzər salarkən”**

***“Dil və ədəbiyyat”*** jurnalı № 3 1996-cı il, səh.80-81.

**100. “O, əsl sənətkar idi...”**

***“Xalq qəzeti”*** № 19(26077), 27yanvar 2009-ci il, səh.7.

**101. “Ordenli mexanizator”**

***“Sovet Ermənistanı”*** qəzeti № 91(11607), 31 iyul 1984-cü il, səh.2.

**102. “Ölkənin gəncliyi”**

***“Sovet Ermənistanı”*** qəzeti № 20(12004), 12 fevral 1987-ci il, səh.4.

**103. “Ölüm”**

***“Kaspi”*** qəzeti № 110(1576), 22 iyun 2007-ci il, səh.22.

**104. “Ömür”**

***“525-ci qəzet”*** № 21(2612), 6 fevral 2008-ci il, səh.7.

**105. “Ömür bir xalıdır, naxışı əlvan”**

***“Xalq qəzeti”*** № 103(25573), 13 may 2007-ci il, səh.5,

***“Qabilli, Qabilsiz günlər”*** Bakı – 2008, səh.124-132.

**106. “Ömür yolu”**

***“Səhər”*** qəzeti № 83(853), 13 avqust 1994-cü il, səh.4.

**107. “Пограничники наши друзья”**

***“Комсомолец”*** qəzeti № 17(6596), 7 fevral 1987-ci il, səh.2.

**108. “Прочнее будет мир! ”**

***“Комсомолец”*** qəzeti № 67(6178), 31 may 1984-cü il, səh.3.

**109. "Reallıq və təsəvvür"**
***"Kaspi"*** qəzeti № 026(1733), 14 fevral 2008-ci il, səh.15.

**110. "Sabaha nikbin baxışla"**
***"Yurddaş"*** qəzeti № 20, 23 may 1991-ci il, səh.4-5.

**111. "Sabahın sorağında"**
***"Sovet Ermənistanı"*** qəzeti № 64(11424), 28 may 1983-cü il, səh.4.

**112. "Seçim"**
***"Kaspi"*** qəzeti № 26(1733) , 14 fevral 2008-ci il, səh.15.

**113. "Səhnəmizin Ərəbzəngisi"**
***"Azərbaycan qadını"*** jurnalı № 6 1991-ci il, səh.16-17.

**114. "Sənət yanğısı"**
***"Azərbaycan qadını"*** jurnalı № 11-12 1990-cı il, səh. 36-37.

**115. "Sənətmi, sənətkar şəxsiyyətimi?.."**
***"525-ci qəzet"*** № 21(2612), 6 fevral 2008-ci il, səh.7.

**116. "Sənin oxşarın bənövşədi..."**
***"Respublika"*** qəzeti № 12(2557), 20 yanvar 2006-cı il, səh.5.

**117. "Sovetlər ölkəsi"**
***"Sovet Ermənistanı"*** qəzeti № 115(12099), 22 sentyabr 1987-ci il, səh.4.

**118. “Soyqırım”**

***“Kaspi”*** qəzeti № 110(1576), 22 iyun 2007-ci il, səh.22.

**119. “Sönməz məşəl”**

***“Sovet Ermənistanı”*** qəzeti № 22(12006), 17 fevral 1987-ci il, səh.4.

**120. “Sönməz ulduz!”**

***“Sovet Ermənistanı”*** qəzeti № 29(12169), 8 mart 1988-ci il, səh. 4.

**121. “Susmağın bəlası”**

***“Açıq söz”*** qəzeti № 11, 5 aprel 1991-ci il, səh.3.

**122. “Sülh ilindən – sülh əsrinə!”**

***“Sovet Ermənistanı”*** qəzeti № 91(11919), 22 iyul 1986-cı il, səh.4.

**123. “Şagirdlərin sevimlisi”**

***“Sovet Ermənistanı”*** qəzeti №120(12104), 3 oktyabr 1987-ci il, səh.4.

**124. “Şairə ehtiram” S.Ə.Şirvani-155**

***“Yurddaş”*** qəzeti № 24, 19 iyun 1991-ci il, səh.8.

**125. “Tarixin dolaylarında” Cəfər Cabbarlı – 95**

***“Vətən səsi”*** qəzeti № 26(206), 14 oktyabr 1994-cü il, səh.2.

**126. “Təbiətdə bütün rənglər gözəldir”**

***“Yurddaş”*** qəzeti № 4, 29 yanvar 1991-ci il, səh.4.

**127. “Təhsil ocaqlarında”**

***“Yurddaş”*** qəzeti № 11, 20 mart 1991-ci il, səh.8.

**128. “Tələbəlik illəri”**

***“Sovet Ermənistanı”*** *qəzeti № 121(11481), 7 oktyabr 1983-cü il, səh.2.*
*(Qeyd: məqalə M.Yusifov ilə birgə yazılıb)*

**129. “Tənha qadın”**

***“Kaspi”*** qəzeti № 26(1733), 14 fevral 2008-ci il, səh.15.

**130. “Tənhalıq”**

***“Kaspi”*** qəzeti № 26(1733), 14 fevral 2008-ci il, səh.15.

**131. “Tərəqqi və psixologiya”**

***“525-ci qəzet”*** № 03(2836), 8 yanvar 2009-cu il, səh.6.

**132. “Tərs mütənasiblik”**

***“525-ci qəzet”*** № 21(2612), 6 fevral 2008-ci il, səh. 7.

**133. “Torpağa bağlı”**

***“Sovet Ermənistanı”*** qəzeti, № 144(11972), 27 noyabr 1986-cı il, səh.4.

**134. “Uşaqlarımız harada oynasınlar?”**

***“Azərbaycan qadını”*** jurnalı № 4 1991-ci il, səh.1.

**135. “Üçbucağın süqutu”**

***“Kaspi”*** qəzeti № 26(1733), 14 fevral 2008-ci il, səh.15.

**136. “Üfüqlər”**

***“Sovet Ermənistanı”*** qəzeti № 134(11962), 4 noyabr 1986-cı il, səh.4.

**137. “Üzümlüklərdə”**

***“Sovet Ermənistanı”*** qəzeti № 47(11407), 19 aprel 1983-cü il, səh.3.

**138. “Vaqifin sənət dünyası”**

***“Yurddaş”*** qəzeti № 39, 9 oktyabr 1991-ci il, səh.4.

**139. “Vaqonlar anbar deyil”**

***“Sovet Ermənistanı”*** qəzeti № 51(11567), 26 aprel 1984-cü il, səh.4.

**140. “Vətənpərvər ” mühacir ”**

***“Milli Məclis”*** jurnalı № 2(5), aprel-may 2008-ci il, səh.117.

**141. “Vətən çağıranda...”**

***“Sovet Ermənistanı”*** qəzeti № 23(12163), 23 fevral 1988-ci il, səh.4.

**142. “Время самостоятельности ”**

***“Комсомолец”*** qəzeti № 107(6686), 29 avqust 1987-ci il, səh.3.

**143. “Yanlış”ın naxışı”**

“***Birlik***” jurnalı № 07, oktyabr 2010-cu il, səh.32-34.

**144. “Yaşamağa məhkumluq”**

***“525-ci qəzet”*** № 98(2448), 5 iyun 2007-ci il, səh.7.

**145. "Yaşar" və müasirlik"**

*"Dil və ədəbiyyat"* jurnalı № 3 1996-cı i, səh.81-82.

**146. "Yaşasın müəllif!" Ü.Hacıbəyov-100**

*"Sovet Ermənistanı"* qəzeti № 118(11790), 1 oktyabr1985-ci il, səh.3.

**147. "Yaşın fərqi"**

*"Kaspi"* qəzeti № 26(1733), 14 fevral 2008-ci il, səh.15.

**148. "Yeddi övladın biri"**

*"Sovet Ermənistanı"* qəzeti № 16(11688), 5 fevral 1985-ci il, səh.2.

**149. "Yeddi yaşlı kollektiv"**

*"Sovet Ermənistanı"* qəzeti № 87(11759), 20 iyul 1985-ci il, səh.2.

**150. "Yeni tamaşa"**

*"Yurddaş"* qəzeti № 2, 15 yanvar 1991-ci il, səh. 8.

**151. "Yol"**

*"525-ci qəzet"* № 03(2836), 8 yanvar 2009-cu il, səh.6.

**152. "Yubiley ərəfəsində"**

*"Yurddaş"* qəzeti № 2, 15 yanvar 1991-ci il, səh. 8.

**153. "Yuxu"**

*"525-ci qəzet"* № 98(2448), 5 iyun 2007-ci il, səh.7.

**154. "Yurd ağrısı"**

***"Səhər"*** qəzeti № 83(853), 13 avqust 1994-cü il, səh.4.

**155. "Yurd ağrısı"**

***"Vətən səsi"*** qəzeti № 20, 5 sentyabr 1990-cı il, səh.3.

**156. "Yurddaşlarımız bizimlədir"**

***"Yurddaş"*** qəzeti № 46, 26 noyabr 1991-ci il, səh.4.

**157. "Zaman"**

***"525-ci qəzet"*** № 98(2448), 5 iyun 2007-ci il, səh. 7.

**158. "Zamanın səxavəti"**

***"Kaspi"*** qəzeti № 110(1576), 22 iyun 2007-ci il, səh.22.

**159. "Звонят. Откройтесь, двери !"**

***"Комсомолец"*** qəzeti № 76(6031), 25 iyun 1983-cü il, səh.3.

**160. "41-in yeniyetmələri"**

***"Sovet Ermənistanı"*** qəzeti № 63(11735), 25 may 1985-ci il, səh. 4.

# FOTOALBOM



Universitet məzunuyam



Yerevan şəhərindəki ikimərtəbəli dədə-baba evimiz



Hara getsəm videokamera əlimdədir



Orta məktəbi bitiririk





Qayğısız uşaqlıq illəri



Tələbə qızın arzuları böyükdür



Milli Məclisdə dövlət qulluqçusunun andiçmə mərasimində




Unudulmaz müəllimimiz prof. Mir Cəlal Paşayev
yenə  bizi başına yığıb



Tələbəlik həyatımızın son akkordları



Milli Məclisin Sədri Oqtay Əsədovun qəbulunda



Milli Məclisin



Mətbuat konfransında



plenar iclaslarında




Türkiyədə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin
işə düşməsi bayram edilir



Parlament jurnalistləri Spiker Murtuz Ələsgərovun
8 Mart təbriklərindən məmnundurlar



Xalq şairi Rəsul Rzanın 90 illik  yubileyində



Beynəlxalq konfransda



Türkiyənin Baş naziri R.T.Ərdoğan BTC neft kəməri Dostluq Görüşünün iştirakçılarını salamlayır



Rusiya Federal Məclisinin vitse-spikeri S.Orlova Azərbaycan parlamentində



Azərbaycanın tanınmış ədəbiyyat və incəsənət
xadimləri tez-tez "Sovet Ermənistanı"na
qonaq gələrdi





"Yurddaş"ın şöbə müdirləri diaspor təmsilçilərinin qayğılarıyla maraqlanır




Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatında qaldırılan məsələlər maraq doğurub




Gülüstan sarayında “Azərbaycan”



Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev



qəzetinin 90 yaşı qeyd olunur



yeni kitabı təqdim edir



Telejurnalist ömrüm AzTV-nin "Xəbərlər" proqramına bağlı olub

# VI Fəsil
# MƏNİ BELƏ TANIYIRLAR

**BƏXTİYAR SƏTTAROĞLU**

**Telejurnalist Mənzərə SADIQOVA:**

# "BU, İNSANIN ÖZÜNÜ ÖZÜNDƏN ALAN SƏNƏTDİR"

***İrəvan şəhərində, ziyalı ailəsində dünyaya göz açıb. İxtisası filoloq, peşəsi jurnalistdir. Mənsur şeirlər yazır. Azərbaycan EA-nın Nizami adına Ədəbiyyat İnstitutunun dissertantıdır. Jurnalist fəaliyyətinə "Sovet Ermənistanı" qəzetindən başlayıb. Taleyindən qaçqınlıq faciəsi keçib. "Azərbaycan qadını" jurnalında, Azərbaycan Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzində çalışıb. "Yurddaş"qəzetinin əsasını qoyanlardan biridir. İllərlə sıx əməkdaşlıq etdiyi, çalışdığı Azərbaycan radiosunda populyar verilişlərdən sayılan "Qız qardaşım" radio toplusunun yaradıcısı və aparıcısıdır. Hazırda Azərbaycan Milli Televiziyasının "Xəbərlər" baş redaksiyasında çalışır. Parlament müxbiri kimi televiziya şərhçisi məharətinə görə Az.KİVİ Hİ-nin təqdimatıyla respublika Mətbuat Fondunun Fəxri fərmanı ilə təltif olunub.***

**– Mənzərə xanım, köhnə iş yoldaşı kimi çoxdandır görüşüb söhbət etməmişik. Buna baxmayaraq, içəri girən kimi vaxt qıtlığından şikayətləndiniz. Yəni işiniz o qədər çox olur**

**ki, dostlarla hərdənbir söhbət etməyə də vaxt tapmırsınız?**

– Bəxtiyar müəllim, yaxşı bilirsiniz ki, bu, insanın özünü özündən alan sənətdir. Bəlkə elə peşəmizin xoşbəxtliyi də bundadır, bədbəxtliyi də. Fakt budur ki, əsl jurnalistin özü üçün yaşamaq imkanı yoxdur. Yəni o, yalnız sənət üçün yaşayır, adi bir məqalə, reportaj hazırlayıb ortaya çıxaranadək günlərlə axtarışda olur. Gərək sənətkar özü-özünü təkrarlamaya. Hər hansı formada özünütəkrarlama jurnalist üçün ölüm deməkdir. Ona görə də həmişə axtarış aparır, müxtəlif sahələrdə qələmini sınamalı olursan. Beləliklə saatlar günlərə, günlər aylara calanır, bir də ayılıb görürsən ki, köhnə dostlardan xeyli uzaq düşmüsən.

**– Siz daha çox hansı mövzuda yazmağı xoşlayırsınız?**

– Siyasət. Mən uzun illər ideologiya, mədəniyyət və publisistika sahələrində çalışmışam. Hərdənbir də iqtisadiyyatdan yazmışam. Siyasətə isə hətta siyasətdən yazmaq qadağan olunduğu vaxtlarda da toxunmağa çalışmışam. Çünki elm də, maarif də, mədəniyyət də qlobal baxımdan yanaşanda siyasətin tərkib hissələridir.

**– Mənzərə xanım, bədnam Dağlıq Qarabağ hərəkatı başlanan vaxtlar ermənilər tərəfindən təqib və təhqirlərə, ölüm və işgəncələrə məruz qaldığımız anları xatırlatmaq istəməzdim. Ancaq məsələ ondadır ki, kənd yerlərində ermənilərlə azərbaycanlılar bir-birini yaxından tanıdığından üz-üzdən utanırdı. Biri qorxur, biri çəkinir, bəziləri isə bizə "hörmət edirdi". Amma şəhərdə belə deyildi. Siz Yerevanda yaşayırdınız, azərbaycanlı olduğunuzu da bilirdilər...**

– Bəli, o illərdə başımız çox müsibətlər çəkib. Amma buna baxmayaraq mən öz işimdə idim. Yerevanda işləyir, Bakıya lazımi informasiyanı ötürür, bəzən vacib bildiyim sənədləri şəxsən özüm gətirib o vaxtkı Azərbaycan KP MK-ya təqdim edirdim. Yadınızdadırsa, hətta bir dəfə redaksiyadan çıxanda – "Zvartnos" aeroportu ələ keçirilən gün,

yəni 5 iyul 1988-ci ildə məni öldürmək də istədilər.

**– Bəli. Onda mən də aeroporta gedirdim. “Sovet Ermənistanı” üçün Bakıdan göndərilən materialı götürməli idim.**

– Həmin vaxt əgər özümü bir qədər itirsəydim, elə oradaca öldürəcəkdilər. Ermənicə təmiz danışırdım, o qədər cəsarətlə cavab verdim ki... Onlar fikirləşdilər bəlkə səhv salıblar...

**– Bəs Sizi nişan verən kim idi?**

– Bizim nəşriyyatda, mətbəədə işləyən bir erməni qızı. Sonradan hətta Ermənistan KP MK-nın nümayəndəsinin iştirakı ilə redaksiyamızın yığıncağı səviyyəsində də həmin məsələ müzakirə olundu. Amma üstünü açıb-ağartmamağı məsləhət bildilər. Nə isə.

Bir dəfə şəhərdə Qarabağın Ermənistana birləşdirilməsi üçün imza toplandığını gördüm. Həmin sənədləri Moskvaya göndərəcəkdilər. Qarabağ komitəsinin üzvlərinə özümü erməni kimi təqdim edib dedim ki, bunlardan verin aparım qocalara, evdən bayıra çıxa bilməyənlərə də imzalatdırım. Və həmin sənədlərdən – səsvermə blanklarından bir neçə nüsxə alıb göndərdim Bakıya, Vəzirova çatdırdılar. Blankları verəndə ermənilər məndən sənədlərimi istədilər. Dedim ki, yanımda heç bir sənəd yoxdur. Halbuki çantamı açsaydılar vəsiqəmdən tutmuş pasportumadək hamısı oradaydı. Bundan sonra ünvanımı və telefonumu soruşub öz yanlarında qeyd etdilər. Özgə bir ünvan dedim. Təsadüfən, məni sorğu-suala tutan oğlanlardan biri həmin məhəllənin sakini çıxdı. İnanın ki, az qala ürəyim qırılıb ayaqlarımın altına düşdü. Həmin məhəlləni yaxşı tanıdığımdan çox inandırıcı şəkildə bir az aralıda yaşadığımı bildirib vəziyyətdən çıxdım.

Hələ Sumqayıt hadisəsindən əvvəl erməni ümummilli hərəkatının lideri Paruyr Hayrikyan mənə məktubla “Erməni və Azərbaycan xalqlarına çağırış”larını göndərmişdi. (Erməni mətbuatında da arabir çıxış etdiyimdən imzamı tanıyırdılar). Çağırışda Moskvanın təhriki ilə iki xalq arasında dəhşətli bir qırğının olacağına işarə var idi. Bu sə-

nədləri yığıb Bakıya, Az.KP MK-ya gətirdim, sonra isə tərcümə elədim, həmfikirlərimlə bərabər surətlərini çıxartdırıb Ermənistandakı azərbaycanlıların vəziyyətini şərh edən məktubla birgə SSRİ-nin və bütün müttəfiq respublikaların Ali Sovetlərinə göndərdik. Ümumiyyətlə, bu istiqamətdə çoxlu işlər görmüşük.

...Yerevandasa vəziyyət get-gedə gərginləşirdi. Axşamlar tez-tez "Sovet Ermənistanı" əməkdaşlarının qapılarını döyür, təhdid edirdilər. Əvvəl elə bilirdik ki, həmin təqiblər yalnız bir neçəmizə qarşı yönəldilib. Sonradan məlum oldu ki, bu hamımıza qarşı təşkil olunmuş aksiyadır. Hətta bir dəfə sahə müvəkkili evimizə gəlib xəbərdarlıq etdi ki, heç bir şey aparmadan şəhəri tərk et, yoxsa səni öldürəcəklər. Ona dedim ki, sən sovet milisisən, eləmi? Dedi ki, bəli. Dedim: mən də sovet vətəndaşıyam, bir halda ki, 2 min quldurun 1 qızı öldürməkçün hücuma keçəcəyi sənə bəllidir, zəhmət çək mənim təhlükəsizliyimi qoru!

Qayıtdı ki, bilirsən, mənim o qədər qüvvəm yoxdur gələnlərin qarşısını alam. Bir də ki, sən öldürüləndən sonra mənim tutulub cəzalandırılmağımın səninçün nə əhəmiyyəti var?! Həmin axşamın səhərisi şəhər komendantına müraciət etdim...

**– Bəs bunları niyə bu günə qədər yazmayıbsınız, deməyibsiniz?**

– Hələ Bakıdakı 1988-ci il mitinqlərində mənə dəfələrlə deyirdilər ki, çıx tribunaya danış, sənin sözün daha əsaslıdır, əlində faktların var. Bilirsiniz, kütlə qarşısına çıxmaq böyük məsuliyyətdir, gərək dediyin hər kəlmənin rezonansını düşünəsən.

Və bu məsuliyyəti dərk etdiyimdən həmin təklifdən imtina edirdim. Heç vaxt gözə girmək, irəli çıxmaq, siyasi liderlik iddiasında olmamışam. Sadəcə, vacib saydığım işləri görməyi özümə borc bilmişəm. İndi nəyə nail olmuşam, nə qədər xalqıma xeyir vermişəm, ümumi işimizə kömək etmişəm deyə bilmərəm, amma vicdanım ra-

hatdır ki, vətənin və millətin taleyi həll olunan məqamlarda əlimi yanıma salıb oturmamışam, övladlıq borcumu yerinə yetirməyə çalışmışam. Özü də ölümü gözümün altına alıb o işləri görmüşəm. Həmin günlərdə o qlobal məsələlərin fonunda ölüm nəydi ki... O barədə yazmağa gəlincə isə düşünmüşəm ki, bu mənim taleyimdir, qismətimdir yaşamışam. Yazmağa nə ehtiyac var.

**– Mənzərə xanım, deyəsən xatirələr bizi çox uzaqlara apardı. Onsuz da bugünkü qayğılarımız kifayət qədərdir. Gəlin mövzunu dəyişək. Uzun müddətdir mətbuatda çalışırsınız. Bir jurnalist kimi deyə bilərsinizmi, o vaxt işləmək asan idi, yoxsa indi?**

– Bilirsiniz, jurnalist üçün işləmək, özü də əsl jurnalist kimi işləmək həmişə çətin olub. Çünki əvvəllər demokratiya yox idisə də, jurnalistikada məktəb var idi. Çox təəssüf ki, söz azadlığına geniş meydan verildiyi indiki dövrdə jurnalistika məktəbini itirdik. O vaxtlar nədən yazırsan yaz, bütün sahələrdə stabilləşmiş normalar var idi. Və sənin yazın o normalara cavab verməliydi. Elə bilməyin mən şablon tərəfdarıyam. Jurnalist qələmi əlinə alanda məsuliyyət hiss edirdi. İndi çoxlarında o məsuliyyət yoxdur. Ucuz sensasiya naminə nədən desən yazırlar.

**– Mənzərə xanım, Siz jurnalistikanın bütün mərhələlərini keçibsiniz. Yəni qəzetdə, jurnalda, radioda işləyibsiniz və hazırda da televiziyada çalışırsınız. Bunlar sənətə bağlılıqdan irəli gəlir, yoxsa taleyin qismətindən?**

– Mən jurnalistikanı lap uşaqlıqdan sevirdim. Həmişə məndən soruşanda ki, böyüyəndə kim olacaqsan, deyirdim jurnalist. Gülürdülər ki, atasının kreslosunu əlindən alacaq.

Yazmağa şeirlə başlamışam. Poemam da olub. Məktəbdə divar qəzetinə məqalələr yazırdım. O ki qaldı jurnalist peşəsinə, məncə kamil sənətkar olmaq üçün sahələrin hər birinin spesifikasına dərindən,

özü də praktikada bələd olmaq vacibdir. Adicə jurnalla qəzet jurnalistikası nisbətən yaxın görünsə də, aralarında böyük fərq var. Mən bunu "Azərbaycan qadını" jurnalında işləyəndə duydum. Jurnalda daha çox problematik məsələlərə, köklü mövzulara yer ayrılmalıdır ki, 3-4 ay sonra oxucuya çatanda yazı aktuallığını itirməsin. Qəzetdə deyilən söz isə bu günün sözü olmalı, operativ informasiya yükü daşımalıdır. Radio yığcam, lakonik dili sevir. Televiziyanın isə vizual ünsiyyət imkanları genişdir. Jurnalistikanın mərhələlərini pillə-pillə keçməyimi sənət taleyimin ən böyük uğuru hesab edirəm.

**– Məncə, televiziyanın imkanları daha geniş, əhatəli olsa da, jurnalistin formalaşması üçün qəzet ilkin və yaxşı məktəbdir?**

– Bəli.

**– Mənzərə xanım, elə hal olubmu ki, yazdığınız məqalənin və ya kimləsə müsahibənin sonralar peşimançılığını çəkəsiniz?**

– Qətiyyən.

**– İstəyirsiniz bir misal çəkim. Bax bir il bundan əvvəl televiziyada Əbülfəz Elçibəyin ideyalarını təbliğ edir, müsahibələr götürürdülər. Ə.Elçibəy yox, başqa biri olsun, fərqi yoxdur. Televiziyada deyilən söz sonrakı gündə yaddan çıxa bilər. Amma qəzetdə belə deyil. İndi qəzetdə tərifədiyin adamı bir də görürsən ki, köhnə nömrələrdə tənqid edibsən. Son illər belə şeylər tez-tez olur. Sizin yaradıcılığınızda necə?**

– Əgər jurnalist obyektivdirsə, onun öz mövqeyi varsa, qərəzsizdirsə, o heç vaxt dünən dediyi sözdən bu gün xəcalət çəkməz. Əsas məsələ bundadır. Bir də ki, jurnalistin yazısında zamanın ruhu olmalıdır. Yoxdursa, deməli o, jurnalist deyil. Oxucu da jurnalistin yazısını təhlil edəndə ona mütləq zaman və məkan kontekstində yanaşmalıdır. Jurnalisti, yaxud yazıçını yaşadığı dövrdən, o tarixi şə-

raitdən təcrid edib yaradıcılığına qiymət vermək düzgün deyil.

Jurnalist əsasən də ictimai-siyasi mövzulara ayıq-sayıq yanaşmalı, kor-koranə hansısa partiya və ya şəxsiyyətə xidmət göstərməməlidir. Onsuz da bizdə yaranan partiyaların çoxu ideologiya ətrafında yox, şəxsiyyət ətrafında formalaşıb. Həmin şəxsiyyət reytinqini itirəndə onu təbliğ edən jurnalist də qalır pis vəziyyətdə.

Mən heç vaxt cəbhəçi olmamışam, amma AXC-nin tərəfdarı olmuşam və demokratik hərəkatda ömrümün illərini qoymuşam. Mən bunu necə inkar edə bilərəm? (Halbuki bu gün çoxları inkar edir!) Bu, mənim həyatımdır. Amma AXC hakimiyyətə gələndən sonra onların kadr siyasətini bəyənməmişəm və bu nöqsanı televiziyada tənqid edən birinci şəxs mən olmuşam. Təsəvvür edin ki, həmin material barədə "Gün" proqramı başlananda Prezident Aparatına məlumat çatdırdılar və şəxsən Dövlət katibi Pənah Hüseynovun göstərişi ilə mənim reportajım proqramdan çıxarıldı. Yəni demək istəyirəm ki, AXC-yə rəğbətim həqiqəti deməkdə, gördüyümü yazmaqda mənə mane ola bilməmişdi, iqtidarda olmaları da gözümü qamaşdırmamışdı. Amma yaltaq yazarlar var ki, adamları məhz kreslosuna görə tərifləyir və yıxılana balta çalmağa birinci başlayırlar. Bir həqiqəti iqtidardakılar xüsusilə dərk etməlidirlər ki, yaltağa güvənmək olmaz!

**– Teleşirkətin sabiq sədri Məmməd İsmayıl vaxtilə Milli Məclisdə çıxış edərək bildirdi ki, televiziya dövlətə xidmət edir. Səhv etmirəmsə, həmin verilişi Siz aparırdınız. Bu fikrə münasibətiniz.**

– Dövlət televiziyası dövlətin mənafeyinə xidmət etməlidir, iqtidarda oturanların mənafeyinə yox. Çox təəssüf ki, həmkarlarımız bəzən dövlətin mənafeyi ilə iqtidardakıların mənafeyini qarışdırırlar. Kim iqtidara gəlirsə, səhv-düz bütün hərəkətlərini tərifləyib deyirlər ki, bu, dövlətin mənafeyidir. Şəxsən mənim üçün dövlətin və millətin mənafeyi əsasdır, iqtidardakıların yox. Heç vaxt iqtidardakılara yarınmağa

çalışmamışam. Gördüklərimi, duyduqlarımı qələmə almışam. Çünki vəzifə sahibləri tez-tez dəyişir, dövlət və millətsə dəyişməzdir. Əbədinin mənafeyini müvəqqətiyə qurban vermək olmaz.

**– Bəli. Dövlətin mənafeyi və millətin mənafeyi var ki, bunlar da üst-üstə düşməlidir. Amma son illər tərsinə olub.**

– Bilirsiniz, iqtidara kim gəlirsə, onu tərif kampaniyası başlanır. Bu da işə xeyirdən çox ziyan vurur. Bir misal çəkim. İndiki parlament təzə seçiləndə sessiyalarda bəzi deputatların Heydər Əliyevi sıxışdırmaları hamımızın yadındadır. Onda mən radio üçün hazırladığım süjetdə Heydər Əliyevin böyük təcrübəyə malik dünya miqyaslı siyasətçi olduğunu qeyd edib onun potensial imkanlarından istifadə etməyin, qüvvələri birləşdirməyin zərurətindən yazmışdım. Həmin fikirlər mətndən çıxarılmışdı. Sonra elə oldu ki, süjet ümumiyyətlə efirə getməsi olmadı. Bu yay Gəncə hadisələri ilə əlaqədar Heydər Əliyev Surət Hüseynovla görüşə gedəndə də dövlət televiziyasından təkcə mən getdim, özü də könüllü, Gəncədən qayıdandan sonra elə oldu ki, Heydər Əliyev Ali Sovetə sədr seçildi, bu dəfə fırfıra kimi başladılar dörd yanında gəzişməyə. Belə zirək "jurnalistlərimiz" çoxdur.

**– Mənzərə xanım, bilirik ki, Sizin potensial imkanlarınız genişdir. Qaynar jurnalist fəaliyyətinizlə yanaşı elmi işlə də məşğulsunuz, bədii yaradıcılıqla da. Nə vaxtsa o sahələrdən hər hansına olan maraq jurnalistikanı üstələyə bilərmi?**

– Çətin. Gələcək haqqında proqnoz verə bilmərəm. Amma bu gün mənimçün informasiya sahəsində çalışmaqdan vacib iş yoxdur. Bütün dünya siyasətinə informasiyanın fəal təsir göstərdiyi dövrümüzdə millətimizi düçar olduğu bəlalardan xilas etmək üçün Azərbaycan həqiqətlərini ölkə və dünya ictimaiyyətinə çatdırmaq hər birimizin şəxsi karyerasından qat-qat vacibdir.

**"Vətən səsi" qəzeti**
**5 noyabr 1993-cü il, səh.1-2**

**MİRZƏ YUSİFOĞLU**

# QIZ QARDAŞIM

**Telejurnalist Mənzərə Sadıqovanı belə çağıranlar çoxdur...**

MƏNZƏRƏ. Gözəl addır, deyilmi?! Özü də gözəldir: bəstəboy, şirindil bir qızdır. Aydın nitqi, məlahətli səsi var. Bircə ki... ötkəmliyi olmasaydı.

Niyə belə deyirəm, hə? Çünki onun dilavərliyinə həmişə həsəd aparmışam. Elə lap açığını deyim: paxıllanmışam. Mübahisələrimiz, mərc tutan günlərimiz olub. Hamısında da uduzan mən, udan o! Budur, indi də odlana-odlana (haqqında bir cümlə də yazmayacağıma söz versəm də) portretini cızıram: **telejurnalist Mənzərə Sadıqova şərhçilik məharətinə görə Mətbuat Fondunun Fəxri fərmanını və pul mükafatını (döz, canım, döz görüm) alıb.**

..."Qardaşlığımız" "düşmənçiliyimiz"dən başlayıb. Yerevanda "Sovet Ermənistanı" qəzetinin redaksiyasından. Mənzərə müəllimlikdən korrektorluğa gəlmişdi. Od parçasıydı. İşdən beşəlli yapışmışdı. Ondakı bu həvəsə elə darılırdım ki! Əlacım sancmağa qalmışdı: "Filoloqdan qəzetçi olmaz, belə üzülmə, xanım". Söz altda qalandımı heç: "Sən öz halına yan. Biz elə anadangəlmə jurnalistik" (uzun müddət "Sovet Ermənistanı"nda şöbə müdiri işləmiş atasına işarə edirdi).

Od parçası ürəyindəki atəşə bələdmiş. Çox keçmədi ki, korrektorluqda da "müəllimliyə" başladı. Həm də şöbələri "yazı atəşinə" tutdu. "Yuxarıya" – ədəbi işçiliyə çəkdilər.

Bu da bəs deyilmiş. Bir də xəbər tutduq ki, Bakıya gedib-gəlir, mövzu götürüb – elmi iş yazır. Elə o gündən Mənzərənin gücünə hamılıqla inandıq, "qız qardaşımız" bilib, qulluğunda dayandıq...

Bir günsə...Taleyimizə didərginlik payı düşdü. Bakıya pənah gətirdik. Bir müddət çoxumuzdan səs-soraq çıxmadı. Yenə də qız qardaşımız! Radio dalğalarından: ədəbi-bədii, gənclər üçün proqramlardan eşitdik səsini. Az sonra isə "Mənzərə Sadıqova" adı yeni bir verilişin, "Qız qardaşım" (!) radiotoplusunun qanadlarında süzdü.

Budur, artıq ikinci ildir ki, qız qardaşımın yaradıcısı, bələdçisi olduğu bu maraqlı veriliş yurdumuzu qarış-qarış dolaşır. Cəbhədə vuruşan, tarlada çalışan, həbsxanada yatan ana və bacılarımızın dərd-sərindən, ibrətli taleyindən danışır.

Mənzərənin qəzet səhifələrindən ayaq açıb radio dalğalarında püxtələşən jurnalistlik bacarığı bu gün mavi ekrandan daha qabarıq görünür. İnformasiya kimi ağır bir janr sahəsində çalışır. Milli televiziyamızın ən çox sayılıb-seçilən "Günün xəbərləri" proqramının parlament müxbiri olmaq sizə asan gəlməsin. Nə yaxşı ki, Mənzərə üzərinə düşən məsuliyyəti gözəl dərk edir. Əgər belə olmasaydı, onun Milli Məclisin iclaslarından hazırladığı reportajlar başqalarınınkından seçilməzdi.

Özünəməxsus dəst-xətti var. Bir qayda olaraq aydın və səlis danışır. Baş vermiş hadisəni cəsarətlə, obyektivcəsinə şərh etməyə can atır. Hər hansı qanunvericilik aktının mahiyyətini açıqlamaqda, xalqa nə verə biləcəyini saf-çürük etməkdə məharətinə söz ola bilməz.

...Hərdən qız qardaşımdan söz çəkirəm: "Filoloq ola-ola qəzetdən yapışdın, indi də radiodan, televiziyadan tutubsan. Bəs sonra?... "Sözümü tamamlamağa qoymur: "Öz dərdinə qal. Hər şeyi ölçüb-biçmişəm. Gələcəkdə mütləq ixtisasıma qayıdacağam – elmi işi-

mi davam etdirəcəyəm, bədii yaradıcılıqla məşğul olacağam...” – deyir. Sözlərinə inanmasam da üzə vurmuram, ürəyimdə deyirəm: Təki sağlıq olsun, qız qardaşım!”.

**“Ekran-efir” qəzeti**
**13 avqust 1993-cü il, səh. 2**

**Mirzə Yusif “Könül söhbətləri”,**
**Bakı - 2004, səh.193-194**

**ZÖHRƏ ƏSGƏROVA**

# QIZ QARDAŞIMIZ

İnsan öz tale ulduzu altında doğulduğu gündən arzularının ünvanına tələsir. Bu tələskənlik, gərginlik içində özümüzdən çox özgələrin dərd və qayğılarının selinə düşürük. Həssas qəlbli adamların budur həyat məramı. Başqalarının sevinci onun ən böyük mükafatıdır. Belə tanıyıb, təbiətinə bələd olduğumuz Mənzərə Sadıqova öz jurnalist fəaliyyətində zamanın nəbzini tutan, hər birimizi narahat edən suallara cavab verə bilən maraqlı yazıları ilə seçilir, yadda qalır. Onu da qeyd edək ki, qələmlə silahlanmış Mənzərə Sadıqovanın adı, sorağı özündən əvvəl Bakıya gəlmişdi. "Ədəbiyyat və incəsənət", "Azərbaycan müəllimi" və digər qəzetlərdə dərc olunan məqalələri onu Azərbaycan oxucularına tanıtmışdı. Ermənistanda yaşayan soydaşlarımız Mənzərə xanımın tütünçü Narıngül Qarayevaya həsr olunmuş məqaləsini "Azərbaycan qadını"na göndərərək arzularını bildirmişdilər. Bu əmək qəhrəmanının hünərinə həsr olunmuş məqalə səmimiyyəti, hərarətiylə jurnalın redaksiya heyətinin diqqətini cəlb etdiyindən "Sovet Ermənistanı" qəzetinə məktub göndərərək Mənzərə Sadıqovanı "Azərbaycan qadını" ilə əməkdaşlığa dəvət etmişdilər. Bəlkə də elə bu səbəbdəndir ki, Bakıya köçdükdən sonra Mənzərə xanımın ürək qızdırıb üz tutduğu ünvan və ilk iş yeri "Azərbaycan qadını" jurnalının redaksiyası oldu.

Nə qədər ki müharibə odu, dəhşəti torpaqlarımızı qarsıma-

mışdı, Mənzərə xanım zəhmət adamlarının hünərinə, bacarığına həsr edirdi yazılarını.

O, yaxın keçmişi, Ermənistandan məcburi köçdüyü günləri bir daha xatırlayanda qeyd etdi: – Torpaqlarımıza göz dikən ermənilərin əlifbasına belə baxa bilmirdim o qaçhaqaçdan sonra. Mənim kimi on minlərlə azərbaycanlı öz doğma torpağından köçürülüb qaçqın adıyla damğalansa da, bu acı tale ilə mübarizə aparmaq oldu məqsədim.

Mənzərə xanımın həssas, zərif qəlbindən süzülən səmimi, bədii yazılara heç vaxt oxucular, dinləyicilər laqeyd qala bilmirlər. Çünki bu səmimiyyətdə bərli-bəzəkli, şişirdilmiş faktlar yoxdur, yalnız inkarolunmaz həyat həqiqəti var. Həqiqət onun üçün həyatda ən yüksək meyardır.

Mənzərə Sadıqovanı tamaşaçılar televiziyadan parlament müxbiri kimi də tez-tez apardığı reportajlardan tanıyırlar. Milli Məclisin iclaslarından hazırladığı verilişləri xüsusilə yaddaqalandır. Dərin analitik təhlillər, qanunların, millət vəkillərinin qanunvericilik fəaliyyətinin şərhi və onlara obyektiv münasibət təqdirəlayiqdir. Müxbir–vətəndaş kimi hadisələrə, Məclisdə vəzifəsindən asılı olmayaraq çıxışlara onun öz münasibəti var. Siyasi mövzularda rəsmi qəbullardan hazırladığı reportajlarda Mənzərə xanımın dəsti-xətti aydın seçilir.

Mənzərə Sadıqova Bakıya gəldiyi gündən bir çox mətbuat sahələrində çalışmış, "Yurddaş" qəzetinin əməkdaşlarından biri kimi maraqlı problematik məqalələrlə çıxışlar etmişdir. İstedadlı jurnalistin radio fəaliyyəti ayrıca söhbətin mövzusudur.

Əyninə əsgər paltarı geyib vətənin müdafiəsinə qalxmış Ceyran Soltanmuradova (Şuşa), Eyzəngül Kazımova (Qubadlı), Rüxsarə Cumayeva (Ağdam) kimi qeyrətli el qızlarımız barədə söhbətləri, Şəhidlər Xiyabanında dəfn olunan ilk döyüşçü qız Rəhilə Orucovaya, düşmən əlinə keçməmək üçün axırıncı gülləsini özünə vuran Qaratel Hacımahmudovaya, cəsur jurnalistlər Salatın Əsgərovaya, Çingiz Mus-

tafayevə, Alı Mustafayevə və başqalarına həsr olunmuş radiooçerkləri gənclərə mübarizə əzmi, vətənpərvərlik hissləri aşılayıbdır. Mənzərə xanım "Qız qardaşım" radiotoplusunu 3 ildir ki, məharətlə aparır. Ondan radiotoplunun məhz niyə "Qız qardaşım" adlandığını soruşanda gülümsündü: "Sovet Ermənistanı" qəzetində əməkdaşların içində yeganə jurnalist qız mən idim. Ona görə də məni "Qız qardaş" deyə çağırırdılar. Nədənsə bu adı çox sevirəm. "Qız qardaşım" radio toplusunda müxtəlif həyat tərzi ilə bir-birinə bənzəməyən qız və qadınlarımızın taleyini araşdırır, onların uğurları ilə sevinir, kədəri ilə qəmlənirik. Lakin bu qəm passiv, bədbin bir hiss deyil. Hər verilişdən sonra Moskvadan, Baltikyanı ölkələrdən, Sankt-Peterburqdan, Orta Asiyadan və əlbəttə ki, respublikamızın müxtəlif guşələrindən toplumuza onlarla məktub gəlir. Azərbaycanlı qızlarımızın milli adət-ənənələrə müasir münasibətindən, harada yaşamasından asılı olmayaraq millətimizin adını uca tutmağından, bizi düşündürən bir çox problemlərdən bəhs etməklə yanaşı dünya qadınlarının həyat tərzindən, türk xalqlarının, ümumən Şərq dünyasının yetişdirdiyi görkəmli qadın şəxsiyyətlərdən söhbət açmağımız məncə, dinləyiciləri daha çox cəlb edir.

Mənzərə xanımın "cəmiyyət və şəxsiyyət" kontekstində araşdırıb oxuculara, dinləyicilərə təqdim etdiyi mövzular öz aktuallığı ilə diqqəti cəlb edir. Qız qardaşımızın çılğın, səmimi təbiətinə bənzəyir yazıları. Kövrək qəlbi coşub-daşanda şairləşir, bir anlıq müharibənin acısını unudub dünyanı yeddi rəngdə görür, insanlar gözündə nağıllaşır. Bu nağıllar dünyası onu ömrünün hansı günlərinə aparır? Axı uşaqlıqdan şeir yazırdı, poeziya həvəskarıydı. Bir də axı torpağımızın dilbər guşələrinə, mənzərəsinə heyran olmamaq, ilhamlanmamaq mümkündürmü?! Təbiət gözəllikləri qarşısında Allahın qüdrətinə, onun yaratdığı kamil əsərə necə qiymət verməyəsən?! Məktəbdə elə yığıncaq, məclis olmazdı ki, şeirlə çıxış etməsin. Xüsusilə S.Vurğunun "Azərbaycan" şeirini söyləyəndə sanki qədim torpağı köksünə sıxıb ona öz övlad məhəbbətini şairin diliylə odlu-alovlu səslə etiraf edirdi. Bu doğma

etiraf isə indi efirdə daha çox və tez-tez səslənir.

Jurnalist Mənzərə Sadıqova parlament müxbiri kimi televiziya şərhçisi məharətinə görə respublika Mətbuat fondunun Fəxri fərmanı ilə, "Qız qardaşım" radio toplusuna görə Azərbaycan Kütləvi İnformasiya Vasitələri İşçilərinin Həmkarlar İttifaqının "Azərbaycan bayrağı" fəxriyyə diplomu ilə təltif olunub. Qız qardaşımıza yeni uğurlu yaradıcılıq səhərləri arzulayıram. Səhərlərin birində qələbə müjdəsi, sevinc göz yaşı nəsibimiz olsun və qız qardaşımızın dilində, qələmində sülh, əmin-amanlıq arzuları ümidlə doğulsun.

Mənzərə xanım, haqq səsiniz həmişə efirdə ucalsın.

**"Azərbaycan qadını" jurnalı**
**№ 1-2 1994-cü il, səh.28**

**ALMAZ ÜLVİ**

# SƏN ÖZÜN ŞEİRSƏN...

Mənzərə xanımı ilk dəfə Axundov adına Dövlət kitabxanasında görmüşdüm. 1985-ci il olardı. Kitabxananın biblioqrafiya şöbəsinin əməkdaşı – gözəl insan, qayğıkeş dost, həssas qəlbli vətəndaş kimi sevdiyim Səadət xanımın tanışlıq üçün dediyi sözlər indi də yadımdadır.

– Mənzərə xanım İrəvandan gəlib. Akademiyanın Ədəbiyyat İnstitutunda dissertantdır. Elmi iş müdafiə etmək istəyir. Çox zəhmətkeş, ağıllı qızdır. Dediyində inadcıldır. Özünə qarşı çox tələbkardır.

Elə o vaxtdan həmişə gözlərimlə o qoçaq qızı axtarmışam. Müxtəlif qəzet-jurnallarda imzasını görəndə yazılarına diqqət etmişəm. Mənzərə Sadıqova Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini bitirib doğma İrəvana qayıtmışdı. Bir müddət müəllim işləsə də, yaradıcılığa olan həvəsi onu "Sovet Ermənistanı" qəzetinə gətirib çıxarmışdı. Redaksiyada uzun illərin jurnalistləri sırasında özünə yer tapdı, imzasını tanıtdı, oxucular qazandı. Hələ bununla kifayətlənməyərək dissertasiya üzərində işləmək marağını da yəqinləşdirmişdi. Çətin bir mövzu üzərində işləyirdi. Gərək ki, Azərbaycan dram əsərlərinin erməni səhnəsində oynanılmasına həsr olunmuş elmi iş idi. O, çətinliklə olsa da İrəvan dövlət arxivlərini bir-bir araşdırmış, bütün materialları əldə edə bilmişdi. Hər ilki növbəti görüşümüzdə tədqiqatından danışır, dəyərli faktlar topladığını bildirirdi. Demək olar ki, işini tamamlamışdı və tezliklə müdafiəyə başlayacaqdı. Onun ciddiyyəti, tələbkarlığı məndə belə bir inam oyatmışdı ki, Mənzərənin toxunduğu mövzu yüksək səviyyədə başa çatmalıdır. Və günlərin birində

Qarabağ məsələsi ortaya atıldı. Qarabağın qara günləri İrəvan torpağından ayaq açdı. Orada yaşayan bütün azərbaycanlılar yurd-yuvalarından perik salındılar. Mənzərə xanım da yurdundan, evindən, işindən didərgin olunmuşdu. Hər şey arxada qalmışdı.

Təzədən binə salmalıydı – ev-eşik, dolanışıq, iş-güc qurmalıydı. Hər şeyi bünövrədən başlamalıydı. Çox illərin yorğunluğuyla, ağrısıyla hər şey yoluna düşdü. Amma necə... Bir dəfə Mənzərə xanım məni evlərinə qonaq dəvət etmişdi. Anası Rübabə xanım gözəl süfrə açmışdı, plovun ətri liftəcən gəlirdi. Ananın narahatçılığı hər gün yadımdadır: "Allah hamını qorusun, mənim bircə balamı da onların içində. Bir-birinizdən muğayat olun. Mənzərəni tək qoymayın."

Rübabə ana qızının yüz oğula dəyəsi ağlı, fəhmi, savadı, qoçaqlığı, mərdliyi olduğunu bilsə də, onu hamıya etibarlayırdı.

Mənzərə xanım didərgin həyatına öyrəşdi. Yenə də yaradıcı işə bağlandı. "Azərbaycan qadını" jurnalındakı fəaliyyəti unudulmazdır. Radiodakı vətənpərvər yaradıcılığı lentin yaddaşında çox güman ki, Qızıl Fondda saxlanır. Nəhayət, televiziyaya – AzTV-nin "Xəbərlər" proqramına gəlib çıxdı. Talenin işidir. İndi Azərbaycanda bu adı hamı tanıyır: Mənzərə Sadıqova. Onun səsi eşidiləndə hər kəs, bütün tamaşaçılar ciddi, səmimi bir informasiyanı eşidəcəklərinə əmin olurlar. Mənzərə xanım bir vaxtlar qəzet-jurnalda özü üçün oxucu auditoriyası topladığı kimi, televiziyada da ciddi tamaşaçı məhəbbəti qazandı.

Nəhayət o, 1995-ci ildə çoxdan tamamladığı elmi işini yenidən sahmanlayıb Az.MEA-nın Nizami adına Ədəbiyyat İnstitutunda müdafiə etməyi qərarlaşdırdı. Sənədlərini təqdim etmişdi. ...O gün Mənzərə çox həyəcanlı idi. Bir az narahatçılıq keçirirdi. Mövzusu çətin iş idi – onu qəbul edənlər, etməyənlər iclas otağına yığışmışdılar. İndiki kimi gözümün qabağındadır. Mənzərə tribunada çox alovlu, bir az da ciddi, tələbkar görkəmdə dissertasiya işini müdafiə edirdi. Sonra opponentlərin iradlarına eyni səviyyədə cavab verdi. İnsafən opponent-

ləri Mənzərənin müdafiə etdiyi sahənin materiallarına bələd olduqlarından işin diqqətəlayiqliyini dəyərləndirməkdən çəkinməmişdilər. Amma yer-yerdən haqsız iradlar, hücumlar. Mənzərə qətiyyən əhvalını pozmurdu. Məntiqli cavablarıyla hamını susdururdu. Nəhayət çətinliklə olsa da o, qalib gəldi.

Filologiya elmləri namizədi Mənzərə Sadıqova həm də insanpərvərlikdə əvəzsizdir. Yadımdadır, 1991-ci ildə Aktyor evində bir tədbir keçirilirdi. AzTV-dən çəkiliş qrupu dəvət olunmalıydı. Amma elə bil qəsdən bütün yollar bağlanmışdı. Mənzərə xanım onda həm də radioda işləyirdi. Onun qətiyyətli tərpənişiylə hər şey yoluna düşdü. O tədbir çox yüksək səviyyədə TV-də dəfələrlə işıqlandırıldı. Burada onun yoldaşlıq münasibətindən də irəlidə vətənpərvərlik mövqeyi dayanmışdı.

İllər ötür. Zaman dəyişir. Amma işıqlı, zəhmətkeş insanlar daha da mətinləşir, nurlanırlar. Rəhmətlik Rübabə ananın ürək çırpıntısıyla dediyi – "Allah hamını qorusun, mənim tək balamı da onların içində" – sözlərini həmişə xatırlayıram. Bəlkə də bu yazı o ana ruhunun diqtəsiylə araya-ərsəyə gəldi.

Mənzərə xanım Sadıqova illər, günlər kimi hər gün qaçha-qovdadır. İstəyərdim ki, o da bir hovur dayansın və bir azca da özü, öz taleyi üçün yaşasın. El-oba, vətən taleyini hər şeydən üstün tutanlar nədənsə özlərini həmişə unudurlar. Onlara da Allah yardımçı olur.

Sənə şərqi qoşum, şeir nədir ki,
Ovunsun ürəyin, ovunsun təki.
Sən özün şeirsən, elə şeir ki
Şairlər heyrətdən ay həsəd çəkir.

**Almaz Ülvi "Müharibə ağrılarım",**
**Bakı – 2005, səh. 347-349**

**SƏNUBƏR**

# "QIZ QARDAŞIM"IN SÖZÜ HƏLƏ ÇOXDUR

Bu günlərdə Azərbaycan radiosunun ən populyar verilişlərindən sayılan "Gənclik" studiyasının "Qız qardaşım" radio toplusu gənc nəslin hərbi vətənpərvərlik tərbiyəsində oynadığı müstəsna rola görə və efirə çıxmasının 2-ci ildönümü münasibəti ilə Azərbaycan Kütləvi İnformasiya Vasitələri İşçiləri Həmkarlar İttifaqının "Azərbaycan bayrağı" fəxriyyə diplomu ilə təltif olunub.

Efirə çıxdığı ilk gündən müxtəlif ictimai-siyasi, sosial problemlərimizlə bağlı mübariz çıxışları, taleyimizə yazılanların hər üzünü gənclərimizin dili ilə açıqlayaraq mənəvi dünyamıza yol açan maraqlı söhbətləri ilə qəlbimizi ovsunlayan "Qız qardaşım"ın redaktoru və aparıcısı, televiziyanın "Xəbərlər" baş redaksiyasının şərhçisi **Mənzərə Sadıqovadır.**

"Qız qardaşım" necə dünyaya gəlib, hansı qayğıları, nə kimi planları və perspektivləri var? Bu suallara Mənzərə xanım belə cavab verdi:

– Qadınların müxtəlif problemləri əvvəllər də yazılarımın əsas mövzusu olub. Ona görə də Teleradio Şirkətinin keçmiş sədr müavini Şamil Məcidovun qızlar üçün xüsusi veriliş hazırlamaq barədə təklifi

mənim ürəyimdən xəbər verdi. Demək istədiyim söz çox idi və indi də qurtarmayıb. Bu iki ildə indiyə qədər efirdən və ekrandan eşidilməyən bir çox mənəvi məsələlərdən, müxtəlif sosial bəlalara məruz qalmış gənclərimizin taleyindən, qadınlarımızın qayğılarından söz açmış, arzu və istəkləri ilə oxucuları tanış etmək üçün müzakirələr, diskussiyalar təşkil etmişik, onları düşündürən, narahat edən bir çox məsələlərin həllinə çalışmışıq.

Bundan başqa, Şərqin yetişdirdiyi bütün görkəmli qadın şəxsiyyətləri dinləyicilərimizə tanıtmağı özümüzə borc bilirik. Biz bu ənənəni davam etdirməklə yanaşı, müasir qadın xadimlərimizi və qəhrəmanlarımızı da unutmuruq. Eyni zamanda dünyanın müxtəlif ölkələrində yaşayan qadınların həyat tərzi və məişəti haqda da məlumat veririk. Onu da qeyd edim ki, elimizin-günümüzün bu çağında bütün söhbətlərimizin əvvəli də, sonu da Vətənin qeyrətini çəkən, torpağımızın düşmənlərdən təmizlənməsi üçün canlarından keçən igid oğullarımızın, qızlarımızın, bu gün cəbhə bölgələrində qəhrəmanlıq göstərən gənclərimizin taleyinə bağlıdır...

**"Səhər" qəzeti**
**16 fevral 1994-cü il, səh. 1**

ZEYNAL ƏLİOĞLU

# "QAÇQINLIQ ALT-ÜST ETDİ HƏR ŞEYİ..."

Əziz oxucu, fotoşəkildən sizə baxan qızı tanıdınızmı? Diqqətlə baxın, özü də tez-tez televiziyada nəzəri cəlb edən, maraqlı reportajlar, müxtəlif verilişlər aparır. Milli Məclisdən də həmçinin. Düz tapmısınız, Mənzərə Sadıqovadır. Mənzərə xanım telejurnalistdir. Onun məlahətli səsi, aydın nitqi, xüsusi şərhçilik məharəti vardır. Özü də sanki ekran üçün yaranıb. Məhz göstərilən cəhətlər telejurnalist üçün zəruri və vacibdir.

Mənzərə xanımla üzbəüz əyləşmişik. O, şirin dillə söhbət edir, mənsə çox həvəslə dinləyirəm. Gözlərim önündə onun keçdiyi yol sanki vərəqlənir. Onun həyatının yazılmamış kitabının hələ açılmamış səhifələri aynada görünürmüş kimi canlanır. Arada suallarla müdaxilə edirəm onun şirin, bir az da əndişəli, kədərli söhbətinə... Söhbətimizin bəzi anları ilə oxucuları tanış etmək istəyirəm.

– "Əslimiz-nəslimiz qədim İrəvandandır. Mən də orada dünyaya gəlmişəm. İrəvan şəhərində Gedər çayın sahilində böyük bağ-bağçamız, ikimərtəbəli geniş, rahat ev-eşiyimiz vardı. Atam (Hüseyn kişi – Z.Z.) jurnalist olub, təqaüdə çıxana kimi "Sovet Ermənistanı" qəzetində işləyib.

Orta məktəbi İrəvanda bitirmişəm. Qızıl medala düşürdüm. Vermədilər, hansı erməni razı olardı ki, onların öz uşaqları qala-qala türk uşağı (azərbaycanlı – Z.Z.) qızıl medal alsın?! Bu, məni həvəsdən salmadı. 1972-ci ildə Bakıya gəlib Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinə daxil oldum.

...Uşaqlıqdan şeirlər yazar, məclislərdə şeirlər oxuyar, ictimai işlərdə yaxından iştirak edərdim. Elə bir məclis, şənlik olmazdı ki mən orda şeir söyləməyim. Səməd Vurğunun "Azərbaycan" şeiri dilimin əzbəri idi. Bir tədbir belə həmin şeirsiz keçmirdi. Elə buna görə də məni həm məktəbdə, həm də kənarda çox vaxt adımla deyil, "Azərbaycan" deyə çağırardılar...

...Universiteti bitirib qayıtdım İrəvana. Bir müddət işsiz qaldım. Həmin müddətdə İrəvandakı erməni, rus və Azərbaycan dillərində çıxan qəzetlərlə əməkdaşlıq etdim. Nəhayət, "Sovet Ermənistanı" qəzetinə korrektorluğa işə düzəldim. Orada qayda belə idi: jurnalistliyə başlayan hər bir adam işə korrektorluqdan başlamalıydı, sonra qabiliyyətinə görə redaksiyada yer boşaldıqca pillə-pillə qalxırdı...

Elmi işə çox həvəsim vardı. Universitetdə oxuyanda da fikrim aspiranturaya daxil olmaq idi. Təhsilimi başa vuranda Bakıda qalsaydım bu yolu davam etdirəcəkdim. Lakin müəyyən səbəbdən İrəvana qayıtmalı oldum. Elmi axtarışlara həvəs məni rahat buraxmırdı. "C.Cabbarlı dramaturgiyası erməni ədəbi-mədəni mühitində (1920-1960-cı illər)" mövzusu üzərində (təsdiq olunmamış – Z.Z.) işləməyə başladım boş vaxtlarımda. Yerevandakı arxivlərdən topladığım materiallar, o cümlədən erməni sovet dramaturgiyasının banisi sayılan tanınmış dramaturq Derenik Demirçyanın seçilmiş əsərlərindən oxuduğum bir fikir bu mövzunu işləmək zərurətinə dair qənaətimi möhkəmləndirdi. O yazırdı ki, "mən Bakıda C.Cabbarlının "Sevil"inə baxdım və çox təsirləndim, mən də bu yolu seçdim".

Bakıya gəlib çox hissəsini işləyib qurtardığım həmin işi – möv-

zunu Ədəbiyyat İnstitutuna təqdim etdim, xeyli götür-qoy etdilər, nəhayət razılaşdılar. Minimumları verdim, tezislərim, məqalələrim elmi kitablara daxil edildi, gənc alimlərin konfranslarında məruzələrim dinlənildi və s. 1989-cu ildə C.Cabbarlının 90 illik yubileyinə kimi müdafiə etmək istəyirdim. İşin qızğın çağında ermənilərin "Qarabağ məsələsi" çıxdı ortaya. Məlum köçkünlük faciəsi başlandı. Qaçqınlıq hər şeyi alt-üst etdi...

Bakıya pənah gətirdik. Bir müddət erməni mətbuatını, radio-televiziyasını izləyir, onların Azərbaycana qarşı qərəzli yazılarını, dediklərini tərcümə edib azərbaycanlı, rus oxuculara çatdırmaqla məşğul olurdum. Ermənilərin fikri başqa idi. Onların azərbaycanlıları İrəvandan köçürtməklə kifayətlənməyəcəkləri aydınca hiss olunurdu. Bu vacib cəhətə ilk günlər o qədər də əhəmiyyət verilmədiyindən vəziyyət gəlib bu yerə çıxdı, Azərbaycanın ərazisi erməni təcavüzkarları tərəfindən zəbt edildi, adamlar öldürüldü, kəndlər yandırıldı... Düşmən adi düşmən deyil, güclü arxası olan tarixi düşməndir, qisasçıdır, qatildir, beynəlxalq canidir..."

Gənc Mənzərə xanım İrəvanda yaşadığı ömrünün qısa bir müddətində nə qədər haqsızlıqların şahidi olub, didərginlik dövründə isə kiprikləri ilə od götürüb. Bütün bunlar nəinki bir yazıya, hətta onlarca yazıya belə sığışan deyil. Onun Milli Məclisdən hazırladığı reportajlarda da bu ağrı-acı hiss edilir. Mənzərə xanım həmin ağrı-acıları reportajlara qataraq Azərbaycan xalqını, onları Milli Məclisdə təmsil edən millət vəkillərini ayıq-sayıq olmağa, şəxsi mənafeyi bir kənara qoyub, xalqımızı ermənilərin soyqırımından xilas etməyə çağırır...

M.Sadıqovanın bu xidməti Azərbaycan Kütləvi İnformasiya Vasitələri İşçiləri Həmkarlar İttifaqının təqdimatı əsasında mükafatlandırılmışdır. Respublika Mətbuat Fondunun Fəxri fərmanına və pul mükafatına layiq görülmüşdür.

**"Addım" qəzeti**
**2 sentyabr 1993-cü il, səh. 3**

# UĞUR OLSUN, "QIZ QARDAŞIM"!

**Gənc nəslin hərbi vətənpərvərlik tərbiyəsində oynadığı müstəsna rola görə və efirə çıxmasının 2-ci ildönümü münasibətilə Azərbaycan radiosu "Gənclik" baş redaksiyasının "Qız qardaşım" radio toplusu (redaktoru və aparıcısı Mənzərə Sadıqova, rejissoru İslam Əziz, musiqi tərtibçisi Lətafət Rafiqqızı, operatoru Cavad Mehbalıoğlu, diktor Eldost Bayram) Azərbaycan Kütləvi İnformasiya Vasitələri İşçiləri Həmkarlar İttifaqının "AZƏRBAYCAN BAYRAĞI" fəxriyyə diplomu ilə təltif edilmişdir.**

Düz iki il öncə, 1992-ci il fevral ayının 13-də "Görüşünüzə "Qız qardaşım" gəlib" – müjdəsi səsləndi efirdən. Azərbaycan Dövlət Teleradio Verilişləri Şirkətinin əməkdaşları Şamil Məcidovun (o vaxt şirkət sədrinin müavini), İntiqam Mehdizadənin ("Gənclik" baş redaksiyasının rəhbəri), Mənzərə Sadıqovanın təşəbbüsü və ağır zəhməti hesabına araya-ərsəyə yetən "Qız qardaşım" dinləyicilərinə üz tutanda dilinə gələn ilk sözü bu oldu:

– Ulu babalarımız qız övladlarını "qız qardaşım" adlandırıb, ulu nənələrimiz "erkək tinətliyəm, olsam da qadın" – deyiblər. "Qız qardaşım" proqramında gənc qızlarımızın, gəlinlərimizin bugünkü problemlərindən danışacağıq. Qabiliyyətini Vətənin rifahına həsr edənləri sizlərə tanıdacaq, döyüş səngərlərində kişilərlə çiyin-çiyinə torpağımızı qoruyanlardan söz açacağıq. Mənəvi aşınmanın gücləndiyi indiki dövrdə insan taleyi, əxlaq məsələləri əsas mövzularımızdan olacaq.

Bu xoş məramla Azərbaycanın efir səmasına atılan "Qız qardaşım" bir qanadıyla "atılmış" körpələr ordusuna, məhbəslərə gömülmüş qadınlara, mənəvi köməyə ruhən ehtiyac duyanlara dayaq durub, o biri qanadında azadlığımız yolunda sağlamlığını itirib əlil olan soydaşlarımızın istək və arzularını daşıdı; gözümüz görə-görə görməzliyə vurduğumuz problemlərin sosial köklərini "caynağıyla" didib aşkarlaya-aşkarlaya, bir gözünə uğurlarımızın sevincini, bir gözünə yurdumuzun dərd-ələmini yığdı; müsibətlərimizi dünyaya car çəkə-çəkə qan yaddaşımızdan süzülüb gələn tarixi gerçəkliklərimizi dilə gətirdi, Şərq qadınının, türk analarının – Aləmşah bəyimin, Şəmiramın, Süyüm Bikənin örnək əməllərindən söhbət açdı, öz ətrafına Baltikyanı ölkələrdən, Orta Asiyadan, Sankt-Peterburqdan, Moskvadan, doğma respublikamızın müxtəlif bölgələrindən, Borçalı elindən pərəstişkarlar topladı...

Və nə xoş ki, ulu Tanrının kəramətindən, radiotoplunun zəhmətini çəkənlərin canıyananlığından "Qız qardaşım" vədinə xilaf çıxmadı, dilinin qüdrəti, sözünün kəsəri azalmadı, büdrəmədi, eldən güc alıb bütün əzəmətiylə dikəldi, zamanın ruhundan doğub zamanın özünə gərək oldu.

Uğur olsun, "Qız qardaşım". Qismət olsun səni ağbirçək zirvəsində də bugünkü kimi əhdinə vəfalı, məramına sadiq görək.

**"Ekran-efir" qəzeti**
**11 fevral 1994-cü il, səh. 5**

# GÖRÜŞƏNƏDƏK!..

Bizi "YaşaM"da qovuşdurmuş yolun ayrıcına gəldik, ƏZİZ OXUCU! Qarşında bir daha imtahan verdim. Bu sınaqdan necə çıxdım, bilmirəm. Yadında qalan bir sözüm oldumu? Qəlbini titrədən duyğularla rastlaşdınmı? Bu həyat dastanında tanış mənzərələrlə qarşılaşdınmı? Hansısa epizodlarda "bu sanki mənim həyatımdır" dedinmi? Səni düşündürən-daşındıran fikirlər oldumu? Yeni bir ideya verdimi sənə oxuduqların? Əgər bu suallardan hansısa müsbət cavab aldısa, deməli, Mənzərə Sadıqova xoşbəxt YAZARdır.

Hamınıza xoşbəxtlik diləyi ilə, növbəti kitabın səhifələrində görüşənəcən!..

**«Elm və təhsil» nəşriyyatının direktoru:**
**professor Nadir Məmmədli**

*Dizayner:* **Famil Hüseynoğlu**
*Cild dizaynı:* **Vəfadar Farizoğlu**
*Korrektor:* **Jalə Tofiqqızı**
*Texniki redaktor:* **Rövşanə Nizamiqızı**

**Yığılmağa verilmişdir: 25.04.2011**
**Çapa imzalanmışdır: 17.09.2011**
**Şərti çap vərəqi 26,7. Sifariş № 228.**
**Kağız formatı 60x90 1/16. Tiraj 1000.**

**Kitab «Elm və təhsil» nəşriyyat-poliqrafiya müəssisəsində**
**hazır diapozitivlərdən çap olunmuşdur.**
**E-mail: elm_ve_tehsil@mail.ru**
**Tel: 497-16-32; 050-311-41-89**
**Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.**

